AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

# MULTİKULTURALİZMƏ GİRİŞ

**Dərs vəsaiti**

*Mingəçevir Dövlət Universiteti Elmi Şurasının
08 yanvar 2018-ci il tarixli iclasının qərarı ilə (pr.№ 04)
çapa tövsiyə olunmuşdur.*

**Baki**
**Mütərcim**
**2018**

***Elmi redaktorlar:***

**Qəzənfər Şirin oğlu Kazımov** *– AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Azərbaycan dilinin tarixi şöbəsinin professoru, filologiya elmləri doktoru, əməkdar elm xadimi*

**İlham Mehdixan oğlu İsmayılov** *– siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*

***Rəyçilər:***

**İsmayıl Babaş oğlu Kazımov** *– AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Müasir Azərbaycan dili şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor*

**Qəzənfər Şirin oğlu Kazımov** *– AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Azərbaycan dilinin tarixi şöbəsinin professoru, filologiya elmləri doktoru, əməkdar elm xadimi*

**Şirxan Dadaş oğlu Səlimov** *– Sumqayıt Dövlət Universiteti, Azərbaycan və Şərqi Avropa xalqları tarixi kafedrasının müdiri, tarix elmləri doktoru, professor*

***Texniki redaktor və dizayn işləri:***

Rəsulov Zaur Yusif oğlu

**Hacıyev A.N., Cəfərova E.H., Məmmədov İ.M. Multikulturalizmə giriş: Ali məktəblər üçün dərs vəsaiti. – Bakı: Mütərcim, 2018. – 372 səh.**

Kitab alternativ elmi-kütləvi ədəbiyyat qismində, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsində təhsil alan tələbələrin, həmçinin geniş oxucu auditoriyasının multikulturalizm ideyaları haqqındakı mövcud elmi-nəzəri biliklərini artırmalarına kömək etmək məqsədilə tərtib edilmişdir. Kitabda multikulturalizmin təşəkkülü və inkişafı, onun müasir dünyanın müxtəlif ölkələrində dövlət siyasəti kimi özünü təsdiq etməsi, cəmiyyətin ictimai-fəlsəfi və ədəbi-bədii fikir tarixində tolerant və multikultural bəşəri ideallların təkamülü, çağdaş Azərbaycan multikulturalizminin spesifik xüsusiyyətləri və multikulturalizm siyasətinin müasir dövrdə mövcud olan problemləri və perspektivləri ardıcıl və metodiki şəkildə təhlil olunmuşdur.

ISBN: 978-9952-28-384-6

**© A.N.Hacıyev, E.H.Cəfərova, İ.M.Məmmədov, 2018**

## MÜNDƏRİCAT

**ÖN SÖZ** *(Akif Hacıyev)*.................................................... 8

**I FƏSİL. "MULTİKULTURALİZMƏ GİRİŞ" KURSUNUN PREDMETİ, TƏSVİRİ VƏ ƏHƏMİYYƏTİ**........................... 11

1.1. "Multikulturalizm" anlayışının mahiyyəti. Multikulturalizm və mədəni siyasət (*Akif Hacıyev*)……….. 11

1.2. "Multikulturalizmə giriş" postmodern təlim kimi *(Esmira Cəfərova)*.............................................................. 14

1.3. "Multikulturalizmə giriş" kursunun məqsəd və vəzifələri *(İlham Məmmədov)*............................................................. 18

1.4. Multikulturalizm və tolerantlıq. Tolerantlığın formaları. Tolerantlıq sosial-mədəni hadisə kimi. Tolerantlıq və intolerantlıq *(İlham Məmmədov)*......................................... 22

1.5. Multikulturalizm tarixi zərurət və ümumbəşəri dəyər kontekstində *(Esmira Cəfərova)*.......................................... 26

1.6. Heydər Əliyev və Azərbaycanda multikulturalizm siyasətinin formalaşması *(Akif Hacıyev)*.............................. 32

1.7. İlham Əliyev və Azərbaycan multikulturalizminin inkişaf perspektivləri *(Akif Hacıyev)* ............................................. 35

**II FƏSİL. ŞƏRQİN İCTİMAİ-FƏLSƏFİ FİKİR TARİXİNDƏ TOLERANTLIQ VƏ MULTİKULTURALİZM İDEYALARI**.......................................................................... 39

2.1. Qədim Hindistan və Çin fəlsəfi fikrinin tolerant mahiyyəti *(İlham Məmmədov)*............................................................. 39

2.2. Zərdüştlük və maniçilik dini-fəlsəfi təlimlərində multikultural dəyərlər *(İlham Məmmədov)*.......................... 43

2.3. Ortodoksal islam ideologiyasında fundamental tolerantlıq *(İlham Məmmədov)*............................................................. 46

2.4. Sufilik, ələvilik, bektaşilik, hürufilik və druzilik təlimlərinin multikultural əsasları *(İlham Məmmədov)*.......... 49

2.5. Orta əsrlər Şərq mədəni dəyərlər sistemində etnik-mədəni müxtəlifliyin inkişaf templəri *(Esmira Cəfərova)*................ 53

2.6. Yeni dövr və XX əsr Şərq təfəkkür tərzində multimədəni ideyalar və onların reallaşdırılması mexanizmləri *(Akif Hacıyev)*.................................................................. 56

**III FƏSİL. QƏRB TƏFƏKKÜR TƏRZİNDƏ MULTİMƏDƏNİ DƏYƏRLƏRİN VƏ FUNDAMENTAL MÜXTƏLİFLİYİN TƏKAMÜLÜ**........................................................................ 67

3.1. Qədim Yunanıstan və Roma ictimai-fəlsəfi fikrində ontoloji plüralizm və müxtəlifliklərin vəhdəti ideyası *(İlham Məmmədov)*............................................................ 67

3.2. Xristianlıq ideyalarında tolerantlıq və mədəni plüralizm motivləri *(İlham Məmmədov)*............................................. 72

3.3. Renessans mədəniyyətinin tolerant mahiyyəti. Humanizm, maarifçilik və klassik alman fəlsəfəsində tolerantlıq ideyalarının intibahı *(Akif Hacıyev)*.................................... 74

3.4. XIX əsr Avropa düşüncə tərzində tolerantlıq və intolerantlıq meylləri. Napoleon kodeksindən marksizm ideologiyasına *(Akif Hacıyev)*............................................. 84

3.5. XX əsrin ictimai-fəlsəfi təlimlərində tolerantlıq və humanizm ideyaları. Pasifizm, kosmopolitizm, transhumanizm *(Esmira Cəfərova)*...................................... 86

**IV FƏSİL. DİNİ MÜXTƏLİFLİK VƏ MULTİKULTURALİZM**............ 95

4.1. Dinin mənşəyi və tarixi inkişafı. Müasir dünyanın dini mənzərəsi *(İlham Məmmədov)*............................................ 95

4.2. Etnik-milli birlik tarixində din amili. Politeizm. Monoteizm: iudaizm, xristianlıq, islam *(İlham Məmmədov)* 101

4.3. Dünyəvi dinlərdə vəhdaniyyət ideyası, təriqətçilik və bütpərəstlik meylləri *(Akif Hacıyev)*.................................. 120

4.4. Konfessiyalararası münasibətlərin tarixi və tolerantlıq amili *(Akif Hacıyev)*................................................................... 127

4.5. "Dini barış konsepsiyası" və onun tarixi əhəmiyyəti *(Esmira Cəfərova)*............................................................. 132

4.6. Müasir dünyada dini ideologiyanın rolu və əhəmiyyəti *(Esmira Cəfərova)*............................................................. 136

**V FƏSİL. ETNİK-MİLLİ MÜXTƏLİFLİK VƏ MULTİKULTURALİZM**......................................................... 143

5.1. Etnik-milli birliklərin yaranması tarixindən *(Akif Hacıyev)*.. 143

5.2. Etnik-siyasi birliklərin əsas xüsusiyyətləri *(Esmira Cəfərova)*............................................................. 148

5.3. "Milli kimlik" məfhumu və onun əsas əlamətləri *(İlham Məmmədov)*............................................................. 152

5.4. Qlobalizasiya, qlokalizasiya və müasir dünyanın etnik-milli

tərkibi *(İlham Məmmədov)*.................................................. 156

**VI FƏSİL. MULTİKULTURALİZM ETNİK-MƏDƏNİ VƏ DİNİ MÜXTƏLİFLİYİN TƏNZİMLƏNMƏSİNDƏ SƏMƏRƏLİ SİYASƏT KİMİ**.................................................. 164

6.1. Multimədəni ideyaların təzahürünə tarixi baxış. Multikulturalizm alternativi olmayan tənzimləmə sistem-idir *(Akif Hacıyev)*.................................................. 164

6.2. Multikulturalizmin hüquqi əsasları *(Esmira Cəfərova)*......... 170

6.3. Multikulturalizm mütərəqqi ideoloji konstruksiya kimi *(İlham Məmmədov)*.................................................. 174

6.4. Maarifçilik və tolerantlıq *(Akif Hacıyev)*............................. 177

**VII FƏSİL. MULTİKULTURALİZM VƏ SOSİAL-İQTİSADİ İNKİŞAF**.................................................. 182

7.1. Sosial-iqtisadi inkişaf faktoru və multikulturalizm *(Akif Hacıyev)*.................................................. 182

7.2. "Ümumi rifah konsepsiyası" və etnik-siyasi birlik *(İlham Məmmədov)*.................................................. 186

7.3. Qlobal inteqrasiya və multikulturalizm *(Esmira Cəfərova)*.. 190

7.4. Müasir dünyanın iqtisadi mənzərəsi: problemlər və perspektivlər *(Akif Hacıyev)*.................................................. 194

**VIII FƏSİL. MULTİKULTURALİZM BEYNƏLXALQ SİYASƏTİN OBYEKTİ KİMİ**.................................................. 198

8.1. Multikulturalizm beynəlxalq münasibətlər kontekstində *(Esmira Cəfərova)*.................................................. 198

8.2. Multikulturalizm fenomeninin xarici siyasət sisteminə təsiri *(Esmira Cəfərova)*.................................................. 202

8.3. Etnik-dini münasibətlər, beynəlxalq münaqişələr və multikultural konsepsiya *(Esmira Cəfərova)*....................... 206

8.4. Dünyanın gələcək etnik-siyasi modeli və multikulturalizm: proqnozlar və fərziyyələr *(Esmira Cəfərova)*...................... 210

**IX FƏSİL. QƏRB MULTİKULTURALİZMİ: FƏRQLİ MODELLƏR, NÖVLƏR VƏ SİYASƏTLƏR**.................................................. 216

9.1. Multikulturalizm XX əsr Qərb təfəkkürünün məhsulu kimi *(Akif Hacıyev)*.................................................. 216

9.2. Multikulturalizmin Kanada modeli. Multikulturalizm Kanadada dövlət siyasəti kimi *(Esmira Cəfərova)*.............. 220

9.3. Multikulturalizmin Avstraliya modeli *(İlham Məmmədov)*.. 225

9.4. Multikulturalizmin İsveç modeli *(Akif Hacıyev)*.................. 227
9.5. Etnik-siyasi birliyin ABŞ modeli. "Əridən qazan" siyasətinin mahiyyəti *(İlham Məmmədov)*........................... 230
9.6. Multikulturalizmin İsveçrə modeli *(Akif Hacıyev)*............... 234
9.7. Multikulturalizmin Britaniya modeli *(İlham Məmmədov)*.... 238
9.8. Assimilyasiya, izolyasiya, inteqrasiya və multikulturalizm *(İlham Məmmədov)*............................................................. 244
9.9. Qərb multikulturalizminin müasir vəziyyəti: problemlər və perspektivlər *(Esmira Cəfərova)*......................................... 249

**X FƏSİL. ŞƏRQ MULTİKULTURALİZMİ: FƏRQLİ MODELLƏR, NÖVLƏR VƏ SİYASƏTLƏR**.................................................. 260
10.1. Şərq multikulturalizmi tarixindən *(İlham Məmmədov)*……. 260
10.2. Multikulturalizmin Malayziya modeli *(Esmira Cəfərova)* ... 263
10.3. Multikulturalizmin İndoneziya modeli *(İlham Məmmədov)*.. 266
10.4. Multikulturalizmin Hindistan modeli *(İlham Məmmədov)* ... 270
10.5. Multikulturalizmin Türkiyə modeli *(Akif Hacıyev)*............... 276
10.6. Multikulturalizmin İsrail modeli *(Akif Hacıyev)*.................... 279
10.7. Multikulturalizmin Livan modeli *(Esmira Cəfərova)*........... 282
10.8. Şərq multikulturalizminin müasir vəziyyəti: problemlər və perspektivlər *(Esmira Cəfərova)*.......................................... 285

**XI FƏSİL. AZƏRBAYCANIN İCTİMAİ-FƏLSƏFİ VƏ ƏDƏBİ-BƏDİİ İRSİNDƏ TOLERANTLIQ VƏ MULTİKULTURAL ƏNƏNƏLƏR**......................................................................... 290
11.1. Odun inteqrativ təbiəti və Qədim Azərbaycanda klassik multikulturalizm *(İlham Məmmədov)*.................................. 290
11.2. Erkən orta əsrlər Azərbaycan ictimai-fəlsəfi fikrinin multimədəni mahiyyəti *(Esmira Cəfərova)*........................... 295
11.3. İslam mədəniyyəti, islam həmrəyliyi və Azərbaycan *(İlham Məmmədov)*.............................................................. 300
11.4. Azərbaycan milli xarakterinin formalaşmasında multikulturalizm ideyalarının rolu və əhəmiyyəti. Multikulturalizm ədəbi-bədii mənbələrin dili ilə *(Esmira Cəfərova)*............................................................... 318
11.5. Maarifçilik ideyaları və Azərbaycanda tolerant etnik-siyasi mühitin formalaşması *(Akif Hacıyev)*.................................. 326
11.6. Multikulturalizm siyasəti və azərbaycançılıq ideyası *(Akif Hacıyev)*.................................................................... 330

**XII FƏSİL. MULTİKULTURALİZM AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT SİYASƏTİ KİMİ..................** 337

12.1. Tolerantlıq ənənələrindən multikulturalizm siyasətinə doğru *(Esmira Cəfərova)*...................................................... 337

12.2. Multikulturalizmin Azərbaycan modelinin əsas xüsusiyyətləri *(Akif Hacıyev)*............................................... 342

12.3. Azərbaycanda multikulturalizmin təbliğatı ilə məşğul olan strukturlar *(Esmira Cəfərova)*................................................ 349

12.4. Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir *(Akif Hacıyev)*........................................................................ 352

12.5. Multikulturalizm və gələcək. Multikulturalizmin Azərbaycan modeli gələcəyə hesablanmış təhlükəsizlik sistemidir *(İlham Məmmədov)*............................................. 355

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT** 359

***"Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq".***

***Heydər Əliyev***

## ÖN SÖZ

Müasir dünya sivilizasiyası tarixdə misli görünməmiş yeni templərlə müşayiət olunan və postindustrial cəmiyyət kimi təzahür edən möhtəşəm bir dövrünü yaşayır. Bu dövrün ən aparıcı motivlərini isə bəşəriyyətin davamlı inkişafının təmin olunması ilə bağlı ideyaların reallaşdırılması, regional və qlobal miqyaslı tədbirlərin həyata keçirilməsi təşkil edir. Bununla əlaqədar sosial-iqtisadi və hərbi-siyasi xarakterli böhranlarla, təlatümlərlə, təbii və sosial məzmunlu kataklizmlərlə çağdaş bəşəriyyəti lərzəyə gətirmiş XXI yüzilliyin əvvəllərində varlığın davamlı və ləyaqətli inkişafını, sağlam və təhlükəsiz gələcəyini təmin etmək üçün fövqəladə inteqrativ təsir gücünə malik olan ən mütərəqqi nəzəriyyələrin hazırlanması və sosial sferada tətbiq edilməsi zərurəti aktuallaşmışdır.

Tarixdə varlığın əsl qurtuluş yolları kimi təzahür edən çoxlu sayda mütərəqqi dini və sivil ideyalar mövcud olmuşdur ki, onlar əxlaqi-mənəvi cəhətdən tənəzzülə uğrayan dünya sivilizasiyalarını həqiqət, inkişaf, tərəqqi yoluna çıxarmış, millətlərin və xalqların sıx birliyini təmin etmişdir. Total hərbi münaqişələr, sosial inqilablar və milli-azadlıq hərəkatları kimi tarixin yaddaşında qalmış XX əsrdə isə belə tip ideyaların rolu və əhəmiyyəti daha yüksək və həlledici olmuşdur. Keçən əsrin 60-70-ci illərində elmi-texniki tərəqqinin yeni – postindustrial mərhələyə qədəm qoyması ilə postmodern üslubda, pozitiv düşünən insanın dünyagörüşündə əvvəllər analoqu olmayan fundamental dəyişikliklər baş vermişdi. Bu dövrdə kosmik fəzanın kəşfi və öyrənilməsi, atom enerjisinin geniş şəkildə istismarı "çağdaş insanı" yalnız planetar miqyasda deyil, həm də kainat miqyasında düşünməyə sövq edirdi. XX əsr tarixində misli görünməmiş fəlakətlərlə nəticələnən I və II Dünya müharibələrini yaşamış müasir cəmiyyəti, təkcə zaman baxımından məhdud xarakterli adi məsələlər deyil, insanın yaxın və uzaq gələcəyi, onun qlobal taleyi, davamlı varlığı və inkişafı ilə əlaqədar problemlər də maraqlandırırdı. Dövrün tanınmış alimləri, filosofları, iqtisadçıları, politoloqları, sosioloqları, həmçinin siyasi isteblişmentin mənsubları intellektual-sosioloji və siyasi fəaliyyətlərində bir vacib məqama istinad edirdilər: necə düşünmək, necə idarə etmək və necə yaşamaq lazımdır ki, dünyada münaqişələrin say və miqyasını minimuma endirmək,"təhlükəsiz dünya" ideyasını reallaşdırmaq mümkün olsun?

Müasir münaqişəli cəmiyyətin ən güclü motivlərindən biri, həmişə olduğu kimi, milli məsələ olaraq qalır. XX əsrdə uzun müddət müstəmləkə şəraitində yaşamış xalqların fəal milli-azadlıq mübarizəsi, bir tərəfdən yeni millətlərin və dövlətlərin təşəkkül tapmasına, digər tərəfdən əsrlərlə mövcud olan mərkəzləşmiş dövlətlərin iflasına səbəb olmuşdur. Etnik-siyasi səhnəyə yeni xalqların və millətlərin çıxması, onların milli müstəqillik mücadiləsi "separatizm" adlanan və dünyanın etnik-siyasi münasibətlər sistemində son dərəcə təhlükəli elementlərdən biri kimi təzahür edən bir presedenti daha da aktuallaşdırmışdır. Onun ən zorakı üsulları olan terrorizm, ekstremizm, dini fundamentalizm və fanatizm qlobal cəmiyyətin ənənəvi tarazlığını və təbii harmoniyasını pozmuşdur. Ən başlıcası isə bu zəmində yaranmış və çoxlu sayda etnik-siyasi subyektləri öz orbitinə cəlb etmiş münaqişələrin heç biri "xoşbəxt sonluqla" başa çatmamışdır.

Bir məqamı xüsusi vurğulamaq lazımdır ki, Yer kürəsində mövcud olan ölkələrin və dövlətlərin böyük bir hissəsi polietnik tərkibə malikdir və onların hər birində real və potensial separatizm ünsürləri, etnik müxtəliflik zəminində gizli münaqişələr mövcuddur."Münbit tarixi şərait yetişəndə" onların hər biri mərkəzləşmiş dövlətlərin fundamental əsaslarını sarsıtmağa qadir olan dağıdıcı aktlarla nəticələnə bilərlər. Belə xarakterli situasiyalarda, artıq məsələnin yalnız güc tətbiq edilməsi yolu ilə həlli variantı qalır ki, bu da bir tərəfdən vətəndaşa silah çevirmək, insanların hüquq və azadlıqlarını pozmaq, milli ayrı-seçkilik və s. kimi radikal zorakı aktların təzahürü, digər tərəfdən, daha sülh yolu ilə həll edilməsi heç cür mümkün olmayan davamlı qarşıdurma, səfalət, dağıntı, kütləvi insan itkisi kimi ortaya çıxır. Məslək, məzhəb və əqidələr itir, ifrat barışmazlıq kompleksi bütün insani dəyərləri üstələyir. Millətin dünya miqyasındakı nüfuzu sarsılır, onun imicinə zərbə vurulur. Məhz hadisələrin bu cür potensial ssenarisini sağlam düşüncə və rasional üsullarla təhlil edən bütün millətlər və onların rəhbərləri alternativi olmayan daha mütərəqqi, sivil və təhlükəsiz gələcəyə hesablanmış kompleks tədbirlər görür, humanizmə, demokratizmə və mədəni plüralizmə əsaslanan tam düşünülmüş siyasət yürüdürlər. XX əsrdə multikulturalizm ideyalarının təşəkkülü və inkişafı məhz belə bir siyasətin real ifadəsinin nəticəsidir.

Çağdaş dünyada polietnik cəmiyyətlərin və onları idarə edən siyasi personaların qarşısında təxirəsalınmaz tarixi bir vəzifə durur – ən mütərəqqi üsullarla mədəni müxtəlifliyin vəhdətini və davamlı inkişafını təmin etmək. Lakin təbii ki, bu, "yuxarıdan diktə olunan" və bəsit üsullarla reallaşdırılan adi bir tədbir deyil. Onun uğurla həyata keçirilməsi bütün cəmiyyətdən və onun hər bir üzvündən ən yüksək təşəkküllü intellektual, psixoloji, əxlaqi-mədəni hazırlıq və əlbəttə ki, möhtəşəm əmək tələb edir. Bununla əlaqədar qarşıda duran ən ümdə vəzifə isə tolerant, mütərəqqi düşünən, multimədəni dünyaya səmimi hörmət hissi ilə tərbiyə olunan, mədəni plüralizmi və etnik

müxtəlifliyi dünyanın qanunauyğun məzmunu kimi qəbul etməyi bacaran yeni insanın yetişdirilməsidir. Bu vəzifənin uğurla həyata keçirilməsi işində ölkəmizin təhsil sisteminin, xüsusi olaraq, ali təhsil müəssisələrinin üzərinə böyük məsuliyyət düşür.

Müasir Azərbaycan Respublikasının təhsil sistemi ölkə təhsilini dünya standartlarına, postindustrial tələblər səviyyəsinə çatdırmaq, informasiya-kommunikasiya texnologiyalarına əsaslanan yeni bilik sistemi yaratmaq və Azərbaycan xalqını dünyanın ən intellektual xalqları sırasına çıxarmaq kimi çətin tarixi missiyanı həyata keçirir. Belə bir mütərəqqi vəzifəni uğurla icra etmək, yüksək intellektin daşıyıcısı olan postmodern şəxsiyyət yetişdirmək üçün isə humanist prinsiplərlə, pozitiv ideoloji elementlərlə bəhrələnmiş ali nəzəri mənbələrə kəskin ehtiyac var. Ali təhsil müəssisələrinin bakalavriat səviyyəsində təhsil alan tələbələrə təqdim olunan "Multikulturalizmə giriş" kitabı da məhz belə zərurətdən yaranmışdır. Kitabın tərtib olunması zamanı tolerantlığın və multikulturalizmin təşəkkülü tarixini və inkişafını, bugünki vəziyyətini və perspektivlərini əks etdirən çeşidli mötəbər mənbələrə istinad edilmiş, dünyada və Azərbaycanda multikulturalizmin təbliğatı və həyata keçirilməsi templəri, multikulturalizmin fərqli məkanla bağlı xüsusiyyətləri, ölkəmizdə multikulturalizm sahəsində əldə edilmiş uğurlar, ümummilli lider Heydər Əliyev irsinin, onun uzaqgörən ideyalarının öyrənilməsi və müasir Azərbaycan cəmiyyətində tətbiqi ilə əlaqədar görülən möhtəşəm işlər geniş şəkildə şərh edilmişdir. Kitabda başlıca diqqət müasir tolerant şəxsiyyətin yetişdirilməsi kimi vacib məsələyə yönəldilmiş, gənclərin pozitiv-mütərəqqi prinsiplərə əsaslanan ideoloji konstruksiyasının yaradılması mexanizmləri göstərilmişdir. Ümid edirik ki, gələcək nəsillərin tolerantlığa, multikultural dəyərlərə hörmət ruhunda tərbiyə olunmasında, çox yüksək əxlaqi-humanist keyfiyyətlərə əsaslanan sivil dünyagörüşünün formalaşmasında sözügedən mənbə əlverişli vasitə olacaqdır. Multimədəni ideyalara ehtiram göstərən, humanist və ekstratolerant şəxsiyyət kimi yetişmək istəyən hər bir gəncə bu vacib və məsuliyyətli işdə uğurlar arzu edirik.

***Akif Hacıyev***
*Mingəçevir Dövlət Universitetinin rektoru*

# I FƏSİL. “MULTİKULTURALİZMƏ GİRİŞ” KURSUNUN PREDMETİ, TƏSVİRİ VƏ ƏHƏMİYYƏTİ



## 1.1. “Multikulturalizm” anlayışının mahiyyəti. Multikulturalizm və mədəni siyasət (ing. *The essence of the concept of “Multiculturalism”. Multiculturalism and cultural policy*)



“Multikulturalizm” termini və onunla əlaqədar anlayışlar müasir humanitar-siyasi leksikonda ən çox işlənilən neologizmlər kimi özünü təsdiq etmişdir. Bununla əlaqədar olaraq, bu terminə, eləcə də onun arxasında duran daha geniş sosial-fəlsəfi və etnik-mədəni məzmuna aydınlıq gətirmək olduqca vacibdir. Hərfi mənada “multikulturalizm” çoxmədəniyyətlilik deməkdir. Latın dilindən tərcümədə “multi” “çox” mənasını ifadə edir. Mürəkkəb sözlərin əvvəlində yazılır və predmetlərin çoxluğunu, eynicinsli hərəkətlərin, funksiyaların çoxhədliliyini bildirir. “Kultura” isə ilkin mənada torpağı becərmək, məskən salmaq, oturaq həyat tərzi, sonrakı mənalarda tərbiyə, təhsil, iqtisadi inkişaf, dil, elm, din, incəsənət, davranış, etiket və s. kimi anlayışlarla assosiasiya olunur. O, ilk dəfə e.ə.160-cı ildə Qədim Roma siyasətçisi və yazıçısı Böyük Mark Porsiy Katon (lat. *Marcus Porcius Cato* - e.ə. 234-149) tərəfindən əkinçilik haqqında traktatda (lat. “*De Aqri Cultura*”) işlədilmişdi [1].

“Multikulturalizm” termini müasir dövrün leksikonuna II Dünya müharibəsindən sonra nüfuz etməyə başlamışdır. 1947-ci ildə Hindistan B.Britaniyadan asılılığını ləğv etdikdən sonra, 1950-ci il yanvar ayının 26-da qəbul edilmiş Hindistan konstitusiyasında Hindistan cəmiyyətinin fövqəladə tərzdə polietnik olması və müstəqillik ərəfəsində hinduslarla

müsəlmanlar arasında ölkənin parçalanması (Hindistan, Qərbi Pakistan, Şərqi Pakistan (Banqladeş) respublikaları) ilə nəticələnən etnik-siyasi hadisələrlə bağlı “multimədəni cəmiyyət” prinsipləri öz əksini tapmışdı. XX əsrin 60-cı illərinin sonlarından etibarən Kanadada multikulturalizm siyasətinin dövlət səviyyəsində həyata keçirilməsi ilə əlaqədar bu termin siyasi sənədlərin, elmi ədəbiyyatların və KİV-lərin predmetinə çevrildi. Keçmiş Sovet ittifaqı məkanına daxil olan respublikalarda, o cümlədən Azərbaycanda “multikulturalizm” termini əsasən XX əsrin 90-cı illərinin sonlarından başlayaraq, ilk növbədə professional, daha sonra isə kütləvi leksikonun elementinə çevrildi.

XX əsrin 60-70-ci illərində multikulturalizm Avropada və Şimali Amerikada çağdaş etnik-siyasi münasibətlərin bir tələbi kimi adi termin çərçivəsindən çıxaraq əsl fəlsəfi-siyasi konsepsiyaya çevrilməyə başladı. Sözügedən dövrdə multikulturalizm təkcə ayrıca götürülmüş bir ölkənin etnik-mədəni, irqi və dini müxtəlifliklərinin mövcud vəziyyətini ifadə etmək üçün işlədilən adi termin deyildi. O, artıq cəmiyyətin təhlükəsiz gələcəyinə hesablanmış mədəni inqilab kimi təzahür edirdi.

Multikulturalizm ilk dəfə rəsmi şəkildə 1971-ci ildə parlament tipli monarxiya olan Kanadada, ölkə hökumətindən siyasi müstəqillik tələb edən Kvebek separatizminə cavab olaraq fransız mənşəli baş nazir Pyer Elliot Tryudonun (fransız. *Jozeph Philippe Pierre Yves Elliot Trudeau* - 1919-2000) hakimiyyəti dövründə (1968-1979 və 1980-1984) qəbul edilmişdir [2]. Əslində isə Kanadada multikulturalizm haqqında hüquqi aktın qəbul edilməsi, indiyədək dünyanın bir çox ölkələrində, o cümlədən Kanadada həyata keçirilən, eləcə də ölkə əhalisinin mədəni baxımdan homogenləşdirilməsinə (lat. *homogeneus* - eyni mənşəli və ya eyni tipli) yönəlmiş assimilyasiya siyasətinin mənasız və faydasız olmasının dövlət institutları tərəfindən tamamilə tanınması demək idi. Separatizmlə bağlı dövlətin ərazi bütövlüyünün ciddi təhlükə qarşısında qalması şəraitində Kanadada multikulturalizmin dövlət səviyyəsində qəbul edilməsi iki əsas məqamı ön plana çəkdi:

1. Özündə ən yüksək humanist dəyərləri təcəssüm etdirən mədəni siyasət kimi özünü təsdiq etdi.
2. Polietnik tərkibi olan bir millətin və dövlətin birliyini və davamlı inkişafını nəzərdə tutan ideoloji zəmanət kimi tanındı.

ABŞ-ın Yel universitetinin (ing.*YaleUniversity*) məşhur professoru, politoloq S. Benhəbib (1950) 2002-ci il tarixdə yazdığı “Mədəniyyətin iddiaları” (“*The Claims of Culture”*) adlı yeni kitabında multikulturalizm fenomeni ilə əlaqədar ən dərin təhlillər aparmış və maraqlı nəticələr əldə

etmişdi. O, iddia edirdi ki, "multikulturalizm müasir mədəni siyasət kimi, mədəniyyətin müxtəlif formalarının legitimliyini nəzərdə tutur və lakonik şəkildə ifadə olunan - "assimilyasiya etmədən inteqrasiyaya cəlb etmək" düsturunda ifadə olunur. Bu, bir dövlətin sərhədləri daxilində etnik, milli və dini özəlliklərini, spesifik həyat tərzini tam qoruyub saxlamaq hüququ olan ən müxtəlif etnik-mədəni və konfessional qurumların birgəyaşayışı kimi bir anlama gəlir. Lakin bütün bu sadalanan vacib vəzifələri həyata keçirmək üçün dövlət institutlarının fəaliyyəti kifayət deyil. Məhz bu səbəbdən multikulturalizm eyni zamanda multikultural ekzistensializmi ciddi sosial mexanizmlər vasitəsi ilə tənzimləməyi və ona nəzarət altında saxlamağı nəzərdə tutur [3].

Multikulturalizm XX əsrdə həyata keçirilən etnik-mədəni siyasətin spesifik modelidir. Şübhəsiz, hər bir müasir dövlət üçün mədəni siyasət modelinin seçilməsi son dərəcə vacibdir. Çünki belə seçimdən birbaşa ölkənin sosial, mədəni, iqtisadi və siyasi inkişafı asılıdır. Təbii ki, qeyri-adekvat mədəni siyasət və onun zorakı üsullarla həyata keçirilməsi real və potensial münaqişələrdən xəbər verir.

Müasir postindustrial cəmiyyətdə hər hansı etnik-mədəni siyasəti, o cümlədən multikulturalizm siyasətini mükəmməl şəkildə reallaşdırmaq olduqca çətin və məsuliyyətli vəzifədir. Bu vəzifənin reallaşdırılması son dərəcə mürəkkəb və təlatümlərlə dolu bir tarixi şəraitdə baş verir. Bir tərəfdən dövlətlər və etnoslar arasında olan sərhədləri aradan qaldıran qloballaşma, digər tərəfdən isə hər hansı etnik-siyasi inteqrasiyaya var gücü ilə müqavimət göstərən submədəniyyətlər, savadsızlıqdan və dini cəhalətdən doğan stereotiplər - ksenofobiya, intolerantlıq, dini fanatizm, ekstremizm mövcud situasiyaları daha da idarəolunmaz edir. Bununla belə, müasir, sivil birgəyaşayış qaydalarını bərqərar etmək işi mədəni plüralizmi qanuni çərçivəyə salmaq məqsədilə həyata keçirilən tədbirlər olmadan mümkün deyil. Mədəni müxtəlifliyin qorunmasına yönəlmiş belə tədbirlər əsl demokratiyanı əks etdirən məqamlardır. Buna görə də dövlət institutlarının qarşısında duran başlıca problem-situasiya etnik-mədəni müxtəlifliklərin genişləndirilməsi, yaxud genişləndirilməməsi deyil, bununla bağlı tədbirlərin hansı formada həyata keçirilməsidir. Bu seçimdən isə icra olunan etnik-mədəni siyasətin effektivliyi və müsbət nəticələri asılıdır.

Beləliklə, multikulturalizmin mədəni siyasət kimi təzahür etdiyi və gözlənilən yüksək mütərəqqi nəticələr verdiyi cəmiyyətlərdə etnik-siyasi münasibətlər baxımından belə bir qanunauyğun mənzərə yaranır:

1. Multikultural cəmiyyətdə mövcud olan və titul xalqın konkret

obrazını tərənnüm edən "hakim mədəniyyət" öz müstəsnalığını israrlı şəkildə nümayiş etdirmir.

2. Belə və buna oxşar cəmiyyətlərdə "mədəniyyət" anlayışı "etnos" anlayışı demək deyil.

3. Belə cəmiyyətlərdə fərdlərə özü üçün istədiyi mədəni nümunəni seçmək azadlığı verilir.

4. Belə və buna oxşar cəmiyyətlərdə multikulturalizm strategiyası təkcə etnoslararası münasibətlərə nüfuz etmir, həm də müxtəlif həyat üslublarını, etnik-mədəni davranışları və dünya baxışlarını tənzimləməyə yönəlmişdir.

5. Belə cəmiyyətlərdə dövlətyaradan, yaxud titul millət öz tarixi vəzifə və xidmətlərini digər xalqların və etnosların tarixi xidmətlərindən əsla üstün tutmur, milli tarix isə onu yaradan bütün xalqların ümumi nailiyyəti kimi qiymətləndirilir.

Beləliklə, mədəni plüralizmin mühafizəsi və inkişafı kimi təzahür edən multikulturalizm əsla "muxtar kimliklərin" tam qapalı mövcudluğu və fəaliyyəti demək deyil, onların qarşılıqlı və açıq münasibətləridir. Bu baxımdan mədəni plüralizm siyasəti təkcə etnik-mədəni, etnik-linqvistik və etnik-konfessional qruplar arasında əsl dialoqun genişləndirilməsinə deyil, həmçinin etnik-mədəni münasibətlərdən yüksəkdə duran ümumi kommunikativ məkanın yaradılmasına xidmət edir. Bununla bağlı son vaxtlar "multikulturalizm" anlayışı ilə paralel olaraq "transkulturalizm" kimi anlayışdan da istifadə olunur. Transkulturalizm multikulturalizmin daha geniş təzahürü olaraq, insanın müxtəlif mədəni ənənələri və digər ölkələrin mədəni təcrübəsini toplum şəklində mənimsəməsini nəzərdə tutur. Bu isə insanın öz təbii köklərinə qayıdışı, bütün mədəni dəyərlərin vahid substansiyadan bəhrələndiyini dərk etməsi və tarixi səhvləri aradan qaldırmağa hazır olması anlamına gəlir.

## 1.2. "Multikulturalizm" postmodern təlim kimi (ing. "*Multiculturalism" as a postmodern discipline*)



Multikulturalizmin postmodern təlim kimi məhz XX yüzilliyin ikinci yarısında təşəkkül tapması və inkişafı, çoxlu sayda obyektiv qanunauyğunluqlarla, müharibə, inqilab və münaqişələrlə zəngin olan son əsrlərin tarixi dərslərindən çıxan nəticələrlə bağlıdır.

Ümumi şəkildə qəbul edilmiş əsas inkişaf konsepsiyalarına uyğun olaraq, bəşəriyyət sadədən mürəkkəbə, adi vəhşilikdən və barbarlıqdan sivilizasiyaya, cəhalətdən ziyaya və kamilliyə doğru çox möhtəşəm bir tərəqqi yolu keçmişdir. Müasir tarixçilərin bir çoxu etnoslar arasında yaranan siyasi münasibətləri və bununla əlaqədar daim inkişaf edən hərb sənətini tarixi tərəqqinin hərəkətverici qüvvəsi elan edirlər. Onlar tarix boyu davamlı şəkildə baş vermiş müxtəlif xarakterli və miqyaslı hərbi münaqişələri isə bəşər tarixinin alternativi olmayan vahid ssenarisi kimi qiymətləndirirlər. Hətta bəzi alimlər hərb sənətinin fövqəladə inkişafını tarixdə baş vermiş ən vacib inqilab kimi qəbul edərək, bu haqda bütöv konsepsiya yaratmışlar. Məsələn, 1955-ci ildə Böyük Britaniya tarixçisi Maykl Roberts (1908-1996) məhz belə konsepsiyalardan birini - “Hərb sənətində inqilab konsepsiyası”nı təklif etmişdi. Alim iddia edirdi ki, “məhz hərb sənəti müasir dövlətlərin yaradılmasını zəruri və mümkün etmişdir” [4].

Məşhur alman mütəfəkkiri, insan və cəmiyyət haqqında spesifik fəlsəfi təlimin müəllifi Fridrix Vilhelm Nitsşe (alm. *Friedrich Wilhelm Nietzsche* - 1844-1900) isə bütün həqiqətləri xüsusi dəyər əmsalları ilə qiymətləndirmiş və insanlar arasında çox əsrlər ərzində formalaşmış dini, əxlaqi, mədəni və ictimai-siyasi münasibətlərin fundamental prinsiplərini şübhə altına almışdı [5]. O, “Zərdüşt belə demişdir. Kitab hamı üçün və heç kim üçün” (alman. *Also sprash Zarathustra.Ein Bush für Alle und Keinen - 1883-1885*) əsərində növlərin mübarizəsi haqqında darvinizm təlimini sosial müstəviyə çıxarır (sosial-darvinizm), insanları güclülər və zəiflər, “fövqəlbəşər” və “bitmiş bəşər” tipində kateqoriyalara ayırırdı. Mürtəce inkişaf konsepsiyasını tərənnüm edən filosof güclülərin zəifləri məhv etməsini əsl təbii proses kimi qiymətləndirir, daim münaqişəyə və müharibəyə can atan “bəyaz döyüşçünü”, “ağsaçlı bestiyanı” (lat. *bestia* – vəhşi) bütün dünyanın ağası elan edirdi. Nitsşe hakimiyyətə can atan insan iradəsini ən ali potensiya kimi “tarixin dinamik və ölməz ruhu” adlandırırdı. O, israrla iddia edirdi ki, “fövqəlbəşər dünyanın mənasıdır”, “müharibə və cəsurluq isə başqa insana məhəbbətdən daha çox xariqələr yaradır”. “Siz təkidlə soruşursunuz ki, əsl xeyirxahlıq nədir? Xeyirxahlıq – cəsurluqdur” [6].

Təsadüfi deyildir ki, təlatümlərlə dolu XX əsrdə məhz belə ideyalar münaqişə ruhlu insanları dünyanı lərzəyə gətirən qlobal münaqişələrin müəlliflərinə və əsas aktorlarına çevirmişdi. Beləcə, minlərlə insanı qatı millətçiliyə, ksenofobiyaya, şovinizmə və rasizmə sürükləmişdi. Lakin II Dünya müharibəsi özünün dağıdıcı xarakteri və faciəli nəticələri ilə sübut

etdi ki, münaqişə və müharibələr müasir dünyanın adekvat məzmunu ola bilməz. Yeni nüvə erasında isə hər hansı xarakterli və miqyaslı münaqişə son dərəcə təhlükəli və bəşər tarixinin sonu ilə nəticələnəcək total silahlı qarşıdurmalara gətirib çıxara bilər. Odur ki, tarixi hadisələrdən düzgün nəticə çıxara bilən mütərəqqi bəşəriyyət ixlas yolunu dialoqda, barış aktlarında, tolerantlıqda, sülhdə, insanlığa zidd olmayan bütün ideyaların tanınmasında və onlara hörmətlə yanaşmaqda, multimədəni dəyərlərin birliyini təmin etməkdə görürdü. Beləliklə, məlum olur ki, sivilizasiyanın yaranması, inkişafı və mövcud durumu, mütləq şəkildə insanların mədəni sferada inkişafının məhsulu kimi qiymətləndirilə bilər.

Müasir postindustrial cəmiyyətdə yaranmış çoxlu sayda mütərəqqi ideyalar içərisində dünyanın təbii multikultural zənginliyinin qorunması və inkişafı xüsusi əhəmiyyət kəsb edir. Sözügedən zənginliyin qorunması prinsipləri və bu prinsiplərdən yaradılmış xüsusi tip strateji konsepsiya "multikulruralizm" adlanan postmodern təlim qismində təzahür etmişdir. Postmodern (fr. *postmodern* - moderndən sonra - özündə spesifik fəlsəfi mövqe əks etdirən müasir mədəniyyətin vəziyyəti) intellektual təlim kimi multikulturalizm XX əsrin 90-cı illərinin əvvəllərindən, əvvəlcə Qərbdə, daha sonra keçmiş sosialist düşərgəsinə, o cümlədən SSRİ-nin tərkibinə daxil olan ölkələrdə yayılmağa başladı. Təəssüf ki, sivilizasiyanın tarixdə misli görünməmiş yüksək həddə çatdığı postindustrial cəmiyyətdə belə, barbarlığın aydın şəkildə ifadə olunan əlamətləri müşahidə olunur. Belə məlum olur ki, barbarlıq və hətta vəhşilik tarixə qovuşmuş arxaik ictimai həyat forması deyil, bu gün də sivilizasiyanın dərinliklərindən doğan xüsusi tip sosial fenomendir. O, öz əsas cizgiləri və əlamətləri ilə arxaik barbarlıqla eynilik təşkil edir. Beləliklə, sivilizasiyanın postindustrial və postmodern tipi belə, klassik barbarlığın, yaxud vəhşiliyin elementlərini, keçmişin qalığı kimi dövrün sosial reallığından sıxışdırıb çıxara bilmir. Bu minvalla, nə qədər təzadlı səslənsə də, müasir bəşəriyyət tarixdə misli görünməmiş yeni bir fenomenlə - "müasir texnogen barbarlıqla, yaxud postmodern vəhşiliklə" üzləşmişdir.

Zamanın süzgəcindən keçərək postmodern bəşəriyyətin sistemli dünyagörüşündə öz əksini tapmış "sarsılmaz stereotiplərin" antihumanist formalarda ifadəsi Yer kürəsində həyatın davamlı olması qayğısına qalan insanlardan daha çevik, mətin və cəsur olmağı, xüsusi təşəbbüskarlıq, qayğıkeşlik, bacarıq, dözüm, intellekt və fövqəladə çalışqanlıq nümayiş etdirməyi tələb edir. Bu çətin və məsuliyyətli tarixi vəzifəni öz üzərinə multikulturalizm kimi mədəni siyasət və onu tərənnüm edən insanlar götürür.

Multikulturalizm elə bir təlimdir ki, o, mədəni plüralizmi bəşəri fəaliyyətin əsas məzmunu elan edir, pozitiv müxtəlifliyin qorunmasını və inkişafını özünün əsas vəzifəsi kimi təsdiq edir. Bu, dar mənada konkret götürülmüş ölkənin, qlobal anlamda dünya əhalisinin etnik, irqi və dini müxtəlifliyindən asılı olmayaraq, hüquq və azadlıqlarının müdafiəsini nəzərdə tutur. Multikultural cəmiyyətdə hər bir etnosun mənsubları öz spesifik mədəniyyətlərini hüquqi əsaslarla inkişaf etdirmək imkanları qazanırlar.

Multikulturalizm assimilyasiyanı, həmçinin separatizmi inkar edir, etnik-mədəni müxtəlifliklərin inteqrasiyasına istiqamətlənmiş mədəni siyasət kimi reallaşdırılır. Məhz buna görə bu siyasəti təkcə siyasi elita deyil, eyni zamanda millətin digər stratalarının (lat. *stratum - təbəqə*) nümayəndələri, sosial, etnik, milli və dini-mədəni azlıqlar dəstəkləyirlər. Multikulturalizmin nəzəri əsaslarını liberalizm, xüsusən də liberalizmin azadlıq, bərabərlik və qardaşlıq kimi ən yüksək dəyərlərlə gücləndirilmiş modifikasiyası təşkil edir. Bu səbəbdən də multikultural cəmiyyətdə, nəinki sosial ədalətsizliyi aradan qaldırmağa nail olmaq mümkündür, həm də burada irqçiliklə bağlı ədalətsizliyə qətiyyən yol verilməməsi imkanları formalaşdırılır. Lakin multikulturalizmlə liberalizm arasında bir mühüm fərq var. Beləki multikulturalizm liberalizmdən fərqli olaraq, fərdlərin deyil, qrupların hüquqlarını ön plana çəkir.

Multikulturalizm fəlsəfi-mədəni ideal, faktiki təzahür edən siyasət kimi, əsas məzmun və mahiyyət baxımından tolerantlıqla sıx bağlıdır. O, müxtəlif mədəniyyətlərin paralel olaraq yaşamasını qəbul edən tolerant cəmiyyətin ən başlıca xüsusiyyətlərindən biridir. Tolerant cəmiyyətlərdə multikulturalizm mədəniyyətlərin qarşılıqlı formada zənginləşməsinə, xalqları birləşdirən əsas inteqrativ mədəniyyətin, birləşdirici məfkurənin formalaşmasına səbəb olur.

Beləliklə, postmodern təlim qismində multikulturalizmi xarakterizə edərkən, onun aşağıdakı fundamental əlamətlərini qeyd etmək vacibdir:

1. Multikulturalizm pozitiv sosial təzahürdür. O, cəmiyyətin sabit inkişafı üçün münbit şərait yaradır, etnik münaqişələrin qarşısını alır və müxtəlif xalqlar arasında etimadı möhkəmləndirir.

2. Multikulturalizm cəmiyyətin mövcud etnik-mədəni müxtəliflik əleyhinə etirazını səngitmək üçün alternativ siyasət rolunu oynayır.

3. Demokratiya multikultural cəmiyyətlərin formalaşmasında ən mühüm amillərdən biri kimi təzahür edir.

4. Bölgələrin tarixi-mədəni inkişafının xüsusiyyətləri və landşaftın özəllikləri multikulturalizmin fərqli modellərinin yaranmasını müəyyən

edən amillər kimi təzahür edir.

5. Multikulturalizmin müxtəlif modellərinin arasında bəzi fərqlərin olmasına baxmayaraq, yeni multikultural cəmiyyətin formalaşmasında və multimədəni ətraf mühitin qorunmasında dövlətin fövqəladə aparıcı rolu vardır.

Hərdən multikulturalizmin sinonimi kimi "polikultura" terminindən də istifadə olunur. Qeyd olunduğu kimi multikulturalizm postmodernizm situasiyasının məhsuludur və onun əsas məzmunu mədəni bərabərliyin qorunması ideyasından, bəşəriyyətə məxsus olan bütün mövcud mədəni materialın eyni dəyərlərə malik olması prinsipinin təsdiq olunmasından ibarətdir.

## 1.3. "Multikulturalizmə giriş" kursunun məqsəd və vəzifələri (ing. *Goals and objectives of the course "Introduction to Multiculturalism"*)




Multikulturalizm hər hansı təsadüfi və neqativ elementlərdən uzaq olan, tamamilə mütərəqqi, qanunauyğun, bir qayda olaraq, ümumbəşəri dəyərlərə söykənən təlimdir. Nəzəri cəhətdən onun əsas məqsədi bir tarixi məkanda yanaşı yaşayan bütün xalqların ləyaqətli həyatını - hüquq və azadlıqlarını təmin etmək üçün elmi-praktiki baza yaratmaqdır. Beləliklə, multikulturalizm təkcə nəzəri təlim deyil. Etnik azlıqların, dini icmaların fəaliyyəti və inkişafı üçün real sosial-iqtisadi şəraitin, tolerant və mədəni mühitin yaradılması praktikasıdır. Düşünülmüş etnik siyasətə əsaslanan insanpərvərlikdir. Mərhəmət ilə alicənablığın üzvi sintezindən yaranmış dəyərlər sistemidir. Bəşəriyyətin təhlükəsiz gələcəyinə hesablanmış ən mütərəqqi fəaliyyət növüdür.

Antropologiya və etnoqrafiya xalqların məişətini, adət-ənənələrini, onların miqrasiyasını və yayılmasını, tarixi-mədəni tipli münasibətlərini, bilavasitə müşahidə və təhlil metodları ilə dərin analizə məruz qoyur. Multikulturalizm mövqeyindən fərqli yanaşma isə Yer kürəsində yaşayan bütün xalqların, etnik azlıqların və dini icmaların vahid ailədə bərabər mövcudluğunu, razılıq, təbii müqavilə, qarşılıqlı anlaşma və qarşılıqlı yardım şəraitində yaşamasını nəzərdə tutur.

Əsrlərin sınağından çıxmış bəşəri ideyaları əsas götürərək, müasir

Azərbaycanda multikulturalizm dövlət siyasəti səviyyəsinə qaldırılmış və bu yolda çox böyük və mütərəqqi işlər görülmüşdür. Təbii ki, bu proses bu gün də uğurla davam etdirilir. Sözügedən siyasətin uğurla həyata keçirilməsini şərtləndirən amillərdən biri də multikulturalizmin bir təlim kimi ölkənin ali məktəblərində tədris olunmasıdır. Kursun əsas məqsədi ali təhsil müəssisələrinin bakalavriat səviyyəsində təhsil alan tələbələrə multikulturalizmi bir sosial hadisə, ideologiya, siyasət, nəhayət bir həyat tərzi kimi təqdim etmək, onun əhəmiyyətini əsaslı şəkildə təsvir etmək, dünya dövlətlərinin, həmçinin Azərbaycan Respublikasının bu sahədə tarixi təcrübəsini tədqiq etmək, tələbələr arasında tolerantlıq ənənələrini, dözümlülük dünyagörüşünü möhkəmləndirmək və inkişaf etdirməkdir. "Multikulturalizmə giriş" kursunun müasir Azərbaycan Respublikasının ali təhsil müəssisələrində tədris olunması, ilk növbədə fundamental bir məqsədə əsaslanır. Bu məqsəd - müasir üslubda düşünən, təfəkküründə neqativ stereotiplərə yer olmayan, bütün degenerativ əlamətlərdən uzaq olan, ekstremizmə, dini fanatizmə, qatı millətçiliyə "yox" deyən tolerant, mərhəmətli, intelligent, insansevər və yüksək səviyyədə vətənpərvər gənc azərbaycanlının, Azərbaycanın gələcəyinin real və potensial qurucusu olan postmodern insanın tərbiyə olunması, onun həyatının intellektual məzmununun, ümumbəşəri dəyərlərlə zənginləşmiş mütərəqqi ideoloji konstruksiyasının sistematik üsullarla yaradılmasıdır. Bu fundamental məqsədin reallaşdırılması isə ali təhsil sisteminin qarşısında multikultural tərbiyə ilə bağlı çətin və şərəfli vəzifələr qoyur:

1. Multikultural təlim keçən gənc, təlimin predmetini, mahiyyətini, nəzəri-ideoloji əsaslarını, meydana gəlməsi səbəblərini, tarixi şərtlərini, əhəmiyyətini anlamalı, təlimin incəliklərinə nüfuz etməkdə çox maraqlı olmalıdır. Bununla bağlı fənni tədris edən müəllimdən güclü intellektual-psixoloji hazırlıq və səbr tələb olunur. Yalnız belə şərtlərlə dinləyiciyə mültikulturalizmin yüksək zəruriliyini, onun mütərəqqi əhəmiyyətini və alternativi olmayan mədəni siyasət olmasını aşılamaq mümkündür.

2. Təlim keçən gənc multikulturalizmin yeni təlim kimi ideoloji əsaslarını öyrənməklə yanaşı, əsl tolerantlığın və multimədəni ənənələrin tarixini də dərindən bilməlidir. Bu məqsədə çatmaq üçün isə fənni tədris edən müəllim tarix, fəlsəfə, ədəbiyyat, sosiologiya, etnoqrafiya və s. kimi təlimlərin üzvi sintezindən yaratdığı hərtərəfli və sistemli məlumatlara əsaslanmalıdır.

3. Multikulturalizmin mədəni siyasət kimi yeni cəmiyyətdə rolunu düzgün təyin etmək üçün, onun ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı olmasını və ümumi sosial rifahın multikultural mühitin yaradılmasında

vacibliyini aşkara çıxarmaq tələb olunur. Bununla əlaqədar təlim verən müəllim ölkədə və dünyada mövcud olan iqtisadi vəziyyətlə tanış olmalı, dövlətin iqtisadi siyasətini və sosial-mədəni sahədə strateji planlarını düzgün təhlil etməyi bacarmalıdır.

4. Multikulturalizm ideyalarının qlobal miqyasda çağdaş inkişaf templərini, beynəlxalq sferada etnik-milli və dini-mədəni münasibətlərin tənzimlənməsini, multikultural mühitin ölkənin xarici siyasətinə müsbət təsirini öyrənmək, uğurlu multimədəni siyasətin necə bir vacib aksiya olmasını bir daha sübut edir. Bu vəzifənin uğurla həyata keçirilməsi ilə bağlı təlim verən hər müəllimdən dünyada mövcud olan multikultural modellər haqqında çox dərin məlumatlı olması, dövlətin xarici siyasət prioritetlərini bilməsi və onları düzgün təfsir etməsi bacarığı tələb olunur.

5. Təlim verən müəllim Azərbaycan multikulturalizminin banisi, ümummilli lider Heydər Əliyevin misli görünməmiş uzaqgörən və mütərəqqi fəaliyyəti haqqında çox geniş və hərtərəfli məlumatlara malik olmalı, müasir dövrdə Azərbaycan dövlətinin multikulturalizm siyasətini inkişaf etdirmək istiqamətində fəaliyyətini, Prezident İlham Əliyevin ölkədə multikultural və yüksək təşəkküllü demokratik mühit yaratmaq işində möhtəşəm xidmətlərini dərin təhlil etməyi bacarmalıdır.

Bu gün ölkənin təhsil sistemində əsas diqqət təhsilin məzmununun modernləşdirilməsinə yetirilir. Bu tendensiya təhsil alanların intellektual baxımdan real və potensial imkanlarının artırılması üçün əlverişli şəraitin yaradılmasını nəzərdə tutur. Son məqsəd isə bu və ya digər sahələrdə yüksək elmi səriştəyə malik olan, öz intellektual və praktiki bacarıqlarını səfərbər etməyi bacaran mütəxəssisin yetişdirilməsidir. Səriştə, yaxud kompetensiya (lat. *competere* - uyğun gəlmək, yaxud yaraşmaq - şəxsin müəyyən sahədə yüksək biliklərə və məlumata malik olması) biliyin, bacarığın və vərdişlərin inteqral (lat. *integralis* - toxunulmamış, bütöv) xarakteri kimi təzahür edir. Məhz belə tip bilik ətraf aləmdə baş verən hadisələri və mövcud vəziyyəti adekvat şəkildə qiymətləndirməyə, onlar haqqında nüfuzlu və elmi faktlara əsaslanan fikir irəli sürməyə, nəhayət mötəbər qərar qəbul etməyə imkan verir.

Beləliklə, müasir təhsil sisteminin başlıca vəzifəsi təkcə konkret intellektual və praktiki bacarığa malik olan mütəxəssisləri yetişdirməklə bitmir. Əsas məqsəd cəmiyyət üçün, dünyanın elmi mənzərəsindən baş çıxaran, sosial-mədəni baxımdan fövqəladə şəkildə aktiv olan, çağdaş mədəniyyəti formalaşdırmağa və inkişaf etdirməyə qadir olan şəxsiyyətin yetişdirilməsidir. Məhz bu halda cəmiyyətin təhlükəsiz gələcəyi zəmanət altına alına bilər.

Müasir pedaqoji təlimlərə uyğun olaraq, çox səriştəli mütəxəssis ilk növbədə dünyanın bütün reallıqlarını düzgün qiymətləndirməyi bacaran və baş verən proseslərə liberal münasibət ifadə edən mədəni insandır [7]. Multikulturalizm məhz tolerant ruha sahib olan, cəmiyyətin sabitliyinin dayağı kimi yetişən liberal şəxsiyyətin tərbiyə olunmasını öz müqəddəs vəzifəsi hesab edir. O, liberal ideologiyanın əsas formalarından biri kimi, razılıq və sabitlik siyasətini reallaşdırmaq, mədəni plüralizmi qorumaq kimi təyinat almışdır.

Müasir multimədəni təlim və təhsilin həyata keçirilməsini mötəbər beynəlxalq təşkilatlar - BMT, AB, AŞ və başqa. bütün mövcud üsullarla dəstəkləyirlər. Məhz əsl multikultural təhsil prosesində mədəniyyətlərin qarşılıqlı əlaqəsi və aktiv dialoqu prinsipləri bütöv şəkildə reallaşdırılır. Təbii, multikultural təhsil multikultural şəxsiyyət formalaşdırır. Bununla əlaqədar multikultural təhsilin qarşısında aşağıdakı vəzifələr durur:

1. Rasizmin, ksenofobiyanın və diskriminasiyanın psixologiyasını öyrənmək, mənfi stereotiplərin yaradılması mexanizmlərini təhlil etmək.

2. Milli-mədəni mühiti çox dərindən anlamaq, ölkədə tolerantlığın səviyyəsini müəyyən etmək.

3. Tolerant atmosferin yaradılması üçün effektli nəzəri və praktiki mexanizmlər yaratmaq.

4. Gənclərə əsla güc və zor tətbiq etmədən münaqişələri həll etmək qabiliyyətini və mədəniyyətini aşılamaq.

5. Təhsil alanlara, dünyada ümumbəşəri tərəqqiyə xidmət edən və şəxsiyyətin özünü tam ifadə etməsi üçün şərt olan çoxlu sayda müxtəlif mədəniyyətlərin olması haqqında geniş məlumat vermək, onlarda mədəni müxtəlifliyə qarşı müsbət münasibət formalaşdırmaq.

6. Gənclərdə ümumdünya mədəniyyətinə inteqrasiya olunmaq üçün intellektual imkanlar yaratmaq.

7. Gənclərin çeşidli mədəniyyətlərlə sıx dialoq və qarşılıqlı əlaqə yaratmaları bacarığını və qabiliyyətini formalaşdırmaq.

8. Gənc nəsli millətlərarası əbədi sülh, dözümlülük və humanizm ruhunda tərbiyə etmək, onları tənqidi və yaradıcı düşünməyə cəlb etmək.

9. Təhsil alanlarda milli özünüdərk və tarixi yaddaş mexanizmləri vasitəsi ilə ləyaqət, qürur, vətənpərvərlik, xalqa, ölkəyə və onun tarixinə məhəbbət, dövlətə və ölkə başçısna sədaqət hisslərini inkişaf etdirmək.

Bununla bağlı müasir Azərbaycanda multikultural tərbiyə və təhsil aşağıdakı pedaqoji prinsiplərə əsaslanır:

1. İnsan ləyaqətini və yüksək etik-mənəvi dəyərləri tərənnüm edən ideyaların təlim-tərbiyə prosesinə cəlb edilməsi.

2. Müxtəlif sosial qrupların, fərqli irqlərin, din mənsublarının və etnosların birgəyaşayış qaydalarının təşviqi və öyrədilməsi.

3. Tolerantlığa və yüksək təşəkküllü qarşılıqlı anlaşmaya hazır olmaq mexanizmlərinin və qaydalarının təbliği.

Bu gün ali tahsil müəssisələrində elmin zəngin sirlərinə yiyələnən fərdin multimədəni və intellektual dəyərlərdən bəhrələnmiş ekstratolerant şəxsiyyət kimi yetişdirilməsi prosesi unikal və spesifik məzmunlu tədris texnologiyasına əsaslanan və təhsil alanların multikultural oriyentasiyalı vərdişlər və dəyərlər əldə etmələrinə istiqamətlənmiş tədbirlər sistemi kimi təzahür edir. Beləliklə, multikultural təlim və tərbiyə, bir tərəfdən ölkəmizin ərazisində təmsil olunan bütün etnosların təhsil tələbatlarını ödəməli, digər tərəfdən isə insanları polietnik cəmiyyətdə yaşamaq üçün hazırlamalıdır [8].

## 1.4. Multikulturalizm və tolerantlıq. Tolerantlığın formaları. Tolerantlıq sosial-mədəni hadisə kimi. Tolerantlıq və intolerantlıq (ing. *Multiculturalism and tolerance. Forms of tolerance. Tolerance as a socio-cultural event. Tolerance and intolerance*)




İnsanın təşəkkülündən bu günədək yaşanan ümumbəşəri tarix ən çox özünün münaqişəli xarakteri ilə yadda qalmışdır. Münaqişə və böhran çağdaş dünyanın da dinamik məzmununu təşkil edir. Bu gün lokal, regional və qlobal miqyasda baş verən münaqişələr bir daha sübut edir ki, minilliklər əvvəl olduğu kimi postindustrial cəmiyyətdə də başqa varlığa, özgə ideyaya, başqa ekzistensiyaya səmimi münasibət və onların mövcudluğunu mütləq həqiqət kimi qəbul etmək bacarığı və vərdişləri kifayət qədər mütəşəkkil şəkildə formalaşmamışdır. Odur ki, insanlar gündəlik həyatlarında daim "başqa", "özgə", "ənənəvi olmayan" möhürləri daşıyan ideya və varlıqlarla birgə, yaxud yanaşı yaşamağa əsla dözə bilmirlər. Bu isə məişətdə, qruplarda, kollektivlərdə, icmalarda, nəhayət dövlətdə və qlobal cəmiyyətdə intolerantlıq hadisəsi kimi təzahür edir və münaqişəli cəmiyyətdə mövcud olan sosial-psixoloji durumu daha da gərginləşdirir. Lakin tez, yaxud gec, özündə tanrının və təbiətin işığını daşıyan hər bir kəs insanlığın yeganə bir inkişaf yolu olmasını, onun dini və irqi əlamətlərindən asılı olmayaraq, insanın öz növündən olan digər fərdlərə səmimi məhəbbət ifadə etməsindən ibarət

olmasını dərk edir. Bu zaman hər bir fərdə potensial şəkildə məxsus olan "dözümlülük və mərhəmət kodu" israrla üzə çıxır. İctimai münasibətlər sistemində linqvistik baxımdan bu kod "tolerantlıq" kimi təzahür edir. "Tolerantlıq" sosioloji termin kimi başqa dünyagörüşünə, həyat tərzinə, davranış, adət və ənənələrə dözümlə yanaşmaq deməkdir. Lakin o, əsla "özgə dəyərlərə" laqeydlik anlamına gəlmir. Eyni zamanda o, başqa dünyagörüşlərini və başqa həyat tərzlərini qəbul etmək demək deyil. Tolerantlığın əsas mahiyyəti başqalarına da öz dünyagörüşlərinə uyğun yaşamaq hüququ verməkdən ibarətdir (əlbəttə ki, bu dünyagörüşünün ümumbəşəri dəyərlərə zidd olmaması şərti ilə) [9].

Qeyd etmək lazımdır ki, "tolerantlıq" kimi yeni bir anlayış keçmiş SSRİ məkanında yaşayan xalqların leksikonuna XX əsrin 80-cı illərinin sonlarından bəri daxil olmuşdur. Latın dilindən tərcümədə "*tolerantia*" sözünün hərfi mənası "dözüm", fransız dilindən tərcümədə isə "*tolerant*" "dözümlü" deməkdir.

Artıq XX əsrin sonlarında tolerantlıq və multikulturalizm varlığın yeni atributuna çevrildi. Həm ontologiyada, həm də qnoseologiyada yeni həqiqət çoxluqda, müxtəliflikdə, subyektivizmdə ifadə olunmağa başladı. Başqa dəyərlərin və varlıqların əsas ekzistensial hüquqlarının qorunması ümumbəşəri hadisə, yüksək təşəkküllü sivil cəmiyyət yaratmaq işində əsas oriyentir kimi bütün dünya birliyi tərəfindən təsdiq olundu. Qədim tarixi olan "tolerantlıq" fenomeni münaqişəli cəmiyyətdə real ixlas yolu kimi tərənnüm olunmağa başladı. Bununla əlaqədar olaraq, müxtəlif tip mədəniyyətlərdə "tolerantlıq" fərqli formalarda təfsir olunurdu. İspanca "*tolerancia*" - şəxsi ideyalardan və rəylərdən fərqli olanlarını tanımaq deməkdir. Fransızca "*tolerance*" başqalarının fərqli şəkildə düşünməsinə və hərəkət etməsinə yol verən yeni münasibət kimi ortaya çıxır. İngiliscə "*tolerance*" şəxsiyyəti, hadisəni, yaxud predmeti etiraz etmədən qəbul etmək, dözümlülüyə, mərhəmətə hazır olmaq mənasını verir. Çin dilində "*kuan ronq*" icazə vermək, özgəni qəbul etmək, başqalarına münasibətdə çox səxavətli olmaq kimi izah olunur. Ərəbcə "*təsamül*" bağışlamaq, mərhəmətli olmaq, şəfqət göstərmək, lütf etmək kimi dəyərləri ifadə edir.

X əsrdə yaşamış məşhur ərəb ilahiyyatçısı və filoloqu Əhməd ibn Fariz ər-Razi özünün "Normativ lüğəti"ndə qeyd etmişdi ki, ərəb dilində "*samaaha*" sözü çeviklik, alicənablıq, dözümlülük, mərhəmət deməkdir [10]. "Xarici sözlər" lüğətində "tolerantlığa" lakonik tərif verilir - "özgə fikirlərə, rəylərə və inanclara dözümlülük"**.** 1994-cü ilə aid "Qısa fəlsəfi ensiklopediyada" isə tolerantlıq haqqında deyilir: "Tolerantlıq - başqa tipli baxışlara, əxlaqa və vərdişlərə dözümlülük deməkdir".

Tolerantlıq başqa tip mədəniyyətləri, çeşidli özünüifadə üsullarını, insan fərdiliyinin müxtəlif təzahür formalarını düzgün dərk etmək və qəbul etmək bacarığıdır. Lakin tolerantlıq cılız hisslərin diktəsi altında yersiz güzəşt etmək, yalançı mərhəmət göstərmək, həddindən artıq həlim olmaq, yaxud prinsipial dəyərləri tapdalamaq demək deyil. O, həmçinin sosial ədalətsizliyə dözmək, şəxsi əqidədən imtina etmək, özgə əqidələri qəbul etmək, eləcə də şəxsi əqidəni başqasına sırımaq (*prozelitizm*) anlamına gəlmir [11].

Tolerantlığın tiplərinin sinifləşdirilməsi aşağıdakı vacib mənaları özündə ifadə edir: **1. Etnoslararası tolerantlıq** - başqa milli, etnik və irqi ənənələrə hörmət şəklində ifadə olunur. Bu baxımdan tolerant insan hər hansı xalqa və onun hər bir nümayəndəsinə hörmət və məhəbbətlə yanaşan insandır. **2. Konfessiyalararası** (dini) **tolerantlıq** - bir dini konfessiyaya mənsub olan möminin, yaxud hər hansı din mənsubunun başqa dinin mənsublarının ruhani dəyərlərinə hörmətlə yanaşmasında ifadə olunur. Bu münasibət bütün insanların eyni bir substansiyadan və vahid ruhani mənşədən olması prinsipinin mütləq şəkildə tanınmasına əsaslanır. **3. Sosial-qrup tolerantlığı** - baxışlarında və əməllərində insan həyatı, azadlığı və sağlamlığı üçün heç bir real, yaxud potensial təhlükə daşımayan başqa sosial qrupların (siniflər, təbəqələr, stratalar, təşkilatlar, hərəkatlar və s.) cəmiyyətin vacib elementi olması faktını qəbul etmək və onlara olduqca səmimi münasibət göstərməkdə ifadə olunur. **4. Ekoloji tolerantlıq** - bütün həyat formalarına səmimi hörmətdə və məhəbbətdə təzahür edir. Hər hansı varlığın təbii qanunauyğunluğun nəticəsi olmasını və onların hər birinin həyat zəncirində xüsusi və vacib rolu olmasını dərk etmək kimi ali prinsiplərə əsaslanır. **5. Pedaqoji tolerantlıq -** hər hansı xidmətlərinə baxmayaraq, pedaqoqun şagirdlərə və tələbələrə səmimi münasibəti, eləcə də onların hüquq və azadlıqlarına, yaradıcı və tənqidi düşüncələrinə yüksək dözümlü münasibət və hörmət kimi ifadə olunur. **6. Fizioloji tolerantlıq** - əqli, fizioloji və fiziki sağlamlıq problemləri olan şəxslərə münasibətdə mərhəmət, dözümlülük, hörmət və məhəbbət kimi təzahür edir. **7. Siyasi tolerantlıq -** çeşidli siyasi baxışlarda mövcud olan fərqləri nəzərə almayaraq, siyasi opponentlərə əsl professional hörmət və dözümlülük nümayiş etdirmək deməkdir. Bu münasibətin əksi kimi isə tarixən siyasi səhnəyə diktatura, faşizm, qatı millətçilik, totalitar rejimlər, istibdad, başqafikirliliyə qarşı repressiyalar və s. çıxır. **8. Diplomatik tolerantlıq** - mövcud beynəlxalq və regional münasibətlər sistemində vətəndaşların həyatları, sağlamlıq və azadlıqları üçün təhlükə yaratmayan müxtəlif ölkələrə, təşkilatlara və birliklərə səmimi münasibətin ifadəsi

kimi təzahür edir. **9. Elmi tolerantlıq** - ümumbəşəri mənəvi dəyərlərə və fundamental təbiət qanunlarına əsla zidd olmayan fərqli elmi məktəblərə, ideyalara, təlimlərə və ən yeni elmi nəzəriyyələrin apologetlərinə (yun. "*apo*" - müdafiə, *"logos"* - söz - hər hansı ideyanı, təlimi, elmi, yaxud dini nəzəriyyəni müdafiə edən səriştəli şəxs) qarşı tolerant və səmimi münasibət, həmçinin başqaları tərəfindən ifadə olunan əsl elmi tənqidə dözümlülük kimi təzahür edir. Burada elm adamı, "həqiqət ideyaların plüralizmindən, müxtəlifliklərin nisbətindən və sağlam mübahisədən doğur" kimi prinsipə əsaslanmalıdır. **10. Administrativ tolerantlıq** - fundamental iş və idarəçilik prinsiplərinə xələl gətirməmək şərtləri ilə, tabeçilikdə olan aşağı rütbəli və vəzifəli şəxslərə münasibətdə mərhəmət, dözümlülük, hörmət və əsl qayğı göstərilməsini nəzərdə tutur. **11. Cinsi tolerantlıq** - əks cinsin bütün nümayəndələrinə, eləcə də cinsi azlıqların mənsublarına münasibətdə dözümlülük şəklində təzahür edir.

Beləliklə, müşahidə edirik ki, tolerantlığın müxtəlif istiqamətləri və çox fərqli tipləri mövcuddur. Lakin onların hamısını bir ortaq məxrəc birləşdirir: "başqa varlığa, başqa ideyaya, başqa dünyagörüşünə, başqa dəyərlərə münasibətdə açıq olmaq, ona hörmətlə yanaşmaq, bir şərtlə ki, o, insanların həyatı, sağlamlığı və azadlığı üçün heç bir təhlükə mənbəyi olmasın". Bu ümumi prinsiplərin formalaşması tarixi mərhələlərlə baş vermiş, mütləq şəkildə dünya mədəniyyəti ilə, xüsusilə də din və fəlsəfə ilə bağlı əxlaqi istiqamət kimi ifadə olunmuşdur.

Bu gün dünyada mövcud olan, dinamik şəkildə dəyişən etnik-siyasi münasibətlər sistemi tələb edir ki, ayrı-ayrı cəmiyyətlər, bütövlükdə isə dünya fundamental və universal prinsip kimi tolerantlığa əsaslansın.

XXI əsrin əvvəlində tolerantlıq problemlərinin müxtəlif aspektləri içərisində etnik-irqi və dini aspektlər daha böyük əhəmiyyət kəsb etməyə və müasir cəmiyyətdən daha çox çalışmalar tələb etməyə başlamışdır. Bu baxımdan münaqişəli cəmiyyətdə tolerantlığın özünü möhkəm təsdiq etməsi istiqamətində təhsilə mühüm rol ayrılır [12].

UNESCO-nun Parisdə keçirilən (1995) 28-ci Baş Konfransında imzalanmış "Dözümlülük prinsipləri qətnaməsi" (5.61 №-li rezolyusiya) çərçivəsində, hər il noyabr ayının 16-sı tarixinin Beynəlxalq Tolerantlıq Günü (ing. *International Day for Tolerance*) kimi qeyd edilməsi təntənəli şəkildə qəbul olunmuşdur. 2005-ci il isə BMT tərəfindən rəsmi şəkildə "Tolerantlıq ili" elan edilmişdi. Həmin il BMT Baş katibi Kofi Annan (1997-2006) öz çağırışında qeyd emişdi ki, "intolerantlığa qarşı mübarizə BMT-nin fəaliyyətinin başlıca istiqamətlərindən biridir".

Tolerantlığın əsas mahiyyətini və sərhədlərini təyin etmək üçün,

mütləq onun əksi kimi ifadə olunan dözümsüzlüyü, yaxud intolerantlığı, onun formalarını və təzahür tiplərini analiz etmək və dərindən öyrənmək son dərəcə vacibdir. Əsasən intolerantlıq (lat. *intolerantia* - dözülməzlik, dözümsüzlük) belə bir əqidəyə, ideyaya əsaslanır ki, eqoizmin əsiri olan fərd, kollektiv, yaxud sosium öz əhatəsini, dünyagörüşü sistemini, həyat tərzini başqalarından yüksəkdə tutur, hər kəsin onu nümunə kimi qəbul etməsinə iddia edir və bu iddia fövqəladə şəkildə israrlı olur. Bu təkcə elementar həmrəyliyin yoxluğu demək deyil, həm də insanda neqativ stereotiplərə əsaslanan elə bir psixoloji halətdir ki, o, başqasını başqa cür görünməsinə, düşünməsinə, yaşamasına, hətta sadəcə mövcud olmasına görə israrla qəbul etmək istəmir. Burada söhbət cəmiyyət və şəxsiyyət üçün son dərəcə təhlükəli olan məqamlardan, yəni üzdəniraq üstünlük, böyüklük kompleksindən, "mənəm-mənəmlik" formasında təzahür edən paranoyadan (yun. *paranoia* - ağılsızlıq, dəlilik) gedir. Bu vəziyyət bir fərdin psixoloji sərhədlərini aşaraq kollektiv xarakter alanda, daha da təhlükəli olur və qatı millətçilik, faşizm, şovinizm, rasizm, ksenofobiya, etnosentrizm, etnik zorakılıq kimi bəşəri dəyərlərə zidd olan formalar alır. Bu kompleksin bir etnos səviyyəsində reallaşdırılması isə soyqırım aktının gerçəkləşdirilməsi kimi, bəşəriyyətə qarşı cinayətlərlə nəticələnir. İntolerantlıq hər hansı mübahisəli situasiyada inandırmaq, razılaşdırmaq, qəbul etmək kimi sırf kompromis prinsipləri qəti olaraq inkar edir və öz "yeganə silahından" - əzmək, yatırmaq və məhv etməkdən istifadə edir. Bu "özgə baxışların" daşıyıcıları olan digər insanların mövcud olmaq hüquqlarının əlindən alınması deməkdir. İntolerantlıq hər hansı yeniliyə qarşı çıxır. O, adi ədəbsizlikdən və özgə təzahürə qıcıqlanmadan tutmuş, "başqalarının" metodiki və məqsədyönlü şəkildə məhv edilməsinə, etnik təmizləmə aktlarına qədər geniş diapazonda ifadə olunur.

## 1.5. Multikulturalizm tarixi zərurət və ümumbəşəri dəyər kontekstində (ing. *Multiculturalism as a universal value and historical necessity*)




"Zərurət ixtiranın anasıdır" (ing. *Necessity is the mother of invention*). Bu sözlər qədim dünyanın ən fenomenal dühalarından biri olan Platona (e.ə. 428-347) məxsusdur. Fəlsəfi kateqoriya kimi "təsadüf" anlayışına əks olan "zərurət" fenomeni cari hadisənin ən fundamental

xüsusiyyətlərindən yaranan çox mühüm, daxili əlaqə kimi təzahür edir. Beləliklə, zərurət müəyyən zaman və məkan etibarı ilə konkret şərtlər daxilində baş verəcəyi mütləq olan bir hadisədir. Təsadüf isə yanlış olan zahiri amillərlə şərtlənir və bir qayda olaraq, hadisənin daxili mahiyyəti ilə əlaqəsi olmayan fenomen kimi ortaya çıxır.

Əgər dünya yalnız təsadüflərdən ibarət olsaydı, o zaman hər yerdə xaos və nizamsızlıq hökm sürər və hadisələrin gedişini, onların gələcək perspektivlərini təyin etmək əsla mümkün olmazdı. Eyni zamanda bütün hadisə və proseslər yalnız zərurətə uyğun olaraq baş versəydi, o zaman inkişaf və tərəqqi əvvəlcədən məlum olan ssenari kimi mistik xarakter daşıyardı. Beləliklə, hər hadisə təkcə vacib, zəruri amillərin deyil, həm də təsadüfi, vacib olmayan səbəblərin təsiri altında formalaşır. Odur ki, təsadüf və zərurət bölünməz dialektik (qanunauyğun) vəhdət təşkil edir.

Qeyd etmək lazımdır ki, bir hadisə eyni zamanda həm zərurət, həm də təsadüf kimi xarakterizə oluna bilər. Zərurət təmiz şəkildə mövcud deyil və təsadüflərdən keçərək təzahür edir. Bu zaman təsadüf zərurətin forması və onun tamamlanması aktı kimi ifadə olunur. O, əsas hadisəyə özünəməxsusluq, təkrar olunmayan cizgilər qatır. Yanğınlar nəticəsində meşə massivinin məhv olması, tam təsadüfi səbəb kimi qiymətləndirilir, hadisənin yayda, sərt istilərin düşməsi ilə baş verməsi isə təbii şəraitin zəruri ifadəsidir.

Sözügedən anlayışları multietnik, yaxud multimədəni sferaya aid edərkən qarşımızda aşağıdakı mənzərə yaranır: Eyni bir “cövhərdən” (substansiya) yaranmış varlıq kimi bütün insanlar uzun tarixi inkişaf prosesi nəticəsində irsi keçən ümumi əlamətlər qazanır. Tədricən bu ümumi əlamətlər təbii və iqlim şəraitinin, landşaftın, fərqli qida və həyat tərzlərinin, nəhayət fərqli dünyaduyumunun təsiri altında fərdi xarakter kəsb etməyə başlayır.

Beləliklə, ilk mərhələdə çeşidli təsadüflərin nəticəsi kimi ortaya çıxan etnik-mədəni müxtəlifliklər yeni həyat tərzinə və bu həyat tərzini tərənnüm edən əsas simvollara çevrilərək, zərurət kimi tarixi inkişafın məzmununu təşkil etməyə başlayırlar (eyni şəkildə zərurətin təsadüfə çevrilməsi də mümkündür). Zərurətin real sosial-mədəni və etnik-siyasi sferada ifadəsi tarixi zərurət kimi xarakterizə olunur. Tarixi zərurət və tarixi qanunauyğunluq cəmiyyətin inkişaf qanunlarının özəl şəkildə ifadə olunması deməkdir.

Tarixi zərurət dedikdə, adətən müxtəlif xarakterli komponentlərin (mənimsənilmiş və insan varlığının ayrılmaz hissəsinə çevrilmiş təbiət, həmçinin müəyyən zaman çərçivəsində insan həyatını və fəaliyyətini

mümkün edən maddi, ruhani, sosial, iqtisadi, mədəni və s. münasibətlər, insanın dəyişdirici-yaradıcı fəaliyyəti, gələcək varlığın təşkilini nəzərdə tutan planlar və perspektivlər) və şəraitin elə məcmusu nəzərdə tutulur ki, onların çərçivəsində insanın fəaliyyəti mövcud durumları, cəmiyyəti və təbiəti öz arzu, istək və tələbatlarına uyğun şəkildə dəyişməyə başlayır. Tarixi zərurət, öz növbəsində tarixin əsas məqsədlərini ifadə edən tarixi şəxsiyyətlərin formalaşması zərurətini də nəzərdə tutur. Beləliklə, tarixi zərurət insan varlığına münasibətdə obyektiv xarakter daşıyır.

Multikulturalizm də bəşəriyyətin çoxlu sayda ixtiraları kimi tarixi zərurətdən yaranmışdır. Məlum olduğu kimi "multikulturalizm" termini ilk dəfə olaraq XX əsrin 60-cı illərində Kanadada meydana gəlmişdir. Bu terminin meydana gəlməsi o dövrdə bikultural (ingilis-fransız) Kanada cəmiyyətini tənzimləmək və effektli şəkildə idarə etmək üçün yolların axtarılması gedişində yaranmış bir situasiya ilə bağlı idi. O dövrdə bu axtarışlar "Kvebek separatizmi" təhlükəsi altında diktə olunurdu. Kanada hökuməti bununla əlaqədar multikultural quruluşu idarəçilik siyasətinin əsas məqsədi kimi elan etmişdi. Bu fenomen 1971-ci ildə siyasi cəhətdən rəsmən tanınmışdı. Avstraliyada isə bu anlayış XX əsrin 70-ci illərinin əvvəllərindən daha geniş yayılmağa başlamışdı.

Qeyd etmək lazımdır ki, XX əsrin ortalarına qədər Avstraliya ABŞ üçün xarakterik olan "Əridən qazan" (ing. *Melting Pot*) konsepsiyasına sadiqlik kimi ifadə olunan əsl rasizm siyasəti həyata keçirirdi. Lakin XX əsrin 50-ci illərində Avstraliyada başlanmış iqtisadi bum (hər hansı yeni hadisə ətrafında həddən artıq canlanmalar və ajiotaj) ölkəni daha tolerant olmağa sövq etdi. Çünki Britaniya immiqrasiyası artıq durmadan inkişaf edən ölkə iqtisadiyyatının ehtiyaclarını tam ödəyə bilmirdi. Avropalıların geri, Avropaya qayıdışı isə mövcud əmək resurslarının daha yeni, qeyri-Avropa ölkələrindən çıxmış yüksək ixtisaslı kadrlarla gücləndirilməsini tələb edirdi.

Beləliklə, Avstraliyada multikulturalizmin rəsmi qaydada tətbiq edilməsi, artıq XX əsrin 70-ci illərində ölkədə iqtisadi inkişaf tempinin qismən aşağı düşməsi və immiqrasiya axınının zəifləməsi ilə bağlı idi. Avstraliyanın hakim dairələri başa düşürdülər ki, belə hal demoqrafik və iqtisadi vəziyyət üçün arzuolunmaz nəticələrə gətirib çıxara bilər.

ABŞ-da da multikulturalizm siyasəti XX əsrin 60-70-ci illərində meydana gəlmişdir. Bu ölkədə də multikulturalizm kənardan gətirilmiş siyasi məsələ, sosial problem deyildi. Müxtəliflik və fərqlilik problemi kimi multikulturalizm, əzəli olaraq Amerika ənənələrinin özündə qərar tutmuşdu. Lakin ABŞ-da multikulturalizm əlavə rənglərlə və çalarlarla

seçilirdi. Kanadadan tam fərqli olaraq burada "Əridən qazan"ın sinkretik ideologiyası və plüralist milli identifikasiyanın (lat. *"identifiko"* - eyni, oxşar - etnoqrafiyada və antropologiyada insanın müəyyən bir millətə mənsubiyyəti) özünəməxsus sintezi üstünlük təşkil edirdi.

Müasir dövrdə insan təfəkküründə baş verən böhranlı məqamlar içərisində ən önəmlisi insan fikrinin sürətlə deformasiya olunmasıdır. Son illərdə bütün dünyada, qanunauyğun şəkildə mövcud dəyərlərin yenidən qiymətləndirilməsi, son nəticələrə bir də baxılması, çoxüzlü və o qədər də təzadlı reallığın dəqiq təyin edilməsi cəhdləri baş verir. Müxtəlif nəzəriyyələrin inkişafı isə varlığın müxtəlifliyi, fərqliliyi, çoxtərkibliliyi və çoxrəngliliyi ilə bağlıdır.

"Multimədəniyyət", "multikulturallıq" və "multimədəni cəmiyyət" kimi çeşidli terminlər son vaxtlar formalaşmış, lakin qədim mənşəyi olan fenomenin ifadəsidir. Müasir dövrdə "multimədəni" adlanan cəmiyyətlər lap əvvəllər "multimilli", "multietnik", "seqmentar" (lat. "*seqmentum*" - kəsik, hissə - Fransa sosioloqu və filosofu Emil Dürkheymə (fran. *David Emile Durkheim* - 1858-1917) görə çeşidli hissələrin tamamilə müstəqil fəaliyyət göstərdiyi, çox oxşar və ya eyni struktura və funksiyaya malik olduğu birlik) cəmiyyətlər adlanırdı. Belə tipli cəmiyyətlərə isə "mədəni plüralizmin" (lat. "*pluralis*" - çoxlu - bir-birindən asılı olmayan fərqli varlıqların mövcudluğu), "mədəni müxtəlifliyin" və "metisasiyanın" (lat. "*mixticius*" - qarışmaq - qarışıq genlər, qarışıq şəcərə, müxtəlif etnos və irqlərin nümayəndələrinin populyasiyası) ifadəsi kimi baxılırdı.

Multikulturalizm köhnə problemlərin müasir qaydalar əsasında həll olunması istiqamətində irimiqyaslı və uzunmüddətli proqramdır. Burada "etnos" kateqoriyasını "mədəniyyət", "kultura" kateqoriyası əvəz edir. Çünki "kultura" kateqoriyası müasir münaqişəli cəmiyyətlərin düsturunu daha geniş və dəqiq ifadə edir. Bununla bağlı bir çox mədəni məkanlarda zəruri olan multikulturallıq və mədəni çoxtərkiblilik kimi məqamları və nəzəriyyə ilə praktikanın vəhdəti olan multikulturalizmi dərindən dərk etmək lazımdır.

Yuxarıdakı bütün müddəaları ümumiləşdirərək, multikulturalizmin meydana gəlməsini, onun mədəni, siyasi və ideoloji fenomen kimi bəşəri dəyərlərə çevrilməsini tarixi zərurət kimi qəbul etməliyik. Zərurət isə fəlsəfi kateqoriya kimi müəyyən zaman və məkan hüdudlarında baş verməsi mütləq olan hadisəyə deyilir.

Etnik-siyasi proseslərin çox dinamik şəkildə inkişaf etdiyi müasir dünyada sülh, əmin-amanlıq və qarşılıqlı anlaşma şəraitində yaşamaq, bəşəriyyətin təhlükəsiz və davamlı inkişafını təmin etmək üçün başqa

alternativin olmadığı kimi, multikulturalizm adlanan bir fenomenin də alternativi yoxdur. Multikulturalizmin və onunla bağlı bütün mənəvi, siyasi və mədəni komponentlərin ümumbəşəri dəyər olması haqqında müxtəlif yanaşmalar mövcuddur.

Ümumbəşəri dəyər dedikdə, nəzəri cəhətdən mövcud olan mənəvi dəyərlər, əsas məzmunu cəmiyyətin inkişafının konkret dövrü ilə, yaxud konkret etnik ənənə ilə bağlı olmayan aksioloji (yun. *aksia* - dəyər, *loqos* -söz təlim) maksimlərin (lat. *maxima* - prinsiplər, ciddi qaydalar, mənəvi qayda, ümumi davranış prinsipi) əsas sistemi başa düşülür. Bununla belə, ümumbəşəri dəyər hər sosial-mədəni ənənədə konkret məna kəsb edir və daha keyfiyyətli, eyni zamanda spesifik ənənələrlə ifadə olunur.

Ümumbəşəri dəyərlər, bəşəriyyət üçün yüksək əhəmiyyət kəsb edən ənənəvi mədəni dəyərlərdir. Təbii, yüksək harmoniyaya əsaslanan həyat üçün ekoloji sferanın müstəsna əhəmiyyəti vardır, lakin sağlam əxlaqi-mədəni mühitin olması insan həyatı üçün daha vacib faktor hesab olunur. Bununla bağlı ümumbəşəri dəyərlər aşağıdakı əxlaqi-mədəni əlamətləri ifadə edir: ümumi rifah, məhəbbət, sülh, azadlıq, hörmət, xoşbəxtlik, ailə səadəti, insan təbiətinin digər varlıqlara və transendent varlığa (Allah) münasibətdə yüksək ifadəsi, "mənəviyyatın qızıl qaydası" ("özünə rəva bilmədiyini başqasına rəva bilmə" prinsipi), xeyirxahlıq, şüur, həqiqət, gözəllik, ədalət, sülhsevərlik, filantropiya, humanizm, dostluq, altruizm, əməksevərlik, həmrəylik, əsas dünyagörüşü idealları, mənəvi və hüquqi normalar, xalqlar arasında əsl sülh və dostluq, insan ləyaqəti, ekoloji və maddi rifah, dini qadağalar və s.

Sadalanan bu prinsiplər bəşəriyyətin tarixi-ruhani təcrübəsini ifadə edir və ümumbəşəri maraqların reallaşdırılması, eləcə də hər bir konkret götürülmüş şəxsiyyətin mövcud olması və inkişafı üçün şərait yaradır. Bu sistemin əsas elementlərini təbii və sosial mühit, mənəvi prinsiplər, estetik və hüquqi ideallar, dini-fəlsəfi ideyalar və digər ruhani dəyərlər təşkil edir.

Bu gün ümumbəşəri dəyərlərin prioritet olması ideyası yeni siyasi düşüncənin əsas özəyini təşkil edir. O, milli, regional və qlobal siyasətdə düşmənçilikdən, konfrontasiyadan və güc yolu ilə təsir göstərməkdən sülhə, dialoqa, kompromisə və əməkdaşlığa keçid kimi tərənnüm olunur. Ümumbəşəri dəyərlərin tapdalanması aktı isə bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirilir.

Bununla belə, ümumbəşəri dəyərlərə və onların tarixi roluna tənqidi münasibət ifadə edən çoxlu sayda insanlar və cəmiyyətlər mövcuddur. Onlar iddia edirlər ki, sosial kataklizmlər şəraitində ümumbəşəri dəyərlər

ümumiyyətlə öz mahiyyətini və təyinatını itirir. Siyasətdə cərəyan edən destruktiv proseslər, sosial-siyasi institutların dezinteqrasiyası və mənəvi dəyərlərin devalvasiyası cəmiyyətdə çox dərin böhran yaradır. Hətta belə tarixi şəraitdə bəzi cəmiyyətlər ümumbəşəri dəyərlərdən imtina edir və konkret siniflərin, qrupların, xalqların və sivilizasiyaların dəyərlərini ön plana çəkirlər. Bu isə gec-tez cəmiyyətdə dərin sosial-iqtisadi və etnik-mədəni böhranlarla nəticələnir. Məhz bu zaman cəmiyyət daha yüksək təşəkküllü münasibətlər sistemi yaratmaq zərurəti ilə üzləşir və sosial-mədəni seçim etmək üçün variantlar axtarır. Belə münaqişəli cəmiyyətdə ümumbəşəri dəyərlər insan birliyinin maraqlarını daha dolğun ifadə edən davranış normalarının diktəsi kimi “abstrakt ideal” hesab olunur. Yəni, ona müəyyən tarixi dövrdə konkret birliyin başqalarına öz ideyalarını və dəyərlərini “ümumbəşəri dəyərlər“ qismində sırıması kimi qiymət verilir.

Ümumbəşəri dəyərlərə daha bir mənfi-neqativ xarakterli münasibət onların, guya ictimaiyyəti manipulyasiya etməsi ideyası ilə bağlıdır. Belə yanaşmanın apologetləri iddia edirlər ki, xalqları, milli mədəniyyətləri, dinləri, həyat tərzlərini və həyat səviyyələrini birləşdirən ümumi dəyərlər haqqında ideya mifdən başqa bir şey deyil və insanların dünyagörüşündə bütün xalqlar üçün vahid inkişaf yolunun olması fikri, bütün bəşəriyyətin monolit orqanizm kimi mövcudluğu haqqında illüziyalar təfəkkürlərdə çaşqınlıq yaradır. Mütləq şəkildə ümumbəşəri dəyərlər mövcud deyil.

Bütün bu tənqidi yanaşmaların tamamilə yanlış olmasını belə bir tarixi fakt sübut edir ki, müasir qlobal münasibətlər sistemində bütün mədəniyyətlərin aktiv şəkildə ünsiyyətdə olduğu və qarşılıqlı tərzdə bir-birilərinə dəyişdirici təsir göstərdiyi şəraitdə, mədəniyyətlərin sülh, əmin-amanlıq və qarşılıqlı hörmət prinsiplərinə uyğun olaraq yaşamasını təmin etməyə qadir olan dəyərlərin ümumi sistemi olduqca zəruridir. Məhz multikulturalizm əsl mədəni siyasət kimi XX əsrdə qlobal cəmiyyətdə meydana gəlmiş tarixi zərurətdən doğan dəyərlərin ümumi sistemi, yaxud ümumbəşəri dəyərlər sistemidir.

## 1.6. Heydər Əliyev və Azərbaycanda multikulturalizm siyasətinin formalaşması (ing. *Heydar Aliyev and formation of the policy of multiculturalism in Azerbaijan*)



***"Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir".***

***Heydər Əliyev***

Min illər ərzində tolerantlıq və multikulturalizm ənənələrinə sadiq qalan Azərbaycan xalqı həmin ümumbəşəri dəyərləri öz tarixinin üzvi elementinə və həyat tərzinə çevirmişdir. Tariximizin hansı bir səhifəsini nəzərdən keçirsək, orada çox sayda çeşidli etnosların, fərqli mədəniyyət mənsublarının sarsılmaz bir ailədə, bütöv bir orqanizm kimi, birgə və mehriban yaşamasının şahidi oluruq.

Azərbaycan tarixində tolerantlıq və multikulturalizm ideyalarını siyasi müstəviyə və dövlət siyasəti səviyyəsinə **ümummilli lider Heydər Əliyev** çıxarmışdır. Heydər Əliyevin Azərbaycana I rəhbərliyi (1969-1982) zamanı etnik-milli və mədəni məsələlərə xüsusi diqqət yetirilmiş, dövrün multimədəni dəyərlərinin inkişafında ciddi sıçrayış baş vermişdi. Məhz sözügedən dövrdə Azərbaycan Respublikasının da təmsil olunduğu sovet ittifaqında sosialist beynəlmiləlçiliyinə əsaslanan yeni münasibətlər sistemi formalaşdırılmışdı. Lakin bu, süni şəkildə yaradılmış və ən zorakı üsullarla tənzimlənən bir sosium idi. Onun məhz belə olmasını SSRİ-nin tənəzzülü və iflası dövründə ittifaqın tərkibində təmsil olunan xalqlar arasında etnik-mədəni və dini münasibətlər zəminində başlanmış silahlı münaqişələr bir daha sübut etdi. Lakin Azərbaycana gəldikdə, SSRİ-nin dağılması ilə əlaqədar respublikanın tərkibində təmsil olunan çoxsaylı xalqlar və etnik qruplar arasında milli və dini zəmində heç bir münaqişə (erməni separatizmini nəzərə almasaq) baş verməmişdir. Bu isə təsadüfi hadisə deyil.

Qeyd etmək lazımdır ki, tarix boyu çoxlu sayda xalqların və etnik qrupların təmsil olunduğu Azərbaycanda 1920-ci ildə sovet hakimiyyəti

qurularkən, təbii olaraq, yeni, sosialist tipli ölkənin tərkibində çoxmillətli bir siyasi struktur yaradıldı. Bu Azərbaycan siyasi millətinin sosializm ideyaları və proletar mədəniyyəti əsasında formalaşmasının başlanğıcı idi.

II Dünya müharibəsinə qədər keçmiş burjua əqidəsinə və burjua mədəniyyətinə sadiq qalan əhali ilə sosializm prinsiplərini özünə həyat yolu seçmiş insanlar arasında bəzən aktiv, çox vaxt isə passiv ideoloji qarşıdurma hökm sürürdü. Lakin II Dünya müharibəsi Azərbaycanda yaşayan xalqları və etnik qrupları yeni inteqrativ ideyalar ətrafında birləşdirdi. Bu "Böyük Vətən" (SSRİ) və "Kiçik Vətən" (Azərbaycan) ideyaları idi. XX əsrin 50-ci və 60-cı illərində Azərbaycanda müəyyən millətçilik elementləri ifadə olunsa da, Heydər Əliyevin 1969-cu il iyul ayının 14-də Azərbaycan Respublikasına rəhbərlik etməyə başlaması ilə əlaqədar situasiya kardinal şəkildə dəyişdi.

Heydər Əliyev etnik-siyasi münasibətlər sisteminin mahir bilicisi kimi çox yaxşı başa düşürdü ki, "Azərbaycan" adlı məmləkəti öz canı və qanı bahasına, onu təmsil edən çoxmilliyyətli bir xalq - Azərbaycan xalqı yaratmışdır. Elə buna görə də, o milliyyətlərin hər birinin bu müqəddəs yurdda, torpaqda haqqı və hüququ olmasını "azərbaycançılıq" ideyasında tərənnüm etmək kimi bir missiyanı öz üzərinə götürmüşdü.

Heydər Əliyevin həyata keçirdiyi etnik-milli siyasət "üçlü kimlik" prinsipinə əsaslanırdı:

1. Sovet kimliyi (Sovet ittifaqının tərkibində bu vacib və məcburi faktor idi).
2. "Azərbaycan" milli-siyasi kimliyi.
3. Etnik-mədəni kimlik.

Məhz bu siyasətin nəticəsi idi ki, sovet dövründə, XX əsrin 60-cı illərinin sonu, 80-ci illərinin əvvəllərində Azərbaycanda yaşayan heç bir milli azlıq, etnik qrup və sosial birlik assimilyasiyaya məruz qalmamış və öz adekvat kimliyini qoruyub saxlamışdı. Azərbaycan Sovet ittifaqının tərkibində olarkən yeganə respublika idi ki, burada yəhudi millətindən olan heç bir kəsə qarşı diskriminasiya hadisəsi baş verməmişdi. Bu da Heydər Əliyevin möhtəşəm dühasının və siyasi bacarığının məhsulu və nəticəsi idi.

1993-cü ildə ümummilli lider Heydər Əliyev siyasi hakimiyyətə qayıdanda, həyata keçirdiyi ilk tədbirlərdən birincisi ölkənin etnik-siyasi birliyini təmin etmək üçün davamlı və təsirli tədbirlərin görülməsi oldu. O, "azərbaycançılıq" ideyasını ən ali milli dəyər elan etdi. Fenomenal düha sahibi olan Heydər Əliyev bütün sahələr kimi tarixi və etnik siyasət

məsələlərini də gözəl bilirdi. O, tolerantlığı və multikulturalizmi dövlət siyasəti səviyyəsinə qaldırmaqla, son dərəcə gərgin olan etnik-siyasi və geosiyasi şəraitdə, nəinki multikultural təhlükəsizliyi təmin etdi, hətta etnik siyasətdə yeni bir etalon - "Azərbaycan multikulturalizmi" etalonu formalaşdırdı.

1995-ci ildə şəxsən Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış və qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında, ölkə ərazisində yaşayan bütün xalqların, etnik qrupların hüquq və azadlıqları bütöv şəkildə təsbit olundu. "Bərabərlik hüququ" (maddə 25, bənd 3), "Milli mənsubiyyət hüququ" (maddə 44, bəndlər 1 və 2), "Ana dilindən istifadə hüququ" (maddə 45, bəndlər 1 və 2) və s.).

Ümummilli lider Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi modelinin assimilyasiya və izolyasiya kimi digər mümkün siyasi modellərdən üstün olduğunu bütün dünyaya bəyan etdi. Bununla bağlı Heydər Əliyev qeyd edirdi: **"Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq".**

Heydər Əliyev tolerantlıq və multikulturalizm siyasətini ölkənin demokratik inkişafının əsas tərkib hissəsi hesab edirdi. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarını, o cümlədən etnik-mədəni və dini dəyərlərin qorunmasını demokratiyanın mühüm prinsipi olan "əsas insan hüquq və azadlıqları" kontekstində görürdü. Azərbaycanda və xarici ölkələrdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikası ətrafında sıx birliyinin və həmrəyliyinin, "azərbaycançılıq ideyası" ətrafında səmərəli fəaliyyətinin təmin edilməsi, Azərbaycanda yaşayan icmaların, cəmiyyətlərin qrupların və birliklərin səmərəli işinin gücləndirilməsi və əlaqələndirilməsi məqsədi ilə Heydər Əliyev "Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında" 23 may 2001-ci il tarixli 724 saylı sərəncam verdi. Bu sərəncama əsasən isə 2001-ci il noyabr ayının 9-10-u tarixində Bakı şəhərində, indiki Heydər Əliyev Sarayında ümummilli lider Heydər Əliyevin sədrliyi ilə Bütün Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Qəlbində "Azərbaycan" adlı alov yanan hər kəs ulu öndərin möhtəşəm tarixi çağırışına səs verdi. Bu hadisə bir daha sübut etdi ki, bütün dünyada yaşayan azərbaycanlıların "Azərbaycan" adlanan bir Ana Vətəni var və bu yurd, bu ocaq hamı üçün müqəddəsdir, dinindən, dilindən milli mənsubiyyətindən asılı olmayaraq, burada bütün azərbaycanlıların bəşəri və ilahi haqqı vardır.

## 1.7. İlham Əliyev və Azərbaycan multikulturalizminin inkişaf perspektivləri (ing. *Ilham Aliyev and prospects of development of Azerbaijani multiculturalism*)



Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən siyasi istiqamət yeni mərhələdə onun layiqli davamçısı **Prezident İlham Əliyev** tərəfindən uğurla inkişaf etdirilir.

Multikulturalizmi Azərbaycan Respublikasının dövlət siyasəti, xalqımızın təbii həyat tərzi kimi dəyərləndirən Prezident İlham Əliyev bu siyasətin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu təşkilatlarla əməkdaşlığa xüsusi önəm verir. Məhz bu özəl siyasi xəttin davamı kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 26 noyabr 2009-cu il tarixində imzaladığı xüsusi Qanunla ölkəmizin "Mədəni özünüifadə formalarının müxtəlifliyinin qorunması və təşviqi haqqında" UNESCO Konvensiyasına qoşulmasını göstərmək olar.

Ümummilli lider Heydər Əliyevin Dünya Azərbaycanlılarının sıx birliyi və həmrəyliyi, varlığında "azərbaycanlı ruhu" daşıyan fədakar insanların vəhdəti naminə həyata keçirdiyi ideyaları, əbədi və müqəddəs irs kimi qoyub getdiyi ənənəni, mədəni dəyərlərin reallaşdırılmasını müasir mərhələdə Prezident İlham Əliyev uğurla davam etdirir.

Onu qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 8 fevral 2006-cı il tarixli 1291 nömrəli sərəncamına əsasən, 2006-cı il martın 16-da Bakı şəhərində, Heydər Əliyev Sarayında Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi müstəsna əhəmiyyət kəsb edir. Qurultayın gedişində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurasının sədri seçilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 21 yanvar 2011-ci il tarixli 1293 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsinin iyirminci ildönümü" ilə bağlı "Tədbirlər Planı"na əsasən, 2011-ci il iyul ayının 5-6-sı tarixində Bakı şəhərində, Heydər Əliyev Sarayında Dünya Azərbaycanlılarının yeni, III Qurultayı keçirildi. Bu qurultayda, çox əvvəllər Azərbaycanda yaşamış, dünyanın müxtəlif ölkələrinin vətəndaşları olan - rus, yəhudi, ukraynalı,

bolqar, axsıxa türkü olan insanların iştirakı, onların özlərini azərbaycanlı kimi təqdim və təmsil etmələri xüsusi əhəmiyyət kəsb edir, "Azərbaycan ideyasının" qüdrətini bir daha nümayiş etdirirdi.

Azərbaycanın əxlaqi-mədəni, sosial-iqtisadi və siyasi yüksəlişində son dərəcə vacib, xüsusi məqamlardan biri də, Prezident İlham Əliyevin təşəbbüsü və iştirakı ilə 2011-ci ildən etibarən, mütəmadi olaraq, Bakıda Beynəlxalq Humanitar Forumun keçirilməsidir. Artıq ənənəyə çevrilmiş bu forumların son açılışı zamanı etdiyi çıxışında Prezident İlham Əliyev multikulturalizmi **"alternativi olmayan mədəni siyasət, gələcək inkişaf üçün ən məqbul variant kimi"** dəyərləndirməklə, təkcə Azərbaycanda deyil, bütün dünyada multikulturalizm meyllərinin gücləndirilməsinin vacibliyini xüsusi olaraq qeyd etmişdir.

Belə bir siyasi kontekstdə Prezident İlham Əliyevin 28 fevral 2014-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının "Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri xidməti" təşkil edildi. 2000-2014-cü illərdə Bakı Slavyan Universitetinin rektoru olmuş Akademik Kamal Abdullayev bu quruma rəhbər təyin olundu. Müəyyən struktur dəyişikliklərinə (2017 - iyun) məruz qalsa da, bu gün bu xidmət ölkənin ideoloji həyatının önəmli istiqamətlərini əlaqəli şəkildə öyrənən, obyektiv cəhətdən müəyyən boşluqların doldurulmasını təmin edən vacib bir orqan kimi fəaliyyətini qurur və günü-gündən genişləndirir.

Prezident İlham Əliyevin multikulturalizm siyasətinin daha effektli şəkildə həyata keçirilməsini təmin etmək istiqamətində atdığı növbəti addım, onun 2015-ci ilin 15 may tarixində imzaladığı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında sənəd oldu. Mərkəzin yaradılmasında əsas məqsəd, ölkədə əsrlərlə formalaşmış tolerantlığın, etnik-mədəni və dini müxtəlifliyin qorunmasını və çiçəklənməsini təmin etmək, həmçinin Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etmək idi.

Bu gün multimədəni dəyərləri tərənnüm edən Azərbaycan xalqının sıx və sarsılmaz birliyinin təmin edilməsi işində möhtəşəm tədbirlərin təşkili və həyata keçirilməsi kimi proses uğurla davam edir. Azərbaycan Respublikasının Prezidenti, möhtərəm İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən davamlı multimədəni siyasətin ən başlıca əhəmiyyəti isə ondan ibarətdir ki, geniş və kompleks şəkildə həyata keçirilən mütərəqqi ideyaların külliyyatı Azərbaycan xalqının həyatında çoxəsrlik əxlaqi-mədəni və mənəvi dəyərlərin intibahı kimi təzahür etdi və xalqın əsrlərlə formalaşmış, lakin müəyyən obyektiv tarixi səbəblərdən deformasiyaya məruz qalmış əsl tolerant obrazını və müdrik simasını özünə qaytardı.



Prezident İlham Əliyevin etnik tolerantlığa, yeni multikulturalizm ideyalarına verdiyi mədəni-siyasi dəyərlərin dünya miqyasında real elmi, mədəni və sosial müstəvilərə çıxarılması işində Heydər Əliyev Fondunun və fondun prezidenti, ölkənin birinci xanımı, Azərbaycan Respublikasının I vitse-prezidenti **Mehriban Əliyeva**nın müstəsna xidmətləri vardır. Multikulturalizm ideyalarının təbliği və təşviqi ilə bağlı baş tutan bütün yerli, regional və beynəlxalq miqyaslı və xarakterli tədbirlər Mehriban Əliyevanın və onun rəhbərlik etdiyi strukturların təşkilatçılığı və iştirakı ilə reallaşdırılır.

2014-2015-ci tədris ilinin payız semestrindən başlayaraq, İtaliya, Rusiya, Bolqarıstan, Belarus, Litva, Çexiya, Gürcüstan və digər ölkələrin tanınmış universitetlərində, həmçinin ölkəmizin ali təhsil müəssisələrində “Azərbaycan multikulturalizmi” fənninin tədrisi başlanmışdır. BBMM-in Himayəcilik Şurasının sədri və Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri, Kamal Abdullayevin xüsusi təşəbbüsü ilə reallaşan yay və qış məktəbləri isə xarici ölkə universitetlərinin tələbə və müəllimlərinin semestr boyu Azərbaycan haqqında əldə etdikləri əsas nəzəri biliklərinin, ölkəmizi, artıq əyani şəkildə görməklə tamamlanması məqsədi daşıyır. 2015-ci tədris ilinin I semestrindən “Multikulturalizmə giriş” (bakalavriat) və “Azərbaycan multikulturalizmi” (magistratura) fənləri Azərbaycanın 29 ali məktəbində, həmçinin Mingəçevir Dövlət Universitetində, eləcə də dünyanın 11 ölkəsinin ali məktəblərində tədris olunur. Ölkəmizdə yüksək təşəkküllü mədəni mühitə əsaslanan məkanın formalaşdırılması və inkişafı istiqamətində həyata keçirilən davamlı tədbirlər Prezident İlham Əliyevin rəhbərliyi altında bu gün daha yüksək səviyyəyə çatmışdır. 2016-cı ilin Azərbaycanda “Multikulturalizm ili” elan edilməsi və onunla əlaqədar çoxlu sayda mədəni və siyasi xarakterli möhtəşəm tədbirlərin keçirilməsi buna parlaq sübutdur. Bununla bağlı olaraq, 2016-cı il iyun ayının 3-4-ü tarixində Bakı şəhərində keçirilən Dünya Azərbaycanlılarının IV Qurultayı Azərbaycan xalqının birlik və həmrəyliyinin daha da möhkəmləndirilməsinə, ölkədə yeni multikultural münasibətlərin yüksək səviyyədə inkişaf etdirilməsi işinə çox vacib töhfə oldu. Azərbaycanda birliyin, həmrəyliyin, multikulturalizm ideyalarının inkişafı istiqamətində növbəti möhtəşəm addım Prezident İlham Əliyevin

rəhbərliyi altında 2017-ci il 12-22 may tarixlərində Bakıda 57 müsəlman dövlətindən olan 6000 idmançının iştirak etdiyi IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi idi. Azərbaycan bu oyunlar vasitəsi ilə bütün islam aləminə tolerantlığın, dini dözümlülüyün və ən yüksək təşəkküllü multikultural dəyərlərin real təcəssümünü nümayiş etdirdi.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda multikulturalizm ideyalarının çox yüksək şəviyyədə həyata keçirilməsi istiqamətində möhtəşəm işlər davam edir. Bu işlərin fonunda isə əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş müasir, tolerant, multikultural vahid Azərbaycan, yüksək təşəkküllü monolit Azərbaycan milləti formalaşır.

### *İstinadlar*


1. *Альбрехт М. История римской литературы. Т.1.- Москва: Греко-латинский кабинет Ю.А. Шичалина, 2003. - С. 440-441*
2. *Мальковская И.А. Многоликий Янус открытого общества: опыт критического осмысления ликов общества в эпоху глобализации. - Москва: КомКнига, 2005. С. 189*
3. *Бенхабиб Сейла. Притязания культуры. Равенство и разнообразие в глобальную эру. Москва: Логос, 2003. - С. 9 - 31*
4. *Пенской В.В. Военная революция в XVI-XVII веках и её изучение в зарубежной и российской историографии второй половины XX - начала XXI вв. Научные ведомости БелГУ. Белг., Минск, 2008 - № 5 (45). С. 67-73*
5. *Ницше Ф. Полн. собр. соч.: в 13 т. Москва: Культурная революция, 2014. Т. 12, с. 468; Т. 13, с. 477*
6. *Ницше Фридрих. Так говорил Заратустра. Перевод с немецкого В.В. Рынкевича. Москва, 2013.- с. 1-10. 320 с.*
7. *Палаткина Г.В.Мультикультурное образование: современный подход к воспитанию на народных традициях. Педагогика.-М:, 2002.- № 5. - С. 41-47*
8. *Палаткина Г.В. Мультикультурное образование:современный подход к воспитанию на народных традициях. Москва, 2002. - № 5. С. 175*
9. *Victor Emil Frankl. Würterbuch der Logotherapie und Existenzanalyse, p. 471-472*
10. *Муджам макайис ал-луг (нормативный словарь языка). Ибн Фарес. Матабат аль-Ханджи. Египет. Издание 3, 1403 г.х. т.3. с. 99*
11. *Абдулатипов Р.Г. Этнополитология и политика. Учебное пособие для студентов высших учебных заведений. Петербург, 2004. 315 с., с. 182*
12. *Бондаренко Д.М., Деминцева Е.Б., Кавыкин О.И., Следзевский И.В., Халтурина Д.А. Образование как фактор утверждения в обществе норм этноконфессиональной толерантности в условиях глобализации. История и современность. Москва, 2007 - 2:153-184*

# II FƏSİL. ŞƏRQİN İCTİMAİ-FƏLSƏFİ FİKİR TARİXİNDƏ TOLERANTLIQ VƏ MULTİKULTURALİZM İDEYALARI




## 2.1. Qədim Hindistan və Çin fəlsəfi fikrinin tolerant mahiyyəti (ing. *Tolerant essence of philosophical thought of Ancient India and China*)




Ümumbəşəri dəyərlər və etik-mənəvi problemlər haqqında ilk sistematik fikirlər və konseptual ideyalar öz əksini Qədim Şərqdə, xüsusilə də Hindistanda və Çində yaranmış dini-fəlsəfi təlimlərdə tapmışdır. Bu təlimlər içərisində caynizm, buddizm, hinduizm, konfusiançılıq, daosizm və b. multimədəni dəyərləri, əsl humanizm ideyalarını tərənnüm edən qədim konstitusiyalar kimi dünya tarixində silinməz iz qoymuşlar. Sözügedən təlimlər bu gün də yüz milyonlarla insanın əxlaqi-mənəvi keyfiyyətlərini, ruhani durumunu və elementar dünyagörüşünü təyin edən konsepsiyalar kimi öz fenomenal təsir qüvvəsini itirməmişlər.

E.ə. VI əsrdə təşəkkül taparaq formalaşmış **caynizm** təlimi dharmi dini ideyalardan biridir. “Dharma” hər kəs üçün fərdi olan yoldur və bu yolda hər insan maksimal şəkildə əzablardan uzaqlaşır. Sanskritdən (devanaqari. *samskrita* - qədim Hindistanda mürəkkəb və sintetik qrammatikaya əsaslanan ədəbi dil) tərcümədə “cina” (ilk dəfə caynizmin banisi Mahavira (e.ə. 600-528) belə ada layiq görülmüşdü) sözünün mənası “qalib” deməkdir. Bu təlim hər hansı canlı orqanizmə zərər verməyin yolverilməz olduğunu elan edir. Caynizm iddia edir ki, bütün canlılara ruh məxsusdur və onlar tanrı qarşısında bərabərdir [1]. Təsadüfi heç nə yoxdur. Hər yaranış və hər mövcudat bəşəri məqsədlərə xidmət edir. Beləliklə, bu təlimin fundamental dəyərləri tolerantlığa və bəşəri mərhəmətə söykənir. Caynizm insan ruhunun əsl, həqiqi təbiətinin açılmasını özünün əsas vəzifəsi hesab edir. Caynizmə görə yalnız ötəri, təsadüfi və kompleks elementlərdən tam azad olmuş insan ruhu tanrını,



təbiəti və insanı düzgün şəkildə dərk edər və onlara adekvat münasibət göstərə bilər [2].



Qədim Hindistan sivilizasiyasının ən qiymətli nailiyyətlərindən biri olan **buddizm** (ing.*buddhism*) dini-fəlsəfi təlimində də ənənələrdən gələn multikultural dəyərlər, tolerantlıq prinsipləri və mərhəmətə əsaslanan qızıl xətt ifadə olunur. Sanskritdən tərcümədə "*buddha*" termininin mənası "nurlanmış" deməkdir. Əsası e. ə. VI əsrdə qoyulmuş bu təlimin meydana gəlməsi insan mərhəmətinin laqeydlik, qəddarlıq və eqoizm üzərində təntənəsinə əsaslanır. Təlimin banisi Sidhardha (e.ə. 563-483) ilk dəfə insan həyatının fani olmasını dərk edən kimi həqiqət axtarışına çıxır və nəticədə belə möhtəşəm bir təlim ərsəyə gəlir. İnsan əzablarını dərindən duymaq və başqasının miskin taleyinə acımaq hissi buddizmin aparıcı ideyasını təşkil edir. Təlimin əsas prinsipial məqsədi isə insanların yer kürəsində əbədi əzablarını yüngülləşdirmək, hər bir fərddə yüksək əxlaqi dəyərlər tərbiyə etməklə, onları əbədi əzablar zəncirindən qurtarmaqdır [3]. Budda iddia edirdi ki, başqa dinlərə və əqidələrə münasibətdə dözümlü olmaq ruhani insanlığın əsas şərtidir. Buddizmin tədqiqatçılarının, demək olar ki, hamısı iddia edirlər ki, bu prinsipi ilk dəfə məhz buddizm elan etmişdir. Buddizm, həmçinin öz əqidəsini başqalarına zorla qəbul etdirməyi ən pis əməllərdən biri hesab edir, hər kəsin öz müstəqil ruhani və mədəni yolu olduğunu təsdiq edirdi. İlk buddistlər (hind buddistləri) üçün əsl tolerantlıq əsas dini ideal idi. Buddizmdə, hətta təriqətçilərə münasibətdə yüksək təşəkküllü tolerantlıq ifadə olunurdu. Məhz bu səbəbdən hələ qədimdə bu təlimin çoxlu sayda fərqli cərəyanları meydana gəlmişdi. Lakin bu hal ortodoksal buddizmin mövqeyinə və nüfuzuna əsla xələl gətirməmiş, əksinə onun bəşəri din olduğunu bir daha təsdiqləmişdi. Buddoloqlar israrla iddia edirlər ki, "buddizmin bu xarakteri nə qədər qədim olsa da, o qədər də müasirdir" [4].




Qədim Hind sivilizasiyasının şah əsərini **hinduizm** kimi dini-fəlsəfi təlim təşkil edir. Hinduizm qədim Hindistan subkontinentinin tarixində oxşar və fərqli qəbildən olan fəlsəfi məktəblərin, dini ənənələrin məcmusu kimi təzahür etmişdir. Bu təlimdə isə qədim hind təfəkkürünün ən dahi nümunələri öz parlaq əksini tapmışdır. Sanskritdə hinduizmin tarixi adı "santana dharma" kimi səslənir. Tərcüməsi "əbədi

din", "əbədi yol", "əbədi qanun" deməkdir. İbrani dini təlimlərdən fərqli olaraq, hinduizmin banisi yoxdur. O, vahid bir sistemə əsaslanmır. Bu baxımdan müxtəliflik, tolerantlıq və multikulturallıq hinduizmə üzvi şəkildə məxsusdur. Hinduizmdə monoteizm, politeizm, panteizm (yun. *pan* - hər şey, *theos* - tanrı - tanrını təbiətlə vəhdətdə qəbul edən fəlsəfi təlim), monizm (yun. *mono* - tək - bütün obyektlərin vahid bir başlanğıcı (substansiya) olması haqqında spesifik fəlsəfi dünyagörüşü), hətta ateizm elementləri sintez təşkil edir. Hinduizmdə çoxlu sayda tanrı obrazları bir varlığın müxtəlif üzləridir. Onlar ayrılıqda çox çeşidli missiyaları yerinə yetirsələr də, sonunda vahid ali məqsədə - səmavi həqiqətlərin insana çatdırılmasına xidmət edirlər. Ənənəvi hinduizmin əsas məzmunu tanrı məqamlarına qovuşmaq, təmiz tanrı sevgisinə çatmaq, varlığın əbədi dövriyyəsindən (sansara) çıxmaq və özünün həqiqi "mən"ini tapmaqdan ibarətdir. Həqiqi "məni" tapmaq üçün isə mütləq tanrının yaratdığı digər "mən"lərə də hörmət, mərhəmət və məhəbbət əsas şərtdir. Qeyd etmək lazımdır ki, hinduizm, hətta Hindistanın hüdudlarında heç vaxt vahid, mərkəzləşdirilmiş təşkilata malik olmamışdır. Hind məbədləri həmişə muxtar qurumlar olmuş və heç vaxt hansısa ali ruhani müdiriyyətə tabe olmamışlar. Kahinlər, tərbiyəçi-qurular, müəllim-açaryalar həm qədimdə, həm də indi ayrı-ayrı ailələri, məktəbləri, tək-tək adamları dini cəhətdən maarifləndirsələr də, öz aralarında heç bir nizamlı təşkilat yaratmamışlar. Hinduizmin mövcud olduğu min illər ərzində heç bir ümumhinduist dini məclisi keçirilməmiş, heç bir ümumi normalar, prinsiplər və qaydalar qoyulmamışdır. Buna baxmayaraq, ümumi konsepsiya min illər ərzində qorunub saxlanmış və heç bir ciddi dəyişikliyə məruz qalmamışdır [5]. Bu hind cəmiyyətinin multikultural ənənələri, bütün elementar ideyaların vahid bir məfkurəyə ali "hinduizm" məfkurəsinə təbii sədaqəti ilə izah olunur.



**Qədim Çin fəlsəfəsində tolerantlıq motivləri (ing. *Tolerant motives in the philosophy of ancient China*)**

Qədim Hindistan cəmiyyətində olduğu kimi, Qədim Çin sivilizasiyası da özünün tolerantlıq və multikultural dəyərləri ilə məşhurdur. Bu dəyərlər ilk növbədə özünü dini-fəlsəfi təlimlərdə ifadə edir. Belə mütərəqqi təlimlər içərisində əsas yeri **konfusiançılıq** tutur. Çinli mütəfəkkir **Kun Fu Tszı** (e.ə. 551-479) tərəfindən yaradılmış konfusiançılıq din deyil, o, bir dünyagörüşüdür, ictimai etikadır, siyasi ideologiyadır, nəhayət qədim elmi ənənə və həyat

tərzidir. Onun bütün müddəaları isə məşhur "Lun Yuy" ("Söhbətlər və mühakimələr") əsərində şərh olunmuşdur. Bəzən fəlsəfə və din qismində də xarakterizə olunur. Bu təlim e.ə. VI əsrdə Çində dərin sosial və siyasi kataklizmlərin baş verdiyi bir dövrdə yaranmışdır. İki min il ərzində isə təlim dövlət quruculuğunda və cəmiyyətin təşkilində əsas prinsip kimi özünü təsdiq etmişdir. Bu gün o, Çin dövlətinin ictimai-mənəvi həyatında mühüm rol oynayır. Tolerantlığa və multikultural dəyərlərə əsaslanan bu təlimdə əsas və mərkəzi problem kimi hökmdar və təbəələr, dövlət və vətəndaşlar arasında münasibətlərin nizamlanması çıxış edir. Hökmdarın və təbəələrin sırf əxlaqi keyfiyyətləri dövlətin və cəmiyyətin vahid bir orqanizm kimi fəaliyyət göstərməsində əsas şərt olaraq ortaya qoyulur. Böyüklərə hörmət, kiçiklərə mərhəmət, hökmdara və dövlətə əsl sədaqət kimi dəyərlər konfusiançılığın ən başlıca meyarları qismində tanınır [6]. Bütövlükdə konfusiançılıqda aşağıdakı dəyərlər cəmiyyətin fundamental əsasları kimi qəbul olunmuşdur: humanizm, ədalət, mərifət, əxlaq, xoş məram, bilik, ziya, intellekt, müdriklik, inam, iman, istedad, övlad borcu, böyüklərə hörmət, vətənə sədaqət, sülhsevərlik, razılığa gəlmək, asikar olmamaq, dövlətçiliyə və hakimiyyətə hörmət, mərhəmət, "qızıl orta" prinsipi, həddi aşmamaq, saflıq, doğruluq, əməli-salehlik və s. Bütün bu dəyərlərdən üstdə isə elementar varlıqların vahid bir orqanizmdə yanaşı mövcudluğunu təsdiq edən mütləq birlik, yaxud əsl vəhdaniyyət ideyası durur. Məhz bu ideyanın təsirindəndir ki, bu gün 1 milyard 400 milyon əhalisi olan müasir Çin cəmiyyəti inanılmaz bir dünya nizamı əsasında fəaliyyət göstərir və bəşər tarixində misli görünməmiş xariqələr yaradır.

Qədim Çin sivilizasiyasının idraki dəyərlərindən biri də **daosizm** təlimi hesab olunur. Çin dilindən tərcümədə "dao" sözünün hərfi mənası "yol" deməkdir. Təlimdə iddia olunur ki, bütün predmetlərin, insanların və hadisələrin "daojiao" adlanan universal bir yolu vardır. Dao bütün fərdi varlıqların özünəməxsusluqlarını qoruyub saxlamaq şərti ilə eyni, universal bir yoldan - daodan keçərək mütləq həqiqətə doğru getməsini iddia edir. Beləliklə, müxtəliflik universallığın vəhdəti daosizmdə də aparıcı ideya kimi təzahür edir. Bu isə tolerantlığın və multikulturalizmin klassik ifadəsidir. Dao varlığın əsas qanunudur, dünyanın universal birliyidir, onu heç kim yaratmayıb, lakin hər şey ondan yaranır. O, kainatın iradəsidir, dünya nizamı ona uyğun qurulub və ona tabedir [7].



## 2.2. Zərdüştlük və maniçilik dini-fəlsəfi təlimlərində multikultural dəyərlər (ing. *Multicultural values in the religio-philosophical disciplines of Zoroastrianism and Manichaeism*)



**Zərdüştlük** (ing. *Zoroastrianism*). Qədim dünyanın ən fenomenal dini-idraki nailiyyətlərindən biri də zərdüştlük dini-fəlsəfi təlimi hesab olunur. Zərdüştlüyün yarandığı qədim dövrü (e.ə. IX-VII əsrlər), yarandığı yeri (Azərbaycan, İran, Mərkəzi Asiya), yazılı mənbələri ("Avesta"), dili (zəndi), ilkin olaraq 21 kitabdan (*naska* – kitab, bölmə) ibarət olması, bu gün yazılı şəkildə yalnız 5 kitabın (Yasna, Vispered, Videvdat, Yaşt, Kiçik Avesta) mövcud olması, kitabın ən qədim variantının "Qatlar" (nəğmələr - Zərdüştün dilindən tanrı Hörmüzdə ünvanlanmış 17 poetik himn) adlanması və onun Zərdüşt tərəfindən yazılması, "Avesta"nın orijinalının e.ə. 330-cu ildə Makedoniyalı İskəndər tərəfindən qədim Persepolda yandırılması haqqında mənbələrdə kifayət qədər məlumat var. Lakin bu gün bu təlimin insanları birliyə çağırması, onun parlaq şəkildə ifadə olunan əsl multikulturallığı, başqa ideyalara münasibətdə tolerantlığı, təriqətçiliyə və mədəni plüralizmə münasibətdə çox yüksək liberalizm ifadə etməsi müzakirə obyektidir. Hələ zərdüştlük ideyalarının təşəkkülünə qədər arilərin Hindistandan İrana köçməsi ilə əlaqədar iki qrup tanrılara (xeyir və şər) sitayiş meydana gəlmişdi. Arilərin oturaq həyata keçmələri ilə "İşıqlı tanrılara" (şərti olaraq onlar mələklər kimi xarakterizə olunurdu) yeni sitayiş dövrü başlanmışdı. Məsələn, Mazda müdriklik və həqiqət təcəssümü, Mitra isə dostluq, razılıq və müqavilə təcəssümü idi. Belə kultlar "yazatlar" (rəğbətə layiq olanlar) adlanırdı və yeni insani münasibətlərin formalaşdırılmasında həlledici rol oynayırdı. Göründüyü kimi, yeni tip - oturaq həyat tərzi və birgəyaşayış normaları insanlardan dözümlü, tolerant olmağı, razılıq və ilahi müqavilə şərtləri ilə birgə yaşamağı tələb edirdi. Odur ki, ilkin variantda dualist sistem (Xeyir - Hörmüzd, Şər - Əhriman) kimi təzahür edən klassik zərdüştlük, sonrakı dövrlərdə çoxlu sayda kultlarla təmsil olunurdu.

Əslində, zərdüştlük özündə çoxlu sayda mütərəqqi ideyaları sintez etmiş ilk monoteist çağırışlardan biri idi. Təsadüfi deyildir ki, "Avesta" sözünün hərfi mənası da "ilk xəbər", "ilk çağırış" demək idi. Zərdüştlük mövcud olan multikultural dəyərləri, plüralist ideyaları və müxtəliflikləri, hətta şərin varlığını belə vahid bir ideya altında birləşdirirdi. Burada isə

multikultural dəyərlərin və tolerantlığın son dərəcə mütərəqqi versiyası ortaya çıxırdı. Zərdüştlükdə çoxlu sayda kultlar içərisində "Dadodaheş və Aşudad" kimi kultlar xüsusi əhəmiyyət kəsb edirdi. Bu kultlar insanlar arasında vacib qarşılıqlı köməyi, ehtiyacı olanlara yardımı, insanların bir-birilərini qarşılıqlı şəkildə dəstəkləməsini tərənnüm edirdi. Qeyd etmək lazımdır ki, növbəti tarixi mərhələlərdə yaranmış dini-fəlsəfi təlimlər və ideyalar - yunan və Roma fəlsəfəsi, xristianlıq, maniçilik və başqaları məhz zərdüştlüyün pozitiv ideyalarından bəhrələnmişdilər.

Qədim hind dini-fəlsəfi təfəkkürünün, hind mifologiyasının Qərb sivilizasiyasına təbii transformasiyasında zərdüştlüyün tranzit mərhələ kimi təzahür etməsini, onun qədim hind fəlsəfəsi ilə çoxlu sayda analoji xüsusiyyətlərinin olması sübut edir [8]. Orta əsrlərdə belə bir fikir geniş yayılmışdı ki, qədim Azərbaycanda, İranda, Mərkəzi və Ön Asiyada zərdüştlük ideyalarının yayılmasına qədər "sabeizm" təlimi mövcud olmuşdur. Sabeizm (xüsusi addır) astrolatriyanın (yun. *aster* - ulduz, *latreno*-xidmət edirəm-ulduzlara xüsusi sitayiş) bir istiqaməti idi və səma cisimlərinin ilahiləşdirilməsi qismində təzahür edirdi. Orta əsrlər Şərq tarixinin ən görkəmli şəxsiyyətlərindən biri olan Ömər Xəyyam Nişapuri (1048-1131) bu haqda "Novruznamə" əsərində geniş məlumat verir [9].

Belə məlum olur ki, zərdüştlük dini-fəlsəfi təlim olmaqla yanaşı ictimai ideologiya kimi də təzahür edirdi və o, insan təfəkkürünün bütün gücünü "hipotetik səmavi qayğılardan" insanların real qayğılarına və çağdaş problemlərinə yönəldirdi.

Zərdüştlük təlimində Aşa və Druc kimi kultlar da xüsusi əhəmiyyət kəsb edirdi. Bir-birinə tamamilə əks olan həmin anlayışlar zərdüştlüyün etik-mənəvi əsaslarını təşkil edirdi. Hörmüzdün qızı Aşa bütün kainat miqyasında təzahür edən harmoniya, həqiqət və xeyir qanunu, Druc isə Aşanın antitezası (yun. *antitesis* - əks mövqe, yaxud əksinə getmək) kimi yalanı, dağıdıcılığı, deqradasiyanı, zorakılığı, qarəti təcəssüm etdirən şər idi. Bu kultların qarşıdurması ilə əlaqədar olaraq, bütün insanlar iki əsas kateqoriyaya bölünürdülər: 1. Aşavanlar, yaxud Aşanın tərəfdarları, sülh yaradanlar, əməli-salehlər. 2. Drucvantlar, yaxud Drucun tərəfdarları, yalançılar, dünyaya bədbəxtliklər gətirənlər, ara qarışdıranlar.

Göründüyü kimi Şərqin dini-fəlsəfi dünyagörüşü tarixində xüsusi yeri və mövqeyi olan zərdüştlük, üzvi şəkildə tolerantlığın, multimədəni dəyərlərin, mərhəmətin, birgəyaşayış və mütləq həmrəylik prinsiplərinin möhürünü daşıyırdı. Bu baxımdan müasir düşünən tolerant şəxsiyyətin yetişdirilməsində zərdüştlük irsinə müraciət etmək son dərəcə vacibdir.



**Maniçilik** (ing. *Manichaeism*). İsavilik təliminin Yaxın Şərqdə yayıldığı bir dövrdə (III əsr) regionda maniçilik kimi məşhurlaşmış yeni bir ideya formalaşmağa başladı. Mani (*Manihəyya* - 215-276) adlı şəxsin dini-fəlsəfi fəaliyyəti ilə bağlı olan bu təlim, o dövrün multikultural dəyərlərini və tolerantlıq prinsiplərini parlaq şəkildə özündə əks etdirirdi. Maniçilik sinkretik dini-fəlsəfi ideyaların ifadə olunduğu tolerant bir sistem idi. Bu təlimdə zərdüştlüyün, xristianlığın, caynizmin, buddizmin, hinduizmin və digər təlimlərin ən mütərəqqi elementləri cəmləşmişdi.

Maniçiliyin başlıca motivlərini fundamental dualizm (lat. *dualis - ikili*) - qaranlıqla işıq, xeyirlə şər arasında mübarizə ideyası təşkil edirdi. Mani iddia edirdi ki, hər bir şeyi, hətta şəri də tanrı yaratmışdır. Hər bir yaranış isə mütləq şəkildə xüsusi məqsədə əsaslanır və məqsədsiz heç nə yoxdur.

Maniçilikdə tolerantlıq və multikulturalizm üzvi şəkildə ön plana çəkilirdi. Əsas məqsəd isə müxtəlif dünyagörüşü sahiblərini "vahid dini məfkurə" altında birləşdirmək idi. Maniçilik təliminə həqiqi ümumbəşəri xarakter məxsus idi. Bu təlimin məhz bu cür xarakteri maniçiliyə antik mədəniyyətdən tutmuş hind-çin mədəniyyətinə qədər dünyanın müxtəlif dini-mədəni konsepsiyalarına nüfuz etməyə imkan vermişdi [10].

Manihəyyanın yeni sinkretik təlim yaratmaqda məqsədi, əsla digər ideyaları və təlimləri ideoloji assimilyasiyaya məruz qoymaq deyildi. O, insan təfəkkürünün bütün ruhani və əxlaqi-mədəni nailiyyətlərini vahid bir sistemdə birləşdirməklə, müxtəlif etnosların, din, əqidə mənsublarının ideoloji birliyini tam təmin etmək məqsədi güdürdü. Məhz bu məqam maniçilik təliminin klassik multimədəni mahiyyətini və ona məxsus olan müxtəlifliklərin vəhdətini təşkil etmək strategiyasını parlaq şəkildə ifadə edirdi. Lakin bir çox tədqiqatçılar iddia edirlər ki, dünyada xristianlıq, hinduizm, yəhudaizm, buddizm və bu kimi digər fundamental dini-fəlsəfi konsepsiyaların fövqəladə təsir qüvvəsinə malik olduğu yeni bir dövrdə maniçilik həqiqi inteqrativ dünya ideologiyasından çox, dünya bidəti, özünəməxsus ideoloji reformasiya kimi təzahür edirdi [11]. Bütün bu təzadlı münasibətlərə baxmayaraq, maniçilik etnik-siyasi və dini-mədəni münasibətlər sistemi tarixində silinməz iz qoymuşdur. Əsrlər keçsə belə, Manihəyyanın tərənnüm etdiyi ali mütərəqqi ideyalar, mütləq barışığa çağırış kimi möhtəşəm dəyərlərin külliyyatı öz aktuallığını itirməmişdir.

## 2.3. Ortodoksal islam ideologiyasında fundamental tolerantlıq (ing. *Fundamental tolerance in orthodox islamic ideology*)



İbrani dinlər içərisində üçüncüsü və sonuncusu islamdır. "İslam" sözünün mənası "Allaha, onun qanunlarına tabe olmaq" deməkdir. Bu söz ərəb dilində feldən yaranmış isim olaraq "uğurlu olmaq, xoşbəxt olmaq, qurtulmaq, sağ qalmaq, azad olmaq" mənalarını verir. İslam qanunları toplusu olan şəriətə əsasən islam ideologiyasının təməl prinsiplərində artıq yüksək təşəkküllü tolerantlığın və multikulturallığın elementləri ifadə olunur.

İslam dini ərəb tayfalarının etnik-siyasi cəhətdən birləşdirilməsi üçün ideoloji zərurət kimi, 610-cu ildə meydana gəlmişdir. Onun əsasını Məkkə şəhərinin sakini, Qüreyşi qəbiləsindən və Həşimi nəslindən olan Məhəmməd ibn Abdullah, yaxud Məhəmməd peyğəmbər salavatullah qoymuşdu. İslamın bütün müddəaları Qurani-Kərim (ərəb. oxu, qiraət) adlanan müqəddəs kitabda təfsir olunmuşdur. İslamiyyətin ən müqəddəs məkanı Məkkə şəhərində yerləşən və rəvayətə görə İbrahim peyğəmbər tərəfindən inşa olunmuş Kəbə (ərəbcədən tərcümədə "Kub") və burada sonralar tikilmiş Məscid əl-Həramdır [12].

Ortodoksal islam tanrı kəlamlarının külliyyatından ibarət sosial-iqtisadi, etik, mənəvi, əxlaqi və siyasi dəyərlər sistemidir. Qeyd etmək lazımdır ki, islam dininin təşəkkülü və yayılması dövründə onun ideoloji əsaslarının tolerantlığa, multikulturallığa, elmə, nəhayət ilahi mərhəmətə söykənməsinin geniş auditoriyaya çatdırılması mexanizmləri heç yox idi. Sonrakı tarixi dövrlərdə də islamın elmliliyi arxa plana çəkilmiş və o, mifoloji toplum kimi kütləyə təqdim olunmuş, ibadət təlimdən üstünlük təşkil etmişdi. "Quran" sözünün mənası "oxu", "qiraət et" olduğu halda, ona "toxunulmazlıq" epiteti verilmiş və "yeddi qat dəsmala bükülərək təfəkkürdən uzaq yerdə saxlanmışdır".

Əslində isə Quran başdan-başa fundamental tolerantlığa əsaslanan bəşəri və ilahi dəyərlərdən ibarətdir. Bu baxımdan o, özünü məhəbbət və tolerantlıq əqidəsi kimi təsdiq etmişdir. Quran bəşəriyyətin keçmişinə böyük hörmətlə yanaşır, bütün məlum peyğəmbərlərə ehtiram və sevgi göstərməyə çağırır.

Məhəmməd peyğəmbər (salavatullah) bütün dinlərin mənşəyinin eyni olduğunu qeyd edərək xüsusi vurğulayırdı ki, "bütün peyğəmbərlər

qardaşdır və onların inancı eynidir - mərhəmət, alicənablıq, əhd, xeyirxah əməl, insansevərlik və tanrı məhəbbəti”.

Quranın demək olar ki, bütün surələrində insanlıq üçün müstəsna xidmətlər göstərmiş, yaxud bəşəriyyətə müqəddəs kitablar bəxş etmiş peyğəmbərlərin - Nuhun, İbrahimin, Musanın, Davudun, Süleymanın və İsanın adları böyük hörmətlə anılır. İslamın kitab əhlinə - yəhudilərə və xristianlara münasibəti də həmişə, birmənalı şəkildə müsbət olmuşdur. Quranda antisemitizmi, yaxud rasizmin hansısa bir ifadəsini təbliğ edən bir dənə də olsun söz və kəlam yoxdur. Quran yəhudiləri Kənan elinin və İbrahim peyğəmbərin övladları kimi tanıyır və İsraildə onların tarixi haqqı olduğunu təsdiq edir.

Digər məlum dinlərin mənsublarına - buddistlərə, hinduistlərə və s. münasibətdə də islam yüksək liberalizm nümayiş etdirir və iddia edir ki, “hər şəxsiyyətin ürəyinin hökm etdiyi əqidəyə rəğbət bəsləmək və tanrı həqiqətlərinə aparan öz yolunu müstəqil şəkildə seçmək hüququ vardır”.

Quran müsəlmanlara digər din mənsubları ilə də nikah bağlamağa və ailə qurmağa icazə verir. Quranda daim nifrət obyekti kimi tənqid edilən fenomen isə təcavüzdür. Müqəddəs kitab təcavüzkarla, düşmənlə hər hansı dialoqa girməyi və ona hörmət etməyi qadağan edir. İslamın intolerantlığı tək bundan ibarətdir və bu da təbiidir. Qalan bütün hallarda islam yüksək təşəkküllü və əvvəlki digər müqəddəs doktrinalarda əksini tapmamış bəşəri ideyaları tərənnüm edir.

Qurani-Kərimin **49-cu Əl-Hucurat surəsinin 13-cü ayəsində** belə deyilir:“Allah cəmi insanları bir kişidən (Adəm) və bir qadından (Həvva) yaratdı, onları çoxaltdı, çoxlu tayfalara və xalqlara çevirdi, onun üçün ki, siz bir-birinizi tanıyasınız, əməkdaşlıq edəsiniz” [13].

Burada əsas diqqət, insanların müxtəlif etnoslara mənsub olmasına baxmayaraq, bir atanın və bir ananın övladları olmasına yönəldilir və onların genetik şəkildə “qardaş və bacı” olmaları vurğulanır. Bununla da onlar qardaşlığa, bir-birilərinə qarşı çox dözümlü və mərhəmətli olmağa çağrılır.

Qurani-Kərimin **2-ci Əl-Bəqərə (İnək) surəsinin 256-cı ayəsində** isə deyilir ki, “heç bir kəsə güc yolu ilə başqa dinlərin mənsublarını öz inanclarından döndərmək kimi hüquq verilməmişdir. Dində məcburiyyət yoxdur. Həqiqətin yolu məlumdur - biliklərə sahib olmaq, səhv yoldan və səhv əməllərdən qurtulmaq” [14].

İslam dini mütləq birliyə və qlobal həmrəyliyə çağırış kimi təzahür edən mütərəqqi ideyaların məcmusudur. Qurani-Kərimin **3-cü Ali-İmran surəsinin 103-cü ayəsində** deyilir: “Allah dini naminə bir yerdə olun,

parçalanmayın və tanrının sizə olan mərhəmətini unutmayın. Siz islama qədər bir-birinizlə düşmən idiniz. İslam isə sizi yaxınlaşdırdı, birləşdirdi. İslam dininə rəğmən sizin qəlbləriniz biri-birinə yaxın oldu və siz bir-birinizi tanrı məhəbbəti ilə sevən doğma qardaşlara çevrildiniz” [15]. Bu kəlamlar islamın fundamental şəkildə sülh dini olduğunu bir daha sübut edir.

Qurani-Kərimin **6-cı Əl-Ənam surəsində** deyilir ki, başqa dinlərin mənsublarını təhqir etmək və alçaltmaq olmaz. Bu surədə hətta kafirlərin bütlərinə də hörmətlə yanaşmaq tövsiyə olunur və iddia edilir ki, tanrı öz həqiqətlərini onlara vaxtı gələndə açacaq və onlar haqqın dərgahına təbii yolla, düşünülmüş şəkildə gələcəklər.

Tolerantlığı, mərhəməti və alicənablığı tərənnüm edən ali ideyalar Məhəmməd peyğəmbərin (salavatullah) hədislərində də öz əksini tapır. Peyğəmbərin (salavatullah) hədislərindən birində deyilir: “Allahın ən çox sevdiyi əqidə tolerant hənəfilikdir”. “Allah o insanlara daha mərhəmətli olur ki, onlar bütün əməllərində (alqı-satqı, tələb, sevgi, məhəbbət və s.) yüksək mərhəmət və tolerantlıq nümayiş etdirirlər” [16].

Peyğəmbərin (salavatullah) bəzi hədislərində fanatizm səviyyəsində ifadə olunan intolerantlığın son aqibəti haqqında da konkret fikirlər var: “Fanatiklər məhv olacaqlar”. Peyğəmbər (salavatullah) bu kəlməni üç dəfə təkrar edir və bu, irəli sürülən ideyanın mütləqliyini və vacibliyini ifadə edir. “Fanatiklər yerli-yersiz həddindən artıq canfəşanlıq edən insanlardır” [17]. Məhz fanatizm tanrının heç bir vaxt bağışlamadığı ən böyük günahlardan biridir.

Qeyd etmək lazımdır ki, islam dini əsl ixlas ideologiyası kimi yer üzündə qəddarlıq və zorakılıq qismində ifadə olunan cahilliyin (cahiliyyə dövrü) tüğyan etdiyi bir dövrdə meydana gəlmişdi. Onun əsas vəzifəsi isə ruhani cəhətdən ciddi iflasa uğramış insanı tanrının göndərdiyi **“Səmavi konstitusiya” (Müqəddəs Quran)** vasitəsi ilə yenidən yaratmaq, onun varlığına mütərəqqi əxlaqi məzmun qatmaq, yaradanla insan və insanla insan arasında münasibətləri qaydaya salmaq, degenerasiya dövrü yaşayan fərdləri həqiqət yoluna çıxarmaq idi və o, öz məqsədinə çatdı. Səmavi və dünyəvi ruhun gücünü və qüdrətini səfərbər edərək, bəşəriyyəti “vaxtsız qiyamətdən” qurtardı.



## 2.4. Sufilik, ələvilik, bektaşilik, hürufilik və druzilik təlimlərinin multikultural əsasları (ing. *The multicultural foundations of sufism, alavism, bektashism, hurufism and druse*)



**Sufilik** (ing. *Sufism*). Qurani-Kərimin ən ali, mütərəqqi ənənələrini ortodoksiya (yun. *ortodoksia - salehi, həqiqi, dəyişilməz*) prinsipləri əsasında davam etdirən təlimlərdən biri sufilik təlimi hesab olunur. Sufilik (*təsəvvüf* - mənası təbii müdriklik deməkdir) hələ Məhəmməd peyğəmbərin (salavatullah) dövründə meydana gəlmiş, IX-X əsrlərdə formalaşaraq, XIII-XIV əsrlərdə çağdaş müsəlman icmasında ən nüfuzlu ideologiyalardan birinə çevrilmişdi. Ərəb dilindən tərcümədə "sufyun" sözünün hərfi mənası "dəvə yunu" deməkdir. İlk sufilər dəvə yunundan hazırlanmış üst geyiminə daha çox üstünlük verdiklərinə görə belə adlanırdılar [18].

Sufiliyin əsas qayəsi dünyanın bəsit təsadüflərindən uzaq olan, öz təbiətinin neqativ keyfiyyətləri üzərində mütləq qələbə çalmağı bacaran "mükəmməl insanın" tərbiyə olunmasından ibarətdir. Sufilik təliminin köməyi ilə insan öz qəlbinin əhd, inam, dözüm, dözümlülük, şükür etmək kimi sakral dəyərlərini reallaşdıra və şər, dözümsüzlük, qürur və xəsislik kimi çatışmazlıqlarla mübarizə apara bilər. Sufiliyin multikulturallığı və tolerantlığı isə, ilk növbədə ondan ibarətdir ki, bu təlim təkcə hansısa bir konkret dinə istinad etmir və Adəmdən başlayaraq Qurana qədər bütün mütərəqqi bəşəri və tarixi dəyərləri qəbul edir. Sufilik Mütləq həqiqəti müxtəlif formalarda görür [19].

Əgər sufidən xahiş etsələr ki, o öz dualarını kilsədə, sinaqoqda, məsciddə və ya başqa məbəddə etsin, düşünmədən bunu edir. Onun üçün həqiqət bir, ona aparan yollar isə müxtəlifdir. Bu müxtəlifliyə hörmət isə yüksək təşəkküllü mədəni qəlbin xassəsidir. Cılız qəlbi olan insan heç vaxt başqa, "özgə" dəyərlərə hörmət edə bilməz. Sufinin əsl məbədi onun ürəyidir və orada onun sevimli Allahı qərar tutmuşdur.

Sufilik həm din, həm fəlsəfə, həm də mistikadır. O, məhəbbətin, harmoniyanın və gözəlliyin vəhdətini tərənnüm edir. Beləliklə, sufilik doktrinasının başlıca məzmununu əsl tanrı həqiqətlərinə aparan yolların müxtəlif olması və bu yolların hamısının eyni səviyyədə vacib olması ideyası təşkil edir.




**Ələvilik** (ing. *Alavism*). İslamda öz spesifik tolerantlığı ilə fərqlənən əsas təlimlərdən biri də ələvilikdir. “Ələvi” sözünün hərfi mənası “Əlinin davamçıları” deməkdir. Digər bir fərziyyəyə görə “ələvilik” odpərəstlik anlamına gəlir (türkcə *alev*, yaxud *alov* - od deməkdir). Ələviləri çox vaxt “qızılbaşlar” adlandırırlar. Bu onunla əlaqədardır ki, ələvilər digər müsəlmanlardan fərqli olaraq, başlarına qırmızı şərf dolayırdılar. Türkiyədə, Suriyada, Bolqarıstanda, Albaniyada və digər ölkələrdə yaşayan, ələvi ideologiyasının sadiq daşıyıcıları olan əhalinin ümumi sayı 6-7 milyon nəfərdir. Ələvilər dini ayinləri həyata keçirmək üçün xüsusi inşa olunmuş evlərdən (cami evi) istifadə edirlər. Ayinlər (ayini-cəm) isə ruhani saflaşma və tanrı ilə vəhdət rəmzi olan musiqi və rəqslərdən (semah) ibarət olur. Ayinlər zamanı qadınlar və kişilər eyni hüquqlara malik olurlar və birgə ibadət edirlər. Ələviliyin fundamental prinsipləri aşağıdakılardan ibarətdir: 1. Dini baxışlarından və etnik-milli mənsubiyyətindən asılı olmayaraq, bütün insanlara hörmət və məhəbbət. 2. Bütün dinlərə və etnik qruplara hörmət. 3. Əməyə məhəbbət və əməkçi insana hörmət.

Qeyd etmək lazımdır ki, islamın çoxlu sayda mütərəqqi prinsipləri ələvilik ideologiyasında parlaq əksini tapmışdır. Ələvilər Həzrət Əlini və imaməti başlıca sitayiş obyektlərindən biri hesab edirlər. Ələvilik eyni zamanda bektaşiliklə sıx bağlıdır və onların hər biri XIII-XIV əsrlərdə yaşamış müqəddəs Hacı Bektaş Vəlini öz mənəvi ataları hesab edirlər. Müasir ələviliyin inkişafına humanizm və universalizm kimi ideyalar çox güclü təsir göstərmişdir. Spesifik ruhani əlamətləri ilə tərənnüm olunan ələvilik İslam dünyasının möcüzələrindən biri hesab olunur.



**Bektaşilik** (ing. *Bektashism*). Əsrlər boyu İslam dünyasında mövcud olan tolerant və multikultural təlimlərdən biri də bektaşilikdir. Bektaşilik təlimi XIII əsrdə Hacı Bektaş Vəli (1248-1337) tərəfindən yaradılmış, sonralar sufi ordeninin bir qolu kimi inkişaf etmişdir. Rəvayətə görə, Bektaşın şəcərəsi 7-ci imam Musa Kazıma gedib çıxırdı. Həmçinin, rəvayətlərdə Bektaşın Osmanlı dövlətinin qurucusu, 1281-1324-cü illərdə Osmanlı dövlətinin hökmdarı olmuş I Osman-Qazinin (1258-1324) taxta çıxmasına xeyir-dua verməsi haqqında danışılır. Bektaşiliyin multikulturallığı ondan ibarətdir ki, o, əsrlər ərzində özündə müxtəlif mədəniyyətlərə və ideologiyalara mənsub

olan fərqli elementləri üzvi sintez etmişdir. Bu təlim Həzrət Əliyə rəğbət baxımından islamiyyətlə, xaçaçuran elementləri ilə əlaqədar xristianlıqla bağlılığını ifadə edir.

Bektaşiliyi təmsil edən şəxslərin əksəriyyəti əvvəllər başqa dinlərə, xüsusilə də xristianlığa sitayiş edənlərin arasından çıxan yeni şəxslər idi. Bektaşilər dünyanı “Allah, Məhəmməd ya Əli” triadasının (yun. *triados – üç müxtəlif elementin birləşməsindən yaranmış vəhdət*) vasitəsi ilə dərk etməyi üstün tuturlar. Ayin yeməklərində (*trapeza*) xristianlığa məxsus elementlərdən - şərab, çörək və pendirdən istifadə edirlər. Hal-hazırda bektaşilərin çox böyük bir hissəsi Albaniyada yaşayır. Ordenin başçısı “dədəbaba” titulu daşıyır. Özündə sinkretik elementləri ifadə etdiyi kimi, Bektaşi ordeninin əsas ideyası başqalarına hörmətdə və dözümlülükdə ifadə olunur. Müasir bektaşilər Quranı və şəriəti alleqorik (yun. *alleqoria* - məcazi) anlamda qəbul edir, ümumsufi doktrinası olan “vəhdət əl-vücudu”, yaxud “vahid əl-vücudu” (Müsəlman İspaniyasından olan islam ilahiyyatçısı Muhiyəddin İbn Arabi (1165-1240) tərəfindən yaradılmış, varlığın bütövlüyünü və eyni bir mənbədən yarandığını tərənnüm edən təlim) dəstəkləyirlər. Onlar Novruz bayramını Həzrət Əlinin ad günü kimi qeyd edir, xristianlıqda olan “illik etiraf” (peşmançılığın ifadəsi, nüfuzlu şəxs qarşısında günahları və törədilmiş bəd əməlləri etiraf etmək kimi dini ayin) praktikasından istifadə edirlər.



**Hürufilik** (ing. *Hurufism*). Sufilik ideyalarının spesifik modifikasiyalarından biri də hürufilikdir (ərəb. *hüruf* - hərf). Bu təlimin banisi olan Şeyx Fəzlullah Nəimi (1339-1401) 1376-cı ildə Təbrizdə yeni təlimin müddəalarını rəsmi şəkildə elan etmişdi. Nəimi məhz bütün Azərbaycanı rəmzi “Oyanış yeri” (fars. *“Sərzəmine-rəstəhiz”*) adlandırırdı. Hürufilik həqiqətə çatmağın yolunu ərəb və fars hərflərinin mistik məzmununun dərindən təhlil-təfsir edilməsində görürdü. Hürufiliyin bütün müddəaları Nəimiyə məxsus “Cavidannamə” (“Əbədiyyət kitabı”), yaxud “Cavidani-Kəbir” (“Böyük Əbədiyyət”) kitabında şərh olunmuşdur [20].

Sufilikdən sonra hürufilik də multikultural dəyərləri və tolerantlığı özündə ifadə edən ən geniş yayılmış təlimlərdən biri olmuşdur. Hürufilər dövrün cahilliyinə, degenerasiyaya uğramış monqol təfəkkürünə qarşı “kamil insan”, “mükəmməl şəxsiyyət” ideyasını qoyurdular. Onlar iddia edirdilər ki, yalnız kamil insan kamil insanla birləşə və tanrı məqamına yüksələ bilər. Kamil insan dünya sirlərinə sahib olandan sonra onu öz

xeyrinə və bütün bəşəriyyətə xidmət etmək üçün dəyişdirəcəkdir. Yalnız kainatın sirlərini bilən, fanatizmdən tamamilə uzaq olan, mütləq şəkildə pozitiv düşünən insan sülh yaratmağa, mərhəmətli olmağa, digər fərdin varlığına hörmət və ehtiramla yanaşmağa qadirdir. Hürufilik təlimi insanı etnik-milli əlamətlərinə görə deyil, onun dünya duyumuna, başqalarının şəxsiyyətinə, azadlığına və mənliyinə hörmətinə görə qiymətləndirirdi. Hürufilik dünyanın sirlərini açmağa can atan yeni insan ruhunu ən ali və mükəmməl potensiya hesab edirdi. Yalnız belə tipli insanlar tanrının yaratdıqlarına yüksək hörmət, məhəbbət və dözümlülüklə yanaşa bilər. Hürufiliyin ən görkəmli nümayəndələrindən biri də məşhur Azərbaycan şairi Seyid Əli İmadəddin Nəsimi (1370-1417) idi.



**Druzilik** (ing. *Druse*). Yaxın və Orta Şərqin multimədəni ənənələri sistemində ərəblərin etnik-konfessional qrupları olan druzların və onların xüsusi növ dini əqidəsi olan druzilik təliminin xüsusi yeri vardır. “Druzi” təlimi XI əsrdə yaşamış müsəlman missioneri Məhəmməd əd-Dərazinin adı ilə bağlıdır. Bu gün druzlar, əsas etibarıilə Livanda, Suriyada, İordaniyada və İsraildə yaşayırlar. Druzların çoxlu sayda qrupları Avropada, ABŞ-da, Qərbi Afrikada və dünyanın digər ölkələrində də immiqrantlar qismində məskunlaşmışlar. Dünya üzrə onların ümumi sayı 1,5 milyon nəfərdir.

Orta əsrlərdə druzilik şiəliyin ismaillilik sektasının bir qolu kimi formalaşmışdı. Lakin tədricən o, bütün islam təriqətlərindən ayrılaraq, tam müstəqil inkişaf etməyə başlamışdı. Druzlar özlərini “müvəhəddin”, yaxud *əhl ət-tohid* (ərəb. monoteizm) kimi təqdim edirlər.

Druzilik təliminin son dərəcə maraqlı və spesifik prinsipləri vardır. Məsələn, başqa dinlərin və konfessiyaların mənsublarının real şəkildə druz olması mümkün deyil. Çünki druz əqidəsinə keçmək üçün xüsusi institut mövcud deyil. Belə çıxır ki, druzların heç kimə öz əqidələrini qəbul etdirmək kimi məqsədləri də yoxdur. Beləliklə, druzilik irsi keçən dini əqidə kimi təzahür edir. Druzlar reinkarnasiyaya (lat. *reincarnatio* – yenidən yaranış - ruhun davamlı şəkildə başqa fiziki formalarda təzahür etməsi haqqında dini təsəvvürlər) inanırlar və hesab edirlər ki, bu proses zamanı hər bir ruhun druz olmaq imkanı vardır. Druzlar “takiyə” (əsl baxışları gizlətmək taktikası) doktrinasını qəbul edirlər. Bu doktrinanın mahiyyəti isə ondan ibarətdir ki, druz münaqişəli cəmiyyətdə ideoloji xarakterli konfrontasiyanın yaranmasının qarşısını almaq üçün öz həqiqi baxışlarını gizlədir, qəlbində isə şəxsi əqidəsinə sadiq qalır. Druz dini

cəmiyyəti özündə “ukkallar” (ağıllılar) tərəfindən idarə olunan kifayət qədər qapalı təşkilatı ifadə edir. Təşkilatın başlıca məqsədi isə ukkalların rəhbərliyi altında dindar kütləyə, yaxud “cuxxallara” (cahillər) əxlaqi-mənəvi dəyərləri öyrətməkdən, ən çeşidli ideyalara və mədəni dəyərlərə münasibətdə çox dözümlü olmağı, bütün pozitiv müxtəlifliklərə hörmətlə yanaşmağı aşılamaqdan ibarətdir [21].

## 2.5. Orta əsrlər Şərq mədəni dəyərlər sistemində etnik-mədəni müxtəlifliyin inkişaf templəri (ing. *Rates of development of ethno-cultural variations in the system of cultural values of the Medieval East*)



İslam ideologiyası orta əsr Şərq xalqlarının dünyagörüşünə yüksək təşəkkülü əxlaqi-mənəvi, sosial-iqtisadi və etnik-mədəni məzmun qatsa da, bütövlükdə Orta əsr Şərq tarixinin aparıcı motivlərini məcburi və kütləvi miqrasiyalar, yeni etnik-siyasi birliklərin ekspansiyası, etnoslararası münaqişələr, dağıdıcı mücadilələr, imperiyaların təşəkkülü və süqutu, dini müharibələr, təriqət savaşları, üsyanlar və inqilablar təşkil edirdi. Sözügedən dövrdə baş verən hadisə və proseslərin neqativ məzmunu, pozitiv ruhlu bəşəriyyətin hərbi-siyasi hüdudsuzluq şəraitində hər hansı şansının olmamasından xəbər verirdi. İslamiyyətin elan etdiyi ali dəyərlər, humanizmə, mərhəmətə, tolerantlığa çağırışlar isə mövcud şəraitdə utopik nəzəriyyə olaraq qalırdı. Xalqların və sivilizasiyaların taleyini sağlam düşüncə deyil, qılınc və zorakılıq həll edirdi. IX əsrdə ərəb xilafətinin dağılması ilə “Şərq” adlanan böyük bir məkanda daim bir-biriləri ilə sərt konfrontasiya şəraitində yaşayan çoxlu sayda yeni müstəqil feodal dövlətlər və etnoslar yarandı. Şərqdən Qərbə doğru xalqların növbəti “böyük köçü” (ing. *resettlement of peoples*) başlandı. Məhz yeni dinamik miqrasiya Şərqin bütün növbəti orta əsr tarixinin qlobal ssenarisini təyin etdi. Əvvəlcə Səlcuq yürüşləri (X-XI əsrlər), daha sonra türklərin Anatoliyada məskunlaşması, həm Şərqdə yaşayan superetnoslar, həm də Qərb və Şərq xalqları, “İslam və Xristian dünyaları” arasındakı münasibətləri son dərəcə gərginləşdirdi. Tezliklə Səlib, yaxud Xaç yürüşləri (ing. *Crusades*) adlanan, 195 il ərzində (1096-1291) davam edən dini zəmində etnoslararası münaqişələr başlandı. Daha

sonra (XIII əsr) geniş Monqolustan çöllərindən gələn fövqəladə hərbi ekspansiya Şərqin minilliklər ərzində əldə etdiyi bütün mədəni dəyərlərin üstündən xətt çəkdi. Monqol ekspansiyası Şərq xalqlarının həyatına misli görünməmiş fəlakətlər gətirdi. Şərq mədəniyyəti uzun illər üçün yenidən dərin cəhalətə qərq oldu. Bu isə monqol genotipinin etnik-dini cəhətdən ənənəvi Şərq mədəniyyətinə assimilyasiyasından və islam dəyərlərinə layiq olmasından sonra başa çatdı.

Monqolların Avropa sivilizasiyası ilə toqquşması və bunun ardınca osmanlıların Konstantinopolu fəth etməsi, Avropa qitəsinin dərinliklərinə nüfuz etməsi, cari etnik-siyasi münasibətlərə yeni gərginlik qatdı. Avropa Bizansın taleyini yaşamamaq üçün çox təcili və ciddi tədbirlər görməyə başladı. Məhz bu dövrdə gələcək əsrlər üçün də hesablanmış və bu gün də Qərb siyasətinin əsas taktiki üslubu olan "parçala və məqsəində çat" strategiyası formalaşdırıldı. Bu strategiyanı uğurla həyata keçirmək və Qərb aləmini yeni Atillaların, Tamerlanların, Mehmetlərin təcavüzündən qorumaq üçün Şərqin etnik-siyasi münasibətlər sistemində kifayət qədər ciddi boşluqlar (dinlər və məzhəblərarası münasibətlər, lazımi mədəni səviyyəyə çatmamış etnik-milli müxtəlifliklərin barışmaz münasibəti və intolerantlığı və s.) var idi və bu gün də var. Qərbin "uzaqgörən siyasəti" nəticəsində Şərqin etnik-siyasi ekspansiyası dayandırıldı. Çoxlu sayda xalqları, çeşidli konfessiyaları, etnik və dini qrupları təmsil edən Şərq imperiyaları isə öz aralarında ölüm-dirim müharibəsinə başladılar, bir-birilərini taqətdən saldılar və məhv etdilər. Artıq XIX əsrin ortaları, XX əsrin əvvəllərində Mərakeşdən tutmuş, Koreya yarımadasına qədər Şərq dünyasında Qərbin ekspansiyasına müqavimət göstərməyə qadir olan bir dənə belə etnik-siyasi güc qalmadı. Bu dövrdən etibarən Şərq xalqlarının bir əsrdən artıq davam edən çox gərgin milli-azadlıq mücadiləsi və yeni əxlaqi-mədəni dəyərlərə - maarifçiliyə, birgəyaşayış qaydalarına, yüksək təşəkküllü demokratik prinsiplərə, tolerantlığa və multimədəni mühitdə yaşamaq bacarığına israrla yiyələnmək uğrunda qəti mübarizəsi başlandı. Təəssüf ki, bu proses əvvəllər olduğu kimi yenə də Qərb siyasətinin sərt müdaxiləsi şəraitində baş verirdi.

Qeyd etmək lazımdır ki, Orta əsrlər Şərq tarixində tolerantlığın və multimədəni birliyin çoxlu sayda nümunələri vardır. Məsələn, oğuzların müxtəlif soylarının (24 soy) etnik-mədəni birliyi, Qızılbaş tayfalarının Səfəvi imperiyasında vahid etnik-siyasi güc kimi təmsil olunması, çoxlu sayda semit (yəhudi), həmit (ərəb), əcəm (türk) tayfalarının, xristianların, müsəlmanların, qədim din mənsublarının, hətta bidətçilərin əsrlər ərzində vahid "osmanlı" məfkurəsinə rəğmən çox böyük bir dövlətin - Osmanlı

səltənətinin tərkibində sülh, əmin-amanlıq və qarşılıqlı yardım şəraitində yaşaması, Hindistan subkontinentində islam əhli olan türk-monqolların (Teymurilər, yaxud Baburilər) çoxlu sayda etnik-mədəni müxtəlifliklərin (müsəlmanlar, hinduistlər, buddistlər, caynistlər, zərdüşt-atəşpərəstlər və s.) birliyini yaratması və s.

Bir vacib məqamı da xüsusi vurğulamaq lazımdır ki, Orta əsr Şərq tarixinin əsl etnik-siyasi məzmununu fasiləsiz davam edən müharibələr təşkil etsə də, ilk monqol yürüşlərindən başqa, Şərq sivilizasiyaları heç vaxt soyqırım aktları ilə üzləşməmişlər. Müharibə motivlərinin fövqəladə aktivliyinə baxmayaraq, Orta əsr Şərq xalqlarını davamlı sülhə, qarşılıqlı hörmətə və anlaşmaya sövq edən çoxlu sayda təbii motivlər də var idi: şərq temperamenti, universal dini əqidə, əsrlərin sərt sınağından çıxmış əxlaqi dəyərlər, ləyaqət kodeksi və s.

1504-cü ildə Osmanlı imperatoru II Bəyazid Dərvişin (1481-1512) Səfəvi dövlətini rəsmi şəkildə tanıması, 1503-cü ildə Səfəvi hökmdarı I Şah İsmayılın (1501-1524) Ağqoyunlu hökmdarı Sultan Murada yazdığı sülhə çağırış məktubu, sülalələr arasında nikah anlaşmaları məhz sülhə, əmin-amanlığa və birgəyaşayış qaydalarına meylliliyin əsl təzahürü idi. Şərqin tolerantlığı və digər dini-mədəni dəyərlərə hörmətlə yanaşması, sözügedən xarakterin öz sərhədlərini aşaraq xristian mədəniyyətinə də nüfuz etməsi ilə nəticələnirdi. Şərq hökmdarları xristian sarayları ilə qohumluq əlaqələri yaratmaqla əsl tolerantlığın sərhədsiz olmasını, onun qlobal sülhə və əmin-amanlığa ən vacib dividendlər gətirməsini bir daha və rəsmən sübut edirdilər. Osmanlı, Səfəvi, Ağqoyunlu, Böyük Moqol hökmdarlarının zərdüşt, xristian, yəhudi, buddist, hinduist şahzadələri və rackumariləri ilə nikah bağlamaları buna parlaq sübutdur: Ağqoyunlu sultanı Əbu Nəsr Uzun Həsənin (1453-1478) Trapezund çarı IV İohann Homnenin qızı Feodora (Dəspinə xatun) ilə evliliyi [22]. Osmanlı sultanı I Süleyman Qanuninin (1520-1566) əslən *çərkəz,* yaxud *adıqe* (Şimali Qafqaz xalqı) olan Gülbahar Məhidövran sultanla (əsl soyadı Kanukova - 1500-1581) və Qərbi Ukrayna xristianlarından olan Roksalana (Xürrəm sultan (1502-1558) ilə evliliyi [23]. Moqol hökmdarı Böyük Əkbərin (1556-1605) hind racası Dhundharanın qızı Hira Kunvari (Məryəm üz-Zamani, yaxud Codha) ilə evliliyi [24]. Moqol hökmdarı Cahangirin (1605-1627) hind racası Mərvər Şri Udayın qızı Bayci Lalla (Bilqeis Makani – 1573-1619) evliliyi və s. [25]. Bir məqamı xüsusi vurğulamaq lazımdır ki, sözügedən Şərq multikulturallığının Şah İsmayıl (Trabzon çarı IV İohann Homnenin nəticəsi, Martanın (Aləmşah xatun) oğludur), Cahangir (Hind rackumarisi Hira Kunvarinin oğludur), Şahcahan (Hind

rackumarisi Bayci Lallın oğludur), Məhəmməd Cahan Pəhləvan (Səlcuq türkü olan Mömina xatunun oğludur) kimi fövqəlmöhtəşəm nəticələri olmuşdur. Tolerantlıq və multimədəni dəyərlərə hörmət, məhəbbət və sədaqətin yüksək tərzdə ifadəsi Şərqin tarixinin növbəti mərhələlərində də öz aktuallığını itirməmişdi.

## 2.6. Yeni dövr və XX əsr Şərq təfəkkür tərzində multimədəni ideyalar və onların reallaşdırılması mexanizmləri (ing. *Multicultural ideas and their implementation mechanism in the Eastern way of thinking in the 20th century and New Time*)



Bütün orta əsrlər Şərq tarixinin aparıcı motivlərini sülalələr, etnoslar və dövlətlər arasında fasiləsiz hərbi-siyasi qarşıdurmalar təşkil etmişdir. Bu isə feodalizmin ictimai-iqtisadi və sosial-siyasi təbiətindən doğmuş və çağdaş cəmiyyətin xarakterinə çevrilmiş davamlı bir situasiya idi. Sözügedən dövrdə hərbi-siyasi opponentlər (hökmdarlar, dini ideoloqlar, sərkərdələr) öz məqsədlərinə çatmaq üçün etnosları və dövlətləri "doğma-özgə" düsturu ilə parçalayır, "düşmənin aydın ifadə olunan konturlarını" təyin edərək, "orta əsr fədaisi" üçün "yaxşı nişana gələn hədəflər" müəyyən edirdilər. Dünyaya və insana belə münasibət, həyatını müharibə ilə qazanan orta əsrlər fərdinin təhtəlşüurunda intolerantlığın olduqca əcayib modellərini formalaşdırırdı. Bu modellərin hüdudsuzluğunun həddi isə yox idi. Onlar hətta bütün insani dəyərlərin üzərindən xətt çəkərək, yüz il əvvəl vəfat etmiş, yaxud həlak olmuş tarixi rəqibin (hökmdarın, sərkərdənin və s.) sümüklərini qəbirdən çıxarıb yandırmaq kimi vandalizm aktlarına qədər alçalırdı.

Qeyd etmək lazımdır ki, dağıtmaq və məhv etmək kimi küfr əməl əzəli olaraq insan ruhunun atributudur. Vaxtilə Adəm cənnət kurallarını pozmaqla ideal bir məkanın ilahi əsaslarını sarsıtmışdı və onun "təməl sındırmaq praktikasını" övladları tarix boyu dəfələrlə təkrar etmişdilər. Yunanlar məşhur Troyanı yerlə yeksan etmişdilər (e.ə. XIII əsrin sonu), Makedoniyalı İskəndər çiçəklənən Persepolu və "Müqəddəs Avestanı" oda tutmuşdu (e.ə. 330), Qotlar Romanı xüsusi qəddarlıqla dağıtmışdılar (410), Xosrov Pərviz (591-628) Yərusəlim-Qüds məbədini - Kuvukliyanı yağmalamışdı (614), Bizanslılar isə Bizans imperatoru I İraklinin (610-641) əmri ilə Şiz məbədini (Azərgüşnasp - ind. Təxti Süleyman) atəşə

vermişdilər (624), nəhayət xəlifə Əli əl-Hakim (996-1021) Kuvukliyanı dağıtdırmışdı (1009) və s. Bu antihumanist ənənə isə əsrlərdən keçərək, müasir dövrlərdə də davam etmişdir. Taliblər Bamiandakı (Əfqanıstan) Budda heykəllərini məhv etmişdilər (2001), İslam dövləti fədailəri isə minillik tarixi olan abidələri (İraq tarixi muzeyi, Suriyada Palmira şəhəri və s.) dağıtmışdılar (2014-2016).

Bəşəriyyətə və onun əxlaqi-mədəni dəyərlərinə qarşı cinayət kimi qiymətləndirilən bu davranış və hərəkətlər, əsas etibarı ilə, dini hisslərlə bağlı olmuşdur və onlar adi fanatikin həddən artıq (radikal) canfəşanlığı, dini-mistik halət və onunla bağlı yaşamlar nəticəsində baş verən psixi pozuntular kimi qiymətləndirilir.

Qeyd etmək lazımdır ki, Qoca Şərqin Yeni dövr tarixində sağlam düşüncəni prioritet kimi qəbul edən hökmdarlar intolerantlığın gec-tez bütün mövcud taxt-tacları uçuracağını hiss edərək daha kompromis və praqmatizmə əsaslanan siyasət həyata keçirməyə başlamışdılar. Bu yeni tendensiya Avropanın maarifçilik ruhunun Şərqə nüfuz etməsi və Şərq müdrikliyi ilə qovuşaraq unikal düşüncə tərzi, etnik-siyasi yaradıcılıq aktı kimi təzahür etməsinin nəticəsi idi.

Tolerantlığa və etnik-siyasi barışığa ilk möhtəşəm çağırış 1736-1747-ci illərdə böyük bir imperiyaya (Əfşarlar imperiyası) rəhbərlik etmiş Nadir şah Əfşardan gəldi. Nadir şah çox istedadlı sərkərdə kimi müharibəni və hərbi yürüşləri öz hakimiyyətinin əsas ideyası kimi qəbul etsə də, sağlam düşüncəni və tolerantlıq ideyasını da vacib faktor kimi ön plana çəkirdi. O, ilk növbədə sülh yaratmağa ciddi maneə törədən dini ideologiyanı və dini-ruhani fətvaları dövlət idarəçiliyindən uzaqlaşdırdı. Sünniliklə şiəlik arasında ortaq ideoloji xətti əsas inanc mənbəyi elan edərək, Moqol imperatoru Əkbərin (1556-1605) "dini-ilahi" ruhunda dini barışıq tədbirləri gördü. 1734-cü ildə isə Osmanlı imperiyasının vəziri Həkimzadəyə (Həkimoğlu Əli paşa (1689-1758) - 1732-1735, 1742-1743 və 1755-ci illərdə Osmanlı im-nın vəziri olmuşdur) türk və fars dillərində yazdığı məktubunda osmanlıların və türkimanların (azərbaycanlıların) eyni bir etnik mənşədən olmalarını vurğulamış və sülh əldə edilməsinin vacibliyini tarixi zərurət kimi israrla ön plana çəkmişdi. Eyni məzmunlu bir məktubu Nadir şah Əfşar Hindistan yürüşü zamanı Moqol hökmdarı Məhəmməd şaha (Əbdül Müzəffər Nəsirəddin Məhəmməd şah - 1719-1748-ci illərdə Böyük Moqol imperatoru olmuşdur) yazmış, əfşarların və moqolların identik olan genetik mənbədən bəhrələndiyini, hər ikisinin Teymurilər şəcərəsindən olduğunu vurğulamış və sülhə gəlməkdə israr etmişdi. Lakin hakimiyyətinin sonunda siyasi iradəsini qəddar üsullarla

reallaşdıran şah, xalq və əyanlar arasında öz nüfuzunu itirməyə başlamış və bu cür acınacaqlı situasiya onun qətli ilə nəticələnən sui-qəsdlə başa çatmışdı.

Qeyd etmək lazımdır ki, Nadir şahın ölümü (19, yaxud 20 iyun 1747-ci il tarixində öz komandirlərindən biri olan Saleh bəy tərəfindən qətlə yetirilmişdi) ilə Şərq dünyası çoxəsirlik ideoloji bir xaosa, feodal pərakəndəliyinə qərq oldu və bununla da Avropa hərbi-siyasi və iqtisadi ekspansiyasının əsas obyektinə çevrildi. Bundan sonra Şərq xalqları öz tarixi talelərinin tam ağası deyildilər. Onların bu gününü və gələcəyini Böyük Britaniyanın, Fransanın, Portuqaliyanın, Hollandiyanın və digər Avropa dövlətlərinin simasında güclü metropoliyalar təyin edirdi. Lakin Avropa ölkələrinin və Rusiya imperiyasının simasında Qərb mədəniyyəti Şərq sivilizasiyasına, eləcə də ən unikal mədəni dəyərlər, pozitiv biliklərə əsaslanan mütərəqqi dünyagörüşü, fövqəlyüksək təşəkküllü maarifçilik ideyaları, demokratizmə, liberalizmə və plüralizmə əsaslanan dünyəvilik prinsipləri gətirdi. Məhz belə yüksək prinsiplərin pozitivizmə əsaslanan inteqrativ gücündən bəhrələnmiş çağdaş Şərq təfəkkürü, artıq XX əsrin əvvəllərində əsrlər öncə unudulmuş yüksək mədəni dəyərləri, dövlətçilik ənənələrini, tolerantlığı, multimədəni həyat tərzini bərpa etməyə başladı.

Bununla bağlı olaraq, XX yüzillik özündə çoxlu sayda müxtəlif epitetlər (inqilablar əsri, dünya müharibələri əsri, atom əsri, elmi-texniki inqilablar əsri, kosmos əsri və s.) daşıdığı kimi, Şərq xalqlarının milli oyanış əsri qismində də xarakterizə olunur. XX əsrin əvvəllərində baş vermiş I Dünya müharibəsi (1914-1918) müasir etnik-siyasi münasibətlər sistemində əsrlər ərzində formalaşmış bütün çeşidli neqativ ünsürləri üzə çıxartdı. O, mövcud dünya müstəmləkə sistemini dağıtdı, imperiyaları (Almaniya, Avstriya-Macarıstan, Rusiya, Ottoman (Osmanlı), Britaniya) məhv etdi. Yaxın və Orta Şərqdə, Cənub və Cənub-Şərqi Asiyada, Şimali və Tropik Afrikada yeni milli dövlətlər yarandı. Şərq xalqlarının əsrlər ərzində əllərindən alınmış milli hüquqları bərpa olundu. 1918-1923-cü illərdə bir sıra Asiya ölkələrində, Ərəb Şərqində, eləcə də İndoneziyada, Hindistanda, İranda, İraqda milli burjuaziyanın və ziyalıların rəhbərliyi altında üsyanlar və inqilablar baş verdi. Sözügedən bu ölkələrdə milli burjuaziya özünün siyasi təşkilatlarını yaratdı. Məsələn, Hindistan Milli Konqresi (28 dekabr 1885), İran Demokratik Partiyası (1909), Türkiyə Cümhuriyyət Xalq Partiyası (1919), İndoneziya Milli Partiyası (1927), Azərbaycan Müsavat Partiyası (1911) və s. 1921-ci ildə Əfqanıstanın və Monqolustanın, 1922-ci ildə Misirin, 1923-cü ildə Nepalın, 1930-cu ildə İraqın, 1932-ci ildə Səudiyyə Ərəbistanının, 1941-ci ildə Efiopiyanın,

1943-cü ildə Livanın, 1945-ci ildə İndoneziyanın müstəqilliyi tanındı. II Dünya müharibəsindən sonra milli-azadlıq hərəkatının yeni dalğası siyasi səhnəyə Vyetnamın və İordaniyanın (1946), Filippinin, Hindistanın və Pakistanın (1947), Fələstinin, İsrailin, KXDR-in, Cənubi Koreyanın, Şri-Lankanın, Birmanın (1948), Çinin və Laosun (1949), Liviyanın (1951), Tunisin, Mərakeşin və Sudanın (1956), Malayziyanın (1957), Malinin, Çadın, Nigerin, Nigeriyanın, Mavritaniyanın, Madaqaskarın, Somalinin (1960), eləsə də digər milli birliklərin simasında yeni müstəqil dövlətlər çıxartdı. Bu dövrdə Əlcəzairdə, Anqolada, İndoneziyada, Hind-Çində və Malayyada müstəmləkəçiliyə qarşı azadlıq müharibələri başlandı.

XX əsrin 60-80-ci illəri ərzində isə Afrikada və Asiyada sonuncu müstəmləkələr olan Küveyt (1961), Əlcəzair (1962), Sinqapur (1965), Maldivlər (1965), Oman (1970), Qətər, Bəhreyn, BƏƏ (1971), Seyşel adaları (1976), Bruney (1984), Yeni Zelandiya (1986) siyasi müstəqillik qazandılar.

Beləliklə, Yer kürəsinin böyük bir hissəsində Qərbin mədəni-siyasi təsirindən müəyyən mənada azad olmuş, çoxlu sayda yeni, müstəqil milli dövlətlər meydana gəldi. Lakin bu bütün problemlərin birdəfəlik həlli demək deyildi. Yeni milli cəmiyyətlərin qarşısında böyük tarixi sınaqlar və çətinliklər dururdu. Çünki yeni yaranmış bütün dövlətlər başdan-başa etnik və dini müxtəlifliklərin təcəssümü idi. Bununla bağlı olaraq, yeni yaranmış müstəqil milli qurumların davamlı inkişafını təmin etmək üçün müasir Şərq sivilizasiyasının dəf edəcəyi ən vacib məsələ birgəyaşayış qaydalarını öyrənmək və multimədəni birliyin yaradılmasının təminatı işində yüksək effektli mexanizmlərin və etnik-mədəni siyasətin həyata keçirilməsi idi. Qeyd etmək lazımdır ki, yeni yaranmış milli dövlətlərin hər biri etnik-siyasi münasibətlər sistemində öz spesifik mexanizmlərini israrla tətbiq edirdilər. Məsələn, 1945-ci ildə İndoneziya hökuməti ölkə konstitusiyasında təsbit olunmuş demokratik qanunlar və suveren xalqın beş əsas prinsipini (pəncsil) elan etdi: tək tanrıya inam; milli birlik; demokratiya; humanizm; sosial ədalət [26]. Hindistan hökuməti isə 1956-cı ildə ölkənin çoxmillətli olmasını, regionların etnik və dil özəlliklərini bir daha nəzərə alaraq, ştatların yenidən təşkil olunmasını həyata keçirdi. Nəticədə 14 ştat və bir neçə müttəfiq ərazilər yaradıldı. 1990-cı ildə isə separatist etnik qüvvələrin tələblərinə cavab olaraq, 25 ştat və 7 müttəfiq inzibati ərazi təşkil edildi [27]. Bununla belə, Hindistan subkontinentində multimədəni müxtəlifliklər və dini icmalar arasında tarixi ziddiyyətlərin son dərəcə mürəkkəb olması ucbatından separatizm, etnik-milli və dini-konfessional səviyyələrdə qarşıdurmalara son qoymaq bu günə qədər də

mümkün olmamışdır.

1978-ci il tarixdə Əfqanıstanda yaradılmış Əfqanıstan Demokratik Respublikası, nəinki mövcud etnik-milli münasibətləri həll etmədi, hətta ölkəni bugünədək davam edən irimiqyaslı silahlı qarşıdurmaya, xarici ölkələrin hərbi müdaxiləsi ilə müşayiət olunan vətəndaş müharibəsinə sürüklədi [28]. 1987-ci ildə qəbul olunmuş konstitusiyaya görə ölkənin adı dəyişdirilsə də, (Əfqanıstan Respublikası) hələ də məmləkəti təmsil edən bütün çoxsaylı etnik-milli müxtəlifliklər və konfessional fərqliliklər (puştunlar, özbəklər, taciklər, xəzərlər, belucilər və s.) arasında yekun bir razılıq aktı təsdiq etmək üçün effektli mexanizm yaradılmamışdır.

1988-ci ildə Şri-Lankada (Seylon) milli azlıqlar və konfessiyalar arasında münasibətləri tənzimləmək məqsədi ilə titul xalq olan sinqallar (buddistlər - 71%) tərəfindən etnik tamil əhalisi (induistlər - 13%) üçün nəzərdə tutulmuş milli muxtariyyət yaradıldı. Təəssüf ki, Şərq ölkələrinin bir çoxu mövcud sosial-iqtisadi, ictimai-siyasi və milli məsələləri həll etmək üçün daha radikal - antidemokratik tədbirlər görməyə başladılar. Məsələn, Filippində 1946-1972-ci illərdə prezident respublikasının ABŞ modeli fəaliyyət göstərsə də, 50-ci illərdən etibarən orduya və digər güc strukturlarına əsaslanan şəxsi hakimiyyət rejimi yaradıldı. Sözügedən hərbi-bürokratik siyasi rejimlərin bərqərar olması Pakistanda, Tailandda, Myanmada (Birma) və digər Şərq ölkələrində də baş verdi.

Müstəqillik ərəfəsində Ərəb Şərqində feodal, yaxud yarımfeodal sosial-iqtisadi, ictimai-siyasi və etnik-mədəni münasibətlər sistemi hökm sürürdü. Müstəqillik əldə etmələrinə baxmayaraq, ərəb dövlətlərinin çoxu (Səudiyyə Ərəbistanı, Livan, Suriya, Liviya) əvvəlki metropoliyalarından (yun. *mitera* - ana, *polis* - şəhər - ana şəhər) hələ də tam asılı idilər. Bu ölkələrin çoxunda idarəçiliyin mütləq teokratik-siyasi xarakter kəsb edən vahid ənənəvi forması - monarxiya idi. Müstəqillik əldə etdikdən sonra sözügedən ölkələrdə (Misir, Tunis, Yəmən, Livan, İordaniya, Mərakeş, Küveyt, Bəhreyn) konstitusiyalı monarxiyalar təşkil olundu.

XX əsrin 50-60-cı illərindən isə respublika idarəçilik formalı ərəb ölkələrinin sayı xeyli artdı. Bu hərbi çevrilişlərlə və Ümumərəb partiyası BAAS-ın (Ərəb Sosialist Dirçəliş Partiyası) silahlı regional dəstələrinin hakimiyyətə gəlməsi kimi izah olunurdu. BAAS qarşısına monarxiya əleyhinə yönəlmiş milli-azadlıq mücadiləsi yolu ilə demokratik quruluşa nail olmaq kimi məqsəd qoymuşdu. Ərəb ölkələrində yaradılan idarəçilik strukturları içərisində müasir Liviyada yaradılmış "Cümhuriyyət" (xalq hakimiyyəti) xüsusi əhəmiyyət kəsb edirdi. Belə idarəçilik sistemində Quran və şəriət dövlətin əsas qanunu elan edilsə də, ölkədə dini və sivil

dəyərlərin sintezindən spesifik multimədəni cəmiyyət yaradılmışdı. 42 il ərzində (1969-2011) isə bu birliyi Müəmmar Qəddafinin yaratdığı siyasi rejim (Üçüncü tip ümumdünya nəzəriyyəsi - Karl Marksın (1818-1883) kommunizm, Adam Smitin (1723-1790) kapitalizm ideyalarına alternativ olan yeni baxışlar sistemi) idarə etmişdi [29]. Lakin Liviya Cümhuriyyəti ayrı-ayrı etnik qruplardan süni şəkildə yaradılmış etnik-siyasi birlik idi. Odur ki, tarixi şərait yetişən kimi kənar təsirlərin müdaxiləsinə tab gətirə bilmədi və dağıldı (2011).

1952-ci ildə "Azad zabitlər" adlı vətənpərvər hərbi təşkilat Kamal Abdel Naserin rəhbərliyi altında Misirdə dövlət çevrilişi həyata keçirdi. 1956-cı ildə isə Yeni konstitusiya qəbul olundu və Abdel Naser ölkə prezidenti seçildi. 1970-ci ildə Abdel Naserin vəfatından sonra 1971-ci ildə Misirin yeni konstitusiyası qəbul edildi. Misirdə əməkçi xalqın və mədəni müxtəlifliklərin sıx birliyinə əsaslanan sosialist demokratik tipli siyasi quruluş yaradıldı. Lakin 1971-1981-ci illərdə Ənvər Sədatın və 1981-2011-ci illərdə Hüsnü Mübarəkin Misirə rəhbərlik etdikləri dövrdə mövcud idarəçilikdə, eləcə də konfessiyalararası münasibətlər sistemində yaranmış boşluqlar nəticəsində 2011-ci ildə ölkədə vətəndaş müharibəsi başlandı [30].

Əlcəzairdə isə yeni sosialist quruculuğu və multimədəni dəyərlərin birliyi istiqamətində cəmiyyətin yenidən qurulması prosesi 1954-1962-ci illərdə baş vermiş milli-azadlıq mücadiləsi nəticəsində başlandı. 1963 və 1976-cı illərdə qəbul olunmuş yeni konstitusiyalarda milli müstəqilliyin qorunması, istismardan tamamilə azad olmuş bir cəmiyyətin yaradılması, dinindən, dilindən, etnik mənsubiyyətindən asılı olmayaraq, şəxsiyyətin hərtərəfli inkişafı üçün şəraitin formalaşdırılması prinsipləri elan olundu.

Şərqin etnik-siyasi və mədəni münasibətlər sistemində ən rüsvayçı və intolerantlığın ifrat dərəcədə kəskin ifadə olunduğu səhifələrdən biri də, 1975-1979-cu illərdə Pol Potun Kambocada hakimiyyəti dövründə həyata keçirilən kollektivçilik siyasətinə qarşı çıxan və fərqli düşünən əhalinin soyqırıma məruz qalması hadisəsidir.

Multimədəni subyektlərin, fərqli konfessiyaların daim toqquşduğu məkanlar içərisində İraqın və Suriyanın xüsusi əhəmiyyəti var. Bu tarixi məkanlarda müxtəlif mədəniyyətlərin, dinlərin, əqidələrin qovuşması baş vermiş, dünya sivilizasiyaları öz gücünü məhz bu ölkələrdən almışdır. Lakin etnik-mədəni müxtəlifliklərin fövqəladə şəkildə geniş diapazonda təmsil olunduğu bu məmləkətlərdə sözügedən müxtəlifliklərin davamlı birliyini yaratmaq, etnik-dini münaqişələri əbədi sülh və barış məcrasına yönəltmək əsla mümkün olmamışdır. Bu gün də sözügedən məmləkətlər

müxtəlif etnosların, əqidə sahiblərinin maraqlarının toqquşduğu məkanlar olaraq qalır.

İraq 1932-ci ildə formal şəkildə müstəqillik əldə etsə də, 1979-cu ilə qədər ABŞ və Böyük Britaniyanın birbaşa nəzarəti altında fəaliyyət göstərirdi. 1955-ci ildə İraq 1955-1979-cu illərdə fəaliyyət göstərmiş, ABŞ-ın, Böyük Britaniyanın və Türkiyənin yaratdığı "Bağdad paktına" qoşulmuşdu. 1958-ci il tarixdə İraqda Əbdül Kərim Qasımın (1958-1963) rəhbərliyi altında sivil İraq Respublikası yaradılmışdı. 1979-2003-cü illər ərzində isə İraq Respublikasına Səddam Hüseynin lideri olduğu BAAS partiyası rəhbərlik etmişdi. Sözügedən dövrdə sünni-ərəblər, şiə-ərəblər və kürdlər arasında münaqişələr ölkənin etnik-siyasi əsaslarını sarsıdırdı [31]. İranla qanlı müharibə (1980-1988) isə mövcud gərginliyi daha da artırırdı. XX əsrin 80-ci illərində (1987-1988) qiyamçı və üsyançı kürd qruplaşmalarına (peşmərgə) və kommunistlərə qarşı kimyəvi silahların (zarin, tabun, VX) tətbiq edilməsi ilə həyata keçirilən silahlı aksiyalar (ərəb. *Anfal* - qənimət) müasir İraq tarixinə yazılmış rüsvayçı səhifələr idi. Beləliklə, 1932-ci ildə müstəqil İraq Respublikasının yaranmasından müasir dövrədək ölkədə zorakılıq əsla səngimir. Bir istibdadı digəri, bir zorakını başqası əvəz edir. 1958-ci il iyul ayının 14-də İraq ordu generalı Əbdül Kərim Qasım qiyam qaldıraraq II Feysəli (1939-1958) ailəsi ilə birgə dəhşətli şəkildə qətlə yetirir (başları üstündə quran tutmuş silahsız insanlar - qızlar, gəlinlər, qocalar, uşaqlar vəhşicəsinə gülləbaran edilir) və hakimiyyətə gəlir. Cəmi 5 il sonra, 8 fevral 1963-ci il tarixində onun özünü qiyamçılar dəhşətli şəkildə qətlə yetirirlər və qətli canlı yayımla bütün ölkəyə nümayiş etdirirlər. Bu qətlin icraçıları isə öz növbəsində 16 iyul 1979-cu il tarixdə yeni lider Səddam Hüseyn (1979-2003) tərəfindən "taxtlarından" salınırlar. Səddam Hüseynin taleyi isə hamıya məlumdur. Beləliklə, güc, zorakılıq ənənəvi həyat tərzinə çevrilərək, bu gün də İraq cəmiyyətində dialoqa, kompromisə, sülhə, əmin-amanlığa, tolerantlığa və elementar insani məhəbbətə açılan qapıları qırx qıfılla bağlamışdır.

2003-cü ilin martında ABŞ-ın rəhbərliyi ilə antiiraq koalisiyasının hərbi müdaxiləsi nəticəsində Səddam Hüseyn devrildikdən sonra, ölkə bu günədək davam edən məshəblərarası və millətlərarası hərb meydanına çevrilmişdir. Beləliklə də, bir tərəfdən şiə-ərəblərin (hal-hazırda faktiki iqtidar), digər tərəfdən isə özünü İslam dövləti elan etmiş sünni-ərəblərin (sələfilər) və böyük hissəsi sünni-müsəlmanlardan ibarət olan kürdlərin (peşmərgə) silahlı qarşıdurması nəticəsində məmləkət, faktiki olaraq tam parçalanmışdır. 2005-ci ildə qəbul olunmuş ölkə konstitusiyasına görə İraq Federativ Parlament Respublikası elan olunmuşdur. Bu federasiya

İraq xalqının üç əsas etnik-dini icmasının - şiə-ərəblərin, sünni ərəblərin və kürdlərin konsensusuna (lat. *consensus* - razılıq, həmrəylik) əsaslanır [32]. Buna baxmayaraq, İraqda razılıqdan, həmrəylikdən heç bir əlamət yoxdur və ölkənin etnik-siyasi birliyini günü-gündən sarsıdan dağıdıcı müharibə davam edir. İraq hökuməti 7 dekabr 2017-ci il tarixində İslam dövləti ilə müharibənin tam başa çatdığını elan etsə də, bu İraq siyasi isteblişmentinin yaratdığı bəsit illüziyadan başqa bir şey deyil.

Suriya dövlət müstəqilliyini II Dünya müharibəsindən sonra, 1946-cı ildə əldə etmişdir. 1963-cü ildən Suriya BAAS partiyasının rəhbərliyi altında idarə olunur. 1971-2000-ci illər ərzində dövləti Hafiz Əsəd idarə etmişdir. 2000-ci ildən etibarən isə ölkəyə rəhbərliyi onun oğlu Bəşər Əsəd həyata keçirir. Suriya tarixən sivilizasiyaların toqquşduğu məkan olduğu kimi, qlobal miqyasda siyasi qüvvələrin maraqlarının toqquşduğu məkan kimi də məşhurdur. Suriya unitar dövlətdir, prezident-parlament respublikasıdır. Ölkə əhalisinin 90%-ni ərəblər, 9%-ni kürdlər, qalan hissəsini isə çərkəzlər və assuriyalılar təşkil edir. Göründüyü kimi etnik müxtəliflik zəminində ölkədə potensial münaqişə yoxdur. Məmləkətdə baş verən irimiqyaslı və dağıdıcı silahlı qarşıdurma isə əsasən dini-siyasi münasibətlərin ziddiyyətli xarakterinə əsaslanır. Suriya konstitusiyasında (2012) rəsmi din haqqında maddələr əsla təsbit olunmamışdır. Burada dilindən, dinindən, etnik-milli mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların eyni hüquqlara malik olmaları elan edilmişdir. Bununla belə, ölkə əhalisinin təqribən 93%-ni müsəlmanlar təşkil edir. Onların 74%-i hənəfi (sünniliyin 4 məktəbindən (hənəfi, şafii, hənbəli, maliki) biridir) dini məzhəbinin mənsubları olan sünnilərdir. Suriya əhalisinin 13%-ni ələvi, ismailli və isnaaşirət yönümlü şiəliyin mənsubları, 3%-ni isə druzlar (şiəliyin spesifik qolu) təşkil edir. 2010-cu ildə ölkədə 430 min xristian əhali yaşayırdı. Həmçinin, Suriyada ümumi sayları 80 min nəfər olan yezidi kürdlərinin, xristian kürdlərin eləcə də babi-bəhailərin, zərdüştilərin və yəhudilərin icmaları yaşayır [33].

Ölkə prezidenti ələvilik təriqətini təmsil edir. Onun həyata keçirdiyi liberal siyasətə baxmayaraq, 2011-ci ilin mart ayından ölkədə dini-siyasi zəmində silahlı qarşıdurmalar başlanmış və onlar bu gün də davam edir. Münaqişəyə cəlb olunan qüvvələr sırasına isə Suriya ərəb ordusu (Bəşər Əsədin tərəfdarları), Azad Suriya ordusu (müxalifət), kürd regionalistləri (B.Əsədin tərəfdarları), İslam dövləti silahlı qüvvələri, yaxud sələfilər (radikal müxalifət), ən-Nüsrə Cəbhəsi (radikal müxalifət - sələfilər) və digər qüvvələr daxildir. Sözügedən qüvvələr nisbətində hələ 2011-ci ildə başlanmış və bütün mövcud beynəlxalq gücləri, həmçinin münaqişədə

maraqlı olan çoxlu sayda dövlətləri (NATO, ABŞ, Rusiya, İsrail, Türkiyə Respublikası, Səudiyyə Ərəbistanı, Qətər, İran) müxalif tərəflər qismində öz orbitinə cəlb etmiş silahlı qarşıdurma bu gün də davam edir.

Təəssüf ki, Şərq dünyasında etnik-siyasi və dini-mədəni zəmində münaqişələrin diapazonu durmadan genişlənir. 5 iyun 2017-ci il tarixində bəzi ərəb ölkələri - Bəhreyn, Səudiyyə Ərəbistanı, BƏƏ, Misir, Yəmən, Liviya, Maldivlər, Mavritaniya, Komor ad-rı Qətər əmirliyilə diplomatik əlaqələri kəsdiklərini bəyan etdilər. Onlar israrla iddia edirdilər ki, Qətər rəhbərliyi və şəxsən Qətər əmiri Şeyx Tamim ibn Hamad Əl-Tani (1980) terrorizmi dəstəkləyir və Yaxın Şərqdə ekstremist ideologiyanın təbliğatı və yayılması ilə, həmçinin ərəb dövlətlərinin daxili işlərinə qarışmaqla məşğul olur. Antiqətər koalisiyası bu ölkəni "Müsəlman qardaşları", "Əl-Qaidə" və "İslam dövləti" kimi terrorçu təşkilatlarla, ərəb dövlətlərinin sıx birliyinə və tərəqqisinə mane olmağa çalışan İran hökuməti və İran klerikal dairələri ilə gizli əməkdaşlıq etməkdə ittiham edirdi. Türkiyə rəhbərliyi, nəinki ərəb dövlətlərinin təşəbbüsünə qoşulmadı, hətta onları qınadı və böhranlı vəziyyət yaranarsa, Qətərə məhdud kontingentli hərbi hissələr yeridəcəyini bəyan etdi. ABŞ da Qətəri terrorizmə sponsorluq edən dövlətlər siyahısına daxil etmədi. Bununla belə, hələki diplomatik səviyyədə cərəyan edən bu münaqişə Yaxın Şərqin müsəlman dövlətləri arasında birliyin, həmrəyliyin olmamasından və yetişən potensial hərbi münaqişədən xəbər verir.

Beləliklə, müasir Şərq dünyasının ümumi cizgilərdə etnik-siyasi və dini-mədəni təsviri belə bir konkret fikir irəli sürməyə imkan verir ki, etnik müxtəlifliklər, çoxçeşidli dinlər, təriqətlər və sosial qruplar arasında birgəyaşayış qaydalarına, yüksək tolerantlığa, etnik-mədəni plüralizmin təntənəsinə əsaslanan effektli tənzimləmə mexanizmləri formalaşdırmaq mümkün olmamışdır.

### *İstinadlar*

1. *Сингх А. Корпус знания, разработанный в джайнийских науках о жизни, как основание морального комплекса. Проблема знания в истории науки и культуры. СПб., Москва, 2001. С. 227-234*

2. *Сингх Н. Джайнийская теория измерения и теория трансфинитных чисел. Проблема знания в истории науки и культуры. СПб., Москва, 2001. С. 235-252*

3. *Торчинов У.А. Введение в буддологию. Будда. Санкт-Петербургское философское общество. Санкт-Петербург, 2000. 304 с. - с. 5*

4. *Андросов В.П. Будда Шакьямуни и индийский буддизм. Современное истолкование древних текстов. Москва, Издательская фирма «Восточная*

*литература» РАН, 2001. 508 с. - с. 420*

5. *Radhakrishnan S. Indian Philosophy, Volume 1. 2nd edition. London: George Allen and Unwin Ltd., 1929. P. 148*

6. *Духовная культура Китая: энциклопедия: в 5 т. Гл. ред. М.Л. Титаренко; Ин-т Дальнего Востока.-Москва Вост. Литература, 2006. Т. 1. Философия. ред. М.Л. Титаренко, А.И. Кобзев, А.Е. Лукьянов. - 2006. - 727 с. - С.280 -283*

7. *Carr, Michael. Whence the Pronunciation of „Taoism“. Dictionaries: Journal of the Dictionary Society of North America.1990. #12. Pp. 55-74*

8. *Дьяконов И.М. Архаические мифы Востока и Запада. Москва, Наука, 1990, с. 8*

9. *Хайям Омар. Рубайат. Трактаты. Науруз-наме. Москва, Эксмо, 2009, с. 260*

10. *Виденгрен Г. Мани и манихейство. Пер. Иванов С.В., Науч. Ред. Светлов Р.В. СПб.: Евразия, Москва, 2001. - 256 с., с. 242*

11. *Смагина Е.Б. Манихейство: по ранним источникам. Москва: Восточная литература, 1998. 512 с., с. 32*

12. *Juan E. Campo, ed. (2009).“Allah”. Encyclopedia of Islam. P. 34*

13. *Qurani-Kərim. Əl-Hucurat surəsi, ayə 13*

14. *Qurani-Kərim. Əl-Bəqərə surəsi, ayə 256*

15. *Qurani-Kərim. Əl-İmran surəsi, ayə 103*

16. *Ибн Хаджар. Дар-ал-марифа. Бейрут, б.г.т.2, с. 94 Об этом хадисе ал-Албани сказал, что он хороший, также см. Сахих ал-адабал-мурад ли-л-Имам ал-Бухар. Мухаммад ибн Насераддин ал-Албани. Дар-ас-Сиддийк. Ал-Джубайл. 2-е издание 1415 г.х. с.122*

17. *Рияд ан-Навави. Мактабат ал-Баррак, Эр-Рияд,т.1.1416 г.х. с. 28*

18. *Ислам: энциклопедический словарь. Отв. Ред. С.М. Прозоров. Москва: Наука, ГРВЛ, 1991 с. 225*

19. *Иордан М.В., Кузеев Р.Г., Червонная С.М. Ислам в Евразии. Москва, Прогресс-Традиция, 2001. - 515 с., с. 145*

20. *Вертельс Е.Э. Низами и Фузули. Москва, 1962 (Избр. труды, т. 2); «Oriens», с. 1-54*

21. *Brenton Betts R., Havemann A. Exploring Druze Tradition. Journal of Palestine Studies. - Vol. 19, No. 4. University of California Press on behalf of the institute for Palestine Studies (Summer, 1990).- C. 128-130*

22. *Miller. William. Trebizond: The Last Greek Empire of the Byzantine Era (Chicago: Argonaut, 1926), pp. 85-87*

23. *Leslie P. The Imperial Harrem: Women and Sovereignty in the Ottoman Empire - Oxford: Oxford University Press, 1993. - 374 p., p. 56*

24. *Bonnie G. Smith, Editor in (2008). The Oxford encyclopedia of women in world history. Oxford [England]: Oxford University Press. P. 656*

25. *История Востока. Т. III. Восток на рубеже средневековья и нового времени. XVI-XVIII вв. (главная редколлегия под председательством Р.Б. Рыбакова). Москва:, Издательская фирма «Восточная литература» РАН,*

*2000. С. 163-164., 696 с.*

*26. Ricklefs Robert Erik.A History of modern Indonesia. – Macmillan South-east Asian reprint, 2001, pp. 150-154*

*27. States Reorganisation Act, 1956. Constitution of India. Commonwealth Leqa Information Institute. 2011*

*28. Асташин Н.А. Афганистан: разбор негативных сценариев. Вестник МГИМО, № 2, 2010.- с. 143-152*

*29. Новейшая история Азии и Африки. XX век: в 3 ч. Под ред. А.М. Родригеса.- Москва, Владос, 2001. - ч. 3. с. 192*

*30. Кудрявцев Алексей. «Египетские исламисты: кто они?» Le Monde Diplomatigue, русское издание, декабр 2006, с. 17*

*31. Le desarroi des Sunnites irakiens Courrier International № 1046, с. 18*

*32. Хайруллин Т.Р. Коротаев А.В. Конституция Ирака 2005-го года и принципы ислама. Ислам в современном мире. Москва, 2017. С. 139-152*

*33. Bureau of Democracy, Human Rights and Labor. International Religious Freedom Report for 2015. Syria*

# III FƏSİL. QƏRB TƏFƏKKÜR TƏRZİNDƏ MULTİMƏDƏNİ DƏYƏRLƏRİN VƏ FUNDAMENTAL MÜXTƏLİFLİYİN TƏKAMÜLÜ




## 3.1. Qədim Yunanıstan və Roma ictimai-fəlsəfi fikrində ontoloji plüralizm və müxtəlifliklərin vəhdəti ideyası (ing. *The idea of ontological pluralism and unity of diversity in the social and philosophical thought of Ancient Greece and Rome*)



Qədim Hind sivilizasiyasından gəlmiş və zərdüştlük dini ideyalarında özünəməxsus sintezə məruz qalmış ictimai-fəlsəfi dəyərləri növbəti mərhələlərdə Milet (Kiçik Asiyanın qərbində, müasir Türkiyənin qərb hissəsində qədim şəhər olmuşdur) fəlsəfi məktəbi və onun davamçıları qəbul edərək daha da inkişaf etdirməyə başladılar [1].

Sözügedən dövrdə məhz Milet mövcud sivilizasiyaların toqquşduğu unikal bir məkan idi və bu məkanda Şərqdən gələn yeni ideyalarla antik



Avropadan nüfuz edən baxışların sintezindən orijinal bir dünyagörüşü formalaşırdı. Qədim dünyanın ən fenomenal dühaları olan Falesin (e.ə. 640-548), Anaksimandrın (e.ə.610-547), Anaksimenin (e.ə. 585-525) təqdimatlarında Milet məktəbi varlığın müxtəlifliyini, onun plüralist substansiyalara əsaslandığını gündəmə gətirdi və dünyanı canlı vəhdət kimi nəzərdən keçirməyə başladı. Milet məktəbini təmsil edən mütəfəkkirlərin ideyalarında hər hansı bir predmetin və hadisənin varlığı başqalarının varlığı, son nəticədə isə bütövün varlığı üçün əsas şərt kimi təsdiq olunurdu.

"Heç nə heçlikdən yaranmır" kimi bir prinsipə əsaslanaraq Milet mütəfəkkirləri iddia edirdilər ki, cisimlərin görünən müxtəlifliyi vahid, əbədi və sonsuz olan ilahi başlanğıcın, bioloji həyatın və bütün kosmosun mövcudluq mənbəyidir. Odur ki, bu müxtəlifliyin tarazlığının pozulması

qlobal məkanda və kosmik miqyasda tarazlığın və harmoniyanın pozulmasına da səbəb olur. Beləliklə, Milet məktəbinin mənsubları cisim və hadisələrin müxtəlifliyinin əsasında hansısa vahid, ilkin bir maddənin olmasını israrla iddia edirdilər. Fales onun “su”, Anaksimandr “apeyron” (qeyri-müəyyən və yaxud qeyri-məhdud maddə) Anaksimen isə “hava” olduğunu iddia edirdi [2].

Milet məktəbinin plüralist məzmunlu ideyalarını növbəti mərhələdə antik tarixin ən görkəmli şəxsiyyətlərindən biri olan Heraklit (e.ə. 544-483) davam etdirdi. Heraklit dialektikanın ilkin tarixi formasının əsasını qoymuş bir şəxs hesab olunur. Bu isə bütün ictimai-fəlsəfi fikir tarixində plüralizmin və tolerantlığın nəzəri əsaslarının təşəkkül tapması deməkdir. Heraklitə görə dünyada baş verən hadisələr axın nəzəriyyəsinə tabedir və bu axında bütün əksliklər mütləq vəhdət təşkil edir. Əksliklərin vəhdəti qanununun pozulması bəşəri nizamın pozulmasına səbəb olur. Heraklitin fikrincə predmetlərin və hadisələrin total müxtəlifliyi vahid, birləşdirici kompleks yaradır və bu kompleksin adı “vəhdətdir”. Heraklit varlığın əsasını təşkil edən vahid, ilkin maddənin - substansiyanın (lat. *substantia* - əsasında duran, mahiyyət) od olduğunu iddia edirdi. O, dünyanı “əbədi yanan, sönməz od” kimi nəzərdən keçirirdi. Göründüyü kimi, Heraklitin dünyagörüşündə mərkəzi aktiv element “əksliklərin vəhdəti” ideyasıdır. Əksliklərin vəhdətinin pozulması dünya nizamının pozulması deməkdir. Bütün varlıqların və cisimlərin vəhdəti göz qabağındadır və bu vəhdətin effektli, məhsuldar və ekstradavamlı olması isə məhz əksliklər arasındakı balanslaşdırılmış qarşılıqlı əlaqələrdən asılıdır. Heraklit vurğulayırdı ki, əksliklər arasında örtülü əlaqələr tipi, aşkar əlaqələr tipindən daha güclü və effektli olur, belə ki, “gizli harmoniya aşkardan daha yaxşıdır” [3].

Qədim yunan sivilizasiyasında öz xüsusi dəsti-xətti olan Pifaqorun (ing. *Pithagoras* - e.ə. 571-490) dünyagörüşünə caynizmin, buddizmin və hinduizmin simasında qədim Hind fəlsəfəsinin əsas plüralist prinsipləri həlledici təsir göstərmişdir. Pifaqor reinkarnasiya haqqındakı dini-fəlsəfi ideyanı əsas götürərək hesab edirdi ki, hər bir canlıya ruh məxsusdur və onlara zərər yetirmək olmaz. Pifaqor təlimi insanları birliyə, qarşılıqlı yardıma, dözümlülüyə, ruhani məhəbbətə çağırırdı. O, hesab edirdi ki, insanlar yalnız birlikdə, bir-birinin varlığına, şəxsiyyətinə və azadlığına hörmət etməklə öz ruhlarını reinkarnasiyanın əbədi dövriyyəsindən xilas edə və sonsuz rifah halına gətirə bilər. E.ə. VI əsr yunan sivilizasiyasının dini novatoru kimi tanınmış Pifaqorun fəaliyyətində dünyanın inkişafının kəmiyyət-keyfiyyət müxtəlifliklərindən asılı olması qanunauyğunluqları mühüm yer tutur [4].

Antik Avropa mədəniyyətinin fövqəladə tərzdə çılğın və ziddiyyətli şəxsiyyətlərindən biri olan Sokrat (ing. *Socrates* - e.ə. 470-399) ictimai-fəlsəfi fikir tarixində böyük dönüş yaratmış mütəfəkkir hesab olunur. O, fəlsəfənin diqqətini təbiətdən insana və onun şəxsiyyətinin vacibliyinə yönəltdi. Sokrat hesab edirdi ki, intellekt və mədəniyyət insanları daha xeyirxah və mərhəmətli olmağa sövq edir. Sokrata aid dialektikaya görə həqiqət müxtəlifliklərin vəhdətindən yaranır. Müxtəlifliklərin bir bəşəri ideya altında həqiqətə can atması aktı isə ruhani məhəbbətin fundamental əsasları qismində təzahür edir. Sokrat dühasının ümumbəşəri dəyərlərin inkişafına təsiri o qədər güclüdür ki, hətta patristikanın (lat. *pater* – ata – apostollardan sonra gələn Kilsə atalarının, yaxud xristianlığın dini-ruhani liderlərinin vahid teologiyası və fəlsəfəsi) yunan qolunun nümayəndələri Sokratla İsa peyğəmbər arasında orijinal paralellər aparırlar [5]. Sokrat hesab edirdi ki, "əgər bir cəmiyyətdə dözümlü, tolerant, mərhəmətli və birliyin qədrini bilən fədakar insanlar yaşayırsa və belə cəmiyyətə nəcib şəxsiyyətlər rəhbərlik edirsə, burada filosofların iştirakı əsla gərək deyil". Filosof istibdadı (antik tiraniya) ittiham edir və onun həyata keçirdiyi tədbirləri sabotaj (fran. *sabot* - taxta başmaq - qədim Yunanıstanda hər hansı bir tədbiri (əsasən siyasətçilərin çıxışını) boykot etmək məqsədi ilə iştirakçıların, ayaqlarındakı xüsusi taxta başmaqlarla yerə döyərək səs-küy salmaları) edirdi. Lakin afinalılar tiranı (Alkiviad - e.ə. 450-404) taxtdan salanda, Sokrat tək qalmış hökmdarı ölümdən qurtarmışdı. Bu isə Sokratın böyük və mərhəmətli qəlbə sahib olmasını sübut edirdi. Sokrat iddia edirdi ki, heç bir pisliyə pisliklə cavab vermək olmaz (müharibə situasiyasını, yaxud düşmənin təcavüzünü istisna edirdi). Qeyd etmək lazımdır ki, belə bir "tolerant doktrina" sonralar (I əsr) İsa peyğəmbərin moizələrində dönə-dönə təkrar olunurdu.

Sokrat rasionalizm prinsiplərini inkişaf etdirərək təsdiq edirdi ki, xeyirxah əməl həqiqi bilikdən və intellektdən doğur. Xeyirxah əməlin nə olduğunu və cəmiyyət üçün necə mühüm əhəmiyyət kəsb etdiyini bilən insan heç vaxt bəd əməl törətməz. Bu baxımdan filosof biliyi xeyirxah əməl kimi qiymətləndirir və hesab edirdi ki, həqiqi intellektə sahib olmaq mədəniyyəti insanları xeyirxah edir [6].

Qədim yunan fəlsəfəsinin şah əsərini Platonun (ing. *Plato* - əsl adı *Aristokl* - e.ə. 427-347) yaradıcılığı təşkil edir. Platon isə iddia edirdi ki, "əgər tək mövcuddursa, o, daim ciddi şəkildə tək qala bilməz" və onun davamlı mövcudluğu üçün mütləq çoxluğun, müxtəlifliyin olması şərtdir. Platon "Dövlət" dialoqunda iddia edirdi ki, əsl "rifah" və "xeyirxahlıq" idrakın ən ali obyektləridir. Filosof real müxtəlifliyin və bu müxtəlifliyə

dözümlülüyün davamlı inkişaf üçün son dərəcə vacib olması ideyasını dəstəkləyirdi [7]. Platon iddia edirdi ki, əsl insanın qarşısında duran ən başlıca vəzifə nizamsızlıq (qeyri-mükəmməl hissi-emosional situasiya) üzərində hakim olmaqdan və onu sabit məcraya yönəltməkdən, qəlbin bütün gücü ilə heç bir bəd əməllə əlaqəsi olmayan tanrı həqiqətlərinə can atmaqdan ibarətdir. Platon "Fileb" və "Qanunlar" dialoqlarında özünün mütləq sülh yaradan və barışdıran "evdemonik" (yun. *evdemoniya* - rifah, xoşbəxtlik - insanın daim xoşbəxtliyə və ümumi rifaha can atması kimi təzahür edən etik istiqamət) mövqeyini xarakterizə edirdi [8].

Antik fəlsəfi fikrin ən parlaq nümunələrindən biri də qədim yunan filosofu Aristotelin (ing. *Aristotle* - e.ə. 384-322) özəl yaradıcılığını əks etdirir. Aristotel insanlar arasında formalaşan mənəvi münasibətləri təyin etmək üçün, ilk dəfə olaraq elmi dövriyyəyə "etika" (yun. *ethos* - əxlaq) terminini daxil etmişdi. Aristotel xeyirxah əməli iki əsas kateqoriyaya bölürdü: 1) mənəvi, yaxud etik əməl; 2) düşüncənin, yaxud şüurun əməli [9]. Aristotel etikasında "xeyirxahlıq" kateqoriyasına xüsusi yer ayrılırdı. Filosof iddia edirdi ki, xeyirxahlıq, mərhəmət, dözümlülük və şəst ifratla əskiklik arasındakı orta həddir. Həlimlilik, lütfikarlıq, comərdlik, səbir, alicənablıq, düzgünlük, iltifatçılıq, ədalətlilik, praktiki müdriklik və s. "qızıl həddin" əsas elementləridir. Xeyirxahlıq, mərhəmət və dözümlülük isə insan qəlbinin və ruhunun daxili nizamıdır. Bu nizamın pozulması insan xarakterinin, temperamentinin və iradəsinin neqativ elementlərin əsiri olması deməkdir. Aristotel insan həyatının bütün sferalarını əhatə edən yeni fəlsəfi sistem yaratmış, vəhdət və əksliklər haqqında məntiqi qanunlar formalaşdırmışdı [10].

**Zenon və stoisizm** (ing. *Zeno and stoicism*). Dövrün ümumbəşəri dəyərlərinin formalaşmasında və inkişafında e.ə. IV əsrin sonlarında Afinada yaranmış "stoisizm" təliminin xüsusi əhəmiyyəti vardır. Qeyd etmək lazımdır ki, bu təlim antik dövr tarixinin sonunadək cəmiyyətdə öz ideoloji təsir qüvvəsini itirməmişdi. Öz adını təlimin yaradıcısı Kitiyalı Zenonun (e.ə. 334-262) ilk dəfə öz ideyalarını təqdim etmək üçün çıxış etdiyi və "Stoa Poikile" adlanan xüsusi tip örtülünün (*portik*) adından götürmüşdür. İdeoloji baxımdan stoisizm həyatın sərt sınaqları qarşısında dözümlü və mətin olmaq anlamına gəlir [11]. Antik dövrdə formalaşmış "stoik insan" obrazı orta əsrlər tarixinin etik-mənəvi şüurunda da kifayət qədər dərin köklər salmışdı. Stoiklər dünyanı əsl ilahi qanunlarla (loqos) tənzimlənən canlı bir orqanizm kimi təsvir edir, insan taleyinin isə bu qanunların proyeksiyası qismində təzahür etdiyini israrla iddia edirdilər. Stoisizm bütün insan fərdlərini "Kosmos vətəndaşları" elan edir və bütün

bəşəriyyəti vahid və monolit dövlət kimi tərənnüm edirdi. Stoisizmə xas olan unikal kosmopolitizm (yun. *kosmopolites* - dünya insanı) dilindən, dinindən, cinsindən və etnik mənsubiyyətindən asılı olmayaraq, bütün insanları, hətta qulları da dünya qanunu qarşısında bərabər elan edirdi. [12]. Bütövlükdə isə stoisizmin əsas ideyası "təbiətlə və digər insanlarla razılıq və harmoniya şəraitində yaşamaq" prinsiplərinə əsaslanırdı.



**Qədim Roma ictimai-fəlsəfi fikrində mədəni müxtəlifliyə münasibət.** Aralıq dənizi hövzəsində qüdrətli Roma dövlətinin yaranması və genişlənməsi ilə bağlı olaraq, yunan sivilizasiyasında yaranmış və formalaşmış çağdaş dünya baxışları tədricən Roma mədəniyyətinə, xüsusilə də yenicə təşəkkül tapan fəlsəfi ideyalara transformasiya olunmağa başladı. Romada təşəkkül tapmış dünya baxışları içərisində "eklektizm" (yun. *eklectikos* - *seçirəm*) təliminin xüsusi əhəmiyyəti var idi. Bu təlimin əsas mahiyyəti onun müxtəlif və fərqli dünyagörüşlərinin toplumu kimi təzahür etməsi idi. Lakin müxtəlif baxışların seçimi və sintezi zamanı eklektiklər istinad nöqtəsi kimi "sağlam düşüncəni" əsas şərt hesab edirdilər [13].

Roma imperiyası dövründə (e.ə. 27 - b.e. 476) isə ən geniş yayılmış ideoloji təlim klassik stoisizmin Roma cəmiyyətinə uyğunlaşdırılmış yeni forması idi. Bu yeni təlim elə beləcə də adlanırdı - "yeni stoisizm". Yeni stoisizmin ən görkəmli nümayəndələrindən biri Lukis Seneka (lat. *Lucius Annaeus Seneca* - e.ə. 4 – b.e. 65) idi. O, qədim dünyanın ən ziddiyyətli şəxsiyyətlərindən biri kimi tanınan Roma imperatoru Neronun (lat. *Nero Claudius Caesar Augustus Germanicus* - 54-68) tərbiyəçisi olmuş, onun üzdəniraq siyasətinə qarşı çıxdığı üçün ölümə məhkum edilmişdi. Seneka öz mütərəqqi baxışlarını sevimli oğlu Lutsiliyə ünvanladığı "Lutsiliyə məktublar" (lat. *Epistulae ad Lucilium*), "Xeyirxah əməllər haqqında" (lat. *De beneficiis*), "Mərhəmət haqqında" (lat. *De clementia*) yazılarında ifadə etmişdi. Bu yazıların qızıl xəttini isə spesifik əlamətlərindən asılı olmayaraq, hamının bərabər olması zərurətinin tam təsdiq edilməsi təşkil edirdi. Həqiqət dünyada mövcud olan bütün real, pozitiv müxtəlifliklərin harmoniyasından yaranır. Bu harmoniyanın üstqurumu isə daim mənəvi kamilliyə can atan "əsl insan" ideyasından ibarətdir. Seneka dönə-dönə əminliyini bildirirdi ki, insan həyatının ən optimal pozitiv məzmunu heç bir əlamətini nəzərə almadan, insanlara xeyir gətirməkdən, hər hansı bir münaqişəyə yol verməməkdən və bağışlamağa hazır olmaqdan ibarətdir [14]. Roma imperiyasında yayılmış yeni stoisizmin digər bir görkəmli

nümayəndəsi Epiktet (yun. *Epiktetos* - 50-138) idi. Əvvəllər qul olmuş və Roma quldarlarından böyük acı çəkmiş Epiktetin olduqca maraqlı dünya baxışları formalaşmışdı. Onun fəlsəfəsi başdan-başa həyati müdrikliklə dolu idi. Epiktet, qəti olaraq sosial ekstremizmi (sosial bərabərsizliyin təbliğatı və dəstəklənməsi) inkar edirdi. Filosof insanlara müxtəlifliklərlə dolu olan münaqişəli cəmiyyətdə necə yaşamağı, əməli-saleh, dözümlü, və mərhəmətli olmağı öyrədirdi. “Dözümlü ol və özünü saxla” düsturu Epiktet əxlaqının leytmotivini təşkil edirdi [15].

Yeni stoisizmin ən məşhur nümayəndəsi, 161-180-ci illərdə Roma imperatoru olmuş Mark Avreliy (lat. *Marcus Aurelius Antoninus* - 121-180) idi. Mark Avrelinin irsi isə “Düşüncələr” adlı yazılarda bu günədək gəlib çatmışdır. Filosof iddia edirdi ki, yer üzündə ən böyük sərvət insan həyatıdır və bu özəl sərvətə sahib olmaq istiqamətində bütün insanlar, hər hansı əlamətindən asılı olmayaraq, tam bərabərdirlər. Mark Avreliy sübut etməyə çalışırdı ki, “hər şey vahid dünya nizamına tabedir və bu nizamın pozulması bütün insani dəyərlərin iflasa uğraması deməkdir” [16]. Dünya nizamı haqqındakı biliklərə əsaslanaraq, filosof hesab edirdi ki, insanlar ümumi rifaha nail olmaq üçün subyektiv ideallarını kənara qoymağı və bütün qüvvələrini səfərbər etməyi bacarmalıdır. O, iddia edirdi ki, insan başqasının işinə qarışmamalı, onun subyektiv dünyasına nüfuz etməməli, baxışlarına hörmətlə yanaşmalıdır. Filosof intriqaları cəmiyyəti içəridən məhv edən çox təhlükəli faktor hesab edir və insanı üzvi birliyi dağıtmaq arzusundan çəkindirməyə və maksimum yaradıcı olmağa çağırırdı. “Əsl insan başqaları üçün xeyirli olan insandır”. İnsanların, fərqli əlamətlərini nəzərə almadan bir-birilərinə qarşılıqlı yardım göstərmələrini isə Mark Avreliy bəşəri borc hesab edir və onun uğurlu cəmiyyət üçün ən əsas şərt olduğunu təsdiq edirdi.

## 3.2. Xristianlıq ideyalarında tolerantlıq və mədəni plüralizm motivləri (ing. *Motives of tolerance and cultural pluralism in the ideas of Christianity*)



Bu gün bütün dünyada ən geniş yayılmış monoteist dini təlimlərdən biri xristianlıqdır. Xristianlıq (isavilik, yaxud məsihəçilik) dini təlimi I əsrin birinci qərinəsində Fələstində meydana gəlmişdir. Təlimin banisi Nəzarət (Fələstində) şəhərinin sakini İisus Xristos (ivrit. *İeşua Qa-Notsri*, ərəbcə isə *İsa Məsih*)

hesab olunur. Xristian dininin bütün müddəaları İsa peyğəmbərin həyat hekayəsinə, dərslərinə, moizələrinə, möcüzələrinə, faciəli ölümünə və nəhayət fantastik şəkildə dirilməsinə və qeyb olmasına əsaslanır. Bütün bu dramatik hadisələr isə İncil (yun. *Yevangelion* - "Xoş xəbər"), yaxud Əhdi-Cədid (yun. *Nea diathiki* - Yeni əhd) adlı müqəddəs kitablarda (4 kanonik kitab - İncil Matveydən, İncil Markdan, İncil Lukadan, İncil İoandan) öz əksini tapmışdır. İlkin olaraq xristianlığı bütün dünyada İsa Məsihin 12 şagirdi - həvarilər, yaxud apostollar (apostolların ümumi sayı 70, yaxud 72 idi) yaymışlar [17]. Xristianlıqda tanrı mütləq şəxsiyyət, mütləq şüur, qüdrət, həmçinin qeyri-məhdud xeyirxahlıq və məhəbbət kimi qəbul olunur. İnsanlar isə bu təlimə əsasən "Qoşulmaq ayini" (yun. *misterio*) vasitəsi ilə "tanrı məhəbbəti naminə" birləşirlər və bu zaman "tanrı məhəbbət deməkdir" kimi həqiqəti qəbul edirlər [18]. Xristianlıq politeizm ideyalarının hökm sürdüyü qüdrətli Roma imperiyasının qədim dünyanın böyük bir hissəsinə nəzarət etdiyi bir dövrdə, ortodoksal yəhudi ideologiyasına müxalifət kimi yaranmışdı. Buna görə də, dərin mənəvi böhran keçirən və yeniliklərdən qorxan Roma cəmiyyəti hər hansı yeni ideologiyanı imperiyanın inteqrativ əsaslarını sarsıdan çox təhlükəli amil kimi qiymətləndirir və bütün mövcud imkanlardan istifadə edərək onu məhv etməyə çalışırdı. Məhz elə bu səbəbdən xristian dininin mütərəqqi dəyərləri uzun müddət Roma cəmiyyətinə ciddi nüfuz edə bilməmişdi və yalnız IV əsrin əvvəllərində təbii və ilahi hüquqlarını təmin edə bilmişdi.

IV-V əsrlər xristian ilahiyyatının ən görkəmli nümayəndələrindən biri olan Mömin Avqustin (lat. *Aurelius Augustinus Hipponensis* - 354-430) xristianlığın ən fundamental müddəalarına əsaslanan neoplatonizm təlimi yaratmış və sürətlə yayılmaqda olan bu yeni təlimin ən prinsipial məqamlarını təfsir etmişdi. Bu təfsirə görə insan azad iradəyə malikdir, xüsusi materiyadan ibarətdir və tanrı yaradıcılığının nəticəsidir. Tanrı varlığa müxtəlif adlar, formalar, xassələr, təyinatlar vermişdir. Tanrının yaratdığı hər şey "mövcud olmaq hüququna" malikdir. Şər substansiya deyil, o, çatışmazlıqdır, materiyanın xarab olmuş formasıdır, heçlikdir. Materiya növlər, ölçülər, saylar və nizam kimi prinsiplərlə xarakterizə olunur. Adəmin və Həvvanın simasında bəşər ilk günahını edəndən bəri şərə meyllilik davamlı genetik koda çevrilmişdir. İnsanlar hətta xeyirxah əməllərlə məşğul olanda belə şər törədirlər [19].

Xristianlıq təlimi ümumbəşəri dəyərləri əsas götürərək çoxlu sayda haqlı tələblər və qadağalar irəli sürür. Bunların içərisində "öldürmə", "başqasının malına və sərvətinə göz dikmə", "yaxınını sev, insanlara hörmət et" kimi çağırışlar bəşəriyyətin təhlükəsiz və davamlı inkişafına

hesablanmış və insanlarda yüksək təşəkküllü humanist keyfiyyətlər formalaşdırmağa və zəruri birgəyaşayış qaydalarına ciddi əməl etməyə istiqamətlənmişdir [20]. Xristianlıq insanları barışığa, sülhə, mərhəmətə və qarşılıqlı yardıma çağırırdı: "Əgər bacarırsınızsa, hamı ilə sülh şəraitində yaşayın" [21].

### 3.3. Renessans mədəniyyətinin tolerant mahiyyəti. Humanizm, maarifçilik və klassik alman fəlsəfəsində tolerantlıq ideyalarının intibahı (ing. *Tolerant essence of Renaissance culture. The revival of the ideas of tolerance in the philosophy of humanism, enlightenment and classical German philosophy*)



**Renessans** (ing.*Renaissance*). X əsrdən başlayaraq Şərqin və Avropanın təfəkkür tarixində spesifik bir mərhələ başlandı. Bu mərhələ isə Renessans (türk. *dirçəliş,* ərəb. *intibah*) adlanırdı. Renessans Maarifçilik mədəniyyəti üçün əsl zəmin yaratmış yeni hərəkat idi. Onun əlamətlərini dünyəvilik, humanizm, antroposentrizm (yun. *antropos* insan, *centrum* - mərkəz - insanı kainatın mərkəzi obyekti, bütün mövcud hadisələrin məqsədi elan edən idealist dünyagörüşü) təşkil edirdi. Bu təlimə görə, əsas diqqət mərkəzində insan şəxsiyyəti, insan fəaliyyəti, onun rifahı və xoşbəxtliyi dururdu. Bununla əlaqədar antik mədəniyyətin ən mütərəqqi dəyərlərinə maraq və bu dəyərlərin intibahı əsas dinamik cəhət kimi ortaya çıxırdı. Latın dilindən tərcümədə "renessans" termininin hərfi mənası "yenidən doğulmuş" (lat. *re* - yenidən, *nasci* isə doğulmuş) deməkdir. Avropada Renessans ideyalarının təşəkkülü və formalaşması Bizans imperiyasının dağılması və Bizans əsilli çox qədim mədəniyyət mənsublarının Mərkəzi və Qərbi Avropaya pənah gətirməsi ilə birbaşa bağlı idi. Bizans əhli özü ilə Avropaya antik mədəniyyətdən əxz və hifz etdikləri ənənələri, zəngin kitabxanaları, antik incəsənət nümunələrini də gətirdi [22].

Qeyd etmək lazımdır ki, Bizans mədəniyyəti 313-cü ildə Bizans imperatoru I Konstantinin (lat. *Flavius Valerius Aurelius Constantinus* - 306-337) Mediolan (ind. Milan) edikti (lat. *Edictum Mediolanense*) ilə imperiya ərazisində mütləq dini tolerantlıq elan etməsindən sonra yüksək plüralizm və humanizm ruhu kəsb etməyə başlamışdı. XIII-XV əsrlərdə

"qaçqın düşmüş Bizans mədəniyyətinin" Avropaya nüfuz etməsi, burada əsrlərlə mövcud olan özəl ictimai münasibətlər sistemində olduqca ciddi yeniliklərə və kardinal dəyişikliklərə səbəb oldu.

Avropada Renessans mədəniyyətini bədii ədəbiyyatda ifadə etmiş ilk şəxs İtaliya şairi **Dante Aligyeri** (ital. *Dante Alighieri* - 1265-1321) olmuşdur. Dante "İlahi komediya" əsərində çağdaş insanın əsl və həqiqi mahiyyətini, dövrün humanist idealını təsvir etmişdi. Bu əsərdə müəllif hipotetik "cənnəti","cəhənnəmi" və "ərafi" təsvir edərək, dövrün insanını xeyirxahlığa, mərhəmətə və təmiz ilahi məhəbbətə çağırırdı. Mütəfəkkir harmonik şəkildə inkişaf edən yeni - azad, yaradıcı, tolerant və humanist şəxsiyyətin yetişdirilməsinin həyatın davamlı inkişafı üçün son dərəcə vacib olduğunu açıqlayırdı [23].

Renessans mədəniyyəti özünün ciddi plüralist xarakteri ilə milli mədəniyyətlərin formalaşması üçün də yol açmışdı. Renessans dövründə savad və ziya insanların varlı və tanınmış olmaları, "seçilmiş xalqlara" mənsubiyyətləri ilə deyil, onların yüksək insani keyfiyyətləri, istedadlı, zəhmətkeş və dözümlü olmaları ilə ölçülürdü.

Renessans mədəniyyəti bəşəriyyətə ən vacib və tələb olunan keyfiyyət - humanizm (lat. *humanitas - insani*) ideyaları gətirdi. Humanizm etik və demokratik bir həyat mövqeyi, zamanın tələblərinə çağırış kimi təzahür edən həyat tərzi idi. **Humanizm** ideyaları insanın özəl həyatının formasını, məzmununu və mənasını tam müstəqil təyin etmək hüququ olduğunu və bu hüququn bizə tanrıdan gəldiyini elan edirdi. Bu isə dövrün klerikal dairələrinə və istibdada qarşı etiraz anlamına gəlirdi.

Humanizm əxlaqi dəyərlərə, mərhəmətə, tolerantlığa, filantropiyaya əsaslanan ən yüksək təşəkküllü tolerant cəmiyyət qurmağa çağırış idi. O, insanın şəxsiyyət kimi əsl dəyərini, onun azadlıq, inkişaf, xoşbəxtlik və sağlam gələcək hüququ olmasını təsdiq edirdi.

Humanizm prinsipial olaraq şəxsiyyətin çağdaş cəmiyyətlə yaradıcı əlaqəsini təsdiq edir və eqoizm qismində təzahür edən individualizmi ictimai birliyi sarsıdan əlamət kimi qiymətləndirirdi. O, iddia edirdi ki, ümumbəşəri dəyərlərin qlobal miqyasda daha da effektli işləməsi üçün beynəlmiləlçilik vacib amildir və o, qatı millətçiliyə, şovinizmə, irqçiliyə qarşı ən etibarlı vasitədir.

Yeni humanizm ideyaları dünya tarixinə və sivilizasiyasına əvvəllər misli görünməmiş fenomenal şəxsiyyətlər - filosoflar, ədiblər, rəssamlar

və ixtiraçılar bəxş etdi: Dante Aligyeri (1265-1321), Nikolay Kuzanski (1401-1465), Mişel Monten (1533-1592), Cordano Bruno (1548-1600), Françesko de Petrarka (1304-1374), Leonardo Piero Vinçi (1452-1519), Fransua Rable (1493-1553), Erasmus Rotterdamus (1466-1536), Nikollo Makiavelli (1469-1527), Nikolay Kopernik (1473-1543), Martin Lüter (1483-1546), Mişel de Nostrdamus (1503-1566), Qalileo Qaliley (1564-1642), Huqo de Qrotsiy (Qroot - 1583-1645), Rafael Santi (1483-1520), Mikelancelo de Buonarroti (1475-1564), Sandro Bottiçelli (1445-1510), Tiziano Vaçellio (Titsian - 1488-1576), Karavaco (1571-1610), Vilyam Şekspir (1564-1616), Migel de Servantes (1547-1616), Feliks Lope de Veqa (1562-1635), El Qreko (1541-1614), Dieqo Velaskes (1599-1660) və b.

Beləliklə, Avropada intibah mədəniyyəti əsl humanizm ideyalarını tərənnüm edən çoxlu sayda dahi, fenomenal təfəkkür sahibləri yetişdirdi. Onların içərisində **Nikolay Kuzanskinin** (lat. *Nicolaus Cusanus* -1401-1464) müstəsna yeri və rolu vardır. Neoplatonizmi təbliğ edən Kuzanski fəlsəfəsinin başlıca məzmununu əksliklərin, fərqli elementlərin vəhdəti konsepsiyası təşkil edirdi və burada əksliklərin mübarizəsi qismində gözə görünən bütün problemlərin dərhal, yerində həll olunması mexanizmləri göstərilirdi. Filosof ən ali məqsədi, obyektiv fikir ayrılıqlarının mövcud olmasına baxmayaraq, sülhün və razılığın bərqərar edilməsində görürdü. Kuzanskinin dünya mədəniyyəti və ictimai-fəlsəfi fikir tarixində ən əsas xidmətlərindən biri də bu idi ki, o, sözügedən dövr üçün son dərəcə cəsur addım ataraq dini dözümlülük haqqında təsəvvürləri inkişaf etdirmiş və islam dininin mütləq şəkildə mütərəqqi bir təlim olmasını elan etmişdi. Belə fikirləri katolik kilsəsinin yüksək siyasi nüfuza malik olduğu bir dövrdə açıq söyləmək böyük cəsarət tələb edirdi. Həm də nəzərə almaq lazımdır ki, Kuzanski katolik kilsə siyasətini rəsmi şəkildə həyata keçirən xristian ilahiyyatçısı idi [24].

İntibah mədəniyyətinin humanist ideyalarının inkişafında fransız yazıçısı və filosofu **Mişel Montenin** (fran.*Mishel Montaigne*-1533-1592) yaradıcılığının müstəsna əhəmiyyəti vardır. "Təcrübələr" adlı əsərində o, xüsusi tipli skeptisizmi (yun. *skeptikos* - nəzərdən keçirən, tədqiq edən - bütün predmet, hadisə və proseslərin öyrənilməsində şübhəni prinsipial düşüncə tərzi kimi irəli sürən fəlsəfi istiqamət)ifadə edirdi. Mişel Monten yaradıcılığının qızıl xəttini insanın xoşbəxtliyə can atması ideyası təşkil edirdi. Filosof eqoizmi insanın əməl və hərəkətlərinin əsas səbəbi kimi qəbul edərək olduqca təzadlı ideyalar irəli sürürdü. O, hesab edirdi ki, insan eqoizmi fərdi şəkildə xoşbəxtliyə çatmaq üçün bir zərurətdir. Lakin

Monten tolerantlığı və alicənablığı tərənnüm edir, insan qürurunu tənqid edərək onu bütün münaqişələrin mənbəyi hesab edirdi. Montenə görə, insan özünə özgə mənəvi ideallar yaratmalı deyil, xoşbəxtliyə çatmaq üçün mövcud ideallara can atmalıdır. Filosof hər hansı bir ideya naminə təbiət üzərində zorakılığı faydasız və qəddar akt hesab edirdi. İnsanın öz şəxsiyyətinə münasibətinin çox vacib olduğu kimi, onun başqasına və bütövlükdə mövcud cəmiyyətə münasibəti də son dərəcə vacibdir. Bu münasibətlərdə isə ədalət prinsipi ən ali prinsip olmalıdır [25].

Humanizm dövrünün ən parlaq məqamlarından biri **Jovanni Piko della Mirandolanın** (ital. *Giovanni Pico della Mirandola* - 1463-1494) yaradıcılığı ilə bağlıdır. Mirandolanın fəlsəfəsində aparıcı məzmun bütün fəlsəfi məktəblərin təbii barışığa çağırılmasıdır. Bununla əlaqədar filosof xüsusi vurğulayırdı ki, bütün dini təlimlər və fəlsəfi məktəblər mütləq həqiqətə aparan xüsusi yolların ifadəsidir. Mirandola antropologiyasında insana şəxsi "mən"ini formalaşdıran və hökmü olan yaradıcı kimi baxılır, onun azadlığı və ləyaqəti ən ali məqsəd kimi qiymətləndirilirdi. Filosof insanı dünyanın mərkəzinə qoyur, "İnsanın ləyaqəti haqqında" əsərində iddia edirdi ki, o, kosmik iyerarxiyada (üçpilləli iyerarxiya - elementar varlıqlar, mələklər, səmavi fövqəlqüdrət) yer tutmur. O, özünü "azad və şərəfli usta" kimi özü formalaşdırmalıdır. O, həm ulduzlara və mələklərin məkanına qədər yüksələ, həm də sırf heyvani vəziyyətə qədər alçala bilər [26]. İnsan şərafətini layiq olduğu yüksək ilahi kürsüyə qaldırmaq kimi humanist ənənələrə səadaqətini tərənnüm edən filosof, diqqət mərkəzinə insanın seçim azadlığını qoyur və onu hər hansı xeyirxah əməlin şərti və ruhani qiyməti hesab edirdi.

Humanizmi yeni üslubda tərənnüm edən mütəfəkkirlərdən biri də **Martin Lüter** (alm. *Martin Luther* - 1483-1546) idi. Martin Lüter alman ilahiyyatçısı, Avropa dini Reformasiyasının banisi, protestantlığın lüteran istiqamətinin əsasını qoymuş bir şəxsdir. Lüter o dövr üçün son dərəcə cəsarətli və mətin addımlar ataraq iddia edirdi ki, kilsə insanlarla tanrı arasında vasitəçi ola bilməz. İnsan yalnız öz xeyirxah əməlləri sayəsində ixlas yolunu tapa bilər və onu günahlarına görə yalnız tanrısı bağışlaya bilər. O, açıq-aydın indulgensiyaya (lat. *indulgentia* - dözmək və icazə vermək - günahların tam bağışlanması haqqında Roma papası tərəfindən verilən sənəd) qarşı çıxmış və israrla anafemanı (lat. *anathema* - lənət - katolisizmdə "küfr edənlərin" kilsədən iraq salınması, qanundan kənar elan edilməsi, azad düşüncəli insanların kilsənin himayəsindən məhrum edilməsi haqqında fətva) kilsənin qanunsuz iddia aktı elan etmişdi [27]. Lüterin yaratdığı xüsusi protestantlıq təlimi kilsəni daş-qaşla bəzədilmiş,

sırf zənginliyi təbliğ edən bir məkan deyil, tanrı ruhu dolaşan, sadəlik və bərabərlik aurası ifadə edən sakral bir aləm kimi qəbul edirdi.

Renessans mədəniyyətinin ən yüksək nöqtəsini ingilis dramaturqu **Vilyam Şekspirin** (ing. *William Shakespeare* - 1564-1616) yaradıcılığı təşkil edir. Şekspirin fəlsəfi ideyaları öz əksini onun ölməz poemalarında tapmışdır. Bu poemalardan "Romeo və Cülyetta"nı xüsusi qeyd etmək lazımdır.1591-1592-ci illər ərzində yazılmış bu əsərin əsas motivlərini iki italyan aristokrat ailəsinə (Montekki və Kapuletti) mənsub olan gənclərin - Romeo Montekki ilə Cülyetta Kapulettinin əsrarəngiz, lakin çox faciəli məhəbbəti təşkil edir. Bu məhəbbətin fonunda isə iki ailə və hətta nəsil arasında düşmənçilik münasibətlərinin hansı radikal forma alması faciə süjetinin sadə dili ilə göstərilir. Şekspir bu əsərdə təkcə təmiz, platonik məhəbbətin qüdrətini tərənnüm etmir, ən ifrat intolerantlığın, başqasının, yalnız onun fərqli olmasına görə qəbul edilməməsinin məişətdə, ailədə və cəmiyyətdə hansı fəsadlar törətməsini açıb göstərir [28].

İnsanlar arasında sosial-iqtisadi və ictimai-mədəni münasibətlərin qlobal xarakter daşıdığı münaqişəli bir cəmiyyətdə humanizm fövqəladə şəkildə tələb olunan, mütərəqqi bəşəriyyəti daim mənəvi böhrandan xilas etməyə istiqamətlənmiş vacib bir şərt kimi ortaya çıxmışdır. Qeyd etmək lazımdır ki, müasir dünyada humanizm ideyalarını israrla tərənnüm edən filantrop ruhlu bütün ictimai təşkilatlar "Beynəlxalq Humanizm və Etika İttifaqında" birləşirlər.

İntibah mədəniyyəti, o cümlədən humanizm ideyalarına əsaslanan çox yüksək ictimai-fəlsəfi dəyərlər sistemi XVII əsrdən etibarən daha dinamik cizgilərdə maarifçilik fəlsəfəsində tərənnüm olunmağa başladı.



**Maarifçilik** (ing. *The Enlightenment*). Avropa mədəniyyətində təzahür etmiş ən möhtəşəm hadisələrdən biri maarifçilikdir. Maarifçilik ideyalarının əsas prinsiplərini rasionalizm və azadfikirlilik təşkil edirdi. İngiltərədə meydana gəlmiş və daha sonra Fransaya və Avropanın digər ölkələrinə yayılmış maarifçilik bəşəriyyətin təfəkkür tərzində atılmış möhtəşəm bir addım idi. Maarifçilik intellektual hərəkat kimi ictimai razılıq, vətəndaş cəmiyyəti, əsl hüquqi, demokratik dövlət nəzəriyyəsini tərənnüm edirdi. Maarifçilik iddia edirdi ki, "insanlar azad yaşamaq üçün yaranmışlar". Mükəmməl cəmiyyət isə ictimai razılığa əsaslanmalıdır [29].

Bu dövrdə elmi, fəlsəfi və ictimai fikrin inkişafı misli görünməmiş

həddə çatmışdı. Avropa maarifçiliyinin korifeyləri qismində isə fransız mütəfəkkirləri daha çox məşhur idilər və bütün dünyada "düşüncələrin hakimlərinə" çevrilmişdilər. Təsadüfi deyildir ki, Avropa maarifçiliyinin ən fundamental prinsipləri ABŞ "Azadlıq Bəyannaməsi"nin və Fransa "İnsan və vətəndaş hüquqları Bəyannaməsi"nin əsaslarını təşkil edirdi. 1688-ci il İngiltərə Burjua İnqilabı və 1789-cu il Böyük Fransa İnqilabı maarifçilik ideyalarının məntiqi nəticəsi idi. Maarifçilik ideyaları dərin mənəvi böhran keçirən Avropa və Amerikanın sosial-mədəni və əxlaqi münasibətlər sistemində mütərəqqi yeniliklərin baş verməsinə (Amerika koloniyalarının milli-azadlıq mübarizəsi, quldarlığın ləğv edilməsi, insan hüquqlarının formalaşdırılması) həlledici təsir göstərmişdi. Maarifçilərin mütərəqqi fəaliyyəti o dövr zadəganlığının nüfuzuna ciddi zərbə vurdu, kilsənin cəmiyyətin sosial, intellektual və mədəni həyatına israrla nüfuz etməsi mexanizmlərini sındırdı,cəhalətə qarşı sarsıdıcı həmlələr etdi [30].

Maarifçilik fəlsəfəsi var gücü ilə o dövrdə Avropada və Amerikada mövcud olan ənənəvi institutları, adət, ənənə və əxlaqi dəyərləri sərt tənqidə məruz qoyurdu. Maarifçilik dövrü rəmzi olaraq **Rene Dekartın** (fran. *Rene Descartes* - 1596-1650) rasionalizmi tərənnüm edən "Metod haqqında düşüncələr" (1637) əsərinin təqdimatı ilə başlanmış və 1778-ci ildə Fransa maarifçiliyinin ən fenomenal dühaları olan **Volterin** (fran. *Voltaire - François Marie Arouet* - 1694-1778) və **Jan-Jak Russonun** (fran. *Jean-Jacques Rousseau* - 1712-1778) vəfatı ilə başa çatmışdı.

Maarifçilik fəlsəfəsinin ilkin fazası **İsaak Nyutonun** (ing. *Isaac Newton Sir* - 1642-1727) və **Con Lokkun** (ing. *John Locke* -1632-1704) ideyalarının təsiri altında formalaşmışdı. Bu faza üçün dini kompromis, kainatın nizamlı və sabit struktur kimi qəbul edilməsi xarakterikdir. Bu faza, əslində, humanizmin təbii davamı kimi ifadə olunurdu. O dövrün ən parlaq tolerantlıq nümunələrindən biri kimi 1689-cu ilin 16 - 26 dekabr tarixində B.Britaniya parlamentində qəbul edilmiş "Hüquqlar haqqında Bill" (ing. *Bill of Rights - "An Act declaring the Rights and Liberties of the Subject and Settling the Succession of the Crown"*) qanunvericilik aktını qəbul etmək olar. Bu sənəd İngiltərə kralının simasında istibdadın hakimiyyətini məhdudlaşdırır, insana bəşər tarixində misli görünməmiş hüquqlar və azadlıqlar verirdi. Bu gün Böyük Britaniya Konstitusiyasının əsaslarını təşkil edən bu sənəd (ing. "*Habeas korpus Act"* və "*Act of Settlement"*) insan hüquqlarını təsdiq edən ilkin hüquqi sənədlərdən biri sayılır. 1789-cu il oktyabr ayının 25-də Ceyms Medison tərəfindən ABŞ Konqresinin iclasında təklif olunmuş və 15 dekabr 1791-ci il tarixində qüvvəyə minmiş, ABŞ vətəndaşlarının hüquq və azadlıqlarını tərənnüm

edən “Hüquqlar haqqında Bill” (ing.*Bill of Rights*) adlı digər bir sənəd də öz mənbəyini məhz 1689-cu il tarixində İngiltərədə qəbul edilmiş aktdan götürmüşdür.

Avropa maarifçiliyinin ən görkəmli nümayəndələrindən biri olan məşhur ingilis pedaqoqu və filosofu Con Lokkun fəlsəfi dünyagörüşündə tolerantlıq motivləri xüsusi yer tutur. “Dini dözümlülük məktubları” (“*A Letter Concerning Toleration”*) əsərində C.Lokk alovlu tərzdə tolerantlıq ideyalarını təbliğ edirdi. O, daim iddia edirdi ki, ibrani dinləri (yəhudilik, xristianlıq, islam) vahid bir ideya - məsihəçilik ideyası birləşdirir və bu ideya Yer kürəsində “minillik qardaşlıq və ədalət çarlığının qurulmasını” nəzərdə tutur. Bu çarlığın əsas prinsipini isə tolerantlıq təşkil etməlidir. Lokk bununla bağlı “bütün insanların həmrəyliyi” ideyasının vacibliyini qeyd edərək, ümumi rifah naminə hər kəsin öz gücü hüdudlarında bəzi qurbanlar verməyə hazır olmasının zəruriliyini vurğulayırdı. O, hesab edirdi ki, “azadlıq, hər kəsin öz şəxsiyyətinin həqiqi hakimi olduğu yerdə mövcuddur”. Lokk, ilk dəfə olaraq, əsas “hakimiyyət bölgüsü” (icraedici, qanunverici, federativ) prinsipini irəli sürmüşdü. C.Lokka görə, insanın doğuluşdan hər hansı ideyası yoxdur və o, “təmiz səhifə” kimi dünyaya gəlir. Yalnız həyatda reflekslərinin və təfəkkürünün vasitəsi ilə məzmun qazanır. C.Lokk cəmiyyətin davamlı və keyfiyyətli inkişafı üçün insanın (kişinin) “centlmen” kimi tərbiyə olunmasını fövqəladə zərurət elan edir və hesab edirdi ki, münaqişəli cəmiyyətləri sabit məcraya yönəltməyə, yalnız hərtərəfli inkişaf etmiş, mərhəmətli, tolerant və nəzakətli insanlar (centlmen) qadirdirlər [31].

Maarifçilik ictimai-fəlsəfi fikir tarixində **Deni Didronun** (fr. *Denis Diderot* - 1713-1784) və **Jan-Jak Russonun** böyük xidmətləri vardır. Russo “Yeni Eloiza”, “Emil”, “İctimai müqavilə” kimi əsərlərdə özünün ictimai və siyasi ideallarını tərənnüm edirdi. O, bu əsərlərlə siyasi fəlsəfə tarixində, ilk dəfə olaraq, sosial bərabərsizliyin səbəblərini və növlərini göstərmişdi. Russo hesab edirdi ki, əsl dövlət ictimai müqavilə əsasında yaradılmalıdır. Qanun çoxluğun iradəsi olaraq, fərdlərin özbaşınalığına qarşı təhlükəsizlik tədbirlərinin tam zəmanət altına alınması kimi təzahür etməlidir. Məhz bu qanunlara əsaslanaraq, cəmiyyətdə bu və ya digər formada əmlak bərabərliyinə də nail olmaq olar. “Referendum”, “xalqın qanunvericilik təşəbbüsü” kimi yeni anlayışlar Russodan gəlir. Russo fəlsəfədə romantizmin banisi hesab olunur. Bu təlimin nümayəndələri mərhəmətə və başqasının kədərinə də acımaq meyllərini ifadə edirdilər. Russo “yeni Budda” kimi başqasının əzablarına acımağı ümumdünya sualı olaraq ortaya qoyurdu. Alim iddia edirdi ki, mərhəmət, başqalarının

dərdinə acımaq insana üzvi şəkildə məxsus olan hisslərdir və bunu hətta heyvanlar da duyurlar. Russoya görə, başqasının dərdinə acımaq bütün nəcib olan cəhdlərin, sosial kəramətlərin və xeyirxahlıqların mənbəyidir. Alicənablıq, şəfqət, humanizm, sevgi kimi bütün ümumbəşəri dəyərlərin kökündə, ilk növbədə, başqasının dərdinə acımaq durur. Ümumiyyətlə, yaxşı münasibət və əsl dostluğun əsasını da müəyyən predmetə yönəlmiş "daim acımaq hissi" təşkil edir. Kiminsə əzab çəkməməsini arzulamaq, həm də onun xoşbəxt olmasını arzulamaq deməkdir. Başqasının dərdinə acımaq, insanın özünü əzab çəkən şəxslə vəhdətdə hiss etmək bacarığına əsaslanır. Burada nəcib duyğulara malik olan yeni insan ən ali əxlaqi və ictimai tip hesab olunur [32].

Maarifçilik ictimai-fəlsəfi fikrinin ən görkəmli nümayəndələrindən biri də **Şarl Monteskyedir** (fran. *Charles Louis de Sekonda Montesquieu* – 1689-1755). Monteskye hesab edirdi ki, azadlığın tam təminatı yalnız qanun ola bilər. "Azadlıq qanunla yol verilən hər şeyi etmək hüququdur". Monteskye hakimiyyət bölgüsü prinsipini sistemləşdirmiş filosof hesab olunur (icraedici, qanunverici, məhkəmə). Onun çox mütərəqqi ideyaları həm ABŞ Konstitusiyasına, Böyük Fransa İnqilabının qanunvericiliyinə, həm də1804-cü ildə yaradılmış Fransa Vətəndaş Kodeksinə (Napoleon kodeksi) öz həlledici təsirini göstərmişdir. Ş.Monteskye iddia edirdi ki, dünyanı tanrı iradəsi, yaxud fortuna deyil, hər hansı cəmiyyətdə fəaliyyət göstərən obyektiv mənəvi və ya fiziki səbəblər idarə edir. Onlar xalqın ruhunu formalaşdırır. Xalqın ruhunun formalaşmasına isə çoxlu sayda amillər təsir göstərir: iqlim, din, qanunlar, idarəçilik prinsipləri, keçmişin nümunəsi, əxlaq, adət-ənənələr və s.

Maarifçilik ictimai-fəlsəfi fikrinin daha bir görkəmli nümayəndəsi **Tomas Hobbsdur** (ing. *Thomas Hobbes* - 1588-1679). Hobbs "ictimai razılıq" nəzəriyyəsinin banilərindən biridir. Hobbsa görə, ən başlıca və fundamental təbii qanun - hər bir insan üçün vacib olan sülhə nail olmaq cəhdləridir. İkinci təbii qanunun iddialarına görə, sülh və özünümüdafiə naminə insanlar bəzi şeylərdən, imkan daxilində, tam imtina etməlidirlər. Üçüncü təbii qanuna görə isə onlar əldə etdikləri razılığa mütləq əməl etməlidirlər. Digər bütün təbii qanunlara gəldikdə, T.Hobbsa görə, onlar sadə bir qaydada ümumiləşirlər: "özünə rəva bilmədiyini başqasına rəva görmə" [33].

Maarifçilik, yaxud "pozitiv biliyin populyarlaşdırılması" prosesi Deni Didronun rəhbərliyi altında 35 clddən ibarət "Ensiklopediyanın" (1751-1780) tərtib olunmasından sonra, özünün ən yüksək həddinə çatdı. Latın dili elmi dil kimi tədricən dövriyyədən çıxdı. Fransız dili Avropada

israrla “linqva franka” (ital. *lingua franca* - fransız dili - insanlar arasında kommunikasiya yaratmaq məqsədilə istifadə olunan universal ünsiyyət vasitəsi) rolu oynamağa başladı [34]. Qeyd etmək lazımdır ki, müasir Avropa fəlsəfəsi və ictimai fikri (pasifizm, liberalizm, kosmopolitizm, multikulturalizm və s.) öz prinsipial əsaslarını məhz elə maarifçilikdən götürmüşlər. Maarifçilik ideyaları, həmçinin müasir cəmiyyətin əsl baza dəyərləri kimi təzahür edən və siyasi azadlıqlarda, demokratiyada, dini tolerantlıqda, mədəni müxtəliflikdə ifadə olunan ən yüksək prinsiplərin əsaslarını təşkil edir.

Avropada yaranmış humanizm və maarifçilik ideyalarını yeni bir




dinamika ilə **Klassik alman fəlsəfəsinin** nümayəndələri davam etdirdilər. Onların içərisində isə Qotfrid Leybnitsin (alm. *Gottfried Wilhelm Leibniz* - 1646-1716) xidmətlərini xüsusi qeyd etmək lazımdır. O dövrdə Avropada müasir metafizikanın ən görkəmli nümayəndələrindən biri kimi tanınmış Q.Leybnits substansional plüralizm, yaxud monadologiya (yun. “*monados*” - tək, yaxud vahid mənasını verir) sistemini inkişaf etdirmiş mütəfəkkirdir. Leybnitsə görə, mövcud olan predmetlərin, hadisələrin və fenomenlərin əsasında adi substansiyalar, yaxud monadalar durur. Bütün monadalar təkdirlər və tərkiblərində adi hissələr yoxdur [35]. Onlar digər monadalarda olmayan keyfiyyətlərə malikdir və mütləq şəkildə eyni olan monadalar yoxdur. Bu isə saysız-hesabsız fenomenlər dünyası yaradır. Onu filosof “ümumi müxtəliflik prinsipi” adlandırırdı. O, qeyd edirdi ki, məhz monadalar daxili dərketmənin hesabına bütün mövcud materiyanı hərəkət halına gətirir.

Klassik alman fəlsəfəsinin ən məşhur siması olan **İmmanuil Kant** (alm. *Immanuel Kant* - 1724-1804) özünün tezis və antitezislərində iddia edirdi ki, hər hansı mürəkkəb substansiya sadə hissələrdən ibarətdir və ümumiyyətlə yalnız sadə mövcuddur, çoxlu sadələrdən bütöv mürəkkəb yaranır. Antitezisdə isə əksinə, iddia olunurdu ki, heç bir mürəkkəb olan sadə hissələrdən ibarət deyil. Ümumiyyətlə dünyada sadə heç nə yoxdur. Kantın insan əməlinə və cəmiyyətdə davranışına həsr etdiyi “Mənəviyyat metafizikasının əsasları” əsərində irəli sürdüyü “kateqoriyalı imperativ” (lat. *imperativus - hökmlü*) anlayışı xüsusi maraq doğurur. İmperativ - özündə insanı aktiv hərəkətlərə sövq edən obyektiv məcburiyyət yükü daşıyır. O mənəvi qanundur və insanı empirik (yun. *empiria* - təcrübə) təsirlərə əks olan addımlar atmağa məcbur edir. Kateqoriyalı imperativə

görə, insan elə hərəkət etməlidir ki, onun davranışının prinsipləri ümumi bir qanuna çevrilsin. “Elə hərəkət et ki, öz adından və hər hansı şəxsin adından bəşəriyyətə münasibətin vasitə deyil, məqsəd olsun”. Bu belə bir anlama gəlir ki, “yalnız kənar səbəblərdən asılı olmayan mənəvi qanun insanı, sözün əsl mənasında, azad edir” [36]. Beləliklə, Kant iddia edirdi ki, insan öz həyat prinsiplərinin sonsuz tərəqqisində “mükəmməl mənəvi qanun” ideyasına can atmalıdır. Praktiki şüurun son nəticədə nail olacağı ən yüksək dəyər, yəni xeyirxah əməl, məhz elə bu qanundur.

Alman fəlsəfəsinin və Avropa romantizminin nümayəndələrindən biri kimi **Fridrix Hegelin** (alm. *Georg Wilhelm Friedrich Hegel* - 1770-1831) yaradıcılığı klassik alman fəlsəfəsində zirvə hesab olunur. Hegelin fəlsəfəsində əsl sosial ədalət, plüralizm, birlik və həmrəylik prinsipləri mühüm yer tuturdu. Filosof yüksək təşəkküllü özünüdərk imkanlarına malik olan iki subyektin qarşılıqlı şəkildə bir-birilərini “tanımasını”, bir-birilərinin azadlığı naminə öz şəxsi azadlıqlarnı tam düşünülmüş şəkildə məhdudlaşdırmasını insan varlığının, onun ruhunun ən böyük nailiyyəti adlandırırdı. Hegel sözügedən “qarşılıqlı tanımanın” təkcə nəzəri məsələ olması ilə kifayətlənmirdi və hesab edirdi ki, bu ali insanlıq aktı “hərəkət formasında” təzahür etməlidir. Filosof israrlı tərzdə iddia edirdi ki, həqiqi universallığın əsasını təşkil edən “tanımaq siyasəti” hər bir başqa kimliyə açıq olmaq, ona hörmət etmək deməkdir. Belə münasibət, öz növbəsində mövcud ənənələrin davam etdirilməsi, yaradıcılığın həyata keçirilməsi və innovasiyaların tətbiqi üçün böyük imkanlar açır [37].

Klassik alman fəlsəfəsinin son nümayəndəsi **Lüdviq Feyerbax** (alm. *Ludwiq Andreas von Feuerbach* - 1804-1872) insanı iradə, şüur, hiss və arzularla bəhrələnmiş unikal bioloji varlıq kimi qiymətləndirirdi. İnsan öz “mən”ini mütləq şəkildə reallaşdırmaq üçün “o” ilə, yəni başqa “mən”lərlə ünsiyyətdə, qarşılıqlı əlaqədə, vəhdətdə olmalıdır. “Mən”ləri cəmiyyətdə vahid bir əqidə birləşdirməlidir və bu əqidə təbii məhəbbətə əsaslanmalıdır. İnsan həyatının mənası isə əsl xoşbəxtliyə can atmaq və bu yolda digər insanlara daim yardım göstərməkdən ibarət olmalıdır [38]. Feyerbax iddia edirdi ki, mənəviyyatın mahiyyəti və son məqsədi rifah və sarsılmaz xoşbəxtlikdir, lakin belə rifah və xoşbəxtlik “tək” xarakter daşımamalıdır, o, çoxtərəfli olmalı və başqalarına da yayılmalıdır, çünki “mən” “sən”dən ayrı mövcud ola bilməz. Filosof əminliklə qeyd edirdi ki, “insanın öz şəxsi xoşbəxtliyinə can atması ilə başqalarının xoşbəxtliyə can atmaları arasında sıx əlaqə olmalıdır” fikri insan şüurunda çox erkən formalaşmışdır. Beləliklə, hələ X əsrdən etibarən Şərqdə və Avropada dirçəlməyə başlayan və XIX əsrin əvvəllərinədək möhtəşəm inkişaf yolu

keçən intellektual-mədəni hərəkat bəşəriyyətin sivil obrazını, düşüncə tərzini və gələcəyə baxışlarını radikal şəkildə dəyişməyə nail oldu. Bu hərəkatın baş verdiyi hər əsrdə daha yeni dəyərlər formalaşdı, insanların baxışları daha pozitiv və mütərəqqi xarakter kəsb etməyə başladı. Lakin əsrlər ərzində dəyişilməz qalan tək bircə şey var idi - rasional düşünən bəşəriyyətin rifah, xoşbəxtlik, mərhəmət, tolerantlıq, insanseverlik, insan hüquqları, insan azadlıqları, birgəyaşayış qaydaları haqqında arzuları və idealları. Bu min il bundan əvvəl də belə idi, bu gün belədir.

## 3.4. XIX əsr Avropa düşüncə tərzində tolerantlıq və intolerantlıq meylləri. Napoleon kodeksindən marksizm ideologiyasına (ing. *Inclinations of tolerance and intolerance in the European way of thought of the 19th century. From the code of Napoleon to marxism*)




1799-cu il 9 noyabr (18 brümer 1799-cu ildə dövlət çevrilişi) tarixində Fransa imperatoru Napoleon Bonapartın (ital. *Napoleone Buonaparte* - 1804-1815) hakimiyyətə gəlməsi, 1799-1815-ci illər ərzində davam etmiş Napoleon müharibələri ilə əlaqədar yeni Avropada ictimai və fəlsəfi fikrin inkişafında ciddi dəyişikliklər baş verdi. Napoleon müharibələri, həmçinin Avropanın və dünyanın siyasi xəritəsində ciddi dəyişikliklərə səbəb oldu. Bu dövrdə əvvəlcə Fransada, daha sonra bütün Avropada və dünyada baş vermiş ən mütərəqqi hadisələrdən biri "Napoleon kodeksi" (fr. *Code Napoleone*), yaxud "Vətəndaş kodeksi" (fr. *Code civil*) adlanan tarixi-hüquqi sənədin qəbul edilməsi oldu. Fransanın fundamental qanunvericilik aktı olan bu sənəd Napoleon Banopartın göstərişi ilə XIX əsrin əvvəllərində (1804) hazırlanaraq qəbul olunmuş, bununla da Fransada vətəndaş hüquqlarının kodlaşdırılmasında irimiqyaslı bir tədbir kimi ortaya çıxmışdı. Napoleon kodeksi, həmçinin bütün dünyada vətəndaş hüquqlarının kodlaşdırılması prosesinə həlledici təsir göstərmişdir. Bu kodeks müəyyən dəyişikliklərlə bu gün də fəaliyyət göstərir. Aktın əsas məqsədləri isə sözügedən dövrdə Fransada mövcud olan və pərakəndə, nizamsız mənbələrdən bəhrələnən vətəndaş hüququnu dəyişmək və sistematik hüquq normaları yaratmaq idi. Napoleon kodeksi özündə dərin tolerantlıq elementləri ifadə edirdi. O, fransız hüququnun ayrı-ayrı mənbələri, həmçinin Roma hüququ, kral

fərmanları, adətlər, ənənələr, eləcə də inqilabi qanunvericilik arasında özünəməxsus yeni kompromis kimi təzahür edirdi. Kodeks yaradılarkən hüquqşünaslığın bütün zəngin tarixi nailiyyətlərindən səmərəli istifadə olunmuşdur. Sənəd Fransada mövcud varlı və elitar təbəqələrə məxsus imtiyazları ləğv etmiş, burjua cəmiyyətinin formalaşdırılmasında mühüm rol oynamışdı. Kodeksin prinsipial məzmununda ailə münasibətlərinin sekulyarizasiyası (lat. *saekularis* - dünyəvi, sivil deməkdir, hər hansı bir şeyin kilsənin daimi idarəçiliyindən alınaraq, sivil idarəçiliyə verilməsi), vətəndaş münasibətlərində iştirakçıların bərabərliyi, xüsusi mülkiyyətin toxunulmazlığı, vətəndaş-hüquqi müqavilələrin bağlanması azadlığı və XVIII-XIX əsrlərə aid patriarxal xaraktrli nikah və ailə haqqında baxışlar təsbit edilmişdir. Hüququn proqressiv normalarına əsaslanan Napoleon kodeksi Avropanın, Amerikanın və bütün dünyanın hüquqi sistemləri tərəfindən davamlı olaraq əxz edilmişdir. Qeyd etmək lazımdır ki, artıq XX əsrdə dünyanın 70-dən artıq dövlətinin hüquqi sistemlərinin əsasını məhz Napoleon kodeksi təşkil edirdi. Bu gün isə demokratik prinsiplərə əsaslanan bütün mövcud dünyəvi dövlətlərin yeni konstitusiyalarının əsas müddəaları "Napoleon Kodeksi"nin fundamental qanunlarından ibarətdir [39].

XIX əsrin II yarısından etibarən əvvəlcə Avropada, daha sonra isə bütün dünyada dialektik, yaxud tarixi materializm adlanan yeni bir sosial ideologiya geniş yayılmağa başladı. Məşhur Almaniyalı mütəfəkkir **Karl Marksın** (alm. *Karl Heinrich Marx* - 1818-1883) təfəkkürünün məhsulu olan yeni təlim bütün dünyada müəllifin adı ilə **"marksizm"** adlanırdı. Marksizm fəlsəfəsinin fundamental nəzəri əsaslarını təbiət, cəmiyyət və idrakın ən ümumi qanunları haqqında yeni təlim təşkil edirdi. Marksizmə görə, varlığın substansional əsasını materiya, yəni maddi aləm təşkil edir, idrak isə yüksək təşəkküllü materiyanın xassəsi, obyektiv mövcud olan aləmi inikas etdirməyə qadir olan insan beyninin spesifik funksiyasıdır. Marksizmin dialektik mahiyyəti ondan ibarətdir ki, daim hərəkətdə və inkişafda olan predmetlər və hadisələr ümumi qarşılıqlı əlaqə prinsipinə əsaslanır. Marksizmin bütün müddəaları isə "Kapital", "Müqəddəs ailə", "Alman ideologiyası", "Fəlsəfənin yoxsulluğu" və digər əsərlərdə təsbit olunmuşdur. Marksizm istehsal vasitələri üzərində xüsusi mülkiyyəti tam inkar edir və bütün mülkiyyətin yeganə mütərəqqi forması kimi ictimai mülkiyyəti qəbul edirdi. Marksizm sosial fəlsəfəyə xüsusi diqqət ayırırdı. O, insanların hüquq, sosial və mülkiyyət baxımından bərabərliyini qəbul etsə də, sosial münasibətləri siniflər arasında mübarizə kimi xarakterizə edirdi. Faktiki olaraq, eyni millətin, cəmiyyətin və dövlətin mənsublarını

xüsusi mülkiyyətə münasibət prinsipləri əsasında qarşı-qarşıya qoyur və barışıq aktını istisna edirdi. Ali məqsəd kimi sosial inqilabı, dolayı yolla isə zorakılığı təbliğ edirdi. Bu isə son nəticədə intolerantlığa, bir ideya naminə başqa bütün ideyaların inkar olunmasına, sözün əsl mənasında mütləq şərə gətirib çıxarırdı. Marksizm "ictimai razılıq", "sosial barış" kimi konsepsiyaları inkar edir, onları hakimiyyət mənsubları tərəfindən düşünülmüş və kütləni aldatmaq üçün nəzərdə tutulmuş strategiya kimi qiymətləndirirdi. Marksizm insan cəmiyyətinin təkamül əsasında inkişafı konsepsiyasını (*evolyusiya*) yanlış ideya elan edir və yeganə həqiqi ixlas yolu kimi sosial inqilabı (*revolyusiya*) qəbul edirdi. Marksizm, əslində, bütün multikultural dəyərləri və marksizim ideyalarına zidd olan bütün müxtəlif mahiyyətləri köklü şəkildə, qəti inkar edirdi. Ateizmin təbliği ilə bəşəriyyətin minillik etiqadının üzərindən xətt çəkməyə çalışırdı. Qlobal kommunizm cəmiyyəti qurmaqla, həmçinin vahid proletar mədəniyyəti formalaşdırmaqla marksizm nəzəriyyəsi plüralizmi, ideya müxtəlifliyini, multikulturalizmi "özgə dəyərlər" kimi qanundan kənar elan edirdi [40].

## 3.5. XX əsrin ictimai-fəlsəfi təlimlərində tolerantlıq və humanizm ideyaları. Pasifizm, kosmopolitizm, transhumanizm (ing. *Ideas of tolerance and humanism in social and philosophical teachings of the 20th century. Pacifism, cosmopolitanism, transhumanism*)




İctimai-fəlsəfi ideyaların son dərəcə dinamik şəkildə inkişaf etdiyi dövrlərdən biri XX əsrdir. Bu əsr ərzində yaranmış ictimai-fəlsəfi konsepsiyaların məcmusu fəlsəfə tarixində "XX əsr fəlsəfəsi" kimi xarakterizə olunur. XX əsr regional və qlobal miqyasda baş verən sosial kataklizmlər - müharibələr, inqilablar, sosial hərəkatlar əsridir. Buna görə də, bu dövrdə təşəkkül tapmış bütün təlimlər mövcud böhranlara reaksiya kimi təzahür edirdi. XX əsr fəlsəfi fikrinin inkişafında başlıca fərqli cəhət isə rəylərin plüralizmindən ibarət idi. XX əsr fəlsəfəsi varlıq haqqında mövcud olan təsəvvürləri daha da dərinləşdirərək materiyanın mürəkkəb quruluşuna nüfuz etməyə, insanın mövcudluğunu daha aydın dərk etməyə başladı. Baxışların rəngarəngliyi, orijinallığı isə durmadan ekzistensializm, hermenevtika, fenomenologiya, strukturalizm, postmodernizm, empriokritisizm kimi çoxlu sayda ideoloji konsepsiyaların meydana gəlməsilə nəticələndi. Avropa elmi postmodern düşünən yeni mütəfəkkirlər ordusu ilə zənginləşdi: Bertran Rassel (1872-

1970), Edmund Qusserl (1859-1938), Karl Yaspers (1883-1969), Martin Haydegger (1889-1976), Karl Popper (1902-1994), Jan Pol Sartr (1905-1980), Ziqmund Freyd (1856-1939), Alber Kamyu (1913-1960), Nikolay Berdyayev (1874-1948), Erix Fromm (1900-1980) və b.

Qeyd etmək lazımdır ki, XX əsr ictimai-fəlsəfi fikir tarixinin ən geniş yayılmış mədəni nailiyyətlərindən biri də pasifizm, kosmopolitzm və transhumanizm kimi yeni ideyaların təbliğatı ilə bağlıdır.



**Pasifizm** (ing. *Pacifism*). XX əsrdə ən geniş yayılmış spesifik humanist təlimlərdən biri də pasifizmdir. Pasifizm (lat. *pasifikus* - sülhyaradan deməkdir, burada *"pax"* sülh, *"facio"* edirəm, yaradıram) zorakılığa qarşı çıxan, onun yox edilməsini öz ali məqsədi hesab edən ideologiyadır. O, müharibə və zorakılıq əleyhinə ictimai hərəkat kimi təzahür edir və bir qayda olaraq, amoralizmi, zorakılığı və hərbi-siyasi hüdudsuzluğu sərt şəkildə tənqid edirdi. "Sülh yolu ilə müharibəyə müharibə elan etmək", "dinc yolla etiraz etmək" kimi prinsiplər pasifizmin əsas strategiyası idi [41].

Hələ xristianlığın təşəkkül tapıb yayıldığı dövrdə, yeni dini təlimə qarşı baş verən total təqiblərlə əlaqədar ilk xristianlar İsa peyğəmbərin sülh haqqında yeni moizələrini ("öldürmə" qadağasını, "bir üzünə sillə vursalar, o biri üzünü çevir" çağırışını və s.) əsas götürərək pasifizim ideyalarını geniş təbliğ etməyə başladılar. Qeyd etmək lazımdır ki, erkən isavilikdə hər hansı bir hərb işi, yaxud hərbi xidmət bəyənilmirdi. Lakin xristianlıq Roma imperiyasının və digər Avropa dövlətlərinin rəsmi dini ideologiyasına çevrildikdən dərhal sonra xristianlar kütləvi şəkildə hərbi xidmətə gedir və hətta hərb sənətini özlərinin əsas həyat tərzi kimi qəbul edirdilər. 313-cü ildə Milan ediktindən sonra, pasifizm Avropada kilsə ideologiyasından və praktikasından demək olar ki, yox oldu. 1096-1291-ci illərdə isə özünü xristian adlandıran yüz minlərlə avropalı "Tanrının tabutunu müsəlmanların əlindən almaq" bəhanəsi ilə əllərində qılınc və ürəklərində İsanın heç vaxt tövsiyə etmədiyi bir nifrətlə Xaç yürüşlərinə başladılar. Əsas məqsəd isə zəngin Şərq ölkələrini qarət etmək və sərvət qazanmaq idi. 1095-ci ildə Roma papası II Urbanın (1042-1099) - 1088-1099-cu illərdə 159-cu Roma papası, ilk Səlib yürüşlərinin təşəbbüskarı) fətvası ilə başlayan ilk Xaç yürüşləri, əslində, xristian pasifizminin iflası demək idi. Lakin xristianların çoxu pasifizmin tam əksi olan "ədalətli zorakılıq" ideyasını qəbul etdikdən sonra belə, bu ideya ölmədi və Səlib yürüşləri başa çatdıqdan sonra yenidən dirçəlməyə başladı. Avropada ilk

pasifist təşkilatları Napoleon müharibələrindən sonra yarandı. XIX əsrin sonunda isə hərəkat Avropada və Amerikada daha geniş vüsət aldı. XX əsrdə pasifizmin ən görkəmli ideoloqlarından biri **Bertran Rassel** (ing. *Bertrand Arthur Uilliam Russell* (1872-1970) - pasifist, ictimai xadim, 1950-ci ildə Nobel mükafatı laureatı) olmuşdur. 1917-ci ildə hərbi-siyasi hüdudsuzluğun hökm sürdüyü bir dövrdə Rassel özünün “Siyasi ideallar” (ing. *Political ideals*) əsərində yazırdı ki, “yeganə layiqli siyasi məqsəd - cəmiyyətdə hər bir insanın təbii yaradıcı imkanlarının maksimum şəkildə inkişafının təmin edilməsidir”. I Dünya müharibəsi ərəfəsində B.Rassel özünün yeni sosialist ideyalarını tərənnüm edirdi və pasifizm ideyalarına daha dərindən nüfuz etməyə başlamışdı [42].

Müasir dövrdə Avropada pasifizmin yeni inkişafı elə bir səviyyəyə çatmışdır ki, hərb sənətinə, hərbi xidmətə və bunlarla bağlı müharibəyə və onun törətdiyi qəddarlığa yox deyən insanlar üçün bir çox ölkələrin qanunvericilik strukturları hərbi mükəlləfiyyət əvəzinə alternativ sivil xidmət haqqında xüsusi qanunlar qəbul etmişlər. Pasifizmin ən görkəmli nümayəndələri kimi aşağıdakı adları çəkmək olar: Alfred Nobel (1833-1896), Lev Tolstoy (1828-1910), Mahatma Qandi (1869-1948), Albert Eynşteyn (1879-1955), Bertran Ar. Rassel (1972-1970), Məhəmməd Əli (1942-2016), Bob Marli (1945-1981), Con Lennon (1940-1980), Maykl Cekson (1958-2009) və b.



**Kosmopolitizm** (ing. *Cosmopolitanism*). XX əsrdə geniş yayılmış təlimlərdən biri də kosmopolitizmdir (yunan. *Kosmopolites* - dünyanın insanı, dünya vətəndaşı mənasını verir). Kosmopolitizmin əsas məzmununu ümumbəşəri maraqların milli maraqlardan üstün tutulması ideyası təşkil edir. O, insanı Yer kürəsi çərçivəsində azad individ kimi nəzərdən keçirir [43].

Kosmopolitizm Qədim Yunanıstanda təşəkkül tapmışdır. “Dünya vətəndaşı” ideyasını isə ilk dəfə Sokrat (e.ə. 469-399) irəli sürmüşdür. Lakin birinci olaraq Laertli Diogen (II-III əsr) özünü “kosmopolit” elan etmişdi. Qədim Yunanıstanda yaranmış fəlsəfi məktəblərdən biri olan kirenaiklər (Sokratla Epikur fəlsəfəsi arasında aralıq mövqe tutan fəlsəfi məktəb) məktəbi kosmopolitizmi yeni kult (lat. *cultus* - becərmək, qayğı göstərmək - hər hansı predmetə, hadisəyə, yaxud insana sitayiş etmək) səviyyəsinə qaldırmış və hətta ona konkret düstur vermişdi - “*Ubi bene, ibi patria*” (“Harada günün xoş keçirsə, ora da vətəndir”). Qeyd etmək lazımdır ki, Ellinizm mədəniyyətinin yayılması, Makedoniyalı İsgəndərin

imperiyasının yaradılması, Orta əsrlərdə katolik kilsəsinin bütün xristian dünyasını birləşdirmək cəhdləri, islam ideologiyasının dünyanın böyük bir hissəsinə nüfuz etməsi və digər qlobal xarakterli hadisələr tarixçilər tərəfindən kosmopolitizmin fərqli ifadələri kimi qiymətləndirilir [44].

Orta əsrlərdə kosmopolitizm dini xarakter kəsb etməyə başlamışdı. Massonçuluq kosmopolitizmin yayılmasını təmin edən ən birinci böyük təşkilat olmuşdur. İctimai quruluşu spesifik formalarda tərənnüm edən Renessans mütəfəkkirlərinin (Dante Aligyeri, Tomazo Kampanella və b.) ideyalarında da kosmopolitizmin aydın ifadə olunan bütöv obrazı var idi. Dünya vətəndaşı haqqında abstrakt-humanist ideal Maarifçilik dövrünün intellektual ruhunda da öz əksini tapmışdı. Lessinq H.E. (1729-1781), Höte İ.V. (1749-1832), Şiller F. (1759-1805), Kant İ. (1724-1804), Fixte İ.Q. (1762-1814) və baş. kosmopolitizm ideyalarının daşıyıcıları idilər. Monteskye və Volter kimi maarifçilər Avropada müharibələrə birdəfəlik son qoymaq üçün əsas çıxış yolunu bütün qitənin "vahid respublikada" (dövlətlərin ittifaqı) birləşdirilməsində görürdülər. Bu ideyanın məntiqi nəticəsi isə II Dünya müharibəsindən sonrakı dövrdə Avropada "Avropa Şurası"nın (5 may 1949) və eləcə də "Avropa iqtisadi ittifaqı"nın (1957) yaradılması oldu.

Bu gün dünyada baş verən qloballaşmanın fonunda kosmopolitizm postmodern inkişaf mərhələsinə qədəm qoymuşdur. Bəzi mütəfəkkirlər kosmopolitizmi ümumbəşəri dəyərləri və idealları, əxlaq və mənəviyyat normalarını, mədəni ənənələri inkar edən indvidualizmə (lat. *individuum* - bölünməz - şəxsiyyətin ilkin əhəmiyyətini və onun fərdi azadlığını əsas şərt hesab edən əxlaqi, siyasi və sosial dünyagörüşü) və nihilizmə (lat. *nihil* - "heç nə" deməkdir - ümumi dəyərləri, idealları, bütün mənəviyyat normalarını inkar edən mürtəce dünyagörüşü) qarşı qoyaraq onu insan azadlığının ən vacib dayağı elan edir. Bir qayda olaraq, kosmopolitizmə qarşı vətənə məhəbbətdə, maraqların bu məhəbbətə tabe etdirilməsində ifadə olunan sosial duyğu, siyasi və mənəvi prinsip kimi təzahür edən "patriotizm" (yun. *patriotik* - vətənpərvər, ata yurdunu sevən deməkdir) qoyulur. Müasir dövrdə isə qloballaşmanın daha intensiv xarakter alması ilə əlaqədar kosmopolitizm ideyası daha geniş miqyasda və əvvəllər misli görünməmiş formalarda ifadə olunmağa başlamışdır. Bu müasir insanın, xüsusilə də gənc nəslin maddi və ruhani dəyərlərin ümumi formalarını mənimsəməsi kimi təzahür edir. Bu gün dünyanın böyük bir hissəsində insanlar eyni dəbdə və üslubda paltarlar geyinir, eyni cür qidalanır, eyni texniki və intellektual resurslardan və innovasiya texnologiyalarından, eyni məişət predmetlərindən və texnikasından istifadə edirlər. Demək

olar ki, bütün dünyada sosial, iqtisadi, siyasi və mədəni sferalarda vahid standartlar və kommunikasiya vasitələri bərqərar olmuşdur. Bu baxımdan ümumdünya kompüter şəbəkəsi, yaxud *internet* xüsusi mövqeyə və rola malikdir. Məhz internet bu gün "dünya vətəndaşlığının virtual analoqu kimi" təzahür edir. Bu isə tədricən bəşəri düşüncənin standartlaşmasına gətirib çıxaracaqdır. Artıq dünyanın müxtəlif guşələrində insanlar vahid mədəni normaları və dəyərləri qəbul edir və eyni anlayışların vasitəsi ilə düşünürlər. Öz məkanını dəyişən insanın yeni yaşayış yerində adaptasiya olunması prosesi asanlaşır. İnsan yeni məkanında da köhnə məkandakı, demək olar ki, bütün adət etdiyi predmetlərlə üzləşir və nostalji üçün çox kiçik səbəblər qalır.

Beləliklə, müasir dünyada baş verən iqtisadi-mədəni proseslər və qloballaşmanın insan həyatının bütün real sferalarına israrla nüfuz etməsi rəsmi və rəmzi sərhədləri aradan qaldırır və kosmopolitizm ideyalarının postmodern üslubda reallaşdırılması zərurətini aktuallaşdırır.

**Transhumanizm** (ing. *Transhumanism*). Ən müasir cəmiyyətdə postmodern insanın maraqlarını, arzu və istəklərini, qayğı və problemlərini əks etdirən və spesifik mədəni hərəkat kimi təzahür edən transhumanizm (lat. *trans* - içindən, *homo* - insan deməkdir) bəşəriyyətin daha sağlam və davamlı gələcəyinə hesablanmış humanist elmi-texniki layihədir. Transhumanizm, həmçinin postmodern fəlsəfə və beynəlxalq hərəkat kimi özünü təsdiq etmişdir. Transhumanizmin əsas mahiyyətini etnik-mədəni, irqi və dini əlamətlərindən asılı olmayaraq, Yer kürəsində yaşayan və ehtiyacı olan bütün insanların əqli və fiziki imkanlarının artırılması üçün elmin və texnikanın mövcud və potensial gücünün səfərbər edilməsi, müasir nanotexnologiyalardan ən humanist məqsədlər naminə istifadə olunması təşkil edir [45].

Transhumanizmin yüksək təşəkküllü bəşəri proqram olmasını onun cəmiyyət üçün və hər bir insan fərdi üçün əbədi problem olan psixoloji və fiziki əzabları - xəstəlikləri, qocalığı və hətta uzaq gələcəkdə ölümü aradan qaldırmağa istiqamətlənməsi sübut edir. Beləliklə, transhumanizm etnik-mədəni və dini-ideoloji mənsubiyyətindən asılı olmayaraq, bütün insanları uzun və xoşbəxt yaşamaq, sağlam və güclü olmaq, həyatdan zövq almaq, gələcək üçün yüksək təşəkküllü sağlam nəsillər yetişdirmək kimi bir ideya və ideallar altında sıx birləşdirir. Qeyd etmək lazımdır ki, transhumanizm ideyası arzular və rəylər şəklində bütün tarix boyu, bütün mədəniyyətlərdə mövcud olmuşdur və bu təbiidir. Çünki hər bir insanı

həmişə bir əbədi sual - “ölməzlik” sualı narahat etmişdir.

İlk dəfə olaraq “transhumanizm” terminindən 1312-ci ildə İtaliya mütəfəkkiri Durante deli Aliqyeri (Dante -1265-1321) “İlahi komediya” əsərində istifadə etmişdir. XX əsrdə isə elmi-texniki tərəqqinin yüksək inkişaf həddinə çatdığı yeni bir dövrdə transhumanizm bəşəriyyət üçün yeni ideologiyaya və qlobal inanca çevrildi. 1957-ci ildə ingilis bioloqu və humanisti Julian Haksli (ing. *Sir Julian Sorell Huxley* - 1887-1975) transhumanizm terminini yenidən gündəmə gətirdi.

Lakin bəşəriyyət, “ona ulduzları vəd edən elmi-texniki inqilabın” şokundan ayılan kimi, insan təbiətinin bioloji imkanlarının real şəkildə dəyişdirilməsinin əsla mümkün olmayacağını anladı və transhumanizmə maraq tamamilə azaldı. ETİ-nin müasir nanotexnologiyalar səviyyəsinə qədəm qoyması ilə isə transhumanizm ideallarına maraq yenidən, həm də çox yüksək səviyyədə artırmışdır.

XX əsrdə transhumanizm ideyalarının geniş təbliğ olunmasında İran-ABŞ yazıçısı və futuroloq-filosofu **Firiddun İsfəndiyarinin** (fran. *Fereidoun M. Esfandiary* - 1930-2000) müstəsna xidmətləri olmuşdur. O, “Optimizm bir” (“*Optimism One*”-1970), “Qanad” (“*Up Wingers*”-1973), və “Telesfera” (“*Telespheres*”-1977) kimi kitablarda transhumanizmin fundamental əsaslarını tərənnüm edirdi. Onun transhumanizm ideallarına inancıı o qədər güclü idi ki, adını da dəyişdirərək “FM-2030” qoymuşdu (bu isə onun azı 100 il yaşayacağına və 2030-cu ildə 100 illik yubileyini keçirəcəyinə inamı ilə bağlı idi). FM-2030-un ideyalarını reallaşdırmaq məqsədi ilə İsveç alimi Nik Bostrom (1973) və Böyük Britaniya filosofu Devid Pirs 1998-ci ildə “Ümumdünya Transhumanizm Assosiasiyası” yaratdılar.

Çağdaş transhumanistlər ən müasir texnologiyaların yaradılmasını transhumanizm ideyalarının tam reallaşdırılmasında ən vacib şərt hesab edirlər. Bununla bağlı olaraq, transhumanistlər iddia edirlər ki, fasiləsiz şəkildə cərəyan edən texniki tərəqqi 2050-ci ildə **“**postinsan” adlanan yeni insan tipinin yaradılmasına imkan verəcəkdir və bu insanın fiziki və əqli (intellektual) imkanları bugünki insanın imkanlarından qat-qat üstün olacaqdır [46].

Müasir transhumaizmin prinsipial məqamlarından biri dəqiq, təbiət və texniki elmlərin nailiyyətlərinə əsaslanaraq fiziki ölümdən qurtulmaq, yaxud onun baş verməsini maksimal şəkildə uzaqlaşdırmaq imkanlarının əldə edilməsindən ibarətdir. Bioloji ölümsüzlük kimi qiymətləndirilən bu fenomen müasir dövrün elmi və kütləvi leksikonuna “elmi immortalizm” (lat. *immortalitas* - ölümsüzlük) kimi daxil olmuşdur.

Transhumanistlər iddia edirlər ki, “postinsanın yaradılmasında” gen mühəndisliyinin və molekulyar texnologiyanın, neyroprotezlərin, süni orqanların, klonlaşdırmanın, dopinqlərin, nootropların (beynin ali psixi funksiyasına spesifik təsir göstərən dərman vasitələri), fiziki və ruhani əzabların azaldılması və ya tamamilə aradan qaldırılması üçün nəzərdə tutulmuş vasitələrin - qorxu və həyəcana, əsl cismani ağrılara, hər hansı neqativ halətlərə, hisslərə, depressiyalara qarşı dərmanların (analgetiklər, antidepressantlar), həmçinin plastik cərrahiyyənin, ekzoskeletlərin (insan skeletinin və əzələlərinin itirilmiş funksiyalarını bərpa etmək üçün tətbiq edilən qurğu, xarici süni karkas), ekzokortekslərin (yun. *ekzos* - çöldən, kənardan, *cortex* -qabıq - intellektin qismən gücəndirilməsi üçün nəzərdə tutulmuş informasiya emalının xarici (süni) sistemi, yaxud neyroprotez), eləcə də krionikanın (yun. *krios*-soyuq -gələcəkdə dirildilməsi və müalicə edilməsi məqsədi ilə insanların və heyvanların meyitlərinin dondurulması texnologiyası) və s. xüsusi və həlledici rolu vardır.

Beləliklə, transhumanizm ideyalarına tam ciddiyyəti ilə inanan və onların reallaşdırılması üçün bütün qüvvələrini səfərbər edən insanların gələcəyin tarixi və bu tarixi yaradacaq “yeni insanın” təşəkkülü haqqında möhtəşəm planları var. Bu planların həyata keçirilməsi isə elmi-texniki tərəqqinin ən yaxın və ən uzaq gələcəkdə bəşəriyyətə nə vəd etməsindən asılıdır.

### *İstinadlar*


1. *Кессиди Ф.Х. К проблеме происхождения греческой философии (Послесловие). Ж.П. Вернан. Истоки и происхождение древнегреческой мысли.- Москва, 1988. С. 216-217*
2. *White S.A. Milesian Measures: Time, Space, and Matter. In: P. Curd and D. Graham (Eds.), Oxford Handbook to Presocratic Philosophy. - Oxford: Oxford University Press, 2008.- P. 89-133*
3. *Вольф М.Н. Эпистемология Гераклита Эфесского. Рационализм и иррационализм в античной философии: монография. Новосибирск: Изд-во СО РАН, 2010. - 386 с.- Глава II. - С. 67-119*
4. *Леонтьев А.В. Традиция о Пифагоре у Аристоксена и Дикеарха. Человек. Природа. Общество. Жизнь. Актуальные проблемы. Материалы 11-й международной конференции молодых учёных, прведенной 27-30 декабря СПб.: Издательс. Санкт-Петербургского университета. Санкт-Петербург, 2000. - С. 298-301*
5. *Вдовина И.С. Сократовское учение о человеке в интерпретации французского персонализма. Зарубежное философское антиковедение. М:, 1990. - С.163-179*
6. *Васильев В.А. Сократ о благодеянии и добродетели. Социально-*

*гуманитарные знания. - Москва, 2004. - № 1. - С. 276-290*

*7. Лосев А.Ф. Жизненный и творческий путь Платона. Платон. Собрание сочинений. В 4 т. Т.1. Общ. ред. А.Ф. Лосева и др. Москва: Мысль, 1994. - (Серия «Философское наследие»). - С. 44-45*

*8. Платон. Диалоги. Определения. - Москва, 1986. С.433.*

*9. Аристотель. О душе.Сочинения. - М:, Мысль,1976.- Т. 1.- С. 371-448*

*10. Аристотель. Большая Советская Энциклопедия. 3-е изд. Главный ред. А.М. Прохоров. Москва: Советская Энциклопедия, 1970. - Т. 2. с. 195-196*

*11. Чанышев А.Н. Курс лекций по древней и средневековой философии. - Москва: Высшая школа, 1991. - с. 121-123, 512 с.*

*12. Левек П. Эллинистический мир. Москва, Наука, 1989. С. 114-117*

*13. Zeller E., Die Philosophie der Griechen in ihrergeschichtlichen Entwickl ung, Tl. 3, Abt. 1, Lpz., 1923, S. 547-863.*

*14. Сенека. Римские стоики: Сенека, Эпиктет, Марк Аврелий.- Москва, Республика, 1995. - С. 416*

*15. Стоицизм. Энциклопедический словарь. Гл. ред. Б.А.Введенский.-М:, Большая советская энциклопедия, 1955. - Т.3., Прашур - Яя. - С.329. - 744 с.*

*16. Реале Д., Антисери Д. Марк Аврелий. - В книге: Д. Антисери, Д. Реале. Западная философия от истоков до наших дней. Т.1-2 Античность и средневековье. СПб., 2003. - 688 с. - С. 148-150*

*17. Квливидзе Н.В. Иисус Христос. Православная энциклопедия. Москва, Церковно-научный центр «Православная энциклопедия», 2009. - Т. XXI.- С. 674-713, 752 с.*

*18. İncil İoandan. 3:16*

*19. Майоров Г.Г. Формирование средневековой философии. Латинская патристика. - Москва, «Мысль», 1979. - с. 181-340*

*20. Христианство. Энциклопедический словарь. Под редакцией С.С. Аверинцева и др. - Москва, 1993-95. Т. 1-3. Т. 3. С. 489-526*

*21. Apostol Pavel. Romalılara məktub. 12: 18*

*22. Андреев М.Л. Инновация или реставрация: казус Возрождения. Вестник истории, литературы, исскуства. Т.1.Москва: Наука, 2005. С. 84-97*

*23. Голенишев-Кутузов И.Н., Хлодовский Р.И. Данте Алигьери. Литература Италии: Литература XIII-XIV вв. АН СССР, Институт мировой литературы им. А.М. Горького. Москва, Наука, 1985. Т. 3. С. 51- 68*

*24. Виппер Ю.Б. Монтень.История всемирной литературы: В 8 томах. АН СССР; Ин-т мировой лит. им. А.М. Горького. - Москва: Наука, 1983-1994. - На титл. л. изд.: История всемирной литературы: в 9 т. Т. 3. - 1985. - С. 270-276*

*25. Duclow, Donald F. Life and Works. Introducing Nicholas of Cusa, A Guide to a Renaissance Man. Edited by Christopher M. Bellitto, Thomas M. Iz-bicki, Gerald Christianson. - Paulist Press, 2004.- P. 23 - 46*

*26. Брагина Л.М. Этические взгляды Джованни Пико дела Мирандола. Средние века. - Москва, 1965. Выпуск 28.- с.129 -139*

*27. Иванов М.С., Казбекова Е.В., Тюшагин В.В, Папство и*

*индульгенция. Православнвя энциклопедия. Москва, 2009. 752 с., с. 632-645*

*28. Ренцо Кьярели. Верона. Флоренция: Bonechi Edizioni, 2006. С. 28-30, 38, 91*

*29. Рикуперати Джузеп. Человек Просвещения Исторический словарь. Москва, 2003, с. 15-29*

*30. Хоркхмайер М., Адорно Т.В. Понятие "просвещение". Хоркхмайер М., Адорно Т.В. Диалектика просвещения. Философские фрагменты. Москва, С-Пб., 1997, с. 16-60*

*31. Коджаспирова Г.М. История образования и педагогической мысли: таблицы, схемы, опорные конспекты. Москва, 2003.- с. 71*

*32. Рассел Бертран. История западной философии. Новосибирск, 1994. С. 173-184*

*33. Михаиленко Ю.П. Гоббс и Фукидид. Москва, 1986. с. 104-124*

*34. Виноградов В.А. Лингва франка. Современный лингивистический энциклопедический словарь. Москва, Советская энциклопедия, 1990. - с. 267*

*35. Готфрид Вильгельм Лейбниц. Сочинения в четырёх томах. Том 1. - Москва: «Мысль», 1982.- С. 413-429*

*36. Кант Иммануил. Основы метафизики нравственности. Сочинения в шести томах. - Москва: «Мысль». - Т. 4. Ч. I. - С. 211-310*

*37. Соколов В.В. Историко-философская концепция Гегеля. Философия Гегеля и современность. - Москва, 1973. - С. 255-277*

*38. Антропов В.В. Этика и религия в философии Людвига Фейербаха. Вестник Московского университета. Серия 7. Философия. Москва – 2004. - № 1. - С. 98-117*

*39. Перетерский И.С. От переводчика. Французский гражданский кодекс 1804 года.- Москва, 1941. - С. 4*

*40. Мизес Людвиг фон. Социализм. Экономический и социологический анализ. - Москва, «Catallaxey», 1994. с. 416*

*41. War and international Justice: a Kantian Perspective by Brian Orend. Wilfirid Laurier Univ. Press, 2000. p.145-146*

*42. Russell B. The Basic Writing of Bertrand Russell.1903-1959. Ed. by R. E. Egner and L.E. Dennon - 1961.- p.47*

*43. Фрейхоф В. Космополитизм. Мир Просвещения. Исторический словарь. Москва: Памятники исторической мысли, 2003, с. 31-41*

*44. Деррида Ж. Глобализация. Мир. Космополитизм. перевод Дмитрия Ольшанского. Журнал «Космополис», № 2 (8), Москва, 2004. - С. 125-140*

*45. Гавров С.Н.Технологический постгуманизм: переход к постчеловеку и постчеловечеству. Москва: РосНОУ, 2015. с. 56-64*

*46. Юдин Борис Г. Сотворение Трансчеловека. Вестник Российской академии наук, Москва, 2007, том 77, № 6, с. 520-527*

# IV FƏSİL. DİNİ MÜXTƏLİFLİK VƏ MULTİKULTURALİZM

Religion

## 4.1. Dinin mənşəyi və tarixi inkişafı. Müasir dünyanın dini mənzərəsi (ing. *The origin of religion and historical development. Religious panorama of the modern world*)



Dini təsəvvürlər, dini baxışlar, onlarla əlaqədar formalaşan dini əqidələr şüurun çeşidli halətlərinin məhsuludur. Dünyanın dərk edilməsi canlı seyrdən başlayır. O, növbəti mərhələlərdə abstrakt təfəkkürə keçir. Abstrakt təfəkkür isə əsas mücərrəd anlayışların (varlıq, fikir, həyat, bilik və s.) köməyi ilə reallaşdırılan fenomen kimi təzahür edir. Məhz abstrakt təfəkkür bütün dinlərin yaranmasının əsas mənbəyi kimi qiymətləndirilir.

Şüurun fəaliyyəti insanda biliklər, bacarıqlar və təsəvvürlər sistemi yaradır. Bu təsəvvürlər sistemi isə əsasən dünyagörüşü kimi təzahür edir. Dünyagörüşü obrazlı təsəvvürlərin, prinsiplərin, dəyərlərin və baxışların məcmusudur. Dünyagörüşünün 4 növü mövcuddur: dini, mifoloji, fəlsəfi və elmi.

Dini dünyagörüşü insan təfəkkürünün ətraf mühitə olan münasibəti nəticəsində yaranmış və ən geniş yayılmış təsəvvür formalarından biridir. Məhz onun sayəsində, davamlı olaraq, ən primitiv və ən mürəkkəb dini inanclar, təlimlər, sistemlər yaranmış və formalaşmışdır.

Dinlər ibtidai, politeist, monoteist, dualist, panteist, deist, monist və s. kimi tiplərə bölünür. İbtidai dinlər sırasına magiya (qədim şumer və türk dillərində *"imqa"* - müdrik – çox sirli biliklərə malik olan maqların təbiət qüvvələri ilə sakral əlaqələrinə əsaslanır, ağ və qara magiya kimi iki tipə bölünür), totemizm (təbiət və heyvanların fövqəladə qüvvəsinə inamda ifadə olunur), fetişizm (frans. *fetichisme* - talisman, amulet, büt deməkdir, cansız əşyalara sitayişdə ifadə olunur), animizm (lat. *anima, animus* - ruh deməkdir, ruhlara, həmçinin təbiətin ruhuna inamda ifadə olunur), şamanizm (ruhlarla sakral əlaqə yaratmağa qadir olan insanın – şamanın vəhylərinə əsaslanır) və azık (slavyan kilsə dilində *"zık"* xalq

deməkdir, qədim xalqların təbiət qüvvələrinə inamına əsaslanan kultlarda ifadə olunur), sabeizm (ulduzlara sitayiş) və s. kimi dinlər aiddir.

Dini dünyagörüşünün sistematik formalarından biri politeizm (yun. *"polys"* - çoxsaylı,*"theis"* isə tanrılar deməkdir) yaxud çoxtanrılıqdır. Politeizm vahid bir panteonda (yun. *"pan"* - hamısı, "*theis*" isə tanrılar mənasını verir) təqdim olunan bir neçə tanrıya və ilahəyə inam və etiqad şəklində ifadə olunur. Politeizmin öyrənilməsi isə bilavasitə əsatirlərin, yaxud miflərin öyrənilməsi ilə bağlıdır.

Hal-hazırda dünya əhalisinin böyük bir hissəsi aşağıdakı müxtəlif dini ideologiyaların mənsubları hesab olunur: 1. Xristianlıq. 2. İudaizm. 3. İslam. 4. Daosçuluq. 5. Bəhailik (ərəb. *baha* - tanrı şərəfi, parıltı, işıq deməkdir, əsası İran ilahiyyatçısı Bahaulla (Hüseyn əl-Nuri -1817-1892) tərəfindən XIX əsrdə qoyulmuşdur. Monoteist dini təlim kimi bəhailiyin mərkəzi Fəlsətində, Hayfa şəhərində yerləşir). 6. Hinduizm. 7. Buddizm. 8. Caynizm. 9. Sintoizm (yap. *sinto* - tanrı yolu deməkdir, Yaponiyada ənənəvi din). 10. Konfusiançılıq. 11. Sihhizm (pencab dilində "*sihhi*" - şagird, davamçı deməkdir).

Kosmos və nanotexnologiyalar dövründə belə, dini dünyagörüşü insanların əqlinə, zəkasına və iradəsinə hakim olmaqda davam edir. Latın dilindən tərcümədə "reliqio" sözünün mənası müqəddəslik, möminlik, vicdan deməkdir. Hərfi mənaya gəldikdə isə sözün əsas hissəsi "liqa" birlik mənasını verir, "re" isə hərəkətlərin qayıdış xarakterini ifadə edir. Beləliklə, ümumi mənada din "birləşmək" anlamına gəlir. Ərəb dilində isə "din" iman, mühakimə, tabe olmaq, vicdan, ibadət kimi mənalarda işlədilir. Dini dünyagörüşü fövqəladə qüvvələrə inama əsaslanır. Dinin əsas məqsədi düzgün mənəvi dəyərlərin və əxlaqi davranışların təbliğ edilməsindən, qorunmasından və yayılmasından ibarətdir.

Hər hansı dinin və dini təlimin əsas elementini və başlıca xassəsini inanc və iman təşkil edir. Dinin digər təyinatları isə "həyat tərzi", "ali və fövqəladə qüvvələrə səcdə" kimi də qiymətləndirilir. Bu zaman mömin sitayiş etdiyi obyektləri reallıq kimi qəbul edir, onun bu inancı isə adətən dönməz olur. Dini inanclarda dualar və rəmzlər sistemi, əxlaqi qaydalar, ayinlər və dini hərəkətlər xüsusi rol oynayır. Bir qayda olaraq, dünyanın dini təsəvvürləri haqda sistem elmi təcrübə ilə yoxlanılmış faktlara deyil, mistik (yun. *mistikos* - gizli, sirli deməkdir) təcrübəyə əsaslanır. İctimai təfəkkürün ən geniş yayılmış formalarından olan dini şüur sferasına - dini təlimlər, dini hisslər, sitayiş və ayinlər, dini təşkilatlar və təriqətlər aiddir.

Din insanların dünya duyumunun spesifik formasıdır. O, "fövqəl-qüdrətə" sitayiş qismində ifadə olunur. Məşhur xristian ilahiyyatçısı və

filosofu Mömin Avqustin (lat. *Aurelius Augustinus Afer* - 354-430) iddia edirdi ki, din insanla “hipotetik qüdrət” arasında sakral kommunikasiya kimi təzahür edən fenomendir. İbrani dini ideologiyaya görə, insan tanrı qüdrətinin məhsulu kimi cənnətdəki günahlarına qədər tanrı ilə birbaşa ünsiyyət qura bilirdi. Lakin ilk günahını törədən kimi, bu ünsiyyət kəsildi və tanrı öz işığını bəndələrinə mələklər, vəhylər, peyğəmbərlər və zühur vasitəsi ilə ötürməyə başladı. İnsan isə bu işıqdan güc almaq və tanrı ilə “virtual (lat. *virtualis* - mümkün - real şəkildə mövcud olmayan, lakin spesifik, özəl şəraitdə yaranması mümkün olan obyekt, yaxud vəziyyət) ünsiyyət” qurmaq üçün ibadət yolunu seçdi. Bununla da dinin əsl sakral və ilahi mahiyyəti üzə çıxdı. Qeyd etmək lazımdır ki, bu gizli mahiyyət insanın ilk günahını işləməsindən sonra itirdiyi tanrısına qayıdış yolunun axtarışı kimi təzahür edir.

ABŞ filosofu Uilyam Ernest Hokinq (ing. *William Ernest Hocking* - 1873-1966) “Elm və tanrı ideyası” adlı əsərində yazırdı ki, “elm yalnız xüsusi, özəl məfhumları öyrənir, ümumbəşəri həqiqətin dərk edilməsi isə yalnız din vasitəsi ilə mümkündür”. İnsan şəxsiyyəti tanrısız mövcud ola bilməz. Ateist dünyagörüşü isə varlığın mənasız olmasına aparan yoldur. Tanrıdan üz döndərmiş hər hansı ateist cəmiyyət, yanlış olaraq “ayrı-ayrı şəxslərin iradəsini ilahiləşdirir” (şəxsiyyətə pərəstiş).

Dinin təşəkkülünə dair təkamül nəzəriyyəsinə görə, onun meydana gəlməsi, insanın təbiət qüvvələri qarşısında acizliyinin və bununla bağlı onları fövqəlqüdrətin təzahürü kimi qəbul etməsinin və ilahiləşdirməsinin nəticəsidir [1]. Marksizm də bu fərziyyəni müdafiə edir və iddia edir ki, dinin mənşəyi insanın təbiət və cəmiyyət hadisələri qarşısında zəifliyi ilə bağlıdır. Bu fərziyyənin əlbəttə ki, yaşamaq hüququ vardır. Lakin burada bir incə məqamı xüsusi vurğulamaq vacibdir. Belə ki, insanın genetik kodunda cənnətdəki kuralları pozmaqla əlaqədar günahkarlıq kompleksi formalaşmışdır və minilliklər ərzində ən çətin və ekstremal situasiyalarda o özünü “teofobiya”, yaxud tanrı xofu kimi büruzə verir.

Marksizm, yanlış olaraq dinləri “xalq üçün opium” hesab edir [2]. Lakin təkamül nəzəriyyəsi, yaxud naturalist fərziyyə sübut edə bilmir ki, ibtidai cəmiyyətdə radikal şəkildə primitiv düşünən insan “fövqəlqüdrət ideyasını” haradan almışdı. Bu, “tanrı ideyasının” insanın əzəli təbiətinə məxsus olması mövqeyinə güclü dividendlər gətirir. Bir amil danılmazdır ki, dinlər insanların qurtuluş yolu, tanrının mərhəmətini qazanmaq üçün möhtəşəm barışıq aktıdır. Bu yol ta cənnətin qapılarından başlayıb, orada da xoşbəxt sonluqla başa çatacaq. Günahkar insan miskin taleyi üzərində qələbə çaldıqdan sonra isə tanrısını tapacaq və itirdiyi cənnəti də yenidən

qazanacaq. Başqa sözlə, “insanın ata yurduna (cənnətə) qayıdışı”, kainat miqyaslı bir repatriasiya (lat. *repatriate* - vətənə qayıdış) baş verəcək. Beləliklə, şüurun həqiqi yolu tanrı axtarışından keçir və bütün həqiqətlər də burada qərar tutmuşdur.

Günahkarlıq kompleksinin qlobal xarakteri və faktiki olaraq onun bütün qədim xalqlara mənsub olması, tanrı ideyasının doğurdan da insan təbiətinə apriori məxsus olmasını sübut edir. Bununla bağlı qədim yunan tarixçisi Plutarx (yun. *Ploutarxos* - 46-127) yazırdı: “Baxın və siz yer üzərində müdafiəsiz, elmsiz, hakimsiz şəhərlər, pulun belə nə olduğunu bilməyən, elmdən, mədəniyyətdən xəbəri olmayan evsiz-eşiksiz insanlar görəcəksiniz, lakin siz tanrıya inancı olmayan bir dənə də olsun insan cəmiyyətinə, müqəddəs məkanı, and yeri, duası, qurbangahı olmayan bir şəhərə, bir kəndə belə rast gəlməyəcəksiniz” [3].

Klassik alman fəlsəfəsinin görkəmli nümayəndələrindən biri olan Lüdviq Feyerbax (1804-1872) dinin əsl mahiyyətini açıqlayarkən iddia edirdi ki, “tanrı, insan cahilliyinin, insan fantaziyasının məhsuludur” [4]. Yəqin ki, böyük filosof bu gün yaşasaydı, əsla bu sözləri deməzdi. Çünki tanrı axtarışı nanotexnologiyalar əsrində XIX əsrdəkindən daha aktualdır və müasir insan dünyanın sirlərini açdıqca, israrla kainatın möhtəşəm və mürəkkəb strukturunu öyrəndikcə, belə möhtəşəmliyin daha möhtəşəm sahibi olmasına daha dərindən inanır.



Məşhur rus filosofu və ilahiyyatçısı Sergey Nikolaeviç Bulqakov (1871-1944) dinləri xarakterizə edən yüksək səviyyəli ideyalar irəli sürərək iddia edirdi ki, “din insanın tanrını bilavasitə tanımaq, onunla canlı əlaqə, ünsiyyət qurmaq cəhdlərdir”. Mütəfəkkirin iddialarına görə, belə əlaqə əsl dini istedadı olan insan üçün, tanrının qüdrətini dərk etməyə qadir olan orqanizm üçün mümkündür [5].

Müasir dövrdə Yer kürəsi əhalisinin dini ideologiyaya və inanclara münasibəti aşağıdakı kimidir: (**saat əqrəbi istiqamətində**) 1. Xristianlıq - 2 milyard 419 milyon. 2. Hinduizm - 1 milyard 100 milyon. 3. Daosizm - 50 milyon. 4. Bəhailik (babilik) - 7 milyon. 5. Buddizm - 800 milyon. 6. Caynizm - 5 milyon. 7. Sintoizm (Yaponiya buddizmi) - 14 milyon. 8. Konfusiançılıq - 8 milyon. 9. Spritualizm - 20 milyon. 10. İudaizm - 15 milyon. 11. Sihhizm - 24 milyon. 12. İslam - 1 milyard 800 milyon.

Bundan başqa dünyada digər din, əqidə və məzhəb mənsublarının sayları da aşağıdakı kimidir: ənənəvi dinlər (fetişizm, animizm, magiya,

totemizm) və yerli dinlər (Afrika xalqlarının, Cənubi və Şimali Amerika hindularının, Avstraliya və Okeaniya xalqlarının dinləri) - 270 milyon, dinsizlər - 660 milyon, ateistlər - 140 milyon, kaodaizm (Böyük göz – Vyetnamda buddizmin, daosizmin, konfusiançılığın sintezindən yaranmış sinkretik təlim) - 4 milyon, zoroastrizm - 2,6 milyon, şenizm (Çin xalq dinləri) - 600 milyon.

2012-ci ildə Gallup International/WLN assosiasiyasının keçirdiyi "Ümidin və ümidsizliyin qlobal barometrləri" (ing. *Global Barometer on Hope and Despair*) sorğusuna əsasən, dünya əhalisinin 59%-ni dindar insanlar təşkil edir. Hər 5 nəfərdən biri dindar olmadığını (23%), hər 8 nəfərdən biri isə ateist olduğunu (13%) bildirmişdi. Ən dindar insanların (85-96%) aşağıdakı ölkələrdə yaşaması məlum olmuşdu: Qana, Nigeriya, Fici, Makedoniya, Rumıniya, İraq, Keniya, Peru, Braziliya. Ən dindar məmləkətlər sırasına isə aşağıdakılar daxil olmuşdu: Gürcüstan, Pakistan, Əfqanıstan, İran, Moldova, Kolumbiya, Kamerun, Malayziya, Hindistan, Polşa, C.Sudan. Respondentlərin içərisində ən çoxsaylı ateistlərin olduğu əsas ölkələr aşağıdakılar olmuşdu: Çin (47%), Yaponiya (31%), Çexiya (30%), Fransa (29%), C.Koreya, Almaniya, Niderland (15%), Avstriya, İslandiya, Avstraliya (10%).

Azərbaycan çoxmillətli dövlətdir və bu məmləkətdə müxtəlif etnik qruplar yaşayır. Ölkədə çoxlu sayda dinlər və konfessiyalar mövcuddur. Buna baxmayaraq, dominant din islamın şiə məzhəbidir. Ölkə əhalisinin 92,2% müsəlmanlardır və onların 85% (bəzi məlumatlara görə isə 60%) şiəliyin isnaaşirət məzhəbinin (mehdilik, yaxud imamilik) mənsublarıdır. Əhalinin təxminən 15%-ni (bəzi mənbələrdə 40%) isə sünni məzhəbinin mənsubları təşkil edir. Azərbaycanda 3 yəhudi icması fəaliyyət göstərir: dağ yəhudiləri, yəhudi-aşkenazilər, gürcü yəhudiləri. Bakıda, Qubada və Oğuzda 6 yəhudi sinaqoqu mövcuddur. Bunlardan əlavə Azərbaycanda yəhudilərin müxtəlif mədəniyyət mərkəzləri və dini təşkilatları fəaliyyət göstərir. 2003-cü il mart ayının 9-da Bakıda açılmış sinaqoq Avropada ən böyük yəhudi ibadət evi hesab olunur.

Azərbaycanda xristianlığın iki minillik tarixi vardır. O, İsa Məsihin şagirdi həvari Varfolomeyin Cənubi Qafqazda dini fəaliyyəti ilə bağlıdır. Qeyd etmək lazımdır ki, o,71-ci ildə erməni-bütpərəstlər tərəfindən edam edilmişdir. E. I əsrinin 2-ci yarısında isə Yərusəlimdən (Qüds) gəlmiş Müqəddəs Yelişa (yun. *Yelisey*) indiki Şəki rayonunun Kiş kəndində ilk Alban Həvari Kilsəsini inşa etdirmiş və həmin kilsə bu gün də fəaliyyət göstərir. 1836-cı ildə Alban Kilsəsi Rus Pravoslav Kilsəsinin Müqəddəs Sinodu tərəfindən ləğv edilərək erməni katalikosluğuna tabe etdirilsə də,

2003-cü ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə bərpa edilmişdir. Ölkəmizdə, həmçinin katolik və pravoslav kilsələri fəaliyyət göstərir. Hal-hazırda isə Azərbaycanda beş pravoslav kilsəsi mövcuddur Onlardan "*Собор Жен Мироносиц*", "*Собор Рождества Пресвятой Богородицы*" və "*Михайло-Архангельский собор*" Bakıda yerləşir.

Katolisizm Azərbaycanda XIV əsrdən yayılmağa başlamışdır. Bu dövrdə ölkəmizə müxtəlif yerlərdən katolik missionerləri (dominikanlar, karmelitlər, fransizkanlar) gəlirdilər. XX əsrin əvvəllərində Bakıda ilk katolik məbədinin ("*Храм Непорочного Зачатия Девы Марии*") əsası qoyulmuşdu. 2002-ci ildə isə Roma Katolik Kilsəsinin (Vatikan) başçısı II İoann Pavel (*Ioannes Paulus PP.II* - 1978-2005) Bakıya səfər etmişdi. Hazırda Azərbaycanda katolik konfessiyasının mənsubları 500 nəfərdir.

Katolik və pravoslav xristianlardan başqa Azərbaycanda 25 kiçik protestant-baptist icmaları mövcuddur. 1830-cu ildə Rus çarı I Nikolayın (1825-1855) verdiyi fərmana görə, Rus Pravoslav Kilsəsinə müxalifətdə olan bəzi bidətçilərin (раскольники) C.Qafqaza köçürülməsinə başlandı. Beləliklə, Türkmənçay sülh müqaviləsindən sonra Azərbaycana 120 min bidətçi (anabaptistlər, molokanlar və subbotniklər) köçürüldü. Bidətçilər Rusiyanın mərkəzi hissəsindən - Volqaboyundan, eləcə də Tavriyadan, Bessarabiyadan köçürülürdülər. O dövrdə C.Qafqazda salınmış kəndlərin çoxu məhz Azərbaycanda idi. Bidətçilər üçün salınan yaşayış məskənləri sırasında Privolnoe, Nikolayevka, İvanovka və baş. indi də mövcuddur. 1859-cu ildən isə bidətçilərə Bakı slobodasında (slav. *слобода* - azad - çarizm dövründə əsas dövlət mükəlləfiyyətlərindən azad edilmiş yaşayış məntəqəsi) məskunlaşmalarına icazə verildi və burada 16 bidətçi kəndi salındı.

XXI əsrdə dinin aktuallığı əvvəlki əsrlərdən az deyil. Bir zamanlar ateizmi dövlət səviyyəsinə qaldırmış cəmiyyətlər yenidən haqqın yoluna qayıtmışlar və bu proses durmadan davam edir. Müasir insan nə qədər müasir görünsə də, onun ruhunda potensial dini inancın olması faktdır. Ən radikal ateist belə, "köksünə xəncər sancılanda əllərini göyə qaldırıb tanrıdan kömək istəyir". Bu gün rasional düşünən insan tanrı axtarışının vacibliyini iki min il bundan əvvəl yaşamış insanlardan daha yaxşı dərk edir. Bu, iqtisadi, hərbi-siyasi, ekoloji və mənəvi sferalarda təzahür edən qiyamət əlamətlərinin çağdaş insanı dərindən düşündürməsi ilə bağlıdır. Beləliklə, mərhəmətli, qüdrətli və hifz edən tanrı ideyası həmişə olduğu kimi, bu gün də aktualdır.

## 4.2. Etnik-milli birlik tarixində din amili. Politeizm. Monoteizm: iudaizm, xristianlıq, islam (ing. *Religious factor in the history of ethno-national associations. Polytheism. Monotheism: judaism, christianity, islam*)



Antropoloqlar israrla iddia edirlər ki, tarixdə dini təsəvvürləri və dini inancları olmayan bir xalq belə olmamış və yoxdur. Bu əminlik belə bir anlama gəlir ki, etnosu yaradan çoxlu sayda amillər (dil, yaşayış yeri, adət-ənənələr və etiket, mədəniyyət, təsərrüfat həyatı, zahiri görkəm, antropoloji xüsusiyyətlər, mentalitet, landşaft, qida və s.) içərisində din və onunla bağlı olan inanclar ən vacib və həlledici əhəmiyyət kəsb edir. Məlumdur ki, etnos (yun. *ethnos* - xalq) insanların tarixən kollektivlərdə təmsil olunan məcmusudur. Etnosun hər bir fərdini çoxlu sayda obyektiv və subyektiv əlamətlər ifadə edir. Etnik dinamikanı öyrənmək üçün inteqrativ amil kimi dini inancların dinamikasını, onların məzmununu və mahiyyətini öyrənmək lazımdır.

Etnosların tarixində dini inanclar, heç də həmişə mütərəqqi xarakter daşımamış və tanrı axtarışı kimi təzahür etməmişdir. Məhz bu səbəbdən tarixdə çoxlu sayda primitiv və mürtəce dinlərə rast gəlinir. Qüdrətli tanrı axtarışı ideyası insanın dünyagörüşünün artması ilə meydana gəlmişdir. Cənnətdən qovulmuş insan təbiətin vəhşi qanunları qarşısında öz ruhani mahiyyətini itirmiş, onun ilkin obrazı cılızlaşmış və o, daha çox heyvani ünsürlərin kompleksinə çevrilmişdi. İnsanın öz ilkin mahiyyətini itirərək, təbiətə qovuşması, dərin fiziki və ruhani degenerasiyaya məruz qalması kimi proses "involyusiya" (lat.*involitio* - tənəzzül - orqanizmlərin (insan) bioloji, fizioloji və psixoloji özəlliklərinin itirilməsi ilə müşayiət olunan əks inkişaf, yaxud deqradasiya) adlanır. Lakin məlum olur ki, tanrı insanı cənnətdən çıxardıqdan sonra, onun qayğısına qalmağı tamam unutmamış, bəşərin ruhani tərəqqisi isə onun üçün hər zaman prioritet olmuşdur. Bu qayğının nəticəsində insan "involyusiyanın deformasiya məngənəsindən" azad olmuş və sivilizasiyaya üz tutmuşdu. Sivilizasiyanı "deqradasiyaya məruz qalmış qədim cahil insanın behişt, yaxud paradiz standartlarına qayıdışı" kimi xarakterizə etmək olar. Bu qayıdış aktının lokomotivləri kimi üç əsas amili qeyd etmək lazımdır: 1) birlik (vahid məqsədə qulluq mənasında); 2) hərb (güclü olmaq, yəni sağ qalmaq uğrunda mübarizə mənasında); 3) din (itirilmiş tanrını tapmaq mənasında). Qeyd etmək

lazımdır ki, bu üç faktorun içərisində din daha sanballı arqument hesab olunur. Bu, o biri iki amildən fərqli olaraq, insanın "fövqəlqüdrət sahibi" ilə ruhani əlaqələrindən yaranır.

Ümumiyyətlə etnosun, yaxud millətin formalaşmasının dini-fəlsəfi izahı dini təsəvvürlərin ən prinsipial məqamlarına söykənir. Xristianlıq bəşər tarixinin əvvəlində tanrı tərəfindən vahid bir xalqın və dilin olması ideyasını dəstəkləyir və iddia edirdi ki, çoxlu sayda etnik müxtəlifliklərin yaranması da insanın tanrı yolu axtarışı ilə bağlıdır [6].

Bibliyada və Qurani-Kərimdə vahid dildə danışan insanların "Babil qülləsi"ni inşa etmək yolu ilə tanrı dərgahına çıxmaq cəhdləri haqqında bir çox rəvayətlər vardır. Tanrı bu "düşünülməmiş və icazəsiz aksiyanı" dayandırmaq üçün dərhal dilləri qarışdırır və insanlar bir-birilərini başa düşmədikləri üçün başladıqları "səmavi layihədən" əl çəkirlər [7]. Həm yəhudi, həm xristian, həm də müsəlman ilahiyyatçıları məlum hadisəni, demək olar ki, eyni bir şəkildə təfsir edirlər. Onlar iddia edirlər ki, tanrı tərəfindən bu addım insanı tanrıya, itirilmiş cənnətə aparan asan yoldan çəkindirmək və bəşərin yerdəki həyatına pozitiv məzmun qatmaq üçün atılmışdır. Tanrı həqiqətlərinə çatmaq üçün bəşəriyyət mütləq uzun, çətin və şərəfli bir yoldan keçməli, hər şeyi öz zəkasının gücü ilə etməli idi.

Analoji fərziyyəni, eləcə də klassik alman fəlsəfəsinin ən görkəmli nümayəndələrindən biri olan Fridrix Hegel də (1770-1831) dolayı yolla dəstəkləyirdi. O, iddia edirdi ki, vahid bir "dünya ruhu" xalqların ruhuna nüfuz edərək, onları tarixin çox vacib subyektlərinə çevirir. Bu vaciblik isə etnosların daim hegemonluğa can atmasında ifadə olunur.

Bütün səmavi dinlər müxtəlif qəbilə, etnos və xalqların yaranması aktını tanrı yaradıcılığının nəticəsi hesab edir və məlum olur ki, etnosun varlığı dinlə bağlı olduğu kimi, ailə ilə də bağlıdır. Məşhur rus filosofu və ilahiyyatçısı Nikolay Aleksandroviç Berdyaevin (1874-1948) fikrincə "etnos genişləndirilmiş ailə, ailə isə kiçildilmiş etnosdur". Hər iki birliyin əsas elementi isə məhz dini ideologiyadır. Dini ideologiyanın iştirakı olmadan ailələri etnik birliyə cəlb etmək əsla mümkün deyil.

Etnik, sosial və konfessional maraqların qovuşması nəticəsində din etnik hərəkatların fövqəladə gücünə çevrilir. Bu zaman dini ideya səmavi nurdan gələndə, ekstrahumanist, maddi dünyanın diktəsi ilə formalaşanda isə sırf antihumanist olur. Məhz fövqəlqüdrət axtarışı kimi təzahür edən humanist dinlər davamlı şəkildə inkişaf edən etnik birlikləri, xalqları və millətləri yaratmağa və qorumağa qadirdir [8].

Görkəmli rus tarixçisi, etnoloq Lev Nikolaeviç Qumilyov (1912-1992) özünün orijinal məzmunlu passionarlıq (fran. *passioner* - şövqət,

ehtirasları qızışdırmaq) nəzəriyyəsində israrlı tərzdə iddia edir ki, "etnos orijinal davranış stereotipləri əsasında yaranmış insan kollektividir və o, sistemləşdirilmiş bütövlük kimi mövcud olmaqla, özünü həm də başqa, fərqli kollektivlərə qarşı qoyur" [9]. L. Qumilyovun fikrincə, etnos etnik sistemlərin bir növü kimi daim superetnosların (lat. *super* - yuxarı, yun. *ethnos* - xalq - etnik iyerarxiyanın ən yüksək manqası, tanrı axtarışının daha optimal yollarını tapmış etnik birlik) tərkibinə daxil olur və özündə subetnosları, konviksiyaları (bir yerdə yaşayan və eyni məişətə malik olan insan qrupları) və konsorsiyaları (eyni tarixi tale yaşamış və eyni məqsədlərə çatmaq üçün birləşmiş insan qrupları) təmsil edir.



**Politeizm** (ing. *Polytheism*)**.** Etnik-milli birliklərin yaranmasında və formalaşmasında politeizmin effektli inteqrativ faktor olması danılmazdır. Qədimlərdə misli görünməmiş templərlə çiçəklənən bütün sivilizasiyalar - Misir, İkiçayarası, Hindistan, Çin, Ellinizm, Roma, Skandinaviya və s., - ideoloji cəhətdən məhz elə politeizmə əsaslanırdı. Politeizmin yunan dilindən tərcümədə hərfi mənası "çoxlu tanrılar" (yun. *poli* - çox, *theis* - tanrılar) deməkdir. Belə "ilahi toplumda" və yaxud panteonda (panteon - yun. *pan* - bütün, *theis* - tanrılar - bütün tanrılar bir yerdə, yaxud tanrılar məbədi) təkcə tanrılar deyil, ilahələr də təmsil olunurdular [10]. Burada bir neçə məntiqi sual yaranır. Qədimdə, səmavi kitabların olmadığı bir dövrdə insanlar "çoxallahlılıq" ideyasını haradan almışdılar? Əgər insanın genetik kodunda tək tanrı elementi varsa, niyə monoteizmin təntənəsi minilliklər keçəndən sonra mümkün olmuşdu?

Politeizm teizmin spesifik tipi kimi kifayət qədər mürəkkəb dini sistemə əsaslanır və onun əsas motivlərini zəngin fantaziyaya əsaslanan miflər təşkil edir. Əhdi-Ətiqdə (Tanax, Bibliya, yaxud Tövrat) politeizm "azıklık" (təbiət qüvvələrini ilahiləşdirən politeist dünyagörüşü) kimi təqdim olunur və o, vahid tanrıya xəyanət kimi qiymətləndirilir. Bununla bağlı olaraq, Vaal, Daqon, Molox, Astrata, Xamos və çoxlu sayda digər tanrıların adları çəkilir.

Qurani-Kərimdə politeizm "şirk" (ərəb. *şərik* - yoldaş deməkdir) termini ilə ifadə olunur. Bu "tanrıya yoldaş tapılması", yaxud başqa bir hipotetik obyektə sitayiş anlamına gəlir. Bu haqda **Qurani-Kərimin 2-ci Əl-Bəqərə surəsinin 165-ci ayəsində** yazılmışdır [11].

Xristian ənənəsi isə politeizmi "deqradasiyaya uğramış ideologiya", tək tanrını tamamilə unutmuş "yanlış ruhani potensiya" adlandırır. Hətta

xristianlıqda politeizmin ilk bəşərin cənnətdə törətdiyi günahın davamı olması, insan nəslinin dərin mənəvi böhran keçirməsinin nəticəsi kimi üzə çıxması haqqında ideyalar da öz əksini tapmışdır. Monoteizmə görə, politeizm yanlış yol olduğu üçün insan bütün ruhani qüvvələrini səfərbər edərək bu "çatışmazlığı" aradan qaldırmalıdır. Şotlandiya filosofu Devid Yum (ing. *David Hume* - 1711-1776) politeizmi "cahil insanın ibtidai dini" adlandırırdı. Filosof israrla iddia edirdi ki, politeist dünyagörüşü öz mənbəyini "gündəlik həyatdakı qayğılardan, ümidlərdən, gizli və aşkar təzahür edən qorxudan götürür". Lakin həm qədimdə mövcud olan, həm də bu gün milyonlarla insanın güclü, sarsılmaz əqidəsi kimi təzahür edən politeizmin tərənnüm etdiyi mifologiya və ilahi iyerarxiya, heç də cahil insanın yaradıcılığının nəticəsi deyil. Politeizmi tədqiq edən çoxlu sayda alimlər, onu ümumxalq müdrikliyinin ifadəsi kimi təfsir edirlər. Bu isə "ibtidai cahillik" versiyasını inkar edir. Politeizmi dərk etmək üçün, onun əsaslandığı əsatirlərin, personajların çox dərindən öyrənilməsi vacibdir. Əsatirlər isə "teoqoniya" (tanrıların mənşəyi) və kosmoqoniya (dünyanın mənşəyi) kimi iki fərqli tipə ayrılır. Lakin ilahiyyatçılar iddia edirlər ki, politeizm öz mahiyyətinə görə magiya ilə əlaqədardır və burada "tanrılar dünyası" əsla transendent (lat. *transendens* - sərhədlərini aşan) xarakter daşımır. Lakin politeizmin apologetləri başqa fikirdədirlər. Olimp (yunan panteonunda tanrıların məskəni), Valhala (Skandinaviya mifologiyasında baş tanrı Odinin dərgahı) onlar tərəfindən yüksək təşəkküllü və səmavi qüdrətlə əlaqəsi olan məkan kimi qiymətləndirilir. Onlar iddia edirlər ki, politeizm əsla monoteizmin inkarı, yaxud vahid tanrıya xəyanət deyil. O, monoteizm məqamına çatmaq yolunda vacib mərhələdir. Bu hipotezin əsl mahiyyəti aşağıdakı kimidir: "Tanrı cənnətdən çıxardığı övladlarını həqiqət yoluna qaytarmaq üçün onları əvvəlcə "politeizm imtahanına" çəkir. Politeist tanrılar "psevdoqüdrət" sahibləridir. Tanrının insanların həyatına yeni pozitiv məzmun qatmaq üçün göndərdiyi missionerlərdir. Müasir "şok fərziyyələrdə" isə onlar "yadplanetlilər" kimi xarakterizə olunur. Əslində onlar monoteist dinlərdə mələklər kateqoriyasına mənsub olan və qüdrəti Yer kürəsi, yaxud atmosferlə məhdudlaşan antropomorf varlıqlardır. Onlar missiyalarını yerinə yetirdikdən və insanları müəyyən inkişaf səviyyəsinə çatdırdıqdan dərhal sonra, öz yerlərini və vəzifələrini mələklərə və peyğəmbərlərə verdilər və bununla da "fövqəlqüdrət sahibi bəşəriyyətin ixlasının ən yeni fazasında monoteizm kimi ifadə olunmağa başladı".

Monoteizmin yaranması haqqında təqdim olunan iki fərziyyə - 1) politeizmin daim inkişaf edərək monoteizmə keçməsi və 2) monoteizmin

"genolatriyanın", yaxud "genoteizmin" (yun. *genos* - tək, *theos* - tanrı, *latria* - kult - panteonda "lider tanrıya" xüsusi növ sitayiş) nəticəsi olması anlamına gəlir. Politeizmdə isə tanrılar içərisində lider tanrının seçilməsi ideyası monoteizmə qəti keçid üçün ən sanballı arqument sayıla bilər. Beləliklə, politeizm cahil təfəkkürün məhsulu deyil, tanrının öz yolunu azmış doğma övladlarına ilkin ruhani yardım kimi göndərdiyi kompleks tədbirlərin təzahürü kimi qəbul edilməlidir.



**Monoteizm** (ing. *Monotheism*). Bu gün dünya əhalisinin 60%-ni monoteizmin, yaxud təkallahlılıq ideyasının mənsubları təşkil edir. Monoteizm (yun. *monos* - tək, *theos* - tanrı) etnik birliklərin formalaşmasında, xalqların və millətlərin təşəkkül tapmasında həlledici rol oynamış, bəşəriyyəti yeni, yüksək inkişaf səviyyəsinə çıxarmış fenomendir. O, insan tərəfindən "hipotetik qüdrət sahibinin" bütün kainatın yaradıcısı, tənzimləyicisi və müdafiəçisi kimi tanınması və bu qüdrətə mütləq sitayiş edilməsi aktı kimi təzahür edir. Monoteizm insana əzəli məxsus olan günahkarlıq kompleksinin aradan qaldırılmasında növbəti mərhələdir. Ali yaradanın mələklər, vəhylər və peyğəmbərlər vasitəsi ilə ifadə olunmasının daha mürəkkəb formasıdır. Bu ideya və onun reallaşdırılması insanın öz tanrısının axtarışı yolunda yüksək təşəkküllü üsul kimi ortaya çıxır.

Artıq qeyd etdiyimiz kimi, təkallahlılıq haqqında dini təsəvvürlərin yaranmasının və formalaşmasının mexanizmləri insanın genetik kodunda mövcuddur. Buna görə də, insan tanrısına qovuşmaq və itirdiyi cənnəti qaytarmaq üçün daim yollar və üsullar axtarır. O, tanrıya aparan yolların müxtəlif olmasını bilir. Lakin "vəhdaniyyət ideyası" ona daha cazibədar görünür. Çünki burada tanrı ruhu daha parlaq təcəssüm olunur.

Monoteizmin insan şüurunda və psixikasında davamlı qərar tutması mexanizmi isə belədir: insan kəhkəşan miqyasında öz miskin varlığını və kosmosda baş verən proseslərin möhtəşəm təsirindən asılı olduğunu dərk edir və hipotetik mühafizəkar və qüdrətli himayədar mərhəmətinə sığınır. Kəhkəşanın bir xaosdan yaranması və kortəbii idarə olunması ideyasını qəbul etmir. Beləliklə, vahid və qüdrətli yaradan, idarə edən, mühakimə edən, rəhm edən "mütləq qüdrət" ideyası aktuallaşır. Məhz bəşəriyyətin çətin ruhani və psixoloji məqamlarında tək tanrı təzahür edir. Lakin tanrı müxtəlif əlamətlərlə və vasitələrlə, eyni zamanda hər yerdə və hər şeydə özünü büruzə verir, bununla da əsl fövqəlreal varlığını tamamilə sübuta yetirir və insanları bütün yanlış ideyalardan uzaqlaşdırır.

Tək tanrıya sitayiş eksklüziv və inklüziv formalarda ifadə oluna bilər. Eksklüziv (lat. *excludo* - müstəsna, tayı-bərabəri olmayan, yeganə) təzahür personal və transendent tanrıya sarsılmaz inamı və inancı nəzərdə tutur (iudaizm, islam). İnklüziv yönümlü (lat. *inclusivus* - özünə daxil edən - çoxlu sayda müxtəliflikləri özündə ifadə edən) təzahür isə vahid yaradanı müxtəlif mahiyyətlərdə qəbul edir (xristianlıq, hinduizm) [12].

Bu gün iudaizm, xristianlıq və islam kimi monoteist, yaxud səmavi dinlər vahid tanrı ideyasını tərənnüm edən ali ruhani çağırışlardır. Qeyd etmək lazımdır ki, ilk dini təsəvvürlərin məhz monoteizm olması faktını sübut edən çoxlu sayda arqumentlər mövcuddur. İnsan itirdiyi cənnətdən gətirdiyi “tək tanrı” ideyasını, “fövqəlqüdrət” haqqında təsəvvürləri uzun müddət özündə daşımış, lakin yeni mühitin (Yer) sərt qanunlarının və bununla əlaqədar sağ qalmaq qayğılarının təsiri altında tarixi yaddaşının unutqanlıq fazasına keçmiş və lokal miqyaslı “sirli əlamətlərin” (magiya, fetişizm, animizm, totemizm) əsirinə çevrilmişdi. Bu isə “qədim insanın cənnətdən əlini üzməsi” və sağ qalmaq üçün “yeni dünyaya” adaptasiya olunması qayğıları ilə bağlı idi. Məhz bu faktla əlaqədar bu gün bütün monoteist dinlərdə ibtidai dinlərin çoxlu sayda əlamətləri ifadə olunur.

Qeyd etmək lazımdır ki, politeist dini təlimlərdə monoteizmin və yaxud monolatriyanın aydın şəkildə ifadə olunan elementləri də mövcud olmuşdur. Məsələn, Qədim Misirdə lider tanrı Ra, yaxud Aton, Vavilon panteonunda Marduk, Zərdüştlükdə Hörmüzd (Ahura-Mazda) və s.

Bu gün bütün dünyada mövcud olan və ən geniş yayılmış dinlər iki müxtəlif kateqoriyaya bölünür: 1. İbrani dinlər - vahid bir dini xətt üzrə inkişaf edən və öz əsas ideya mənbəyini vahid patriarxdan, yəni İbrahim peyğəmbərdən götürən səmavi dinlərdir (iudaizm, xristianlıq, islam). 2. Dharmi dinlər - varlığın ən universal qanunu olan “dharmaya” (sanskrit. *qanun,təlim* - mahiyyət etibarı ilə bütün kainatda dolaşan və şəxsiyyətləri “sansara” (sanskri. *Samsara* - səyahət edən, azıb-dolaşan) çərxi ilə udan tale, qədər) əsaslanan bütpərəstlikdir (buddizm, caynizm, hinduizm).

Buddizmin “tanrısız din” olması və etik prinsiplərin sistemi kimi təzahür etməsi onun əsas məzmununda aydın şəkildə ifadə olunmuşdur. Caynizmə gəldikdə isə o, mərhəmətli ruhun təşəkkülünə istiqamətlənmiş qaydaların məcmusu kimi təzahür edir və burada, buddizmdə olduğu kimi ən ali məqsəd ruhun mütləq harmoniyaya, yaxud nirvanaya (pali. *nibbana* - həyəcanın sona çatması) çatması aktı hesab olunur.

Hinduizm isə çoxlu sayda çeşidli tanrıların, dini ənənələrin, fəlsəfi sistemlərin, fərqli inancların - monoteizmin, politeizmin, panenteizmin (yun. *pan* - hamısı, *ontos* - mövcud olan, *theos* - tanrı - hər yerdə təzahür

edən tanrı), panteizmin (yun. *pan* - hamısı, *theos* - tanrı - tanrı ilə təbiəti vəhdətdə qəbul edən dini dünyagörüşü və fəlsəfi təlimdir) və monizmin (yun. *monos* - tək - obyektlərin, hadisələrin müxtəlifliyinin son nəticədə vahid başlanğıca, yaxud tək substansiyaya qovuşmasını iddia edən dini-fəlsəfi təlim) təmsil olunduğu rəngarəng dini təlimdir. Lakin hinduizmin bütpərəstlik, yaxud politeizm ideyalarının külliyyatı olması kimi fikirləri inkar edən sanballı sübutlar mövcuddur [13].

Hinduizmdə olduqca mürəkkəb və rəngarəng monoteist təsəvvürlər ifadə olunmuşdur. Burada təmsil olunan çoxlu sayda tanrılar və ilahələr (Şiva, Krişna, Vişnu, Xanuman, Qaneş və başq.) maddi Kainatı yaradan, hifz edən və dağıdan fövqəlqüdrət sahibinin müxtəlif mahiyyətləridir. Hinduizm fəlsəfəsində tək tanrının cahan miqyasında müxtəlif sifətlərdə ifadəsi “avatara” (sanskrit. *göydən enmək*) adlanır [14].

Hinduizmin əsas istiqamətlərindən biri - “vayşnavizm” (sanskrit. *Vişnu yolu*) başdan-başa sırf monoteizmi tərənnüm edir. Hinduizmin ən müqəddəs dini kitablarından biri olan “Bhaqavad-Gita” (sanskrit. *“Tanrı nəğmələri”*) tanrının ən ali mahiyyəti olan Krişnanı “svayam-bhaqavan” (sanskrit. *tanrının özü*) adlandırır. Vedlərdə (sanskrit. *bilik* - hinduizmin ən qədim yazılı mənbəsi) və Upanişadlarda (sanskrit. *yanında oturmaq* - şagirdin öz müəllimin yanında oturması deməkdir - Vedlərin bir hissəsi) tərənnüm olunan himnlərin çoxunda İndra, Mitra, Varuna, Aqni, Yama və s. kimi adlar “vahid yaradannın” müxtəlif mahiyyətlərini ifadə edən adlardır [15].

Xristianlıqda da vahid yaradan çoxlu sayda müxtəlif adlarla tanınır: “Patris” (Ata), “Aqnus Dei” (Tanrı Quzusu), “Emmanuil” (Gənc Tanrı), “Maşiax” (nurlanmış, miro ilə yağlanmış, yaxud məsh edilmiş), “Loqos” (Kəlam), “Amen” (Həqiqət, Həqq) “Alfa və Omeqa” (Başlanğıc və Son), “Pastor Bonus” (Xeyirxah Çoban), “Teantropos” (Tanrı insan) və s. [17].

Qurani-Kərimdə də Allahın müxtəlif mahiyyətləri öz ifadəsini tapır. Allah burada 99 müxtəlif ad altında tərənnüm olunur və hər bir ad onun fövqəlqüdrət xarakteini, mərhəmətli və ədalətli olmasını əks etdirir [18]. Məsələn, Ərr-Rəhman (Fövqəlmərhəmətli), Ərr-Rahim (Fövqəlrəhmli), Əl-Malik (Hökmdarlar Hökmdarı), Əl-Qüddüs (Müqəddəs, Qüsursuz), Əss-Salam (Qüdrətli Sülhyaradan), Əl-Mömin (Fövqəl Hifzedən), Əl-Vəhhab (Fövqəl Bəxşedən), Əl-Qadir (Qüdrətlilər Qüdrətlisi) və s. [19].

Beləliklə, monoteizmin sistematik təhlili sübut edir ki, kəhkəşanın mütləq sahibi olan vahid yaradan mövcudatın bütün müxtəlifliklərini öz fövqəlqüdrəti sayəsində birləşdirmiş, unitarlaşdırmış, hər hansı sərhədləri olmayan, təfəkkürlərə sığmayan möhtəşəm məfhumdur.



**İudaizm** (ing. *Judaism*). Etnik-dini dünyagörüşünün ən mükəmməl forması olan monoteizmin qədim nümunələrindən biri iudaizmdir. İudaizm (yun. *iudaismos* - yəhudilərin dini, panellinist politezminə antiteza kimi yaranmışdır), yaxud yəhudi xalqının dini, onun mədəni, etik-mənəvi və ictimai-siyasi dünyagörüşünü əks etdirən dəyərlər sistemidir. E.ə. XIII əsrdə Musa (ivrit. *Moşe*, yun. *Moisey*, lat. *Moyses*) peyğəmbər tərəfindən əsası qoyulmuş yəhudi dininin başlıca simvolları içərisində Maqen David (Davudun ulduzu, yaxud Davudun qalxanı) və Menora (ivr. "*Menora*" - şamdan deməkdir, yeddi lüləli şamdan) xüsusi məna və əhəmiyyət kəsb edir. İbrani dinlərdən birincisi olan və mütləq monoteizmi tərənnüm edən iudaizm eyni zamanda ümumdünya dini deyil, milli dindir. Ona yalnız yəhudilər sitayiş edirlər.

Yəhudilərin ümumi sayları 15 milyon nəfərdir. Onların 42 faizi İsraildə, qalan hissəsi isə Avropada, ABŞ-da, Kanadada, eləcə dünyanın digər ölkələrində yaşayır. Azərbaycanda sayları 10 min nəfər olan dağ yəhudiləri icması mövcuddur. İudaizmə sitayiş edən bütün yəhudilərin aşağıdakı fərqli etnik qrupları vardır: 1. Aşkenazilər - Mərkəzi Avropada, xüsusilə də Almaniyada yəhudi miqrantların icmalarından yaranmış etnik qrup (ivrit dilində "*aşkenazi*" sözünün mənası "Almaniya" deməkdir). 2. Safardlar - İspaniyada yəhudi miqrantların icmalarından yaranmış etnik qrupdur (ivrit dilində "*sfarad*" sözünün mənası isə "İspaniya" deməkdir). Safardlar qədim yəhudi, yaxud "*ivrit*" (safa) dilində, aşkenazilər isə hind-avropa dillərinin german qoluna mənsub olan "*idiş*" dilində danışırlar. Bundan əlavə yəhudilərin ərəb, Buxara, İran (paras-umaday), Çin (kayfın yəhudiləri), Gürcüstan yəhudiləri, dağ yəhudiləri, hind icmaları (Koçin yəhudiləri), laxluxlar, yaxud Kürdüstan yəhudiləri, romaniotlar (Bizans imperiyası əyyamında yəhudi miqrantların icmalarında formalaşmış etnik yəhudilər), italyanimlər, yaxud romimlər (Apennin yarımadasında yəhudi miqrantların icmalarından yaranmış etnik yəhudilər), falaşalar (qədim efiop. *gəlmələr*), yaxud Efiopiya yəhudiləri kimi qrupları vardır.

Dünyada yaşayan yəhudilərin təqribən 90%-i iudaizmə sitayiş edir. Lakin XIX-XX əsrlərdə iudaizmin ortodoksal varianlartı ilə yanaşı yeni cərəyanları da - reformist iudaizm, konservativ iudaizm, rekonstruktiv iudaizm və s. yaranmışdır.

Yəhudi dininin bütün əsas müddəaları Bibliya, yaxud Vetxiy Zavet (yun. "*vetx*" qədim, "*zavet*" nəsihət, müqavilə, əhd deməkdir) adlanan

müqəddəs kitabda təfsil olunmuşdur (ərəb. "*Əhdi-Ətiq*" -*"Qədim əhd"*). Yəhudilər onu Tanax adlandırırlar. Tanaxın tərkibinə 3 külliyyat daxildir: 1. Tora, yaxud Beşkitab (ivritdən tərcümədə onun hərfi mənası "Təlim" deməkdir - 5 kitab). 2. Neviim (Peyğəmbərlər -cəmi 21 kitab). 3. Ktuvim (qədim ivritdən tərcümədə "Yazılar", yaxud "Aqioqriflər" (yun. "*aqio*" - müqəddəs, "*qrifos*" - yazı) müqəddəs yazılar deməkdir - 13 kitab). Üç kitabın adlarının ayrı-ayrı hərflərindən isə "Tanax" ifadəsi yaranmışdır. Tanax e.ə XIII - e. I əsrlərində yazılmışdır. Onun yunan dilinə tərcüməsi "Septuaginta" (yun.*70 gün* deməkdir -qədim Misirin ən görkəmli alimləri tərəfindən 70 gün ərzində tərcümə olunduğu üçün belə adlanır) adlanır. Eramızın II əsrindən XVIII əsrinə qədər isə yəhudilər iudaizmin sirlərinə Talmud (ivrit. *öyrətmək*), yaxud Gemara (aramey. *öyrənmək*) adlanan çoxcildli kitabların vasitəsilə yiyələnirdilər [20].

Yəhudiliyin ən müqəddəs dini məkanı Yərusəlimdə (ərəb. *Qüds*) yerləşən Məbəd dağı (ivrit. *Xarabait*) hesab olunur.Burada e.ə. 516-cı ildə inşa olunmuş, lakin e. 70-ci ilində Roma sərkərdəsi, 79-81-ci illərdə Roma imperatoru olmuş Titus Flavius Vespasianus tərəfindən dağıdılmış Süleyman (ivrit. *Şlomon*) məbədinin sağ qalmış qərb divarı (ivrit. *Xa-Kotel xa-Maaravi* - Qərb Divarı) yerləşir [21]. Ərəblər orta əsrlərdə sağ qalmış divar qarşısında yəhudilərin acı göz yaşları tökmələri səhnəsini müşahidə etdikdən sonra, onu "El-Məbkə" adlandırmışdılar. Tərcümədə "Ağlama divarı" anlamına gəlir [22].

Qeyd etmək lazımdır ki, Məbəd dağında, həmçinin müsəlmanların ən müqəddəs məbədləri sayılan Əl-Əqsa (705-ci ildə inşa olunmuşdur) məscidi, Qaya Kümbəzi (ərəbcə *Məscid Qübbət əs-Səhra* - 687-691-ci illərdə inşa olunmuşdur) məscidi, Ömər Məscidi (1189-cu ildə Əfdal inşa etdirmişdir), eləcə də xristianlığın ən müqəddəs məkanı olan və 325-335-ci illərdə Bizans imperatoru I Konstantinin təşəbbüsü ilə inşa olunmuş "Tanrı Məzarı Məbədi" (latın dilində - *Sanctum Sepulchrum*, həmçinin "Kuvukliya" (latın dilində - *Cubiculum - yataq otağı*) adlanan məkanda İsa peyğəmbərin qəbri. 1009-cu ildə dağıdılmış və 1042-1048-ci illərdə Bizans imperatoru Konstantin Manomax (1000-1055) tərəfindən yenidən inşa olunmuşdur) yerləşir.

Yəhudi dövlətinə e.ə. 970-930-cu illərdə rəhbərlik etmiş Süleyman peyğəmbər tərəfindən Birinci Məbəd (ivr. *Beyt-Mikdaş* - e.ə. 957-950-ci illər ərzində inşa olunmuşdur) inşa olunanadək yəhudilər məbəd kimi "Skiniya" adlanan böyük, daşınan çadırdan istifadə edirdilər.

Məbəd dağından başqa iudaizm dininin digər bir müqəddəs məkanı Hevronda yerləşən qədim Mahpela (ər. *Həram əl-İbrahimi*) mağarasıdır.

Rəvayətə görə burada İbrahim peyğəmbər (yəh. *Avraham* - e.ə. 1812-1637), onun Sarradan olan oğlu İshaq (yəh. *İtsxak*), nəvəsi Yaqub (yəh. *Yaakov*) və b. dəfn olunmuşlar [23].

Qədim ənənəyə görə Tövrat (Tora, Toyre, yaxud Beşkitab) Musa peyğəmbərə Sinay dağında (Misir) nazil olmuşdur [24]. İudaizmin etik əsaslarını təşkil edən və "Əhd Sandığında" saxlanılan 10 əsas qadağa da məhz Musa peyğəmbərin "Sinay nurlanması"ndan sonra İsrail oğullarına çatdırılmışdır: 1. Başqa tanrılara səcdə etmə! 2. Özünə kumir yaratma! 3. Tanrı adını boş yerə çəkmə! 4. Şənbə gününə riayət et! 5. Valideynlərinə hörmət et və onları sev! 6. Öldürmə! 7. Oğurluq etmə! 8. Zina etmə! 9. Yalançı şahidlik etmə! 10. Başqasının malına göz dikmə! [25].

Müasir və sivil İsrail dövlətində dini ideologiyanı tərənnüm etmək vətəndaşlar üçün icbari vəzifə sayılmır, lakin dövlət öz himayəsini dini ideologiyanın üzərindən götürmür. Hətta nikah-talaq, doğum-ölüm və yəhudi dininə keçmək (qiyur - qeyri-yəhudinin yəhudi dininə keçməsi ayini - iudaizmi qəbul etmək istəyən şəxsin "*mikve*" adlanan müqəddəs su rezervuarında çimizdirilməsi) kimi məsələləri dini müəssisələr həyata keçirirlər. Qeyd etmək lazımdır ki, İsrail dövlətinin rəsmi konstitusiyası yoxdur, dövlət quruluşunu əks etdirən müddəalar, yaxud ictimai qanunlar isə, əsas etibarı ilə yəhudi ideologiyası və ənənəvi yəhudi hüququ olan Qalaxa (ivrit.hərəkət yolu, davranış, idarəçilik) əsasında qəbul edilmişdir.

İudaizmin politeizmə, bütpərəstliyə, azık dinlərinə, xristianlığa və islama münasibəti müxtəlifdir. Yəhudiliyin ən məşhur dualarından biri olan "*Aleynu Leşabeah*"da (ivritdən tərcümədə "*Bizə tərif etmək vəzifəsi verilib"* deməkdir) azıklık və politeizmə münasibətdə bu sözlər deyilir: "Bizim üzərimizə bütün dünyanın vahid tanrısını mədh etmək vəzifəsi qoyulub. Çünki o, (Tanrı) bizi başqa bütün xalqlardan tam fərqli yaradıb, başqa qəbilələrə bənzəməyə yol verməyib, onların qədərini və taleyini yaşamağa qoymayıb. Belə ki, onlar boşluğa, mənasızlığa sitayiş edirlər, əlində bəşəriyyətin ixlası imkanları olmayan tanrılara səcdə edirlər" [26].

Xristianlığa və islama münasibətdə iudaizm daha liberal baxışları əks etdirir. Yəhudi ilahiyyatçıları isə iddia edirlər ki, xristianlıq və islam iudaizmin yaradıcılıq aktının nəticəsidir, ortodoksal yəhudilikdən törəmə dini ideologiyadır və onun əsas məqsədi iudaizmin baza elementlərini dünya xalqlarına çatdırmaqdır [27].

Qidalanma ilə bağlı iudaizmdə "*kaşrut*" (ərəb. "*kövsər*" - istifadə üçün yararlı və məqbul olan qida) adlanan qanunlar toplusu mövcuddur. Bu qanunlara görə, mömin yəhudi yalnız Tövratda tövsiyyə olunan halal qidaları qəbul edə bilər. Halal sayılmayan qidalar isə yəhudilikdə "*tref*"

adlanır (ərəb. *"həram"*) [28].

Yəhudi etnik-mədəni adət-ənənələrində çoxlu sayda müxtəlif dini bayramlar mövcuddur. Onların içərisində Pasxa, yaxud 14 Nisan gecəsi (ivrit. *Pesax* - bütün yəhudilərin Misir köləliyindən qurtuluşu və Kənana qayıdışları şərəfinə bayram), Şebuot (Musa peyğəmbərin Sinay dağında tanrıdan əsas "Qanunları" alması şərəfinə bayramdır) və Purim (ivritdən tərcümədə "*püşk atmaq"* - yəhudilərin "Babil əsirliyində" (e.ə. 598-539) sağ qalması şərəfinə bayram) bayramları xüsusi əhəmiyyət kəsb edir.

70-ci ildə Yərusəlimdə Süleyman məbədinin Romalılar tərəfindən dağıdılmasından sonra yəhudilər bütün dünyaya yayılırlar, beləcə onların diaspora tarixləri başlanır. Bundan sonra yəhudi dini icmalarının ruhani həyatında ən vacib ictimai-dini amil qismində "*sinaqoq*" (yun. *sinogog* - toplantı, ivrit - *beyt kneset* - yığıncaq evi) özünü israrla təsdiq edir. Lakin sinaqoq iudaizmdə məbəd hesab olunmur. Yeganə məbəd kimi 70-ci ildə dağıdılmış Süleyman məbədi tanınır. Yəhudi dini icmalarının başçıları isə "*ravvin*" (aram. *rabin* - mənim müəllimim) adlanır.

İudaizm səmavi din olsa da, xristianlıqdan və islamiyyətdən fərqli olaraq, dünyəvi dinlər kateqoriyasına aid deyil. O, təktanrılığa meyl edən bəşəriyyət üçün nə qədər cazibədar görünsə də, heç bir tarixi dönəmdə yad etnosları öz ideyalarına həsr etmək üçün cəhd göstərməmişdir. Lakin qeyri-yəhudi xalqlarını "qoylar" (xalqlar) adlandıran və onlara yüksək tolerant münasibət ifadə edən iudaizm, yalnız bütpərəstlərə münasibətdə müəyyən intolerantlıq nümayiş etdirir.

İudaizmi, eyni zamanda ümumdünya dini adlandırırlar. Bu zaman apologetlər belə bir arqumentə əsaslanırlar ki, yəhudi olmayan hər bir kəs "*qiyur*" adlanan dini proseduru keçərək, yəhudiliyin sıralarına daxil ola bilər. Bütün xalqlar üçün yəhudiliyin qapıları tam açıqdır. Lakin bu təlim zorla, yaxud da təbliğat vasitəsi ilə heç kimi öz ideologiyasına cəlb etmir. Məhz bu hal iudaizmin yüksək tolerant xarakterini, multikulturalizmə və plüralizmə liberal münasibətini parlaq şəkildə əks etdirir.



**Xristianlıq** (ing. *Christianity*). Bu gün dünyada ən geniş yayılmış monoteist məzhəblərdən biri də xristianlıqdır (yun. *xriotiavos* - məsh etmək). Yer kürəsində yaşayan bütün xristianların ümumi sayı 2 milyard 419 milyon nəfərdir. Xristianlığın yaranması İsa Məsihin (ivrit. *İeşua Qa-Notsri,* yun. *İisus Xristos* -e.1-33-cü illəri) fəaliyyəti ilə bağlıdır. İsanın mövludu haqqında Şərqdən gələn zərdüşt

maqları (*Melhior* - orta yaşlı, *Valtasar* - gənc, *Kaspar* - qoca) əvvəlcədən xəbər vermişdilər.“Tanrı oğlu” (burada söhbət bioloji reproduksiyadan deyil, tanrı mahiyyətinin bəşəri cizgilərdə ifadəsindən gedir) kimi tanınan İsa Yer qanunlarına görə Nəzarətli Mariyanın (ərəb. *Məryəm*) və Xarrat İosifin (ərəb. *Yusif*) oğlu hesab olunur [29]. Məsihəçilik (ivrit. *Maşiax* – yağlanmış, yaxud məsh edilmiş) ideyası ortodoksal iudaizmdə əsas dini prinsiplərdən biri idi. Yəhudi dövlətinin dağılmasından (e.ə. 586) sonra yəhudilərin Misir və Babil əsirliyində olduqları zamanlardan məsihəçilik ideyası fövqəladə bir şəkildə aktuallaşmışdı. Roma imperiyasının hərbi-siyasi hüdudsuzluğu dövründə (e.ə I - e. III ə.) məsihəçilik daha cəlbedici xarakter kəsb etməyə və politeist Romanın hegemonluğuna qarşı ideoloji çağırış kimi təzahür etməyə başladı. Lakin İsanın simasında məsihəçilik fövqəladə nüfuz qazananda, ortodoksal yəhudilik dininin təmsilçiləri və müdafiəçiləri olan fariseylər (ivrit.*peruşim* - mənası ayrılmışlar) yeni dini hərəkata qarşı çıxdılar və İsanı “məsihə” kimi tanımaqdan imtina etdilər [30]. Beləliklə, hadisələrin ən dramatik dövrü başlandı və fariseylərin tələbi ilə e.26-36-cı illərində Fələstində Roma prokuratoru olmuş Pontiy Pilat İsa peyğəmbərin həbs edilməsi və edamı haqda sərəncam verdi. E. 33-cü ilində isə Qüdsdə “Qolqofa” (aram. *Kəllə sümüyü* - rəvayətə görə Adəm burada dəfn olunmuşdur) adlanan yerdə edam olundu [31]. Qeyd etmək lazımdır ki, İsa edam olunanadək öz moizələrində şagirdlərinə və davamçılarına bəşəriyyətin günahlarını qanı ilə yumaq naminə çarmıxa çəkilərək edam olunacağını demişdi. 12 şagirdi ilə sonuncu toplantıda isə («Gizli gecə» - ing. *The Last Supper*) onlardan birinin (İuda İskariot) ona xəyanət edəcəyini işarə etmişdi. Lakin edamdan sonrakı ilk bazar günü (ing. *resurrection*) yaxınlıqda yerləşən mağaraya gətirilmiş İsanın cəsədi yoxa çıxır. Onun cəsədini miro (yun. *mirov* - xoş ətirli yağ) ilə yumağa (məsh etməyə) gəlmiş qadınları (Miro daşıyan qadınlar - rus. *Жены мироносцы*, ing. *Myrrh-Bearers*) Nəzarətli Məryəm, Mariya Maqdalina, Marfa və b.) artıq mağara qarşısında “dirilmiş” (ing. *resurrection*) İsanı gördülər [32]. Bu hadisə və İsanın qeyb olması xristianlığın tanrı ifadəsi olmasına ən güclü arqument qismində qəbul olundu və bu gün də bəşər tarixinin ən böyük sirlərindən biri olaraq qalır.

Xristianlıqda ən mübahisəli məsələlərdən biri də İsa peyğəmbərin ilahi, yaxud insani mahiyyətə malik olması ilə bağlıdır. Xristianlığın ilk əsrlərindən onun parçalanmasına səbəb olmuş fikir ayrılığı da məhz bu mahiyyətə (yun. *ipostas* - sifət, mahiyyət) münasibətlə bağlıdır. Xristian ilahiyyatında İsa peyğəmbəri öyrənən və “Xristologiya” adlanan xüsusi bölmədə, onun mahiyyətini açıqlayan məqamlar təhlil olunur. Məsələyə

monofizit (yun. *monos* - tək, *fisios* - təbiət, mahiyyət) yanaşmaya görə İsanın yalnız bir - tanrı mahiyyəti vardır. Diofizit (yun. *dio* - iki, *fisios* - təbiət, mahiyyət) yanaşmaya görə İsa peyğəmbərin ikili - tanrı və insan mahiyyəti qəbul olunur. Diofizit təlimi e. 451-ci ilində Konstantinopolda Bizans imperatoru Flavius Markianus (450-457) tərəfindən çağırılmış Xalkidon (indiki *Kadıköy* - *İstanbul*) Ümumdünya Kilsə Yığıncağında qəbul olunmuşdur. Miafizit (yun. *mia* - vahid, *fisios* - təbiət, mahiyyət) yanaşmaya gəldikdə isə o, İsanın əsl tanrı və əsl insan mahiyyətlərini vəhdətdə götürür. Diafizit təlimindən fərqli olaraq, bu vəhdət şərti deyil, mütləq hesab olunur. Bundan əlavə xristianlıqda "Trinitar düsturun" da xüsusi əhəmiyyəti vardır. Bu düstura görə, tanrının üç təbiəti bir vəhdət kimi qəbul olunur. Bunlardan birincisi "Tanrı ata", ikincisi "Tanrı Oğul", üçüncüsü "Müqəddəs Ruhdur". Trinitar düstur latınca kilsə liturgiyasında (lat. *liturgia* - xidmət, iş - dini ayinlərin icrası) belə səslənir: *"İn nomine Patris et Filii et Spiritus Sancti. Amen!"* (Müqəddəs Ata, Müqəddəs oğul və Müqəddəs ruh adına. Amin!) [33].

İsanın edam olunmasından, möcüzəli şəkildə dirilməsindən və qeyb olmasından sonra, onun ən sadiq şagirdləri - apostollar (ərəb. *həvari*) peyğəmbərin həyat dərslərini, moizələrini, möcüzələrini, edam səhnəsini, ondan sonra baş vermiş bütün dramatik hadisələri dünyanın hər yerində yaymağa başladılar. Apostolların ilkin sayı 70 olmuşdur və onlardan 12-si İsanın ən yaxın adamları hesab olunurdu: 1. Pyotr (aram. *Şimon Bar Yona*) - xristianlığı Cənubi Avropada yaymış və Romada 64-cü ildə apostol Pavellə bir gündə edam olunmuşdur. 2. Matfey (ivrit. *Matityahu Levi*) -xristianlığı Qara dəniz hövzəsində yaymış və 63-cü ildə Fələstində edam olunmuşdur. 3. Filip Səyad (ivrit.*Filip Mi Beyt Saeda*) - xristianlığı İskitdə (indiki Ukrayna ərazisi) və Frigiyada (Kiçik Asiya) yaymış və 80-ci ildə burada edam olunmuşdur. 4. Andrey (ivrit. *Andre Bar Yona*) - xristianlığı Şimali Avropada və Rusda yaymış, I əsrin sonunda Patrada (Yunanıstan) çarpaz xaç (Andrey xaçı - X) üzərində çarmıxa çəkilməklə edam olunmuşdur. 5. Foma Yəhuda (ivrit.*Toma Ben Yahuda*) -xristianlığı Hindistanda yaymış, 72-ci ildə Maylaporda edam olunmuşdur. 6. İoann İlahiyyatçı (ivrit.*Yohanan Ben Zavedi*) -xristianlığı əsasən Kiçik Asiyada yaymış, 100-cü ildə isə Patmos adasında məhbusluqda vəfat etmişdi. 7. İakov Zevedeev (ivrit. *Yaakov Ben Zavedi*) - xristianlığı Şimali Afrikada yaymış və 44-cü ildə yəhudi çarı I İrod Aqrippa tərəfindən öldürülmüşdü. 8. Varfolomey (ivrit. *Nafanail*) -xristianlığı əsasən Kiçik Asiyanın dağlıq hissəsində yaymış və I əsrin sonunda Kiçik Asiyanın şərqində Albana adlanan yerdə erməni bütpərəstlər tərəfindən edam olunmuşdur. 9. İakov

Alfeev (ivrit. *Yaakov Ben Xalfay*) - xristianlığı Şimali Afrikada yaymış və e.ə. I əsrin sonlarında Ostaritsində (qədim Misir) edam olunmuşdur. 10. Faddey (ivrit. *Yehuda Ben Yaakov*) - xristianlığı Fələstində, Suriyada, Mesopotamiyada və Qərbi İranda yaymış və burada I əsrin 2-ci yarısında erməni bütpərəstlər tərəfindən edam olunmuşdur. 11. Simon Kananit (ivrit. *Şimon Xa Kanai*) - xristianlığı İudeyada, Misirdə, Abxaziyada və Liviyada yaymış və 107-ci ildə Şimali Qafqazda bütpərəstlər tərəfindən edam olunmuşdur. 12. İuda İskariotskiy (ivrit. *Yehuda Ben Şimon*) - İsa peyğəmbərə xəyanət etdikdən sonra intihar etmiş və onun yerinə püşk yolu ilə yeni apostol - Matviy (ivrit. *Mattiyaxf*) seçilmişdi - xristianlığı Qərbi Gürcüstanda və Makedoniyada yaymış və 63-cü ildə Yərusəlimdə edam edilmişdir) [34].

Xristianlığın yayılmasında 70 apostolun içərisindən çıxmış Luka və Markın da müstəsna xidmətləri vardır. Luka (ivrit. *Loukaş)* - xristianlığı Yunanıstanda yaymış və Beotiyada (Yunanıstan) I əsrin 80-ci illərində edam olunmuşdur. Dörd kanonik İncildən biri məhz Lukaya məxsusdur. Apostol Mark da (ivrit. *Markoş*) - 70 apostollar içərisindən çıxmışdır. Xristianlığı Misirdə, Liviyada və Afrikanın daxili əyalətlərində yaymış, 68-ci ildə İskəndəriyyədə (Misir) bütpərəstlər tərəfindən öldürülmüşdür. Dörd kanonik İncildən biri ona məxsusdur. Xristianlığın yayılmasında, həmçinin Apostol Pavelin çox əhəmiyyətli rolunu qeyd etmək vacibdir. Apostol Pavel (ivrit. *Savl Na Tarsi*) nə 12, nə də 70 apostolun sıralarına daxil deyildi və əsasən "Azıkların apostolu" kimi tanınmışdı. Xristianlığı Suriyada, Kiçik Asiyada, Balkan yarımadasında yaymış, apostol Pyotrla bir gündə, 64-cü ildə Romada edam olunmuşdu [35].

Beləliklə, apostollar şahidi olduqları və eşitdikləri bütün hadisələri yazıya köçürməyə başladılar. Bununla da, xristianlığın müqəddəs kitabı "İncil" (yun. *Yevangelion*, və ya "Xoş xəbərlər") meydana gəldi. Dörd apostolun (Matvey (Matta), İoann, Luka, Mark) adı ilə bağlı olan İncillər (Müjdələr) kanonik, yəni orijinallığı rəsmi kilsə tərəfindən şərtsiz tanınan kitablar hesab olunur. Qanuni İncillər, həmçinin Müqəddəs apostolların əməlləri, onların yeddi kilsə yığıncağına məktubları, Apostol Pavelin on dörd məktubu və "Apokalipsis, yaxud İoann İlahiyyatçının açıqlamaları" (cəmi 27 kitab) Əhdi-Ətiqdən (yun. *Vetxiy Zavet* - Qədim Nəsihət - ing. *Old Testament*) sonra Bibliya külliyyatının ikinci hissəsinə, yaxud Əhdi-Cədidə (yun. *Nova Zavet* - Yeni Nəsihət - ing. *New Testament*) daxildir [36]. Xristianlıq tarixində I əsr Həvari (Apostol) əsri kimi xarakterizə olunur. 100-cü ildə apostol İoann İlahiyyatçının və 107-ci ildə Simon Kananitin ölümü ilə "həvari əsri" başa çatmışdı. II-III əsrlər isə "həvari

şagirdlərinin fəaliyyəti dövrüdür".

313-cü ildə Roma imperatoru I Konstantin (306-337) Milan edikti ilə xristianlığı Roma imperiyasının rəsmi dini ideologiyası elan etdikdən sonra, üç əsr ərzində təqib olunan və əzilən bu dini təlimin əsl təntənəsi başlandı. Bundan sonra Qərbdə və Şərqdə xristianlığın yayılması prosesi sürətləndi.

1054-cü ildə vahid xristian kilsəsində birinci parçalanma baş verdi. Konstantinopol Patriarxı Mixalil Kerullariy ilə (1043-1058) Roma papası IX Lev (1049-1054) arasında Cənubi İtaliyaya və Siciliyaya yiyələnmək uğrundakı mübarizə "rəqiblərin" 1054-ci ildə bir-birilərini lənətləməsi (*anafema*) aktı ilə başa çatdı. Böyük sxizma (yun. *sxizma* - parçalanma) adlanan bu hadisə Ümumdünya kilsəsini Roma katolik və Yunan katolik (pravoslav) kilsələrinə böldü [37]. Bütün Orta əsrlər tarixi boyu Roma Katolik Kilsəsi Avropada, Yunan Katolik Kilsəsi isə Şərqdə, nəinki çox qüdrətli nüfuz sahiblərinə, həm də əsl istibdada çevrildilər. 1965-ci ildə 911 il davam edən qarşılıqlı anafemalar Roma papası VI Pavel (1963-1978) və Ümumdünya Patriarxı Afinaqor (1949-1972) tərəfindən aradan qaldırıldı.

XIII əsrdə İtaliya ilahiyyatçısı Akvinalı Foma (lat. *Thomas Aquinas* - 1225-1274) tərəfindən Mömin Avqustinin (354-430) və Aristotelin (e.ə. 384-322) təlimlərinin sintezindən yaratdığı kilsə təlimi - "tomizm" (lat. *Thomism*) 4 avqust 1879-cu il tarixində Roma papsı XIII Lev (lat. *Leo PP.XIII*, dünyəvi adı *Vincenzo Pecci* -1878-1903) tərəfindən imzalanmış "Aeterni Patris" ensiklikası (lat. *encyclica* - dairəvi - əsas papa sənədi) ilə katolisizm doktrinası elan olundu. Tomizmin bütün müddəaları Akvinalı Fomanın "İlahiyyatın Külliyyatı" (lat. *Summa Theologiae*) adlı kitabında mükəmməl şəkildə təfsil olunmuşdur [38].

1453-cü il tarixində osmanlılar Konstantinopolu fəth etdikdən sonra pravoslavlığın əsas mərkəzi tədricən Rusiyaya keçdi. Bu gün pravoslav xristianlığının ən nüfuzlu mərkəzləri Rusiyada (Moskva və Bütün Rusiya Patriarxatlığı), Ukraynada (Kiyev və Bütün Ukrayna Patriarxatlığı), İstanbulda (Konstantinopol-Stanbul Patriarxatlığı), Yunanıstanda (Ellada Pravoslav Kilsəsi), Serbiyada (Serbiya Pravoslav Kilsəsi), Moldovada (Moldova Pravoslav Kilsəsi), Rumıniyada (Rumıniya Pravoslav Kilsəsi) və Gürcüstanda (Gürcüstan Pravoslav Kilsəsi) yerləşir. Bütün Pravoslav patriarxları adətən yepiskoplar tərəfindən ömürlük olaraq seçilir. Katolik kilsəsinin rəhbəri (papa) isə Romada, müstəqil ərazi sayılan Vatikanda yerləşir. Papaların seçimi kardinalların "konklav" (lat. *conclave* - açarla bağlı otaq) adlanan xüsusi yığıncaqlarında həyata keçirilir. Papalar da

pravoslav patriarxları kimi bu vəzifəyə ömürlük seçilirlər. Hər iki dini konfessiya müasir dünyada baş verən hadisələrə həlledici təsir göstərir.



**İslam.** Müasir dünya əhalisinin, xristianlardan sonra ən çoxsaylı hissəsini (təqribən 1 milyard 800 milyon nəfər) islam dininin mənsubları - müsəlmanlar təşkil edir. 610-cu ildə Məkkə sakini Məhəmməd ibn Abdullah (Məhəmməd Rəsülullah (s.s.s) - 570 - 632) tərəfindən yaradılmış islam dini dünyəvi dinlərdən ən gəncidir. Ərəb etnosunun dərin mənəvi böhran keçirdiyi bir dövrdə, islam təqviminə görə (ərəb. *Hicri-Qəməri* - təqvim 16 iyul 622-ci il tarixindən, yəni Məhəmməd peyğəmbərin Məkkədən Mədinəyə köçməsi (hicrət) hadisəsindən sonra başlayır) Ramazan (9-cu ay - "*ramazan*" sözünün ərəbcədən tərcüməsi "*yandıran isti*" deməkdir - ərəb. "*ramda*", yaxud "*ramidə əs-saim*") ayında (Hicri-Qəməri təqvimində 12 ay vardır: 1. Məhərrəm. 2. Səfər. 3. Rəbiüləvvəl. 4. Rəbiülaxır. 5. Cəmadüiləvvəl. 6. Cəmadiülaxır. 7. Rəcəb. 8. Şaban. 9. Ramazan. 10. Şəvval. 11.Zilqədə. 12. Zilhiccə.) transendent tanrı avazının insana bəyan olmasının nəticəsi kimi meydana gəlmişdir. Ortodoksal islam dini mütləq şəkildə müqəddəs kəlamlar toplusuna - Qurani-Kərimə əsaslanır. Ərəb dilindən tərcümədə "Quran" sözünün mənası "oxu", "qiraət et" deməkdir. Müqəddəs kitabın adı onun sətirlərində ifadə olunan müqəddəs kəlamları oxumağa çağırır və tanrı həqiqətlərini öyrənməyi tövsiyə edir. Qurani-Kərim ilk dəfə 650-ci ildə Zeyd İbn Sabit (615-665) tərəfindən kitab halına salınmışdır [39]. İslamiyyətin bütün müddəaları Quranın 114 surədən, 6236 ayədən və 323 min hərfdən ibarət olan möhtəşəm ilahi məzmununda təfsil olunmuşdur. Quranın ilk surələri isə 610-cu ildə tanrının dörd mələyindən (Cəbrayıl, Mikayıl, Əzrayıl, İsrafil) biri olan Cəbrayılın vasitəsi ilə vəhylər şəklində Məhəmməd rəsululluha (salavatullah) müqəddəs Ramazan ayında, Qədir gecəsində, Cəbəl ən-Nur dağında, Hira mağarasında çatdırılmış və onun diktəsi ilə yazıya köçürülmüşdür. Ümumiyyətlə isə Quran Məhəmməd peyğəmbərə Cəbrayıl tərəfindən 23 il ərzində ötürülmüşdü. İlk vəhyləri qəbul etdiyi zaman peyğəmbərin (salavatullah) 40 yaşı var idi [40]. İslam ideologiyasına görə "Qurani-Kərim Allahın bəşəriyyət üçün göndərdiyi və fövqəlqüdrətin əsl səmavi ədalətini, mütləq rəhbərliyini nəzərdə tutan sonuncu müqəddəs kəlamdır" [41]. Qurani-Kərimin ilahi qüdrəti ondan ibarətdir ki, o, özündən əvvəl gələn bütün müqəddəs tanrı kəlamlarının - İbrahim (Avraham) peyğəmbərdən gələn yazıların, Tövratın, Zəburun,

İncilin tanrı həqiqəti olamalarını tanıdı və bununla da özünün sonuncu və ən mükəmməl "ilahi qanunvericilik" olduğunu təsdiq etdi.

İslam təlimində qeyd olunur ki, Allah insanlara peyğəmbərlər və rəsulüllahlar vasitəsi ilə 100 müqəddəs yazı (ərəb. *sühuf*) göndərmişdir. Onlardan 29-u Adəmə, 21-i Sif (Şis) peyğəmbərə, 30-u İdris peyğəmbərə (Yenox), 10-u İbrahim (Avraam) peyğəmbərə, 10-u isə Musa (Movses) peyğəmbərə göndərilmişdir [42].

Qurani-Kərimin səmavi din olmasını peyğəmbərin (salavatullah) 619-cu ildə etdiyi İsra (ərəb.*"Gecə səyahəti"*) səfəri - Cəbrayıl tərəfindən bir göz qırpımında "Burak" (ərəb.*"İldırımsürətli, İşıqsaçan"*) adlı şüurlu canlının üzərində Yərusəlimə aparılması, burada İbrahim, Musa və İsa kimi peyğəmbərlərlə görüşü və Mirac (ərəb.*"Göylərə qalxmaq"*) səfəri - peyğəmbərin Cəbrayılla birlikdə tanrının dərgahına getməsi təsdiq edir. Peyğəmbərin (salavatullah) Mirac səfəri haqqında Qurani-Kərimin **53-cü Ən-Nəcm surəsinin 6-18-ci ayələrində** geniş məlumat verilir [43]. Bu hadisələrin əsl həqiqət olmasını isə müasir dövrümüzdə çoxlu sayda elmi faktlar - işıq sürəti, kosmik sürət, şüurlu və naməlum obyektlərlə kontakt, teleportasiya və s. kimi elmi əsasları olan hadisələr sübut edir.

Bu gün inkişaf etmiş texnologiyalara rəğmən bir göz qırpımında, nəinki Məkkə ilə Qüds arasında, hətta bütün dünyanın ən ucqar nöqtələri arasında audi və video əlaqələr yaratmaq mümkündür. İnsan avazı isə çoxdandır ki, kosmosdan gəlir. Bu templərlə yaxın gələcəkdə insanın bir məkandan digər məkana teleportasiyası da (yun. *tele* - uzaq, lat. *portare* - daşımaq - obyektlərin koordinatlarının sirli şəkildə dəyişməsi haqqında fərziyyə və ya ehtimal. Termin ilk dəfə 1931-ci ildə naməlum obyektləri öyrənən ABŞ tədqiqatçısı Çarlz Hoy Fort (ing. *Charles Hoy Fort* - 1874-1932) tərəfindən elmi dövriyyəyə daxil edilmişdi) mümkün olacaq [44]. Bu isə vahid tanrı qüdrətinin və səxavətinin növbəti təzahürü kimi ortaya çıxacaq.

İsra səfərində Məhəmməd peyğəmbərin sinəsinin açılaraq, ürəyinin yuyulması səhnəsi, xüsusilə möcüzəli hadisədir. O, tanrı ruhunun Böyük peyğəmbərlərin əli ilə sonuncu peyğəmbərin qəlbinə qoyulması və adi insanın allahın işığı ilə nurlanması, ona nöbüvvət (peyğəmbərlik) statusu verilməsi kimi möhtəşəm aktdır. Bu isə İbrahim peyğmbərin, Musanın və Buddanın nurlanması, İsanın məsh olunması kimi son dərəcə möhtəşəm hadisələrdən daha möhtəşəm hadisədir.

Digər dini təlimlərdə olduğu kimi, islam dini də özünü son dərəcə çətin mədəni və ideoloji şəraitdə, cəmiyyətin hər hansı yeniliyi süngü ilə qarşıladığı bir dövrdə təsdiq etmişdi. 630-cu il islam tarixində yeni ilahi

ideologiyanın təntənəsi ili hesab olunur. Məhz bu ildə islam əhli ilə onun opponentləri arasında münaqişə sülhlə bitmiş və "islamiyyətin müqəddəs qapılarına kütləvi axın" başlanmışdı. Məkkədə yerləşən və əsası İbrahim peyğəmbər tərəfindən qoyulmuş Kəbə məbədi isə (Kəbə ətrafında inşa olunmuş Məscid əl-Həramdan başqa, Mədinə şəhərindəki Peyğəmbər məscidi (622), Qüdsdə yerləşən Əl-Əqsa məscidi (705), Qaya Kümbəzi məscidi (ərəbcə *Məscid Qübbət əs-Səhra* - 687-691) və Ömər məscidi (1189) islamın müqəddəs yerləri hesab olunur) islamiyyətin müqəddəs ocağı, dini mərkəzi və bütün müsəlmanların qibləgahı elan olunmuşdu. Bundan sonra islam dininin bütün dünyada zəfər marşı başlanmışdı.

İslami monoteizm aşağıdakı əsas prinsiplərə əsaslanır: 1. Allahın təkliyinə inam (Tohid). 2. Allahın mələklərinə inam (Cəbrayıl, Əzrayıl, Mikayıl, İsrafil). 3. Allahın peyğəmbərlərinə inam (25 peyğəmbər). 4. Allahın göndərdiyi Müqəddəs (səmavi) kitablara inam (Tövrat, Zəbur, İncil, Quran). 5. Allahdan gələn qədərə (alın yazısı) inam. 6. Qiyamət gününə və axirətə inam.

İslam dini 1400 il ərzində, davamlı olaraq çox möhtəşəm beş sütun üzərində qərar tutur: 1. Tohid - "Allah təkdir və Məhəmməd peyğəmbər (salavatullah) onun rəsuludur" kimi səslənən, monoteizmi və Məhəmməd peyğəmbərin peyğəmbərlik missiyasını təsdiq edən inanc deklarasiyası, dini əhd (ərəb. *Əşhədu ən la ilahə illallah və əşhədu ənnə Mühəmmədin Rəsullullah*). 2. Gündəlik beşqat ibadət - namaz. 3. Müqəddəs Ramazan ayında pəhriz saxlamaq - oruc. 4. Yoxsulların, kimsəsizlərin və ehtiyacı olanların xeyirinə şəxsi əmlakdan, ümumi gəlirdən əta etmək - zəkat. 5. Müqəddəs silhiccə ayında islamiyyətin müqəddəs yerlərini, xüsusilə də Məscid-əl Həramı (Kəbə) ziyarət etmək - həcc.

Orta əsrlərdə yuxarıda göstərilən beş prinsipə "Cihad" (müqəddəs müharibə) adlanan altıncı bir qayda da əlavə olunurdu. Əslində, "cihad" anlayışının interpretasiyası təfəkkürdə tamamilə pozitiv, sülhməramlı və "insanın öz daxili ruhani və mənəvi durumu ilə savaşı kimi" təzahür edən mənzərə yaradır. Ərəbcədən tərcümədə "cihad" - "səy göstərmək, inanc uğrunda mübarizə aparmaq" deməkdir. Bizim təhtəlşüurumuzda yalnız kafirlərə qarşı müqəddəs müharibə kimi kök salmış cihad, əslində beş mütərəqqi anlamda təzahür edir: 1. Ruhani cihad: tanrı həqiqətlərini dərk etmək yolunda özünü tərbiyə etmək, təkmilləşmək. 2. Qəlbin cihadı: öz ehtiraslarını cilovlamaq, onlara qarşı mübarizə aparmaq. 3. Dilin cihadı: cəmiyyət tərəfindən bəyənilən dəyərləri ifadə etmək, bəyənilməyəni isə inkar etmək. 4. Əlin cihadı: şəri, savaşı, cinayəti, nizamsızlığı dəf etmək, intizama cəlb etmək kimi tədbirlər görmək. 5. Hərb cihadı: cihadın vətəni

müdafiə qismində silahlı forması. Lakin təəssüf ki, bu gün islam idealını gözdən salan ekstremist və terrorçu təşkilatlar müdhiş əməllərinə bəraət qazandırmaq üçün üzdəniraq fəaliyyətlərini və mənasız canfəşanlıqlarını ideoloji cəhətdən cihad kimi əsaslandırırlar.

İslamiyyətə görə, peyğəmbərlər iki əsas kateqoriyaya bölünür: 1) nəbilər; 2) rəsullar. Quranda 25 peyğəmbərin adı çəkilir. Adəmə, Nuha, İbrahimə, Musaya, İsaya və Məhəmmədə (salavatullah) isə xüsusi diqqət və ehtiram ifadə olunur. Ümumiyyətlə, rəvayətə görə tanrı bəşəriyyəti mənəvi böhrandan qurtarmaq məqsədilə yer üzərinə 124 min peyğəmbər (nəbi) göndərmiş və bunlardan 300-ü rəsul olmuşdur.

İslamda da iudaizmdə və xristianlıqda olduğu kimi Qiyamət günü, Yalançı məsihə (*antixrist, Əl-Məsih əl-Dəccal*), cənnət və cəhənnəm, qədər və qəza haqqında ideyalar mövcuddur. İslamiyyətdə Quran və sünnə ilə təyin olunmuş qaydaların külliyyatı "şəriət" adlanır. Şəriətin fundamental əsaslarını isə müsəlman hüququ təşkil edir. İlk mərhələdə müsəlmanların bütün əməlləri "halal" və "haram" kimi iki kateqoriyaya bölünürdü. Lakin şəriət tamamilə formalaşdıqdan sonra, onlar beş əsas kateqoriyaya bölündü: 1. Fərd, yaxud vacib: edilməsi çox vacib hesab olunan hərəkətlər. 2. Müstəhhəb və ya sünnət: yerinə yetirilməsi vacib olmayan əməllər və hərəkətlər. 3. Mübah: yerinə yetirilməsi əsla nəzərdə tutulmayan, eyni zamanda ciddi şəkildə qadağan olunmayan hərəkətlər. 4. Məkruh: arzu olunmayan, yaxud qadağan olunan hərəkətlər. 5. Haram: ciddi şəkildə qadağan olunan hərəkətlər.

Yəhudaizm dini ideologiyası xristianlıq kimi, islamı da "ortodoksal iudaizmin daha təkmilləşdirilmiş reinkarnasiyası" hesab edir. Tanrının öz sirlərini bütün bəşəriyyətə mərhələ-mərhələ və mərtəbə-mərtəbə açması danılmaz bir faktdır və hər dəfə o, öz açılışlarına daha yüksək mahiyyət qatır. Bunun çoxlu sayda obyektiv və subyektiv səbəbləri vardır. Birinci səbəb iudaizmin yüksək təşəkküllü monoteist mahiyyətinə baxmayaraq, yalnız bir xalqın, yəni yəhudilərin dini olması və etnik sərhədləri aşaraq, başqa xalqları öz arealına ala bilməməsi, "dinin qapılarını açıq qoysa da, qeyri-yəhudilər dünyasına pəncərə açmaması" ilə bağlıdır. İkinci səbəb xristianlığın liberal-demokratik bir əqidə olmasına baxmayaraq, barbarlıq dövrü yaşayan xalqlar üçün cazibə obyekti olmamasından irəli gəlirdi. Xristianlıqda ifadə olunan "tanrı oğlu" ideyası çağdaş mifoloji təfəkkür üçün əsla real görünmürdü. Müqəddəslər kultuna sitayiş özəl bütləri olan icmaların mənsublarında qısqanclıq və hətta düşmənçilik hissi yaradırdı. Beləliklə, xristianlığın islamiyyətə qədər artıq altı əsr mövcud olmasına baxmayaraq, "Minillik sülh, ədalət və qardaşlıq çarlığından" bir xəbər

yox idi. “Tanrı oğlu” isə həmişəki kimi “dərin mənəvi böhran keçirən bəşəriyyətə zühur etmək fikrində deyildi”. Üçüncü səbəb isə qardaşlıq, həmrəylik, sülh dini qismində yaranmış xristianlıq ideyasının, dünyanın qüdrət mənsublarının əlində əsl istibdad və istismar alətinə çevrilməsi və bu vəziyyətin onun ilahi mahiyyətinə xələl gətirməsi ilə bağlı idi.

Beləliklə, insanları ümumbəşəri dəyərlər, yüksək təşəkküllü əxlaqi keyfiyyətlərlə silahlandırıb həqiqətə aparmaq məsələsi əvvəlki kimi açıq qalırdı. Belə bir şəraitdə ixlas yolu kimi tanrı insanlara yeni bir ilahi töhfə - islami dəyərləri göndərdi. E. 610-cu ildə təşəkkül tapmış islamın bəşəriyyətə çatdırılması, əvvəlki dini təlimlərdən fərqli olaraq, insanla tanrı arasında mələk vasitəsi ilə audio-vizual (vəhylər və mələk zühuru) əlaqələrin nəticəsi kimi təzahür etmişdi. Bu əlaqənin ilahi cizgiləri isə islamiyyətin müqəddəs kitabı olan Qurani-Kərimin hər bir hərfində, hər sözündə və hər kəlməsində canlı olaraq həkk olunmuşdur.

Qurani-Kərimin mütləq şəkildə Allah kəlamlarının ifadəsi olmasını tam sübut edən çoxlu sayda güclü arqumentlər və faktlar vardır. Məsələn, Məhəmməd peyğəmbərin (salavatullah) adi bir tacir kimi yazısı-oxusu, eləcə xüsusi analitik hazırlığı olmadığı halda, tarixdə misli görünməmiş ideyaları tərənnüm etməsi, onları yüksək təşəkküllü üslubda diktə etməsi. 1400 il keçməsinə baxmayaraq, hər bir tarixi dövrün insanının qüdrətli Allah haqqında təsəvvürlərini tam ifadə etməsi, hər yeni dövrdə cazibə qüvvəsini daha da çox artırması. Cəmiyyət, kainat və kəhkəşan haqqında sirlərin ilahi kəlamların alleqorik örtüyü altından çıxaraq bir-bir həqiqətə çevrilməsi. İlahi həqiqətlərin sivilizasiya tarixi yaşayan xalqlara deyil, mədəni inkişafın aşağı mərhələsində qərar tutmuş xalqa - ərəb etnosuna açılması və s.

## 4.3. Dünyəvi dinlərdə vəhdaniyyət ideyası, təriqətçilik və bütpərəstlik meylləri (ing. *In the world religions the idea of unity. Sectarianism and idolatry*)




Monoteist dini təlimlərin tədqiq edilməsi nəticəsində məlum olur ki, insanlar tanrının təkliyinə nə qədər çox inansalar belə, zaman-zaman onların ruhani hərəkətlərində ibtidai dinlərin xassələri ifadə olunur və bu təbiidir. Beləki, insan əsl vəhdaniyyət ideyasına qovuşana qədər milyon illər ərzində ibtidai ideyaların daşıyıcısı olmuş və

bu ideyalar onun genetik kodunda dərin kök salmışdır. Peyğəmbərlərin odda yandırılması, çarmıxa çəkilməsi və hicrət etməsi də məhz bu ibtidai təsəvvürlərin instinktiv təzahürünün və mütərəqqi ideyaları "üzvi şəkildə əsla həzm edə bilməməsinin" nəticəsidir. Beləliklə, bütün monoteist dini təlimlərin təşəkkülündən və kifayət qədər davamlı kök salmasından sonra belə, ilk səmavi ideyalarla yer həyatını əks etdirən inancların sintezindən, yaxud toqquşmalarından təriqətçilik və sektantçılıq elementləri meydana gəlmişdir.

Hipotetik olsa da, təriqətçiliyin, yaxud sektantçılığın təşəkkülündə "Adəmin tanrıya xəyanətinin genetik kodlarda özünü daim ifadə etməsi" fərziyyəsi olduqca cazibədar görünür. Cənnətməkanda "şər substansiya" tərəfindən insanın genetik koduna zay elementlərin qatılması tezliklə özünü xəyanət və qiyam şəklində büruzə vermişdi və bu antiteizmin əks-sədası hələ də insanı həqiqət yolundan azdıran ən başlıca amil kimi öz dağıdıcı qüvvəsini itirməmişdir.

Alimlər sübut etmişlər ki, Allahın insanı palçıqdan yaratması təkcə dini deyil, həm də elmi faktdır. Fiziki-kimyəvi analiz nəticəsində məlum olur ki, insan vücudunda mövcud olan bütün üzvi elementlər, həmçinin neqativ və yad elementlər, palçıqda da var. İnsanın tanrı yaradıcılığının ən mükəmməl subyekti olması ideyası ilə əlaqədar ilahiyyatçılar iddia edirlər ki, "şər substansiya" zay və yad elementləri "insan materialı hələ xammal şəklində, torpaq halında olanda ona qatmışdır". Bu səbəbdən asikarlıq, küfr, sektantçılıq, təriqətçilik, ruhani tərəddüd, ayırımçılıq kimi dezinteqrativ və dağıdıcı ünsürlərin kökünün cəmiyyətdə deyil, səmavi substansiyada olması faktı ortaya çıxır.

İbrani dinlərdə ilk parçalanma və təriqətçilik meylləri e.ə. II əsrin ortalarında Yəhudi hakimləri Hasmoneylərin (ivrit.*Xaşimonaim*), yaxud Makkoveylərin (aram.*Makkaba* - çəkic) dövründə yaranmışdı. Bu farisey (ivrit. *fariş* - ayrılmaq), saddukey (ivrit. *sadok* -"balıq toru" sözündən yaranmışdır), yessey (kumranitlər) dini-fəlsəfi məktəblərinin yaranması idi. Hər üç məktəb Musa peyğəmbərdən gələn müqəddəs kitaba (Tövrat, yaxud Bibliya) müxtəlif cür münasibətləri, insan həyatının qəzadan və qədərdən asılı olub-olmaması kimi məsələlərə yanaşmaları və müqəddəs çağırışların fərqli interpretasiyası ilə seçilirdilər. Bu, parlaq şəkildə ifadə olunan sxizma (parçalanma) effekti verməsə də, açıq-aşkar təriqətçilik, yaxud sektantçılıq kimi təzahür edirdi [45].

Monoteizmin uzun tarixində növbəti parçalanma eramızın I əsrinin əvvəlində, xristianlığın meydana gəlməsi və yeni dini təlimin ortodoksal yəhudulikdən ayrılması ilə baş verdi. Xristianlıq iudaizmdə tərənnüm

olunan məlum "məsihə ideyasının" real təzahürü elan olunsa da, mövcud cəmiyyətdə gözlənilən hüquqi sanksiyasını ala bilmədi, rəsmi şəkildə bidətçilik və təriqətçilik dini elan olundu. Xristianlıq özünü təsdiq etmək üçün 33-cü ildən 313-cü ilədək "tanrı oğlunun, onun sadiq həvarilərinin edamından tutmuş, antixristin əsl canlı təcəssümləri olan Neron Qeysər başda olmaqla xristianlara divan tutmuş Roma hökmdarlarının minlərlə mömini tonqallarda yandırmalarına qədər çətin və əzablı yol keçməli oldu" [46]. Lakin xristianlığın təntənəsi ilə təriqətçilik və sektantçılıq tendensiyası başa çatmadı, əksinə yeni mərhələyə çıxdı və burada siyasi faktor bütün digər dəyərləri üstələməyə başladı.

1054-cü ildə monoteizmi tərənnüm edən isavilik təlimində birinci böyük sxizma (parçalanma) baş verdi (1-ci Böyük sxizma). Roma papası IX Levin (lat. *Leo PP IX*-1049-1054) göndərdiyi elçi (ital. *leqat* - Siciliya arxiyepiskopu, kardinal Humbert Kandidskiy) Konstantinopol patriarxı Mixail Kerullarini (1043-1058) Müqəddəs Sofiya kilsəsində (indiki Aya Sofya məscidi) lənətlədi. Patriarx da öz növbəsində Vatikan rəhbərinə anafema elan etdi.

Beləliklə, Ümumdünya Xristian Kilsəsi Qərb Katolik (Roma) və Şərq Katolik (Konstantinopol), yaxud pravoslav kilsələrinə bölündü [47]. 1204-cü ildə IV Səlib yürüşləri (1202-1204) zamanı katolik cəngavərləri tərəfindən Konstantinopolun işğalından və onun yerində Latın imperiyası (1204-1261) yaradılmasından sonra dünya kilsələri arasında münasibətlər daha da gərginləşdi. 1965-ci ildə isə Roma papası VI Pavel (dünyəvi adı *Covanni Montini*, 1963-1978-ci illər ərzində Roma papası olmuşdur) və Ümumdünya patriarxı Afinoqor (dünyəvi adı *Aristoklis Matfeos Spiru*, 1949-1972-ci illər ərzində Ümumdünya patriarxı olmuşdur) arasında əldə edilən tam razılıq və 9 əsr ərzində qüvvədə qalmış dini düşmənçiliyin aradan qaldırılması, bütün lənətlərin ləğvi haqqında deklarasiyanın qəbul edilməsi, nəinki möhtəşəm barışıq aktı, həmçinin vəhdaniyyətin bərpa edilməsi istiqamətində atılmış vacib bir addım idi [48]. Lakin bütün bu barışıq cəhdlərinə baxmayaraq, Ümumdünya Kilsəsi yaratmaq bu gün də mümkün olmamışdır.

Xristian kilsəsində növbəti parçalanma (2-ci Böyük Qərb sxizması) katolik kilsəsinin özünün daxilində baş verdi. Roma papası XI Qriqorinin (milliyətcə fransız olan 201-ci papanın dünyəvi adı *Pyer Roje de Bofor* (1370-1378) idi) vəfatından dərhal sonra, 1378-1417-ci illərdə katoliklər papanın Romalı ya İtalyalı olmasını israrla tələb etdilər. Beləliklə, papa taxt-tacına Roma və Avinyon (Fransanın cənub-şərq hissəsində şəhər) xətlərini dəstəkləyən papalar iddia etməyə başladılar. 1417-ci ildə isə V

Martinin (1417-1431) Roma papası seçilməsindən sonra parçalanma başa çatdı. Lakin baş vermiş çoxlu sayda siyasi proseslər Avropada və Şərqdə katolisizmin nüfuzuna güclü zərbə vurdu, növbəti sxizmalar (reformasiya və s.) üçün münbit şərait yaratdı. Düz bir əsrdən sonra - 1517-ci ildə katolisizmin çoxəsrlik sütunlarını "reformasiya" adlanan dini hərəkat sarsıtdı. Beləliklə, sözügedən dövrdə Qərbi və Mərkəzi Avropada katolik xristianlığının Bibliyaya uyğun olaraq dəyişdirilməsi ilə müşayiət olunan Reformasiyaya (lat. *reformatio* - dəyişdirmək, yaxud səhvi düzəltmək, çevirmək) Vatikan tərəfindən "bidət möhürü" vurulsa da, o, əslində, daha saf və həqiqi dini hisslərə və vicdan azadlığına qayıdış idi. Avropada Reformasiya 1517-ci ilin 31 oktyabr tarixinndə Vittenberq (Almaniya) universitetinin ilahiyyat doktoru Martin Lüterin (1483-1546) Vittenberq Qala kilsəsinin darvazaları qarşısında özünün yeni "95 tezisi" ilə Katolik kilsəsinin özbaşınalığına, xüsusilə də indulgensiyaya (lat. *indulgentia* - dözmək, icazə vermək) qarşı ilk çıxışı ilə başlandı [49]. Reformasiyanın sonu isə 1648-ci ildə Vestfal sülhünün bağlanması ilə başa çatdı və bu müqaviləyə görə din amilinin Avropa siyasətində həlledici (faktiki olaraq hegemon siyasi roluna) roluna son qoyuldu. Reformasiya nəticəsində Avropada və dünyada lüteranlığın (banisi Martin Lüter - 1483-1546), kalvinizmin (banisi Jan Kalvin-1509-1564), svinqliançılığın (banisi Ulrix Svinqli - 1484-1531) və özəl anqlikan kilsəsinin (Reformasiya dövründə B.Britaniya kraliçası I Yelizavetanın (1558-1603) hakimiyyət illərində Roma katolik kilsəsindən ayrılmışdı) simasında rəsmi katolik kilsəsinə müxalifətdə olan protestant hərəkatı və kilsələri yarandı.

Reformasiya dövründə xristianlıqda yaranmış bidətçi hərəkatlardan biri də anabaptizm (yun. *ana* - yenidən, *baptio* - xaç suyuna salmaq) idi. Anabaptistlər iddia edirdilər ki, insanı körpə vaxtı xaç suyuna salmaq və istəyi olmadan ona xristianlıq statusu vermək səhvdir. Xristian olmaq möhtəşəm hadisədir, odur ki, insan özünü bu ruhani prosesə həsr etmək üçün, mütləq müəyyən, şüurlu bir yaş həddinə çatmalı və konkret idraki keyfiyyətlərə malik olmalıdır [50].

Reformasiya şəraitində katolik kilsəsinin nüfuzuna sarsıdıcı zərbə vurmuş, dini birliyi sarsıtmış hadisələrdən biri də gizli "kontrreformasiya təşkilatlarının" yaradılması idi. Bu təşkilatlardan hələ1640-cı ildə İqnatiy Loyola (1491-1556) tərəfindən yaradılmış "İisus cəmiyyəti" (lat. *Sicietas Jesu*), yaxud "İezuitlər cəmiyyəti" adlanan gizli qurum özünün radikal fəaliyyəti ilə məşhurlaşmışdı. İezuitlər katolik kilsəsinə müxalifətdə olan sıravi insanlardan tutmuş, hökmdarlara qədər hər bir kəsi "İisusun adına" məhv etməyə hazır idilər. İezuit partiyası Avropa monarxlarının təkidi ilə

papa XIV Kliment (1769-1774) tərəfindən 1773-cü ildə ləğv edilmiş və 1814-cü ildə yenidən bərpa edilmişdi [51].

Bu gün isə xristianlıqda yüzlərlə müxtəlif təriqətlər, hərəkatlar və sektalar mövcuddur ki, onlar bu və ya digər formada dini müxtəlifliyin, plüralizmin və multikulturalizmin təzahürü olsalar da, monoteizmin əsas doktrinası olan əsl vəhdaniyyətin sonsuz ideyalara parçalanmasına səbəb olurlar. Bütün monoteist dinlər isə ifrat ideya çoxluğunu təqdir etmir və onu bəşəri birlik üçün ən təhlükəli amil hesab edirlər. Onlar iddia edirlər ki, "qaynaşan mənasız ideyalar, qaynaşan və heç bir səmərə gətirməyən ontoloji müxtəlifliklər qədər təhlükəlidir".




**İslamda təriqətçilik** (ing. *Currents in islam*). Danılmaz faktdır ki, din insanların birliyinin təmin edilməsində müstəsna rol oynayır. Lakin bu birlik, bir qayda olaraq, konfessiyalarla, cərəyanlarla, təriqətlərlə, sektalarla məhdudlaşır və müxtəlif əqidə sahibləri arasında aşkar müxtəliflik, hətta özgəlik və təəssüf ki, düşmənçilik və münaqişələr yaradır.

Qeyd etmək lazımdır ki, çağdaş bəşəriyyətin davamlı inkişafını, parlaq gələcəyini kifayət qədər layiqli şəkildə təmin etmək üçün həyata keçirilməsi son dərəcə vacib olan vəzifələrdən biri də dinlər arasında mütləq barışığı təmin etməkdir. Bütün dünyəvi dinlərdə və əqidələrdə olduğu kimi islam dinində də təriqətçilik, sektantçılıq, hətta bütpərəstlik meyllərinin davamlı təzahürü istisna hal deyil. Məhəmməd peyğəmbər (salavatullah) vəfat edərkən, məsciddə toplaşmış təbəələrə, xələflərinə və əshabələrinə sonuncu müraciətində belə demişdi: "Sizə vəsiyyət edirəm! Məndən sonra əsla yolunuzu azmayın, hakimiyyət uğrunda bir-birinizə heç vaxt silah qaldırmayın! Həmrəy olun, həmrəyliyin qədrini bilin! Bu sözlərimi bütün islam əhlinə çatdırın!" Bundan sonra peyğəmbər daha iki dəfə əshabələrindən soruşur: "Mənim sözlərimi anladınızmı?".

Tarixin ən möhtəşəm şəxsiyyətlərindən biri olan Məhəmməd ibn Abdullahı (Məhəmməd salavatullah), ilk növbədə, peyğəmbər kimi islam əhlinin əxlaqı, islamın gələcəyi, dövlət başçısı kimi isə müsəlmanların mütləq birliyi,həmrəyliyi və onların rifah halı düşündürürdü. Məhəmməd peyğəmbərin tanrı vəhylərindən güc almış dühasının qüdrəti VII əsrdən bu günə qədər baş vermiş və bundan sonra baş verəcək sosial-iqtisadi, əxlaqi-mədəni və etnik-siyasi xarakterli hər hansı hadisəni əvvəlcədən görmək və təhlil etmək bacarığında idi. O, daim siyasi hakimiyyətə can atan insan xarakterinin özəlliklərini mükəmməl bilirdi və tam yəqin

etmişdi ki, bütün müqəddəs çağırışlara baxmayaraq, insana xas eqoizm mövcud qadağaları və əxlaqi-mənəvi sərhədləri aşaraq, hakimiyyətə can atacaq və bu yolda heç bir üsuldan və vasitədən çəkinməyəcək.

Doğrudan da Məhəmməd peyğəmbərdən sonra, islam dünyasında əsas motivlərini hakimiyyət uğrunda mübarizə təşkil edən, islami birliyin (ümmə) və həmrəyliyin əsaslarını sarsıdan teokratik hakimiyyət bərqərar oldu. İslam icmasında ilk ideoloji qarşıdurmaların yaranmasına qədər bütün mövcud qəbilələr, nəsillər ümumi ad altında "ümmə" (icma) kimi tanınırdı. Quranda bu sözə düz 60 dəfə rast gəlinir. Mədinə surələrində müsəlmanların və yəhudilərin daxil olduqları yeni Mədinə icması ümmə adlanırdı. Bu birliklər asılılıq və himayədarlıq prinsiplərinə əsaslanırdı. VII əsr ərzində müsəlman icması dedikdə müsəlmanların yaşadığı ərazi "dar əl-islam" ("islam ərazisi" deməkdir) başa düşülürdü [52].

661-ci ildə 4-cü Salehi-Rəşidi xəlifəsi Əli ibn Əbutalibin (656-661) xariciyunlar partiyasının mənsubu Əbdürrəhman ibn-Mülcəm tərəfindən Kufədə qətlə yetirilməsindən sonra, islamda ilk böyük parçalanma baş verdi. İslam iki cərəyan üzrə, sünnilik və şiəlik məzhəblərinə bölünərək inkişaf etməyə başladı. 680-ci il oktyabrın 10-da isə baş vermiş Kərbəla müsibəti, Məhəmməd peyğəmbərin nəvəsi Hüseyn ibn Əlinin (626-680) və əshabələrinin Əməvi xəlifəsi Yezid ibn Muaviyyənin (680-683) əmri ilə Kufə hakimi əmir Ubeydullah ibn Ziyad Abihinin (652-683) ordusu tərəfindən amansızlıqla qətlə yetirilməsindən sonra İslam dünyasında baş verən parçalanma daha da dərinləşdi.

İslamiyyətdə mövcud olan ən böyük cərəyan sünnilikdir (ərəb.*"əhl sünnə vəl camaat"*, yəni sünnə əhli və icmanın həmrəyliyi). Sünniliyin tərəfdarları Qurani-Kərimlə yanaşı hədisləri də (sünnə) imanın əsas şərti kimi qəbul edirlər [53]. Ərəbcədən "hədis" sözü "yeni söhbət", "nəsihət", "hadisə" kimi mənaları ifadə edir. Hədislər Məhəmməd peyğəmbərin (salavatullah) sözləri, dərsləri, hərəkətləri, həyat tərzi haqqında hekayələr toplusudur və onlar müsəlman icmasının ənənəvi dini-hüquqi həyatının müxtəlif tərəflərini əks etdirir.

İslamda müxtəlif dünyagörüşlərini ifadə edən təriqətlərlə yanaşı hüquqi məktəblər, yəni məzhəblər də yaranmışdır. Bunların içərisində 4 əsas sünni məzhəbləri xüsusi əhəmiyyət kəsb edir: 1. Hənəfilik - banisi İmam Əbu Hənifədir (700-767). 2. Malikilik - banisi Malik ibn Anasdır (713-795). 3. Şafiilik - banisi Məhəmməd ibn İdris əş-Şafiidir (767-820). 4. Hənbəlilik - banisi Əhməd ibn Hənbəldir (780-855) [54]. Hənəfi məzhəbinə görə, sünnə islam hüququnun ikinci mənbəyidir. Əsas mənbə isə Qurandır. Maliki məzhəbinə görə, əsl sünnə Məhəmməd peyğəmbərin

dərslərinə, davranış və əməllərinə, kəlamlarına və hərəkətlərinə, onun ali insani keyfiyyətlərinə, həmçinin onun xələflərinin hüquqi göstərişlərinə (fətvalar) və mədinəlilərin əxlaqi əməllərinə əsaslanmalıdır. Hənbəlizmə gəldikdə, o, dini təlimdə və dini hüquqda hər hansı yeniliyə qarşı çıxır. Hənbəliliyin bütün müddəaları "inancın rəmzləri" kimi təzahür edən "akidalarda" (ərəb. *akaid* - inandırmaq) geniş şərh olunmuşdur. İsrarlı konservatorlar olan hənbəli tərəfdarları kəlamın rasionalist ideyalarının təfsirini və geniş yayılmasını islam birliyinin dağılması və vəhdaniyyət ideyalarının sarsılmasına aparan böyük təhlükə hesab edirdilər [55].

Şafii məzhəbi isə hənəfi və maliki məzhəblərinin tam təsiri altında yarandığına görə, özündə onların fundamental prinsiplərini əks etdirir. Tədricən dörd əsas məzhəbin içərisindən 73 müxtəlif təriqət çıxmışdır. Bunların içərisində sufilik, sələfilik, vəhhabilik, mötəzillilik (ayrılmışlar) və s. təriqətlər xüsusilə geniş yayılmışdır.

Bu gün Yer kürəsində yaşayan bütün islam əhlinin 90%-ni sünni müsəlmanlar, 10%-ni isə şiə müsəlmanlar təşkil edir. Şiə müxalifəti ilk dəfə xilafət dövründə müsəlman icmasına rəhbərlik məsələsi və "əmir əl-möminin" statusuna sahib olmaqla əlaqədar mübarizə şəraitində meydana gəlmişdi.

O dövrdə bütün şiələr israrla iddia edirdilər ki, müsəlman icmasının başçısı mütləq Əlinin nəslindən olan şəxs, yəni Məhəmməd peyğəmbərin əsl qan qohumu olmalıdır. Sünnilər isə dövlət başçısının digər nəsillərin nümayəndələri içərisindən, demokratik yolla seçilməsini tələb edirdilər. Belə şəraitdə Əli ibn Əbutalib qarşıdurmanın və parçalanmanın qarşısını almaq üçün liberal mövqe tuturdu. Buna görə də şiə partiyasından 12 min nəfər ayrılaraq, İrana getmişdilər və özlərini "xariciyunlar" (yəni köçüb gedənlər) adlandırmışdılar. Bu məlum hadisə 657-ci ildə xəlifə Əli ibn Əbutalib ilə Suriya hakimi Müaviyyə ibn Əbu Süfyan arasında olmuş Siffin (Suriya) döyüşündən sonra baş vermişdi. Bu gün İran şiələrinin əksəriyyəti xariciyunların davamçılarıdır [56].

Sünnilər əsas nüfuz obyekti kimi yalnız peyğəmbəri qəbul etdikləri halda, şiələr həm peyğəmbəri, həm də onun kürəkəni və əmisi oğlu, 4-cü Salehi-Rəşidi (əməli-saleh, müqəddəs) xəlifəsi Əli ibn Əbutalibi (656-661) və onun nəslindən olan digər şəxsləri də (imamət) müqəddəs nüfuz sahibləri hesab edirlər. Şiələr məsihə ideyasına (mehdilik) inanırlar və hesab edirlər ki, "qayib şiə imamı" (12-ci şiə imamı Mehdi Məhəmməd Sahibüzzaman, yaxud Məhəmməd (Hücət) ibn əl-Həsən əl-Məhdi - (869-874) - 874-cü ildə qeyb olmuşdur) qayıdacaq və yer üzərində sülh, ədalət və qardaşlıq məmləkəti yaradacaqdır [57]. Bu gün Azərbaycan, Bəhreyn,

İraq, İran, Livan və Yəmən şiələrin mütləq çoxluq təşkil etdiyi ölkələrdir. Cəfərilər, babilər, ismaillilər, xariciyunlar, ələvilər, əliallahilər, druzlar, qərmətilər, zeydilər (cəmi 44 məzhəb, təriqət və sekta) və başq. şiəlikdə çoxluq təşkil edirlər.

Müasir dövrdə çoxlu sayda müxtəlif cərəyanlarla və istiqamətlərlə təmsil olunan islam dini ideologiyasının qarşısında duran ən ümdə vəzifə monoteist ideyalar altında bütün islam əhlinin birliyini və həmrəyliyini təmin etməkdir. Bunun üçün islam ideologiyası mütləq şəkildə islami həmrəyliyə nail olmaq kimi bəşəri bir vəzifənin yerinə yetirilməsində bütün təsadüflərdən, cılız hisslərdən tam azad olmuş, mütərəqqi düşünən kamil insanı, ibadəti, təlimi, zəkası harmoniya təşkil edən, yüksək əxlaqi-mədəni dəyərlərin daşıyıcısı olan mükəmməl şəxsiyyəti ön plana çəkir. Yalnız kamil insan kamil insanla həmrəy ola və tanrı məqamına yüksələ bilər. Kamil insan dünya sirlərinə sahib olandan sonra, onu öz xeyirinə və bütün bəşəriyyətə xidmət etmək üçün dəyişdirməyə qadirdir. Yalnız kainatın sirlərini öyrənməyə can atan, fanatizmdən tamamilə uzaq olan, mütləq şəkildə pozitiv düşünən əsl insan, sülh yaratmağa, mərhəmətli olmağa, digər fərdin varlığına hörmət və ehtiramla yanaşmağa qadirdir. Məhz dünyanın sirlərini açmağa can atan insan ruhu ən ali və mükəmməl potensiyadır və belə bir potensiya tanrının yaratdıqlarına yüksək hörmət, məhəbbət və dözümlülüklə yanaşa, ətrafında həmrəylik mühiti yarada bilər.

## 4.4. Konfessiyalararası münasibətlərin tarixi və tolerantlıq amili (ing. *History of inter-confessional relations and the factor of tolerance*)



Latın dilindən tərcümədə "confessio" sözünün mənası "dini etiqad" deməkdir. Adəti üzrə "konfessiya" termini konkret götürülmüş dinlər çərçivəsində ayrı-ayrı istiqamətlərin məzmunlarnı ifadə etmək üçün işlədilir. Lakin çağdaş dinşünaslıqda və elmi konfliktologiyada ayrı-ayrı dinlər, məzhəblər, sektalar və əqidələr arasındakı qarşılıqlı əlaqələri və münasibətləri də "konfessiyalararası münasibətlər" adlandırırlar. Müasir münaqişəli cəmiyyətdə bütün konfessiyalar konkret ideologiya, dindarlar qrupu və ruhanilərlə təmsil olunurlar. Multimədəni etnik-konfessional birliklərin daha da davamlı olması və təbii əlamətlərə söykənməsi, qəti olaraq konfessiyalararası münasibətlərin keyfiyyətindən

asılıdır. Konfessiyalararası münasibətlərin keyfiyyəti isə bilavasitə "dini inancların" hansı səviyyədə tərənnüm olunması, fərqli din mənsublarının intellektual, mədəni və psixoloji durumu, onların bəşəri ruhunun tolerant və humanist məzmunu, nəhayət ruhani fərdin tanrıya olan sevgisinin həqiqi təzahürü ilə müəyyən olunur. Konfessiyalararası münasibətlərin gizli, yaxud aşkar şəkildə gərgin olduğu etnik birliklərdə daim potensial, yaxud real münaqişə təhlükəsi mövcuddur. Belə münaqişələrin güc yolu ilə aradan qaldırılması, yaxud operativ üsullarla dondurulması, bir qayda olaraq, ciddi pozitiv effekt vermir, tarixi şərait yetişən kimi "Pandoranın sandığı" açılır və bütün pisliklər ortaya çıxır. "İnsan ilahi məhəbbətini süngüyə çevirərək tanrı naminə deyil, öz şəxsi eqosu naminə, tanrının yaratdıqlarına qarşı ölüm-dirim mücadiləsinə başlayır". Nəticə isə təkcə fərdlərin sınmış qüruru və sarsılmış eqosu deyil, itkilər daha miqyaslı və faciəli olur: etnik-siyasi birliyin iflası, "bütün əqidə və məzhəblərin kor olması", bütöv milli dövlətlərin süqutu, məmləkətlərin isə xarabazarlığa çevrilməsi, həmçinin sonu görünməyən münaqişə. Belə situasiyalarda isə insana yalnız ümid qalır.

Dini inanc dini şüurun bir forması olub, müəyyən dövrün kanonik (yun.*"kanon"* - dəyişməz və ya konservativ, ənənəvi qanunlar, normalar və qaydalar toplusu) və etik (yun.*"etos"* - əxlaq, adətlər) təsəvvürlərinə əsaslanır, mifoloji, ekzistensial xarakter daşıyır, fərdin şəxsi dünyagörüşü kimi təzahür edir. Burada başlıca motiv kimi fövqəladə qüvvələrə inam, mənəvi-əxlaqi normalar, davranış tipləri, mərasimlər, kult hərəkətləri və insanların dini təşkilatlarda birliyi çıxış edir. İnanc sahibi, yaxud konkret dinin nümayəndəsi dünyanın spesifik dini modelinin daşıyıcısı kimi təmsil olunur.

Məşhur Britaniya filosofu Bertran Rassel (1872-1970) iddia edirdi ki, "inanc sübutun olmadığı şəraitdə möhkəm əqidədir" [58]. Lakin bir məqamı özəl olaraq vurğulamaq lazımdır ki, müasir nanotexnologiyalar dövründə, insan zəkasının atmosferin sərhədlərini aşaraq uzaq kosmosa aktiv nüfuz etdiyi və kainatın necə bir sonsuz məkan olduğunu öyrəndiyi şəraitdə tanrının varlığına heç bir sübut lazım deyil. Kainatın ölçüləri, onun daim heyrət doğuran harmoniyası, kəhkəşanın yüksək dəqiqliklə cərəyan edən hərəkəti və bu möhtəşəmliyin daim qüsursuz şəkildə idarə olunması, vahid, mükəmməl bir mexanizmin mövcudluğundan və onun "fövqəlqüdrətin" daimi nəzarəti altında olmasından xəbər verir.

Bu gün dünyada yəhudilik, xristianlıq, islam kimi ibrani dinlər və sintoizm, caynizm, buddizm, hinduizm kimi dharmi dinlər bəşəriyyətin dini inanclarını təyin edən aparıcı ideologiyalar qismində çıxış edirlər.

Bunlardan ilk üçü səmavi dinlər, digərləri qeyri-səmavi dini təlimlərdir. Buna baxmayaraq, adları çəkilən bütün dinlərin və ruhani əqidələrin əsasında spesifik dünyagörüşü və əxlaqi normalar durur. Onların hamısı ayrıca götürülmüş fərdi və bütövlükdə bəşəriyyəti tanrıya məhəbbətə, humanizmə, bəşəri və səmavi qaydalara tam əməl etməyə çağırır. Nəzəri cəhətdən ibrani dinlərin hər biri əsl dözümlülüyü, liberalizmi, tanrının yaratdığı hər bir Adəm övladına məhəbbəti və mərhəməti təbliğ etsə də, əsrlərlə baş verən konfessiyalararası münasibətləri tam sağlam təfəkkürə, müdrikliyə və tanrı iradəsinə (obyektiv volyuntarizm) əsaslanan məcraya yönəltmək mümkün olmamışdır. Dini barış konsepsiyası kifayət qədər effektli nəticələr də verməmişdir. Beləliklə, qədim tarixdən başlayaraq, konfessiyalararası münasibətlər dini zəmində münaqişə xarakteri almış və irimiqyaslı müharibələrə gətirib çıxarmışdır.

Konfessiyalararası və əqidələrarası gərginlikdən və intolerantlıqdan yaranan dini münaqişələr cəmiyyətin ruhani sferalarında formalaşır və dəyərlərin israrlı mübarizəsi kimi təzahür edir. O, sözügedən dəyərlərin daşıyıcıları arasında spesifik növ qarşıdurmalar kimi ifadə olunur. Bu qarşıdurmalar, eyni zamanda hərbi-siyasi xarakter kəsb edir. Məsələn, Makedoniyalı İsgəndərin Şərqə yürüşü (e.ə 336-323), əslində, politeist panellinizm sivilizasiyasının atəşpərəst əqidəli Əhəməni İranına qarşı məqsədyönlü ekspansiya missiyası idi. Əsas qayə isə sərvətlərə sahib olmaq arzusunun reallaşdırılmasından ibarət idi.

İslamiyyətin meydana gəlməsi və Bizans imperiyasının simasında xristian sivilizasiyasına qarşı müharibələr, 20 avqust 636-cı il tarixində Suriyada Yərmuk çayı vadisində "Seyfullah" ("Tanrı qılıncı") ləqəbli ərəb sərkərdəsi Xalid ibn Validin komandanlığı altında ərəb ordusunun Bizans sərkərdəsi Feodor Triforiusun ordusunu məğlub etməsi, 637-ci ildə Rəşidi xəlifəsi Ömər ibn Xəttab (634-644) tərəfindən Yərusəlimin fəth edilməsi və digər belə hadisələr müxtəlif din mənsublarının genetik kodunda və tarixi yaddaşında dini dözümsüzlük və ideoloji antaqonizm stereotipləri yaratmışdır [59]. Beləliklə, ibrani dinlər mütləq sülhə, əmin-amanlığa, kompromisə, barışığa çağırdığı halda, sivilizasiyalar mürtəce dini çağırışların qurbanına çevrilməyə başlamışdı.

1096-1270-ci illərdə baş vermiş məşhur Səlib, yaxud Xaç yürüşləri "Qüdsün (Yərusəlim) və İsa Məsihin tabutunun (Kuvukliya, yaxud Tanrı məzarı məbədi, 13 sentyabr 335-ci ildə Bizans imperatoru I Konstantinin (lat. *Flavius Valerius Aurelius Konstantinus* - (306-337) anası Yelena tərəfindən inşa etdirilmişdi) müsəlman-səlcuqlardan azad edilməsi" şüarı altında baş versə də, əslində bu dini-siyasi aksiyanın arxasında işğalçılıq

planları, yoxsullaşmış Avropa cəngavərlərinin Şərqin misli görünməmiş sərvətlərinə sahib olmaq kimi iddiaları dururdu. Səlib yürüşləri Avropa xristianlığının təhtəlşüurunda daim vacib ruhani element kimi kök salsa da, onun real layihəsi XI əsrin əvvəllərində hazırlanmışdı. 1009-cu ildə Misir Fatimi xəlifəsi Əl-Əziz Əl-Hakimin (996-1021) "Müqəddəs tabut məbədinin" (Kuvukliya) dağıdılması haqqında sərəncam verməsindən sonra (qeyd etmək lazımdır ki, həmin il məbəd tamamilə dağıdılmış və 1042-1048-ci illərdə Bizans imperatoru Konstantin Manomax (1042-1055) tərəfindən yenidən inşa etdirilmişdi) Roma papası IV Sergiy (lat. *Sergius PP IV,* dünyəvi adı *Pietro Martino Bossadiporco* - 1009-1012) intensiv şəkildə Səlib yürüşlərinin təbliğatına başladı [60]. Roma papası II Urban (lat. *Urbanus PP.II* - dünyəvi adı - *Odon de Chatillon de Lagery* - 1088-1099) isə tarixdə bu layihəni həyata keçirən kilsə başçısı kimi yadda qaldı. 1095-ci il noyabr ayının 26-da papa Klermonda (Mərkəzi Fransa) keçirilən II Klermon Kilsə Yığıncağında öz tarixi çıxışından və "Tanrı tabutunu kafir səlcuqlardan azad etmək" çağırışından sonra, bütün Avropa əhli silaha sarılaraq, Şərqə üz tutdu. 15 iyul 1099-cu il tarixində səlibçilərin Yərusəlimi tutması zamanı törətdikləri böyük qırğınları isə yalnız monqol zülmü ilə müqayisə etmək olar [61].

Xüsusi vurğulamaq vacibdir ki, Qərb ədəbiyyatında intolerantlığın canlı təcəssümü kimi qələmə verilən ikinci Salehi-Rəşidi xəlifəsi Ömər ibn Xəttab 637-ci ildə Qüdsü, Yərusəlim patriarxı, yepiskop Safronidən (634-638) təhvil alanda, həyata keçirdiyi ilk böyük tədbir, şəhərdə vicdan azadlığının elan edilməsi olmuşdu.

Onu da qeyd etmək lazımdır ki, tarixdə dini müharibələr təkcə ayrı-ayrı din mənsubları arasında baş vermirdi, o, həmçinin eyni dini təmsil edən müxtəlif məzhəblərin sahibləri, yaxud konfessiyalar arasında qanlı toqquşmalara səbəb olurdu. Məsələn, Fransada katoliklərlə protestantlar, və yaxud bidətçi quqenotlar - (fran. *eyguenot* - müttəfiq, silahdaş, Savoya hersoqunun əleyhdarları) arasında 1562-1598-ci illər ərzində baş vermiş müharibələr, bu gün də təfəkkürlərdə dəhşət yaradan Varfolomey gecəsi (1572-cil 23 avqust) kimi faciəli hadisələr. Sözügedən müharibələr isə protestantlıq uğrunda uzun illər mübarizə aparmış Henri Burbonun IV Henri (1589-1610) adı altında Fransa hökmdarı elan olunması, 1593-cü ildə katolikliyi qəbul etməsi və Fransa ərazisində dini dözümlülüyü rəsmi şəkildə elan etmiş "Nant edikti" (13 aprel 1598) ilə başa çatmışdı [62].

XVI-XVIII əsrlər ərzində Osmanlı imperiyasını təmsil edən sünni türklər və Səfəvi imperiyasını təmsil edən şiə türklər arasında yüz ildən artıq davam edən qəddar müharibələr də sırf konfessiyalararası münaqişə

xarakteri daşıyırdı.

1453-cü ildə xristianlığın ən böyük tarixi dayaqlarından biri olan Konstantinopolun osmanlılar tərəfindən fəth edilməsi xristian və islam sivilizasiyaları arasında mövcud tarixi münaqişəni daha da dərinləşdirdi. Beləliklə, Ərəb xilafətinin tənəzzülündən sonra, Osmanlı imperiyasının simasında siyasi səhnəyə xilafətdən daha güclü islam faktoru çıxdı. Bununla da dinlər arasında tarixi qarşıdurma yeni bir mərhələyə qədəm qoydu. Məhz belə qarşıdurma bütün sonrakı orta əsrlər və yeni dövr tarixinin ümumi ideoloji cizgilərini təşkil etdi.



1948-ci ildə İsrail dövlətinin təşkil edilməsindən sonra, (14 may 1948-ci il) başlanmış I Ərəb - İsrail müharibəsi, 1967-ci ildə isə (5-10 iyun) bəzi ərəb dövlətləri ilə İsrailin arasında baş vermiş "Altı günlük müharibə" və s. dinlər, konfessiyalar və etnoslar arasındakı münasibətləri son dərəcə gərginləşdirdi və bununla da Fələstin uzun illər qanlı savaş meydanına çevrildi. Buna baxmayaraq, müasir Yərusəlimi (Qüds) konfessiyalararası barışığın nümunəsi kimi qəbul etmək olar. Hər üç ibrani dinin müqəddəs məkanları - Süleyman məbədinin divarı (iudaizm), "Tanrı Tabutu məbədi" (isavilik), "Əl-Əqsa məscidi" (islam) şəhərin çox qədim tarixi mərkəzində - **Məbəd dağında** yerləşir. Kuvukliyaya açılan "müqəddəs qapıların" açarları isə tarix boyu ərəb mənşəli iki müsəlman ailəsinin əlindədir. Bu qayda XII əsrdə qəbul olunmuş və bu günədək davam edir. Bir ərəb-müsəlman mənşəli Cüdeh ailəsi məbədin açarını saxlayır, digər ərəb-müsəlman mənşəli Nüseybeh ailəsi isə hər səhər "Tanrı tabutu məbədinin" qapılarını açır və axşam da onları bağlayaraq, açarları yenidən Cüdeh ailəsinə təhvil verir.

Bu gün Cüdeh ailəsinin 53 yaşlı başçısı Ədib Cavad Cüdeh əl-Hüseyninin iddialarına görə, "Tanrı tabutu məbədi" islamla xristianlığın birgəyaşayışının rəmzidir. Nüseybeh ailəsinin bugünki başçısı 67 yaşlı Vaci Nüseybehin məlumatlarına görə, məbəddə tez-tez ayrı-ayrı xristian konfessiyaları arasında ciddi münaqişələr baş verir (münaqişəyə təşəbbüs göstərən tərəf isə adətən erməni rahibləri olur). Nüseybehin sözlərinə görə, "ərəb ailələri neytral tərəf kimi münaqişə tərəfləri arasında, bir növ BMT rolu oynayırlar".

Qeyd etmək lazımdır ki, müasir dünyanın etnik-siyasi tarixinin ən başlıca məzmununu konfessiyalararası münasibətlərin dinamikası təşkil

edir. Yer kürəsində yaşayan xalqların etnik-konfessional rəngarəngliyini nəzərə alsaq, bu gün cərəyan edən geosiyasi proseslərin kökündə əqidə və dini dünyagörüşü müxtəlifliyinin durduğunun şahidi oluruq. Qlobal miqyasda baş verən hadisələrin dinamikası isə tarixin daha yaxın və uzaq gələcəkdə də məhz konfessiyalararası münasibətlər ssenarisi üzrə inkişaf edəcəyindən xəbər verir.

## 4.5. "Dini barış konsepsiyası" və onun tarixi əhəmiyyəti (ing. *"Concept of religious reconciliation" and its historical significance*)



Müasir münaqişəli cəmiyyətdə müxtəlif ruhani fərdlər, qruplar və cəmiyyətlər arasında möhkəm və düşünülmüş barışıq və razılıq əldə etmək, çox vacib və təxirəsalınmaz məsələlərdən biridir. Lakin tarixi təcrübə tam sübut edir ki, dini barış konsepsiyaları nə qədər mütərəqqi əhəmiyyət kəsb etsələr də, dini zəmində irimiqyaslı hərbi-siyasi xarakter almış davamlı qarşıdurmaları, dinlər və konfessiyalararası münaqişələri "xoşbəxt sonluğadək" həll etmək mümkün olmamışdır.

Monoteist ideologiyaların meydana gəlməsi, sırf nəzəri cəhətdən barbarlığın sonu və yeni sivilizasiya tarixinin başlanğıcı kimi xarakterizə oluna bilər. Bununla əlaqədar sivilizasiya tarixinin çağdaş insanı, artıq təbiətin fövqəl qüvvələri qarşısında aciz qalmış fanatik bir fərd deyildi. Bundan sonra o, öz fərdi və qlobal taleyini qüdrətli tanrıya etibar edir və tək yaradanla onun arasında yeni ruhani bağlılıq və sakral məhəbbət hissi formalaşırdı. Monoteizmin təşəkkülü və şüurlarda möhkəm kök salması ilə, nəhayət dini barış mexanizmlərinin işləyəcəyinə inam artırdı. Lakin səmavi qanunlar nə qədər cəlbedici, müqəddəs olsa da, bəşəri genotipdə kök salmış "x - antipodun" yazılmış və yazılmamış qanunları pozmağa instinktiv meylliliyini əsla ləğv edə bilmədi. Səmavi kitabların hər üçü (Tövrat, İncil, Quran) insanın daim günahlara meyl edən xarakterini və temperamentini tənzimləmək üçün bütöv dini, əxlaqi-mənəvi qadağalar (Yəhudilik və xristianlıqda onların əsas sayı 10 (yun. *dekaloq*, ivrit. *aseret ha-dibrot*), islamda isə daha çoxdur. Qurani-Kərimin 6-cı "Əl-Ənam" surəsinin 151-153-cü ayələrində və 17-ci "İsra" surəsinin 23-39-cu ayələrində bu qadağalar təfsir olunmuşdur) elan etsələr də, min illər ərzində "insanın qəlbində israrla qərar tutmuş şeytanı" oradan çıxarıb ata

bilməmişlər [63]. Bu qadağalar nə qədər inandırıcı və emosional görünsə də, insanların psixoloji və ruhani strukturuna tolerantlıq, humanizm və alicənablıq toxumları səpsə də, mütləq şəkildə dini barışığa nail olmaq əsla mümkün olmur. Mütləq barışığa nail olmaq üçün isə **"hər bir fərd qəlbində yuva salmaq istəyən "şeytanla" təkbətək döyüşə girməli və ona heç vaxt güzəşt etməməlidir".**

Müasir dövrdə dini, eləcə də məzhəblərarası zəmində cərəyan edən münaqişələr, tarixdə misli görünməmiş təhlükəli xarakter almışdır. Bu o



deməkdir ki, dini və əxlaqi-mənəvi qadağalar, bütün bəşər tarixi boyu arzu olunan, vacib "dini barış konsepsiyası" kifayət qədər effektli şəkildə işləmir. Ənənəvi metodlarla konfessiyalararası mövcud münaqişələrin həll olunması imkanları da olduqca şübhəli görünür. Lakin danılmaz faktdır ki, bəşəriyyətin sağlam və təhlükəsiz gələcəyinin təmin edilməsində qarşılıqlı anlaşma, kompromis, qlobal razılıq və əbədi barış prinsiplərinin alternativi yoxdur.

Onu qeyd etmək lazımdır ki, dini münaqişələrə, həmçinin psixoloji aspekt xasdır. Dini münaqişə çoxhədli psixoloji hadisə kimi təzahür edir, çoxlu sayda ruhani və fiziki potensialın neqativ üsullarla, çılğın şəkildə təzahür etməsinə əsaslanır və "ifrat canfəşanlıq" qismində ifadə olunur. Sözügedən psixoloji element ciddi aqressiv halətlərin və kütləvi psixozun meydana gəlməsinə səbəb olur. Bu psixoloji affekt halının ən təhlükəli forması dini fanatizm və ekstremizmdir. Dini fanatizm dözümsüzlükdə ən təhlükəli halətdir. O, şərin ən radikal təcəssümüdür, çünki, bir ideya, həm də adətən yanlış bir ideya naminə bütün digər ekzistensial dəyərləri, onların səmavi və bəşəri hüquqlarını inkar edir.

Dini münaqişələrin subyektləri kimi, adətən aşağıdakılar çıxış edir: 1. Fərd-fərd. 2. Fərd-sosial qrup. 3. Fərd-cəmiyyət. 4. İctimai institutlar - qeyri-ənənəvi dini-mədəni təşkilatlar. 5. Dövlət-məscid (kilsə). Bütün bu məqamların hamısının əsasında vahid bir motiv, vahid bir ideya durur - başqa düşüncələrə, başqa ideyalara, fərqli əqidə sahibləri olan fərdlərə qarşı dözümsüzlük.

Tarixdə baş vermiş bütün dini münaqişələrin mənbəyi ilə bağlı bir məqamı da xüsusilə vurğulamaq lazımdır. Bu məqam təkcə ibrani və dharmi dinlərdə deyil, bu gün mövcud olan bütün konfessiyalarda və məzhəblərdə ruhanilərin - faktiki olaraq söz və iradə sahiblərinin yalnız kişilərdən ibarət olmasıdır. Kişilərin təbiətinə isə genetik barışmazlığın,

münaqişəyə meylliliyin, radikal aqressivliyin və brutallığın xas olması faktdır.

Tarixi prosesdə dini münaqişələr və müharibələr müxtəlif səbəblərə əsaslanmışdır. Müasir dini-konfessional xarakterli münaqişələrin aktual motivləri sırasına isə aşağıdakılar aiddir:

1. Dünyada mövcud olan sosial-iqtisadi disbalans.
2. Mərkəzdənqaçan etnik-siyasi qüvvələrin separatist və dağıdıcı fəaliyyəti.
3. Regional və dövlətdaxili sosial-mədəni problemlər.
4. Əhalinin təhsil və mədəni səviyyəsinin aşağı olması.

Həmişə olduğu kimi real və potensial münaqişələrə qarşı sanballı arqumentlərin qoyulması və effektli tədbirlərin görülməsi gündəmdədir. Bu baxımdan dinlər, konfessiyalar və məzhəblər arasında daim baş verən münaqişələrin daha effektli həllində, məsələyə tarixi aspektdən yanaşma metodu çox yüksək nəticələr verir.

Beləliklə, dinlərin və etnosların tarixini realist mövqedən, pozitiv faktlara əsaslanaraq öyrənməklə, əsl kompromis strategiyadan istifadə etməklə, əsrlərlə davam edən dinlərarası və məzhəblərarası düşmənçiliyi tam aradan qaldırmaq mümkündür. Şübhəsiz, bu gün dini antaqonizmin davamlı şəkildə cərəyan etməsi, din mənsublarının müvafiq tarixi kifayət qədər bilməməsi və cahillik ucbatından fanatizmə yuvarlanması ilə izah olunmalıdır.

Müasir münaqişəli cəmiyyətdə mütləq sülh yaratmaq istiqamətində ən vacib vəzifə postindustrial təfəkkür tərzinə malik olan əsl tolerant insanın tərbiyə olunmasıdır. Belə insanın təhtəlşüurunda, əqidəsində və inanclarında həqiqi pozitiv biliklər, humanist, tolerant dəyərlər və tanrı məhəbbəti dünyəvi və səmavi qanunlara əsaslanan ciddi sintez şəklində təzahür etməlidir. Beləliklə, müasir etnik-siyasi və dini-ideoloji durumla əlaqədar "kamil insan" doktrinası yenə gündəmdədir və bu doktrinanın əsas prinsipləri bəşəriyyətin tarixinin davamlı olmasına, onun xoşbəxt gələcəyinin təmin edilməsinə istiqamətlənmişdir.

Dünyada "daim münaqişə həvəsində" olan, "Nuh deyib peyğəmbər demək istəməyən", əzəli təbiətində isə "silinməz münaqişə kodu" olan milyonlarla insan var. Hətta münaqişə və müharibələr çox vaxt onların həyat tərzi kimi təzahür edir, bir qayda olaraq, bioloji və psixoloji tələbat qismində ortaya çıxır. Belə aqressiv və davakar potensiyalar xalqları, millətləri, sosial qrupları, konfessiyaları və ayrı-ayrı individləri savaşa aparan lokomotivlər kimi, sanki "şər substansiyanın gizli tapşırıqlarını icra edirlər". Onların ən radikal düşünən vahidləri isə tarixdə mürtəce

şəxsiyyətlər kimi qalmışlar.

Məşhur rus, sovet fiziki, mühəndis və innovator Pyotr Leonidoviç Kapitsa (1894-1984) insanları sülhə, tərəqqiyə və barışığa münasibətdə üç əsas kateqoriyaya bölürdü. O, birinci kateqoriyaya irəlidə gedənləri, avanqardları və bəşəri inkişafın mühərrikini hərəkətə gətirərək, bütün qüvvələrini sərf edən, taleyin sınaqlarına sinə gərən insanları daxil edirdi. İkinci kateqoriyanın mənsubları kimi, o, "tərəqqinin yedəyində gedən", lakin ona maneə olmayan fərdləri göstərirdi. Üçüncü kateqoriyaya isə inkişaf prosesindən çox geridə qalan, "ictimai münasibətlərin üzdəniraq aryerqardlarını", hər vəchlə tərəqqi qarşısında sədd çəkən, onu ləngidən, bütün yeniliyə, hər hansı özgə dəyərlərə qısqanclıq və düşmənçiliklə yanaşan, ümumi rifaha qibtə edən və "şər kodu daşıyan" individləri aid edirdi. Məhz bu səbəbdən də, əsl sülh yaratmaq çoxdandır ki, fövqəladə şəkildə çətin bir vəzifəyə çevrilmişdir. Alim iddia edirdi ki, kamil insan mütərəqqi olmaya bilməz. Çünki ona güclü cəsarət və sərhədləri olmayan təxəyyül xasdır. Mütərəqqi olmaq isə yenini tam anlamaq, onun müsbət mahiyyətini başa düşmək bacarığı, bütün digər dəyərləri optimal şəkildə görmək və qiymətləndirmək imkanları kimi başa düşülməlidir. Lakin yüksək nəticələr əldə etmək üçün bu keyfiyyətlər kifayət deyil. Bundan əlavə, çox yüksək təşəkküllü mübarizlik ruhuna və temperamentinə sahib olmaq vacibdir. Əqlin qüdrəti temperamentlə birləşəndə insan, sözün əsl mənasında, mütərəqqi şəxsiyyətə çevrilir [64].

Bu gün dünyanın ayrı-ayrı ölkələrində, regionlarında uzun müddət davam edən və həlli tam dalana dirənmiş çoxlu sayda dini münaqişələr mövcuddur:

1. Yaxın və Orta şərqdə - İraqda, Suriyada, Yəməndə və s. şiələr və sünnilər arasında çoxəsrlik münaqişə.
2. Şimali İrlandiyada katoliklərlə protestantlar arasında münaqişə.
3. Fələstində ərəblərlə yəhudilər arasında münaqişə.
4. Çində Tibet buddistləri ilə etnik çinlilər arasında münaqişə.
5. Balkan yarımadasında pravoslav əqidəli serblərlə katolik əqidəli xorvatlar arasında münaqişə.
6. Afrika ölkələrində - Sudanda, Çadda, Nigeriyada, Nigerdə və s. müsəlmanlarla xristianlar və yerli din mənsubları arasında münaqişə.
7. "Abxaz monoteizminə" sitayiş edən etnik abxazlarla pravoslav gürcülər arasında münaqişə.
8. Hindistan subkontinentində hinduslarla müsəlmanlar arasında münaqişə.
9. Cənubi Qafqazda erməni-müsəlman münaqişəsi.

10. Çində Sintsyan muxtar əyalətində müsəlman uyğurlarla etnik çinlilər arasında münaqişə və s.

Beləliklə, etnik-dini məzmunlu münaqişələrin geniş və rəngarəng spektrindən göründüyü kimi dünyada dinlərarası və konfessiyalararası münasibətlər, əsla arzu olunan tərzdə və səviyyədə deyil, müxtəlif əqidə sahibləri arasında dərin və keçilməz bir uçurum var. Nə qədər kədərli görünsə də, postindustrial cəmiyyətdə yaşayan yeni insan, hələ də "orta əsrlərin dini fanatizm aşiqləri" səviyyəsində düşünür və "onun barış dünyasının qapıları bu gün də qırx qıfılla bağlıdır".

## 4.6. Müasir dünyada dini ideologiyanın rolu və əhəmiyyəti (ing. *Role and significance of religious ideology in the modern world*)



Dini inanc son dərəcə incə və titrək məsələdir. Beləki, o, insanlarla mütləq qüdrət sahibi olan bir varlığın arasında sakral ruhani-psixoloji əlaqəyə əsaslanır. Dini inancların çağdaş təfəkkürdə kifayət qədər davamlı və düşünülmüş şəkildə kök salması, ilk növbədə onunla bağlıdır ki, son min il ərzində pozitiv elm inkişaf yoluna qədəm qoysa da, materiyanın daxili quruluşuna nüfuz etsə də, dünya sirlərinin çox azacıq hissəsini, demək olar ki, hipotetik səviyyədə açmağa nail olmuş və eyni zamanda səmavi kitablarda ifadə olunmuş həqiqətlərdən heç birini əsaslı şəkildə təkzib edə bilməmişdir. Odur ki, dini ideologiya yüksək texnologiyalar əsrində belə, daim tələb olunan mənəvi substansiya olaraq qalır. Bəs dini inanc prosesində fərdin idrak sferasında nə baş verir? İlk mərhələdə insanın tanrı qüdrəti qarşısında genetik qorxusu üzə çıxır. Daha sonra bu qorxu fərdin və cəmiyyətin dinamik şəkildə inkişaf edən aşkar psixoloji koduna çevrilir. Kəhkəşan miqyasında dağıdıcı qüvvəyə malik olan təhlükə, müasir insanı ibtidai cəmiyyətdə təbiət qüvvələri qarşısında tamam aciz qalan insanın affektiv səviyyəsinə endirir. Bu halət isə tam gücsüzlüyünü hiss edən fərdi, tanrı iradəsinə, tanrı qüdrətinə və tanrı ədalətinə sığınmağa sövq edir. Tanrı yeganə xilaskar kimi psixoloji halətin ən populyar və sevilən obyektinə çevrilir. Xoşbəxtliyə, şəxsi və kollektiv rifaha daim can atan müasir insan tipinin - "super homo sapiensin" Allaha əsl məhəbbəti fövqəladə şəkildə aktuallaşır. İnsan yer üzərində mövcud olan ədalətsizliyin tanrı tərəfindən tam layiqincə qiymətləndirilməsinə, ilahi və bəşəri qanunları pozanların

cəzalandırılmasına dərin ümid bəsləyir. Nəhayət, bu sakral münasibətlər sistemində hər bir fərd özünün haqlı olmasına fanatik səviyyədə inanır. Məhz inancın belə kortəbii həddi radikal əqidə üzərində qurulmuş "dini eqoizm" yaradır və o, "digər əqidələrə açılan qapıları" bağlayır. Bununla belə, tanrı himayədarlığına inam və iman insana fani həyatını yaşamaq üçün vacib olan, onu fərdi və qlobal depressiyadan qorumağa qadir olan ümidlər verir.

İnsan, nə qədər acı və kədərli olsa da, tanrının ona bəxş etdiyi taleyi ilə barışır. O, günahlar dünyasında yaşadığını, fərdi, kollektiv və qlobal qurtuluşun mümkünsüzlüyünü tam dərk edir. Bəşərin tanrıya münasibəti, tədricən bütün təsadüfi elementlərdən tamamilə azad olaraq, təmiz və mütləq şəkildə düşünülmüş səmavi məhəbbətə çevrilir.

Belə hisslərin, baxışların və halətlərin ümumiləşdirilmiş obrazı elmi cəhətdən "ideologiya" kimi qiymətləndirilir. Ümumi mənada ideologiya (yun.*"idea"*- ilkin obraz və*"loqos"* - söz, və ya təlim deməkdir) müxtəlif sosial qrupların və siniflərin maraqlarını ifadə edən sistematik və nizamlı baxışların məcmusudur. Bu əsasda subyektlər (insan, ayrıca götürülmüş qruplar, fərqli cəmiyyətlər və s.) arasındakı münasibətlər dərk olunur və qiymətləndirilir. İdeologiyanın yaradılması və təbliğatı ilə professional səviyyədə məşğul olan şəxs "ideoloq" adlanır. "İdeologiya" terminini elmi dövriyyəyə ilk dəfə XVIII əsrdə məşhur fransız filosofu Antuan Destyut de Trasi (1754-1836) daxil etmişdi [65].

Sloveniyalı alim, mədəniyyətşünas və filosof Slavoy Jijek (1949) iddia edirdi ki, "ideologiyanın əsas funksiyası, bizim mövcud reallıqdan qaçmağımız üçün şərait yaratmaq deyil, qəlblərimizi zədələməyə qadir olan reallıqdan gizlənmək üçün, sosial həqiqət haqqında düzgün təsəvvür formalaşdırmaqdan ibarətdir" [66].

Ən geniş yayılmış ideoloji təlimlər içərisində dini ideologiya xüsusi əhəmiyyət kəsb edir. Dini ideologiya - bu və ya digər formada tanrı, təbiət, cəmiyyət və insan haqqında ideyaların nizamlı toplusunu ifadə edən, məqsədyönlü şəkildə ilahiyyatçılar və filosoflar tərəfindən inkişaf etdirilən tamamlanmış sistemdir. O, real varlığın fövqəladə xarakterinə inanc prizmasından baxır, nəzəri cəhətdən düşünülmüş, sistemləşdirilmiş və ümumiləşdirilmiş spesifik inikas kimi təzahür edir. Psixologiyadan fərqli olaraq, dini ideologiya özündə dünya haqqında, həmçinin varlığın müxtəlif tərəfləri - təbiət, cəmiyyət və insan haqqında dini baxışları, təsəvvürləri ən ardıcıl ehkamlar, təsdiqlər və təlimatlar sistemi şəklində ifadə edir.

Dini ideologiyanın ilk rüşeymləri hələ ibtidai cəmiyyətdə, insan

qəlbinin ruhani tələbatı ilə bağlı ilk obyektiv zərurətin meydana gəlməsi zamanı yaranmışdı. Quldarlıq münasibətləri dövründə və Orta əsrlər tarixində isə yeni dini ideologiya özünün kifayət qədər mütəşəkkil təsir mexanizmləri ilə cəmiyyətin istismar olunan böyük hissəsini tabeçilikdə və "tam sözəbaxan icraçılar ampluasında" saxlamaq üçün çox əlverişli və effektli alət idi. Belə təsir mexanizmlərinin əsas "sehrli gücü" isə əlbəttə ki, insan təbiətinə əzəli olaraq məxsus olan, "fövqəlqüvvələr" qarşısında "genetik fobiyaya" əsaslanırdı.

Beləliklə, hər dini ideologiya cəmiyyətin müəyyən mədəni inkişaf dövründə düşünülmüş zərurət və mənəvi tələbat kimi özünü təsdiq etsə də, çox zaman məchulluğun və ondan doğan qorxunun əqidələrdə kök salmış təzahürü kimi ortaya çıxırdı. Bütün hallarda isə cəmiyyətdə heç vaxt ideoloji vakuum qismində təzahür edən "mənəvi və ruhani heçlik" olmamışdır. Çünki belə halət şüursuzluq sferasına, heyvani instinktlərin mütləq şəkildə hökm sürdüyü topluma aiddir.

Burjua münasibətlərinin təşəkkülü və inkişafı ilə əlaqədar optimist, pozitiv və praqmatik düşünən, dünyanı dövrün tələblərinə uyğun şəkildə dəyişdirməyə çalışan yeni insan dini ideologiyanı mövhümat zəncirindən qopararaq, onu yer üzərində "cənnətin industrial obrazını" yaratmaq kimi proqressiv bir fəaliyyətə yönəltdi. "Vicdan azadlığı" doktrinasının elan edilməsi isə dini ideologiyanın məzmununa daha mütərəqqi elementlər qatdı. Bu baxımdan praqmatik şəxsiyyət dini ideologiyanın elementlərinə və prinsiplərinə qorxu prizmasından deyil, tədqiq prizmasından baxmağa başladı. Artıq belə bir insan üçün varlıq, Yer kürəsi "öküz buynuzları üzərində hərəkətsiz durmuş" məhdud obyekt deyildi. O, yeni təxəyyüldə sərhədləri və ölçüləri olmayan fövqəl məkan kimi canlanırdı. Yeni insan isə öz tanrısını məhz bu fövqəl məkanda axtarmağa başlamışdı. Bu isə tanrı varlığına ən yüksək optimal baxış kimi təzahür edirdi. Müasir insanı geosentrizm ruhlu nağıllarla aldatmaq, yeddi başlı əjdaha ilə qorxutmaq artıq heç mümkün deyildi. O, ucsuz-bucaqsız məkanın nizamsız hərəkət nəticəsində mövcud olmasını iddia edən təbiətşünaslıq və astronomiya elminin müddəalarına da artıq mütləq şəkildə inanmırdı. Eyni zamanda, "əbədi həyat", cənnət, cəhənnəm və iblis haqqında hekayələri o qədər də ciddi şəkildə qəbul etmirdi. O, günahlar dünyasında yaşadığını və ixlasın mümkünsüzlüyünü artıq dərk etmişdi.

Müasir postindustrial cəmiyyətdə, son nanotexnologiyalar və qlobal informasiyalar əsrində isə fərdin və fərdlər sisteminin dini ideologiyaya meyli durmadan artır. Bu tendensiya çoxlu sayda obyektiv və subyektiv səbəblərlə izah oluna bilər. Müasir insanın dini məzmunla bəhrələnmiş

psixologiyası, bəzən orta əsrlər insanının bəsit psixoloji halətindən əsla fərqlənmir. Beləliklə, dini inanclarla bəhrələnmiş insanın psixologiyası sistemli, yaxud sistemsiz təsəvvürlərin, ideyaların, obrazların, hisslərin, əhvalların, yaşamların, vərdişlərin, təlimatların, tələbatların toplumu kimi illüziyalı və fantastik formada ətraf aləmi və öz varlığını qəbul edir, dərk edir və qiymətləndirir.

Dini inancların çağdaş insan təfəkküründə kifayət qədər davamlı və düşünülmüş şəkildə köklər salması, ilk növbədə onunla bağlıdır ki, insan dünyanın sonunu ifadə edən əlamətləri daha aydın və vizual (lat. *visualis - fəhm, seyr* - predmet və hadisələrin birbaşa müşahidəsi) bir formada müşahidə edir. Cənnətdən qovulmaq, ümumdünya seli, gözlənilən qlobal miqyaslı "hipotetik apokalipsis", cəhənnəm əzabı, əbədi lənət xofu və s. kimi dəhşət yaradan məqamlar isə bəşərin dinamik şəkildə inkişaf edən genetik kodlarına çevrilmişdir və bundan qaçmaq mümkün deyil. Elmi qanunlara və yeni elmi nailiyyətlərə gəldikdə, onlar ayrı-ayrı fərdləri və bəşəriyyəti qlobal fəlakətdən və kainat miqyaslı təhlükədən qorumağa qadir deyil. Planetar və kosmik miqyasda saysız-hesabsız tanrı sirləri, həmişə olduğu kimi elə sirr olaraq qalır. Digər tərəfdən elmin mürtəce xarakteri (əxlaqa əsaslanmayan intellekt) yalnız şər doğurur. Kəhkəşan miqyasında dağıdıcı qüvvəyə malik olan silahlar, davamlı müharibə və qlobal təbii fəlakətlər təhlükəsi müasir insanı pessimizm məngənəsində sıxır. Bu isə onun "fövqəl himayədar axtarışını" misli görünməmiş tərzdə aktuallaşdırır. Beləliklə, dini ideologiya yüksək texnologiyalar əsrində də daim tələb olunan mənəvi substansiya olaraq qalır.

### *İstinadlar*

*1. Dhavamony Mariasusai. Phenomenology of religion. Editrice Pontificia Università Gregoriana, 1973. P. 60-64*

*2. К. Маркс и Ф. Энгельс. Сочинения, т. 1, с. 415*

*3. Плутарх (46 -120)*

*4. Фейербах Л. Лекции о сущности религии. Сочинения: В 3 т. Пер. с нем. Москва, 1923-1926. Т. 3. С.169*

*5. Булгаков С. Свет Невечерний. Сергиев Посад, 1917. С. 16*

*6. Бромлей Юлиан В. Опыт исторической типологизации этнических общностей. Советская этнография. Москва, 1975. № 5. С. 61*

*7. Вавилонская башня. Православная энциклопедия., Москва, Церковно-научный центр «Православная энциклопедия», 2003. с. 479-481*

*8. Бромлей Ю. В. «К вопросу о сущности этноса». Москва, «Природа». 1970. № 2. - С. 51-55*

*9. Гумилёв Л.Н. Этнос и ландшафт."Известие ВГО", Т. 100, Москва,*

*1968. - № 3. - с. 193-202*

*10. Новая иллюстрированная энциклопедия. Книга 14. Пе Пр. Москва, Большая Российская энциклопедия, 2002. С.166*

*11. Quran. Əl-Bəqərə. 2: 165*

*12. Религии мира: история, культура, этнос, религия и вероучение. Под ред. Г. М. Бонгард-Левина. Москва, Олма медиа групп, 2006. С. 111*

*13. Gupta, Sanjukta (1983), "The Changing Pattern of Pāñcarātra Initiation: A Case Study in the Reinterpretation of Ritual", in Dirk J. Hoens, Ria Kloppenborg, Selected Studies on Ritual in the Indian Religions: Essays to D. J. Hoens, Utrecht: Brill, p. 69-91*

*14. Bryant Edwin Francis. Krishna: A Sourcebook.–Oxford University Press US. 2007. p. 18*

*15. Explaining Hindu Dharma (2nd Edition).–Vishwa Hindu Parishad (UK), 2002. - p. 14*

*16. Творения святого Иеронима Стридонского. Киев, 1893. Ч. 1. с. 151*

*17. Российское Библейское общество. Москва, 2011. с. 121*

*18. Oliver Leaman. The Qur`an: An encyclopedia. Routledge, 2008. p. 39-40*

*19. Quran. Əl-Bəqərə 2:286*

*20. Добыкин Д.Г. Лекции по введению в Священное Писание Ветхого Завета. - Санкт-Петербург, 2012. - 22-25, 31*

*21. Федрова Е.В. Императорский Рим в лицах. Смоленск, 1998. С. 162*

*22. Mordechai B. The Land of Israel Gateway to Judaism. Издательство "Месора", 2005. P. 265*

*23. Бытие. 23;49; 29-32; 50;13*

*24. Исход. 33: 20-23*

*25. Пятикнижье. Исход.20: 2-17*

*26. «Сидур Врата молитвы». Под редакцией Пинхаса Полонского – Москва, 1993, с. 144-145*

*27. Рамбам. Мишне Тора, Законы о царях, гл. 11:4. 0*

*28. Пятикнижье. Бытие. 37: 3, Левит 17: 15-16*

*29. Евангелие от Матфея 2:1*

*30. Толкования Нового Завета: сбрник эссе о принципах и методах. – Библия для всех, Москва, 2004. - с. 196-216*

*31. Иванов М.С., Желтов М.С., Каливидзе Н.В. Адам. Православная энциклопедия. - Москва, 2000. Т -1. - с. 280-283*

*32. Евангелие от Матфея 28: 9-10*

*33. Пархоменко К. Таинство вхождения в церковь. СПб: Изд. Дом Нева, 2002. - с. 116*

*34. Деяния апостолов, 1: 21-26*

*35. Евангелие от Матфея - 10: 1-4, Евангелие от Марка - 3: 14-19, Евангелие от Луки - 6: 13-16*

*36. Donald Guthrie. New Testament Introduction (Leicester, England: Apollos, 1990), pp. 37-40*

*37. Джонатан Харрис. Византия. История изчезнувшей империи. Jona-*

*than Harris. The Lost World of Byzantium. - Москва, Альпина Нон-фикшн, 2017 с. 259-287*

*38. James F. Ross. 2003,"Thomas Aguinas, Summa theologiae (ca. 1273), Christian Wisdom Explained Philosophically". Oxford: Blackwell Publishin, 2003, Pp. 143-188*

*39. Пиатровский М.Б. Зейд ибн Сабит. Ислам: энциклопедический словарь - отв. ред. Прозоров С. М. - Москва, Наука, ГРВЛ, 1991. - с. 275*

*40. Qurani-Kərim. Əl-İsra surəsi 17, ayə 106*

*41. Игнатенко А.А. Об исламе и нормативной дефицитности корана. Отечественные записки, Москва, 2008. № 4 (43). с. 218-236*

*42. Резван Е.А. Аль-Коран. Ислам:энциклопедический словарь.,отв. ред. С.М. Прозоров. - Москва: Наука, 1991. - с. 144-145*

*43. Пиатровский М.Б. Ал-Исра ва-л Мирадж.Ислам: энциклопедический словарь. отв. ред. С.М. Прозоров. М:, Наука, 1991. - с. 115*

*44. Митио Каку. Телепортация. Физика невозможного. Physics of the impossible .Москва, «Альпина Нон-фикшн» 2009. с. 90. - 456 с.*

*45. Толкование Нового Завета: сборник эссе о принципах и методах. – СПб.: Библия для всех, 2004. - с. 196-201*

*46. Болотов В.В. Лекции по истории Древней церкви. Посмертное издание под редакцией проф. А. Бриллиантова. - СПб. Петербург, 1910. - Т. II - 474 с., с. 99-101*

*47. Джонатан Харрис. Византийская империя. История изчезнувшей империи. Jonathan Harris. The Lost World of Byzantium.-Москва: Альпина Нон-фикшн, 2017, с. 270*

*48. Нелюбов Б.А. Афинагор. Православная энциклопедия. М:, Церковно-научный центр. «Православная энциклопедия», 2002. С. 85-87.*

*49. Гобри Иван. Лютер. Москва, Молдая Гвардия, 2000. с. 5-18*

*50. R. Emmet McLaughling, The Radical Reformation. Cambridge History of Christianity б v. 6 (Cambridge: Cambridge University Press, 2007), p. 37-55*

*51. «Иезуиты». Католическая энциклопедия. Т 2., с. 5*

*52. Резван Е.А. Умма. Ислам: энциклопедический словарь. отв. Ред. М. Прозоров. - Москва: Наука, ГРВЛ, 1991. - с. 241*

*53. Пиатровски М.Б. ас-Сунна. Ислам: энциклопедический словарь. отв. Ред. С.М. Прозоров. Москва: Наука ГРВЛ, 1991, с. 214*

*54. Ислам. ЭС, 1991, Шафиитский масхаб. С. 295-296*

*55. Hanabila. Laoust, H. Encyclopedia of Islam. - 2 ed. - Leiden E. J. Brill, 1971. - Т. 3. - р. 158-162*

*56. Ализаде А.А. Хариджиты. Исламский энциклопедический словарь. Москва: Ансар, 2007. С. 811-813*

*57. Прозоров С.М. аль-Махди. Ислам: энциклопедический словарь. отв. Ред. С.М. Прозоров. Москва: Наука, ГРВЛ, 1991. - с. 163*

*58. Russell Bertrand. Will Religious Faith Cure Our Troubles? Human Sosiety in Ethics and Politics. Ch. 7. Pt 2*

*59. Al-Wagidi. Abu Abdullah Muhammad ibn Umar (8th century). Futuh al*

*Sham (Завоевание Сирии), p.148*

60. *Трибельский И. Иерусалим. Тайна трех тысячилетий. Ростов н/Д.: Феникс, 2007. С. 189*

61. *Эпоха крестовых походов. под редакцией Э. Левисса и А. Рамбо. - Москва: ФСТ, 2005.- с. 361-363*

62. *Крузе Д. Монархическая власть и таинство смысла: сообщение о Варфоломеевской резне. Варфоломеевская ночь: Событие и споры. Сб. статей. Москва: РГГУ, 2001, с. 102-137*

63. *Пятикнижие. Исход. 20: 2-17*

64. *Максимы Капицы. в Сб: Капица. Тамм. Семенов. В очерках и письмах, Москва, «Вагриус»; «Природа», 1998, с. 53*

65. *Бобровников Н. Идеология. Большая советская энциклопедия: В 65 томах. гл. ред. О.Ю. Шмидт. 1-е изд. Москва: Советская энциклопедия, 1933. Т. 27. С. 452-463. 960 с.*

66. *Жижек Славой. Возвышенные объекты идеологии. Идеология. Москва: «Художественный журнал», 1999. с.52*

# V FƏSİL. ETNİK-MİLLİ MÜXTƏLİFLİK VƏ MULTİKULTURALİZM



## 5.1. Etnik-milli birliklərin yaranması tarixindən (ing. *From the history of the emergence of ethno-national associations*)



Bəşəriyyətə və onun hər bir fərdinə xas olan ən başlıca və əzəli xüsusiyyət birliklərdə təmsil olunmaq meylləridir. İnsan digər varlıqlardan şüur faktoru və manipulyasiya imkanları ilə fərqlənsə də, "Yer həyatının ilk mərhələsində", ibtidai təbiətin sərt qanunları qarşısında fiziki-cismani cəhətdən kifayət qədər mükəmməl deyildi. Məhz belə ilkin motiv insanları daim qruplarda və kollektivlərdə birləşməyə sövq edirdi. Tarix, eləcə də etnoqrafiya kimi təlimlərdə ilk belə insan kollektivi ulu icma, yaxud "ibtidai insan sürüsü" kimi də qiymətləndirilir. Bu kollektivlər insanların qan qohumluğuna əsaslanmayan kortəbii birlikləri idi.

Tarixi proses nəticəsində ulu icma qəbilə icmasına çevrildi. O, artıq bacarıqlı və şüurlu insanın daha mütəşəkkil birliyi kimi təzahür edirdi və qan qohumluğuna əsaslanmağa başlamışdı. Belə kollektivlərdə tədricən "nəsil" və "nəsil yaradan" kimi ilkin etnik kateqoriyalar ortaya çıxırdı. Qədim dövrdə nəsil vahid əcdada malik insanlar qrupundan ibarət sosial təşkilat idi. Belə təşkilatlarda "nəsil yaradan" həmişə real insan obrazı olmurdu. Çox vaxt bu rolu əsatir qəhrəmanları, ilahi subyektlər, hətta heyvanlar (zoomorf şüurlu varlıqlar) icra edirdilər. Belə hallarda nəsil başçısı, həm də nəslin totemi (hindu alqonkin dilindən tərcümədə "onun nəsli deməkdir", bu termini ilk dəfə ingilis səyahətçisi C.Lonq 1791-ci ildə işlətmiş və onu "*ocibva*" adlanan Şimali Amerika hindu qəbiləsindən götürmüşdü) kimi çıxış edirdi [1]. Məsələn, qədim türklərdə qurd.

Qədim nəsli təşkilatın iki əsas forması mövcud idi. Bunlardan biri

"linic" (ing. *lineage* - mənşə, nəsil), digəri isə "klan" (şotland-gell dilində - *clann* - ailə, yaxud nəsil) adlanırdı. Linic ya ata, ya da ana filiasiyasına (lat. *filialis* - övladlıq, nəsli şəcərə) əsaslanırdı. Onun bütün üzvləri isə öz şəcərəsini izləyə və onun vahid real əcdada gedib çıxdığını təyin edə bilirdi. Belə təşkilatlarda ailə-nikah münasibətləri ekzoqamiyaya (yun. *exo* - xaric, kənar, *qamos* - nikah - nəslin daxilində nikahı qadağan edən qayda) əsaslanırdı. Lakin nəsildə ekzoqamiya prinsipləri hökm sürsə də, burada ailə institutu öz klassik formasını almamışdı və bu əlamətinə görə o, əsası yüksək şəkildə təşkilatlanmış ailələrdən ibarət olan icmalardan fərqlənirdi. Klan isə, bir qayda olaraq, öz əsas mənbəyini mifik, yaxud əfsanəvi əcdadlardan götürürdü. Belə tip nəsli birliklərin üzvləri şəcərə zəncirini izləmirdilər [2].

Nəsil və icma fərqli kollektivlər olsalar da, sonda vahid birlik kimi formalaşırdılar. Bu "nəsli qəbilə" idi. Nəsli qəbilə qohumluq əlaqələrinə, kollektiv əməyə və istehlaka əsaslanan sosial təşkilat forması kimi ortaya çıxırdı. O əvvəlcə ana xətti ilə, daha sonra ata xətti ilə inkişaf etmişdi. Nəsli qəbilələrdə ekzoqamiya qaydalarına ciddi əməl olunurdu. Məhz bu səbəbdən nəsli qəbilələr öz aralarında sülh və əmin-amanlıq şəraitində yaşayırdılar. Çünki onlar tam qarşılıqlı şəkildə, biri digəri üçün yeni nəsil artırmağın başlıca elementi olan qadını yetişdirirdi. Nəsli qəbilə ümumi əməyə və mülkiyyətə əsaslanan özünəməxsus "ibtidai demokratiya" idi. Eyni məkanda möhkəm qərar tutmuş və aralarında iqtisadi-təsərrüfat, sosial-mədəni və nikah əlaqələri olan bir neçə nəsli qəbilə tayfanı təşkil edirdi. Tayfa vahid dildə danışsa da, hər qəbilənin özünəməxsus adət və ənənələri var idi. Belə birliklərə "ağsaqqallar şurası" rəhbərlik edirdi.

Etnik-mədəni birliklərin inkişafı prosesində növbəti mərhələ "özəl kollektivlərin", yaxud ailələrin yaranması ilə bağlı idi. Etnologiyada bu fenomen "qonşuluq icması" da adlanır. Qəbilə icmasının tədricən qonşu icmaya çevrilməsi məhsuldar qüvvələrin intensiv inkişafı ilə əlaqədar baş verirdi. Qonşu icmada kollektiv mülkiyyətlə yanaşı fərdi mülkiyyət də mühüm rol oynayırdı. Lakin bu proses, əsla ibtidai birliklərin dağılması demək deyildi. Əksinə, insanlar, əsasını "ailə" adlanan əxlaqi-mənəvi və təsərrüfat vahidi təşkil edən daha mütəşəkkil birliklərdə təmsil olunmağa başlamışdılar. Belə birliklərə ilk baxışdan "özəlləşmə" kimi dezinteqrativ tendensiya xas olsa da, onlar daha da düşünülmüş təşkilati prinsiplərə əsaslanır və birgəyaşayış qaydalarının ibtidai modeli qismində təzahür edirdilər [3]. Bu gün də sosial-ərazi birliklərinin əsas komponenti və sosial-mənəvi prinsipi olan əsl qonşuluq, məhz o dövrdə yaranmış və formalaşmışdı.

İbtidai kollektivçiliyin daha sonrakı forması "tayfa" adlanır. Etnik birliyin tayfa səviyyəsinə keçməsi kimi proses "tribalizasiya" (ing. *tribe*-tayfa - etnologiyada dar maraqlar çərçivəsində insanların qruplarda və tayfalarda birləşməsi) kimi təzahür edirdi. Tayfa artıq həm etnik, həm də siyasi təşkilat kimi özünü təsdiq etməyə başlamışdı. Tayfa eyni ərazidə yaşayan, oxşar adətlərə və ənənələrə malik olan, eyni, yaxud oxşar dildə danışan qəbilələrin etnik-mədəni və hərbi-siyasi birliyi idi [4].

Siyasi antropologiyada tayfa siyasi təşkilatların bir forması kimi xarakterizə olunur. Çifdomla (ing. *chiefdom* - siyasi liderliyin rəhbərin nüfuzuna əsaslanan tipi) bir səviyyədə olsa da, ondan siyasi liderliyin konsensual (lat.*consensus* -razılıq, dialoq) tipi ilə fərqlənir [5]. Tayfaların yaranmasını təyin edən şəraiti və zəruri prinsipləri öyrənərkən məlum olur ki, özlüyündə ümumi tip əlaqələrə inam, artıq kifayət qədər böyük birliklərin yaranması üçün davamlı meyar ola bilərdi. Onu da qeyd etmək lazımdır ki, tayfa öz prinsipial xüsusiyyətləri və subyektlər arasındakı münasibətlər baxımından etnosa daha yaxın idi.

İnsanların tarixi birliyinin növbəti forması "tayfa ittifaqı" adlanır. Tayfa ittifaqı - hərbi demokratiya şəraitində yaşayan bir neçə tayfanın hərbi-siyasi maraqlarına əsaslanan özəl birlik idi. Belə birliklərdə sosial bərabərsizlik prosesi daha da sürətlə inkişaf edirdi. Tayfa ittifaqı, onun mənəvi-ideoloji doktrinası ilə birlikdə etnosların və ən qədim xalqların yaranması prosesini şərtləndirən vacib mərhələ kimi təzahür edirdi. Belə birliklərdə əsas inteqrativ amil kimi təkcə xarici təhlükə qarşısında sağ qalmaq maraqları çıxış etmirdi. Burada artıq ümumi dinin, sosial, siyasi və s. yönümlü möhkəm əqidənin cizgiləri aydın şəkildə ifadə olunurdu. Tayfa ittifaqlarında iki, yaxud daha çox tayfa konkret maraqlar ətrafında birləşsələr də, mədəniyyətlərin qaynayıb qarışmasına o qədər də meylli olmurdular. Məhz bu səbəbdən tayfa ittifaqları tarixin sınaqlarına tab gətirmir və tez-tez dağılırdı.

Etnik-siyasi birlik tarixində daha bir fenomen "etnos" anlayışı ilə bağlıdır. Etnos (yun. *ethnos* - xalq) tarixən obyektiv, yaxud subyektiv əlamətlərə görə ciddi şəkildə digər qurum və təşkilatlardan fərqlənən davamlı sosial birlikdir. Etnos əsrlər ərzində davam edən inteqrativ prosesin əsas tipi və son nəticəsi kimi təzahür edir. O, tarixi-mədəni özəlliklərin - dil, əqidə, ümumi ictimai-siyasi və əxlaqi-mənəvi dəyərlər ətrafında birləşmiş insanların böyük qruplarıdır. Belə birliklər müəyyən ərazidə müştərək təsərrüfat prosesi nəticəsində yaranır. Onun üzvləri eyni psixoloji təbiətə malik olurlar və öz birliklərinin zəruriliyini dəqiq və düşünülmüş şəkildə dərk edirlər [6]. Beləliklə, etnik birlik üçün aşağıdakı

əlamətlər əsas şərtdir: 1. Birliyin üzvləri mənsubiyyətlərini düşünülmüş şəkildə dərk edirlər. 2. Bir qayda olaraq, birliyin üzvləri ümumi mənşəyə malik olurlar. 3. Birliyin üzvlərinə ümumi dil, eləcə də universal mədəni dəyərlər məxsusdur. 4. Birlikdə ciddi daxili sosial təşkilat mövcuddur.

Etnik birliklərin inkişafı prosesinin daha mütəşəkkil formasını xalq təşkil edir. Xalqa mənsubiyyət təkcə qan qohumluğu əlaqələri ilə təyin olunmur. Xalq üçün ərazi, təsərrüfat və mədəni birlik, həmçinin vahid dil faktoru xarakterik haldır. Xalq etnosun daha mürəkkəb və mütəşəkkil formasıdır. Etnologiyada "xalq" termini mərkəzi anlayış hesab olunur, müxalifət və antaqonist xarakterli düstur ("doğma-özgə") əsasında təfsir olunur. Ərəb dilindən tərcümədə "xalq" sözünün hərfi mənası "tanrının yaratdığı" deməkdir. Slavyan dillərində "*народ*" kimi səslənən "xalq" sözü "*народить*", yəni "doğub-törəmək" anlamına gəlir. İngilis dilində "*people*" kimi səslənən "xalq" termini isə sadəcə "insanların toplusu" mənasında işlədilir. Ayrı-ayrı xalqların folklorunu əks etdirən əfsanə və əsatirlərdə "doğma xalq" ("özününkilər") bütün əxlaqi-mənəvi və digər xarakterik keyfiyyətlərə malik olan birlik kimi, "özgə xalq" (özgələr) isə fiziki, sosial və əxlaqi-mənəvi baxımdan anomal məfhumlar kimi təsvir olunur [7]. Nə qədər təzadlı olsa da, tolerantlıq və multimədəniyyət prinsiplərinə zidd mövqe tutsa da, məhz yuxarıda qeyd olunan müxalif düstur və onun sırf intolerant məzmunundan doğan "milli eqo" tarixən xalqları davamlı şəkildə yaşadan ən güclü amil olmuşdur.

Etnik-siyasi və sosial birliyin ali forması isə millətdir. Millət (lat. *natio* - qəbilə, xalq) sənaye dövründə təşəkkül tapıb formalaşan sosial-iqtisadi, mədəni-siyasi və ruhani birlikdir. Burada insanlar vahid milli əlamətə görə birləşirlər. Millətin başlıca əlamətləri isə aşağıdakılardan ibarətdir: ümumi sosial-iqtisadi həyat, ümumi dil, ümumi ərazi, xalqın mədəniyyətinin spesifik cizgilərində təzahür edən psixoloji keyfiyyətlər. Milli birliyi yaradan amillər isə bunlardır: ümumi tarixi yaddaş və milli özünü dərketmənin yüksək inkişaf həddi.

Müasir dünyada millətlərin iki fərqli tipləri mövcuddur: 1. Konkret dövlətin vətəndaşlarının siyasi birliyi. 2. Vahid ərazidə yaşayan, ümumi dilə və milli şüura malik olan bir, yaxud bir neçə etnosun birliyi.

Antropologiyada konstruktivizm nəzəriyyəsinin tərəfdarları iddia edirlər ki, millət intellektual elita tərəfindən "milli layihə" əsasında süni şəkildə yaradılmış, məqsədyönlü şəkildə strukturlaşdırılmış qurumdur. Belə təşkilatların yaradılması zamanı isə milli dövlətin coğrafi sərhədləri, sözügedən dövr üçün aktual olan siyasi sərhədlərlə üst-üstə düşür. Bu prosesdə iştirak edən əhalinin etnik müxtəlifliyi prinsipi isə demək olar

ki, nəzərə alınmır [8]. Konstruktiv apologetika preindustrial etnoslarla müasir millətlər arasındakı real varisliyi inkar edir və milləti, qəti olaraq sənaye dövrünün məhsulu hesab edir.

Primordialist (lat. *primordial* - ilkin - etnosu ilkin birlik qismində nəzərdən keçirən elmi istiqamət) nəzəriyyənin tərəfdarları isə hər milləti etnosun tarixi proses nəticəsində keçdiyi xüsusi milli inkişaf pilləsi, yəni bioloji bir fenomen kimi qəbul edirlər və onu “etnomillət” adlandırırlar. Onlar iddia edirlər ki, millətçiliyin belə tipinin yaranması “xalqın ruhu” adlanan mistik konsepsiyanın formalaşması ilə bağlıdır. Bu baxımdan “xalqın ruhu” fövqəltəbii substansiya kimi qan qohumluğu və irqi yolla nəsildən nəsilə keçir.

Millət, əsas etibarı ilə iki formada təzahür edir: **1.** Polietnik millət. **2.** Monoetnik millət. Adətən millət tarixin və taleyin qovuşdurduğu çoxlu sayda etnosların bazasında yaranır. Bu baxımdan bir-biri ilə bağlı olan, lakin heç də oxşar olmayan “millət” və “milliyyət” anlayışları arasındakı fərqləri göstərmək vacibdir. “Milliyyət” anlayışı “millət” anlayışından daha dar məna kəsb edir. Millət isə daha mürəkkəb birlikdir və müasir dövrün hadisəsidir. Əgər milliyyətlər orta əsrlərdə təşəkkül tapmışdısa, millətlər Yeni və Ən Yeni tarixi dövrlərdə formalaşmışdır.

Milliyyət etnik, millət isə sırf siyasi xarakter daşıyır. Millət sənaye cəmiyyətində mədəni-siyasi, sosial-iqtisadi və əxlaqi-mədəni prinsiplər əsasında təzahür edən yeni birlikdir. Milliyyət isə obyektiv və subyektiv əlamətlərlə seçilən kiçik insan qruplarıdır. Bu əlamətlər sırasına mənşə, mədəniyyət, dil, özünüdərk, yaşayış məkanı və s. aiddir. Millət etnosun ali formasıdır. Beləliklə, etnosun əsas dəyəri davamlı qrupa mənsubiyyət ilə izah olunursa, millət inkişafın yeni mərhələsinə çıxmağa can atan birlik kimi təzahür edir. XX əsrdə bir dövlət tərkibində təmsil olunan hər hansı etnos “millət” adlanırdı. Siyasi birlik anlayışını ifadə etmək üçün isə eləcə “çoxmilliyyətli xalq” terminindən istifadə olunurdu. Sözügedən dövrdə Sovet İttifaqı, Hindistan Federasiyası, Amerika Birləşmiş Ştatları, Yuqoslaviya Federasiyası belə etnik birlik tipinə aid idilər. Müasir elmi tədqiqatlar sübut edir ki, millətin formalaşması obyektiv tarixi prosesdir. Çünki o, ilk növbədə siyasi, daha sonra etnik və sosial fenomendir.

Qeyd etmək lazımdır ki, çoxlu sayda hallarda dil millətin universal əlaməti qismində çıxış etmir. Millətin unikallığı isə mütləq onun dilinin unikallığı demək deyil. Elə tip millətlər mövcuddur ki, vahid dil mütləq şəkildə “linqva franka” rolu oynayır (alman, ingilis, fransız, ispan, ərəb və s.). Lakin elə millətlər də var ki, onun tərkibinə daxil olan, demək olar ki, bütün etnoslar onlara doğma olmayan dildə danışırlar (hindlilər, xan

çinlilər və s., məsələn, Pakistanda milli dil "urdu" olduğu halda bu dildə əhalinin yalnız 7%-i danışır, əhalinin böyük hissəsi isə (75%) pencabi, puştu və sindhi dillərində danışırlar).

Etnik birliklərin yaranması və inkişafı prosesində "tarixi yaddaş" kimi fenomeninin xüsusi və həlledici əhəmiyyəti vardır. Tarixi yaddaş - milli mədəniyyətin keçmişdə olan ən yüksək nailiyyətləri, elm, siyasət və incəsənət sahəsində millətin ən yaxşı nümayəndələri haqqındakı bilgilər, həmçinin milli tarixin ən yaxşı və şanlı nümunələrinə uyğun yaşamaq və fəaliyyət göstərmək kimi cəhdlərdir. O, bəzən kollektiv yaddaşın ölçüsü kimi də qiymətləndirilir. Tarixi yaddaş fenomeninin formalaşmasının mənbələri olduqca rəngarəngdir. Bu sıraya şifahi ənənələr, narrativ (ing. *nerrative* -hekayə) mənbələr -keçmiş tarixi əks edən kitablar, salnamələr, memuarlar, bədii ədəbiyyat, tarixşünaslıq, həmçinin kommemorasiyalar (lat. *memoria* - *xatirə*) - tarixi hadisələrə həsr olunmuş əsas bayramlar, yubileylər, anım günləri, eləcə də sırf monumental (lat. *monumentalis* - xatırlamaq) ənənələr və s. aiddir. XX əsrdə belə tipli mənbələr sırasna audiovizual elementlər (bədii və sənədli kinofilmlər, radio verilişləri və s.), müasir dövrlərdə isə şəbəkə kontenti (ing. *content* - məzmun - veb-saytın doldurulması, veb-resursun səhifələrində mövcud olan hər hansı informasiya) də daxil edilmişdir. Tarixi yaddaş, bir qayda olaraq, insanın vərdişlərində, onun məişətində, mədəniyyətində, fərdin başqa xalqlara münasibətində, siyasi seçimlərdə, istiqlal meyllərində ifadə olunur [9].

## 5.2. Etnik-siyasi birliklərin əsas xüsusiyyətləri (ing. *Main characteristics of ethnopolitical associations*)



Tarixi inkişaf prosesində hər hansı etnik-siyasi və sosial-mədəni birlik müxtəlif fakt, hadisə və proseslərin, təsərrüfat-iqtisadi özəlliklərin, coğrafi mühitin, təbii şəraitin və regional tipli münasibətlərin təsiri altında müstəsna xüsusiyyətlər qazanırdı. Bu hadisə ilə əlaqədar etnosun və etnik birliklərin təşəkkülü və formalaşması prosesi "etnogenez" (yun. *ethnos* - qəbilə, xalq, *genesis* - mənşə) adlanır. Tarixən bu proses beş faza üzrə baş verir: 1. Təbii proseslərlə şərtlənən təşəkkül fazası. 2. Uğurlu sosial-iqtisadi şəraitlə, yüksək mütərəqqi əxlaqi-mədəni məzmunla və hərbi-siyasi nailiyyətlərlə şərtlənən yeni yüksəliş fazası. 3. Fövqəladə iqtisadi tərəqqi və davamlı baş verən inteqrativ proseslərlə

şərtlənən çiçəklənmə fazası. 4. Sosial-iqtisadi çökmələrlə, hərbi-siyasi uğursuzluqlarla və dezinteqrativ proseslərlə şərtlənən tənəzzül fazası. 5. Kollaps (lat. *collapsus* - yıxılmış), yaxud sistemli böhranlar nəticəsində mövcud strukturun dağılması ilə şərtlənən iflas fazası.

Qeyd etmək lazımdır ki, etnik birliklərin təşəkkülü və formalaşması prosesi həm konkret etnosun özünün yaranması tarixinə, həm də onun məskunlaşdığı landşaftın tarixinə əsaslanır. Lakin etnogenezin mənbəyi kimi, ilk növbədə "passionarların" (lat. *passionarium - əzabkeş.* Sovet tarixçisi, etnoloqu, arxeoloqu və şərqşünası Lev Nikolayeviç Qumilyov (1912-1992) tərəfindən müasir elmi dövriyyəyə daxil edilmişdir), yaxud "marturların" (lat. *martur - şahid*) fəaliyyəti çıxış edir.

Passionarlar etnosun içərisindən çıxmış və fövqəladə əqli, ruhani, yaxud cismani özəlliklərə malik olan, etnik-mədəni mühiti, vərdişləri və stereotipləri mütərəqqi məcraya dəyişməyə qadir olan şəxsiyyətlərdir. Marturlar isə etnik-milli, yaxud dini ideya naminə dinc yolla, yaxud hərb yolu ilə mücadilə edərək, şəhidlik, yaxud əzabkeşlik zirvəsinə yüksələn və adətən etnos tərəfindən müqəddəslik statusu alan şəxsiyyətlərdir [10].

Etnosların və etnik birliklərin tipik xüsusiyyətləri sırasında "etnik stereotiplər" xüsusi rol oynayır. Beləki, hər bir etnik mədəniyyət başqa xalqlar, etnik qruplar və onların nümayəndələri haqqında təsəvvürlər dəstinə malik olur [11]. Bu, başqa xalqların alicənab, dəqiqliyi sevən, brutal, qonaqpərvər, şovinist, riyakar, kompromis bilməyən, cəsur və s. kimi keyfiyyətlərlə tanınması kimi təzahür edir.

Etnik stereotiplərin fövqəladə radikal tipli formalarından biri "etnik önmühakimələr" hesab olunur. Bu termini, ilk dəfə orta əsrlər xristian ilahiyyatçısı, katolik kilsəsinin rəsmi doktrinasının (tomizm) müəllifi Akvinalı Foma (*Thomas*)1225-1274) işlətmişdir. Etnik önmühakimələrın nümunələri kimi rasizmi, antisemitizmi, islamofobiyanı, rusofobiyanı və etnofobiyanın digər formalarını göstərmək olar.

Etnosların və etnik birliklərin geniş yayılmış xüsusiyyətlərindən biri də "etnosentrizm" (lat. *ethnos*-xalq, *sentrum*-mərkəz deməkdir) kimi xarakterizə olunur. Bu xüsusiyyət etnik birlik daxilində müəyyən etnosun mərkəzi və bununla əlaqədar həlledici mövqe tutması və digər etnosların onun ətrafında tam birləşməsi kimi izah olunur. Bir qayda olaraq, belə qurumlarda əsas "mərkəzi etnik subyekt" kimi "titullaşmış xalq", yaxud "dövlətyaradan etnos" çıxış edir [12]. Etnoloqlar iddia edirlər ki, belə etnik birliklər daha davamlı olur. Lakin etnosentrizmin radikal forması "qatı millətçilik" kimi də təzahür edə bilər.

Etnik birliklərin təşəkkülü prosesində "superetnos" (lat. *super* -

üstün, fövqəladə, yun. *ethnos* - xalq) fenomeninin müstəsna əhəmiyyəti vardır. Superetnos ən iri və xüsusi etnik sistem kimi təzahür edir və onun tərkibində təmsil olunan rəngarəng etnik elementlər ümumi özünüdərk keyfiyyətlərinə malik olurlar. Superetnosların məlum tarixi nümunələri kimi Roma, Bizans, Ərəb, Çin, Hind, Amerika və b. etnosları göstərmək olar.

Superetnosun tərkibində təmsil olunan və müəyyən mənada etnik özəlliklərini qoruyub saxlaya bilən etnik elementlər isə subetnos (lat. *sub* - altında, yun. *ethnos* - xalq), konviksiya və konsorsiya adlanır [13]. Belə elementlər müəyyən landşaftla sıx bağlı olur, ümumi məişətə və taleyə malik olurlar. Bu tipli etnik elementlərin nümunələri kimi Hindistan subetnoslarını, qədim ayinçiləri, kazakları və b. göstərmək olar [14].

Etnik birliklərin yaranmasında aşağıdakı bir sıra təbii, eləcə də süni proseslərə daha çox rast gəlinir: 1. Etnik fuziya (lat. *fusio* - qovuşmaq) - əvvəllər müstəqil yaşayan və fəaliyyət göstərən, əsasən dil, mədəniyyət qohumluğu olan xalqların daha böyük etnik assosiasiyada birləşməsi. 2. Etnik konsolidasiya (lat. *con* - birlikdə, *solido* - möhkəmləndirirəm) - böyük etnosun tərkibindəki lokal qruplar arasındakı fərqlərin tam aradan qaldırılması yolu ilə möhkəm daxili birliyin bərqərar edilməsi. 3. Etnik assimilyasiya (lat. *assimilatio - özümə oxşadıram*) - əvvəllər müstəqil olan etnosun daha böyük və qüdrətli digər etnosun tərkibində "əriməsi" və şəxsi özəlliklərini itirməsi kimi təzahür edir. 4. Etnik konvergensiya (lat. *convergo* - yaxınlaşdırıram) - əsasən bir-biri ilə dil və mədəniyyət baxımından yaxın olan iki müxtəlif etnosun biri-birini qarşılıqlı şəkildə assimilyasiya etməsi prosesi. 5. Etnoslararası inteqrasiya (lat. *inteqratio - birləşmə*) - bir dövlət, yaxud region daxilində dil və mədəniyyət cəhətdən ciddi şəkildə fərqlənən etnosların qarşılıqlı əlaqəsi nəticəsində onlarda ümumi etnik cizgilərin yaranması. Bu proses nəticəsində etnoslar deyil, etnoslararası ümumilik yaranır, lakin onların perspektivdə vahid xalq kimi qovuşması imkanları da istisna olunmur. Belə tip birliklərə Roma və Bizans imperiyalarını, Rusiya imperiyasını, Sovet ittifaqını aid etmək olar. 6. Etnogenetik miksasiya (lat. *mixatio* - qarışmaq) - transformasiya xarakterli etnik birləşmə prosesinin çox az rast gəlinən tipidir. Bu proses nəticəsində qohumluq əlaqələri olmayan xalqların qovuşması ilə əlaqədar yeni bir etnos yaranır. Buna nümunə kimi avropalıların, yerli hinduların, afroamerikalıların, eləcə də asiyalıların qovuşmasından yaranan Şimali Amerika etnosunu (ABŞ, Kanada) göstərmək olar.

Qeyd etmək lazımdır ki, etnogenez prosesində etnik birləşmələrlə yanaşı, onun tam əksi olan etnik parçalanma hadisəsi də baş verir. Belə

hadisələrin daha parlaq nümunəsi kimi "etnik parsiasiya" (lat. *partialis* - hissəli - vahid etnosun bu və ya digər səviyyədə bərabər etnik hissələrə bölünməsi, məsələn, Orta Asiya, Kiçik Asiya, Qafqaz türklərini qeyd etmək olar) və "etnik separasiya" (lat. *separatio* - ayrılmaq, parçalanmaq - etnik birlikdən nisbətən daha kiçik bir hissənin ayrılması və tədricən müstəqil etnosa çevrilməsi, məsələn, ingilis puritanlarının (lat. *puritans* - təmiz, kilsənin nüfuzunu qəbul etmək istəməyən ingilis protestantları) Şimali Amerikada əsas və aparıcı etnik tərkibə çevrilməsi, yaxud ingilis məhbusların və Avstraliyaya sürgünə göndərilənlərin sonralar Avstraliya etnosunun əsasını təşkil etməsi və s.) kimi halları qeyd etmək olar.

Etnoslararası münasibətlər müasir dünyada həyata keçirilən dövlət quruculuğu işlərində və mədəni münasibətlər sistemində ən mürəkkəb və kəskin məsələlərdən biri olaraq təzahür edir. Bu məsələnin düzgün və optimal şəkildə həll olunmasından isə nəinki dövlətin sabit və davamlı inkişafı, həmçinin onun mövcud olmaq imkanları asılıdır.

Etnoslararası münasibətlərin tənzimlənməsi işində tarixi sınaqdan çıxmış bir neçə model mövcuddur: 1. Assimilyasiya modeli - insanların (etnosların) davranışlarının hakim normativ nümunələr istiqamətində adaptasiyasını ifadə edir. 2. "Əridən tiyan" modeli - çoxlu sayda etnik mədəniyyətlərin ilkin etnik-mədəni özəlliklərini itirməsi ilə müşayiət olunan sosial-mədəni situasiya kimi təzahür edir. 3. Mədəni plüralizm modeli - etnik kimliklərin müxtəlif tiplərinin bir sosial-mədəni və etnik kontinuumda (lat. *continuum* - davamlı, bütöv sistem) bərabər dəyərli elementlər qismində tanınması kimi ortaya çıxır. 4. Özək və periferiya modeli - mütləq iqtisadi və siyasi hakimiyyətə malik mərkəzlə, ondan asılı olan periferiya arasında formalaşan və millətlərarası münaqişələrin mənbəyi hesab olunan stratifikasiyanın (lat. *stratum* - təbəqə, *facio* - edirəm - cəmiyyətin, qeyri-bərabər olan müxtəlif təbəqələrə bölünməsi) formalaşması kimi tanınır.

Beləliklə, etnosların və etnik birliklərin özəlliklərini təhlil edərkən, qarşımızda son dərəcə mürəkkəb və rəngarəng bir sistem canlanır. Belə mürəkkəb və münaqişəli sistemdə universal sabitləşdirici və tənzimləyici mexanizmlərin yaradılması işi zamanın tələbi kimi ortaya çıxır.

## 5.3. ”Milli kimlik” məfhumu və onun əlamətləri (ing. *The concept “national identity”and its features*)



Müasir dünyada baş verən etnik-siyasi, sosial-iqtisadi və dini-mədəni proseslərlə əlaqədar kimlik məsələsi daha da aktual xarakter kəsb etməyə başlamışdır. Latın dilində “identitas” (“onun özü”) kimi səslənən “kimlik” anlayışı, ilk növbədə insan psixikasının vacib xassəsi kimi təzahür edir. Şüurlu məxluq kimi insan özünü dərk etdiyi ilk məqamlardan hansı mühitə, hansı ailəyə, hansı məhəbbət sferasına aid olduğunu təyin etməyə çalışır. İnsanın kimlik axtarışı, onu bütün həyatı boyu müşayiət edir. Şəxsiyyətin özünü dərk etməsi prosesində hər addım, hər mərhələ məhz onun öz kimliyini anlamaq üçün apardığı bir növ həyat mücadiləsidir. Bu axtarış zamanı insan daim özünün hansı sosial qrupa, milli topluma, professional, dil, siyasi, iqtisadi, dini, irqi və digər başqa xarakterli birliklərə mənsubiyyətini təsdiq etməyə çalışır. Lakin bir çox hallarda insan öz kimliyini və hansı irqi, milli-mədəni və əxlaqi-dini sferaya mənsubiyyətini dəqiq təyin edə bilmir. Belə bir vəziyyət bir sıra obyektiv və subyektiv səbəblərin - təbii amillərin, yaxud düşünülmüş və süni yaradılmış situasiyaların nəticəsi kimi ortaya çıxır. Məsələn, qarışıq nikahların nəticəsində yaranan, etnik mənsubiyyət baxımından tərəddüd edən və unikal etnik cizgiləri olan fərd, əqidə yoxsulluğu ucbatından dinsizliyə və etnik naməlumluğa yuvarlanmış fərdlər, snob (ing. *snob* - yüksək cəmiyyətlərə heyranlığın əsiri olan və belə cəmiyyətləri, onların mənsublarını təqlid edən, belə cəmiyyətə daxil olmaq üçün yollar axtaran insan, həmçinin yüksək intellektə, ziyaya, incə zövqə, nüfuza əsassız şəkildə iddia edən və əslində elementar zəka imkanları belə olmayan lovğa şəxs) və s. Bu isə “eqo-kimliyin” tam böhranı kimi təzahür edən vəziyyətdir. Belə vəziyyətlərdə insan şəxsiyyətinin bütövlüyü və onun cəmiyyətdəki şəxsi sosial-mədəni roluna inancı ya yoxa çıxır, ya da ciddi deformasiyaya məruz qalır. Onu da qeyd etmək lazımdır ki, “eqo kimlik” terminini müasir elmi dövriyyəyə məşhur alman və ABŞ alimi, psixoloq və psixoanalitik Erik Homburger Erikson (1902-1994) daxil etmişdi. O, bu terminlə ətraf mühitdə və insanın əsl ideoloji məzmununda baş verən dəyişikliklərə - inkişafa, inqilaba, fövqəladə tərəqqiyə, yaxud tənəzzülə baxmayaraq, şəxsiyyətin bütövlüyünü, qürurunu, insan “mən”inin şəxsi

mahiyyətinə tam uyğunluğunu və davamlılığını müəyyən edirdi.

Alimlər kimliklərin bütün rəngarəng məcmusunu iki kateqoriyaya bölürlər: 1. Davamlı şəkildə yenidən yaradılması üçün təşkilati iştirakın tələb olunmadığı təbii kimliklər. 2. Daim təşkilati dəstək tələb edən süni kimliklər. Təbii kimliklərin sırasına, bir qayda olaraq, etnik, irqi, ərazi (landşaft - dağlı, aranlı, kəndli, şəhərli və s.), ümumdünya (Şərqli, Qərbli, kosmopolit və s.) və növ kimliyi (qadın, kişi, körpə, gənc, yaşlı, qoca) aiddir. Süni kimliklərin sırasına isə, əsas etibarı ilə milli, professional, konfessional (yəhudaist, buddist, hinduist, xristian, müsəlman), regional (Qafqazlı, Qara dənizli, Aralıq dənizli, Skandinaviyalı və ya Cənub-Şərqi Asiyalı), kontinental (asiyalı, afrikalı, amerikalı, avropalı, avstraliyalı), subkontinental (hindli, çinli, ərəbistanlı), sinfi, qrup, təbəqə (varlı, kasıb, yoxsul, ortabab), zodiakal (yun. *zodiakos* - "heyvanlar dövrəsi", bürclər), zümrə (zadəgan, həzərat, ziyalı) və s. kimliklər aiddir. Elə kimliklər var ki, onlar özündə həm süni, həm də təbii əlamətləri ifadə edir (məsələn, insanın bu və ya digər cinsin nümayəndəsi olaraq, daxili mənsubiyyət hissini ifadə edən gender (yun. *genus* - *cins*) kimliyi) [15].

Yuxarıda bəhs olunan əsas kimliklər içərisində etnik, milli və dini kimliklər etnik-siyasi birliklərin təşəkkülü işində və davamlı inkişafında müstəsna rol oynayırlar. Etnik kimlik - özünütəşkil prinsipi kimi təzahür edən və etnosentrizmdən sərbəst şəkildə yaranan bir fenomendir. O, ilk növbədə etnosa və onun mədəni dəyərlərinə tarixən xas olan davranış dəstləri - nitq, jestikulyasiya (lat. *gesticulatio* - bədən hərəkəti), spesifik temperamentin müxtəlif halətləri və s. ilə ifadə olunur. Şəxsiyyətin bu xassələri onun sosiallaşması prosesinin erkən mərhələsində ortaya çıxır [16]. Etnik kimlik şəxsiyyətin sosial kimliyinin əsas tərkib hissəsi kimi təzahür edir. O, psixoloji kateqoriya qismində insanların konkret etnik birliyə mənsubiyyətlərinin dərk olunması kimi qiymətləndirilir.

Etnik kimliklərin daha düşünülmüş forması "milli kimlik" hesab olunur. Milli kimlik (ing. *national identity*), yaxud milli özünüdərk insan kimliyinin əsas elementi qismində, onun konkret etnosa, yaxud millətə mənsubiyyət hissini ifadə edir. Milli kimlik fenomeninə milliyyət və vətəndaşlıq kimi elementlər ciddi təsir göstərsə də, onlar mütləq şəkildə eynilik təşkil etmir.

Milli kimlik, bir qayda olaraq, tarixi, sosial-iqtisadi inkişafla, siyasi mənsubiyyətlə, etnik mədəniyyətlə, vətəndaşlıqla, vətənpərvərliklə və s. elementlərlə bağlı olan dəyərlər sistemidir. O, cəmiyyətin bütövlüyü və dövlətin suverenliyi problemlərinə bilavasitə ciddi təsir göstərir. Belə ki, cəmiyyətin bütövlüyü insanların ümumi ərazi, ümumi əcdadlar, ümumi

tarix, mədəniyyət normaları və qanunlar haqqında olan təsəvvürlərindən asılıdır. Bu təsəvvürlər isə son nəticədə cəmiyyətin, dövlətin və millətin ümumi və vacib rəmzlərinin yaranmasına və möhkəmlənməsinə səbəb olur. Məsələn, milli dillərdə çoxlu sayda rəmzlər mövcuddur ki, onlar insanlara öz mədəniyyətlərini dərk etməyə və kimliklərini təyin etməyə yardımçı olur. Lakin kimliyi mütləq şəkildə təyin etmək üçün bu kifayət deyil. Milli kimliklərin təmsil olunduğu dövlətin ərazi baxımdan böyük, yaxud kiçik olmasından asılı olmayaraq, onun vətəndaşlarının əksəriyyəti (məşhur, görkəmli şəxsiyyətlər nəzərə alınmadan) biri-biriləri haqqında demək olar ki, heç nə bilmirlər, lakin onların hər birinin təxəyyülündə, zəkasında daim dövlətin simvollarının, ölkənin sərhədlərinin, şəhər və kəndlərinin, yollarının, digər əsas infrastrukturlarının, tarixi və müqəddəs məkanlarının ümumi obrazı yaşayır. Beləliklə, etnik, yaxud milli fərd özünü, yuxarıda sadalanan külliyyatın ayrılmaz hissəsi kimi təsdiq edir. Bu ideya onun təfəkküründə dərin, çox şaxələnmiş kök salır. Sözügedən ideya sistemli şəkil alanda milli maraqlar kimi təzahür edir. Bu isə vahid millətin yaranması üçün ən başlıca tarixi şərt hesab olunur. Çoxmillətli ölkələrdə bu proses fərqli şəkildə cərəyan edir və çoxlu sayda müxtəlif kimliklərin vahid siyasi məfkurə əsasında birləşməsini nəzərdə tutur [17].

Milli kimliyin formalaşmasında çox həlledici əhəmiyyət kəsb edən məqamlardan biri milli ideya ilə bağlıdır. Elmi ədəbiyyatlarda milli ideya milli özünüdərkin sistemləşdirilmiş məcmusu olaraq qiymətləndirilir. Məhz milli ideya, bu və digər xalqın, etnosun, yaxud millətin varlığının mənasını təyin edən ən vacib faktor hesab olunur. Milli ideya müxtəlif formalarda ifadə oluna bilər: konstitusiya aktı, hərbi-siyasi doktrina, elmi cəhətdən əsaslandırılmış mifologiya, dini ideologiya, bədii əsər, fəlsəfi traktat və s. Çox vaxt milli ideya dini aspekt kimi təzahür edir. Bu isə dinin və dini ideologiyanın milləti birləşdirən ən güclü inteqrativ amil olması ilə bağlıdır. Məşhur rus filosofu Vladimir Solovyov (1853-1900) milli ideya anlayışını aşağıdakı kimi təyin etmişdi: "Milli ideya millətin özü haqqında, müəyyən zaman çərçivəsində nə düşünməsi demək deyil, tanrının onun haqqında əbədiyyət planında nə düşünməsidir" [18].

Etnik-milli birliklərin təşəkkülü və formalaşması prosesində dini kimliyin müstəsna rolu vardır. Dini kimlik fərdi və kollektiv özünüdərk prosesinin konkret forması kimi təzahür edən hadisədir. Onun əsasını fərdin, yaxud kollektivin konkret dini təsəvvürlər sisteminə mənsubiyyət meylləri təşkil edir [19]. Bütün mövcud kimliklər içərisində dini kimlik insanın ilkin özünüdərk forması kimi meydana gəlmişdir. Dini kimlik, təkcə dini ənənələrin qorunması və dini rəmzlərdən ayinlər səviyyəsində

istifadə edilməsi deyil. O, insanın əsas əxlaqi-mənəvi dəyərlərinin ifadəsi kimi, cəmiyyətdə özünü tapmaqda, həyatla, gələcəklə bağlı ekzistensial suallara cavab axtarmaqda yardımçı olur [20].

Milli kimlik, yaxud milli özünüdərk insanın konkret etnosa, millətə mənsubluq hissi ilə bağlı olsa da, anadangəlmə əlamət deyil. Milli kimlik fərdin müəyyən insan qrupu ilə dil, əqidə, tarix, mədəniyyət baxımından bağlılığının dərk olunması ilə formalaşır. Bu prosesdə, həmçinin fərdin konkret dövlətə mənsubiyyət hissi, onun dövlət kimliyi, milli ideyaya və dövlət rəmzlərinə bağlılığı iştirak edir.

Milli kimlik olduqca mürəkkəb fenomendir. O, müxtəlif hədlərdə, çeşidli tərkiblərdə təzahür edir. Dövlətçiliyi olmayan azsaylı xalqların milli kimlikləri özlərində regional etnik-mədəni mənsubiyyəti və həmin kimliklərin sıx bağlı olduqları dövlət və dövlətyaradan millətlə əlaqədar olan münasibətləri ifadə edir. Bu baxımdan Azərbaycan Respublikasında yaşayan azsaylı xalqların ikihədli etnik-milli kimliyi unikal hadisə kimi qiymətləndirilə bilər. Bir məqamı da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasında təmsil olunan bütün azsaylı xalqların, etnik qrupların, həmçinin dövlətyaradan millətin lokal milli kimliyi və "azərbaycançılıq" məfkurəsi ilə sıx bağlılığı Cənubi Qafqazda "Azərbaycan" adlanan etnik-siyasi birliyin davamlılığı üçün başlıca şərt hesab olunur.

Hər hansı etnik birliyin hansı tarixlə və mədəniyyətlə assosiasiya olunması, Şərqə, yaxud Qərbə, dünyəviliyə, yaxud dindarlığa, Avropaya, yaxud Asiyaya mənsubiyyətinin təyin edilməsi işi son dərəcə vacibdir. Lakin dünyada elə etnik-milli kimliklər var ki, tarixən sivilizasiyaların qovşağında yerləşməsi ilə əlaqədar onlara qoşa, hətta bir neçə müxtəlif mahiyyət məxsusdur. Bu baxımdan da Azərbaycan kimliyini nümunə göstərmək olar. Beləliklə, Azərbaycan kimliyinin gücü və qüdrəti məhz onun müxtəlif cəhətli olmasındadır. Əlbəttə, müasir Azərbaycan kimliyi ilə bağlı başlıca problem 1828-1991-ci illərdə Azərbaycanın, əvvəlcə Rusiya imperiyasının, daha sonra isə Sovet ittifaqının tərkibində olması, Azərbaycan xalqının üzərində eksperiment keçirilməsi və xalqın böyük bir hissəsinin buna əsla etiraz etməməsi, yaxud etiraz etmək iqtidarında olmaması ilə bağlıdır. Sözügedən dövrdə inanclar, vicdan, şərəf, insan ləyaqəti kimi bəşəri dəyərlər, şan-şöhrət, patriotizm, demokratizm hissi doğuran tarixi səhifələr, minillik tarixi olan köklü zadəganlar, sarsılmaz nüfuz sahibləri olan din xadimləri, kapitalist təsərrüfatının lokomotivləri olan yeni milyonçular, xalqın düşünən beyni olan əsl ziyalılar, bol maddi nemətlər yaradan varlı və əməkçi kəndlilər metodiki və məqsədyönlü şəkildə məhv edilirdi. Sözün əsl mənasında, ən yaxşı və qiymətli olanlar

sıradan çıxarılır, milli genotip üzərində "mürtəce tarixi əməliyyat" həyata keçirilirdi.

Bu gün Azərbaycan kimliyi öz gücünü şanlı tarixlə ruhani zənginlik və müxtəliflik arasındakı əlaqədən alır. Bu əlaqə daha düşünülmüş və məqsədyönlü olduqca, şüurlarda hökm sürən xaos tədricən aradan qalxır, mütərəqqi ideoloji konstruksiyanın formalaşdırılması isə daha xoşbəxt gələcəyə daim can atan müasir mədəni kimlik yaradır. İmperiyapərəstlik, ekspansionizm, etnik eqoizm, ultranasionalizm, ksenofobiya belə kimlik üçün tamamilə yaddır. Onun başlıca əlamətləri dünyəvilik, maarifçilik, humanizm, kompromislik, tolerantlıq, mərhəmət, şəfqət və mərifətdir. Azərbaycan kimliyinin əsas xüsusiyyətini isə etnik müxtəliflik üzərində qurulmuş kollektivçilik təşkil edir. Bu Azərbaycan kimliyindəki ən ali ruhani vəziyyətdir. O, "Azərbaycançılıq doktrinası" kimi təzahür edir. Bu ruhani məqam "Azərbaycan məfkurəsi" bayrağı altında bütün etnik-milli kimlikləri bir müqəddəs amal ətrafında birləşdirir. Belə bir ümumi ideya ətrafında çeşidli etnik kimliklər daşıyan - azəri türkləri, ləzgilər, talışlar, kürdlər, avarlar, tatlar, yəhudilər, slavyanlar, ingiloylar, gürcülər, udinlər, xınalıqlar, saxurlar və b. eyni qürur hissi keçirirlər.

Bir məqamı xüsusi vurğulamaq lazımdır ki, hər hansı kimlik adi şəraitdə özünü israrlı şəkildə nümayiş etdirmir. O, münaqişə şəraitində daha səfərbər olur və aktiv formada özünü büruzə verir. Bununla bağlı kimlik situasiyadan asılıdır, kifayət qədər sabit deyil və daim dəyişməyə meyllidir. Bu isə insanın dünyagörüşünün daim artması və genişlənməsi, yaxud əksinə, deqradasiyaya məruz qalması ilə əlaqədar baş verir.

## 5.4. Qlobalizasiya, qlokalizasiya və müasir dünyanın etnik-milli tərkibi (ing. *Globalization, glocalization and ethno-national composition of the modern world nationality*)



Müasir etnik-siyasi və əxlaqi-mədəni münasibətlər sisteminə lokal və regional miqyasda baş verən müxtəlif xarakterli hadisələrin həlledici və dəyişdirici təsiri danılmazdır. Lakin məhdud ərazilərdə baş verən bütün tip hadisələr öz təsirini gec-tez bütün Yer kürəsinə göstərir. Bu isə cari planetar həyatın sosial-iqtisadi, ictimai-mədəni və əxlaqi-mənəvi cəhətdən çağdaş sərhədsiz xarakteri ilə bağlıdır. Elmi cəhətdən bu hadisə "qloballaşma" (ing. *globalization* -

qlobus - Yer kürəsini əhatə edən) adlanır. Bu qarşısıalınmaz tendensiya nəticəsində dünyada daha da intensiv inteqrasiya prosesi baş verir və o, bütün subyektlərdən daha asılı vəziyyətə düşür. Lakin bu proses təkcə pozitiv nəticələr vermir. Beləliklə, dünya birliyini təşkil edən dövlətlər üçün müxtəlif xarakterli (iqtisadi, siyasi, mədəni, əxlaqi) problemlərin sayı da artır. Eyni zamanda inteqrasiya prosesinə daxil olan subyektlərin tipləri də çoxalır ki, bu da bütün dünya üçün əlavə qayğıların meydana gəlməsi ilə nəticələnir [21].

Qloballaşma dünya miqyaslı mürəkkəb iqtisadi, siyasi, mədəni, dini və s. xarakterli inteqrasiya (lat. *integratio* - *birləşmə*) və unifikasiya (lat. *unus* - tək, *facio* - edirəm, birləşdirirəm) hadisəsidir. O, özündə dünya təsərrüfatının və etnik-mədəni stereotiplərin strukturunun dəyişdirilməsi, dünyanın yeni sosial-iqtisadi, ictimai-siyasi və əxlaqi-mədəni qaydalarla idarə olunması kimi qlobal prosesi ifadə edir. Vahid ümumdünya bazar iqtisadiyyatı - geoekonomika və onun əsas infrastrukturları yaradılır və təfəkkürlərdə kök salaraq, bəşəri tərəqqini ləngidən bütün konservativ ünsürlər metodiki və məqsədyönlü şəkildə sındırılır. Nəticədə isə əsrlər ərzində beynəlxalq münasibətlərin əsas iştirakçıları olan dövlətlərin milli suverenliyi dağılır.

Qloballaşma prosesi dövlət tərəfindən formalaşdırılmış ciddi bazar sisteminin təkamülünün, dünyada hakim mövqe tutan texniki və texnoloji yeniliklərin, dəbin, informasiya-kommunikasiya texnologiyalarının və digər müasir dəyərlərin mənimsənilməsinin nəticəsi kimi ortaya çıxır. Bu prosesdə təzahür edən başlıca əlamətlər isə aşağıdakılardır: ümumdünya əmək bölgüsü, qlobal miqyaslı aktiv kapitalın, işçi qüvvəsinin, istehsal vasitələrinin miqrasiyası və konsentrasiyası, qanunvericiliyin, iqtisadi-siyasi və texnoloji proseslərin standartlaşdırılması, həmçinin müxtəlif mədəniyyətlərin yaxınlaşması və qovuşması.

Qloballaşma prosesinin tarixi uzaq XII-XIII əsrlərə gedib çıxır. Bu, sözügedən dövrdə Qərbi Avropada bazar (kapitalist) münasibətlərinin formalaşması, yeni Avropa ticarətinin və "Avropa dünya iqtisadiyyatı" fenomeninin təşəkkülü ilə bağlı idi [22]. Məşhur ABŞ sosioloqu, "sistem analizli dünya" konsepsiyasının banilərindən biri İmmanuil Vallerstaynın (1930) fikrincə sonrakı dövrlərdə qloballaşma prosesi müəyyən tənəzzül yaşasa da, XV-XVI əsrlərdə Böyük coğrafi kəşflərin (Amerikanın kəşfi, Hindistana dəniz ticarət yolunun açılması və başq.) edilməsi ilə əlaqədar yeni inkişaf mərhələsinə qədəm qoydu [23].

Onu da qeyd etmək lazımdır ki, qloballaşmanın aydın ifadə olunan cizgiləri hələ qədim dünyanın etnik-siyasi və hərbi-iqtisadi ekspansiyası,

həmçinin qlobal ticarət-iqtisadi əlaqələr kontekstində özünü ifadə edirdi. Buna misal olaraq, Ellinizm mədəniyyətinin böyük bir ərazidə yayılaraq təmsil olunmasını, Makedoniyalı İskəndərin Asiyaya hərbi yürüşlərini, Roma imperiyasının ekspansiya siyasətini, Böyük İpək yolunun əsrlərlə davam edən fəaliyyətini qeyd etmək olar.

Qloballaşma obyektiv prosesdir və sistemli xarakter daşıyır, yəni cəmiyyətin bütün sferalarını tam əhatə edir. Bəzi tarixçilər qloballaşmanı kapitalizmin növbəti mərhələsi kimi qəbul edirlər. İlk dəfə "qloballaşma" terminini "intensiv beynəlxalq ticarət" anlaınında Karl Marks 1850-ci ildə işlətmişdir. O, yaxın dostu və həmfikiri Fridrix Engelsə (1820-1895) ünvanladığı bir məktubunda qeyd edirdi ki, "artıq dünya bazarı, sözün əsl mənasında mövcuddur, Kaliforniyanın və Yaponiyanın dünya bazarına qoşulması ilə qloballaşma baş tutmuşdur" [24].

Napoleon müharibələri (1799-1815) ilə I Dünya müharibəsi (1914-1918) arasındakı dövrdə və ABŞ-da 1929-1939-cu illərdə cərəyan etmiş "Böyük depressiya" zamanı, həmçinin böyük Qərb dövlətlərinin 1930-1931-ci illərdə yüksək ticarət rüsumu təyin etmələri, nəhayət II Dünya müharibəsi (1939-1945) ilə əlaqədar qloballaşma prosesi səngisə də, XX əsrin 50-ci illərinin əvvəllərindən misli görünməmiş intensiv templərlə yenidən inkişaf etməyə başlamışdır [25].

Qloballaşmanın lokomotivləri kimi fövqəladə texniki və insani resurslara, yüksək təşəkküllü maliyyə imkanlarına malik olan transmilli korporasiyaları qeyd etmək lazımdır. Tarixdə belə təşkilatların ilk real nümunəsi hələ XVII əsrdə yaradılmış və 1602-1798-ci illərdə fəaliyyət göstərmiş Hollandiya "Ost-Hind" ticarət kompaniyası idi.

Qloballaşma prosesi elmi-texniki tərəqqinin yeni - postindustrial mərhələyə qədəm qoyması ilə fövqəladə miqyas kəsb etməyə başladı, XX əsrin 90-cı illərinin əvvəllərindən isə keyfiyyətcə ən yeni mərhələyə qədəm qoydu. Bu, keçmiş Sovet ittifaqının və dünya sosializm sisteminin dağılması, 70 il sivilizasiyaları "doğma-özgə" əlamətləri ilə parçalayan "dəmir pərdənin" aradan qaldırılması, keçmiş SSRİ məkanına daxil olan ölkələrin yeni sosial-iqtisadi, ictimai-mədəni və siyasi əsaslarda Müstəqil Dövlətlər Birliyində (MDB) təmsil olunması, 1992-ci ildə isə Avropanın çox böyük bir hissəsinin 7 fevral 1992-ci il tarixində bağlanmış Maastrix (Niderland) müqaviləsi əsasında təşkil olunmuş Avropa Birliyinə (ing. *European Union*) cəlb edilməsi və digər planetar miqyaslı hadisələrlə bağlı idi.

Qloballaşma kimi bir prosesi hərdən "amerikanlaşdırma" anlayışı ilə eyniləşdirirlər. Bu XX əsrin II yarısında ABŞ-ın dünya miqyasında

nüfuzunun fövqəladə artması ilə bağlıdır. XXI əsrin əvvəllərindən dünya elmi birliyində “Qlobal cəmiyyət” (ing.“*Global society*”) konsepsiyası fövqəladə populyarlıq kəsb etməyə başladı. Bu konsepsiyaya görə, Yer kürəsinin bütün əhalisi vahid qlobal bir cəmiyyətin vətəndaşları hesab olunurdu.

Qeyd edək ki, qloballaşma prosesinə tam paralel olaraq, etnik-milli birliklərin inkişafına, əsl mili-mədəni dəyərlərin qorunub saxlanmasına, “özgə dəyərlərin” lokal mədəni mühitə nüfuz etməsinə qarşı çox sanballı arqumentlərin və mübarizə taktikasının yaradılmasına istiqamətlənmiş daha bir fenomen mövcuddur ki, elmi ədəbiyyatlarda o, “qlokalizasiya” (ing. *glocalization,* lat. *qlobus* - kürə, *localis* - yerli, məhdud) termini ilə ifadə olunur. Qlokalizasiya termini öz mənbəyini əslən yapon sözü olan “doshakuka”dan (“nə isə yerli bir şey etmək”) götürür. Qlokalizasiya dedikdə, müxtəlif istiqamətli tendensiyaların birgə mövcudluğu kimi xarakterizə olunan iqtisadi, sosial və mədəni inkişaf prosesi başa düşülür. Qlobalizasiyanın fonunda qlokalizasiya regional və milli müxtəlifliklərin silinməsinin və yox edilməsinin tam əksinə olaraq, onların qorunması və möhkəmləndirilməsi kimi təzahür edir. Beləliklə, qlokalizasiya şəraitində inteqrasiya və unifikasiya əvəzinə başqa istiqamətlər üzrə cərəyan edən proseslər - separatizm hərəkatı, özəl, lokal müxtəlifliklərə və fərqliliklərə marağın artması, qədim tarixin, adət-ənənələrin, unudulmuş dillərin və dialektlərin dirçəldilməsi kimi cəhdlər baş verir [26]. Qlokallaşmanın əsasında “desentralizasiya olunmuş ədalətli dünya” ideyası durur. Bu gün dünyada qlokalizasiya hərəkatını tərənnüm edən çoxlu sayda təşkilatlar mövcuddur. “Qlokal Forum” adı altında ilk belə təşkilat isə 2001-ci ildə yaranmışdır. Bu təşkilatın əsas məqsədi lokal məkanlarda mövcud olan problemlərə diqqətin daha da artırılması, onların inkişafı yolu ilə dünya miqyasında tərəqqiyə nail olunmasından ibarətdir. Qeyd etmək lazımdır ki, transmilli korporasiyalar arasında davamlı mübarizənin kəskinləşdiyi və antiqlobalist hərəkatın geniş vüsət aldığı bir şəraitdə, qlokalizasiya müasir dünya bazarının və planetar etnik-siyasi münasibətlər sisteminin yaradılmasına bir alternativ variant kimi ortaya çıxır. Hətta qloballaşmanı həyata keçirən transmilli korporasiyalar belə, nəinki regional fərqlərin qorunmasında, hətta onların gücləndirilməsində maraqlı olduqlarını ifadə edirlər. Onlar iddia edirlər ki, müasir mobil iqtisadiyyatda yüksək gəlir əldə etmək üçün, müxtəlif regionlar arasında potensial fərqlərin olması son dərəcə vacibdir.

Postmodern cəmiyyətin inkişafı vahid, eləcə də universal məkanda müxtəlifliyin birgə mövcudluğunu və inkişafını ifadə edən nəzəriyyə

kimi ortaya çıxır. O, qloballaşma və universallaşma şəraitində müxtəlif mədəniyyətlərin ideallarına dəyər xarakteri verməklə seçilir.

Bu baxmdan qloballaşmanı bəşəriyyətin özünütəşkili prosesinin təkamülü qismində qəbul edərək, universallaşmanı sivilizasiyalararası əlaqələrin mürəkkəbləşməsinin nəticəsi kimi nəzərdən keçirmək olar. O, sivil inkişaf prosesində partnyorların (iştirakçıların) bərabərliyini nəzərdə tutur. Məhz universalist təfəkkürün belə tip anlamı çərçivəsində konkret qlobal problemlərin effektli şəkildə həlli mümkündür. Qlobalizasiya və qlokalizasiya kimi ümumdünya miqyaslı etnik-siyasi, sosial-iqtisadi və ictimai-mədəni proseslərin fonunda dünyanın etnik-milli tərkibi yüksək dərəcədə cazibədar görünür. Beləki, müasir dünyanın əhalisi irqi, etnik, mədəni, dil və dini münasibətlər baxımından olduqca rəngarəng mənzərə yaradır. Məlumatlara görə, Yer kürəsində 4 minə yaxın xalq və millət yaşayır. Bir çox xalqların fərqli subetnoslara bölünməsi xarakterik haldır. Tarixən bəşəriyyəti 3 əsas irqə bölmək qəbul olunmuşdur: 1. Avropoid irqi (əsasən Avropa, Amerika, Şimali və Cənubi Asiya, həmçinin Şimali Afrika). 2. Monqoloid irqi (əsasən Mərkəzi, Şərqi və Cənub-Şərqi Asiya, Ş.Amerika). 3. Neqroid irqi (Mər.Afrika). Həmçinin, avstraloid irqini də ayırd edirlər ki, əsas nümayəndələri, bir qayda olaraq, Asiyanın cənub-şərqində, Okeaniyada və Avstraliyada təmsil olunurlar.

Yer kürəsi əhalisinin etnik tərkibi müxtəlif irqlərin və etnosların nümayəndələrinin davamlı yerdəyişməsinin - miqrasiyasının nəticəsidir. Etnosların sinifləşdirilməsi isə müxtəlif əlamətlərə görə aparılır (dərinin rəngi, saçların forması, kəllə sümüyünün strukturu, xarakterik mentalitet, düşüncə tərzi, sifətin cizgiləri və s.). Onların içərisində say və dil faktoru daha mühüm əhəmiyyət kəsb edir [27]. Sayına görə dünya xalqları ciddi şəkildə müxtəlifdir. Beləki, xalqların böyük bir hissəsi azsaylı xalqlardır.

Yer kürəsində yaşayan bütün xalqların cəmi 310-nun sayı 1 milyon nəfərdən artıqdır. Onlar dünya əhalisinin 96%-ni təşkil edir. Say etibarı ilə ən böyük xalqlar isə aşağıdakılardır: 1. Çinlilər. 2. Hindistanlılar. 3. Amerikalılar. 4. Benqallar. 5. Rusiyalılar. 6. Braziliyalılar. 7. Yaponlar. Dil baxımından isə xalqlar dil ailələrinə mənsubdurlar. Dil ailələri, öz növbəsində fərqli dil qruplarına bölünür. Dünyada, 201 müstəqil dövlət (onlardan 193-ü BMT-də təmsil olunur, ikisi - Vatikan və Fələstin BMT-də müşahidəçi statusuna malikdirlər, 6-sı - Abxaziya, Tayvan, Kosovo, Saxara, Şimali Qıprız Türk Respublikası və Cənubi Osetiya müstəqilliyi qismən tanınmış dövlətlərdir) olduğu halda, beş mindən artıq milliyyət mövcuddur. Onlar bu və ya digər formada cəmi 20 dil ailəsində təmsil olunurlar. Onların ən iriləri aşağıdakılardır: 1. Hind-Avropa dil ailəsi. Bu

dillərdə 150 xalq, 2,5 milyard əhali danışır. Onun tərkibində aşağıdakı dil qrupları təmsil olunurlar: roman dilləri qrupu (fransız, ispan, portuqal), german dilləri qrupu (alman, ingilis, idiş, holland), slavyan dilləri qrupu (rus, polyak, ukrayna), hind-ari dilləri qrupu (hindi, marathi, pencabi) və iran dilləri qrupu (fars, tacik). 2. Çin-Tibet dil ailəsi. Bu dillərdə Çinin, Nepalın və Butanın 1 milyarddan artıq əhalisi danışır. 3. Ural-Altay dil ailəsi. Bu dillərdə isə 500 milyondan artıq insan danışır (əsasən türk xalqları). Alimlərin ehtimallarına görə, XXI əsrin ortalarına qədər bu gün istifadə olunan dillərin yarısı ünsiyyət vasitəsi kimi yox olacaqdır [28].

Dünya ölkələrinin $^{1}/_{4}$ hissəsi bu və ya digər səviyyədə birmillətlidir. Bu dövlət sərhədləri ilə etnik sərhədləri üst-üstə düşən ölkələrdir. Burada əsas dövlətyaradan millətin ümumi sayı 90% təşkil edir. Belə ölkələrin böyük hissəsi Avropada, Latın Amerikasında və Yaxın Şərqdə yerləşir. Çoxmillətli ölkələrin sərhədləri çərçivəsində isə bir neçə etnos yaşayır. Belə ölkələri 4 qrupa bölmək olar: 1. Bir millətin mütləq say üstünlüyü şəraitində az-çox milli azlıqların yaşadığı ölkələr (Azərbaycan, Böyük Britaniya, Fransa, İspaniya, İtaliya, Gürcüstan, Monqolustan, Yaponiya, Türkiyə, Əlcəzair, Mərakeş, ABŞ, Avstraliya, Çin). 2. İki millətlin əsas etnik dominant olduğu ölkələr (Kanada, Belçika). 3. Mürəkkəb, lakin etnik cəhətdən eyni tipli milli tərkibi olan ölkələr (İran, Əfqanıstan, Pakistan, Laos). 4. Etnik anlamda mürəkkəb və müxtəlif milli tərkibi olan ölkələr (Rusiya, Hindistan, İsveçrə, İndoneziya).

Beləliklə, dünyanın postmodern etnik-milli mənzərəsini nəzərdən keçirdikdə belə məlum olur ki, qloballaşma prosesi nə qədər zəruri və obyektiv proses olsa da, qarşısında duran tarixi vəzifələri nə qədər israrla həyata keçirsə də, ona qarşı digər bir sanballı fenomen - qlokalizasiya çıxış edir. Qloballaşma nə qədər mütərəqqi xarakter daşısa da və imtina edilməsi olduqca çətin olan dəyərlər təklif etsə də, qlokalizasiya özünün əsaslı konservativ arqumentləri ilə planetar inteqrasiyaya israrlı şəkildə müqavimət göstərən hərəkat və sarsılmaz əqidə kimi özünü təsdiq edir.

## *İstinadlar*

*1. Тотемизм. Философский словарь. Под ред. Э.Л. Радлова - СПб. Москва, 1911. С. 253*

*2. Коротаев А.В., Оболонков А.А. Родовая организация в социально-экономической структуре классовых обществ. Советская этнография. М:, 1989. № 2. С. 36-45*

*3. Орлов А.С., Георгиева Н.Г., Георгиев В.А. Исторический словарь. 2-е изд. Москва, 2012, с. 484*

*4. Коротаев А. В. «Политическая организация сабейского культурного ареала во II-III вв.н. э.: к соотношению племени и государства». «Племя и государство в Африке». Редак. В.А. Попов.,Москва:, Институт Африки АН СССР, 1991. С. 101-119*

*5. Коротаев А.В. «Апология трайбализма»: Племя как начальная форма социально-политических организаций в сложных непервобытных обществах. Социологический журнал. Москва, 1995. № 4. С. 68-86*

*6. Гиндер (Данилова) В.Е. Проблема определения понятий «этнос» и «нация» в зарубежной и отечественной литературе. Проблемы социальной и административной консолидации Байкальской Сибири. Мат. Всероссийской научно-теоретической конференции. Часть I. Иркутск: Оттиск, 2008. 380 с. С. 228-235*

*7. Белова Ольга В. Народы. Славянские древности: Энциклопедический словарь: в 5 томах. Под общ. ред. Н. И. Толстого; Институт славяноведения РАН. - Москва, Международные отношения, 2004. - Т. 3:, с. 367-370*

*8. Липкин А.И. К вопросу о понятиях национальной общности и национального культурного ядра.Вестник российской нации.2012, № 4-5, с. 155-176*

*9. Герасимов О.В. Феномен исторической памяти. Вестник УРАО. 2013. № 5 (68). с. 133-137*

*10. Гумилев Лев Николаевич. Большая российская энциклопедия. Т. 8. Москва, 2007. с. 155*

*11. Филюшкина С. Национальный стереотип в массовом сознании и литературе. Логос. - 2005. - № 4 (49) с. 142*

*12. Кон И.С. Этноцентризм. Философский энциклопедический словарь. Гл. ред: Л.Ф. Ильичев, П.Н. Федосеев, С.М. Ковалев, В.Г. Панов. Москва, Советская энциклопедия, 1983. с. 812. 840 с.*

*13. Тавадов Г.Т. Этнология. Современный словарь-справочник. Москва, 2011, с. 150*

*14. Барбашин М.Ю. Институты и этногенез: институциональное воспроизводство этнической идентичности в новых локальных сообществах. Монография. Москв, ИПОПИ ЮФУ. - 2013. - С. 356*

*15. Абушенко В.Л. Идентичность. Социология: Энциклопедия. Сост. А.А. Грицанов, В.Л. Абушенко, Г.М. Евелькин, Г.Н. Соколова, О.В. Терещенко. Минск, Книжный дом, 2003. с. 344-349. 1312 с.*

*16. Речевое общение: Проблемы и перспективы: Сб. науч.- аналитич. обзоров. Москва, 1983, с. 192-193*

*17. Хантингтон С. Кто мы? Новые вызовы современной американской национальной идентичности. Москва: АСИ, 2004. С. 558*

*18. Русская идея. Сб.: Русская идея. Москва, Республика. 1992. С.187*

*19. Крылов А.Н. Религиозная идентичность. Личное и ндвидуальное и коллективное самосознание в новом постиндустриальном пространстве.-3-е издание дополн. и перераб. – М:, Издательство ИКАР, 2014. С. 223, 273-274.- 356 с.*

*20. Ковалева А.И. Новый взгляд на явление идентичности // Знание. Понимание. Умение.Москва, - 2013. - № 3. - с. 322*

*21. Гринин Л.Е. Глобализация и национальный суверенитет. История и современность. № 1. Москва, - 2005. С. 6-31*

*22. Herlihy D. The Economy of Traditional Europe. The Journal of Economic History, 1971, Vol 31, No.1, p. 169*

*23. Wallerstein I. The Modern World-System. Capitalist Agriculture and the Origins of the European World-Economy in the Sixteenth Century. New York, 1974, pp. 18-80*

*24. Аттали Ж. Карл Маркс. Мировой дух. Москва, 2008. С. 192*

*25. The Cambridge Economic History of Europe, Cambridge, 1989, Vol. VIII, pp 1, 90-91*

*26. Khodker, Habibul Haque/ 2004. Glocalization as Globalization: Evolution of a Sociological Concept, Bangladesh e-Journal of Sosiology 1 (2): pp. 12-20*

*27. Рогинский Я.Я., Левин М.Г. Антропология: Учебник для студентов университетов. 3-е изд. перераб. и доп. Москва, Высшая школа, 1978. - с. 341*

*28. Фишман Роман. Лингвистический гомункул. популярная механика.- Москва, 2017. - № 5.- с. 78-82*

# VI FƏSİL. MULTİKULTURALİZM ETNİK-MƏDƏNİ VƏ DİNİ MÜXTƏLİFLİYİN TƏNZİMLƏNMƏSİNDƏ SƏMƏRƏLİ SİYASƏT KİMİ



## 6.1. Multimədəni ideyaların təzahürünə tarixi baxış. Multikulturalizm alternativi olmayan tənzimləmə sistemidir (ing. *Historical view on the manifestation of multicultural ideas. Multiculturalism is a system of regulation that does not have an alternative*)



Bəşər cəmiyyətinin münaqişəli xarakteri ona apriori (lat. *a priori* - əzəli, təcrübəyə qədər məxsus olan deməkdir) xas olan əlamətdir. Səmavi kitablarda ilk insanın yaranışı səhnəsi və onunla bağlı bütün hadisələr konflikt motivləri əks etdirir. Bu motivlərin apogeyini isə Adəmin oğulları Habil-maldar və Qabil-əkinçi arasında, Habilin ölümü ilə nəticələnən qanlı münaqişə təşkil edir [1]. Qardaşlar tərəfindən tanrıya gətirilən qurbanlara "fərqli tanrı münasibəti" kimi təsvir olunan bu "dini avansəhnə"də baş verən hadisələr (Habilin gətirdiyi qurbanın qəbul edilməsi, Qabilin qurbanının isə rədd edilməsi), əslində insanlar arasında əbədi münaqişə yaratmaq deyildi. O, yaxın keçmişdə tanrıya xəyanət etmiş Adəmlə Həvvanın izdivacından yaranmış fərdlərin ilk sınağı idi. Göründüyü kimi, potensial münaqişə daşıyıcısı olan insan bu sınaqdan çıxa bilmədi. Bu münaqişəli motiv isə minilliklər ərzində insan həyatının potensial məzmununu təşkil edir. Yer üzərində insanların sayının məhdud olmasını nəzərə alsaq, bu hadisə bəşərin 1/4 hissəsinin məhv olması ilə nəticələnən ilk qlobal münaqişə idi. Məlum faciədən sonra isə Qabil Edemdən (ərəb. *Cənnət* - ingilis tarixçisi Devid Maykl Rol (ing. *David Michael Rohl* - 1950) iddia edir ki, Cənnət bağı Təbrizdə və onun ətrafında yerləşirmiş) şərqdə yerləşən Nod ölkəsində məskunlaşdı və özündə ən radikal münaqişə kodları daşıyan nəsillər

yetişdirməyə başladı [2]. Adəmlə Həvvanın Sif adlı oğlundan başlayan qövm (ərəb. kiçik xalq, tayfa) isə Nuh (ivrit. Noah), İbrahim (qədim yəh. Avraham), Musa (ivrit. Moşe, yun. Movses), İsa (ivrit. İeşua, yun. İisus) və Məhəmməd (salavatullah) kimi böyük rəsullar və peyğəmbərlər nəsli yetişdirdi. Göründüyü kimi, Adəm övladlarının bütün tarixi, bir tərəfdən genetik qarşıdurma, intolerantlıq, qibtə, paxıllıq, nifrət, digər tərəfdən isə sülh, əmin-amanlıq, humanizm, mərhəmət, alicənablıq və ilahi məhəbbət üzərində qurulub. Məhz bu iki fərqli substansiya min illərdir ki, "xeyir və şər antinomiyası" şəklində bəşəriyyət tarixinin münaqişəli məzmununu təşkil edir. Buna görə də, tanrı tərəfindən öz bəndələrinin ixlası üçün göndərilmiş bütün müqəddəs kitablarda, vəhylərdə və kəlamlarda Yer kürəsində həyatın əbədi mövcudluğu üçün əsas şərt olan barışığa gəlmək, Qabilin səhvini təkrar etməmək göstərilir. Lakin bəşərin genetik kodunda kök salmış yad həlqə, min illər ərzində intolerantlığı, münaqişəni və müharibəni şüurlu həyatın əsas motivlərinə çevirmişdir. Bununla belə, insanın sağlam düşüncəsi hər bir yeni tarixi dönəmdə qalib gəlmiş və bəşəriyyəti tam iflasdan qurtarmışdır. Bu baxımdan tarixin ən müxtəlif böhranlı mərhələlərində qəbul olunmuş böyük "barışıq aktları", yüksək təşəkküllü tənzimləmə sistemləri xüsusi əhəmiyyət kəsb edir. Onu qeyd etmək lazımdır ki, multikulturalizm ideyaları və onlarla bağlı həyata keçirilən yeni siyasət hələ "Habillə və Qabil əyyamında" başlanmış və bugünədək davam edən bütün münaqişələri tənzimləmək üçün yüksək təşəkküllü tədbirlər sistemi kimi təzahür edir.

Rəsmi sənədlərdə öz əksini tapmış ilk barışıq aktı Milan və yaxud Mediolan edikti (lat. *Edictum Mediolanense*) hesab olunur. 313-cü ildə Roma imperatorları I Konstantinlə (306-337) Lisini (308-324) tərəfindən yazılmış və imperiya ərazisində dini dözümlülüyü elan etmiş məktuba əsaslanır. Milan edikti bütün dinlərin və əqidələrin bərabər hüquqlarını de-yure qəbul edən ilk belə tarixi sənəd idi [3]. Beləliklə, Milan edikti dini dözümlülüyü, dolayı yolla multikultral dəyərləri hüquqi müstəviyə çıxaran ilk rəsmi sənəd kimi qiymətləndirilə bilər.

Qərb və Şərq sivilizasiyalarının dini bayraq altında toqquşduğu XIII əsrdə baş vermiş, tarixin dini barış yaddaşında unikal hadisə kimi qalmış çox kompromis bir nümunəni - Müqəddəs Roma İmperiyasının imperatoru, Səlib yürüşlərinin aktorlarından biri olmuş və müsəlmanlara qarşı xüsusi qəddarlığı ilə yadda qalmış I Fridrix Barbarossanın (1155-1190) nəvəsi II Fridrix Ştaufenin (1212-1250), Əyyubilər sülaləsindən olan, 1187-ci il tarixdə Yərusəlimi səlibçilərdən azad etmiş Səlahəddin Yusifin (1174-1193) qardaşı oğlu, Misir sultanı Nəsirəddin Məhəmməd

əl-Kamillə (Meledin - 1218-1238) Yərusəlimin statusu haqqında razılığa gəlmələrini qeyd etmək lazımdır. Belə razılıq 1228-1229-cu illərdə baş vermiş VI Səlib yürüşü (qeyd etmək lazımdır ki, bu yürüşdə xristianlarla müsəlmanlar arasında 1 dənə də döyüş olmamışdı) zamanı 1229-cu il 11 fevral tarixində Yaffoda (indiki Tel-Əviv-Yaffa) əldə edilmişdi və onillik müqaviləyə əsaslanırdı. Müqaviləyə görə, Yərusəlim, Nəzarət, Vifleem və sahil boyu koridor da daxil olmaqla, Yərusəlim krallığı sülh yolu ilə II Fridrixə verilmişdi. Məbəd Dağı və Əl-Əqsa məscidi isə müsəlmanların nəzarəti altında qalmışdı. Müsəlmanlara şəhərdə toxunulmazlıq statusu və digər imtiyazlar verilmişdi.

II Fridrix Neaopolitan Universitetini (lat.*Universita degli Studi di Napoli Federico II* -1224) təsis etməklə orta əsrlər universitet təhsilinə xüsusi töhfə vermişdi. Belə ki, universitetdə ilahiyyatla yanaşı dünyəvi elmlər də tədris olunurdu, həm də müəllimlərin içərisində çoxlu sayda yəhudi və müsəlman alimləri fərqli elmləri tədris edirdilər. II Fridrixin cangüdənlərinin çoxu etnik saratsinlərdən (lat. *saraceni* - ərəbcə "şərq" sözündən götürülmüşdür və Avropalılar tərəfindən əsasən müsəlmanlara münasibətdə işlədilirdi) ibarət idi. Təbii ki, hökmdar belə sülhyaradan əməlinə görə "bütün mövcud intolerant dünyanı", müharibə və zorakılıq partiyalarını özünə düşmən etmişdi. Xüsusilə də, "tanrıdan sülhyaradan tapşırıq almış" Roma papaları III İnnokentiy (1198-1216), III Honoriy (1216-1227), IX Qriqoriy (1227-1241) və IV İnnokentiy (1243-1254) əsl təyinatlarını unudaraq, II Fridrixi müsəlmanlarla sülhə və razılığa gəldiyi üçün kilsədən iraq salmış və ona qarşı qəti anafemalar elan etmişdilər. İmperatorun siyasi opponentləri isə onu "antixrist" (ər. *Məsih əl-Dəccal*) adlandırırdılar.1245-ci ildə I Lion kilsə yığıncağında II Fridrix Ştaufenin imperator titulu da ləğv edilmişdi. Hətta bəzi mənbələrdə hökmdarın öz doğma oğlu Manfred tərəfindən öldürüldüyü qeyd olunurdu. Lakin buna baxmayaraq, müasirləri II Fridrixi əsl tolerantlıq, humanizm və tərəqqi nümunəsi kimi qəbul edir və onu "Dünyanın möcüzəsi" (lat. *Stupor mundi*) adlandırırdılar. İngilis xronisti, tarixçi və monax Matfey Parisli (1200-1259) II Fridrix Ştaufenin ölümündən sonra yazırdı: "Fridrix - yer üzündəki knyazlardan ən böyüyü, "Dünya möcüzəsi" vəfat etdi". Məşhur ingilis tarixçisi Eduard Frimen (1823-1892) isə II Fridrix haqqında bu sözləri yazmışdı: "İnsan övladlarından ən istedadlısı, təbiət etibarı ilə İskəndərdən, Konstantindən, yaxud Böyük Karldan yüksəkdə duran, nə vaxtsa başında tac daşımış bütün şahzadələrdən ən böyüyü" [4]. Əlbəttə ki, tarixin ən görkəmli şəxsiyyətlərindən olan II Fridrixin və Əl-Kamilin qüdrəti zamanı qabaqlamaq, həqiqətin sülhdə və barışıqda olmasını dərk

etmək bacarığında, "qəlblərinin isə yüksək tolerantlıq ruhunun məskəni olmasında" idi. Şərq-müsəlman mədəniyyətinin vurğunu olan II Fridrix vəfat edəndə, onun vəsiyyətinə uyğun olaraq büküldüyü "plat", yaxud plaşanitsa (kəfənin xaçpərəst modifikasiyası) ərəb hərfləri ilə yazılmış Quran kəlamları ilə bəzədilmişdi. Bu intolerantlığın və dini antaqonizmin hökm sürdüyü bir şəraitdə möhtəşəm hadisə idi.

Tarixi sənədlərdə öz əksini tapmış daha bir məşhur barışıq aktı Nant ediktidir (frans. *iedit de Nantes*). O, protestantlara (quqenotlara) azad ibadət imkanları vermiş hüquqi akt idi. Edikt Fransa kralı IV Henrix Burbonun (1589-1610) əmri ilə tərtib olunmuş, Nant şəhərində 13 aprel 1598-ci il tarixində təsdiq edilmişdi. 93 maddədən və 36 gizli qərardan ibarət Nant edikti Avropada 100 ildən artıq davam edən və "Möhtəşəm əsr" kimi xarakterizə olunan konfessiyalararası yeni sülhün başlanğıcını qoymuşdu [5]. 18 oktyabr 1685-ci il tarixində Fransa kralı XIV Lüdovik (1643-1715) "Fontenblo edikti" ilə Nant ediktini ləğv etmiş, bununla da protestantların Fransadan kütləvi şəkildə mühacirəti başlanmışdı.

Avropada tolerantlığı rəsmi səviyyədə elan etmiş daha bir barışıq aktı 15 may və 24 oktyabr 1648-ci il tarixində bağlanmış, Müqəddəs Roma imperiyasının (962-1806) ərazisində "30-illik müharibəyə" (1618-1648) son qoymuş və konfessiyalar arasında sülh, əmin-amanlıq bərqərar etmiş Vestfal (Vestfaliya - Almaniyanın şimal-qərbində tarixi əyalətdir) sülhüdür. Sülhün ən başlıca məqsədi isə imperiyadaxili, konfessional və beynəlxalq siyasi münasibətlərin tənzimlənməsindən ibarət idi. Vestfal konqresinin bütün iştirakçıları 1555-ci ildə bağlanmış "Auqusburq dini sülhünün" (Müqəddəs Roma imperiyasının katolik və lüteran subyektləri ilə Roma kralı I Ferdinand (1531-1564) arasında 25 sentyabr 1555-ci il tarixində Auqusburqda (C. Bavariya) bağlanmış və lüteranlığı rəsmi din kimi tanımış, həmçinin imperiya zümrələrinə dini seçim azadlığı vermiş sülh müqaviləsi) müddəalarını tam qəbul etdilər və "Restitusiya haqqında edikti"in (alm. *Restitutionsedikt* - 6 mart 1629-cu il tarixində Müqəddəs Roma İmperiyasının hökmdarı olan II Ferdinand (Habsburq-1617-1637) tərəfindən verilmiş və Auqusburq sülhünün əsas müddəalarını təsdiq edən fərman) müddəalarını rədd etdilər [6]. Vestfal sülhü katoliklərin, protestantların, kalvinistlərin və lüteranların hüquq bərabərliklərini elan etdi. İndiyədək tam qüvvədə olan və "*cujus regio, ejus religio*" ("kimin vətənidirsə, onun da müqəddəs dinidir") [7] kimi prinsipi ləğv etdi, dini dözümlülüyü əsas sülhyaradan prinsip kimi bəyan etdi.

Sülhyaradan dözümlülük aktları və barışıq tədbirləri, həmçinin Şərq aləmində, müsəlman dünyasında həmişə çox aktual olmuş və rəsmi tarixi

sənədlərdə öz əksini tapmışdır. Buna misal olaraq, 1556-1605-ci illərdə Böyük Moqollar İmperiyasına (1526-1858-ci illərdə özlərini Böyük Əmir Teymurun nəsli-mənsəbinə uyğun olaraq "Gurxanilər" (Xanın kürəkəni) adlandıran Orta əsrlər imperiyası) rəhbərlik etmiş və Böyük Əkbər kimi tanınmış Əbülfət Cəlaləddin Məhəmmədin tədbirlərini göstərmək olar. Hindistan subkontinenti kimi böyük bir ərazidə indus-müsəlman icmaları arasında barışığı və əbədi sülhü təmin etmək məqsədi ilə o, 1575-ci ildə "Fəthpur Zikri" (Qələbə şəhəri) şəhərində dini məsələlərin müzakirəsi üçün nəzərdə tutulmuş "dini ibadət evi" inşa etdirmişdi. 1582-ci ildə isə islamın, hinduizmin, caynizmin, zərdüştlüyün, xristianlığın ən mütərəqqi ənənələrini özündə ifadə edən sinkretik dini-fəlsəfi doktrina - "dini-ilahi" yaratmışdı. Böyük Əkbər "barışıq dini" qismində "dini-ilahi"ni bütün imperiyanın ərazisində əsas nüfuz obyekti elan etmişdi. Dini-ilahi özündə digər dünyagörüşləri ilə yanaşı, mistikanı, fəlsəfəni, eləcə də naturalizmi ifadə edir, müxtəlif dinlərdə təzahür edən tək tanrını yeganə nüfuz sahibi elan edirdi. Politeizmi qəti olaraq inkar edir, hinduizmdə təmsil olunan "ilahi plüralizmi" tək tanrının ən müxtəlif mahiyyətləri olduğunu təsdiq edirdi. Yüksək dini tolerantlıq nümayiş etdirən Böyük Əkbər qiblə kimi üzünü Günəşə tutur, zərdüştlüyə məxsus olan sönməz odun yandırılması ayinini yerinə yetirir, boynunda brahman ipi gəzdirir, alnına isə hinduizm nişanları vururdu [8]. Hökmdar sarayda heyvan ətinin yeyilməsini belə qadağan etmişdi. Dini-ilahi daha çox bir əxlaqi konsepsiya kimi təzahür edən təlim təəssüratı bağışlayırdı. Təlim hər şeydən əvvəl Hindistanın müsəlman dünyasını "Ramayana", "Mahabharata", "İncil" və "Avesta" kimi müqəddəs kitabların tərcümələri ilə zənginləşdirdi. Qeyd etmək lazımdır ki, Böyük Əkbər tarixdə dini tolerantlığı fövqəladə şəkildə tərənnüm edən yeganə müsəlman hökmdar olmuşdur. Onun tolerantlığı hansısa barışıq sənədinin imzalanması ilə bitmirdi. Hökmdar praktikada, öz şəxsi həyat tərzində sülhün, rifahın, barışığın, multimədəni dəyərlərin, tolerantlığın sintezindən yaranmış siyasəti davamlı inkişafın əsas şərti, alternativi olmayan tənzimləmə sistemi kimi tətbiq edirdi. Onun undus Racput rackumarisi Hira Kunvari (Codha, Codbay, yaxud Məryəm-üz-Zamani - 1542-1623) ilə çox möhtəşəm ittifaqı və məhəbbəti də, bəşər tarixində tolerantlığın və barışığın təkrarolunmaz nümunəsi kimi ifadə olunurdu. Böyük Əkbərin "Dini-ilahi" kimi "tolerantlıq əsəri" bu gün də hind cəmiyyətində indus-müsəlman fikir ayrılığında tənzimləyici amil kimi təzahür edir.

Şərq-müsəlman dünyasında əsas etnoslararası və konfessiyalararası tənzimləyici faktor kimi ortaya çıxmış daha bir möhtəşəm hadisə 1839-

cu ilin 3 noyabr tarixində Osmanlı sultanı I Əbdülməcid (1839-1861) tərəfindən qəbul olunmuş Tənzimat (tənzimləmə), yaxud “Gülhaneyi-xətti-Şərif” (ifadənin hərfi mənası - “Gülhanədə (türk.“*Gül evi*”- Osmanlı sultanlarının iqamətgahı Topqapıda park) verilmiş müqəddəs fərman) hesab olunur [9]. Sözügedən xüsusi tarixi sənəd dinindən, dilindən, etnik mənsubiyyətindən asılı olmayaraq, imperiyanın təbəələrinin həyatının və əmlakının qorunmasını, onların bərabər hüquq və azadlıqlarının təmin edilməsini nəzərdə tuturdu. Sənəd, həmçinin xalqla hökumətin birliyini elan edirdi. Tənzimat “osmançılığı” mütərəqqi ideya kimi imperiyanın çoxmillətli əhalisinin əsl beynəlmiləlçilik prinsiplərinə əsaslanaraq, sülh, barışıq və qarşılıqlı yardım şəraitində yaşamasının və inkişaf etməsinin təmin olunmasına yönəltmişdi.

XX əsrdə etnik-milli və etnik-dini tənzimləmə məsələləri daha çox həyati əhəmiyyət kəsb etməyə başladı. Bu dövrdə baş vermiş iki total miqyaslı hərbi münaqişə - I və II Dünya müharibələri, nüvə silahlarının kəşfi və onun kütləvi istehsalı bəşər əqlindən daha ciddi təhlükəsizlik tədbirləri görməyi tələb edirdi. 1945-ci il iyunun 26-da yaradılmış BMT (BMT-nin Nizamnaməsi 24 oktyabr 1945-ci ildə qüvvəyə minmişdir) və 10 dekabr 1948-ci il tarixində bu təşkilatın Baş Assambleyasının qəbul etdiyi “İnsan hüquqları və azadlıqları haqqında ümumi qətnamə” (217 A saylı rezolyusiya) belə təhlükəsizlik tədbirləri içərisində ən möhtəşəm hadisələr hesab olunur.

“Qlobalizasiya” adlanan mütləq bir prosesin cərəyan etdiyi XX əsrdə insanların etnik-siyasi və dini-mədəni birliyi üçün ciddi təhlükə yaradan və potensial hərbi münaqişələrin mənbəyi olan məsələlərdən biri də, separatizm meylləri ilə bağlıdır. XX yüzillikdə, əsrlər boyu mövcud olmuş imperiyaların məhv olması dünyanın siyasi xəritəsinin tanınmaz şəkildə dəyişməsinə səbəb olmuşdu. Separatizm və siyasi differensiasiya prosesi XX əsrin 2-ci yarısında daha intensiv templərlə cərəyan etməyə başladı. Belə bir şəraitdə ayrı-ayrı dövlətlərin siyasi birliyini qoruyub saxlamaq, separatizm amillərini tam aradan qaldırmaq, müxtəlif etnos, din, əqidə, məzhəb sahiblərinin iqtisadi-siyasi birliklərdə könüllü və düşünülmüş şəkildə təmsil olunmalarına zəmanət vermək üçün yüksək təşəkküllü tənzimləmə siyasətinə, optimal tipli barışıq konsepsiyalarına və qarşılıqlı anlaşmaya əsaslanan kompromis sistemlərə ehtiyac var idi. XX əsrin 60-cı illərində belə bir orijinal təhlükəsizlik sistemi qismində multikulturalizm ideyası təzahür etdi. Bununla da etnik-milli və dini-mədəni tənzimləmə tarixində yeni bir mədəni era başlandı - fikirlərin, ideyaların, dünyagörüşlərinin müxtəlifliyini, dəyərlərin plüralizmini elan

etmiş multikulturalizm erası. Əslində, multikulturalizm yeni bir sosial hadisə deyildi, o, minilliklərin təcrübəsini, müxtəlif tipli mədəni-siyasi dövrlərin əsas ideallarını birləşdirmiş yeni təhlükəsizlik tədbirləri sistemi kimi özünü təsdiq edirdi. İbrahim peyğəmbərdən (e.ə. XIX əsr - e.ə. 1812-1637) başlamış, 1968-1979 və 1980-1984-cü illərdə çağdaş Kanadanın Baş naziri olmuş Pyer Tryudoya qədər sağlam və olduqca mütərəqqi düşünən bəşəriyyət Məhəmməd Rəsülullahın (s.s.s. - 570-632) və Həzrət Əlinin (599-661), Şeyx Fəzlullah Nəiminin (1339-1401), Mahatma Qandinin (1869-1948), 4 sentyabr 2016-cı il tarixdə **"Müqəddəslər"** siyahısına daxil edilmiş və bütün dünyada **Tereza ana** kimi tanınan **Müqəddəs Tereza Kəlküttəli**nin (Aqnes Qonce Boyaciu -1910-1997), 1978-2005-ci illərdə 264-cü Roma papası olmuş (dünyəvi adı **Karol Yuzef Voytıla** - 1920-2005) **II İoann Pavelin** və digər belə çox mütərəqqi şəxsiyyətlərin möhtəşəm simasında yeni əhdin, barışığın, mərhəmətin və humanizmin əsas simvollarına çevrilmişdir. Bu gün isə multikulturalizm çoxlu sayda polietnik məkanlarda baş qaldırmış separatizm cəhdlərinin qarşısını daha effektli üsullarla almağa qadir olan siyasət, yeni-yeni nəsllərin ideoloji konstruksiyasının,dünyagörüşlərinin formalaşdırılması ilə bağlı vəzifələri üzərinə götürmüş prinsiplər sistemi kimi təzahür edir. O, bu imkanlarını XX əsr ərzində polietnik siyasi birliklərin simasında dönə-dönə sübut etmiş və bu gün də edir. Alternativi olmayan tənzimləmə sistemi kimi multikulturalizm çoxlu sayda siyasi qurumların davamlı inkişafını təmin edən siyasət qismində də xüsusi növ aktuallıq kəsb edir, bütün polietnik məkanlarda özünəməxsus profilaktika tədbirləri kimi təzahür edir.





## 6.2. Multikulturalizmin hüquqi əsasları (ing. *Legal foundations of multiculturalism*)




Hər bir mütərəqqi təlimin cəmiyyətdə özünü təsdiq etməsi və müvafiq sanksiya alması üçün hüquqi normalara əsaslanması başlıca şərtdir. Bu baxımdan postmodern

təlim olan multikulturalizm də istisna deyil. Multikulturalizmin polietnik cəmiyyətlərdə hüquqi cəhətdən tam təsdiq olunması üçün onun müvafiq prinsipləri ifadə etməsi və onları praktikada tətbiq etməsi zəruridir.

Beləliklə, multimədəni ideyaların, eləcə də onlarla bağlı həyata keçirilən siyasətin gözlənilən pozitiv nəticələr verməsi üçün aşağıdakı mühüm prinsiplərə əməl olunmalıdır: **1. Etnik-mədəni müxtəlifliyin mövcudluğu prinsipi.** Bu prinsip konkret bir dövlətin daxilində müxtəlif mədəniyyətlərin daşıyıcıları olan milli azlıqların, eyni zamanda müxtəlif dini konfessiyaların birgə mövcudluğunu nəzərdə tutur. Multikulturalizm siyasətini həyata keçirən dövlətlər, belə müxtəlifliyi şəxsi mövcudluğa münasibətdə təhlükə kimi görmür. Onu cəmiyyətin əsl pozitiv zənginliyi kimi qəbul edir, həmin xalqların öz mədəniyyətlərini qorumaları üçün dəstək göstərir. **2. Mədəni kimlik prinsipi.** Bu prinsip cəmiyyətdə təmsil olunan hər kəsin, hər qrupun öz şəxsi mədəni kimliyini və ya xarakterini qoruyub saxlamaq hüququ olduğunu təsdiq edir. **3. Mədəni bərabərlik və qarşılıqlı dözümlülük prinsipi.** Bu prinsipin əsas mahiyyəti ondan ibarətdir ki, bütün etnik-mədəni qruplar hər hansı özəlliyinə baxmayaraq, bərabərdir və vahid bir məkanda yalnız qarşılıqlı hörmət və dözümlülük şəraitində davamlı şəkildə mövcud ola bilərlər. Bu prinsipə görə, etnik mənşə kimliyi vətəndaşlıq kimliyinə münasibətdə altsistem kimi təzahür etməlidir. **4. Qruplararası etnik-mədəni əlaqə prinsipi.** Hər bir etnik-mədəni və dini qrup, yaxud onun hər bir nümayəndəsi digər qruplarla və ya onun nümayəndələri ilə təhlükəsiz və sərbəst ünsiyyət qura bilməlidir. Eyni cəmiyyətdə mövcud olan hər bir kəs digər qruplara qarşı açıqfikirli olmalıdır. **5. Bərabər imkanlara sahib olmaq prinsipi.** Bu prinsip etnik mənsubiyyətindən, dini dünyagörüşündən və ictimai əqidəsindən asılı olmayaraq, vətəndaşların qanun qarşısında bərabərliyini və cəmiyyətin təqdim etdiyi siyasi, iqtisadi, mədəni dəyərlərdən bərabər şəkildə istifadə etmək kimi imkanlarını ifadə edir. **6. Siyasi hakimiyyətin və idarəçilik sisteminin iştirakı prinsipi.** Multikulturalizm, multikultural cəmiyyət özü kortəbii şəkildə inkişaf edə bilməz. Bunun üçün isə siyasi idarəetmə mexanizmlərinin bu sahədə effektli fəaliyyəti və multimədəni cəmiyyət yaratmaq işində dövlətin tam dəstəyi mütləqdir. **7. Müxtəliflikdə təmsil olunan fərdilik prinsipi.** Hər milli azlıq, etnik qrup öz mədəniyyətinin, yalnız ümumi mədəni dəyərlərə, əsl bəşəri prinsiplərə və əxlaqi-mənəvi normalara zidd olmayan hissəsini qorumaq hüququna malikdir. Bəzən bu prinsipə mədəniyyətin **selektiv** (lat. *selectio* - seçmək) üsulla qorunması da deyilir.

Beləliklə, multimədəni dəyərləri dövlət siyasəti elan edən hər bir

siyasi subyekt yuxarıdakı prinsiplərin hər birinin qarantı olmalıdır. Bu prinsiplərin mövcudluğu faktı multikulturalizmin davamlı siyasi əsaslara malik olduğunu göstərir. Bu siyasəti qoruyub saxlamaq üçün mövcud qanunvericilik bazası təkmilləşdirilməli və multikulturalizm siyasətinin möhkəm hüquqi bazası formalaşdırılmalıdır. Buna misal olaraq, 1988-ci ildə Kanadada qəbul olunmuş "Multikulturalizm haqqında Akt"ı [10] göstərmək olar.

1994-cü il sentyabrın 29-da BMT Baş Məclisinin sessiyasındakı çıxışında ümummilli lider Heydər Əliyev demişdi: "Respublikamızda artıq çoxpartiyalı sistem mövcuddur, əsl siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipləri möhkəm bərqərar olmuşdur. Dərisinin rəngindən, din və dil mənsubiyyətindən asılı olmayaraq, çoxmillətli Azərbaycanın bütün vətəndaşları bərabər hüquqlardan istifadə edirlər. Qarşımızda duran ən mühüm vəzifə konstitusiyanın əsas prinsiplərini dərindən mənimsəmək, həmin prinsipləri respublika həyatına tətbiq etmək və onların verdikləri təminatları reallaşdırmaqdan ibarətdir" [11].

Ulu öndərin rəhbərliyi altında hazırlanmış və 12 noyabr 1995-ci il tarixində referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında da multikulturalizm siyasətinin əsaslarını təşkil edən tolerantlıq prinsipləri aydın təsbit edilmişdir. Hələ 1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Dövlət müstəqilliyi haqqında Konstitusiya aktında" sivil, müstəqil, demokratik Azərbaycan Respublikası"Ümumdünya İnsan Hüquqları Bəyannaməsini" tam şəkildə tanıdığını bəyan etmişdi.

Azərbaycan Respublikası BMT-nin qəbul etdiyi əsas aktlara, habelə Uşaq Hüquqları Konvensiyasına qoşuldu. Heydər Əliyevin 1998-ci ilin 22 fevral tarixində imzaladığı "İnsan və vətəndaş hüquq və azadlıqlarının təminatı sahəsində tədbirlər haqqında" Fərmanı, eləcə də 18 iyun 1998-ci il tarixli "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" xüsusi sərəncamı insan hüquqları sahəsində mühüm sənədlərdəndir. O, mütəxəssislər tərəfindən bu sahədə ilk strateji sənəd kimi dəyərləndirilir.

Azərbaycan Respublikasının qoşulduğu "İnsan hüquqları haqqında" Avropa Konvensiyası dövlətimizin hüquqi sisteminin tərkib hissəsidir. Prezident İlham Əliyevin 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etməsi isə ölkəmizdə mültikulturalizm siyasətinin ciddi hüquqi əsaslarından xəbər verir. Azərbaycan Respublikası "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyaya (4 noyabr 1950-ci ildə qəbul olunmuşdur), "Mülki və siyasi hüquqlar haqqında"

Beynəlxalq Pakta (16 dekabr 1966-cı ildə qəbul olunmuşdur), "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakta (16 dekabr 1966-cı ildə qəbul olunmuşdur),"İşgəncələr əleyhinə" BMT Konvensiyasına (9 dekabr 1975-ci il tarixdə qəbul olunmuşdur), "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğvinə dair" BMT Konvensiyasına (4 yanvar 1969-cu ildə qəbul olunmuşdur), "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvinə dair" BMT Konvensiyasına (18 dekabr 1979-cu il tarixdə qəbul olunmuşdur) və "İnsan hüquqları haqqında" Ümumi Bəyannaməyə (10 dekabr 1948-ci ildə qəbul olunmuşdur) qoşulmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 44-cü maddəsi milli mənsubiyyət hüququnun inkişaf etdirilməsini, 45-ci maddəsi ana dilindən istifadə hüququnu, 47-ci maddəsi isə hər kəsin fikir və söz azadlığını təsbit edir. Həmin maddələr milli dövlətimizin sosial-mədəni tolerantlıq prinsipinin düzgün tətbiqi baxımından hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq, hər kəsin istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüquqlarını, irqi, milli, dini sosial ədavət və düşmənçilik oyadan təşviqatın qadağan edilməsini, nümunəvi həyat tərzi kimi cəmiyyət üçün məqbul normaları, yaşayış tərzini müəyyən etməklə dövlətin multikultural dəyərlərinin qorunmasının, inkişaf etdirilməsinin hüquqi əsaslarını dəqiq şəkildə müəyyən edir.

Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin 3-cü hissəsində təsbit edilmişdir: "Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, sosial mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai-siyasi birliklərə mənsubiyyətindən asılı olmayaraq, hamının hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquq və azadlıqlarını irqi, milli, dini, cinsi, mənşə, əqidə, siyasi, sosial mənsubiyyət meyarlarına əsasən məhdudlaşdırmaq qadağandır".

Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinin ikinci hissəsində isə "Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə və təbliğ etmək hüququ" olması təsbit edilir. Beləliklə, multikulturalizmin hüquqi əsaslara söykənməsi təsdiq edir ki, millətin formalaşması, özünü dərk etməsi və davamlı inkişafı modeli, milli-mədəni məzmun daşıyan hüquqi dövlət və vətəndaş cəmiyyətinin təşkil edilməsi yolu ilə həyata keçirilməlidir.

### 6.3. Multikulturalizm mütərəqqi ideoloji konstruksiya kimi (ing. *Multiculturalism as a progressive ideological construct*)



İnsan öz layiqli həyatını təmin etmək üçün təkcə texniki konstruksiyalar yaratmır. Sağ qalmaq və varlığın davamlı inkişafını tam təmin etmək üçün yeni nəslin ruhani, ideoloji konstruksiyasını da yaratmaq vacib şərtdir. Bu zaman əsas məsələ kimi insan təfəkkürünün cəmiyyət həyatının dinamik şəkildə dəyişən şəraitinə tam uyğunlaşdırılması çıxış edir. Beləliklə, modernləşdirmə prosesi təkcə elmi-texniki və texnoloji sferalarda baş vermir. Təfəkkürün məzmununda da davamlı modernizasiya prosesləri gedir. Bu baxımdan multikulturalizm ictimai şüurun daha yeni və müasir məzmunu kimi, insanların sosial davranışında, dünyagörüşündə nizamlı konstruksiya yaratmağa qadir olan fenomen kimi qiymətləndirilə bilər. Multikulturalizm fərdin, cəmiyyətin və bəşəriyyətin özünü və gələcək nəsilləri qorumaq instinktini əks etdirir. O, sosial-siyasi və etnik-mədəni proseslərin təsiri altında yaranan böhran xarakterli situasiyalarda insanın sağ qalmaq arzusunu ifadə edir. Bu zaman tarixi yaddaş və özünüdərk hissinə malik olan hər etnos, ona ata-babalarından qalmış mədəniyyətini, etnik kimliyini fanatik şəkildə qoruyub saxlamağa çalışır. Qloballaşma şəraitində isə bu proses daha da kəskin şəkildə özünü büruzə verir. Etnik qonşuluq və qarşlıqlı anlaşma prinsipial olaraq çətinləşir, etnoslararası münasibətlərdə həmrəylik zəifləyir, etnik münaqişələrin sayı artır, dini fanatizm, ksenofobiya, şovinizm, "yalançı nasionalizm", neofaşizm və ekstremizm halları gündəlik xarakter alır. Belə bir şəraitdə köhnə sosial və etnik-mədəni davranış proqramları artıq özünü doğrultmur. Beləcə dünyanın adekvat təsvirinin, müasir dövrün bütün tələblərinə uyğun yeni konstruksiyasının yaradılması yenidən gündəmə gəlir.

Nəzərə almaq lazımdır ki, multikulturalizm ideyalarının çox ciddi təbliği, bərqərar edilməsi yüksək səviyyədə əqli çalışmalar, zehni əmək, və mənəvi səfərbərlik tələb edir. Multikulturalizmi mütərəqqi ideologiya kimi başa düşmək üçün "vətəndaş cəmiyyəti", "insan hüquqları","düzgün siyasət", "humanizm", "demokratiya", "tolerantlıq" "mədəniyyətlərarası dialoq" kimi anlayışları dərindən dərk etmək lazımdır. Çünki təfəkkürün ideoloji konstruksiyasının yaradılması intellektual və ruhani prosesdir. O, insanlardan yüksək təşəkküllü əqli, fiziki və psixoloji hazırlıq tələb edir. Məhz onun sayəsində yüksək dərəcəli idraki kamilliyə, mütləq ziyalılıq səviyyəsinə çatmaq olar. Bu baxımdan multikulturalizm bütün ideoloji konstruksiyaların yaradılması tarixində əsl sosial inqilab hesab edilir.

Tolerant və multikultural tərbiyə prosesində multikuktural dəyərlərdən bəhrələnmiş insanın əqli, zəkası, onun psixoloji konstruksiyası yüksək təşəkküllü rasional generasiyaya məruz qalır. Bununla da bəşər nəslini qorumaq instinkti, özünü və konkret nəsli qorumaq instinktlərindən daha mütəşəkkil dəyərlər kimi təzahür edir. Beləliklə, insanlığın daha davamlı varlığı ideyası elə tənzimləyici amilə çevrilir ki, fərd şüurlu olaraq öz varlığının təminatını digər fərdlərin, bütövlükdə bütün bəşəriyyətin var olması kontekstində dərk edir. Qeyd etmək lazımdır ki, insanların mənəvi səfərbərliyi tarix boyu, davamlı olaraq dəyişikliklərə məruz qalmışdır. Bu faktor başqalarına və başqa cür düşünənlərə münasibətdə yüksək tolerantlığın inkişaf etməsi ilə daha mütərəqqi əhəmiyyət kəsb etməyə başlayır. Məhz çox yüksək keyfiyyətli dəyərlərə əsaslanan tərbiyəyə və əxlaqi intizama rəğmən bu sahədə eləcə yüksək nəticələr əldə etmək olar. Multikulturalizm kütləvi təfəkkürdə etnik siyasət kimi təzahür etmək və cəmiyyətdə mədəni plüralizmi qorumaq şərtləri ilə, sosiumun birliyinin və sabitliyinin tam təmin edilməsi ideyası qismində assosiasiya olunur. Prinsip etibarılə multikulturalizmin məzmunu, fəlsəfi və kulturoloji nəzər nöqtəsindən baxıldıqda daha geniş məna və xarakter kəsb edir. Bu isə bəşəriyyətin ruhani inkişafının yeni mərhələsindən xəbər verir. Bir də onu qeyd etmək lazımdır ki, multikulturalizmin gələcəyi onun siyasi və ideoloji reputasiyasının necə olmasından asılı deyil. Bütün hallarda o, alternativi olmayan siyasət kimi qalacaqdır.Məhz multikulturalizm sosial davranış proqramı və mədəni element kimi mədəniyyətə özünün başlıca vəzifəsini həyata keçirməyə imkan verir. Mədəniyyətin başlıca vəzifəsi isə insanın bütün heyvani instinklərdən və emosiyalardan maksimum uzaqlaşdırılması, onun məzmununa yüksək intellekt və əxlaqi normalar qatılması, başqa sözlə onun sosiallaşdırılmasıdır. Bu proses insana digər insanlarla kollektivlərdə yaşamaq bacarığını, kollektivlərin dəyərlərindən istifadə etmək imkanlarını, başqa dəyərlərə hörmət etməyi öyrədir.

Pozitiv ideoloji konstruksiyanın formalaşdırılmasında kompromisin həlledici əhəmiyyəti vardır. Multikulturalizm siyasəti ilə bağlı o, həm "dövlətyaradan etnosun", həm də milli azlıqların əsas vəzifəsi olmalıdır. Kompromis kimi vacib fenomen fərqli baxışları olan insanların ziyalı, nüfuzlu, əqidəli, elmli və yüksək təşəkküllü mədəni personalar tərəfindən barışdırılmasında çox vacib bir alətdir. Məhz ziyanın, təhsilin və savadın olmaması radikal ehkamçılığa, başqa ideyalara qarşı inadkar münasibətə, kompromislik bacarığının istisna edilməsinə yol açır.

Bəşəriyyətin əqli-ruhani təkamülü, onun maariflənməsi təkcə əqli imkanların təkmilləşməsi və yeni biliklərin əldə edilməsi demək deyil. O,

həm də insan qəlbinin nurlanması, varlığının mərifət kəsb etməsidir. Məlumdur ki, "əxlaqdan məhrum olmuş intellekt şər doğurur". Ruhani təkamülün əsas nailiyyəti, qürur hissi yaradan nəticəsi isə kompromisin enerjisinin dərk edilməsindən və onun praktikada tətbiqindən ibarətdir. Bununla bağlı olaraq, xüsusi qeyd etmək lazımdır ki, bu gün amerikalılar müsəlman-miqrantların ölkəyə axını qarşısında qorxu hissi keçirmirlər. Avropalılar isə əksinə miqrant axınından çox ciddi narahatlıq yaşayırlar. Avropa yaşayan əhalinin yalnız 3,2%-ni müsəlmanlar təşkil edir. Lakin yerli avropalılar hesab edirlər ki, müasir dövrdə "Avropada kommunizm kabusunu "islam kabusu" əvəz etmişdir".

Amerikalılarla avropalılar arasında miqrant axını ilə bağlı fərqli hisslər onunla bağlıdır ki, ABŞ-a, bir qayda olaraq, öz vəziyyətlərini və kompromisin zəruri olmasını dərk etmiş savadlı müsəlmanlar gəlirlər. Lakin Avropaya gələn müsəlmanlar, adətən savadsız və bu səbəbdən də kobud və aqressiv olurlar. Onlar heç "kompromis" anlayışının mənasını belə bilmirlər. Lakin burada dini inancların da xüsusi əhəmiyyəti vardır. Belə ki, amerikalıların 90% dindardırlar, buna görə də ibrani ideologiya kimi islama daha tolerant münasibət göstərirlər. Avropa əhalisinin böyük hissəsi isə ateistlər, dini inanclara skeptik münasibət göstərən insanlardır. Buna görə də, hər hansı dini ideologiyaya təkəbbürlə yanaşırlar.

Multikulturalizm bəşəriyyətin bütöv tarixi ilə ölçülən fenomendir. "Multikulturalizm" anlayışı  XX əsrin 70-80-ci illərinin hadisəsi olsa da, onun cizgilərini əvvəlki dövrlərdə də müşahidə etmək olar. Məsələn, 1915-ci ildə Amerika filosofu Horas Kallen (1882-1974) ilk dəfə elmi dövriyyəyə "mədəni plüralizm" (ing. *cultural pluralism*) anlayışını daxil etmişdi. Kanada filosofu Çarlz Teylor (ing. *Charles Margrave Taylor* - 1931) tərəfindən təklif edilmiş "başqasını tanımaq siyasəti" (ing.*policy of appreciation*) də diqqəti cəlb edir. Bu nəzəriyyəyə görə, insan şəxsiyyəti sosial və mədəni mühitlə dialoq və qarşılıqlı təsir nəticəsində formalaşır [12]. Digər Kanada filosofu, "Multikultural vətəndaşlıq" nəzəriyyəsinin müəllifi Uill Kimlika (1962) eyni adlı "Multikultural vətəndaşlıq" (ing. *Multicultural citizenship*) kitabında israrla iddia edir ki, multikulturalizm insanlara öz etnik kimliyini aşkar şəkildə təyin etməyə imkan verir. O, bizi dünyanın bütün rəngarəngliyini başa düşməyə və qəbul etməyə, yaddaşlarda dərin kök salmış xurafatdan və stereotiplərdən qurtulmağa sövq edir. Ən əsası da odur ki, digər mədəniyyətlərə baxmağa, özgə dəyərlər sisteminə nüfuz etməyə, onların ənənələri ilə tanış olmağa imkan verir. Filosof "Liberal bərabərlik" (ing. *Liberal equality*) kitabında israrla qeyd edir ki, - "əgər cəmiyyətdə imkanların bərabərliyi tanınırsa,

onda mənim uğurum və uğursuzluğum irqi, dini və digər əlamətlərimdən deyil, əsas davranışımdan asılı olacaqdır” [13]. Bütün bunlar “mədəni relyativizm” (lat. *relativus* - nisbətən) kimi təzahür edir. Etnosentrizmi inkar edir və bütün mədəniyyətləri bərabər elan edir. O, iddia edir ki, hər bir mədəniyyət dəyərlərin unikal sistemi kimi qiymətləndirilir. Mədəni relyativizm, hər şeydən əvvəl başqa xalqların mədəniyyətləri ilə bizim şəxsi baxışlarımızın və əqidələrimizin barışması dilemmasını ifadə edən sosial sferaya toxunur [14].

Yuxarıda göstərilən çoxsaylı əlamətlərin və dəyərlərin təhlilindən sonra belə bir həqiqət ortaya çıxır ki, multikulturalizm mütərəqqi ideoloji konstruksiya kimi, tanrı və bəşəri qanunların qarşısında tam bərabərlik prinsiplərinə əsaslanır. Yalnız həqiqi multikultural ideyalar tolerantlığı “elementar dözümlülük” müstəvisindən “həqiqi məhəbbət və hörmət” müstəvisinə çıxarmağa qadirdir. Lakin bu olduqca çətin və mürəkkəb prosesdir, o qədər də mürəkkəb və çətin nəzəri-praktiki prosedurların həyata keçirilməsini tələb edir. Bu prosedurların uğurlu nəticəsi isə qəlbi məhəbbətlə dolu, yüksək əxlaqlı, mədəni davranışlı, ziyalı şəxsiyyətlərin yetişdirilməsi işi olmalıdır. Məhz mütərəqqi ideoloji konstruksiya ilə tam silahlanmış intellektual şəxsiyyət mövhumata, ekstremizmə, etnik-dini dözümsüzlüyə nəinki “yox” deyə bilər, hətta intellektinin gücü sayəsində “yolunu azmış qaynar beyinləri” də haqq yoluna qaytarar və dünyanın gözəlləşdirilməsi missiyasını uğurla həyata keçirə bilər. Bu isə varlığın ən ali məqsədidir.

## 6.4. Maarifçilik və tolerantlıq (ing. *Enlightenment and tolerance*)



İnsanların əsl tolerant mahiyyətinin üzə çıxarılmasında maarifçiliyin rolu danılmazdır. Lakin, çoxlu sayda insanlar, “yalnız pozitiv biliklərə malik olan insan dünyanın sirlərini rasional şəkildə, tam dərk etməyə və yüksək təşəkküllü humanist şəxsiyyət kimi yetişməyə qadirdir” fikri ilə razılaşmırlar. Çünki bir çox hallarda pozitiv elmlərdən xəbəri olmayan, hətta elementar (ibtidai) təhsil almamış insanlar olur ki, onlar yüksək təşəkküllü əxlaqın - mərhəmətin, humanizmin, alicənablığın daşıyıcıları kimi “fövqəladə humanist imic” qazanırlar. Yaxud əksinə, tam ensiklopedik biliklərə, yüksək intellektə və erudisiyaya malik olan insan dözümsüzlüyün, antipatiyanın, təkəbbürün, hətta əxlaqsızlığın canlı təcəssümü kimi öz ətrafını heyrətə və hiddətə

gətirir. Belə məlum olur ki, maariflənmə hansısa bir təlimi, yaxud elm sahəsini dərindən mənimsəmək, informasiyalara nizamsız şəkildə sahib olmaq demək deyil. O, insan varlığının əsl tanrı və bəşəri həqiqətləri ilə nurlanması aktıdır. Belə ki, hər bir insan fərdinin ruhani mahiyyətində potensial ziya qığılcımı var. Onun aktiv alovlanması və həqiqət işığına çevrilməsi isə fərdin bu həqiqətə hansı səviyyədə açıq olmasından və onu necə qəbul etməsindən asılıdır. Bununla əlaqədar postmodern təlimlər nəzəriyyəsinin tədqiqatçılarından biri olan ingilis coğrafiyaşünası Devid Harvi (ing. *David Harvey* - 1935) maarifçiliyi aşağıdakı kimi xarakterizə edirdi: "İnsanın azadlığa qovuşması və həqiqəti tam düzgün dərk edərək, gündəlik həyatını zənginləşdirməsi naminə çoxlu sayda azad və yaradıcı düşünən şəxsiyyətlərin ən yüksək, mütərəqqi biliklərinin və ideyalarının mənimsənilməsi" [15].

Elmi baxımdan əsl maarifçilik fəth edilməsi tələb olunan zirvələrə çatmaqda, defisitlərdən və ehtiyaclardan azad olmaqda, təbii və sosial kataklizmləri cilovlamaqda insanlara daim yardımçı olmağı vəd edirdi. Maarifçiliyə rəğmən formalaşmış yeni düşüncənin əsl rasional üsulu isə əsatirlərin, dinlərin, ön mühakimələrin ifrat irrasionallığından, istibdadın özbaşınalığından, köləlikdən, idbardan, cəhalətdən, səfalətdən, bir sözlə, şəxsi insan xarakterinin qaranlıq tərəflərindən azad olmaq istiqamətində ən optimal yol kimi təqdim olunurdu.

Orta əsrlərin sonu, Yeni tarixin kəsişməsində fövqəladə intellektual fenomen kimi təzahür edən maarifçilik bütün köhnə və reqressiv olan dəyərlərə, cəmiyyəti davamlı olaraq münaqişəyə sürükləyən cəhalətə və mövhumata "yox" demək idi.

Əsas prinsiplərini mütləq rasionalizm və azadfikirlilik təşkil edən maarifçilik kompleks şəkildə XVII əsr Avropa təfəkkür tərzinin məhsulu olsa da, tanrının və təbiətin sirlərinə sahib olmaq, varlığı pozitiv faktlar əsasında rasional şəkildə dərk etmək cəhdləri həmişə mövcud olmuşdur. Lakin Orta əsrlərin mövcud ideoloji konstruksiyasını dini mövhumat və ehkamçılıq təşkil etməsi ilə bağlı, əsrlər ərzində cəhalət divarını sındırıb mütləq həqiqətə çatmaq mümkün olmamışdı. Maarifçilik isə intellektual hərəkat kimi həqiqət qapılarının açılması üçün daha optimal yol tapdı. O, "mövcud ehkamçılıq divarını" uçurmadı, bu divarda "kamal pəncərələri" açdı. Maarifçiliyin gücü də məhz onun rasionalizmində, skeptisizmində, inqilabiliyində və tolerantlığında idi.

Hələ IX-X əsrlərdə islam ilahiyyatçısı, sufi Hüseyn ibn Mənsur əl-Həllac (858-922) insanın intelektual imkanlarının tanrı həqiqətlərini dərk etmək qabiliyyətinə malik olmasını iddia edəndə, onu bidətdə və küfrdə

ittiham edərək edam etdilər. Təbii ki, Həllac dünyanı dərk edən və onu gözəlləşdirən, məhz bununla tanrı məqamlarına yetişən maarifçi insanın iddialarını tərənnüm edirdi [16]. Təəssüf ki, orta əsr istibdadına dünyanın bütün sirlərinə sahib olmuq istəyən, "həqq məndədir" deyən "potensial qiyamçı" gərək deyildi. Ona kor-koranə ibadət edən, taleyin hökmündən panik şəkildə qorxan müti fərd, "sözəbaxan qara kütlə" lazım idi.

Beləliklə, maarifçilikdən ən mükəmməl şəkildə bəhrələnmiş insan, nəinki dünyanın bütün sirlərinə sahib olur, həmçinin bəşəri daim lərzəyə gətirən ölüm qorxusuna da qalib gəlir. Maarifçilik bu baxımdan igidliyin, qorxmazlığın, mətinliyin nəzəri əsasları kimi təzahür edir. Cahil vücudda həmişə qaranlıq və onu müşayiət edən neqativ elementlər qərar tutur. Kamillik isə nurun təcəssümüdür. Maarifçilik "Mütləq reallığa" aparan yoldur. Bu yolda isə əsas aparıcı qüvvə insana, təbiətə və tanrıya olan məhəbbətdir.

Hələ Avropada maarifçilik ruhlu dünyagörüşünün formalaşması ərəfəsində humanizm ideyalarının təsiri altında Şərqdə hürufilik təlimi geniş yayılmağa başlamışdı. Özündə sufiliyin çoxlu sayda elementlərini ifadə edən hürufilik də "maariflənmiş kamil insan" ideyasını yenidən gündəmə gətirmişdi. Lakın bu dəfə də tanrı həqiqətlərini dərk etməyə can atan maarifçi təfəkkür "xurafat daşlarından hörülmüş cəhalət divarına" dəyərək dağıldı. Çünki israrla "həqq mənim ürəyimdədir" deyən Hüseyn Həllacın dəhşətli edamından beş əsr keçsə də, mövhumatın əsiri olan fərd hələ də ilahi həqiqətin insanın öz təbiətində qərar tutduğunu əsla dərk edə bilməmişdi [17].

XIX əsrdə Şərqdə kapitalist münasibətlərinin təşəkkül tapması ilə əlaqədar maarifçilik günün tələbinə çevrildi. Artıq yeni tərzdə düşünən insanın həlledici rolu olmadan müasir ictimai qaydalara əsaslanan burjua millətini formalaşdırmaq mümkün deyildi. Bu dövrdə kapitalizm təkcə maşınlı istehsala əsaslanan iqtisadi münasibətlər sistemi kimi qəbul olunmurdu. O, həm də "şəhər adamının" (fr. *bourgeoisie*) spesifik ruhuna əsaslanan yeni ictimai-siyasi və əxlaqi-mədəni münasibətlər sistemi kimi qiymətləndirilirdi [18]. Şəhər adamının sosial davranış proqramında isə tədricən, vətəndaş hüquqları və azadlıqları haqqında mütərəqqi dəyərlər möhkəmlənməyə başlamışdı.

Qeyd etmək lazımdır ki, şəhər adamının özünü ifadə etmək azadlığı fövqəladə şəkildə geniş idi. Buna görə də, ondan daim daha mükəmməl tolerant olmaq tələb olunurdu. Başqaları ilə ünsiyyət zamanı şəhər adamı qəbul olunmuş ümumi etiketə əməl etməli, nitqində müəyyən ritorik söz birləşmələrindən istifadə etməli, nəzakət qaydalarını yüksək səviyyədə

bilməli və onlara riayət etməli idi. Müəyyən mənada maarifçilikdən tam bəhrələnmiş şəhər adamı dərk edirdi ki, başqaları ilə, yəni ondan fərqli olanlarla, fərqli düşünənlərlə ünsiyyət gündəlik işdir və hətta gündəlik zərurətdir. Bu zərurət isə onu "xüsusi biçimli eksratolerant" olmağa sövq edirdi.

XX əsrdə misli görünməmiş iti templərlə inkişaf edən maarifçilik dünyanın min illər ərzində gizli qalmış sirlərini açmağa başladı, kosmosa və materiyanın daxili quruluşuna daha intensiv nüfuz edərək, möhtəşəm nailiyyətlər qazandı. Maarifçilik kimi fövqəladə bir fenomen bu gün də təbiətin və tanrının sirlərini açmaqda davam edir. Lakin onun vəzifəsi təkcə açılmamış sirləri aşkar etməkdən ibarət deyil, həm də insan və cəmiyyət həyatının mənasını dərk etməkdən, birgəyaşayış prinsiplərini formalaşdırmaq üçün nəzəri biliklər və təcrübə əldə etməkdən ibarətdir.

### *İstinadlar*


1. *Библия. Бытие. 4: 1-2*
2. *Библия. Бытие. 4:25*
3. *Воробьева Наталья Н. Проблема отношений христианской церкви и государства в Римской империи I-IV веков. Омск, 2005. С. 110*
4. *Freeman E.A. The Emperor Frederick the Second. Historical essays. - London: Macmillan and co., 1871. - Vol. 1. - С. 283-313. - 426 с.англ.*
5. *Хрестоматия по истории Средних веков. Москва, 1950. С. 173-174*
6. *Веджвуд С.В. Тридцатилетняя война. Москва: АСТ, 2013. С. 533*
7. *«Христианство: Словарь» Москва, Республика, 1994 - с. 39*
8. *Ванина Е.Ю. «Посвещенные философы» и «Сотоварищи Иисуса». Первый контракт интеллектуальных сообществ Индии и Запада.- Москва, 2011. - с. 45*
9. *Cleveland William L & Martin Binton, A History of the Modern Middle East: 4th Editon: Westview Press: 2009, p. 82*
10. *Терборн Г. Мультикультуральные общества. Москва, 2001. с. 61*
11. *«Флаг Азербайджана на набережной Ист-Ривер». Издание центра исследований наследия Гейдара Алиева, Баку,Издательский дом «Апостроф», 2009*
12. *Куренной Виталий. Исследовательская и политическая программа культурных исследований. Философско-литературный журнал «Логос». М: - 2012 № 1. с. 14-79*
13. *Уилл Кимлика. Либеральное равенство. Современный либерализм. Москва, Дом Интеллектуальной книги. Прогресс-традиция, 1998, с. 145*
14. *Токарев С.А. История зарубежной этнографии. Москва, Высшая школа, 1978, с. 290*
15. *David Harvey. The Condition of Postmodernity. - Oxford: Blackwell, 1990, p. 12*

*16. Аль-Хусейн ибн Мансур аль-Халладж. Китаб ат-Тавасин. Сад Знания. Перевод В.Н. Нечипуренко, Москва, 2013. с. 5-6. - 82 с.*

*17. Ritter H, Die Anfange derHurufisekte,"Orients",1954, pp. 1-54*

*18. Immanuel Wallerstein 4. From Seville to Amsterdam: the Failure of the Empire. The modern World-System I. - Berkley: University of California Press, 2011.- p. 209.- 440 p.*

# VII FƏSİL. MULTİKULTURALİZM VƏ SOSİAL-İQTİSADİ İNKİŞAF




## 7.1. Sosial-iqtisadi inkişaf faktoru və multikulturalizm (ing. *Sosio-economic development factor and multiculturalism*)



Sosial-iqtisadi sistem fenomeni maddi və qeyri-maddi resursların təşkili, bölüşdürülməsi və istehlakı ilə daim məşğul olan institutların, həmçinin istehsal münasibətlərinin, məhsul və xidmətlərin mübadiləsi və onlardan istifadə olunmasının məcmusudur. O, müəyyən tarixi, siyasi, coğrafi, etnik-mədəni, mənəvi xarakter daşıyır. Bu sistemə bütövlük, iyerarxiyalılıq, inteqrativlik kimi əlamətlər xasdır. Sosial-iqtisadi sistem dövlətin 3 fundamental əsasından (siyasi. iqtisadi, mənəvi) biri kimi cəmiyyətin davamlı inkişafında həlledici rol oynayır. Burada başlıca dinamik faktor isə iqtisadi inkişaf faktorudur. İqtisadi inkişaf təkrar istehsalın daim genişlənməsi, müsbət keyfiyyət və struktur dəyişmələri ilə müşayiət olunan, məhsuldar qüvvələrdə, elmdə, təhsildə, mədəniyyətdə, insanların həyat tərzində, insan kapitalında baş verən tərəqqidir. İqtisadi inkişaf özündə, bilavasitə ictimai, millətlərarası və etnik-siyasi münasibətlər dəstini ifadə edir. Bu proses insan həyatının keyfiyyətinin yaxşılaşmasında, həyat səviyyəsinin artmasında, azadlıq və özünəhörmət hisslərinin yüksəlməsində və s. ifadə olunur. Bununla bağlı olaraq, bütün dünya ölkələri iqtisadi inkişaf cəhətdən 3 əsas kateqoriyaya bölünür: 1. İnkişaf etmiş ölkələr. 2. İnkişaf etməkdə olan ölkələr. 3. Zəif inkişaf edən ölkələr.

İqtisadi inkişafın effektivliyi, bir qayda olaraq, iqtisadiyyatın dövlət tənzimlənməsinin səviyyəsindən, dövlətin özünün və onun institutlarının effektiv fəaliyyətindən tam asılıdır. Lakin onu da qeyd etmək lazımdır ki, bütün inkişaf etmiş və inkişaf edən ölkələrin iqtisadi inkişaf templərinə tənəzzül, böhran və uzunmüddətli yüksəlişlərlə müşayiət olunan bir dövri xarakter xasdır. Bu, o deməkdir ki, gözlənilən, yaxud heç gözlənilməyən

sosial-iqtisadi problemlərdən heç bir dövlət, yaxud iqtisadi sistem sığorta olunmamışdır. Hər bir ölkənin iqtisadi inkişafının əsas göstəricisi kimi məhz "İnsan inkişafının indeksi" (ing.*Human Development Index* - *HDI* - 2013-cü ilə qədər "İnsan potensialının inkişafı indeksi" - hər il ölkələr arasında aparılan və həyat səviyyəsinin, rifahın, savadlılığın, təhsilliliyin və uzunömürlülüyün faktiki ölçülməsinə əsaslanan inteqral göstərici) və adambaşına düşən "milli gəlir", yaxud ÜDM çıxış edir [1].

İnsan inkişafının indeksi 1990-cı ildə pakistanlı iqtisadçı Məhbub ül-Hakın (1934-1998) rəhbərliyi altında yeni iqtisadçılar qrupu tərəfindən hazırlanmışdır. İndeksin konseptual strukturu görkəmli hind iqtisadçısı, 1998-ci ildə Nobel mükafatı laureatı Amartiya Senin (1933) təklif etdiyi düsturlara əsaslanır [2]. İnsan inkişafının indeksini təyin edərkən, üç əsas göstərici nəzərə alınır: 1. Uzunömürlülük. 2. Təhsil səviyyəsi. 3. Ümumi Milli Gəlir (ing. *Gross National Income*) vasitəsi ilə tam qiymətləndirilən həyat səviyyəsi.

İqtisadi inkişafın başlıca hərəkətverici qüvvəsi rolunu insan kapitalı və onun yaratdığı innovasiyalar oynayır. İnsan kapitalı dedikdə insanın və cəmiyyətin müxtəlif cür tələbatlarını ödəmək üçün lazım olan bilik, bacarıq və vərdişlərin məcmusu başa düşülür. Bu termin ilk dəfə elmi dövriyyəyə 1961-ci ildə ABŞ alimi və iqtisadçısı Teodor Şults (1902-1998) tərəfindən daxil edilmişdir. Hər bir ölkənin milli sərvətinin əsas tərkib hissəsini təşkil edən insan kapitalı isə "milli insan kapitalı" adlanır. Milli insan kapitalı özündə milli intellektual prioritetləri, milli sosial və siyasi inkişaf səviyyəsini, həmçinin millətin əsas təbii potensialının çoxlu sayda əlamətlərini əks etdirir [3].

Ölkələri inkişaf səviyyələrinə görə müqayisə edərkən, aşağıdakı göstəricilərdən istifadə olunur: ÜDM, konkret həyat səviyyəsi və həyat keyfiyyəti, iqtisadiyyatın əsas rəqabət imkanları, əmək məhsuldarlığı və iqtisadiyyatın effektivliyinin digər göstəriciləri, insan kapitalının dəyəri, dünya iqtisadiyyatına inteqrasiyanın həddi, korrupsiya səviyyəsi, dünya reytinqi, maliyyə-iqtisadi reytinq və s.

Beləliklə, sosial-iqtisadi inkişaf faktoru müasir cəmiyyətlərdə ən yüksək tənzimləyici element qismində təzahür edir. Onun yüksək effektli olmasından həm vətəndaş həmrəyliyi, həm də etnik-milli münasibətlərin keyfiyyəti asılıdır. Əgər vətəndaş həmrəyliyinin və davamlı etnik birliyin nəzəri və ideoloji əsaslarını multikulturalizm siyasəti təşkil edirsə, onun praktiki ifadəsini iqtisadi inkişaf və maddi rifah təşkil edir.

Hər bir insan bu dünyaya xoşbəxt olmaq üçün, tanrının və təbiətin insanlara bəxş etdiyi dəyərlərdən, sərvətlərdən və nemətlərdən istifadə

etmək üçün gəlir. Təzadlı olsa da danılmaz faktdır ki, insan bioloji varlıq kimi, ilk növbədə maddi nemətlərin istehlakçısıdır. Yalnız bundan sonra o, mənəvi, əxlaqi, ruhani və intellektual subyektdir. Bu dəyərlər bir-birini qarşılıqlı surətdə tamamlayanda isə insanın bioloji və ruhani varlığının sintezindən normativ şəxsiyyət (mövcud mədəni dəyərləri tam kompleks şəkildə tərənnüm edən şəxsiyyət) yaranır. Beləliklə, insanın imkanları ilə arzuları, azacıq uyğun gəlirsə, o, artıq özünü xoşbəxt hesab edir, mövcud sosiuma, onun hər üzvünə və gələcəyə inamı artır. Xoşbəxt və gələcəyə inamı olan bir insan tipi isə xeyirxah, insanpərvər, mövhumatdan və bəd əməllərdən uzaq olan insan kimi özünü təsdiq edir. O, daim kompromisə və dialoqa hazırdır. Onun maddi problemlərdən tam azad olmuş psixikası sağlam düşünmək üçün zəruri olan ruhani bazanın yaradıcısına çevrilir. O, artıq "çörək uğrunda ölüm-dirim mübarizəsi aparan adi fərd deyil, ən çətin həyat sınağı kimi təzahür edən davamlı yoxsulluğu dəf etmiş qalib şəxsiyyətdir". Belə şəxsiyyət həmişə başqalarının da imkanlı və xoşbəxt olmasını arzulayır və bu arzunun reallaşması üçün potensial imkanlardan maksimum istifadə edir. Tədricən bu halət onun əsl bəşəri təyinatına, əqidəsinə və kredosuna (lat. *credo* - inanıram - insanın dünyagörüşünün əsasını təşkil edən şəxsi amal) çevrilir. Onun üçün insan amili bütün ötəri və təsadüfi elementlərdən üstündür. O, öz rifahının davamlı olmasının başqasının rifahının davamlı olmasından asılı olduğunu dərindən dərk etmiş yüksək təşəkküllü sosiallaşmış vahiddir. Onun maddi cəhətdən təmin olunmuş həyatının məzmununu özündən sonrakı nəsillərə bütün münaqişələrdən sığortalanmış daha xoşbəxt bir gələcək qurmaq ideyası təşkil edir. Belə şəxsiyyəti siyasət maraqlandırmır. O, siyasi hakimiyyətə can atmır. İdarə edənlərin istedadına və düzgün siyasi kursun icraçıları olmalarına inanır (çünki ümumi rifah kimi ifadə olunan nəticə göz qabağındadır). Onun üçün əsl dini, milli və etnik əlamətlərini hər vəchlə qabardan və cəmiyyəti "özününki-özgə" düsturu ilə parçalamağa çalışan insan imici qəbuledilməzdir. O, həyatın əsl mənasını tanrının və təbiətin insana bəxş etdiyi nemətləri dinc yolla, tam halallıqla mənimsəməkdə və ümumi rifah cəmiyyəti yaratmaqda görür.

Bu gün alternativi olmayan ixlas yolu qismində bəşəriyyətə təklif olunan multikulturalizm siyasətinin ən əsas məqsədi də, məhz cəmiyyətin bütün çeşidli resurslarından maksimum istifadə etməklə, sosial-iqtisadi tərəqqiyə nail olmaq ideyasını reallaşdırmaqla, iqtisadi problemlərdən azad olmuş, xoşbəxt gələcəyə böyük inamı olan bəxtəvər bir insan nəsli yetişdirməkdir. Bu mütərəqqi və humanist məram isə demokratizmin və plüralizmin ali məqsəd kimi təzahür etdiyi bütün cəmiyyətlərdə olduğu

kimi Azərbaycan cəmiyyətində də əsl dövlət siyasəti səviyyəsində qəbul edilmişdir.

Azərbaycan öz pozitiv iqtisadi inkişaf meyllərini - iqtisadiyyatının liberallaşdırılmasını, bütün dünya ölkələri ilə iqtisadi əlaqələrini və bazar iqtisadiyyatı mexanizmlərini inkişaf etdirilməklə yanaşı, həmçinin ölkə daxilində sabit vətəndaş birliyinin yaradılması istiqamətində mühüm nailiyyətlər əldə etmişdir. Ölkədə həyata keçirilən düzgün və fəal siyasət onun daxili ictimai-siyasi mühitini tamamilə modernləşdirmiş, dövlət və cəmiyyət həyatını demokratikləşdirmiş, ictimai həyatın sosial-mədəni və əxlaqi-mənəvi sferalarını yeniləşdirmiş, vətəndaş cəmiyyəti təsisatlarını formalaşdırmış və müasir dövrün tələblərinə uyğunlaşdırmışdır. Avropa dəyərlərinə, dünyəvi-hüquqi dövlət quruculuğu yoluna üstünlük verməsi, vətəndaşlarının təhsil, mədəni və intellektual səviyyəsini yüksəltməsi və s. amillər ölkənin planetar miqyasda iqtisadi-mədəni əhəmiyyətini, siyasi və diplomatik imicini xeyli artırmış və geosiyasi xarakterinə müsbət təsir göstərmişdir. Belə çeşidli tədbirlərlə yanaşı, Azərbaycan Respublikası Prezidentinin regionların inkişafı ilə əlaqədar sərəncamlarını da xüsusi qiymətləndirmək lazımdır. Bu sahədə tam həyata keçirilən dövlət siyasəti Azərbaycanın multimədəni, polietnik məkan kimi ümumi iqtisadi, siyasi və yeni mədəni ideyalar ətrafında daha da sıx birliyinin təmin edilməsinə istiqamətlənmişdir. Bölgələrin sosial-iqtisadi inkişafına dair proqramların həyata keçirilməsi zamanı ölkə ərazisində kompakt şəkildə yaşayan milli azlıqların iqtisadi və mədəni rifah hallarının artırılmasına xüsusi diqqət ayrılır.

Hələ 2007-ci ilin 19 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə Quba rayonunda 2100-2200 metr yüksəklikdə Qudyal çayı üzərində yerləşən və əhalisi Qədim Albaniya xalqının nəsilləri olan Xınalıq kəndinin tarixi-arxitektura və etnoqrafiya qoruğu elan edilməsi, bu özəl məkanda yüksək təşəkküllü infrastrukturun yaradılması sözügedən diqqətin praktikada reallaşmasına parlaq misaldır. Qeyd etmək lazımdır ki, “Xınalıq” adlanan unikal məkanda Orta əsrlərə aid atəşpərəst məbədi, Xıdır Nəbinin (Xıdır İlyas) qəbri, Şeyx Şalbuz və Əbu Müslim məscidləri, eləcə də digər çoxlu tarixi abidələr və qiymətli artefaktlar mövcuddur [4].

Bölgələrin iqtisadi inkişafı ilə bağlı dövlət proqramlarının həyata keçirilməsi zamanı ölkədə kompakt şəkildə məskunlaşan milli azlıqların - Qırmızı qəsəbədə (Quba) yaşayan dağ yəhudilərinin (eşkinaz), Zaqatala və Balakən rayonlarında yaşayan etnik avarların, Qax rayonunda yaşayan ingiloyların və gürcü yəhudilərinin, Qusar və Quba rayonlarında yaşayan

etnik ləzgilərin, Qəbələnin Nic qəsəbəsində yaşayan udinlərin, Astara, Lənkəran və Lerik rayonlarında yaşayan etnik talışların və digər milli azlıqların sosial-iqtisadi və etnik-mədəni dirçəlişinə və inkişafına ayrılan diqqət də göz qabağındadır. Bu isə artıq multikulturalizm nəzəriyyəsinin təkcə siyasi deyil, həmçinin iqtisadi və mədəni üsullarla praktikada tam reallaşdırılması faktının aydın ifadəsi deməkdir.

## 7.2. "Ümumi rifah konsepsiyası" və etnik-siyasi birlik (ing. "*The concept of general welfare" and ethnopolitical association*)



İbtidai cəmiyyətdən başlayaraq insan həyatını stimullaşdıran ən başlıca amillərdən biri rifaha çatmaq cəhdlərilə əlaqədardır. Bu onunla izah olunur ki, genetik şəkildə insana "ideal həyat tərzi" ideyası xasdır. Bu, insanın ilkin yaşayış yerinin "cənnətməkan", özünün isə tanrı yaradıcılığının mükəmməl nümunəsi olması ilə bağlıdır. Buna görə də, bəşəriyyət daim bu ideala can atmış və bu cəhdlər bu gün də insan həyatının əsas motivlərini təşkil edir. "Rifah" anlayışı altında insanların gündəlik həyati tələbatlarını ödəyən, onlara xeyir gətirən, zövq verən, yaşamağa ruhlandıran dəyərlər başa düşülür. "Rifah" dedikdə, fikrimizdə və təxəyyülümüzdə, bilavasitə xeyirxahlıq obrazı canlanır. Sosial-iqtisadi baxımdan rifah özündə dəyər ifadə edən, səmərə gətirən hər şey deməkdir. Burada söhbət, əmlakla və nemətlərlə bağlı təminatdan və onun keyfiyyət dərəcəsindən gedir. Sosial fəlsəfədə "Ümumi rifah dövləti" (ing. *Welfare state* - ilk dəfə ingilis arxiyepiskopu Uilyam Templ 1942-ci ildə "Xristianlıq və sosial qayda" adlı kitabında işlətmişdir) adlanan yeni anlayış mövcuddur. Bu bir siyasi konsepsiyadır. Onun əsas məzmunu isə vətəndaşların sosial-iqtisadi rifahının tam təmin edilməsi işində, inkişafında və müdafiəsində dövlətin müstəsna rolundan ibarətdir [5].

Bu konsepsiyanın fundamental əsaslarını imkanların bərabərliyi, sərvətlərin ədalətli bölüşdürülməsi və özünə layiqli həyat səviyyəsi təmin edə bilməyən vətəndaşlar üçün əsl ictimai məsuliyyətin mövcud olması təşkil edir. Məşhur ingilis alimi, sosioloq Tomas Hemfri Marşall (1893-1981) "Ümumi rifah dövlətini" demokratiyanın, rifahın və kapitalizmin xüsusi məcmusu adlandırırdı.

Elmi ədəbiyyatlarda "Ümumi rifah dövləti" anlayışının sinonimləri kimi "sosial dövlət", "himayədar dövlət", "müdafiəçi dövlət", "xalqın

evi” kimi anlayışlardan istifadə olunur.

“Ümumi rifah dövlətinin” aşağıdakı prinsipial elementləri vardır: 1. Əhalinin sosial cəhətdən müdafiə olunmamış bütün təbəqələrinə (işsizlər, təqaüdçülər, əlillər və s.) dəstək. 2. İnsanların əməyinin və sağlamlığının müdafiəsi. 3. Gəlirlərin bərabər bölüşdürülməsi ilə sosial bərabərsizliyin aradan qaldırılması. 4. Ailənin, ananın, atanın və uşaqların müdafiəsi. 5. İqtisadi, təhsil və mədəni proqramlara daimi maliyyə dəstəyi. 6. Sosial problemlərlə mübarizə.

Ümumi rifah (ing. *common welfare*), insanların sosial bərabərliyi, sosial ədalət məsələləri həmişə tarixi inkişafın ən aparıcı motivləri kimi cəmiyyətdə ciddi münaqişəli situasiyalar və dərin böhranlar yaratmışdır. Bəşəriyyətin davamlı inkişafı üçün son dərəcə vacib olan ümumi rifahın prinsipləri öz əksini əhd, tövsiyə, göstəriş, çağırışlar şəklində müqəddəs kitablarda (Tövrat, Zəbur, Bhaqavat-Gita, Avesta, İncil, Talmud, Quran), hədislərdə və kəlamlarda da ifadə edir. Bu mənbələrdə isə tanrı və təbiət sərvətlərinin, eynilə bütün insanlara məxsus olması və onlardan hər kəsin istifadə etməsi ideyası təsdiqlənir. İslam hədislərində deyilir ki, “cənnətin yolu çalışmalardan, cəhənnəmin yolu isə şəhvətdən keçir”.

İslamiyyətdə “məkruh” deyilən anlayış “bəyənilməyən”, “qadağan olunan” mənasını verir. O, özündə çoxlu sayda prinsipial məsələləri ifadə edir: vəzifələrin yerinə yetirilməsində çalışmalar və məsuliyyət, nifrətin, hiddətin və qəzəbin cilovlanması qabiliyyəti, bağışlamaq, əta etmək, əfv etmək, əsl mərhəmət göstərmək bacarığı, yersiz ehtirasları, şəhvət hissini cilovlamaq imkanları və s.

Beləliklə, bütün müqəddəs kitablar dünya sərvətlərindən bərabər, məqsədyönlü və israfçılıq etmədən, başqasını da düşünərək bəhrələnməyi buyurur [6]. İslam əxlaqı ümumi rifah konsepsiyasının reallaşdırılmasına əsaslanan əsas prinsipləri ifadə edir. Burada bütöv bir tənzimləyici sistem yaradılmışdır. Onun tərkibinə qarşılıqlı yardım, halal gəlir, əmlakdan əta (zəkat, xüms) kimi ümumi insan rifahına xidmət edən dəyərlər daxildir. Məhəmməd peyğəmbərin (salavatullah) ən məşhur kəlamlarından biri olan “qonşusu ac ikən, özü tox yatan bizdən deyil!” [7] çağırışı bəşəri dəyərlərə xidmət edən ən mötəbər şüar hesab olunur.

İsrailin şimalında, Qaliley dənizinin sahillərində (Kapernaum) Ət-Təbhiyyə (ivr. *Eyn-Şeva*) adlı yerdə “Çörəyin və balığın artması” adlı kilsə var. O, İsa peyğəmbərin 5 çörəklə və 2 balıqla 5 min nəfəri doyana qədər yedizdirməsini təsvir edən möcüzə ilə əlaqədar inşa olunmuşdur. “Beş çörək və iki balıq” məsəlinin, yaxud hədisinin (slav. *притча*) əsas mahiyyəti, bərəkətin allahdan gəldiyini və onun bütün insanlara məxsus

olduğunu göstərməkdir [8]. Lakin ümumi rifah konsepsiyası "əmək sərf etmədən qazanılmış rifahı" məqbul saymır. O, insanlara "havayı balıq verilməsini deyil, balıq tutmaq üçün tilov verilməsini" məqsədəuyğun hesab edir.

Tarixən münaqişəli cəmiyyətdə sosial ədaləti təmin etmək və dünya sərvətlərindən faydalanmaq imkanlarını balanslaşdırmaq uğrunda gərgin mübarizə getmiş və bu proses resursların sürətlə tükəndiyi müasir dövrdə daha acınacaqlı xarakter almışdır. Belə vəziyyət nemətlərin, sərvətlərin və defisit resursların bir qrup insanların əlində cəmləşməsi, yoxsulluqla dəbdəbə arasındakı əsas fərqlərin fövqəladə şəkildə kəskin olması, sosial stratifikasiyanın ifrat dərəcədə əcaib xarakter alması ilə bağlıdır.

XX əsrdə təşəkkül tapmış demokratik dövlətlərin sosial-iqtisadi doktrinasının əsaslarını insanları mütləq rifaha çatdırmaq prinsipləri təşkil edir. Bu baxımdan Azərbaycan Respublikasının iqtisadi siyasətinin prioritetləri və perspektivləri son dərəcə pozitiv mənzərə və yüksək təşəkküllü rifah vəd edir. Bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Hökumətinin, Heydər Əliyev Fondunun aktiv fəaliyyətlərini xüsusilə qeyd etmək lazımdır. Hələ əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı məsələləri ilə bağlı Dövlət Proqramı bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında çox uğurla həyata keçirilir. 14 aprel 2009-cu il tarixində Azərbaycan Respublikası Prezidentinin 80 nömrəli qərarı ilə "2009-2013-cü illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın və 27 fevral 2014-cü il tarixində Azərbaycan Respublikası Prezidentinin 118 nömrəli Fərmanına uyğun qəbul olunmuş "Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illər üçün sosial-iqtisadi inkişafı haqqında Dövlət proqramı"nın reallaşdırılması ilə əlaqədar regionlarda möhtəşəm tikinti-quruculuq işləri, sənaye müəssisələrinin inşası, kənd təsərrüfatına, fermerlərə lazımi dəstək və yardım göstərilməsi, yaşayış məntəqələrində əlverişli və müasir tələblərə tam cavab verən infrastrukturun yaradılması sahəsində böyük işlər görülmüş və bu proses bu gün də uğurla davam edir. Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyası qəbul olunmuşdur. Azərbaycanda sosial-iqtisadi inkişaf proqramlarının həyata keçirilməsində 2004-cü il may ayının 10-da yaradılmış Heydər Əliyev Fondunun və fondun Prezidenti, Azərbaycanın birinci xanımı, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, UNESCO-nun və ISESCO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının I vitse-

prezidenti Mehriban Əliyevanın müstəsna xidmətləri vardır. 2016-cı ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Regional İnkişaf İctimai Birliyi" yaradılmışdır. Heydər Əliyev Fondunun məqsədləri sırasına ümummilli lider Heydər Əliyevin Azərbaycanın sosial-iqtisadi və mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, Azərbaycan xalqının maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi və işləyib hazırladığı yeni siyasətin öyrənilməsinə, təbliğinə və onunla bağlı ideyaların həyata keçirilməsinə dəstək vermək, Azərbaycanın tərəqqisi, xalqın rifahının yaxşılaşmasına xidmət edən geniş miqyaslı proqram və layihələrin reallaşmasına kömək etmək, elm, təhsil, mədəniyyət, səhiyyə, idman və ekoloji sahələrə aid proqram və layihələr hazırlayıb həyata keçirmək, respublikanın və xarici ölkələrin təhsil müəssisələri ilə sıx əməkdaşlıq etmək, elmi tədqiqatların aparılmasına yardım göstərmək, xarici ölkələrin tanınmış elmi-tədqiqat mərkəzləri ilə alimlərin mübadiləsini təşkil etmək, ölkənin yaradıcı, elmi potensialının artırılmasına davamlı kömək etmək, uşaq müəssisələrinin infrastrukturlarını inkişaf etdirmək, insanların əsl yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini nümayiş və inkişaf etdirməsinə yardım etmək, uşaq və gənclərin hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, yerli əhəmiyyətli sosial problemlərin həllinə yardımçı olmaq, xüsusi qayğıya ehtiyacı olan insanlara kömək etmək və tibbi təsisatları daha da inkişaf etdirmək, yeni ekoloji tədqiqatları dəstəkləmək, sağlam həyat tərzlərini təbliğ etmək, Azərbaycan mədəniyyətinin geniş təbliği və mənəvi dəyərlərimizin daimi qorunması ilə bağlı olan tədbirlərə kömək etmək, uşaqların, gənclərin və incəsənət xadimlərinin sərgilərini təşkil etmək, Azərbaycanın beynəlxalq nüfuzunun daha da artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsinə, dini tolerantlığın inkişafına, əsl vətəndaş cəmiyyəti quruculuğuna dəstək vermək, respublikamızın və xarici ölkələrin fondları, QHT-ləri, ictimai təşkilatları ilə əməkdaşlığı genişləndirmək, onlarla birgə layihələr həyata keçirmək, Azərbaycanda və xaricdə aktual mövzulara dair elmi konfrans və seminarlar təşkil etmək və Azərbaycan həqiqətlərini bütün dünyaya çatdırmaq daxildir.

Beləliklə, ictimai rifaha can atan bütün inkişaf etmiş sivil dövlətlər kimi Azərbaycanda da həyata keçirilən sosial-iqtisadi xarakterli bütün tədbirlərin ən ali məqsədi, cəmiyyətin gündəlik tələbatı olan ümumi və davamlı rifaha nail olmaq və ölkədə mövcud olan etnik-siyasi birliyin əsaslarını daha da möhkəmləndirməkdən ibarətdir.

## 7.3. Qlobal inteqrasiya və multikulturalizm (ing. *Global integration and multiculturalism*)



Bu gün dünyada dinamik bir şəkildə inkişaf edən müxtəlif xarakterli proseslər içərisində qlobal inteqrasiya daha böyük önəm kəsb edir. O, dövlətlərin və ölkələrin iqtisadiyyatlarını ümumi bazar prinsipləri əsasında birləşdirən, xalqları etnik-siyasi cəhətdən yaxınlaşdıran sosial-iqtisadi və mədəni hadisədir. O, bu prosesə cəlb olunan bütün subyektlərin əvvəllər həyata keçirdikləri sosial-iqtisadi və mədəni siyasətlərinin unifikasiya olunması qismində təzahür edir. Sözügedən unifikasiya mədəniyyətlərin qovuşması və bir-birilərinə qarşılıqlı təsir göstərməsi, iqtisadi sahədə standartlaşdırma - qiymətlərin və tariflərin tam eyniləşdirilməsi, ticarətin həcminin kəskin şəkildə artırılması, biliyin, əməyin və insan kapitalının miqrasiyası və digər əlamətlərlə ifadə olunur [9].

Qlobal inteqrasiya, eyni zamanda milli təsərrüfat sistemlərinin də yaxınlaşması, qarşılıqlı şəkildə bir-birilərinə uyğunlaşması və nəticədə qovuşması kimi ortaya çıxır. Müasir beynəlxalq münasibətlər sistemində qlobal inteqrasiya müxtəlif formalarda təzahür edir. Bunlardan biri də iqtisadi inteqrasiyadır. Çağdaş dünyada aktiv şəkildə baş verən iqtisadi inteqrasiya aşağıdakı əsas formalarda təzahür edir: 1. Preferensial zona (lat. *praeferentia* - üstünlük - birliyə cəlb olunan ölkələr arasında gömrük rüsumları aşağı salınır, yaxud ləğv olunur). 2. Azad ticarət zonası. 3. Gömrük ittifaqı. 4. Ümumi bazar. 5. İqtisadi birlik. 6. İqtisadi və valyuta birliyi [10].

Qlobal iqtisadi inteqrasiya prosesi nəticəsində dünya bazarının da sərhədləi genişlənir, istehsalın miqyası və həcmi artır. Milli iqtisadiyyata qoyulan xarici sərmayələrin ölçüləri böyüyür, diapazonu isə genişlənir. Beynəlxalq ticarətin inkişaf etməsi ilə yanaşı ölkələrin iqtisadi-mədəni və təsərrüfat infrastrukturu beynəlxalq tələblərə uyğun şəkildə dəyişir. Yeni texnologiyaların çox sürətlə yayılması nəticəsində kommunikasiyaların keyfiyyəti yüksək həddə çatır və vahid informasiya məkanı yaranır.

Hal-hazırda dünya miqyasında çoxlu sayda sırf iqtisadi xarakterli birliklər mövcuddur ki, onlar qlobal inteqrasiyanın lokomotivləri hesab olunurlar. Belə birliklərdən ən nüfuzlu olanları - Avropa Birliyi, Cənubi Amerika Millətlərinin İttifaqı -UNASUR, Avrasiya İqtisadi Birliyi -AİB, BRİKS, ASEAN, ATƏT və İslam Əməkdaşlığı Təşkilatıdır.

Avropa Birliyi hələ 7 fevral 1992-ci il tarixində Belçika, İrlandiya Böyük Britaniya, Yunanıstan, İspaniya, İtaliya, Lyuksemburq, Niderland, Portuqaliya, Fransa və AFR dövlət başçılarının iştirakı ilə Niderlandın Maastrixt (Maastrixt müqaviləsi) şəhərində bağlanmış müqavilə əsasında yaradılmışdır (müqavilə 1993-cü il 1 noyabr tarixindən etibarən qüvvəyə minmişdir). AB beynəlxalq qurum olduğu üçün, özündə həm beynəlxalq təşkilatın, həm də dövlətin əlamətlərini ifadə edir [11]. 14 iyun 1985-ci ildə Belçika, Lyuksenburq, Fransa, Niderland, AFR dövlət başçılarının iştirakı ilə Mozel çayının Lyuksemburqdan keçən hissəsində Şengen şəhərciyi yaxınlığında "Şahzadə Mari-Astrid" gəmisində bağladıqları "Şengen müqaviləsinə" əsasən Avropa Birliyində təmsil olunan ölkələrin sərhədlərində gömrük nəzarəti və yoxlamaları ləğv edilmişdir. Müqavilə 1995-ci ilin 26 mart tarixində tam qüvvəyə minmiş və 1 may 1999-cu il tarixində imzalanmış Amsterdam müqaviləsinə görə, Avropa Birliyinin Şengen qanunvericiliyi ilə əvəz olunmuşdur. Şengen qanunvericiliyində təmsil olunan və AB-ə daxil olmayan yeganə dövlət İsveçrədir (2004). AB-də standart qanunlar əsasında "ümumi bazar" sistemi yaradılmışdır. Beynəlxalq hüququn subyekti kimi AB beynəlxalq münasibətlərdə iştirak və beynəlxalq müqavilələrin bağlanması səlahiyyətlərinə malikdir [12]. "Müxtəliflikdə razılıq" kimi multimədəni bir çağaırış AB-nin devizidir. 2012-ci ildə Avropa Birliyi Nobel Sülh Mükafatı ilə təltif edilmişdir. Bu gün birliyin tərkibinə 28 dövlət daxildir: Avstriya, Belçika, Bolqarıstan, B.Britaniya, Macarıstan, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Kipr, Latviya, Litva, Lyuksemburq, Malta, Niderland, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, Finlandiya, Fransa, Xorvatiya, Çexiya, İsveç, Estoniya [13]. AB-yə qoşulmaq üçün nümayəndə-dövlət 1993-cü ilin iyun ayında qəbul olunmuş "Kopenhagen meyarlarına" tam cavab verməlidir. Bu meyarlar isə Avropa Birliyinə daxil olan ölkələrdə demokratizm və şəxsiyyətin azadlığı, hüquqi dövlət, insan hüquqlarına hörmət, tolerantlıq və humanizm prinsiplərinə əməl edilməsini tələb edir. Birliyə daxil olan bütün ölkələrdə, həmçinin rəqabət qabiliyyətli bazar iqtisadiyyatının olması, AB-nin ümumi qaydalarının və standartlarının əsaslı tanınması başlıca şərt hesab olunur. 13 dekabr 2007-ci il tarixində Portuqaliyanın paytaxtı Lissabon şəhərindəki *dos Jeronimuş* monastrında bağlanmış müqaviləyə görə, Avropa Birliyinin hər bir üzvünün birlikdən çıxması qaydaları tam təsdiq edilmişdir. Qeyd etmək lazımdır ki, 1985-ci ildən yalnız bir dövlət - Qrenlandiya Avropa birliyini tərk etmişdir. Hal-hazırda B.Britaniyanın hakim dairələri (konservatorlar) 23 iyun 2016-cı il tarixində Böyük Britaniyanın AB-dən çıxması ilə əlaqədar keçirilən

referendumun nəticələrinə əsasən, ölkənin 2019-cu ilin əvvəlində AB-dən çıxması (ing. *Brexit - britain + exit*) proqramını həyata keçirirlər.

Bu gün cəmi beş dövlət - Albaniya, Makedoniya, Serbiya, Türkiyə, Çernoqoriya AB-yə daxil olmaq üçün namizədlik statusuna malikdirlər. Bosniya-Hersoqovina və Kosovo isə birliyin genişləndirilməsi üzrə rəsmi proqrama daxildirlər. Lixtenşteyn, Norveç, eləcə də İsveçrə kimi Avropa dövlətləri AB-yə daxil olmasalar da, birliyin iqtisadi həyatında qismən iştirak edir və onun bəzi direktivlərinə əməl edirlər. Avropanın Andorra, Vatikan, Monako və San-Marino kimi cırtdan dövlətləri AB-nin ümumi valyutası olan "avrodan" istifadə edir və kooperasiya haqqında müxtəlif müqavilələr vasitəsi ilə birliklə əlaqələr qururlar.

AB institutları sırasına Avropa Şurası, Avropa Komissiyası, AB Nazirləri Şurası, AB Məhkəməsi, AB Hesablama Palatası, AB Mərkəzi Bankı və AB Parlamenti daxildir.

Hal-hazırda AB-yə daxil olan ölkələrin ümumi əhalisinin sayı 500 milyon nəfərdən artıqdır. Birlikdə eyni həddə 24 fərqli dildən istifadə olunur. İşçi dillər kimi isə əsas etibarilə üç dil - ingilis, alman və fransız dilləri qəbul edilmişdir. Bu gün AB-də təmsil olunan əhalinin 65% bu və ya digər formada dini etiqadlarını açıq şəkildə ifadə edirlər [14].

Avropa Birliyində elmin və mədəniyyətin inkişafına xüsusi diqqət və qayğı göstərilir. Bütün milli mədəniyyətlərin qorunması və tərəqqisi üçün isə mövcud üsullardan və vasitələrdən tam istifadə olunur. AB-də elm aydın ifadə olunan innovasiya istiqamətinə əsaslanır.

Dünyada qlobal inteqrasiyanın nümunələrindən biri də, 2004-cü ilin 8 dekabr tarixində "Kusko deklarasiyası" ilə yaradılmış Cənubi Amerika Millətlərinin Cəmiyyətidir. Cəmiyyətin 12 üzvü (Argentina, Boliviya, Braziliya, Venesuela, Qayana, Kolumbiya, Paraqvay, Peru, Surinam, Uruqvay, Çili, Ekvador) və 3 müşahidəçisi (Kuba, Meksika, Kanada) var. İspan, portuqal, ingilis və niderland dilləri cəmiyyətin rəsmi dilləri hesab olunur. Ekvadorun mərkəzi Kito şəhəri, eləcə də Boliviyanın ən iri şəhərlərindən biri olan Koçabamba bu cəmiyyətin siyasi mərkəzləridir. Birliyə daxil olan dövlətlərin ümumi ərazisi isə 18 mil. $km^2$ təşkil edir. Əhalisi 400 mil. nəfərdir.

Xalqları sosial-siyasi və mədəni-iqtisadi inteqrasiya prosesinə cəlb etmiş daha bir beynəlxalq birlik Avrasiya İqtisadi Birliyidir. Belarus, Qazaxstan, Qırğızstan, eləcə də Rusiyanın daxil olduğu Avrasiya İqtisadi Birliyi 29 may 2014-cü il tarixində yaradılmış və 1 yanvar 2015-ci il tarixindən fəaliyyətə başlamışdır. Moldova isə bu birlikdə müşahidəçi kimi iştirak edir, eləcə də Tacikistan, Özbəkistan, Azərbaycan, Ukrayna,

Moldova, Monqolustan, Türkmənistan, İran, Türkiyə, Hindistan, Çin və Tunis birliyə əsas namizədlər mövqeyində dursalar da, konkret siyasi məsələlərlə bağlı onların birliyə üzvlüyü hələ ki, baş tutmur.

Dünyanın böyük bir hissəsini iqtisadi-mədəni inteqrasiyaya cəlb etmiş məşhur beynəlxalq təşkilatlardan biri də Braziliyanın, Rusiyanın, Hindistanın, Çinin və Cənubi Afrika Respublikasının daxil olduğu və qısaca BRICS (ing. *BRICS - Brazil, Russia, India, China, South Africa*) adlanan beynəlxalq təşkilatdır. Bu təşkilat 2009-cu ilin 16 iyun tarixində yaradılmışdır. İndoneziya, Türkiyə, Misir, Argentina, Nigeriya, Suriya, Banqladeş, Yunanıstan təşkilatda müşahidəçi kimi iştirak edirlər.

Hələ XX əsrin 60-cı illərinin sonlarından bəri dünyada fəaliyyət göstərən beynəlxalq təşilatlardan biri də Cənub-Şərqi Asiya Dövlətlərinin Assosiasiyasıdır. Qısaca ASEAN (ing. *Association of SouthEast Asian Nations*) adlanan bu təşkilat 8 avqust 1967-ci il tarixində "Bankqok Deklarasiyasının" imzalanması nəticəsində yaranmışdır. Regional siyasi, iqtisadi və mədəni hökumətlərarası təşkilat olan ASEAN-nın tərkibinə Cənub-Şərqi Asiya regionunun 10 tanınmış dövləti - Bruney, Vyetnam, İndoneziya, Kamboca, Laos, Malayziya, Myanma, Sinqapur, Tailand və Filippin daxildir. Təşkilatın baş katibliyi İndoneziyanın paytaxtı Cakarta şəhərində yerləşir. İngilis dili qurumun rəsmi işçi dilidir. Təşkilata daxil olan dövlətlərin ümumi ərazisi 5 mil. $km^2$ təşkil edir və bu ərazidə 600 milyondan artıq əhali yaşayır.

XX əsrin 70-ci illərində yaradılmış inteqrativ xarakterli beynəlxalq təşkilatlardan biri də Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatıdır (ing. *Organization for Security and Cooperation in Europe*). Bu təşkilat 1973-cü ilin iyul ayında regional təhlükəsizlik təşkilatı kimi yaradılsa da, tədricən Şimali Amerikada, Avropada və Mərkəzi Asiyada yerləşən digər çoxlu sayda dövlətləri öz orbitinə cəlb etmişdi. Təşkilatın yaradılmasını təsdiq edən Helsinki Yekun Aktı isə 1975-ci il iyul ayının 30-u - avqust ayının 1-ində Helsinki Müqaviləsinə əsasən təsdiq olundu. Hal-hazırda təşkilatın 57 üzvü, eləcə də 11 əməkdaş partnyoru var. Mənzil qərərgahı Avstriyanın paytaxtı Vyana şəhərində yerləşir.

Qlobal inteqrasiyaya çox böyük və əvəzolunmaz töhfələr vermiş beynəlxalq təşkilatlardan biri də İslam Əməkdaşlığı Təşkilatıdıdır (ing. *Organization of Islamic Cooperation* - OIC).1969-cu il sentyabr ayının 25-də Mərakeşin paytaxtı Rabat şəhərində müsəlman ölkələrinin dövlət başçılarının iştirakı ilə keçirilən beynəlxalq konfransda yaradılmışdır. 2011-ci ilə qədər "İslam Konfransı Təşkilatı" (OIK) adlanan bu qurum sosial-iqtisadi, mədəni və siyasi sferalarda islam həmrəyliyinin tam təmin

edilməsi, müstəmləkəçiliyə və rasizmə qarşı aktiv mübarizə, Fələstinin azadlığına dəstək və digər məqsədlər üçün yaradılmışdır. İlk mərhələdə qurumun tərkibinə Asiyanı və Afrikanı təmsil edən 25 dövlət daxil idi. Bu gün isə dünyada ən böyük beynəlxalq müsəlman təşkilatı olan "İslam əməkdaşlığı təşkilatının" tərkibinə, 1,8 milyard əhalisi olan 57 müsəlman dövləti daxildir.

Göründüyü kimi bəşəriyyətin iqtisadi-siyasi və mədəni birliyinə xidmət edən beynəlxalq təşkilatlar, tək iqtisadi tərəqqiyə, yeni təsərrüfat münasibətlərinin qlobal miqyasda və dövrün tələblərinə uyğun şəkildə təkmilləşdirilməsinə xidmət etmir. Bu qurumların inteqrativ xarakterinə rəğmən müxtəlif irqlərin, millətlərin və dini konfessiyaların mənsubları universal bir məfkurə (sosial, iqtisadi, mədəni, texniki, texnoloji və s.) ətrafında birləşirlər. Bununla da müxtəlif tipli təbii-coğrafi məkanlarda böyüyüb başa çatmış, fərqli məslək və tərbiyə sahibləri olan insanlar tam standartlaşdırılmış kurallarla, postmodern əqidə ilə mütərəqqi məqsədlərə xidmət edən toplum kimi formalaşdırılır. Beləliklə,"milli müxtəlifliklərin anlaşması, razılığı və birgə fəaliyyəti" ideyasının mütləq təntənəsi qlobal həqiqətə çevrilmiş olur.

## 7.4. Müasir dünyanın iqtisadi mənzərəsi: problemlər və perspektivlər (ing. *Economic picture of the modern world: problems and prospects*)



Dünyanın təbii obrazı ekologiyadırsa, tətbiqi obrazı iqtisadiyyatdır. Bəşəriyyət müasir iqtisadi münasibətlər sistemini yaratmaq üçün olduqca uzun, mürəkkəb və hər tarixi inkişaf mərhələsində daha da gərginləşən yol keçmişdir. Tarixən insanların iqtisadi və təsərrüfat həyatının baza prinsiplərini tükənən, yaxud defisit resurslar, təkrar əhali artımı ilə əlaqədar daim yüksələn və genişlənən sonsuz tələbatlar təşkil edir. Bu isə sosiumun təsərrüfat-iqtisadi həyatında davamlı problemlər yaradır. Elmi leksikonda süzügedən neqativ hadisə "iqtisadi problem" adlanır. İqtisadi problemin apogeyini isə lokal, regional və qlobal miqyasda böhranlar və kollapslar (lat. *collapsus* - çökmüş - sistemli böhran nəticəsində hər hansı sistemin dağılması) təşkil edir. Beləliklə, müasir iqtisadi problem təkcə cəmiyyətin maddi rifahına sarsıdıcı zərbə vuran fenomen kimi təzahür etmir. O, həmçinin ciddi sosial kataklizmlərə, insanlar arasında fövqəladə

gərginliyə, siyasi sabotaja və etnik separatizmə yol açır.

Bu gün təbii və iqtisadi ehtiyyatların fövqəladə şəkildə tükəndiyi və defisit resurlar, xüsusilə də enerji daşıyıcıları uğrunda gərgin mübarizə getdiyi bir şəraitdə, həyat uğrunda mücadilə misli görünməmiş gərgin xarakter almışdır. Müasir dünyanın real iqtisadi mənzərəsi - transmilli korporasiyaların qlobal iqtisadiyyatı öz şəxsi maraqlarına uyğun şəkildə manipulyasiya etməsindən, onların geosiyasətdə əlverişli iqtisadi mövqe tutmaq üçün etnik-milli zəmində münaqişələrə təkan verməsindən, bütün dünya sərvətlərinin və defisit resursların yalnız bir qisim insanın əlində cəmləşməsindən, yoxsulluğun, səfalətin fəlakət səviyyəsinə çatmasından ibarətdir. İqtisadi problemlər etnoslararası gərginlik yaradır. Bu zaman superetnoslar sağ qalmaq yolunu başqa, zəif etnosların qarşıdurmasında görürlər. Beləliklə, “bir etnosun fəlakəti başqa etnos üçün şansa çevrilir, yiyəsiz qalmış sərvətlər isə artıq yeni sahiblərinin əlinə keçir”. Beləliklə, dünyanı idarə edən qlobal siyasətin mənsubları etnik-dini və konfessional xarakterli münaqişələri daha böyük millətlərin və qlobal iqtisadiyyatın yaşaması və inkişafı üçün bir vasitə hesab edirlər. “Geosiyasət” kimi, ilk baxışdan mədəni görünən bir terminlə ifadə olunmasına baxmayaraq, bu olduqca ciddi və mürəkkəb siyasi oyundur və onun çoxlu sayda aldadıcı mexanizmləri və mürəkkəb struktura malik tələləri vardır. Belə tələlərə isə kifayət qədər davamlı etnik-siyasi və sosial-mədəni ideyası olmayan fərdlər, etnoslar, birliklər, cəmiyyətlər və dövlətlər düşürlər. Sarsılmaz milli məfkurə ətrafında birləşmiş sosiuma gəldikdə, onu belə üzdəniraq tədbirlərlə sarsıtmaq demək olar ki, əsla mümkün deyil. İqtisadi böhran keçirən, təsərrüfat baxımından iflasa uğrayan, yaxud müxtəlif xarakterli silahlı münaqişələrin qurbanına çevrilən cəmiyyətlərdə sağ qalmaq üçün yeganə çıxış yolu müharibə və münaqişə partiyasına qoşulmaq olur. Belə şəraitdə insanın fiziki potensialı, xüsusilə kişilərə aid işçi qüvvəsi özünü reallaşdırmaq üçün təbii təyinatından məhrum olur və “çörək uğrunda mübarizəni” süni yaradılmış münaqişəli məkanda - dini, milli və etnik zəmində törədilən savaşlarda davam etdirməyə məcbur olur. Elementar iqtisadi həyat normalarından məhrum olmuş belə insan öz ehtiyaclarını, oyanmış və radikal şəkildə ifadə olunan təcavüzkar instinklərin hesabına həyata keçiməyə başlayır. Çünki belə şəraitdə sağ qalmaq instinkti bütün bəşəri məqsədləri üstələyir. Əxlaqi-mənəvi qanunların üzərindən isə xətt çəkilir. Bütün məzhəblər və əqidələr öz təsir qüvvəsini itirir. Zorakılıq, mənəviyyatsızlıq və bütün mövcud heyvani instinktlərin hökm sürdüyü hüdudsuzluq effekti, sözün əsl mənasında isə infernal (lat. *infernalis - cəhənnəm*) sfera yaranır. Geriyə, yəni sülhə, barışığa, əmin-amanlığa və

birgəyaşayış rejiminə qayıdış isə son dərəcə çətin, hətta mümkünsüz olur.

Çağdaş dünyada cərəyan edən iqtisadi-siyasi xarakterli proseslər təəssüf ki, yüksək optimist duyğular yaratmır, eləcə də etnik-mədəni və təsərrüfat-iqtisadi zəmində problemlərdən azad olmuş xoşbəxt gələcək də vəd etmir. Çünki yaşadığımız dövrdə dünyanın hərbi-siyasi nəhəngləri və qlobal iqtisadiyyatın lokomotivləri olan dövlətlər və təşkilatlar arasında iqtisadi baxımdan, sözün əsl mənasında ölüm-dirim mübarizəsi gedir. Bu mübarizə isə dolayı yolla daha yeni regional münaqişələrdə təzahür edir. Avropa Birliyi ilə ABŞ arasında münasibətlər kifayət qədər sərindir. Dünyanın ən nəhəng nüvə dövlətləri olan Rusiya və ABŞ arasında daim sərt iqtisadi-siyasi və diplomatik qarşıdurma baş verir. ABŞ-la Cənubi Amerika ölkələri arasında münasibətləri də çox yaxşı kimi adlandırmaq olmaz. Ərəb dövlətləri isə ABŞ, Avropa, Çin, Hindistan və Rusiya kimi fövqəl dövlətlərə münasibətdə tam müxalif mövqe tuturlar. Çinlə ABŞ arasında gərgin iqtisadi və maliyyə qarşıdurması baş verir. Şimali Koreya rəhbərliyinin dünyaya açıq meydan oxuması və beynəlxalq qadağalara baxmayaraq, davamlı şəkildə nüvə silahını sınaqdan çıxarması dünyada ciddi nüvə müharibəsi təhlükəsi yaratmışdır. Ərəb dünyasında da sosial-iqtisadi və hərbi-siyasi vəziyyət, həmişə olduğu kimi gərgindir. Suriyada və İraqda səngimək bilməyən intensiv hərbi əməliyyatlar, məzhəblərarası barışmazlıq, intriqa və nəhayət, son vaxtlarda Qətər dövləti ətrafında ərəb dövlətlərinin çox ciddi diplomatik qarşıdurması Yaxın Şərqdə yeni hərbi münaqişənin başlayacağından xəbər verir. Belə bir şəraitdə fövqəlsiyasi dünya gücü öz real və potensial opponentlərini dərhal ləğv etmək və təbii sərvətlərə sahib olmaq üçün, minillik tarixi olan sivilizasiyaları da yerlə-yeksan etməkdən, qadınları, uşaqları, körpələri, qocaları kütləvi şəkildə qırmaqdan belə çəkinmir. Bu siyasətin bütün görünən və görünməyən tərəfləri konkret olaraq iqtisadiyyatla sıx bağlıdır. Onun qüsursuz işləyən hiyləgər mexanizmləri isə aşağıdakı kimi cərəyan edir: qlobal siyasətin icraçıları olan transmilli korporasiyalar "onlara qırmızı işıq göstərmiş asikar məkanlara" daxil olmaq üçün müharibə partiyasını məsələyə cəlb edirlər və bundan sonra çox qısa bir müddət ərzində "hiddətin, nifrətin və dözümsüzlüyün dağıtdığı məkana qalib kimi" daxil olurlar. Beləliklə, bir tərəfdən defisit resurslara sahib olmaq kimi missiya yerinə yetirilir, silah satışı reallaşdırılır, digər tərəfdən isə çox sürətlə artan əhalinin sayı süni şəkildə azaldılır. Necə deyərlər, "müharibə kimin üçün müharibə, kimin üçün isə dost-doğma ana" olur. XX əsrdə fövqəlsiyasi güc bu "üzdəniraq vəzifənin" öhdəsindən total hərbi münaqişələri - Dünya müharibələrini törətməklə gəlirdi. Nüvə silahının məhdudlaşdırıcı amil ilmasından sonra

isə “o, bu missiyanı kiçik porsiyalarla” reallaşdırır. Təəssüf ki, etnik-dini, sosial-mədəni ideyaların durmadan tərənnüm olunmasına baxmayaraq, regional və qlobal miqyasda mövcud iqtisadi siyasətin əsas məzmununu münaqişə təşkil edir. Beləliklə, dünyanı mütləq sülhə, əmin-amanlığa, birgəyaşayış qaydalarına uyğun şəkildə qurmağı nəzərdə tutan mütərəqqi ideyaların qarşısında olduqca çətin tarixi vəzifə durur.

## *İstinadlar*


1. *Донателла Медоуз, Йорге Рандерс, Деннис Медоуз. Пределы роста: 30 лет спустя. - Москва, БИНОМ. Лаборатория знаний. 2012. - с. 353*
2. *Sakiko Fukida-Parr. The Human Development Paradigm: Operationalizing Sens ideas on capabilities. Economics 9 (2 - 3), 2003, pp. 301-317*
3. *Экономичесая теория. Трансформирующая экономика. Под редакц. Николаевой И.П. Москва, Юнити, 2004. С. 253. 417 с.*
4. *Gulnara Mehmandarova,“Khinalig: Linguists Dream, Invaders Nightmare,”Azerbaijan International, Vol. 6:2 (Summer 1998), pp. 50-51*
5. *Franz-Xaver Kaufmann herausfordeungen des Sozialstaates. Frankfurt am Main: Suhrkamp Verlag, 1997. p. 21*
6. *Исламский энциклопедический словарь. Ализаде А.А., Ансар, 2007. с. 429., 400 с.*
7. *Al-Hakim an Naysaburi. Marifat Ulum al-Hadis. Hakim II, 15; Heysəmi, VIII, 167*
8. *Евангелие от Матфея. 14: 14. (перевод С. Аверинцева) Киев, 2004*
9. *Авладеев А.А. Уточнение понятий «экономическая интеграция» и «принудительная экономическая интеграция». А.А. Авладеев. Издат.Молодой учёный. Москва, 2014. № 21. С. 260-263*
10. *Dalimov R.T. Modelling International Economic Integration: An Oscillation Theory Approach. Trafford, Victoria 2008, 234 p.*
11. *Anneli Albi. Implications of the European Constitution. EU enlargement and the constitutions of Central and Eastern Europe. Cambridge, UK: Cambridge University Press, 2008, 2005. - p.204*
12. *Sari Aurel. The Conclusion of International Agreements by the European Union in the Context of the ESDP. International and Comparaitive Law Quartely. - Social Science Electronic Publishing, 2008. - Vol. 57. - pp. 53-86*
13. *Кашкмн С.Ю.,Калиниченко П.А.,Четвериков А.О. Глава 1. Ввеление в право Еропейского Союза: учебик. Под ред. Кашкина С.Ю. 3-е изд., перераб. и доп. – Москва, «Эксмо», 2010. - с. 22*
14. *Social values. Science and Technology (PDF). European Commision. p. 7-11. Europe portal (June 2005)*

# VIII FƏSİL. MULTİKULTURALİZM BEYNƏLXALQ SİYASƏTİN OBYEKTİ KİMİ



## 8.1. Multikulturalizm beynəlxalq münasibətlər kontekstində (ing. *Multiculturalism in the context of international relations*)



Müasir dünyanın planetar miqyasda etnik-siyasi məzmununu beynəlxalq münasibətlər təşkil edir. Beynəlxalq münasibətlər bir cəmiyyət daxilindəki münasibətlər çərçivəsindən və dövlət sərhədlərindən kənara çıxan xüsusi növ ictimai münasibətlərdir. Bu tipli ictimai münasibətlərin olduqca qədim sivilizasiyalara gedib çıxan bir tarixi vardır. “Beynəlxalq münasibətlər” terminini elmi dövriyyəyə daxil etmiş ingilis filosofu Ceremi (İyeremiya) Bentam (ing. *Jeremy Bentham* - 1748-1832) iddia edirdi ki, bu termin altında, ilk növbədə çox böyük milli dövlətlər arasında kortəbii şəkildə yaranan xüsusi münasibətlər başa düşülməlidir. Belə münasibətlərin əsas məzmununu isə, bir qayda olaraq, siyasi münasibətlər təşkil etməlidir [1].

Fransız alimi, filosof və sosioloq Reymon Klod Ferdinand Aronun (fran. *Raymond Claude Ferdinand Aron* -1905-1983) fikrincə beynəlxalq münasibətlər siyasi vahidlər arasında olan münasibətlərdir. Filosof iddia edirdi ki, beynəlxalq münasibətlər, ilk növbədə fərqli dövlətlər arasında qarşılıqlı təsir kimi ifadə olunan bir fenomendir. Bu təsir isə beynəlxalq münasibətlərin aktorları və icraçıları olan diplomatların və hərbiçilərin “vasitəçiliyi” ilə həyata keçirilir [2].“Diplomatiyanın resursları tükənən zaman “general-əsgər-silah” üçlüyü danışır. Onların resursları tükənəndə isə “əlac dəyirmi masaya qalır”. Bu baxımdan multikulturalizm ideyaları “əvvəlki prosedurları keçmədən və sağlam fikrin qüdrətinə əsaslanaraq, birbaşa dəyirmi masaya - multimədəni dialoqa çağırış kimi təzahür edir”. Bu müstəvidə bütün beynəlxalq münasibətlər müxtəlif xarakterli razılıq aktlarının məcmusu və insan təfəkküründən asılı olan obyektiv-subyektiv

reallıq kimi qiymətləndirilir.

Bununla belə, beynəlxalq münasibətlər dövlətlərin gücə əsaslanan qarşılıqlı təsiridir, başqa sözlə isə güclərin balanslaşdırılması aktıdır. Bu aktın reallaşdırılmasında qüdrətli dövlətlər aşkar üstünlüyə malik olurlar, digər dövlətlər isə mövcud vəziyyətə münasibətlərini, öz daxili və xarici siyasət prioritetlərini "fövqəlgücün tələblərinə uyğun, yaxud ən azı bu tələblərə zidd olmadan" həyata keçirməyə məcburdurlar. Qeyd etmək lazımdır ki, beynəlxalq münasibətlərin təbiətini dəyişdirmək mümkün deyil, yalnız siyasi qüvvələrin konfiqurasiyasında bəzi dəyişiklik etmək mümkündür [3]. Beynəlxalq münasibətləri və onunla bağlı olan "dünya nizamını" elmi cəhətdən "Beynəlxalq münasibətlər nəzəriyyəsi" adlanan təlim öyrənir. Adətən beynəlxalq münasibətlər sistemində "geosiyasət" fenomeni xüsusi məzmun və əhəmiyyət kəsb edir. Geosiyasət (yun. *geos* - yer, *politiya* - siyasət) məkan üzərində vacib nəzarəti həyata keçirməyin yollarını və üsullarını öyrənən ictimai-siyasi təlimdir. Ənənəvi olaraq "geosiyasət" termini etnik və coğrafi faktorlarla təyin olunan bir siyasətə təsir mexanizmlərini təsvir etmək üçün işlədilir. Lakin son dövrlərdə bu termindən lokal və regional məkanlarda qlobal siyasətin həyata keçirdiyi hərbi-siyasi əməliyyatları ifadə etmək üçün də istifadə olunur.

Müasir siyasət elmində geosiyasətin ənənəvi, yeni (geoiqtisadiyyat) və ən yeni (geofəlsəfə) kimi növlərini ayırd edirlər. Ənənəvi geosiyasət əsas aksenti dövlətin hərbi-siyasi qüdrəti işinə və başqa ərazilərin zəbt edilməsində coğrafi faktorların dominant roluna edir. Yeni geosiyasət, yaxud geoiqtisadiyyat əsas diqqəti dövlətin iqtisadi qüdrətinə, bu qüdrət vasitəsi ilə coğrafi məkanlarda hakim mövqə tutmasına yönəldir. Ən yeni geosiyasət, yaxud geofəlsəfə isə dövlətin və millətin sağlam düşüncəyə, yüksək fəlsəfi ideallara əsaslanan siyasi ruhunun hərbi və iqtisadi qüdrət faktorundan yüksəkdə durmasına əsaslanır. Geosiyasətin reallaşdırılması üsullarının və vasitələrinin məcmusu "geostrategiya" adlanır.

Onu qeyd etmək lazımdır ki, son dörd əsr ərzində (XVII-XX əsrlər) beynəlxalq münasibətlər sisteminin inkişafı ilə əlaqədar bir neçə sistem formalaşmış və müəyyən dövr üçün dünya nizamının əsas prinsiplərini təyin etmişdir: **1. Vestfal sistemi** - Avropada 1618-1648-ci illərdə baş vermiş "Otuzillik müharibənin" yekunları ilə əlaqədar 15 may (katolik yepiskopluğu olan Myunster) və ya 24 oktyabr (protestant yepiskopluğu Osnabryuk) 1648-ci il tarixində bağlanmış əsas müqavilələrə (ümumi ad altında isə "Vestfal sülhü") əsaslanır. Vestfal sistemi üçün qüvvələrin balanslaşdırılması ideyası xarakterikdir [4].

**2. Beynəlxalq münasibətlərin Vyana sistemi**, əsasən Napoleon

müharibələrinin (fran. *Guerres napoleoninnes,* ing. *Napoleonic wars* - 1799-1814) başa çatması ilə 1814-1815-ci illərdə Avstriyanın paytaxtı Vyana şəhərində Avstriyanın xarici işlər naziri (1809-1848) Klemens Vensel Lotar fon Metternix-Vinneburqun (alm.*Klemens Wenzel Lotar von Metternich-Winneburg-Beilstein* -1773-1859) bilavasitə rəhbərliyi altında keçirilən "Vyana konqresində" qəbul edilmişr [5]. Məhz Vyana sistemi çərçivəsində, tarixdə ilk dəfə olaraq Rusiyanın, Avstriyanın və Böyük Britaniyanın simasında "çox qüdrətli dövlətlər" və "çoxtərəfli diplomatiya" kimi yeni anlayışlar formalaşmışdı. Tədqiqatçıların çoxu Vyana sistemini "kollektiv təhlükəsizliyin" ilk nümunəsi hesab edirlər. Vyana sistemi, həmçinin diplomatik rütbələri (səfir, elçi, tam səlahiyyətli nümayəndə və dörd tip konsul müəssisələri) sistemləşdirdi və tam unifikasiya etdi. Eyni zamanda o, diplomatik immunitet və diplomatik valiza (fran. *Valise postale* - poçt kisəsi, yaxud diplomatik baqaj) kimi yeni siyasi anlayışları da müəyyənləşdirildi. Vyana sisteminə, həmçinin "Avropa konserti" (birlik) ideyası xas idi [6].

**3. Beynəlxalq münasibətlərin Versal-Vaşinqton sistemi** I Dünya müharibəsindən (1914-1918) sonra Paris Sülh Konfransının gedişində (18 yanvar 1919 -21 yanvar 1920) Versal sülh müqaviləsinin (28 iyun 1919) və 1921-1922-ci illərdə keçirilən Vaşinqton konfransının gedişində bağlanmış müqavilələr əsasında yaradılmışdır.

**4. Beynəlxalq münasibətlərin Yalta-Potsdam sistemi** II Dünya müharibəsi zamanı keçirilən Krım (4-11 fevral 1945) və Potsdam (17 iyul - 2 abqust 1945) konfranslarında əldə edilmiş razılıqlar və bağlanmış müqavilələr əsasında qəbul olunmuşdur. Yalta-Potsdam sistemi tarixi presedent (lat. *praesedens* - əvvəl gələn, yəni keçmişdə analoqu olmuş hadisənin bugünki oxşar hadisələr üçün nümunə olması) kimi təzahür edən fenomen idi. Bununla belə, heç vaxt dünya süni şəkildə iki dövlət, yaxud sistemlər arasında nüfuz sferalarına bölünməmişdi. Məhz Yalta-Potsdam sistemi kapitalizm və sosializm kimi sistemlər arasında "soyuq müharibə" adlanan davamlı qarşıdurmanın başlanğıcını qoydu. Hərbi-siyasi qüvvələrin bipolyar bir forması bərqərar oldu. 1991-ci ildə Sovet ittifaqının və dünya sosializm sisteminin dağılması ilə Yalta-Potsdam sistemi də öz qüvvəsini itirdi [7].

Bu gün sosial-siyasi fəlsəfədə "beynəlxalq münasibətlər" anlayışına müxtəlif xarakterli yanaşmalar mövcuddur. Bu məsələyə "neorealizm paradiqmasından" yanaşdıqda əsl beynəlxalq münasibətlər dövlətlərarası münasibətlər kimi qiymətləndirilir, çağdaş dünya siyasəti isə qeyri-dövlət aktorlarının qarşılıqlı təsiri, fövqəlsiyasi güclər arasında qarşıdurma kimi

qəbul olunur. Təsadüfi deyildir ki, müasir qlobal siyasəti icra edən və rəsmi statusa malik olan aktorlar həqiqi söz sahibləri deyillər. Planetin idarə olunması kimi möhtəşəm və son dərəcə mürəkkəb struktura malik olan işi isə gizli fəaliyyət göstərən "dünya hökuməti" reallaşdırır. Bu, o anlama gəlir ki, dünyanın fövqəl dövlətləri və digər siyasi subyektlər arasında münasibətlər əsla anarxiya xarakteri daşımır və "qeyri-rəsmi nüfuz sahiblərinin tərtib etdikləri proqrama tam uyğun olaraq qurulur və konkret ssenari üzrə həyata keçirilir".

Əlbəttə ki, beynəlxalq münasibətlərin belə tərzdə analizi o qədər də optimist təəssürat yaratmır. Belə çıxır ki, beynəlxalq münasibətlərdə ictimaiyyətin fikri, xalqların bir-birilərinə yüksək təşəkküllü münasibəti, dini ideologiyaların tərənnüm etdikləri ən mütərəqqi dəyərlər, nəhayət yüksək tolerantlıq, mərhəmət və bəşəri məhəbbət kimi yüksək dəyərlərlə ifadə olunan multikulturalizm ideyalarının və bu ideyaların rəsmi şəkildə təzahür etdiyi dövlət siyasətinin nəzəriyyə statusunu aşaraq, praktikada reallaşması müşkül məsələdir. Əgər "gizli fövqəlgücün total nəzarəti" altında olan dünya siyasəti istədiyi vaxt və istədiyi məkanda dini, etnik, yaxud milli zəmində qarşıdurmalar yaratmağa qadirdirsə, hansı konkret ideologiya ilə və hansı üsullarla bu "fövqəlqüdrətin planlarını pozmaq olar?" İş burasındadır ki, hər bir, hətta ən sabit cəmiyyətdə belə, özündə gizli və aşkar şəkildə anarxizm, xaotizm, ekstremizm, radikalizm, faşizm, rasizm, nihilizm və s. kimi antihumanist ideyaların daşıyıcıları olan çoxlu sayda personalar var. Məhz qeyri-müəyyənlik, xaos, anarxiya və konflikt situasiya onların tam arzu etdikləri həyat mühitidir. Belə mühitdə, necə deyərlər "onlar özlərini balıq suda hiss edən kimi, çox əla hiss edirlər", "üzdəniraq potensial imkanlarını" isə məhz belə bir şəraitdə reallaşdıra bilirlər. Eyni tipli, eyni xarakterli, eyni əqidəli belə insanlar dilindən, dinindən, milliyyətindən, etnik mənsubiyyətindən asılı olmayaraq, sanki "dünyanın hər yerinə səpələnmiş qardaşlardır". Onlar həmişə, hər şeydən narazıdırlar. Bu insanlar tanrı ədalətindən pay almamış və daim yanlış ideyaların əsiri olan fərdlərdir. Qibtə, paxıllıq və nifrət belə insanların davamlı şəkildə degenarasiyaya uğrayan ruhani məzmunudur. Dünyanı idarə edən fövqəl güc sahibləri "uğurlu beynəlxalq siyasət reallaşdırmaq üçün öz planlarını məhz bu qüvvələrə hesablayırlar". Multikulturalizm kimi mütərəqqi bir ideologiyanın tarixi vəzifəsi isə məhz belə neqativ məzmunlu qaragüruh personaların "infernal ideyalarının" reallaşmasına, sülhsevər və multimədəni cəmiyyətin qlobal siyasətin və "fövqəlgücün" intriqalarının qurbanına çevrilməsinə yol verməməkdən ibarətdir.

Liberal-idealist və neoliberal paradiqmalara görə, hər fövqəldövlət,

superetnos, qeyri-rəsmi və “gözə görünməyən fövqəlgüc” beynəlxalq münasibətləri mütləq şəkildə, təkbaşına idarə edən aktorlar deyil. Çünki müasir dünyada “qlobal siyasi oyunun geymerləri” (ing. *gamer* - oyunçu) olan transmilli korporasiyalar, beynəlxalq təşkilatlar, terrorçu və kriminal şəbəkələr, ayrı-ayrı şəxslər beynəlxalq münasibətlərin reallaşdırılmasında həlledici rol oynayırlar.

Beynəlxalq münasibətlərə hansı paradiqmadan yanaşılmasından asılı olmayaraq, əvvəlki əsrlər ərzində olduğu kimi, bu gün də beynəlxalq sabitliyə, dünya qaydalarına və sosial tərəqqiyə nail olmağın əsas şərti beynəlxalq əməkdaşlığı daha da inkişaf etdirməkdir. Bu vacib missiyanı reallaşdırmaq üçün isə sağlam düşüncənin davamlı tərəqqisi, mütərəqqi ideyaların cəmiyyətin ruhani həyatına tətbiq edilməsi əsas şərtdir.

XX əsr Qərb təfəkkürür tərzinin məhsulu olan multikulturalizmin çoxşaxəli məqsədlərindən biri də, elə bu missiyanın reallaşdırılmasına xidmət edir. Qeyd etmək lazımdır ki, beynəlxalq münasibətlərə bu cür baxış yüksək təşəkküllü rasionalist bir mənzərə yaradır. Bu mənzərədə mərkəzi obyekt isə pozitiv düşünən, bəşəri maraqları hər şeydən üstün tutan, daim rasional hesablamalara uyğun şəkildə hərəkət edən insandır [8].

## 8.2. Multikulturalizm fenomeninin xarici siyasət sisteminə təsiri (ing. *The influence of the phenomenon of multiculturalism on the foreign policy system*)



Xarici siyasət bir dövlətin digər dövlətlərlə və xalqlarla münasibətlərinin tənzimlənməsi istiqamətlərində həyata keçirilən siyasət növüdür. O, dövlətin beynəlxalq arenada daim meydana çıxan tələbatlarının reallaşdırlması işini təmin edir. Xarici siyasətin ən əsas mahiyyəti dövlətin və onu təmsil edən xalqın milli maraqlarını müdafiə etmək bacarığından ibarətdir.

Xarici siyasət beynəlxalq miqyasda olan münasibətləri xalqın və dövlətin məqsəd və prinsiplərinə uyğun şəkildə, müxtəlif metodlardan və vasitələrdən istifadə etməklə tam həyata keçirir. Bu baxımdan, bu gün Azərbaycanda və digər dünya ölkələrində reallaşdırılan multikulturalizm siyasətini xarici siyasət sisteminin tənzimlənməsində səmərəli tədbirlər sistemi kimi qiymətləndirmək lazımdır. Nəzərə alsaq ki, xarici siyasətin

ən vacib və effektli vasitəsi diplomatiyadır, o zaman multikulturalizm ideyalarının reallaşdırılmasını diplomatiyanın vacib aspekti kimi qəbul etmək olar. Çünki dövlətin əsas xarici siyasəti, bilavasitə onun həyata keçirdiyi daxili siyasətlə qırılmaz şəkildə bağlıdır.

Hər bir dövlət beynəlxalq münasibətlər sistemində konkret şəkildə ifadə olunan maraqları təcəssüm etdirir. Müasir dövlətlərin xarici siyasət maraqları 3 əsas tipdə təzahür edir: 1. Müxtəlif sosial-siyasi qüvvələrin maraqları. 2. Milli maraqlar. 3. Ümumbəşəri maraqlar**.**

Müxtəlif tip sosial-siyasi qüvvələrin maraqları dedikdə, əsas söhbət beynəlxalq münasibətlər sistemində konkret ölkənin nüfuz sahiblərinin müvafiq maraqlarının tam ifadə olunmasından və bu maraqların siyasi və diplomatik yollarla tam təmin edilməsindən gedir. Milli maraqlar (ing. *national interests*) isə milli dövlətin real, obyektiv əhəmiyyət kəsb edən məqsəd və vəzifələridir. Onlar millətin spesifik missiyasını və ruhani-mənəvi dəyərlərini əks etdirir.

Milli maraqlar dedikdə cəmiyyətin ümumi tələbatlarının - dövlətin süverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin olunması, beynəlxalq arenada onun nüfuzunun möhkəmləndirilməsi, əhalinin rifah halının yüksəldilməsi və digər belə dəyərlər başa düşülür. Milli maraqlar, həmçinin millətin daimi varlığı, davamlı inkişafı və təkrar istehsalı üçün prioritet əhəmiyyət kəsb edən əxlaqi-mənəvi, sosial-siyasi və iqtisadi-mədəni tələbatların məcmusudur.

Xarici siyasət kontekstində təzahür edən bəzi maraqların içərisində ümumbəşəri maraqlar xüsusi bir önəm kəsb edir. Ümumbəşəri maraqlar milli və fərdi maraqlardan üstdə duran, planetin ekoloji təhlükəsizliyinin, davamlı inkişafının və uğurlu gələcəyinin dünya siyasi birliyinin ümumi qüvvələri ilə təmin olunmasını nəzərdə tutan və eyni zamanda hər kəsin ümumi dünya haqqında arzu və istəklərini əks etdirən maraqlardır.

Müasir dövlətlərin əsas xarici siyasət fəaliyyəti xüsusi yaradılmış mexanizmlər, yəni xarici əlaqələri və münasibətləri icra edən orqanların sistemli fəaliyyəti əsasında həyata keçirilir. Bu mexanizmlər 2 qrupa bölünür: 1. Ölkədaxili orqanlar - prezident, hökumət, parlament, xarici işlər nazirliyi və s. 2. Ölkəxarici orqanlar - daimi konsulluqlar, səfirliklər və beynəlxalq təşkilatlarda təmsil olunan nümayəndəliklər.

Dünya dövlətlərinin mövqeyindən, siyasi nüfuzundan, xarici siyasət strategiyasından, hərbi-siyasi və ideoloji doktrinalarından asılı olaraq, aşağıdakı xarici siyasət tiplərini ayırd edirlər: 1. Passiv xarici siyasət - beynəlxalq konyukturaya (lat. *concungo* - birləşdirirəm, əlaqə yaradıram - vəziyyətlərin təsadüfi qovuşmasını əks edən paradiqma) uyğun siyasət

yürütmək. 2. Mürtəce xarici siyasət - başqa ölkələrin xarici siyasətini öz siyasi maraqlarına uyğun şəkildə dəyişdirmək cəhdləri. 3. Aktiv xarici siyasət - daxili və xarici siyasi sistemlərin arasındakı ciddi müvazinətin yaradılması aktı. 4. Konservativ xarici siyasət - əvvəllər əldə olunmuş münasibətlər sisteminin qorunması.

Postmodern münasibətlər sistemində yeni, multikulturalizm siyasəti konkret dövlətin sərhədlərindən çıxaraq, xarici siyasətin əsas elementinə çevrilir və müəyyən mənada bu siyasətin spesifik tipi kimi təzahür edir. Bu siyasətin özünəməxsus xarakteri ondan ibarətdir ki, o, hər hansı rəsmi tədbirlər görmədən, konkret müqavilələr bağlamadan, hansısa siyasi təsir mexanimlərini əsla işə salmadan, qeyri-rəsmi mədəni tədbirlər vasitəsilə ən yüksək nəticələr əldə etməyə və yekun məqsədlərə çatmağa qadirdir. Məsələn, ölkə ərazisində başqa dillərin öyrənilməsi, başqa xalqların elm, din, mədəniyyət, incəsənət və siyasət xadimlərinə monumental abidələrin qoyulması, onların adlarının yaşayış məntəqələrinə, küçələrə, parklara və digər obyektlərə verilməsi, ölkədə təmsil olunan başqa xalqların diaspora təşkilatlarının tam fəaliyyəti üçün münbit şəraitin yaradılması, digər dini konfessiyaların tam sərbəst fəaliyyəti üçün dini mərkəzlərin, dini evlərin, məbədlərin və digər dini müəssisələrin təşkili, ölkədə bu, yaxud digər şərtlər əsasında yaşayan, lakin başqa etnosları və dövlətləri təmsil edən milli azlıqların öz ana dillərində təhsil almaları üçün tədbirlər görülməsi, müxtəlif xalqların mədəniyyət günlərinin təşkil edilməsi, başqa xalqların elm, din və mədəniyyət xadimlərinin ölkəyə dəvət olunması və s.

Bununla bağlı son vaxtlar Azərbaycanda həyata keçirilən və sırf multimədəni məna və məzmun ifadə edən tədbirlərin - Avroviziya mahnı müsabiqəsinin, Avropa idman oyunlarının, İslam həmrəyliyi oyunlarının, müxtəlif xarakterli forumların, ayrı-ayrı ölkələrin tələbələrinin iştirakı ilə BBMM-in təşkil etdiyi yay və qış məktəblərinin, digər mahnı və musiqi festivallarının xüsusi əhəmiyyəti vardır.

Ümumi cizgilərdə Azərbaycan Respublikası regionda və dünyada aktiv, balanslaşdırılmış xarici siyasət, irimiqyaslı, beynəlxalq xarakterli multimədəni tədbirlər həyata keçirən dünyəvi, demokratik dövlət kimi özünü tam təsdiq etmişdir. Bu siyasətin məntiqi nəticəsi isə XXI əsrin əvvəllərində Azərbaycanın iqtisadi və siyasi baxımdan bütün dünyada ən sabit ölkələrdən birinə çevrilməsidir. Polietnik məkan kimi özünəməxsus özəllikləri olan Azərbaycanda həyata keçirilən multikulturalizm siyasəti isə həm daxili sabitliyin qorunub saxlanılmasına, davamlı inkişafın təmin edilməsinə, həm də xarici siyasət münasibətlərinin daha effektli şəkildə tənzimlənməsinə hesablanmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2012-ci il sentyabrın 21-də 10 istiqamət üzrə yeni tapşırıq və vəzifələr müəyyən etməsindən sonra, ölkənin əsas xarici siyasət fəaliyyətini həyata keçirən strukturların, təşkilatların və müəssisələrin üzərinə ciddi tarixi vəzifələr qoyulmuşdur. Bu vəzifələr sırasında Azərbaycan xalqının əsrlərdən bəri formalaşmış çox zəngin tarixi nümunəsində dünyada multikulturalizm və tolerantlıq meyllərinin inkişafına töhfələr verilməsi, mədəni diplomatiya siyasətinin inkişaf etdirilməsi və dünya miqyasında Azərbaycan xalqının sahib olduğu zəngin mədəni irsin tanıdılması, dünya azərbaycanlıları və diaspor təşkilatları ilə geniş əlaqələrin daha da gücləndirilməsi, onların fəaliyyətinin dəstəklənməsi və digər məqamlar yer almışdır.

Sözügedən vəzifələr ölkənin mövcud xarici siyasətinin keyfiyyətcə yeni bir səviyyəyə çıxmasını ifadə edir. Burada söhbətin dünyanın fövqəl dövlətlərinin və beynəlxalq təşkilatların ən ciddi diqqət və əhəmiyyət verdiyi məqamlardan getdiyini dərk etmək çox vacibdir. Çünki mədəni, mənəvi, əxlaqi və bu kimi dəyərlərin geniş yayılması vasitəsi ilə, həmin dövlətlər planetar miqyasda öz nüfuzlarını və təsir qüvvələrini fövqəladə şəkildə artırırlar. Belə hal müasir geosiyasi nəzəriyyələrdə ”yumşaq güc siyasəti” adlanır.

Azərbaycan Cənubi Qafqazda yeganə dövlətdir ki, konkret şəkildə “mədəni diplomatiya” kimi siyasəti aktiv şəkildə həyata keçirir və bu müstəvidə dəqiq hazırlanmış bir proqrama malikdir. Məhz bu prinsiplər əsasında reallaşdırılan çox məntiqli və uzaqgörən xarici siyasət dövlətimizi beynəlxalq aləmdə söz sahibi edib.

Qeyd etmək lazımdır ki, böyük dövlətlərin öz nüfuzları uğrunda daha kəskin mübarizə apardıqları müasir qlobal cəmiyyətdə polietnik tərkibli və sosial-siyasi kataklizmlərdən kifayət qədər sığortalanmamış dövlətlər üçün mürəkkəb geosiyasi vəziyyət yaranmışdır. Onlar ərazi bütövlüyünü qorumaq və multimədəni təhlükəsizliyi təmin etmək üçün daha da fəal olmağa məcburdurlar. Bunun üçün sözügedən dövlətlər sosiumu daxildən parçalamaq üçün fövqəlsiyasətin əlində “ən effektli silah olan” separatizm hərəkatına yol verməmək, cəmiyyətin davamlı inkişafına əsl təminat vermək üçün, multikulturalizmi daxili siyasət müstəvisindən çıxarır və xarici siyasət obyektinə çevirirlər.

## 8.3. Etnik-dini münasibətlər, beynəlxalq münaqişələr və multikultural konsepsiya (ing. *Ethno-religion relations, international conflicts and the multicultural concept*)



XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində dünyada baş verən sosial-iqtisadi və ictimai-siyasi proseslərlə əlaqədar cəmiyyətdə, xüsusilə də etnik-siyasi münasibətlər sistemində din amili öz mövqelərini tədricən bərpa etməyə başladı. Dini fikrin, dini praktikanın və dini institutların daha dərin sosial-siyasi mahiyyət kəsb etməsi yenidən gündəmə gəldi. İnsanlar uzun müddət "ateizm siyasətinin qurbanı olmuş dini hisslərin" intibahına, dini ayinlərin, bayramların və ənənələrin rəsmi şəkildə qeyd olunmasına, məbədlərin, məscidlərin, sinaqoqların və digər dini xarakterli obyektlərin tam bərpasına, kommunist irticası nəticəsində müsadirə olunmuş dini əmlakın əvvəlki sahiblərinə qaytarılmasına xüsusi sevinclə və hətta həddindən artıq pafosla reaksiya verməyə başladılar. Bu dövrdə insanlar başlıca sosial problemlərin həlli ilə bağlı qeyri-hökumət təşkilatlarına, xüsusilə də ən nüfuzlu dini qurumlara çox böyük ümidlər bəsləyirdilər. Sözügedən dövrdə din, dini ideologiya və dini müəssisələr, ordudan sonra ikinci nüfuz obyekti kimi təzahür edirdi. Dünya əhalisinin, xüsusilə də keçmiş SSRİ və dünya sosializm sistemi məkanında təmsil olunan əhalinin 90%-i artıq özünün tanrıya əsl inancını açıq şəkildə ifadə etməyə başlamışdı. Bu isə sözügedən məkanda yaşayan xalqların uzun müddət ruhani qadağalar altında yaşaması, dövlət səviyyəsində həyata keçirilən din əleyhinə sərt təbliğatla bağlı idi. Beləliklə, dini hisslərin və dini fəaliyyətin aktiv dirçəlişi prosesi ilə əlaqədar, baş verən bütün etnik münasibətlərin məzmununu artıq tək iqtisadi-mədəni faktor deyil, həm də aydın ifadə olunan dini faktor təyin etməyə başlamışdı. Lakin qəflətən təzahür edən və çoxdandır ki, "ciddi ruhani aclıq hissi" keçirən insanlara "havayı verilən vicdan azadlığı" cəmiyyətin əxlaqi-mənəvi durumuna yüksək təşəkküllü müsbət məzmun gətirsə də, həmişə olduğu kimi, bu dəfə də çoxlu sayda müxtəlif fəsadları üzə çıxartdı. Siyasi səhnəyə dini fanatiklərdən, sektantlardan, ekstremistlərdən, radikalistlərdən ibarət və cəmiyyətdə qeyri-sabitlik yaratmağa həmişə hazır olan çeşidli etnik-dini qüvvələr çıxdı. Əvvəllər tamamilə qadağan olunmuş sektalar və təriqətlər dirçəldikdən sonra, başqa dinin mənsublarını öz tərəflərinə çəkmək üçün açıq təbliğata başladılar. Cəmiyyətdə əsl qeyri-sabitlik yaradan, etnoslar

arasında böyük narazılıqlara səbəb olan belə təşkilatlar həm xristianlığın, həm islamın, həm də digər dinlərin adından çıxış edir, beləcə etnik-dini münasibətlərdə ifrat çaşqınlıq yaradırdılar. Bu dövrdə bir-birinin ardınca ortaya çıxan ekstremist dini təşkilatlar dünyada baş verən hərbi-siyasi və etnik-dini proseslərdə olduqca aktiv rol oynamağa başlamışdılar. Belə təşkilatlar sırasında 1988-ci ildə yaradılmış və vəhhabiliyin daha radikal qolunu tərənnüm edən Əl-Qaidə (ərəb. *əl-qauda* - əsas, təməl, prinsip) təşkilatını xüsusi olaraq qeyd etmək lazımdır. Təşkilatın ilk rüşeymləri 1979-cu ildə başlanmış Əfqanıstan müharibəsi dalğasında milli-azadlıq hərəkatının bir qanadı qismində meydana gəlsə də, onun yekun məqsədi müsəlman ölkələrində mövcud dünyəvi siyasi rejimləri ləğv etmək, ifrat dini fundamentalizmə əsaslanan qəddar idarəçilik sistemi yaratmaq və "Böyük islam xilafəti" qurmaqdan ibarət idi. Müharibə partiyası olaraq, Əl-Qaidə daim İslam dünyasında etnik-dini və etnik-milli zəmində baş qaldıran münaqişəli proseslərin mərkəzində idi [9]. Sözügedən dövrdə etnik-dini və etnik-milli münaqişələr dalğasında yaranmış radikal dini təşkilatlardan biri də məşhur taliban təşkilatı, yaxud taliban hərəkatı idi. Taliban (iran və puştu dilindən tərcümədə "mədrəsədə təhsil alan tələbə" anlamındadır) hərəkatı 1994-cü ildə Əfqanıstanda etnik *puştunlar* (qədim iran.*Parşvana* -igid, pəhləvan deməkdir. *Puştunvali*, yaxud *Nana* adlanan "Ləyaqət kodeksi"nə uyğun yaşayan İran xalqı, Əfqanıstanın cənubunda, cənub-şərqində, Pakistanın şimal-qərbində məskunlaşmışlar) tərəfindən yaradılmışdı. Təliblər hətta 1996-2001-ci illər ərzində "Əfqanıstan İslam Əmirliyini", daha sonra isə 2004-cü ildən Pakistanın şimalında yerləşən Vəziristan əyalətini idarə etmişdilər. Qeyd etmək lazımdır ki, təliblərin yaratdıqları siyasi qurumu rəsmi olaraq yalnız üç dövlət - Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı və Pakistan tanımışdı.Taliban təşkilatı puştunlardan başqa, ərəbləri, tacikləri, özbəkləri, xəzərləri, beluciləri, pəncabları və başqa etnosların mənsublarını birləşdirsə də, dini-ideoloji baxımdan o, ifrat intolerantlığın ən radikal forması idi. Bütün digər özgə dəyərləri, ideyaları və ekzistensial formaları inkar edən üzdəniraq hərəkat hər hansı yeniliyə, maarifçiliyə, dünyəviliyə, tərəqqiyə qəti şəkildə "yox" deyirdi və bu ideya naminə bütün dünyaya belə müharibə elan etməyə hazır idi. Taliban intolerantlığının məntiqi yekunu isə hərəkatın rəhbəri Molla Məhəmməd Ömərin (1959-2013) 26 fevral 2001-ci il tarixli dini fətvası oldu. Bu fətva Əfqanıstanın Bamian əyalətində e.ə. VI əsrə aid olan qaya üzərində çapılmış Buddanın heykəllərinin (55 və 37 metr hündürlükləri olan iki qədim heykəl) məhv edilməsini nəzərdə tuturdu [10]. Fətvada deyilirdi ki, "Allah təkdir, bu heykəllər isə onlara sitayiş

edilmək üçün ucaldılmışdır, bu isə səhvdir. Onlar dağıdılmalıdır, ondan ötrü ki, onlar nə indi, nə də gələcəkdə sitayiş obyekti olmasın". Taliblərin bəşəriyyətin mədəni irsinə qarşı əsl sui-qəsd kimi qiymətləndirilən belə hərəkətlərini təkcə beynəlxalq təşkilatlar və dünyanın aparıcı dövlətləri deyil, həm də müsəlman dövlətləri, islam dini qurumlarının rəhbərləri qınadı. Bu hadisə taliblərin imicinə güclü zərbə vurdu və dünyanın bütün mütərəqqi düşünən qüvvələri ona müharibə elan etdi. Nəticədə, təliblər əldə etdikləri bütün mövqelərini qısa müddət ərzində itirdilər. Bu hadisə bir daha sübut etdi ki, təhlükəsiz şəraitdə mövcud olmağın yeganə yolu tolerantlıq, başqa dəyərləri, ideyaları və ekzistensial formaları tanımaq və onlara hörmət etməkdir. Əks halda, bütün dünyanı özünə düşmən etmək kimi ölümcül təhlükə qaçılmazdır.

Bu gün İslam dünyasında etnik-dini zəmində süni qarşıdurmalar yaratmağa daim meylli olan radikal dini hərəkatlardan biri də "sələfiyyə" (ərəbcə."*sələf*" -əcdad, hərfi mənası "əvvəl gələn") hərəkatıdır. Sələfiyyə islamda ən radikal bir cərəyan kimi ortodoksal islamdan əvvəl və sonra gələn bütün dəyərləri inkar etməklə intolerantlığın, dini ekstremizmin və fanatizmin canlı təcəssümü kimi özünü təsdiq etməyə çalışır. Sələfilər iddia edirlər ki, əsl müsəlmanın əsas həyat tərzi, davranışı, düşüncəsi və mübarizəsi islam tarixində nümunəvi sələfilər kimi tanınan rəşidi-salehi xəlifələri - Əbu Bəkr əs-Sadikin (632-634), Ömər ibn Xəttabın (634-644) və Osman ibn Əffanın (644-656) əxlaqi etalon olan salehi həyat tərzinə istiqamətlənməlidir. Sələfilər ortodoksal islama aid olmayan hər hansı bir mədəni artefaktı ən təhlükəli küfr hesab edir və onu dərhal məhv etməyi "müsəlmanın vacib vəzifəsi sayırlar". Bu baxımdan sələfilər talibanlarla eyni cəbhədən çıxış edirlər və bununla da bütün dünyanı özlərinə düşmən ediblər. Sələfilərin Kərkükdə, Falucada və Mosulda (İraq), Palmirada (Suriya) törətdikləri vandalizm aktları, müdhişliyinə görə taliblərin 2001-ci ildə Bamianda (Əfqanıstan) Buddaya məxsus heykəlləri güllələbaran etmələrindən heç də geri qalmır [11].

XX əsrin 80-90-cı illərində aktiv fəaliyyət fazasına keçən radikal dini təşkilatlar və hərəkatlar, eləcə digər dinlərin mənsubları tərəfindən yaradılırdı. Belə hərəkatlardan isə "Ku-Kluks-klan", "İeqova şahidləri", "Aum sinrikyö", "969 Liqası" öz radikallığı ilə daha çox fərqlənirdi.

Ultrasağ dini-terrorçu təşkilat kimi "Ku-kluks-klan" XIX əsrin 2-ci yarısında Amerika Birləşmiş Ştatlarında 1861-1865-ci illərdə baş vermiş Vətəndaş müharibəsində əsasən Cənub koalisiyasını təmsil etmiş keçmiş əsgərlər və zabitlər tərəfindən yaradılmışdı. XX əsrin 70-80-ci illərində öz intibah dövrünü yaşasa da, 1993-cü ildə, faktiki olaraq fəaliyyətini

dayandırmışdı. Lakin təşkilat "Ağ konfederatlar" adı altında qeyri-leqal şəkildə bu gün də fəaliyyət göstərir. Cəmiyyətin əsas ideologiyasını "ağ millətçilik" (avropoid irqindən olmayan hər kəsə qarşı təqiblər və terror aktları kimi təzahür edirdi) təşkil edir. "Linç məhkəməsi" (ing. *Lynching, the Lynch law* - cinayətdə şübhəli bilinən şəxsin məhkəməsiz və sübutsuz qətlə yetirilməsi) anlayışı da, məhz ku-kluks-klanın adı ilə bağlıdır [12].

Son illərdə dünyanın bir çox ölkələrində, xüsusilə də keçmiş SSRİ məkanına daxil olan respublikalarda rəsmi səviyyədə ekstremist təşkilat kimi tanınan və təbliğatı qəti qadağan olunan "İeqova şahidləri" özünü bidətçi və radikal dini təşkilat kimi təsdiq etmişdir. "İeqova şahidləri" ideologiyası İeqovanı "kainatın əsas ağası" hesab edir. İeqova şahidləri "Müqəddəs Ata, Müqəddəs Oğul və Müqəddəs Ruh" kimi tanrının üç mahiyyətdə vahid obrazını ifadə edən "Üçlüyü" inkar edirlər. Onlar iddia edirlər ki, "İeqova" analyışı İsa adı, "Müqəddəs Oğul", "Müqəddəs Ruh" anlayışları ilə identifikasiya olunmur. Tanrını ifadə edən digər adları da İeqova şahidləri yalnız titul kimi qiymətləndirirlər [13]. Bu hal isə bütün dünyəvi dinlərə münasibətdə açıq-aşkar küfr kimi təqdim olunur.

Dünyada öz radikal prinsipləri ilə tanınan dini təşkilatlardan biri də, 1987-ci ildə Syoko Asaxara (1955) tərəfindən yardılmış Aum Sinrikyö (yap."Aum həqiqətləri təlimi", 2000-ci ildən etibarən "Alef") təlimidir. Psevdobuddist dini bir hərəkat kimi məşhurlaşsa da, 20 mart 1995-ci il tarixində Tokio metrosunda terror aktı törətdikdən sonra, terror təşkilatı kimi tanınmış və onun rəhbəri S.Asaxara (Masumoto) 2004-cü ildə ölüm cəzasına məhkum edilmişdi [14].

Müasir dövrdə ifrat radikalizmin ən iyrənc təcəssümü kimi bütün dünyada ikrah hissi və hiddət yaradan hadisələrdən biri də, Myamnada baş verən rüsvayçı antimüsəlman hərəkatıdır. Myamnada (keçmiş Birma) buddistlərin antimüsəlman dini təşkilatı kimi Aşin Virathu (1968) adlı buddist rahibi tərəfindən yaradılmışdır. Bu hərəkatın cəza dəstələri olan "969 Lıqası" son illərdə 1500-dən artıq müsəlman (Myanmanın qərbində Arakan (Rakhayn) ştatında əsasən kompakt şəkildə yaşayan və sayları bir milyon nəfər olan müsəlman rohincalar) evlərini və dini müəssisələri dağıtmış, 150 mindən artıq müsəlmanı isə yaşadığı yerlərdən qovmuş və minlərlə dinc müsəlmanı qətlə yetirmişdir [15].

Ən radikal dini qurumların, birliklərin, təşkilatların və hərəkatların dağıdıcı xarakterli fəaliyyətinə vizual baxış, çağdaş dünyanın beynəlxalq münasibətlər sistemində potensial gərginliyi daim açıq münaqişəyə və silahlı qarşıdurmaya çevirməyə qadir olan kifayət qədər nüfuzlu etnik-dini qüvvələrin mövcud olmasından xəbər verir. Qüvvələrin belə nisbəti

multikultural konsepsiyanın məhz praktikada reallaşdırılmasını fövqəladə şəkildə çətinləşdirir. Başlıca problem isə ondan ibarətdir ki, beynəlxalq münasibətlərdə tarazlığı pozmağa çalışan destruktiv qüvvələr dini bayraq altında dinin təəssübkeşləri kimi səs-küy salsalar da, praktikada "şeytanın nökərləri" kimi hərəkət edirlər. Belə dırnaqarası təəssübkeşlər, bir qayda olaraq, cahil və barışmaz olurlar və özlərini tanrının müdafiəçiləri kimi təqdim edirlər. Belə insanlar təsəvvür belə etmirlər ki, qüdrətli tanrının onların müdafiəsinə əsla ehtiyacı yoxdur.

### 8.4. Dünyanın gələcək etnik-siyasi modeli və multikulturalizm: proqnozlar və fərziyyələr (ing. *The future ethnopolitical model of the world and multiculturalism: forecasts and hipotheses*).



Müasir dünyada etnik-siyasi və dini-mədəni münasibətlərin mövcud vəziyyəti, onların inkişaf dinamikası və qüvvələr nisbəti ümumi cizgilərdə cəmiyyətin və planetin gələcək etnik-siyasi mənzərəsini təyin etməyə və gələcəyin elmi modelini yaratmağa imkan verir. Ümumiyyətlə, informasiya və aparıcı texnologiyalar əsrində gələcəyin hər hansı (iqtisadi, siyasi, mədəni, intellektual, bioloji, ekoloji və s.) hipotetik mənzərəsini, yaxud modelini yaratmaq elmi müstəviyə çıxarılmış əsl postmodern təlim kimi qiymətləndirilir. Belə təlimlərin məcmusu isə futurologiya (lat. *futurum* - gələcək) adlanır. Futurologiya gələcəyin müxtəlif üsullarla, o cümlədən ekstrapolyasiya (lat. *extra* - xaric, *polio* - dəyişirəm) üsulu ilə proqnozlaşdırılması kimi təzahür edir. Ekstrapolyasiya üsulu isə gələcək hadisələrin mövcud texniki, iqtisadi, sosial, mədəni və digər vacib tendensiyalara əsaslanaraq, elmi cəhətdən proqnozlaşdırılması kimi ortaya çıxır. O, hadisənin bir hissəsi üzərində aparılan müşahidənin, onun başqa hissəsinə aid edilməsindən ibarət elmi-tədqiqat metodu kimi tanınmışdır. Beləliklə, bütün bu üsulları ilə birlikdə futurologiyanı "gələcəyin, ümumi rəy və proqnozlara əsaslanan hipotetik tarixinin yaradılması aktı" kimi qiymətləndirmək olar.

Müxtəlif proqnozlar əsasında gələcəyin modelini, yaxud hipotetik təsvirini yaratmaq cəhdləri daim olmuşdur. Səmavi kitabların hamısında gələcəyin tarixinin etnik, mədəni, əxlaqi, ekoloji, hərbi, siyasi, iqtisadi və bioloji ssenarisi haqqında alleqoriya (yun. *alleqoria* - məcazi) üslubunda çeşidli fraqmental proqnozlar verilir. Bəşəriyyətin tarixinin "Qiyamət",

yaxud "Apokaliptik" ssenеridə "çox bədbəxt sonluqla" (ing. *unfortunate end*) bitəcəyi vurğulanır.

Bu gün futurologiya elmi bəşəriyyətin gələcəyini müxtəlif tərzlərdə söyləmiş Delfa orakulunun (Pifiya), Platonun (e.ə.427-347), Aristotelin (e.ə.384-322), Bibliya peyğəmbərlərinin, xüsusilə də İoann İlahiyyatçının (e. I-II əsr.), Qurani-Kərimin və Məhəmməd peyğəmbərin (s.s.s.), Fransa astroloqu Mişel Nostradamusun (1503-1566), Fransalı uzaqgörən Mariya Anna Lenormanın (Qara Mariya -1772-1843), Qriqori Rasputinin (1869-1916), Edqar Keysinin (1877-1945), Vangeliya Quşterovanın (Vanqa - 1911-1996), Volf Messinqin (1899-1974), Şeyx Şərifunun və başq. irsini öyrənərək, yeni metodlar və proqnozlar işləyib hazırlayır.

Postindustrial cəmiyyətdə mövcud olan yeni texnoloji imkanlardan istifadə etməklə, planetar miqyasda davamlı baş verən çeşidli hadisələrin fövqəladə dinamikasını dərindən öyrənməklə, yaxın və uzaq gələcəyin daha dolğun və elmi faktlara əsaslanan təsvirini yaratmaq mümkündür. Bu baxımdan gələcəyin etnik-siyasi modelini qurmaq da istisna deyil. Gələcəyin hipotetik etnik-siyasi modelini qurmaq üçün isə, ilk növbədə, bu gün Yer kürəsində yaşayan əhalinin demoqrafik tendensiyasını, etnik müxtəlifliyini, miqrasiyasının templərini, dini ideologiyaya münasibətini, etnoslar və konfessiyalar arasında mövcud münasibətlərin keyfiyyətini, qlobal iqtisadi, siyasi və sosial-mədəni inteqrasiyanın perspektivlərini, həmçinin etnik-dini və milli zəmində baş verən münaqişələrin xarakterini və ciddilik səviyyəsini, nəhayət, etnoslar arasında multimədəni dəyərləri, tolerantlığı, dostluğu, sülhü, əmin-amanlığı və birgəyaşayış qaydalarını tərənnüm edən ideyaların hansı səviyyədə, hansı tərzdə təbliğ edilməsini və praktikada tətbiq olunmasını öyrənmək vacibdir.

Bu gün dünyada baş verən milli-mədəni və dini-ideoloji proseslərin inkişaf templərini nəzərə alsaq, ümumi cizgilərdə gələcəyin etnik-siyasi modelini belə təsəvvür etmək olar: 1. Çinin, dünyada baş verən iqtisadi, hərbi-siyasi və texniki-mədəni xarakterli proseslərdə rolunun fövqəladə şəkildə artması, Çin etnik fenomeninin qlobal miqyasda həyata keçirilən layihələrdə avanqard qismində iştirakı və monqoloid irqinin ən çoxsaylı subyekti kimi qədim çin etnosunun antropoloji, fizioloji (başqa etnosların nümayəndələri ilə izdivac zamanı etnik cizgilərin silinməməsi amili) və ruhani özəlliyi, dünyanın böyük bir hissəsində Çin etnik amilinin mütləq üstünlük təşkil edəcəyindən xəbər verir. 2. Yaponların ümumilikdə, digər dünya etnosları üçün etnik-mədəni və irqi cəhətdən qapalı olmalarını, çinlilərdən fərqli olaraq, çox məhdud məkanda təmsil olunmağa üstünlük vermələrini, torpağa və vətənə fanatizm səviyyəsində sıx bağlılıqlarını

nəzərə alsaq (təbii kataklizmləri və nüvə müharibəsi təhlükəsini nəzərə almadan), yapon etnosunun gələcəkdə də şəxsi iqtisadi imkanlarını daha da genişləndirəcəyini və məhdud məkanda öz klassik obrazlarını qoruyub saxlayacağını tam ehtimal etmək olar. 3. Böyük bir ərazidə (17 mil. $km^2$) təmsil olunan və sayı 117 milyon nəfər olan rus etnosunun da gələcək inkişafı pozitiv görünür. Bu etnosun zəngin təbii sərvətlərə, güclü iqtisadi və insan resurslarına, hərbi-siyasi potensiala malik olması ilə izah oluna bilər. Rus genotipinin, xüsusilə də genderin qadın tərəfinin güclü və çətin assimilyasiya olunan ciddi struktura malik olmasını nəzərə alsaq, slavyan sivilizasiyasının avanqard etnosu olan rusların yaxın və uzaq gələcəyin tarixində də həlledici etnik-siyasi faktor olacağını müəyyən etmək çətin deyil. 4. Malayziya və İndoneziya kimi müsəlman dövlətlərinin yüksək templərlə baş verən iqtisadi inkişafını, islami qaydalarla sivil prinsiplərin sintezindən yaranmış spesifik əxlaqi-mənəvi, sosial-mədəni və ictimai-siyasi atmosferin bərqərar olmasını, yeni miqrant axınına ciddi nəzarət edilməsini, zəruri multikultural təhlükəsizliyə ən yüksək səviyyədə əməl olunmasını nəzərə alsaq, yaxın və uzaq gələcəkdə Cənub-Şərqi Asiyada və ona yaxın regionlarda monqoloid irqindən olan müsəlmanların Uzaq Şərqin böyük bir hissəsində güclü superetnosa çevrilməsi gözlənilir. 5. Hindistan subkontinentində əhalinin sayının misli görünməmiş templərlə artması, materikin digər ölkələri ilə əsas quru kommunikasiyalarının zəif olması (Himalay dağları və Pakistan faktoru) və bu faktlar ilə əlaqədar, miqrasiya imkanlarının minimal səviyyəsi, iqtisadi və insan resurslarının kifayət qədər zəngin olmasına baxmayaraq, ən ümumi həyat səviyyəsinin ifrat dərəcədə aşağı olması, çoxlu sayda dini əqidələrin mövcudluğu və onların bir-birilərini qətiyyətlə tanımaq istəməməsi, fövqəladə polietnik məkan kimi dini-mədəni və etnik-konfessional zəmində kifayət qədər ciddi və təhlükəli münaqişələrin olması, indus-müsəlman antaqonizminin məkanın sərhədlərini aşaraq, dünya siyasətinin obyektinə çevrilməsi və digər çoxlu neqativ amillər ən yaxın və uzaq gələcəkdə vahid və monolit Hindistan etnosunun bərqərar olacağını təsdiq etməyə imkan vermir. 6. Pakistan və Əfqanıstanda etnik-siyasi və dini-ideoloji zəmində davamlı şəkildə baş verən ciddi münaqişələr, münaqişə tərəflərinin barışmazlığı sindromu, özgə dövlətlərə və hərbi alyanslara məxsus orduların dövlətin gündəlik ictimai-siyasi həyatında aktiv iştirakı, ciddi iqtisadi problemlər, təhsilin aşağı səviyyədə olması, dini ideologiyanın ekstremist səviyyədə insanların düşüncələrinə və duyğularına hakim kəsilməsi, yaxın və uzaq gələcəkdə də hər hansı bir pozitiv etnik-mədəni dəyişikliklərin olacağını deməyə imkan vermir. 7. Keçmiş SSRİ-nin tərkibinə daxil olan Mərkəzi

Asiyadakı türk respublikalarının (Qazaxstan, Türkmənistan, Özbəkistan, Qırğızstan), Azərbaycan Respublikasının və Türkiyə Respublikasının simasında baş verən ciddi iqtisadi inkişaf, bu ölkələrdə yaşayan əhalinin yüksək templərlə artması, islam dəyərlərinə hörmət və islami ənənələrə sədaqət fonunda sivil dövlətçilik sisteminin təşəkkülü və formalaşması, müasirlik, yeni texnologiyalara əsaslanan elm və təhsil, türk etnosunun yaxın və uzaq gələcəkdə çox yüksək təşəkküllü tərəqqisindən, türkdilli etnosların iqtisadi və mədəni inteqrasiyasından və türk dünyasında təmsil olunan subetnosları da belə tərəqqi yoluna çıxaracaqlarından xəbər verir. Bu proqnozu türk dünyasında o qədər də ciddi etnik-siyasi problemin və separatizm meyllərinin olmaması, olduqca zəngin iqtisadi, təbii və insan resursları, həmçinin digər pozitiv amillər də tam təsdiq edirlər. 8. Yaxın gələcəkdə İran xalqlarının sivil-mütərəqqi birliyi proqnozlaşdırılmasa da, İranda uzun müddət hakim olmuş sivil ənənələrin təfəkkürlərdə dərin kök salmasını nəzərə alsaq, tarixi şərait yetişən kimi onların dünyəvi inkişaf yoluna qədəm qoyacaqlarının və planetdə cərəyan edən sivil proseslərə - iqtisadi-mədəni və ictimai-siyasi inteqrasiyaya qoşulacaqlarının hipotetik mənzərəsi yaranır. 9. Ərəb etnosları ilə bağlı mənzərə isə belədir: Ərəb dünyasında etnik-konfessional və təriqətlərarası zəmində çox ciddi silahlı münaqişələr baş versə də, ərəblərin ən yaxın və uzaq gələcəkdə də etnik-siyasi baxımdan “supergüc” olacaqları mütləqdir. Belə əminliyi bir sıra faktlarla təsdiq etmək olar: 1) ərəb dünyasının, xüsusilə də Yaxın Şərqin, dünyada sürətlə yayılan islamiyyətin generasiya mərkəzi olması; 2) ərəb dini-mədəni amilinin Mərakeşdən tutmuş Malayziyaya qədər böyük bir ərazidə təmsil olunması; 3) ərəb dünyasının zəngin təbii sərvətlərə malik olması və onun məqsədyönlü şəkildə insan kapitalına çevrilməsi; 4) ərəb etnosunun çətin assimilyasiya olunan güclü genetik koda malik olması; 5) son vaxtlarda çoxlu ərəb etnoslarının Avropaya və Amerikaya kütləvi miqrasiyası, onların yeni məkanlarda kompakt şəkildə yaşamaları və hər cür assimilyasiya və inteqrasiyaya qətiyyətlə müqavimət göstərmələri; 6) ərəb etnoslarının qlobal dini, iqtisadi, siyasi və mədəni proseslərdə aktiv iştirakı və fövqəladə nüfuz sahibləri olmaları. 10. Avropanın etnik-siyasi gələcəyi ilə əlaqədar konkret hipotetik model yaratmaq çox çətindir. Bu müasir Avropada, qitə tarixində analoqu olmayan ictimai-siyasi, etnik-mədəni və əxlaqi-mənəvi xarakterli hadisə və proseslərin baş verməsi ilə əlaqədardır. Avropa qitəsi, onu təmsil edən dövlətlər arasında ciddi bir demarkasiya xəttinin, sərhədlərin, gömrük rejiminin olmadığı, demək olar ki, bütöv miqyasda vahid məkan kimi mövcuddur. “Avropa Birliyi” adlanan bu məkanda yüksək təşəkküllü postmodern demokratik qanunlar

işləyir. Bu, sözügedən ərazilərdə bütün klassik, konservativ və patriarxal dəyərlərin, bu və ya digər səviyyədə öz mahiyyətini və təsir gücünü itirməsi deməkdir. Tolerantlıq isə "pozitiv diskriminasiya" səviyyəsinə qalxmışdır. Qədim Avropanın patriarxal cəmiyyəti tərəfindən heç vaxt bəyənilməyən və hər hansı status və ya sanksiya almayan dəyərlər indi açıq şəkildə tərənnüm olunur. Heç bir mənəvi qadağanın olmaması isə "etnik-siyasi səhnəyə çoxlu sayda əcaib elementlər çıxarmışdır".

Müasir Avropa sivilizasiyasına aid daha bir ekstremal məqam, qitəyə Afrikadan, Yaxın və Orta Şərqdən, həmçinin Asiyanın digər regionlarından kütləvi miqrant axını ilə əlaqədardır. Əsasən də II Dünya müharibəsindən sonra başlanmış bu proses XXI əsrin əvvəllərindən Avropa etnik-mədəni və dini-mənəvi faktoru üçün əsl dağıdıcı təhlükəyə çevrilmişdir. Bu cür yeni templərlə XXI əsrin sonuna qədər, əsrlər ərzində formalaşmış və xristian ideologiyasını tərənnüm edən Avropa etnik-dini, əxlaqi-mədəni amilini, Avropanın iqtisadi və elmi-mədəni potensialı ilə tam bəhrələnmiş islam etnik-dini amili, yaxud Avropa genotipini və əxlaqi-mədəni etalonunu üstələmiş "yeni Avrasiya etno və genotipi" əvəz edəcəkdir. 11. Nəhayət, Amerika qitəsinin etnik-siyasi gələcəyi ilə əlaqədar məsələlərə aydınlıq gətirərkən, qarşımızda unikal bir mənzərə canlanır: Kanada və ABŞ-da multikulturalizmin və "Əridən qazan" siyasətinin təsiri altında iki fərqli etnik mühitin formalaşması və bununla bağlı etnik-siyasi münasibətlər sisteminin təşəkkülü. Kanadada multimədəni elementlərin vahid məfkurə altında təzahür edən siyasi birliyi, ABŞ-da tam əksi - bütün milli və etnik müxtəliflikləri "üzdəniraq assimilyasiya aparatından" keçirərək mütləq unifikasıyaya məruz qoyan spesifik etnik-siyasi bir rejim. Proqnozların təhlili bu tendensiyanın XXI əsr ərzində də davam edəcəyini təsdiq edir.

Mərkəzi və Cənubi Amerikaya gəldikdə isə burada təmsil olunan etnosların, demək olar ki, hamısı bir etnik mənbədən - portuqaliyalılarla ispanların Amerika aborigenləri ilə əsl etnik sintezindən bəhrələnmişdir. Buna görə də, onları planetimizin etnik mənzərəsində, şərti olaraq vahid superetnos kimi qəbul etmək olar. Bu etnosların əsl gücünü və sarsılmaz genotipini, qapılarının kütləvi miqrasiyaya bağlı olmasını nəzərə alaraq, yaxın və uzaq gələcəkdə də Mərkəzi və Cənubi Amerika etnoslarının öz etnik özəlliklərini, ənənəvi genotiplərini qoruyub saxlayacaqları ehtimal olunur.

Beləliklə, dünyanın gələcək etnik-siyasi modelinin hipotetik və proqnozlara əsaslanan təhlili olduqca maraqlı və qlobal miqyaslı mövcud proseslərin məntiqi nəticələrini əks etdirən rəngarəng mənzərə yaradır.

Gələcəyin daha pozitiv real tarixini yazmaq və davamlı şəkildə inkişaf edən modelini qurmaq kimi vacib tarixi missiyanın təntənəsi isə sağlam düşüncənin və ümumbəşəri dəyərlərin qüdrətindən asılıdır.

### *İstinadlar*


*1. Философский энциклопедический словарь. Под ред. Л.Ф. Ильичева Москва, Советская энциклопедия, 1983. - с. 49*

*2. Schrift, Alen D. Raymond Aron (Key Biographies in Brief). Twentieth-Century French Philosophy: Key Themes ahd Thinkers. Oxford UK, etc.: Blacwell Publishing, 2006.- p. 88-89 - 326 p.*

*3. Цыганков П.А. Традиции, парадигмы и споры в ТМО. Политический реализм. Теория Международных Отношений. М:, Гардарики, 2003. С. 109-112. - 590 с.*

*4. Meiem, Johann Gottfried von. Acita Pacis Westphalicae. Hanover, 1734. c. 231-232*

*5. Меттерних К.В. фон. Записки Меттерниха. Изложения, отрывки. Исторический вестник, 1880 - Т. 1. - № 2. - с. 374-392*

*6. Bridge, Roy. Europes Balance of Power, 1815-1848. Allied Diplomacy in Peacetime: The Failure of the Congress System, 1815-23. Alan Sked. 1979. p.34-53*

*7. Кортунов С.В. Крушение Вестфальской системы и новый мировой порядок - Журнал «Золотой лев», Москва, 2007. с.125-126*

*8. Цыганков П.А. Глава 5. Современные школы и направления в теории международных отношений. Спор между неореализмом и неолиберализмом. Неолиберализм. Теория международных отношений. Москва:, 2003. С. 132-136. 590 с.*

*9. Richard Seymour. The Uses of al-Qaida. London Review Of Books. 13 September 2012. P. 26-27*

*10. Kenneth W. Morgan The Path of the Buddha: Buddhism Interpreted by Buddhist. - Motial Banarsidass Publ., 1986. - p. 43.-432 p.*

*11. Ибрагим Т.К.,Сагадаев А.В. ас-Салафия. Ислам: энциклопедический словарь. отв. Ред. С.М. Прозоров. М:, Наука, ГРВЛ, - 1991, с. 204*

*12. Chalmers David M. Hooded Americanism: The History of the Ku KluxKlan.- Durahm, N.C.: Duke University Press, 1987. - p. 512*

*13. Головушкин Д.А. Секта свидетели Иеговы. Религии мира: словарь справочник. Под ред. А.Ю. Григоренко. СПб: Питер, 2009. - С. 381-382.*

*14. Тоталитарная секта. Большая энциклопедия: в 62-х томах. М:, Терра, 2006. - Е. 50. - с. 427, 435. - 592 с.*

*15. Selth Andrew. Burmas Muslims: Terrorists or Terrorised?. Australia: Strategic and Defence Studies Centre, australian National University, 2003. - p. 7*

# IX FƏSİL. QƏRB MULTİKULTURALİZMİ: FƏRQLİ MODELLƏR, NÖVLƏR VƏ SİYASƏTLƏR



## 9.1. Multikulturalizm XX əsr Qərb təfəkkürünün məhsulu kimi (ing. *Multiculturalism as a product of Western thought of the 20th century*)



Antik sivilizasiyalarının bəşəriyyətə bəxş etdiyi fenomenal dühalardan tutmuş, müasir elmin və fəlsəfənin avanqardlarına qədər, Avropa, davamlı olaraq mütərəqqi düşünən mütəfəkkirlər, dünyanın siyasi, ideoloji və mədəni obrazını köklü şəkildə dəyişdirmiş şəxsiyyətlər yetişdirmişdir. Cəmiyyətin və dövlətin diqqətini ən abstrakt problemlərdən ayıraraq, real insanın, normativ şəxsiyyətin ən əsas qayğılarına, arzu və istəklərinə, onun azadlığı, mübarizəsi məsələlərinə yönəldən humanizm konsepsiyası, əsrlərlə nağıl və əfsanələrin əsiri olmuş insan təfəkkürünü pozitiv elmin sehrli gücü ilə dəyişdirən maarifçilik ideyaları, bu gün də demokratik cəmiyyətlərin qanunvericilik aktlarının əsasını təşkil edən "Vətəndaş kodeksi", həmçinin dünyanın ictimai-siyasi obrazını yeniləmiş burjua inqilabları, sosial-demokratik hərəkatlar, təşkilatlar, sosializm və kommunizm ideyaları, imperiyaların tarixini bitirmiş sosial inqilablar məhz praqmatizm prinsiplərinə əsaslanan qərb təfəkkürünün məhsuludur. Lakin unutmaq lazım deyil ki, Şərqə və müsəlman dünyasına qarşı iki yüz il ərzində davamlı dini müharibələr (Səlib yürüşləri) aparan, XV-XVI əsrlərdə Hindistan subkontinentində və Yeni dünyada (Amerika) minillik tarixləri olan ən nəcib xalqları - hinduslari, mayya, atstek və ink sivilizasiyalarını soyqırıma məruz qoyan, milyonlarla insanların məhv olması, minlərlə yaşayış məntəqələrinin xarabazarlıqlara çevrilməsi ilə nəticələnmiş I və II Dünya müharibələrini törədən, kütləvi qırğın silahını "rəmzi olaraq Qoca Şərqin üzərində sınaqdan keçirən", faşizm, şovinizm, rasizm, antisemitizm və antikommunizm kimi ideyalar ilə silahlanaraq, intolerantlığın ən ifrat formalarını nümayiş etdirən, mürtəce ideologiya

kimi "avropasentrizmi", az qala ən mütərəqqi ideya elan edərək aqressiv avropalını, guya "əsl arini", "ağsaçlı dəlisov döyüşçünü" mütləq "super insan" kürsüsünə çıxaran, başqa, özgə irqləri və xalqları ikinci və üçüncü dərəcəli elan edən də bu "praqmatik" Avropa təfəkkürünün "sərhədlərinə sığmayan gücüdür". Avropa təfəkkürünün daha bir fenomenal təzahürü iqtisadi, siyasi və mədəni xarakterli regional, yaxud qlobal təşkilatlarda birləşməklə bağlıdır. Qeyd etmək lazımdır ki, XX əsrdə bu proses daha mütəşəkkil xarakter almış və çox böyük və geniş sosiumları, etnik-siyasi subyektləri öz orbitinə cəlb etmişdi. Burada əsas məqsəd separatizmə və desentralizmə meylli olan və ən monolit sosiumları parçalamağa can atan qüvvələrə qarşı daha effektli və sarsılmaz arqumentlər qoymaqdan, uzun müddət arzu olunan mütəşəkkil təhlükəsizlik sisteminin yaradılmasına nail olmaqdan ibarət idi. Müxtəlif siyasi və milli subyektlərin birliyini nəzərdə tutan ilk belə mütəşəkkil təhlükəsizlik sistemi isə ("Millətlər liqası") I Dünya müharibəsindən sonra, 1919-1920-ci illərdə "qalib" və "fövqəl dövlət" kimi statuslar almış ABŞ, Böyük Britaniya və Fransanın rəhbərliyi altında yaradılmışdı. Tarixdə ilk total hərbi münaqişədən və onun nəticələrindən tarixi dərs almış çağdaş Qərb sivilizasiyası elm və mədəniyyət xadimlərinin, mütəfəkkirlərin, siyasətçilərin və iqtisadçıların simasında Avropanın və bütün dünyanın təhlükəsizliyini təmin etməyə qadir olan ideyaları tərənnüm etməyə başlamışdılar. "Böhran əsri" kimi xarakterizə olunan belə, çox vacib bir tarixi məqamda Avropanın fəlsəfi təfəkkürünün məhsulu kimi ixlas xarakterli fərqli fəlsəfi konsepsiyalar (ekzistensializm, empriokritisizm, strukturalizm, fəlsəfi antropologiya, neorealizm, neopozitivizm və baş.), siyasi təfəkkürünün məhsulu kimi çeşidli beynəlxalq siyasi təşkilatlar, mədəni təfəkkürünün məhsulu kimi isə multikulturalizm ideyalarının yaranması oldu. Bu dövrdə mütərəqqi düşünən şəxsiyyətlər, çağdaş siyasi isteblişmentin mənsubları və mədəni dəyərləri tərənnüm edən mütəfəkkirlər mövcud problemlərin səbəblərini etnik-dini müxtəlifliklər, millətlər arasındakı aydın şəkildə ifadə olunan antaqonizmin nəticəsi kimi izah edir və çox yüksək zəmanətli təhlükəsiz gələcəyin qurulmasını xalqların, ən mütərəqqi siyasi, iqtisadi və mədəni ideyalara əsaslanan ittifaqının yaradılmasında görürdülər.

1919-1920-ci illərdə I Dünya müharibəsinin əsas yekunlarına dair Fransanın paytaxt şəhəri Parisdə keçirilən Beynəlxalq Konfransda (Paris Sülh Konfransı) ilk beynəlxalq təşkilat - "Millətlər Liqası" (ing. *League of Nations*), yaxud "Millətlər cəmiyyəti" yaradıldı. 1935-ci ilə qədər cəmiyyətin tərkibinə 58 suveren dövlət daxil idi. Qurumun fəaliyyətində tərksilah, hərbi əməliyyatların dayandırılması, kollektiv təhlükəsizliyin

təmin edilməsi, dövlətlər arasındakı ən müxtəlif xarakterli münaqişələrin diplomatik yollarla tam həll edilməsi, həmçinin Yer kürəsində insanların həyat keyfiyyətlərinin yaxşılaşdırılması məsələləri üstünlük təşkil edirdi. Qeyd etmək lazımdır ki, millətlərin sülhə, əmin-amanlığa və birgəyaşayış qaydalarına əsaslanan prinsiplərini hələ XVIII əsrin sonlarında klassik alman fəlsəfəsinin ən görkəmli nümayəndələrindən biri olan İmmanuil Kant (alm. *İmmanuel Kant* - 1824-1804) "Əbədi sülhə doğru" adlı fəlsəfi traktatında formalaşdırmışdı. "Millətlər Liqası"nın 26 maddədən ibarət nizamnaməsi var idi. Bu təşkilatın "Millətlər Sarayı" (fran. *Palais des Nations*) adlanan iqamətgahı isə1936-1946-cı illərdə Cenevrədə (İsveçrə) Ariana parkında yerləşirdi. Tarixdə ilk beynəlxalq təşkilat olan "Millətlər liqası" 19 aprel 1946-cı il tarixində, onun Baş Assambleyasının sonuncu, norveçli sədri Karl Yoakim Hambronun (1885-1964) liqanın ən sonuncu sessiyasında çıxışından sonra öz fəaliyyətini dayandırmışdı [1]. Məntiqi cəhətdən, lakin qeyri-rəsmi olaraq, Beynəlxalq Millətlər Təşkilatı (ing. *United Nations Organization*), ondan əvvəl gələn "Millətlər Liqası"nın xələfi hesab olunur. BMT-nin əsas struktur komponentləri və fəaliyyət mexanizmləri hələ II Dünya müharibəsinin gedişində Tehran (29 noyabr - 1 dekabr 1943), Dumbarton-Oks (Vaşinqtonda saray - avqust-oktyabr 1944) və Krım konfranslarında (4-11 fev.1945) dəqiq təyin olunmuşdu. 1945-ci il aprel ayının 25-dən iyun ayının 26-ı tarixinədək ABŞ-ın San-Fransisko şəhərində keçirilən konfransda isə yeni təşkilatın nizamnaməsi qəbul olunmuş və dünyanın 50 dövləti tərəfindən imzalanmışdı (26 iyun 1945). 24 oktyabr 1945-ci il tarixindən rəsmi fəaliyyətə başlayan BMT-ni bu gün 193 dünya dövləti təmsil olunur. BMT-nin əsas doktrinasını və fundamental prinsiplərini xalqlar arasında sıx əməkdaşlığın, dostluğun və qarşılıqlı yardımın təmin olunması ideyası təşkil edir. Təsadüfi deyildir ki, BMT-nin Nyu-Yorkda yerləşən mənzil qərargahının frontonunda dahi İran şairi Əbu Məhəmməd Sədi Şirazinin (1213-1291) aşağıdakı şeri, BMT-nin 160 müxtəlif dillərində (ingilis, fransız, rus, ərəb, fin, fars, çin, ispan və s.) yazılıb:

*Bir bədən üzvüdür bu bəni-adəm.* *Bir üzvü dərdlərə salsa ruzigar,*
*Eyni bir cövhərdən yaranmış aləm.* *Tutmaz başqa üzvü yerində qərar.*

*Özgənin dərdinə əgər qalmasan,*
*Yaraşmaz adına deyilsin insan!* [2]

Həmin sözlər, eyni ilə binanın görüş otaqlarından birində, 25 $m^2$

sahəsi olan və isfahanlı, məşhur xalça ustası Məhəmməd Serifiyaniyə məxsus xalçanın üzərində təmiz qızıldan toxunmuş hərflərlə yazılmışdır. Xalça 2002-2007-ci illərdə İran İslam Respublikasının BMT-dəki daimi nümayəndəsi olmuş, İranın bugünki xarici işlər naziri Məhəmməd Cavad Zərif (1960) tərəfindən təşkilata hədiyyə edilmişdir.

Etnik-mədəni və sosial-siyasi birliyin davamlı təmin olunmasında, mədəniyyətlərin, sivilizasiyaların qovuşmasında, bir-birilərinə qarşılıqlı pozitiv təsir göstərməsində, dünya elminin, təhsilinin və mədəniyyətinin inkişafında BMT-nin ixtisaslaşdırılmış qurumu olan UNESCO-nun (ing. *United Nations Educational Scientific and Cultural Organization*) vacib və müstəsna rolu vardır. Mənzil-qərargahı Parisdə yerləşən bu təşkilat 16 noyabr 1945-ci il tarixdə yaradılmışdır. Təşkilatda 195 üzv, 2 müşahidəçi və 10 assosiasiya olunmuş dövlət təmsil olunur [3].

II Dünya müharibəsindən sonra xalqların etnik-mədəni və sosial-iqtisadi birliyini təmin etməyə istiqamətlənmiş beynəlxalq təşkilatlardan biri də, 1946-cı ildə Böyük Britaniyanın təşəbbüsü və rəhbərliyi altında yaradılmış “Millətlər Birliyi” (ing. *Commonwealth of Nations*) olmuşdur. Qurumun yaradılmasında əsas məqsəd əvvəllər Britaniya imperiyasının tərkibinə daxil olmuş, II Dünya müharibəsi nəticəsində siyasi müstəqillik əldə etmiş dövlətlərin iqtisadi və mədəni əlaqələrini qoruyub saxlamaq idi. Beləliklə, Millətlər birliyi könüllü əsaslarda yaradılmış multimədəni bir struktur kimi təzahür edirdi. Qurumun tərkibinə Böyük Britaniyanın, demək olar ki, bütün dominionları (lat. *dominium* - mülk - imperiyanın tərkibində faktiki müstəqil dövlət), koloniyaları və protektoratlıqları (lat. *protector* - himayədar - bir dövlətin digər, daha güclü dövlətin himayəsi altında olması) daxil idi. Millətlər cəmiyyətinin hüquqi statusu hələ 11 dekabr 1931-ci il tarixində qəbul olunmuş Vestminster statutu (Böyük Britaniya dominionlarının hüquqi vəziyyətini təyin etmək üçün ölkə parlamentinin qəbul etdiyi akt) ilə müəyyən olunmuşdu. Lakin 15 avqust 1947-ci il tarixində Hindistanın siyasi müstəqillik əldə etməsi və Böyük Britaniya monarxını dövlət başçısı kimi tanımaqdan imtina etməsindən sonra Millətlər Cəmiyyətinin əsas strukturunda və təşkilati qaydalarında kardinal dəyişikliklər edildi [4]. Artıq əzəmətli B.Britaniya imperiyası xalqları hərbi güc hesabına itaətdə saxlayan ən qüdrətli metropoliya kimi deyil, etnik-mili subyektlərin hüquq və azadlıqlarını tanıyan inteqrativ mərkəz kimi, kral (1952-ci ildən kraliça) isə əvvəllər Britaniya Millətlər Birliyində təmsil olunan digər xalqlar üçün rəmzi nüfuz qismində təqdim olunurdu. 2009-cu ildə Ruandanın “Millətlər birliyinin” tərkibinə daxil olmasından sonra (İngiltərə, Şotlandiya, Uels, Şimali İrlandiya da daxil

olmaqla) təşkilatda təmsil olunan dövlətlərin sayı 54-ə çatdı. 2013-cü ildə Qambiyanın, 2016-cı ildə isə Maldiv adalarının təşkilatın tərkibindən çıxmasından sonra birlikdə 52 dövlət təmsil olunur. Təşkilatın ənənəvi rəhbəri Britaniya kralıdır (1952-ci ildən bu günədək kraliça II Yelizaveta -1926). İdarəçilik işlərini, mənzil-qərargahı uzaq 1965-ci ildən Londonda yerləşən Katiblik həyata keçirir. 2008-ci ildən bəri Katibliyə rəhbərliyi Hindistanı təmsil edən Kamaleş Şarma reallaşdırır.

Bütün bu inteqrativ ideyalar və onların təzahürü olan regional və beynəlxalq təşkilatlar multikulturalizm siyasətinin ideoloji bazasının və fundamental prinsiplərinin yaradılmasında yüksək təşəkküllü presedent olmuşdur. Artıq XX əsrin 60-70-ci illərində əsrin dəhşətlərini yaşamış və son dövrlərdə daha zəngin təcrübə toplamış Avropa (şərti olaraq "Qərb") sivilizasiyası və onun Cən.Afrikada, Kanadada, ABŞ-da, Cən.Amerikada və Avstraliyada təmsil olunan yeni etnik-siyasi və dini-mədəni formaları uğurlu və xoşbəxt gələcəyin perspektivlərini münaqişəsiz və müharibəsiz dünyanın yaradılmasında görürdülər. Bu minvalla, cəmiyyətə hər hansı münaqişəli elementin nüfuz etməsinə qətiyyətlə yol verilməməsi kimi prinsip bu gün Avropa düşüncə tərzinin etalonuna çevrilmişdir.

## 9.2. Multikulturalizmin Kanada modeli. Multikulturalizm Kanadada dövlət siyasəti kimi (ing. *Canadian model of multiculturalism. Multiculturalism as a state policy in Canada*)



XX əsrdə yaranmış və inkişaf etmiş mədəni təlimlərin mütərəqqi əhəmiyyətini nəzərə alaraq, belə bir nəticəyə gəlmək olar ki, tarixi zərurət kimi ortaya çıxmış və özünü alternativi olmayan əsl mədəni siyasət kimi təsdiqləmiş multikulturalizm, həmçinin də onunla bağlı həyata keçirilən dövlət siyasəti ən dahi mütəfəkkirlərin düşüncələrinin və ideyalarının ümumiləşdirilmiş obrazları qismində təzahür edir. Çağdaş münaqişəli cəmiyyətdə baş verən hadisə və proseslərin fonunda bu fenomen qlobal tolerantlığa olan əsl tarixi tələbatın məntiqi nəticəsi kimi bütün dünyada bərqərar olmaqda israrlı görünür .

Multikultural cəmiyyətin formalaşması və inkişafı tarixi təkamülün xüsusiyyətləri ilə, konkret olaraq sosial amillərlə müəyyənləşmişdir. Onu da qeyd edək ki, həqiqi multikultural cəmiyyətlərin formalaşmasında və inkişafında demokratik ənənələr mühüm rol oynayır, daha dəqiq desək,

demokratiya multikultural cəmiyyətin əsl təkamülü üçün əlverişli şərait yaradır. Demokratizmə əsaslanan multimədəni siyasət sistemləşdirilmiş və hüquqi əsaslarla təmin olunmuş şəkildə ilk dəfə Şimali Amerikanın və Qərbi Avropanın inkişaf etmiş ölkələrində təşəkkül tapmış və daha sonra mədəni siyasətin nümunəsi kimi bütün dünyaya yayılmışdır. Qeyd etmək lazımdır ki, ən yüksək təşəkküllü multikultural mühitin yaradılması daha çox polietnik sosiumun məskunlaşdığı məkanların təbii-coğrafi, iqtisadi-mədəni və linqvistik xüsusiyyətlərindən, həmçinin iqlim şəraitindən və digər əlamətlərdən asılıdır. Məhz elə bu xüsusiyyətlər müəyyən tarixi-coğrafi məkanlarda uzun müddət ərzində yaşayan etnosların xarakterini, temperamentini, düşüncə tərzini, əxlaqi keyfiyyətlərini və mentalitetlə bağlı əlamətlərini təyin edir. Yuxarıda sadalanan əlamətlərə, həmçinin ölkələrin, regionların tarixi inkişafındakı müxtəlifliyə, polietnik məkanın milli, dini, konfessional özəlliklərinə, eləcə də sosial-ərazi birliklərinin etnik tərkibinə, sosial-iqtisadi inkişaf səviyyəsinə və siyasi isteblişmentin intellektual, diplomatik, praqmatik və sırf administrativ keyfiyyətlərinə rəğmən multikulturalizmin də müxtəlif modelləri təşəkkül tapmışdır. Bu spesifik etnik modellərin sırasında ABŞ, Kanada, Hindistan, Malayziya, İndoneziya, Azərbaycan və s. modelləri qeyd etmək olar.

Bu gün Qərb multikulturalizmi multimədəni siyasətin çox pozitiv nümunəsi kimi İsveç, ABŞ, Avstraliya və Kanada multikulturalizminin timsalında özünü tam təsdiq etmişdir. Qeyd etmək lazımdır ki, nümunəvi multikultural cəmiyyət yuxarıdan diktə olunan siyasi ideyalara kortəbii şəkildə əməl edən hüquqi cəmiyyət deyil. Həqiqi multikultural cəmiyyət tolerantlığın, birgəyaşayış prinsiplərinin, qarşılıqlı yardım qaydalarının, insana hansısa dinin, dilin, mədəniyyətin daşıyıcısı olmasına görə deyil, insan olmasına görə qiymət verən şəxsiyyətlərin üstünlük təşkil etdiyi cəmiyyətdir. Belə cəmiyyətlərdə ümumbəşəri dəyərlər etnosun təbiətində əsrlər ərzində formalaşmış və əsl milli xüsusiyyətə çevrilmiş ruhani və ideoloji faktdır. Humanizm və tolerantlıq kimi ümumbəşəri dəyərlər isə onun mentalitetinə üzvi şəkildə xasdır.

Qlobal iqtisadi, siyasi və etnik-mədəni proseslərin dinamik şəkildə cərəyan etdiyi müasir münaqişəli cəmiyyətdə, yarım əsr bundan əvvəl siyasi müstəviyə çıxarılmış və dövlət siyasəti kimi təsdiq edilmiş Kanada multikulturalizmi modelini Qərb multikulturalizminin əsas etalonu hesab etmək olar. Kanadada multikultural cəmiyyətin formalaşması XX əsrin 60-cı illərinin sonları, 70-ci illərinin əvvəllərinə təsadüf edir. Bu dövrdə Kanada hökuməti əhalinin dini, irqi, etnik və konfessional müxtəlifliyini nəzərə alaraq, onu müasir Kanada cəmiyyətinin əsas milli xüsusiyyətinə

çevirmək istiqamətində tədbirlər görməyə başladı. Qeyd etmək lazımdır ki, bu gün Kanadada multikulturalizm “Azadlıq və Hüquqlar haqqında Kanada Nizamnaməsinin” 27-ci maddəsinə uyğun olaraq qorunur. ABŞ və Avstraliyadan fərqli olaraq, Kanadada etnik azlıqlara münasibətdə hakim etnik qrup tərəfindən assimilyasiya siyasəti aparılmır. Kanadada hər bir etnik qrupun üzvləri öz ana dilindən azad şəkildə istifadə etmək, həmçinin doğma dildə təhsil almaq hüquqlaruna da malikdirlər. Bu vacib situasiya Kanadada yaşayan etnik azlıqların özəl mədəni dəyərlərini və milli kimliklərini qoruya bilməsinə şərait yaradır.




Beləliklə, multikulturalizmin rəsmi dövlət siyasəti kimi qəbul olunduğu ilk ölkə elə **Kanada** olmuşdur. Qeyd etmək lazımdır ki, Kanada **1867-ci ildə** İstiqlal Bəyannaməsinə görə dörd əyalətdən (Ontario, Kvebek, Nyu-Bransuik, Yeni Şotlandiya) ibarət olan “Britaniya Şimali Amerikası” kimi yaradılmışdır. 1931-ci ilin 11 dekabr tarixində - Vestminster statutu ilə bağlı (Böyük Britaniya parlamentinin dominion dövlətlər haqqında aktı) Britaniya imperiyasının tərkibində tam siyasi müstəqilliyə malik dominion dövlətdir. 1982-ci ilin 17 aprelində qəbul olunmuş “Kanada haqqında Akt”la Britaniya Birləşmiş Krallığının parlamenti Böyük Britaniya ilə Kanada arasında sonuncu konstitusiya və qanunvericilik əlaqələrini də ləğv etmişdi. Hal-hazırda Kanada nominal şəkildə “Millətlər birliyi”ndə (ing.*“Commonwealth of Nations”*) təmsil olunur. İnzibati-ərazi bölgüsünə görə Kanada 10 əyalətdən və 3 ərazidən ibarətdir. On əyalətdən doqquzunda ingilis dilli, birində isə (Kvebek) fransız dilli əhali üstünlük təşkil edir. Kanadanın aborigenləri olan hindu-irokezlərin dilində “kanada” sözünün dəqiq hərfi mənası “kənd”, yaxud “məskən” deməkdir [5].

Kanada 1534-cü ildə Fransalı səyyah Jak Kartye (fran. *Jacques Cartier* - 1491-1557) tərəfindən kəşf edilmişdir. Bir müddət sonra bu ərazi “Yeni Fransaya” aid əyalətlərdən birinə çevrilmişdi. 1600-1605-ci illərdə fransızların Kanadada Tadusak, Port-Royal, 1608-ci ildə Kvebek koloniyalarını, ingilislərin isə 1610-cu ildə Nyufaundlenddə Sent-Cons şəhərini yaratmalarıdan sonra Şimali Amerikada “Kanada” adlı subyektin əsası qoyuldu [6]. Hal-hazırda Kanadanın ümumi ərazisi 10 000 000 km$^2$ (Rusiyadan sonra 2-ci), əhalisi isə 37 mil. nəfərdir. Ölkə Paytaxtı Ottava şəhəridir. Pul vahidi Kanada dollarıdır. Devizi - ”Dənizdən dənizə” (“*A mari usque ad mare*”), himni isə - “O Canada!” kimi sözlər ilə başlayır. Multikulturalizmin Kanada modeli yeni cəmiyyətdə hər millətin və etnik

azlığın mədəni dəyərlərinin qorunmasına və inkişafına yönəlmiş dövlət siyasətidir. Ölkə əhalisinin 22%-ni (7,5 milyon nəfər) immiqrantlar təşkil edir. Kanadada multikulturalizm XX yüzilliyin 60-cı illərinin sonlarında Kvebek separatizminə cavab olaraq elan edilmiş və tam mərhələli şəkildə həyata keçirilmişdir. Kanadanın şərqində yerləşən, əhalisinin fransızdilli kolonistlərdən ibarət olduğu Kvebekin ərazisi - 1.667.441 $km^2$, əhalisi 8,2 milyon nəfərdir. Ölkənin ən böyük şəhəri isə Monrealdır. Kanadada multikulturalizm siyasətinin ilk rəsmi təzahürü isə ölkənin bilinqvist (lat. *bi* - iki, *linqua* - dil, bir ölkə daxilində paralel olaraq iki dildən istifadə edilməsi praktikası) məkan (ingilis-fransız) elan edilməsi olmuşdu. Qeyd etmək lazımdır ki, II Dünya müharibəsindən sonra Kanadada ingilisdilli icmalarla fransızdilli icmalar arasında kəskin mübahisələr yaranmışdı. Multikulturalizm siyasətinin həyata keçirilməsi məhz bu mübahisələrin əsl diplomatik yollarla həll edilməsinə, həmçinin Kvebek separatizminin qarşısının alınmasına, dövlətin ərazi bütövlüyünün tam təmin edilməsinə, eləcə də ölkəyə Vyetnamdan, Hindistandan, Çindən, ərəb ölkələrindən və Afrikadan kütləvi miqrant axınının intensivləşməsi ilə əlaqədar yenidən formalaşan multimədəni mühitin tənzimlənməsinə xidmət edirdi.



Kanadada multikulturalizmin dövlət siyasəti qismində qəbul olunmasında və separatizm hərəkatına son qoyulmasında Kanadanın 15-ci baş naziri, 1968-1979 və 1980-1984-cü illər ərzində Kanadaya rəhbərlik etmiş fransız əsilli **Josef Pyer İves Elliott Tryudo**nun (fran. *Jozeph Philippe Pierre Yves Elliott Trudeau* - 1919-2000) müstəsna xidmətləri olmuşdur (2013-cü ilin aprelindən bəri Kanadaya Pyer Tryudonun oğlu, Kanadada multikulturalizmin rəsmi ideologiya elan olunduğu 1971-ci ildə anadan olmuş Castin Tryudo rəhbərlik edir). Dövlət başçısının şəxsi xidmətlərinə rəğmən, 1971-ci ilin oktyabrında multikulturalizm Kanada siyasətinin rəsmi ideologiyası elan olunmuşdu ("Bilinqvizmə əsaslanan çoxmədəniyyətlilik doktrinası"). 1972-ci ildə isə multikulturalizm üzrə xüsusi direktorat yaradılmışdı.

Kanadada qəbul edilmiş multikulturalizm siyasəti ABŞ-da həyata keçirilən və "Əridən qazan" (ing. "*Melting Pot*") adlanan assimilyasiya siyasətinin tam əksi idi. 1982-ci ildə Kanada konstitusiyasının bir hissəsi olan "Hüquq və azadlıqlar xartiyası" (ing. "*Canadian Charter of Rights and Freedoms"*) qəbul olundu. Burada qeyd olunan əsas müddəalardan biri "müxtəlif etnik-milli qrupların sosial-mədəni irsinin qorunması və

genişləndirilməsi zərurətini ifadə edirdi” [7].

1988-ci il tarixdə qəbul edilmiş “Multikulturalizm haqqında Akt”ın preambulasının (lat. *preambulus* - irəlidə gələnlər, hər hansı bir mətnin giriş hissəsi) sonuncu bəndində deyilir: “Kanada hökuməti kanadalıların irqi, milli, etnik xüsusiyyətlərini, onların dərilərinin rənglərini və dini əqidə müxtəlifliyini Kanada cəmiyyətinin fundamental xüsusiyyəti hesab edir və ölkə həyatının sosial, iqtisadi, etik-mədəni və siyasi sahələrində eyni imkanların əldə edilməsi kimi, kanadalılara məxsus multikultural irsin qorunmasına və inkişafına yönəlmiş əsl multikulturalizm siyasəti həyata keçirir” [8]. Onu qeyd etmək lazımdır ki, Kanadada reallaşdırılan multikulturalizminin fundamental prinsipini, hələ Böyük Fransa İnqilabı (1789-1799) zamanı irəli sürülmüş “Millətin içində millətə yer yoxdur” kimi şüar təşkil edir. Beləliklə, Kanada multikulturalizminin ali məqsədi mədəni müxtəlifliyin etibarlı qorunması şərti ilə vahid “Ümumkanada kimliyinin” yaradılmasına nail olmaqdan ibarətdir [9]. Bununla əlaqədar Kanada multikulturalizmi ilə Azərbaycan multikulturalizmi bəzi eyniyyət təşkil edir.

Kanadada multimədəni cəmiyyətə münasibətlə əlaqədar keçirilən sorğuda iştirak edənlər arasında 73% əhalinin, əsasən də gənclərin başqa etnik-mədəni qrupların içərisindən dostları vardır. 79% Kanada əhalisi multikulturalizmi ölkənin birliyini təmin edən zəruri şərt hesab edir. Kanadada qarışıq nikahlara müsbət münasibət göstərənlərin sayı 85%-dir. Əhalinin 95%-i özünün həm kanadalı olması ilə, həm də etnik mənsubiyyəti ilə fəxr edir. 90% əhali dərisinin rəngindən və etnik mənsubiyyətindən asılı olmayaraq, hamının bərabər imkanlara malik olması ideyasına, müqəddəs əqidə kimi inanır.



Beləliklə, cəmiyyətin siyasi birliyinin tam mühafizəsi şərti ilə, ölkə ərazisində təmsil olunan bütün etnik-mədəni müxtəlifliklərin hüquq və azadlıqlarının qorunmasına, inkişafına və əsl tərəqqisinə istiqamətlənmiş multikulturalizm siyasəti Kanadada öz bəhrəsini verməkdədir. Bu gün isə Kanada dövləti iqtisadi-mədəni və hərbi-siyasi cəhətdən inkişaf etmiş dövlətlər sırasında qabaqcıl yerlərdən birini tutur. Məhz multikulturalizm siyasətinə rəğmən ölkədə separatizm meylləri minimuma endirilmişdir. Kanada cəmiyyəti isə bütün sivil cəmiyyətlər içərisində əsl tolerantlıq etalonu kimi özünü təsdiq etmişdir.

## 9.3. Multikulturalizmin Avstraliya modeli (ing. *Australian model of multiculturalism*)



Ən qədim dövrlərdə, xüsusilə də Roma imperiyası əyyamında "Naməlum Cənub torpağı" (lat. *Terra Australis Incognita*) haqqında əfsanələr mövcud idi. "*Terra incognita*" haqqında davamlı arzuları olan avropalıların Avstraliyaya ilk gəlişinin isə 1606-cı ildə baş verməsi ehtimal olunur. Lakin buna baxmayaraq, XVIII əsrin lap əvvəllərinə qədər Avstraliyanın əsas yerli əhalisi, avropalılar tərəfindən "Avstraliya buşmenləri" (ümumi sayları 500 000 nəfərdir) adlandırılmış aborigenlər idi.

1770-ci ildə ingilis gəmi kapitanı Ceyms Kuk (ing. *James Cook* - 1728-1779) Avstraliyanın şərq sahillərini kəşf etdi və onu "Yeni Cənubi Uels" adlandırdı. 1788-ci il yanvar ayının 26-da "Birinci Donanma" (ing. *First Fleet*) adlanan 11 ingilis gəmisi 1487 nəfəri (ilk kolonistlərdən 180 nəfəri qadın olmaqla, 717 nəfəri məhbuslar idi) Avstraliyanın cənub-şərq hissəsinə, Yeni Cənubi Uelsə gətirəndən sonra, Avstraliyanın Yeni tarixi başlandı. 1838-1900-cü illərdə Avstraliyaya 20 min nəfərə yaxın almanın gəlməsi ilə alman etnosu qitədə ingilislərdən sonra ikinci çoxsaylı etnosa çevrildi.

1949-cu ilə qədər Avstraliyada "Avstraliya vətəndaşı" anlayışı yox idi. Etnik, milli və dini mənsubiyyətindən asılı olmayaraq, bütün əhali Britaniya təbəəsi hesab olunurdu. Lakin 1949-cu il yanvar ayının 26-da Avstraliya günü ("Birinci flot" adlanan və ingilis donanmasının 1788-ci il yanvar ayının 26-sı tarixdə Yeni Cənubi Uelsə gəlməsi) "Milliyyət və vətəndaşlıq haqqında" Qanun qəbul olundu [10]. Yeni qanuna görə isə Avstraliyanın və Britaniyanın bütün təbəələri Avstraliya vətəndaşları elan olunurdular. 1967-ci ildə Avstraliya aborigenlərinin əsas hüquqlarını təsdiqləyən qanunlar qəbul olundu. İki əsr ərzində Avstraliya Britaniya imperiyasının koloniyasından, dünyada ən yüksək həyat səviyyəsi olan ölkələrdən birinə çevrildi. 1931-ci il 11 dekabr tarixli məlum Vestminster statutuna görə, Avstraliya tam müstəqil dövlətdir. Rəsmi adı Avstraliya İttifaqıdır (ing. *Commonwealth of Australia*). Ərazisi 7 692 024 $km^2$, əhalisi 24 696 857 (2017) nəfərdir. Paytaxtı Kanberra şəhəridir. Dövlət başçısı Malkolm Ternbulldur. Planetin Cənub yarımkürəsində yerləşən Avstraliya dünyada yeganə qitə-dövlətdir. Tasmaniya adası, Hind və Sakit okeanlarda yerləşən bəzi adalar da Avstraliyaya aiddir [11].

İqtisadi inkişaf səviyyəsinə görə Avstraliya ən inkişaf etmiş dünya ölkələri içərisində 13-cü yeri, ümumdaxili məhsulun həcminə görə isə 6-cı yeri tutur. Avstraliya (lat. *australis* - cənub) əhalisinin etnik tərkibini qitəyə müxtəlif vaxtlarda, müxtəlif səbəblərlə və məqsədlərlə gəlmiş immiqrantlar - ingilislər, irlandlar, zelandiyalılar, italyanlar, yunanlar, hollandlar, almanlar, yuqoslavlar, vyetnamlılar və çinlilər təşkil edir. Dövlətyaradan millətlər ingilislər və irlandlar hesab olunur. Bu gün onların sayı ölkə əhalisinin sayının



yarıdan çoxunu təşkil edir. Dövlət dili ingilis dilidir. Ölkə əhalisinin 2%-ni "Avstraliya buşmenləri" adlanan aborigenlər təşkil edirlər. II Dünya müharibəsindən sonra Avropadan Avstraliyaya gələn miqrantların sayı fövqəladə şəkildə artmağa başladı. Son 50 il ərzində isə hər il ölkəyə 50 mindən 185 minə qədər miqrantın daxil olması, Kanadada olduğu kimi Avstraliyada da etnodemoqrafik strukturun kəskin şəkildə dəyişməsi ilə nəticələnmişdi.

Avstraliyada müasir multikultural cəmiyyətin formalaşmasına uzun müddət dövlət tərəfindən dəstəklənən izolyasiya siyasəti çox ciddi maneə törədirdi. Qeyd etmək lazımdır ki, hələ 1901-ci ildə Avstraliyada qəbul olunmuş "Miqrasiya haqqında Əsas Qanun" ("Ağ Avstraliya Aktı") etnik izolyasiya siyasətini reallaşdıran hakim elita üçün inzibati-hüquqi baza idi. Multikultural cəmiyyətin prinsiplərinə zidd olan belə situasiya yalnız aşağıda adları çəkilən qanunların qəbul edilməsi ilə dəyişməyə başladı: "Vətəndaşlıq haqqında Qanun" (düzəlişlərlə)-1949, "Miqrasiya haqqında Qanun" (düzəlişlərlə)-1958, "Əcnəbilər haqqında Qanun" (düzəlişlərlə)-1984 və "Viza rejimi haqqında Qanun" (düzəlişlərlə) -1997.

Qeyd etmək lazımdır ki, "multikulturalizm" kimi termin Avstraliya xalqlarının leksikonuna ilk dəfə 1970-ci ildə - Avstraliyada İmmiqrasiya naziri vəzifəsində çalışmış Aleks Kresbi tərəfindən daxil edilmişdi. O, ingilis-saksonlarla yeni avstraliyalılar arasındakı mövcud ciddi nifaqın aradan qaldırılmasında böyük xidmətlər göstərmiş və yüksək nəticələr əldə etmişdi.

Ölkə əhalisinin təkcə ağdərili avropalılardan deyil, həmçinin digər irqlərin nümayəndələrindən və aborigenlərdən olduğunu nəzərə alaraq, Avstraliya hökuməti 1970-ci ildə, 70 il davam etmiş "Ağ Avstraliya" siyasətini ləğv etdi. Bu isə Asiyadan köçüb gəlmiş miqrantların sayının

sürətlə artmasına, etnodemoqrafik situasiyanın ciddi şəkildə dəyişməsinə səbəb oldu [12].

1979-cu ildə Avstraliya dövləti və hökuməti "Mədəni Müxtəlifliyin Problemləri üzrə Avstraliya İnstitutu", 1987-ci ildə isə "Multikulturalizm Problemləri üzrə xüsusi Komitə" yaratdı. Bu tədbir Avstraliya dövlətinin miqrasiya siyasətində hansı əhəmiyyətli bir rol oynamasının və ölkənin irqçilikdən multikultural siyasətə doğru necə inkişaf etməsinin mədəni-siyasi göstəricisi idi.

XXI əsrin əvvəllərinə aid statistik məlumatlara əsasən, Avstraliya əhalisinin 30%-ni xaricdə anadan olmuş vətəndaşlar təşkil edir. Ölkədə xaricdən, xüsusilə Çindən,Vyetnamdan, Koreyadan, Laosdan və s. gələn işçilərin sayı, ölkədə mövcud olan ümumi işçi qüvvəsinin 25%-ni təşkil edir. Buna baxmayaraq, müasir Avstraliya hökumətinin həyata keçirdiyi multimədəni etnik siyasətə rəğmən ölkədə multikultural təhlükəsizlik tam təmin olunmuş, müasir tolerant Avstraliya milləti formalaşmışdır. Ölkə qanunları dinindən, dilindən, etnik, milli və irqi mənsubiyyətindən asılı olmayaraq, bütün insanların hüquq və azadlıqlarını yüksək təşəkküllü mexanizmlərlə təmin edir. Avstraliyanın dünyanın ən mədəni və sosial-iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərindən biri olmasının sirri də məhz elə bu amillə izah olunur.

## 9.4. Multikulturalizmin İsveç modeli (ing. *Swedish model of multiculturalism*)



Multikulturalizm siyasətinin dövlət səviyyəsində uğurla həyata keçirildiyi Qərb dövlətlərindən biri də İsveçdir. Olduqca sərt təbiəti ilə tanınan İsveç Avropa kontinentinin şimal hissəsində, Skandinaviya yarımadasında yerləşir. Paytaxtı məşhur Stokholm şəhəri olan bu dünyəvi dövlətin əsas rəsmi adı isə "İsveç krallığıdır". Ərazisi 447 min 435 km$^2$, əhalisi isə 10 milyon nəfər təşkil edir. Unitar tipli dövlət olan İsveçin dövlət dili isveç dilidir. İsveç ümumdaxili məhsulun həcminə və həyat səviyyəsinə görə dünyanın ən inkişaf etmiş dövlətlərindən biridir. 1946-cı ildən BMT-nin, 1 yanvar 1995-ci il tarixindən isə Avropa Birliyinin üzvüdür. 1996-cı ilin 19 dekabr tarixindən AB-nin Şengen müqaviləsinə qoşulmuşdur [13]. Dövlət başçısı Stefan Löfvendir.

İsveçlilərdən başqa ölkədə ümumi sayları 17 m. nəfər olan saamlar (*laplandiyalılar* - əsasən Şimali Avropanın aborigenləri, fin-uqor xalqları qrupuna daxildirlər), 50 m. yerli fin və XX əsr ərzində ölkəyə köçüb gəlmiş 450 min etnik fin yaşayır.



Qeyd etmək lazımdır ki, XX əsrin 30-cu illərinə qədər İsveç əhalisinin bu və ya digər səbəblər üzündən (kasıblıq, dini təqiblər, siyasi məhdudiyyətlər, xoşbəxt gələcəyə əsla inamın olmaması) kütləvi şəkildə ölkəni tərk etməsi ilə əlaqədar İsveç "emiqrasiya ölkəsi" epiteti qazanmışdı. II Dünya müharibəsindən sonra emiqrasiya prosesi səngidi. Bu gün isə İsveç Avropada immiqrasiya ölkəsi kimi tanınır.

XX əsrin 50-60-cı illərində İsveçdə başlanmış fövqəladə iqtisadi inkişafla əlaqədar əmək resurslarına güclü tələbat başlandı. Bu prosesin məntiqi nəticəsi Almaniyadan, Baltikyanı ölkələrdən, Yuqoslaviyadan, Yunanıstandan, İtaliyadan, Türkiyədən ölkəyə güclü miqrant axınının başlanması oldu. Artıq XX əsrin 70-ci illərinin lap əvvəllərindən ölkəyə köçüb gələnlərin sayının sürətlə artmasını nəzərə alaraq, İsveç hökuməti immiqrasiyanın tənzimlənməsi üzrə sərt milli siyasət həyata keçirməyə başladı.

XX əsrin 80-ci illərinin əvvəllərində sivil İranda baş vermiş İslam inqilabı (1979), İran-İraq müharibəsi (1980-1988), Türkiyədə baş vermiş dövlət çevrilişi (1980), Livanda, Suriyada və digər Şərq ölkələrində baş verən ictimai-siyasi və hərbi xarakterli proseslərlə əlaqədar Avropaya daha güclü miqrant axını baş verdi. Miqrantların böyük bir hissəsi Şimali Avropada, o cümlədən İsveçdə məskunlaşırdılar. Bu proseslərə rəğmən əvvəllər mütləq şəkildə monolinqvistik və homogen (yun. *homos* - eyni, *genos* - yaratmaq) etnik struktura malik İsveç cəmiyyəti multikultural və beynəlmiləl cəmiyyətə çevrildi.

Bu gün İsveç əhalisinin 20%-ni miqrantlar və onların nəsilləri təşkil edir. İsveç vətəndaşlarının hər beş nəfərindən biri yadelli etnik mənşəyi olan şəxslərdir. 2007-ci ildə ölkədə qeydə alınmış əhali artımının 75%-i 1,2 milyon nəfər miqrantın və cəmi 25%-i isə yerli əhalinin hesabına baş vermişdi.

Bu gün dövlət siyasəti qismində həyata keçirilən multikulturalizmin İsveç modelinin əsas xüsusiyyəti ondan ibarətdir ki, cəmiyyətdə mədəni müxtəlifliyin saxlanılmasında dövlət çox fəal və müstəsna rol oynayır.

Dövlətin bu cür fəallığı isə, ilk növbədə ölkədəki konkret siyasi durumla əlaqədardır. İsveçdə uzun müddət çox güclü siyasi mövqeyə malik olan Sosial-Demokrat Partiyası İsveç cəmiyyətinin plüralist və multikultural ənənələrini qorumaq və inkişaf etdirmək məqsədilə çoxlu sayda siyasi və mədəni tədbirlər görmüşdür. Məsələn, 1976-cı ildə İsveç hökumətinin əcnəbilərə səs vermək hüququ təqdim etməsi. 1997-ci ildə qəbul olunmuş "İmmiqrasiya haqqında Qanun" və s.

Onu da qeyd etmək lazımdır ki, İsveç dövlətinin əldə etdiyi müasir tərəqqidə və multimədəni siyasətin həyata keçirilməsində 1969-1976 və 1982-1986-cı illərdə ölkəyə rəhbərlik etmiş, İsveçin Baş naziri, Sosial-Demokrat Fəhlə Partiyasının sədri,mərhum **Ulof Palme**nin (isv.*Sven Olof Joachim Palme*-1927-1986) müstəsna xidmətləri olmuşdur. Məhz Ulof Palme İsveç cəmiyyətini tolerantlıq, mərhəmət, humanitar yardım və real demokratiya prinsipləri ilə nizamlamış, sosial problemlərin tam həllini




dövlətin əsas prioritet vəzifəsi elan etmiş siyasi lider hesab olunur. XX əsrin ən fenomenal şəxsiyyətlərindən biri olan Ulof Palme İsveç haqqında əsas sosial-iqtisadi və mədəni-siyasi ideyalarını özünün "İsveç modeli" adlı kitabında şərh etmişdir [14]. İsveçin multikultural siyasətinin əsas istiqamətləri - dil və təhsil strategiyasıdır. Bu strategiya immiqrantlara həm öz doğma dillərini, həm də İsveç dilini öyrənmək üçün ideal şərait yaradır. İsveç hökuməti ölkədəki mədəni müxtəlifliyə çox vacib və zəruri olan bir reallıq kimi yanaşır.

II Dünya müharibəsindən dərhal sonra İsveç monoetnik ölkədən multietnik bir dövlətə çevrildi. Hal-hazırda İsveç əhalisinin 20%-i xarici etnik kökləri olan ən müxtəlif xalqların nümayəndələridir. İmmiqrasiya problemləri ilə müasir İsveç hökuməti 50 ildən artıqdır ki, məşğul olur. İmmiqrantların qəbulu, adaptasiyası, inteqrasiyası üzrə İsveç dövlətinin mütərəqqi mədəni siyasəti multikulturalizmin İsveç modelinin praktikada reallaşmış təzahürüdür. Bununla bağlı olaraq, İsveçdə multikulturalizm, onun daşıyıcıları olan həmkarlar təşkilatları və xüsusi yaradılmış sosial mühəndislik sistemi ilə, həmçinin digər fərqli vasitələrlə həyata keçirilir. Nəticədə immiqrantlara siyasi hüquqlar verilməsinə, onların İsveç əmək qanunvericiliyinin hüquqi aktlarından bəhrələnmələrinə, sosial rifahdan etnik isveçlilər kimi, bərabər şəkildə pay almalarına nail olunur.

Polietnik məkan kimi xarakterizə olunan müasir İsveç dövlətində

balanslaşdırılmış əsl etnik-milli siyasət həyata keçirilir. Belə bir şəraitdə İsveç hökumətinin əsas məqsədi müxtəlif din, əqidə və milli mədəniyyət sahibləri olan əhalinin mədəni-siyasi birliyini təmin etməkdən, onların arasında razılığa, həqiqi siyasi, mədəni, sosial bərabərliyə nail olmaqdan ibarətdir. Məhz bu məqsədlə ölkədə yüksək təşəkküllü multikulturalizm siyasəti həyata keçirilir.

İsveç əhalisinin böyük hissəsini konkret dini inancları olan insanlar təşkil edir. Əhalinin 70%-i protestant-lüteran kilsəsinin mənsublarıdır. Ölkədə 100 min xristian-pravoslav kilsəsinin, 30 min "İeqova şahidləri" kilsəsinin mənsubları yaşayır. Bu gün İsveçdə yaşayan müsəlmanların ümumi sayı isə 1 milyon nəfərdir. İsveçdə, əsası 1477-ci ildə qoyulmuş Avropanın ən qədim universitetlərindən biri olan Uppsala Universiteti (isv. *Uppsala Univesitet* - Uppsala şəhərində yerləşir) fəaliyyət göstərir.

Beləliklə, İsveç həm etnik-mədəni, həm də sosial-siyasi cəhətdən spesifik xüsusiyyətlərə malik unikal dövlətdir. Ölkədə həyata keçirilən balanslaşdırılmış real etnik-mədəni və sosial-iqtisadi siyasətə rəğmən o, sözün əsl mənasında "sosializm cənnətinə" çevrilmişdir.

## 9.5. Etnik-siyasi birliyin ABŞ modeli. "Əridən qazan" siyasətinin mahiyyəti (ing. *American model of ethnopolitical association. The essence of the "Melting pot" policy*)



Dünya xalqlarının ən rəngarəng şəkildə təmsil olunduğu ölkələrdən biri Amerika Birləşmiş Ştatlarıdır. Xristofor Kolumbun (ital. *Cristoforo Cilombo* - 1451-1506) və Ameriqo Vespuççinin (lat. *Americus Vespucius* - 1454-1512) Amerika qitəsini kəşf etmələri ilə bağlı "Yeni dünya" epiteti qazanmış bu unikal məkana dünyanın hər yerindən insanların kütləvi miqrasiyası bu günədək əsla səngimək bilmir. Öz sirli cazibəsi ilə bu məkan daim düşünən beyinləri, qızıl hərislərini, sərgüzəşt arxasınca qaçanları, eləcə də boynunda tanrı xaçı daşıyanları, bir sözlə, xoşbəxtlik, gözəl və mənalı həyat axtarışında olanların hamısını özünə cəlb etmiş və bu gün də edir. Məhz bu cazibənin nəticəsi olaraq, bu gün "Amerika xalqı" adlanan monolit bir sosium dünyanın ən qüdrətli etnik-siyasi birliklərindən, superetnoslarından biri kimi özünü təsdiq etmişdir.

XVIII-XIX əsrlərdə Amerika Qərbinin aktiv ekspansiyası zamanı avropalılarla yerli hindular arasındakı lokal toqquşmaları, 1775-1776-cı

illərdə "Müstəqillik uğrunda müharibəni", 1861-1865-ci illərdə Vətəndaş müharibəsini və 7 dekabr 1941-ci il tarixində Yaponiya HHQ-yə məxsus təyyarələrin Havay adalarında (ABŞ) yerləşən Perl-Harbor (ing. *Pearl Harbor* - İnci Liman) hərbi-dəniz bazasına hücumunu nəzərə almasaq, ABŞ ərazisində heç vaxt ciddi hərbi münaqişələr olmamışdır. Bu isə o anlama gəlir ki, sözügedən məkan iki əsrdən artıq bir dövr ərzində sosial-iqtisadi, ictimai-siyasi və elmi-mədəni baxımdan davamlı olaraq inkişaf etmişdir.

ABŞ-ın milli tarixi quldarlıqla, qaradərili afrikalıların qul qismində zorla Amerikaya köçürülməsi ilə, Şimali Amerika hindularının kütləvi şəkildə məhv edilməsi aktı ilə başlanmışdır. Bununla belə, bu gün ABŞ dünyada əsl demokratiyanın, siyasi plüralizmin, tolerantlığın və mədəni müxtəlifliyin nümunəsi kimi özünü təsdiq etmiş dövlətdir.

ABŞ-da mövcud olan etnik-siyasi birliyin tədqiqi ilə məşğul olan alimlər belə hesab edirlər ki, son yüz əlli il ərzində ölkədə bütün dünya xalqlarının etnik-mədəni sintezindən spesifik bir sosium "amerika siyasi milləti" yaranmışdır. Bu sosiumda ingilis-sakson elitasının müstəsna rolu vardır və o, dövlətyaradan faktor kimi tanınır.




ABŞ-da multikulturalizmin spesifik modeli artıq XX əsrin 60-70-ci illərində mütləq şəkildə Amerika cəmiyyətinin ideoloji konstruksiyasına çevrildi. Bu diyarda da multikulturalizm kənardan gətirilmiş siyasi məsələ, sosial problem deyildi. Müxtəlifliklər, fərqliliklər məsələsi kimi multikulturalizm, əzəli olaraq Amerika ənənələrinin öz təbiətində qərar tutmuşdu. Lakin ABŞ-da multikulturalizm əlavə rənglərlə və çalarlarla seçilirdi. Kanadadan fərqli olaraq, burada **"Əridən qazan"**ın sinkretik ideologiyası və plüralist milli identifikasiya (lat.*"identifiko"* - eyni - etnoqrafiyada və antropologiyada insanın müəyyən millətə mənsubiyyəti) üstünlük təşkil edirdi.

ABŞ etnik-siyasi inkişaf modelinin modifikasiyası olan *"Melting pot"* Amerika cəmiyyətində və mədəniyyətində özünəməxsus bir etnik-siyasi tərəqqini nəzərdə tutur. "Əridən qazan" siyasəti multikulturalizm prinsiplərinə tamamilə zidd fenomen hesab olunur. Bu termin Britaniya jurnalisti və dramaturqu İzrael Zanqvilin (ing. *Israel Zangwill* - 1864-1926) eyni adlı "Əridən qazan" pyesindən götürülmüşdür. Pyesin əsas ideoloji məzmunu ondan ibarətdir ki, ABŞ-da müxtəlif xalqların və milli mədəniyyətlərin qarışığından (sintezindən) yeni, vahid "Amerika milləti"

yaradılır. Pyesin baş qəhrəmanı,Rusiya imperiyasından ABŞ-a mühacirət edən yəhudi mənşəli gənc Horas Elcer Nyu-York limanına yaxınlaşan immiqrant gəmisinin göyərtəsindən şəhəri görən kimi deyir: ”Amerika tanrının yaratdığı çox böyük əridən bir tiyandır və bu tiyanda Avropadan gələn bütün nəcib xalqlar əriyirlər... Almanlar və fransızlar, irlandlar və ingilislər, yəhudilər və ruslar - hamısı bu özəl tiyana atılır. Beləcə, tanrı Amerika millətini yaradır”.

Məlum olur ki, “multikulturalizmin ABŞ modifikasiyası” bütün xalqların və mədəniyyətlərin “vahid Amerika kimliyi” ideyası altında assimilyasiyasını, yəni 100% amerikanlaşdırılmasını nəzərdə tutur.

Əsas məlumat üçün qeyd edək ki, Amerika Birləşmiş Ştatları (ing. *United States of America*) Şimali Amerikada 1776-cı ildə yaradılmış müstəqil, demokratik, 50 ştatdan və 1 Kolumbiya dairəsindən ibarət olan federativ dövlətdir. Ərazisi 9 519 431 km$^2$, əhalisi 325 milyon nəfərdir (2016). Paytaxtı Vaşinqton şəhəridir [15]. ABŞ-ın gerbində Qədim Roma siyasətçisi və filosofu Mark Tulliy Siserona (lat. *Marcus Tullius Cicero* – e.ə. 106-43) məxsus bu sözlər yazılıb: *“E pluribus unum”* (“Çoxluqlardan yaranmış vəhdət”). Beləliklə, ümumi cizgilərdə ABŞ-da həyata keçirilən etnik siyasəti “Əridən qazan”, yaxud “Əridən tiyan” adlandırmaq qəbul olunmuşdur. Bu isə XX əsr ərzində Amerika mədəni mühitində, dövlət səviyyəsində həyata keçirilən etnik inkişaf modelidir. Sözügedən etnik-siyasi paradiqmaya görə, Amerika milli kimliyinin formalaşması ölkədə təmsil olunan bütün xalqların “mədəni və bioloji cəhətdən bir-birinə tam qarışması” düsturu üzrə baş verməlidir. Bununla əlaqədar “Əridən tiyan” ifadəsi XX əsrdə Amerikanın digər əsas simvolları ilə yanaşı ölkənin ən populyar milli simvoluna çevrilmişdir.

“Əridən tiyan” konsepsiyası multikulturalizm siyasətinin antipodu sayılır. Lakin dərindən təhlil edərkən, bu konsepsiyanın assimilyasiya siyasəti olmadığı və çoxlu sayda üstünlüklərə və əsl mütərəqqi dəyərlərə malik olduğu məlum olur. “Əridən tiyan” modeli ABŞ-da XX əsrin 20-ci illərində I Dünya müharibəsinin törətdiyi fəsadlarla əlaqədar Avropadan, Afrikadan və Asiyadan ölkəyə miqrantların kütləvi axınları ilə əlaqədar formalaşmağa başlamışdı. Yeni şəraitdə isə Amerika cəmiyyəti ingilis-sakson konformizminin (lat. *conformism* - uyğun gələn, oxşar - siyasətdə uyğunlaşma, yaxud razılaşma mənasında işlədilir) hökmranlığı şəraitində artıq inkişaf edə bilməzdi. Dövrün tələblərinə uyğun olaraq, “yeni siyasi millətin” formalaşdırılması kimi zərurət gündəmə gəlmişdi. Qeyd etmək lazımdır ki, hələ “Amerika inqilabından” (1775-1783) bir müddət sonra ölkədə “amalqamasiya” (lat. *amalgama* - ərinti, qarışıq) adlanan, çoxlu

müxtəlif Avropa xalqlarının və mədəniyyətlərinin azad şəkildə bir-birinə qarışmasını və qovuşmasını, nəticədə isə yeni, vahid Amerika millətinin yaradılmasını nəzərdə tutan etnik-siyasi bir nəzəriyyə meydana gəlmişdi [16]. Beləliklə, "Əridən qazan" metaforası hələ XVIII və XIX əsrlərdə müxtəlif etnosların və millətlərin qovuşmasını və mədəniyyətlərin bir-birinə qarışması aktını təsvir etmək üçün işlədilirdi. Bu termin sözügedən dövrlərdə, "Yeni dünyada" çox unikal bir dövlətin təşəkkülü ilə əlaqədar dillərdə əzbər olan "Yeni Yərusəlim", "Yeni vəd almış torpaq", "Təpə üzərində şəhər" ifadələri ilə yanaşı işlədilirdi. Amerika ədəbiyyatında isə "əritmək" anlayışına məşhur Hektor Sent-Con de Krevkerin (1735-1813) əsərlərində rast gəlinirdi. Bu yazılarda ("Amerika fermerinin məktubları" - 1784) Con Krevker "Bu amerikalı, bu yeni adam kimdir?" sualına belə cavab verir: "Amerikalı bütün qədim önmühakimələrdan və vərdişlərdən imtina etmiş, yeni həyat tərzindən ən gözəl olan yenilikləri mənimsəyən insandır". Qeyd etmək lazımdır ki, "Əridən qazan" mexanizmini az qala mürtəce hadisə kimi qiymətləndirən İzrael Zanqvilin nəzəriyyəsi zaman keçdikcə özünü doğrultmadı. Bu gün Amerika milləti yer üzərində ideal etnik birlik prinsipləri olan millətlərdən biridir. "Əridən qazan" adlanan "assimilyasiya dəzgahı" isə millətləri əsla öz mədəniyyətlərini tamamilə unutmuş "manqurtlar həddində bişirmir".

Bu gün ABŞ-da Amerika vətəndaşlığını daşıyan hər kəs, həm öz milli mənsubiyyətinə, həm də amerikalı olduğuna görə eyni qürur hissi keçirir. Bunu, son illərdə əldə olunmuş statistik faktlar da tam sübut edir. 325 milyonluq ABŞ əhalisinin 38 mil-nu afro-amerikalılardan, 12 mil-nu əslən Asiyalı olan amerikalılardan, 34 mil-nu İspaniya mənşəli amerikalılardan, 48 mil-nu almanlardan, 37 mil-nu ingilis-amerikalılardan, 26 mil-nu italyanlardan, 6 mil-nu yəhudilərdən, 5 mil-nu ruslardan, 5 mil-nu ukraynalılardan, 4,5 mil-nu hollandlardan, 1 mil-nu yunanlardan, eləcə də digər millətlərdən ibarətdir.



ABŞ-da ingilis, fransız, ispan və digər dillərin ən populyar dillər olmasına baxmayaraq, amerikalılar gündəlik həyatlarında - evdə, işdə, küçədə 322 dildən istifadə edirlər. Təkcə Kaliforniya ştatında əhali 207 dildə danışır. Vayominqin əhalisi 56, Nyu-Yorkun əhalisi isə 129 dildən istifadə edir.

ABŞ-da etnik-irqi və etnik-mədəni müxtəlifliklərin israrlı şəkildə qorunub saxlanması da danılmaz faktdır. Ölkədə inam və inancla bağlı hüquqlar ölkə konstitusiyasında təsbit olunmuşdur və müqəddəs dəyər kimi qorunur. Burada bütün mövcud dünya dinlərini təmsil edən kilsələr, məbədlər, məscidlər, sinaqoqlar, digər dini xarakterli tikililər mövcuddur. Beləliklə, Zanqvil və Krevker kimi ədəbiyyatçılar tərəfindən yaradılmış "Əridən tiyan" adlı "amerikalanşdırma mifi" ABŞ reallıqlarını dərindən öyrəndikcə, göz qabağında əriyib itir və Amerika etnik-siyasi birliyinin əsl demokratik mahiyyəti ortaya çıxır. Bu birlikdə isə "Amerika" ideyası milli mədəniyyətləri, xalqların minilliklər ərzində formalaşmış dini və əxlaqi dəyərlərini tam əridən "rəhmsiz assimilyasiya maşını" kimi deyil, bütün etnik-mədəni müxtəliflikləri yeni spesifik ideyalarla zənginləşdirən yüksək təşəkküllü inteqrativ mədəni məfkurə kimi təzahür edir. Məhz bu xüsusiyyətlərinə görə "Amerika" və "amerikanlaşma" kimi məfhumlar həmişə cazibədar görünmüş və bu gün də görünür. Amerikaya gələn hər bir miqrantın "Amerika" məfkurəsinə əsl məhəbbəti elə ilk addımlardan, Amerika torpağına qədəm qoyan kimi başlayır. Çünki bu məkan "yeni insana" öz keçmişi ilə, ona o qədər də çox xoşbəxtlik gətirməyən köhnə həyatı tərzi ilə vidalaşmaq, yoxsulluqdan, zorakılıqdan və istibdaddan birdəfəlik qurtulmaq, dünyanın ən azad və tükənməz imkanları olan bir ölkəsinin vətəndaşı olmaq imkanı verir.

## 9.6. Multikulturalizmin İsveçrə modeli (ing. *The Swiss model of multiculturalism*)



Etnik-milli, sosial-iqtisadi, ictimai-siyasi, həmçinin etik-mənəvi cəhətdən dünyanın çox unikal subyektlərindən biri də İsveçrə Konfederasiyasıdır (lat. *Confoederatio Helvetica*). 1648-ci ildə Vestfal müqaviləsinə görə Müqəddəs Roma İmperiyasının hakimiyyətindən azad olmuş və Napoleon müharibələrinin (1799-1815) yekunlarına dair 1815-ci ildə bağlanmış Paris sülh müqaviləsinə görə İsveçrəyə neytral dövlət statusu verilmişdir. Bu beynəlxalq qayda bu gün də qüvvədədir. Məhz, elə bu səbəbdən də, İsveçrə yalnız 2002-ci ildə BMT-yə üzv qəbul olunmuşdur. Şengen zonasına daxil olsa da, Avropa Birliyinin üzvü deyil və "avro zonasında" təmsil olunmur. Odur ki, pul vahidi, həmişə olduğu kimi İsveç frankı olaraq qalır.

1848-ci ildə ilk demokratik konstitusiyanın qəbul edilməsindən və federal parlamentin yaradılmasından bu günədək İsveçrə sülh, sabitlik və daimi əmin-amanlıq şəraitində yaşayır. Hətta I və II Dünya müharibələri dövründə belə, İsveçrə ərazisi toxunulmaz olaraq qalmışdı. Ərazisi 41 284 km$^2$, əhalisi 8 236 600 nəfərdir. Ümumdaxili məhsulun həcmi 636 milyard, adambaşına düşən milli gəlirin həcmi isə 81 min ABŞ dolları təşkil edir. Hüquqi cəhətdən (de-yure) təsdiq olunmuş paytaxtı olmasa da, Bern şəhəri faktiki olaraq (de-fakto) ölkənin paytaxtı kimi tanınır. Dövlət başçısı Valter Thurnherrdir (federal kansler).

Bu gün İsveçrə (ing. *Switzerland*) kimi tanınan dünyəvi ölkə Qərbi Avropada yerləşir. Almaniya, İtaliya, Fransa, Avstriya və Lixtenşteynlə həmsərhəddir. Məhz bu fakt İsveçrənin əsl unikallığını təyin edən vacib məqamlardan biridir. İsveçə inzibati cəhətdən kantonlara (20 əyalət, 6 yarıməyalət) bölünür. Ölkənin adı ilk yaranmış üç əsas əyalətdən birinin (Şvits - qədim alman dilində "*suedan*" sözünün mənası "qazıb çıxarmaq" deməkdir) adı ilə bağlıdır. "*Confoederatio Helvetica*" isə ölkənin tarixi latın adından götürülmüşdür. Uzaq 1291-ci ildə formalaşmağa başlamış konfederasiya isə (lat. *con* - birlikdə, eyni, *foederatio* - ittifaq, birlik, öz suverenliyini tam saxlamış dövlətlərin birliyidir və belə qurumlarda hər dövlətin öz müstəqil hakimiyyət orqanları, qanunvericilik sistemi olur, ittifaqın kompetensiyasında isə müdafiə və xarici siyasət məsələləri qalır) XIV əsrdən "Şveytslend" adlanmağa başlayıb [17]. Ölkə ərazisində iki fərqli anklav mövcuddur: 1) Almaniyaya məxsus Byuzingen; 2) İtaliyaya məxsus Kampione de-İtaliya. Bu fakt da ölkədə mövcud olan yüksək təşəkküllü etnik-siyasi münasibətlər sisteminin olmasından xəbər verir.



Müasir İsveçrə ərazisində hər administrativ ərazinin, əyalətin və bölgənin müstəqil konstitusiyası və özəl qanunvericilik sistemi mövcuddur, lakin onlar federal konstitusiya ilə məhdudlaşdırılır. Sülh və müharibə məsələləri, xarici siyasət, ordu, dəmir yol, əlaqə, pul emissiyası, federal büdcənin təsdiqi kimi məsələlər federal hakimiyyət orqanlarının səlahiyyətlərinə aid sahələrdir.

Müasir İsveçrə Konfederasiyası tarix boyu linqvistik etnik və dini müxtəlifliklərin yanaşı yaşaması və bir-birilərini mədəni-siyasi baxımdan zənginləşdirməsi şəraitində formalaşmışdır. Bu gün ölkə əhalisinin 94%-ni köklü isveçrəlilər təşkil edir. Ölkədə ən iri dil qrupu alman-isveçrə dil qrupudur. Alman-isveçrəlilər ölkə əhalisinin 65%-ni təşkil edir. İkinci

yeri fransız-isveçrəlilər tutur. Onların sayı ölkə əhalisinin ümumi sayının 18%-nə bərabərdir. İtalyan-isveçrəlilər ölkə əhalisinin 10%-ni təşkil edir. İsveçrədə yaşayan retoromanların (romanşalar və ladinlər) sayı isə ölkə əhalisinin 1%-nə bərabərdir. Alman, fransız, italyan və retoroman dilləri İsveçrə Konfederasiyasının milli və rəsmi dövlət dilləridir. Qeyd etmək lazımdır ki, müasir İsveçrədə nə qədər yüksək təşəkküllü rifah cəmiyyəti, demokratik dəyərlərə əsaslanan etnik-siyasi münasibətlər sistemi qurulsa da, etnik-linqvistik zəmində potensial münaqişələr mövcuddur. Ən ciddi məsələ isə Yura kontonunun yaradılması ilə bağlıdır.

Bu gün İsveçrədə konfessional fərqlər linqvistik fərqlərlə üst-üstə düşmür. XVI əsrdə Avropada baş vermiş Reformasiya (katolik kilsəsində islahatların baş verməsi) dövründə Avropanın digər ölkələrində olduğu kimi, İsveçrədə də kilsə parçalanması baş vermişdi və ölkədə 1848-ci ilə qədər davam edən dini zəmində təlatümlər və qarşıdurmalar başlanmışdı. Müasir İsveçrədə isə bütün xristian əhalinin 49%-i katolik, o qədəri də protestantdır. Sürixdə, Bazeldə və Cenevrədə çox kiçik yəhudi icmaları mövcuddur.

Müasir İsveçrədə 400 min nəfərdən artıq müsəlman əhali yaşayır. Avropanın digər ölkələrində olduğu kimi çağdaş İsveçrədə də müsəlman miqrantlarla yerli xristian əhali arasında tam dinamik şəkildə inkişaf edən ideoloji konfrontasiya hökm sürür. Hətta 2009-cu ildə İsveçrədə keçirilən referendum nəticəsində ölkə ərazisində məscid və minarələrin inşasına qadağalar qolunmuşdur. Ölkədə heyvanların kövsər və halal üsullarla kəsilməsinə də ciddi sanksiyalar qoyulur (İsveçrənin xristian əhalisi bu üsulu çox antihumanist bir akt hesab edir). Son vaxtlar Avropaya miqrant axını ilə əlaqədar İsveçrədə yerli müsəlman icması ilə hökumət orqanları arasında müəyyən gərginlik müşahidə olunur. Məsələn, bir neçə il əvvəl Bazeldə İsveçrə vətəndaşı olmaq istəyən iki müsəlman qızın müraciəti rədd edilmişdi. Səbəb qızların oxuduğu məktəbdə məktəb proqramına əməl etmədikləri (oğlanlarla birlikdə üzgüçülük dərsləri zamanı məktəb hovuzunda üzməkdən imtina etmək) olmuşdu. Buna görə də 2012-ci ildə qızların valideynlərinə 1500 ABŞ dolları məbləğində cəza kəsilmişdi.

Bazeldə digər bir ərəb-müsəlman ailəsinin İsveçrə vətəndaşı olmaq məqsədi ilə etdiyi müraciətinin rədd edilməsi səbəbləri, onların şəhərdə idman paltarında gəzməsi, həm də xristian əhali ilə salamlaşmaması ilə əlaqədar olmuşdu. Hökumət orqanları belə hadisəni müsəlman ailəsinin İsveçrə cəmiyyətinə kifayət qədər möhkəm assimilyasiya və inteqrasiya olunmaması kimi qiymətləndirmişdilər.

Daha bir hadisə iki məktəbli müsəlman əslli oğlanın (iki qardaşın)

müəllimin (qadın) əlini sıxmaqdan imtina etmələri ilə bağlı olmuşdu (İsveçrə məktəblərində dostluq aktı kimi müəllimlə əl görüşmək vacib pedaqoji etiket hesab olunur). Məhz buna görə, Bazel məscidinin imamı olan şagirdlərin valideyninə İsveçrə vətəndaşlığı verilməsinə tam qadağa qoyulmuşdu. Qeyd etmək lazımdır ki, digər Avropa ölkələrindən ABŞ-dan və Kanadadan fərqli olaraq, İsveçrədə miqrantlara daimi vətəndaşlıq verilməsi prosedurunda ən vacib şərt, bu vətəndaşlığa iddia edən hər bir şəxsin İsveçrə cəmiyyətinə inteqrasiya olunmasıdır. Miqrantlar bütün davranışları və həyat tərzləri ilə tam sübut etməlidirlər ki, cəmiyyətə assimilyasiya olunublar və yerli adət-ənənələrə hörmət edirlər. Bununla əlaqədar “ ən cüzi neqativ ifadə” müraciətə “yox” deməkdir.

Bu yaxınlarda İsveçrədə yaşayan müsəlmanlar İsveçrənin aparıcı avia şirkəti olan “Swiss Air”-in reklam kompaniyasına qarşı çox ciddi etirazlarını bildirmişdilər. Səbəb, avia şirkətin “Xaç qələm kartı (kozır) deməkdir” (isveçrə. *Kreuz ist Trumpf*) kimi səslənən sloqanı (bir reklam devizi) olmuşdur. Ölkə müsəlmanları bu ifadəni özləri üçün təhqir hesab edərək, onun ləğv edilməsini tələb etmişdilər. Buna baxmayaraq, İsveçrə həmişə olduğu kimi bütün dünyanın ən sabit və dinamik inkişaf edən ölkələrindən biri olaraq qalır. Hətta ölkənin ümumi hərbi potensialı rəmzi xarakter daşıyır. İsveçrənin nizami ordusunun sayı 5 min nəfərdir. Hərbi xidmət müddəti isə 5 aydır. İsveçrə Avropada və dünyada cinayətkarlığın ən aşağı faiz göstəricisi olan bir ölkədir. ÜDM-in həcminə görə, İsveçrə dünya ölkələri sırasında 19-cu yeri, adambaşına düşən gəlirin həcminə görə isə ikinci (Qətərdən sonra) yeri tutur. Sosial sabitliyin tarixi ənənəyə çevrildiyi İsveçrə dünyanın bütün zəngin insanlarının özəl aktivlərini və sərvətlərini etibar etdikləri məkandır (İsveçrə bankları). Ölkənin bank sistemində 1934-cü ildən fəaliyyət göstərən “Bank fəaliyyəti haqqında” qanuna görə, ən yüksək təşəkküllü bank sirri bərqərar edilmişdir [18]. Bu gün İsveçrədə multikultural siyasi cəmiyyətin daha da inkişaf etdirilməsi istiqamətində aktiv işlər görülür. Lakin digər Avropa ölkələrində olduğu kimi İsveçrədə də miqrantlarla əlaqədar çoxlu sayda problemlər ortaya çıxmışdır. Bu, ilk növbədə müsəlman ölkələrindən köçüb gəlmiş əhalinin israrla yeni cəmiyyətə inteqrasiya olunmaq istəməmələri ilə bağlıdır.

Multikulturalizmi sosial hadisə və mədəni siyasət kimi tədqiq edən Pakistan alimi Sied Əli Rzanın sözlərinə görə, “Multikulturalizm ideal sistemdir. Bu sistem çərçivəsində daha effektli və unikal bir cəmiyyət yaratmaq məqsədi ilə, bir mədəniyyət digər mədəniyyətlə qovuşur” [19]. Ümumi cizgilərdə multikulturalizm digər mədəniyyətlərin assimilyasiya olunmadan inteqrasiyaya cəlb edilməsi aktıdır. Lakin bu gün Avropada, o

cümlədən İsveçrədə hökm sürən liberalizm Asiyadan gəlmiş miqrantların təmsil etdiyi dini-mədəni dəyərləri, xüsusilə də müsəlman mədəniyyətini assimilyasiya etmək kimi siyasət həyata keçirir. Əsasən patriarxal əxlaqi dəyərlər və ortodoksal dini ideologiya qismində təzahür edən müasir Şərq mədəniyyəti isə israrla buna müqavimət göstərir.

## 9.7. Multikulturalizmin Britaniya modeli (ing. *The British model of multiculturalism*)



Müasir Avropada etnik-siyasi münasibətlərin tənzimlənməsi istiqamətində gərginlik yaşayan ölkələrdən daha biri Böyük Britaniyadır (ing. *Great Britain*, yaxud *United Britain Kingdom* - Birləşmiş Britaniya Krallığı). Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı (ing. *The United Kingdom of Great Britain and Northern Ireland*) - ölkənin bütöv rəsmi adıdır. Ərazisi 243 890 km$^2$, əhalisi 65 milyon nəfərdir. Paytaxtı London şəhəridir. Ümumdaxili məhsulun tam həcmi 3 trilyon 247 milyard ABŞ dolları (dünyada 6 yer), adambaşına düşən illik gəlirin həcmi isə 36 min 119 ABŞ dolları (dünyada 20-ci yer) təşkil edir. Ölkənin pul vahidi funt-sterlinqdir (ing. *pound sterling* -1 funt (453,592 q.) gümüş) [20]. AB-nin bir üzvü olsa da, "avrozonaya" daxil deyil. Ölkə AB-yə daxil olan dövlətlərdən fərqli olaraq, milli valyutanı universal valyutaya (avro) dəyişməmişdir. Dövlət başçısı Tereza Meydir (baş nazir - 2016-cı il 13 iyul tarixindən).

Böyük Britaniya ittifaqı kontinental Avropadan şimal-qərbdə ada dövlətdir. Eramızın II əsrində Gec ellinizm dövrünün coğrafiyaşünası Klavdiy Ptolemey (b.e. 100-170) "Almagest" (ərəb. *al-kitabü-l-mijisti* - böyük düzüm) əsərində, ilk dəfə olaraq "Böyük Britaniya" anlayışından istifadə etmişdi. O dövrlərdə romalılar B.Britaniyanı "Dumanlı Albion" adlandırmışdılar. 1707-ci ildə Şotlandiyanın, İngiltərənin, Uelsin siyasi cəhətdən birləşməsi nəticəsində yaranmışdır. 1800-cü ildə ona sülalə ittifaqının nəticəsi kimi İrlandiya da qoşulmuşdur. 1922-ci ildə müstəqil İrlandiya Respublikasının yaranmasından sonra, ölkə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı adlanır. İnternet domeni "uk" kimi ifadə olunur.

Böyük Britaniya nüvə dövlətidir. Keçmiş Britaniya imperiyasının metropoliyasıdır.BMT Təhlükəsizlik Şurasının daimi üzvlərindən biridir. Parlamentli monarxiyadır. Britaniya monarxı (1952-ci ildən II Yelizaveta

-1926), həmçinin on beş müstəqil dövlətin və Millətlər Birliyinin başçısı statusuna malikdir. Bundan əlavə B.Britaniyanın tərkibinə dənizarxası 14 ərazi və 3 Kral torpağı daxildir. Bu ərazilərin ümumi sahəsi 1 745 654 km$^2$-ə bərabərdir. Bu ərazilərdə isə 260 min əhali yaşayır [21].

2016-cı ilin 3 iyununda Böyük Britaniyada keçirilən referendumun nəticələrinə görə, ölkə əhalisinin 51,9%-i Böyük Britaniyanın AB-dən çıxmasına (ing. *Brexit - Britain və exit*) səs vermişdi. Avropa Parlamenti ilə razılaşmalara görə, Böyük Britaniya 2019-cu ilin martına qədər AB-ni tamamilə tərk etməlidir.

Böyük Britaniyanın 65 milyonluq əhalisi ən müxtəlif millətlərlə və etnoslarla təmsil olunur. Ölkədəki ağdərili avropalıların ümumi sayı 56 milyon nəfərdir. Asiyalılar və Britaniya asiyalıları (əvvəllər Britaniya İmperiyasının tərkibində olan şərqi Asiya ölkələrinin mənsubları) Böyük Britaniya əhalisinin 4,5 milyon nəfərini təşkil edir. Onlardan hindlilər - 1,6 milyon, pakistanlılar -1,2 milyon, banqladeşlilər - 0,5 milyon, çinlilər - 0,5 milyon, digər asiyalılar isə - 870 min nəfərdir. Böyük Britaniyada yaşayan qaradərililərin ümumi sayı 2 milyon nəfər təşkil edir. Ən qarışıq nikahlardan doğulmuş qaradərililərin və etnik asiyalıların ümumi sayı 1,3 milyon, digər etnosların nümayəndələrinin ümumi sayları isə 600 min nəfərdir. Bu rəqəmlər Böyük Britaniyada olan etnik-mədəni və linqvistik mənzərənin necə mürəkkəb bir xarakterə malik olduğunu bütün reallığı ilə ifadə edir.

B.Britaniyanın tarixi əhalisi XI əsrə qədər bu ərazidə məskunlaşmış müxtəlif etnosların - keltlərin, romalıların, anqlo-saksların, vikinqlərin, normanların qovuşmasından və etnik-mədəni sintezindən yaranmışdır. Böyük Britaniyada reallaşdırılan genetik tədqiqatlar sübut etmişdir ki, müasir britaniya genlərinin 50%-ni german Y-xromosomları təşkil edir. Böyük Britaniyanın ərazisində XX əsrdə, eləcə də XXI əsrin əvvəllərində Asiyadan və Afrikadan köçüb gəlmiş miqrantlardan başqa, XVIII-XIX əsrlərdən burada yaşayan qaradərili, çinli və digər icmalar da mövcuddur [22]. Bu gün təkcə paytaxt London əhalisinin 30,4%-ni, Lester əhalisinin isə 37,4%-ni Avropalı və Britaniyalı olmayan əhali təşkil edir.

Böyük Britaniyada ingilis dili faktiki olaraq (de-fakto) rəsmi dil kimi qəbul olunsa da, ölkədə daha dörd qədim kelt dilindən - valli, irland, şotland və korn dillərindən istifadə olunur. Ölkə məktəblərində ingilis dili ilə yanaşı digər dillər, latın, şotland, valli, irland, həmçinin alman və fransız dilləri öyrədilir.

Böyük Britaniya özündə fövqəladə müxtəlifliklə tərənnüm olunan yüksək təşəkküllü mədəni dəyərləri təmsil edir. Bu, aşağıda qeyd olunan çoxlu sayda tarixi faktorların nəticəsidir: dövlətin adada yerləşməsi, onun qərb demokratiyasının əsl liderlərindən biri olması, dünyanın ən qüdrətli imperiyalarından biri kimi bir neçə əsr ərzində dünya mədəniyyətlərini öz orbitinə cəlb etməsi, xüsusilə də ölkənin, özəl və fərqli ənənələri, dini ideologiyası, vərdiş və rəmzləri olan dörd müxtəlif subyektdən (İngiltərə,



Şotlandiya, Uels, Şimali İrlandiya) ibarət olması. Bu müxtəliflik dini rəmzlər baxımından 1801-ci ildə təsdiq olunmuş Birləşmiş Krallığın bayrağında da (ing. *Union Jack*) aydın əksini tapmışdır. Bayrağın üzərindəki ağ fondakı qırmızı düz Müqəddəs Georgi (İngiltərənin himayədarı) xaçı İngiltərənin rəmzi, göy fonda olan ağ çarpaz Müqəddəs Andrey (Şotlandiyanın himayədarı) xaçı Şotlandiyanın rəmzi, bəyaz fonda tünd qırmızı çarpaz Müqəddəs Patrik (İrlandiyanın himayədarı) xaçı isə Şimali İrlandiyanın dini rəmzidir [23]. Yalnız Uelsin rəmzi olan Qırmızı əjdaha (valli. *Y Ddraig Goch*) Böyük Britaniya bayrağında öz əksini tapmamışdır.

Bu gün Britaniya əhalisinin 71,6%-i (43 milyon) xristian dininin mənsublarından ibarətdir. İslam dininə sitayiş edənlər isə ölkə əhalisinin 2,7%-ni (1 milyon 600 min), hinduizm əqidəsinin mənsubları 1%-ni (600 min), sihhi dininin mənsubları 0,6%-ni (336 min), yəhudaizm dininin mənsubları 0,5%-ni (267 min), buddizm dininin mənsubları 0,3%-ni (152 min), digər dinlərin mənsubları, ateistlər və dini inanclarını tamam gizli saxlayanlar isə 23,1%-ni (13 572 000) təşkil edir.

Britaniyada ən iri xristian konfessiyası anqlikan kilsəsidir (anqlikan kilsəsi protestantlığın özünəməxsus variasiyasıdır). Onun mənsublarının ümumi sayı 25 milyon nəfərdir. Anqlikan kilsəsi ölkə ərazisində yüksək səviyyəli rəsmi nüfuz sahiblərinin bilavasitə rəhbərliyi və nəzarəti altında fəaliyyət göstərir. Onun dünyəvi rəhbəri Britaniya monarxı, dini rəhbəri isə Kenterberi (İngiltərənin cənub-şərq hissəsində, Kent (lat. *Kantium*) qraflığında yerləşir) arxiyepiskopudur.

Ölkədə katoliklərin ümumi sayı 5,6 milyon, presviterianlar (yun. *presviteris* - böyük - protestantlığın əsas istiqamətlərindən biridir və Jan Kalvinin (1509-1564) təliminə əsaslanır) 1 milyon, əllincilər 1,2 milyon nəfərdir. Şim.İrlandiya əhalisinin 53%-ni anqlikan-protestantlar, 44%-ni katoliklər təşkil edir. Qalan 3% əhali isə başqa dinlərin mənsublarıdır.

Şotlandiya kilsəsi, əsasən presviterian-kalvinist kilsəsidir. Əsas anqlikan kilsəsindən fərqli olaraq, o, dövlətə və Britaniya monarxına tabe deyil. Birləşmiş Krallığın tərkibinə daxil olan subyektlər içərisində Şotlandiya dini tolerantlığın əsl nümunəsi kimi tanınır. Burada sülh, əmin-amanlıq şəraitində islam, iudaizm, buddizm, hinduizm, sihhizm və digər dinlərin, və dini konfessiyaların mənsubları yaşayır. Sosioloqlar iddia edirlər ki, yaxın gələcəkdə Böyük Britaniyada xristian əhali ilə müsəlmanların sayı bərabərləşəcəkdir.

Son vaxtlar Qərbi Avropanın digər ölkələrində olduğu kimi Böyük Britaniyada da etnik-siyasi və konfessiyalararsı münasibətlər sistemində yaranmış gərginlik çox ciddi diskussiyalara səbəb olmuşdur. 2011-ci ilin



fevral ayında Münhen Təhlükəsizlik Konfransında Britaniya Krallığının Baş naziri Devid Kemeronun (2010-2016) Britaniyada multikulturalizm siyasətinin iflasa uğraması haqqında çıxışı ölkədə olan etnik-konfessional gərginliyi daha da artırmışdı. Ölkə rəhbəri öz çıxışında vəd etmişdi ki, etnik-mədəni siyasətlə bağlı təcili, radikal dəyişikliklər edəcək və "passiv tolerantlığı", "əzələli liberalizm" əvəz edəcəkdir. Onun sözlərinə görə, bundan sonra submədəniyyətlərin ayrı, yaxud təcrid olunmuş şəkildə yaşamalarına əsla yol verilməyəcək, dilindən, dinindən və etnik mənsubiyyətindən asılı olmayaraq, bütün ölkə vətəndaşları üçün "ümumi milli kimlik" kodu yaradılacaqdır. Bu kodun əsaslarını isə bütün vətəndaşlar tərəfindən qəbul edilən ümumi dəyərlər - söz və vicdan azadlığı, liberal demokratiya, qanunun aliliyi, hər hansı fərqliliklərə baxmayaraq, hər kəsin bərabər hüquqlara malik olması təşkil etməlidir.

Bu sahədə həyata keçirilən ilk böyük tədbir immiqrasiya siyasətinin sərtləşdirilməsi oldu. AB-yə daxil olmayan bəzi ölkələrdən B.Britaniyaya gəlmək istəyən şəxslərə vizalar verilməsi işinə məhdudiyyətlər qoyuldu. Ölkəyə işləmək üçün gələn immiqrantlardan isə ingilis dilini, Britaniya tarixini və mədəniyyətini bilmələri tələb olunmağa başladı.

Böyük Britaniyanı öyrənən bir çox tədqiqatçılar və ekspertlər hesab edirlər ki, ölkə sosial baxımdan son əsrlər ərzində yanaşı yaşayan və eyni zamanda muxtar etnik-dini anklavlar kimi formalaşmış subyektlərdən ibarət bir konqlomerata (lat. *conglomeratus* - toplanmış, sıxlaşdırılmış - müxtəlif subyektlərin müəyyən tipli prinsiplər əsasında birləşdirilməsi) çevrilmişdir. Bunun əsas səbəbini isə ekspertlər sərt şəkildə ifadə olunan

ingilis-sakson sosial-iqtisadi inkişaf modelinin nəticəsi kimi izah edirlər.

Multikulturalizm Avropanın başqa ölkələrində olduğu kimi Böyük Britaniyada da XX əsrin 70-80-ci illərində dövlət siyasəti səviyyəsinə qaldırılmışdı. Ekspertlər iddia edirlər ki, multikulturalizm, əslində uzun müddətdir ki, Britaniya milli mədəniyyətinin üzvi və ayrılmaz hissəsinə çevrilmişdir.

1997-ci ildə Böyük Britaniyada siyasi hakimiyyətə gəlmiş leyborist partiyasının nümayəndəsi **Toni Bler** (1997-2007) multikulturalizmi milli



siyasət elan etmişdi. Lakin 2001-ci ilin 11 sentyabrında Nyu-Yorkda və 2005-ci ilin 7 iyulunda Londonda müsəlman radikalistlər tərəfindən törədilən terror aktlarından (2005-ci ilin 7 iyul tarixində London körpüsündə, London metropolitenində və avtobusda baş vermiş və 52 nəfər insanın həlak olması, 700 nəfərin yaralanması ilə nəticələnən seriya partlayışlar) sonra Britaniya hökuməti bu siyasətdən geri çəkilməyə başladı. Bu neqativ tendensiyanın məntiqi nəticəsi isə Britaniya rəsmisinin (Devid Kemeron) 2011-ci ildə yüksək tribunadan “multikulturalizmi iflasa uğramış siyasət” elan etməsi oldu. Qeyd etmək lazımdır ki, Londonda terror aktları 2015-ci, 2016-cı və 2017-ci il illərdə dəfələrlə təkrar olunmuşdur.

Buna baxmayaraq, bu gün Böyük Britaniya cəmiyyəti Avropada və dünyada ən tolerant və multikultural cəmiyyətlərdən biri kimi tanınır. Multikulturalizmlə Britaniya liberalizminin sintezindən yaranmış yüksək təşəkküllü mədəni siyasətə rəğmən, Afrikadan və Asiyadan gəlmiş çoxlu sayda miqrantları B.Britaniya mədəniyyətinə inteqrasiya etmək və onları müasir elmi-texniki tərəqqi yoluna çıxarmaq mümkün olmuşdur.

“Britaniya” və britaniyalı” anlayışları mültikulturalizm siyasətini



uğurlu tərzdə həyata keçirmək kimi məsuliyyətli, fövqəladə və mühüm işdə, sırf inteqrativ ideya qismində xüsusi əhəmiyyət kəsb edir. Çünki o, ayrılıqda B.Britaniya adalarında yaşayan hər hansı bir xalqın etnik əlamətini ifadə etmir və “Britaniya” dedikdə xristian, yaxud müsəlman, katolik, yaxud protestant, ingilis, sakson, şotland, irland, yaxud valli başa düşülmür. “Britaniya” anlayışı, ilk növbədə iqtisadi, siyasi və mədəni cəhətdən yüksək təşəkküllü birlik kimi assosiasiya olunur.

Məhz B.Britaniya məfkurəsi “Üçüncü dünya” ölkələrindən buraya mühacirət etmiş milyonlarla insanı yeni, postmodern mədəniyyət yoluna çıxarmış və onlara əsl azadlıqlar və demokratiya bəxş etmişdir. Həm öz mədəni dəyərlərini, həm də Britaniya mədəniyyətini zənginləşdirmək və inkişaf etdirmək üçün şərait yaratmışdır. Qaradərili idmançı, boks üzrə dünya çempionu Lenoks Lyuis, hal-hazırda boks üzrə dünya çempionu, qaradərili Entoni Coşua, bütün dünyada məşhur olan Pakistan əsilli pop musiqiçi **Zeyn Malik,** Yamayka əsilli aktyor Adrian Lester, Pakistan



əsilli yazıçı Hənif əl-Qureyşi, Nobel mükafatı laureatı, hind mənşəli Vadiadhar Surac Naypol, Mumbay əsilli Salman Rüşdi, Afrika mənşəli müğənni Şade, Zanzibar mənşəli dünya şöhrətli müğənni **Fərrux Bulsara (Freddi Merkuri – 1946-1991),** hind mənşəli bəstəkar Nitina Soni və b. böyük bir siyahının cüzi bir hissəsidir. Bu gün dünyanın maliyyə-iqtisadi və siyasi-mədəni mərkəzi statusunu qazanmış Londonun merinin 2016-cı il tarixindən Belucistan (İranın, Əfqanıstanın və Pakistanın ərazisində tarixi əyalət) əsilli, 46 yaşlı müsəlman **Sadik Aman Xan,** 2009-cu il tarixindən Britaniya Parlamentinin İcmalar Palatasının spikerinin yəhudi əsilli 54 yaşlı Con Berkou olması, “Britaniya” məfkurəsinin necə bir qüdrətli inteqrativ fenomen kimi özünü təsdiq etməsini bir daha sübut edir.





Minillik şanlı tarixi olan, bəşəriyyətin sosial-iqtisadi və ictimai-siyasi inkişafının lokomotivlərindən biri kimi tanınan, I və II Dünya müharibələrindən mütləq qalib kimi çıxmış və bu gün qlobal siyasətin avanqard rolunu həyata keçirən B.Britaniya xalqı, bütün çətinliklərə və etnik-dini zəmində yaranmış gərginliklərə baxmayaraq, özəl tarixi təcrübəsinə və liberal siyasət ənənələrinə arxalanaraq, yüksək təşəkküllü multikultural cəmiyyət qurmaq işində öz uğurlu fəaliyyətini davam etdirir.

## 9.8. Assimilyasiya, izolyasiya, inteqrasiya və multikulturalizm (ing. *Assimilation, isolation, integration and multiculturalism*)



XIX-XX əsrlərdə çağdaş dünyanın siyasi xəritəsinin ən kəskin şəkildə dəyişməsi və siyasi səhnəyə çoxlu sayda milli dövlətlərin çıxması cəmiyyətin sosial-mədəni və etnik-siyasi birliyinin yeni, daha optimal üsullarla tənzimlənməsi məsələsini gündəmə gətirdi. Xalqlar, cəmiyyətlər, dövlətlər və beynəlxalq qurumlar insanların sosial, mədəni, iqtisadi və siyasi birliyini təmin etmək üçün yeni yollar, üsullar, metodlar axtarmağa başladılar. Lakin heç də bütün milli dövlətlər və siyasi birliklər bu vacib tarixi vəzifəni yüksək təşəkküllü sülh, razılıq və əsl üzvi birlik yaradan metodlarla reallaşdırmaq niyyətində deyildilər və “məsələni kökündən həll etmək üçün daha asan yollar” axtarırdılar. Belə cəmiyyətlərdə mövcud olan bol etnik, sosial, dini və mədəni müxtəliflik, davamlı olaraq real, yaxud potensial gərginlik, müxtəlif cür xarakterli və miqyaslı qarşıdurmalar yaratdığı üçün, tədricən sosium təbii xarakterini dəyişərək, ciddi münaqişələri olan cəmiyyətə çevrilməyə başlayırdı. Bu isə sosial birliyin mövcudluğu üçün birbaşa təhlükə kimi təzahür edirdi.

Güclü superetnoslar tərəfindən etnik-milli azlıqların hüquqlarının məhdudlaşdırılması kimi hadisə elmdə **“etnik diskriminasiya”** adlanır. Konkret cəmiyyətdə etnik **diskriminasiya** (lat. *discriminatio* - pozmaq - irqi, dini, sosial və digər əlamətlərinə görə insan hüquqlarının pozulması aktı) təbii olaraq, “xroniki gərginlik sindromu” yaradır və o, bir qayda olaraq, dövlət səviyyəsində dəstəklənən etnoslararası münasibətlərin əsl neqativ təzahürüdür. Adətən o, bütün etnik azlıqlara münasibətdə həyata keçirilir. Sosiumda etnik diskriminasiyanın səviyyəsi isə burada mövcud olan çeşidli adət-ənənələrin, vərdişlərin, stereotiplərin, önmühakimələrın və davranış modellərinin xarakterindən asılıdır. Etnik diskriminasiyanın qlobal xarakterini nəzərə alaraq, Beynəlxalq Millətlər Təşkilatı 1966-cı ildə 2142 (XXI) №-li Qətnamə qəbul etmiş və nəticədə mart ayının 21-ni “Beynəlxalq irqi ayrı-seçkiliyin ləğv edilməsi günü” elan etmişdi.

XX əsrdə dinamik şəkildə cərəyan edən sosial-iqtisadi, ictimai-siyasi və etnik-mədəni proseslərin fonunda milli birliklərin strukturunun və məzmununun tənzimlənməsinin 4 xarakterik modeli formalaşmışdır: 1. Assimilyasiya modeli. 2. İnteqrasiya modeli. 3. İzolyasiya modeli. 4. Multikulturalizm modeli.



**I. Assimilyasiya modeli.** XX əsrdə formalaşmış etnik və siyasi münasibətlər sistemində milli dövlətlərin siyasi birliyinə xidmət edən ən geniş yayılmış üsullardan biri assimilyasiya üsuludur. Assimilyasiya üsulu (lat. *assimilatio* - uyğunlaşdırmaq) dominant mədəniyyət və əsas etnik birlik (titul millət) tərəfindən etnik azlıqların, qrupların və mədəni birliklərin mənimsənilməsini nəzərdə tutur.

Sosiologiyada və yaxud etnoqrafiyada assimilyasiya sosiumun bir qisminin öz etnik, mədəni, dini və başqa tip özəlliklərini itirməsi və onu sosiumun digər bir qismindən (adətən etnik-siyasi cəhətdən daha güclü qismindən) əxz etdiyi elementlərlə əvəz etməsi kimi izah olunur. Bəzən bu fenomeni etnosun əvvəllər dil, din və mədəniyyət baxımından başqa birliyi təmsil edən fərqli qrupunun özünüdərk prosesində etnik-mədəni sıçrayışı kimi də qiymətləndirirlər. Lakin assimilyasiya situasiyadan asılı olaraq, könüllü, eləcə də məcburi ola bilər. Könüllü assimilyasiya azsaylı etnosların mədəni cəhətdən daha yüksək təşəkküllü etnoslara meylliliyi, millətlərarası və konfessiyalararası nikahlar və digər formalarda ifadə olunur. Məcburi assimilyasiya zamanı isə superetnos hərbi anneksiya, azsaylı etnosun bir hissəsini soyqırıma məruz qoymaq, köçürmə, etnik mədəniyyətlərin, linqvistik özəlliklərin sıxışdırılmasına istiqamətlənmiş qanunvericilik aktları və digər zorakı üsullar vasitəsi ilə etnik obyektin spesifik obrazını öz maraqlarına uyğun şəkildə dəyişməyə çalışır.

XX əsrdə assimilyasiyanın ən geniş yayılmış təzahürlərindən biri Afrika, Asiya və Latın Amerikası ölkələrindən, həmçinin keçmiş SSRİ məkanından Avropaya və Şimali Amerikaya köçüb gəlmiş miqrantların yeni mühitə uyğunlaşdırılması ilə bağlı ümumi tədbirlər sistemi idi. Belə mürəkkəb prosedurlar nəticəsində miqrantlar tamamilə yeni bir məkana inteqrasiya olunur, çox vaxt öz etnik kimliklərini və mədəni ənənələrini tamamilə unudurdular.

İmmiqrantların yeni mühitə assimilyasiya olunmasının dörd əsas göstəricisi vurğulanır: 1. Yeni mühitdə vacib sosial-iqtisadi statusun əldə olunmasına güclü meyllərin olması. 2. Mentalitetə və düşüncə tərzinə radikal şəkildə təsir göstərən yeni coğrafi mühit. 3. Yeni məkanda əsas ünsiyyət vasitəsi olan dilin yüksək səviyyədə mənimsənilməsi. 4. Qarışıq nikahlar.

Görkəmli ABŞ sosioloqları (Uilyam Klark və b.) iddia edirlər ki, immiqrantların assimilyasiya olunması “Amerika cəmiyyətinin sosial

dinamikasının ölkəyə yeni gələnlər tərəfindən dərk olunması aktıdır. O, böyük etnosla kiçik qrupların arasında bədahətən və konkret məramlar olmadan baş verir" [24].

Məlum olduğu kimi XX əsr kütləvi immiqrasiya erası kimi yadda qalmışdır. XIX əsrin sonunda, xüsusilə də XX əsin əvvəllərində, təkcə ABŞ-a dünyanın müxtəlif regionlarından və ölkələrindən 25 milyondan artıq miqrant gəlmişdi. Bu proses XX əsrin sonrakı dövrlərində də eyni dinamika ilə davam etmişdi. Soyuq müharibə dövründə (XX əsrin 50-80-ci illəri), təkcə 1 milyondan artıq yəhudi Avropaya, ABŞ-a (400 min), Kanadaya (30 min), Almaniyaya (130 min) mühacirət etmişdi [25].

Bu gün mono-mədəni millət, dövlət-millət kimi fransızların həyata keçirdikləri etnik siyasəti assimilyasiya modelinin parlaq nümunəsi hesab etmək olar. Qeyd etmək lazımdır ki, Böyük Fransa İnqilabından (14 iyul 1789 - 9 noyabr 1799) sonra, Fransa dövləti bu günə qədər düşünülmüş və məqsədyönlü şəkildə mədəni universallaşdırma siyasəti həyata keçirir, etnik və dil müxtəlifliyini aradan tam qaldırmağa, dünyəvi və vətəndaş respublikası qurmağa çalışır.



**II. İzolyasiya modeli.** Cəmiyyətdə etnik və mədəni münasibətlərin tənzimlənməsinin diskriminasiya xarakterli metodlarından biri də izolyasiyadır. İzolyasiya (fr. *Izolation* - ayırmaq) hakimiyyət tərəfindən hər hansı etnik qrupun, yaxud dini birliyin müxtəlif üsullarla təcrid olunmasını nəzərdə tutur. İzolyasiya hər hansı dövlətin ölkə ərazisində yaşayan müəyyən qrup əhaliyə qarşı irqi seqreqasiyasını (lat. *segregatio* - ayrılmaq - əhalinin müəyyən qrupunun məcburi şəkildə cəmiyyətdən təcrid edilməsi, adətən dini və irqi diskriminasiyanın bir forması kimi təzahür edir) reallaşdıran düşünülmüş etnik-siyasi bir tədbir kimi təzahür edir. İzolyasiya, yaxud seqreqasiya, adətən zorakı üsullarla həyata keçirilir. Seqreqasiyanı hər bir əlamətinə görə, Cənubi Afrika Respublikasında rəsmi dövlət siyasəti olan aparteidin tam analoqu hesab etmək olar [26]. Beləliklə, izolyasiya vahid bir məkanda daha güclü linqvistik, etnik, yaxud milli faktorlar tərəfindən digər, daha zəif birliklərin cəmiyyətin ümumi iqtisadi, siyasi və mədəni həyatından tam təcrid olunması aktıdır. O, coğrafi və siyasi əlamətlərlə şərtlənən hadisələrin nəticəsi olaraq, həm təbii prosesin, həm də dövlətin təcridetmə siyasətinin reallaşdırılması kimi ifadə olunur.

XX yüzillikdə etnik izolyasiya siyasətinin faşist Almaniyasında yəhudiləri cəmiyyətdən təcrid etmək məqsədi ilə xüsusi düşərgələr və

kvartallar kimi təşkil edilmiş gettolar (ital. *Ghetto-nuovo* - *yeni lehim sexi*), CAR-da ağdərili əhali tərəfindən rəsmi şəkildə həyata keçirilən irqi seqreqasiya siyasəti olan aparteid (afr. *Apartheid* - ayrıca) çərçivəsində qaradərili əhalinin tam təcrid olunması məqsədi ilə yaradılmış “bantular”, yaxud “bantustan” [27], ABŞ-da, Meksikada, Kanadada, C.Amerikada yerli hindulara ayrılmış, mərkəzi kommunikasiyalardan uzaq olan və əsas etibarı ilə “rançeriya”, yaxud “pueblo” adlanan xüsusi məkanlar və s. kimi ifrat formaları mövcud olmuşdur.



**III. İnteqrasiya modeli.** Etnik siyasi tənzimləmə sistemində inteqrasiya üsulunun xüsusi rolu və əhəmiyyəti danılmazdır. Bu modelin başlıca məqsədi vahid bir məkanda yaşayan bütün etnik-mədəni birliklərin və icmaların kimliklərinin müəyyən mənada qorunması ilə vahid sosium yaratmaqdan ibarətdir. İnteqrasiya modeli ümumi vizual cizgilərdə multikulturalizm siyasətinin bəzi elementlərini xatırladır. Lakin bu model ictimai-siyasi, etnik-mədəni və fərdi sferalar arasında ciddi bölgünü nəzərdə tutur. Birinci sferada cəmiyyətin bütün üzvlərinin vətəndaş kimi bərabərliyi ifadə olunur. İkinci sfera isə etnik, mədəni, dini və digər ölçüləri əhatə edir və onları hər kəsin şəxsi və xüsusi işi olduğunu hesab edir. Qeyd etmək lazımdır ki, bu model də dolayı, yaxud gizli yolla etnik, mədəni və linqvistik müxtəlifliyin tədricən silinməsinə istiqamətlənmiş siyasət kimi təzahür edir. Bu modeli dəstəkləyən dövlətlərin mənsubları “etnik millət” kimi xarakterizə olunur. Belə modelin parlaq nümunəsi kimi Almaniya Federativ Respublikasını göstərmək olar. Ümumi mənada inteqrasiya (lat. *integratio* - birləşmə) ayrı-ayrı müstəqil hissələrdən bir bütövün yaradılması prosesidir. Etnik, yaxud milli aspektlə bağlılığına gəldikdə isə o, etnik birliklərin yaxınlaşması və qovuşması kimi ifadə olunur. Etnik inteqrasiya bir tərəfdən millətin, yaxud xalqın iqtisadi, siyasi və mənəvi cəhətdən dirçəlişi və inkişafı, həmçinin siyasi millətin bərqərar olması kimi pozitiv mövqedən qiymətləndirilirsə,digər bir tərəfdən onun, milli azlıqların əsas mədəni özəlliklərini, adət-ənənələrini, dillərini və inanclarını qorumaq məsələsini onların öz ixtiyarına buraxan “pozitiv etinasızlıq” olması ortaya çıxır. Belə situasiyalar tədricən başqa etnik qruplara münasibətdə radikal intolerantlıq, onların spesifik dəyərlərini və həyat tərzini tam qətiyyətlə qəbul etməmək kimi təzahür edən “etnik desentralizasiya sindromu” yaradır. Nəticədə, bu proses izolyasionizm və etnofanatizm kimi radikal ünsürlərin formalaşmasına səbəb olur [28].



**IV. Multikulturalizm modeli.** Davamlı olaraq sarsılmaz təməllərə əsaslanan etnik və siyasi birliklərin yaradılmasında daha bir spesifik vasitə multimədəni etnik siyasətin sistemli üsullarla reallaşdırılması aktıdır. Sözügedən fenomen müasir leksikonda “multikulturalizm” kimi tanınır və demokratizm, liberalizm, etnik plüralizm və yüksək təşəkküllü tolerantlığın sintezindən yaranmış yeni humanist dünyagörüşü qismində təzahür edir. O, müasir münaqişəli cəmiyyətdə ortaya çıxan müxtəlif xarakterli qarşıdurmaların tənzimlənməsində, mütləq razılığa əsaslanan həqiqi vətəndaş cəmiyyətinin qurulmasında ən effektli vasitə, alternativi olmayan sülhyaradan mexanizm kimi özünü təsdiq etmişdir. Vahid və yüksək inteqrativ gücə malik olan məfkurə olmadan multikulturalizm ideyalarını praktikada reallaşdırmaq əsla mümkün deyil. Həm də konkret sosium bu məfkurəyə diqtə, göstəriş yolu ilə deyil, düşünülmüş şəkildə istiqamətlənməlidir. Bu şərtlərin olmaması, multimədəni siyasətin etnik assimilyasiyanın liberal formasına, yeni siyasi inteqrasiyanın sərt, zorakı tipinə, yaxud etnik izolyasiyanın məcburi və könüllü növlərindən birinə çevrilməsi ilə nəticələnəcəyi qaçılmazdır. Multikulturalizm, sözün əsl mənasında assimilyasiya, izolyasiya və inteqrasiya modellərini dəf edən, milli-mədəni məsələlərin daha əlverişli həllini nəzərdə tutan ən optimal yoldur. Bu modelin əsasını konkret məkanda bütün etnik azlıqlar, dini konfessiyalar, sosial qruplar və mədəni birliklər üçün bərabər və layiqli imkanların, onların hərtərəfli inkişafı üçün münbit şəraitin yaradılması təşkil edir. Bu modelin əsas prinsipləri səmimi hörmət, insani mərhəmət, qarşılıqlı yardım, sarsılmaz mədəni dialoqdan ibarətdir. Multikulturalizm hər hansı təsadüfi elementlərdən uzaq olan, mütləq xarakterli mütərəqqi, qanunauyğun, ümumbəşəri dəyərlərə söykənən təlimdir. Nəzəri cəhətdən onun əsas məqsədi bir tarixi məkanda əsrlərlə yanaşı yaşayan bütün xalqların ləyaqətli həyatını - hüquq və azadlıqlarını təmin etmək üçün elmi baza yaratmaqdır. Lakin multikulturalizm təkcə nəzəri təlim deyil. Etnik azlıqların və dini icmaların fəaliyyəti və inkişafı üçün real sosial-iqtisadi şəraitin, əsl tolerant etnik-mədəni və əxlaqi-mənəvi yeni mühitin yaradılması praktikasıdır. Multikulturalizm tamam düşünülmüş siyasətə əsaslanan bir insanlıq aktıdır. Filantropiyanın alicənablıqla sintez təşkil etdiyi spesifik fenomendir, çağdaş bəşəriyyətin tam təhlükəsiz gələcəyinə hesablanmış ən mütərəqqi fəaliyyət növüdür.

## 9.9. Qərb multikulturalizminin müasir vəziyyəti: problemlər və perspektivlər (ing. *The current state of Western multiculturalism: problems and perspectives*)



Bu gün Qərb dünyasında baş verən etnik-mədəni proseslər Şərq və Qərb mədəniyyətlərinin ən yeni rakursda toqquşması, qlobal siyasətin nəticəsi kimi Yaxın və Orta Şərqdən, eləcə də Şimali Afrikadan Avropaya və Şimali Amerikaya kütləvi miqrant axını və digər etnik-siyasi xarakterli hadisələr qərb adamının, xüsusilə də siyasət mənsublarının multikulturalizm fenomeninə münasibətini radikal şəkildə dəyişdirmişdir. Qeyd etmək lazımdır ki, Avropaya miqrantların kütləvi axını orta əsrlər, yeni və ən yeni tarix ərzində dəfələrlə baş vermişdir. Bu siyahıya aşağıdakı hadisələrlərlə bağlı baş vermiş əhali axınları aiddir: E. 70-ci ilində Yəhudi çarlığının dağılması ilə Avropaya yəhudilərin kütləvi köçü. VII-X əsrlərdə ərəblərin işğalları zamanı Yaxın və Orta Şərqdən xristianların və bütpərəstlərin Avropaya axınları. XI-XII əsrlərdə səlcuq yürüşləri zamanı Yaxın Şərqdən hicrət edənlərin Avropada yerləşməsi. XIII-XIV əsr-də monqol işğalları zamanı xristianların, müsəlmanların və bütpərəstlərin monqol zülmündən qaçaraq Avropaya sığınması. XV əsrdə Osmanlıların Konstantinopolu fəth etmələrindən sonra Bizans əhalisinin kütləvi miqrasiyası. Osmanlı ekspansiyası nəticəsində Cənubi və Şərqi Avropada müsəlmanların məskunlaşması. Səfəvi-Osmanlı müharibələri nəticəsində, səfalətdən qaçan əhalinin Avropada yerləşməsi. XX əsrdə I və II Dünya müharibələrindən sonra Avropaya ucuz işçi qüvvəsi cəlb etmək üçün "Açıq qapı" siyasətinin nəticəsi kimi Şərq ölkələrindən - Koreya, Çin, Hindistan, Pakistan, Misir, Əfqanıstan, İran, İraq, Türkiyə, Ərəbistan y-sı və Afrika ölkələrindən miqrantların kütləvi axını. Sovet ordusunun Əfqanıstana müdaxiləsi (1979) və İran İslam İnqilabı (1979) nəticəsində (həmçinin ABŞ-a və Kanadaya) əhalinin kütləvi miqrasiyası. Keçmiş Sovet ittifaqının dağılması nəticəsində Avropaya (həmçinin,ABŞ və Kanadaya) miqrant axınları. 2003-cü ildə ABŞ-ın İraqa hərbi təcavüzü nəticəsində kütləvi miqrant axını. 2011-ci ildə "Ərəb baharı" nəticəsində Yaxın Şərq və Afrika ölkələrindən Avropaya miqrant axınları. Nəhayət 2014-cü ildə İraq Şam İslam Dövlətinin (İŞİD, İD) yaranması və İraqda, Suriyada, Liviyada və digər məkanlarda irimiqyaslı hərbi əməliyyatların

tüğyan etməsi ilə başlanan yeni miqrant axınları.

Həmişə olduğu kimi, bu gün də Qərbdə Şərq ölkələrindən gələn miqrantların qəbul edilməsi üzrə dünya lideri ABŞ-dır. Bu sahədə ikinci yeri isə Almaniya tutur. 2017-ci il üçün Almaniya əhalisinin 12 milyon (Almaniya əhalisinin ümumi sayı 83 milyon nəfərdir) nəfərini miqrantlar təşkil edir. Bu isə Almaniya əhalisinin 13%-i deməkdir.

Avstraliyada miqrant kateqoriyasına daxil olan əhalinin sayı ölkə əhalisinin sayının (Avstraliya əhalisinin ümumi sayı 25 milyon nəfərdir) 16%-ni, İsveçdə (İsveç əhalisinin ümumi sayı 10 milyon nəfərdir) 15%-ni, Fransa (Fransa əhalisinin ümumi sayı 67 milyon nəfərdir) və Böyük Britaniyada (Böyük Britaniya əhalisinin ümumi sayı 65 milyon nəfərdir) isə 12%-ni təşkil edir.

Onu da qeyd etmək lazımdır ki, XXI ə. əvvəllərindən Nyu-Yorkda Ümumdünya Ticarət Mərkəzinin qoşa binalarına hücumla başlamış (11 sentyabr 2001-ci il) və "islam fundamentalizminin Qərb sivilizasiyasına təcavüzü kimi qiymətləndirilən" bütün məlum hadisələr Qərb siyasətinin Şərqdə, xüsusilə də müsəlman dünyasında həyata keçirdiyi təcavüzkar siyasətin əsas nəticəsi kimi xarakterizə olunur. Necə deyərlər, "karma fəlsəfəsi", "nə tökərsən aşına, o da çıxar qaşığına" kimi həqiqətlər özünü gözlətmədən büruzə verir. Qərb siyasətçiləri isə bu həqiqəti etiraf etmək əvəzinə, "bütün günahları keçinin üstünə atmaq" taktikasına üstünlük verir və hər bir uğursuzluğun multikulturazim siyasəti ilə bağlı olduğunu bütün dünyaya bəyan edirlər.

2010-2011-ci illərdə başlanmış "Ərəb baharı" ilə əlaqədar Misirdə, Liviyada, Tunisdə, Yəməndə, Suriyada baş verən vətəndaş müharibələri, təkcə Yaxın Şərqdə və Afrikada deyil, bütün dünyada gərginliyi ən son həddə çatdırdı. Hərbi əməliyyatların baş verdiyi ərazilərdən Avropaya və Amerikaya kütləvi miqrant axını başlandı [29]. Qərb, xüsusilə də Avropa miqrantların ilk dalğasını böyük entuziazmla (lat. *enthusiasmus* - ruh yüksəkliyi) qarşılasa da, tezliklə məlum oldu ki, patriarxal, hətta radikal əlamətləri ilə Şərq və ərəb-müsəlman mədəniyyətinin postmodern Qərb mədəniyyəti ilə uzlaşması, diaqonal şəkildə tamamilə bir-birinə zidd olan əqidələrin və dünya baxışlarının inteqrasiyası haqda heç bir söhbət gedə bilməz. Beləliklə, transhumanizm ideyaları ilə bəhrələnmiş Qərb adamı bir anda orta əsr patriarxallığının, radikal intolerantlığın və barışmazlığın şahidinə çevrildi. Təmizkar, hər gün ən azı üç dəfə gigiena prosedurlarını mütləq şəkildə yerinə yetirən, təmkinli, tolerant və sülhsevər Şərq adamı haqqında bütün pozitiv stereotiplər darmadağın oldu, kütləvi məyusluq sindromu, peşmançılıq kompleksi yarandı. Beləliklə, mültikulturalizm

ideyaları yalnız neqativ aspektlərdə təhlil olunmağa başladı. Hətta Qərb siyasətinin çox tanınmış personaları belə, öz şəxsi emosiyalarını gizlədə bilməyərək, multikulturalizmə olan antipatiyalarını yüksək tribunalardan səsləndirməyə başladılar. İlk **“**rəsmi etiraf” Almaniya kansleri **Angela Merkel**dən (2005-ci ilin 22 noyabrından Almaniya kansleridir) 2010-cu il 18 oktyabr tarixində gəldi. A. Merkel Almaniya Xristian-Demokratik İttifaqının (XDİ) üzvləri ilə görüşündə qeyd etdi ki, “Almaniyada əsl



multikultural cəmiyyət yaratmaq cəhdləri iflasa uğramışdır. Hal-hazırda prinsipləri üzrə yanaşı yaşamaq istədiyimiz və bu faktla da özümüzü xoşbəxt sandığımız konsepsiya işləmir”. Kansler açıq mətnlə elan etmişdi ki, ölkədə mühacirlər alman cəmiyyətinə mütləq inteqrasiya olunmalı, alman mədəniyyətini və onun dəyərlərini qəbul etməlidirlər. Bu sözlər o ölkənin lideri tərəfindən deyilirdi ki, orada cəmi 70 il bundan əvvəl siyasi hakimiyyətə, bütün çağdaş dünyanı lərzəyə gətirmiş və bəşəriyyəti misli görünməmiş qlobal fəlakətə gətirib çıxarmış qatı millətçilər - faşistlər gəlmişdi.

A.Merkelin çıxışını nümunə kimi qəbul edən B.Britaniyanın baş naziri **Devid V. Kemeron** (2010-2016-cı illərdə B.Britaniyanın baş naziri olmuşdur) 5 fevral 2011-ci il tarixində Münhendə keçirilən Təhlükəsizlik üzrə Beynəlxalq Konfransda multikultural siyasət haqqında demişdi: “Böyük Britaniyada müsəlman əsilli gənclər öz valideynlərinin praktikada



əməl etdikləri ənənəvi islam mədəni dəyərləri ilə özlərini çox çətinliklə assosiasiya edirlər. Eyni zamanda həmin gənclər, eləcə çətinliklə özlərini Britaniya mədəniyyətinə uyğunlaşdırırlar. Bu isə ona görə baş verir ki, biz (britaniyalılar) zaman-zaman özümüzün əsas kollektiv kimliyimizin zəifləməsinə yol vermişik. Biz onlara (yəni miqrantlara, Şərq xalqlarının mənsublarına) bir hissəsi olacaqları cəmiyyətimizin həqiqi obrazını təklif edə bilməmişik. Biz ayrı-ayrı icmalar tərəfindən dəyərlərimizə tamamilə zidd davranışlara, həddindən artıq yüksək dözümlülüklə yanaşmışıq”. Onu oeyd etmək lazımdır ki, hələ 2007-ci ildə İngiltərədə keçirilən sosial sorğunun nəticələrinə görə, Britaniya müsəlmanlarının ¾ hissəsi qeyd etmişdi ki, “onlara başqa ölkələrdə yaşayan müsəlmanlar, çiyin-çiyinə yaşadıqları ingilis vətəndaşlardan daha yaxındır”.

Bir neçə gündən sonra Böyük Britaniya liderinin mövqeyini Fransa prezidenti **Nikolya Pol Sarkozi** (2007-2012-ci illərdə Fransa prezidenti



olmuşdur) də dəstəklədi. O, 12 fevral 2011-ci il tarixindəki çıxışında bununla əlaqədar demişdi: "Mənim fikrim şübhəsiz - "hə", multikulturalizm uğursuzluqdur. İcmaların sadəcə yanaşı yaşadıqları bir cəmiyyət bizə lazım deyil. Biz ölkəmizə gələn şəxslərin kimliklərinin tam qayğısına həddindən artıq qaldığımız halda, onları qəbul edən bir ölkənin kimliyi haqqında kifayət qədər narahat olmamışıq. Əgər sən Fransaya gəlirsənsə, deməli yeni milli icmanın bir hissəsi olmağa razılıq verirsən, əgər bunu etmək istəmirsənsə onda səni Fransada heç kim gözləmir. Multikulturalizmə bizim prinsipial yanaşmağımız ondan ibarət idi ki, biz birgə yaşayacaq və bir-birimizi qiymətləndirəcəyik - lakin belə yanaşma iflasa uğradı, tamamilə iflasa uğradı". Onu da qeyd etmək lazımdır ki, iki əsrdən artıq bir dövr ərzində Fransada "millət","milli birlik" və s. adı altında "vahid vətəndaş kimliyi" başa düşülür. Bu cür intolerant ideyaları, daha sonra Hollandiyanın Baş nazirinin müavini Maksim Marsel Verhagen-1956, 2009-cu ildən Avropa Şurasının rəhbəri və Norveçin Baş naziri olmuş (1996) Turbern Yaqland (1950), 2009-2011-ci illərdə Belçika Baş naziri olmuş İv Kamil Leterm (1960), 1996-2007-ci illərdə Avstraliyanın Baş naziri olmuş Con Hovard (1939) öz çıxışlarında ifadə etmişdilər. Onlar iddia edirdilər ki, Şərqdən əhalinin kütləvi şəkildə Qərbə, xüsusilə də Avropaya miqrasiyası yaxın gələcəkdə bu məkanların islamlaşdırılması, yaxud asiyalaşdırılması ilə nəticələnəcəkdir. Bu ideyaları çox ciddi qəbul edən Avropa ictimaiyyəti antimiqrant ideyaları altında təşkilatlanmağa başladılar. Bu sahədə lider rolunu isə Almaniyada 2014-cü ilin dekabrında yaradılan və fəaliyyət göstərən, daim öz radikal çıxışları ilə seçilən PEGIDA (alm. *Patriotische Europaer Gegen de İslamisierung Des Abendlandes - Yeni* ***V****ətənpərvər* Avropalılar Qərbin İslamlaşdırılmasına Qarşı) hərəkatı oynayır. Belə bir şəraitdə, hələ 2011-ci ildə multikulturalizmi və miqrant faktorunu yüksək tribunadan Avropa üçün çox ciddi təhlükə elan edən Almaniya kansleri A.Merkel 2015-ci ildə müsəlmanların Berlində keçirilən etiraz mitinqləri ilə əlaqədar qeyd etmişdi ki, "islamiyyət və miqrantlar Almaniyanın bir hissəsidir və bu reallıqla mütləq barışmaq lazımdır". 2010-cu ilə qədər Almaniyada multikulturalizm kimi siyasətin dövlət səviyyəsində həyata keçirilməsi ilə əlaqədar intolerantlığın hər hansı ifadəsi metodiki şəkildə təqiblərə məruz qalır və dərhal aradan qaldırılırdı. 2010-cu ilin avqust-

sentyabr aylarında Bundestaqın İdarə heyətinin keçmiş üzvü, Almaniya Sosial-Demokrat Partiyasının üzvü Tilo Sarratsinin (alm. *Thilo Sarrazin* - 1945) "Almaniya. Özünü ləğvetmə" kitabının dərc edilməsindən sonra situasiya köklü şəkildə dəyişdi [30]. Kitabda deyilirdi ki, "Almaniyada alman mədəniyyətini qəbul etməyən və cəmiyyətə inteqrasiya olunmaq istəməyən immiqrantların saylarının artması ölkəni iflasa sürükləyir". Bu kitab II Dünya müharibəsindən sonra alman cəmiyyətində formalaşmış "ümummilli günahkarlıq kompleksi" ilə bağlı bir vaxt ört-basdır edilmiş etnik-milli problemlərin, şovinist əhval-ruhiyyənin üstünü açdı. Məlum oldu ki, tolerant Almaniya cəmiyyəti (70% respondentlər) immiqrantlar haqqında deyilən neqativ fikirləri dəstəkləyirlər. Kitabın işıq üzü görməsi ilə A.Merkelin multikulturalizmi tənqid edən çıxışının eyni vaxtda baş verməsi alman cəmiyyətində əsl partlayışa səbəb oldu və Almaniyanın etnik-konfessional gələcəyi haqqında geniş mübahisələr və müzakirələr başlandı. Sarratsin böyük əminliklə qeyd edirdi ki, "türk və ərəb mənşəli mühacirlər alman cəmiyyətinə inteqrasiya olunmağa hazır deyillər və hətta bunu istəmirlər". O, israrla iddia edirdi ki, "İnteqrasiya olunmaq inteqrasiya olunanın vəzifəsidir. Mən, kim bunu etmirsə, ona dözməyə borclu deyiləm. Mən, ümumiyyətlə dövlətin hesabına yaşayan, bu dövləti inkar edən, öz doğma uşaqlarının təhsil almasının qayğısına qalmayan və davamlı olaraq "başı yaylıqlı qızcığazları" dünyaya gətirən mühacirlərə dözməyə borclu deyiləm".

Alman solçularının fikrincə bu kitab ksenofobiya ilə faşizmin birgə ifadəsi kimi qiymətləndirilməlidir. Lakin bütün bunlar ölkədə böyük səs-küy yaratmış müəllifin siyasi elita tərəfindən dəstəklənməsinə maneə ola bilmədi. Bunun ardınca dini binaların (məscid, mədrəsə və s.) inşasına məhdudiyyətlər, dini geyimlərə isə qadağalar qoyuldu. Assimilyasiya siyasətinin müxtəlif aktları təzahür etməyə başladı. Lakin ekspertlərin fikrincə, bu siyasətin əsas məzmunu və məqsədi əmək miqrantlarının və qaçqınların məcburi assimilyasiyası deyildi, onların milli əlamətlərinin qorunub saxlanması şərtləri ilə, alman cəmiyyətinə xas olan intizamlı bürgerlərə (alm. *Bürger* - sivil şəhər adamı, şəhərli, hərfi mənası "şəhərin müdafiəçiləri") çevrilməsi cəhdlərindən ibarətdir. Sarratsin açıq şəkildə iddia edirdi ki, "Şimali Afrikadan, yaxud Yaxın Şərqdən olan miqrantlar intellektual səviyyə baxımından etnik almanlardan qat-qat geri qalırlar. Yaxın qohumlarla nikah qurmaları səbəbindən isə onlarda "ciddi genetik pozuntular" mövcuddur. Bu səbəbdən müsəlman mühacirlər zəkalarında olan çatışmazlıqlarla bağlı olan intellektual-professional səviyyəsizlikləri ilə iqtisadiyyata və cəmiyyətə ziyan vururlar. Onların davamlı şəkildə

miqrasiyası isə ən son nəticədə "Almaniyanın tamamilə kütləşməsinə" səbəb olacaq". Sarratsin özəl tərzdə vurğulayırdı ki, "bir ölkə ərazisində başqa xalqlara münasibətdə yüksək təşəkküllü tolerant şəraitin bərqərar edilməsi, nəticədə miqrantlar arasında "kütləvi ərköyünlük kompleksi", cəmiyyətdə fundamental çoxluqlar üçün müəyyən qadağalar, titul xalqın şəxsi kimliyinin ifadə olunmasında məhdudiyyətlər yarada bilər".

Müasir Avropada və dünyada belə fikir dolaşır ki, multikulturalizm yalnız müəyyən bir zaman kəsiyində tarixi epizod kimi ortaya çıxmışdır. Avropada industrial modernləşdirmə şəraitində mühüm xarakter daşısa da, bu proses başa çatdıqdan sonra öz təsir qüvvəsini tədricən itirməyə başlamışdır. Qərbdə multikulturalizm siyasətinin həyata keçirilməsində ortaya çıxan paradokslardan biri də əsas insan və vətəndaş hüquqlarının multikultural prinsiplər səviyyəsində qorunmasının, milli təhlükəsizliyin mühafizəsi prinsipi ilə müəyyən əkslik təşkil etməsi ilə bağlıdır. Beləki, konkret bir məkanda yaşayan etnik azlıqlar, dini konfessiyalar və sosial qruplar üçün maksimum yüksək və əlverişli təsərrüfat, iqtisadi, siyasi, mədəni və digər şəraitin yaradılması potensial separatizm təhlükəsindən xəbər verir. Tarixdə müəyyən inkişaf səviyyəsinə çatmış və heç bir vaxt dövlətçilikləri olmayan xalqların öz milli müqəddəratlarını təyin etmək cəhdləri çox olub. Bu hal, bu və ya digər millətin müəyyən tarixi dövrdə milli kimlik hissinin ifadəsi kimi ortaya çıxır.

Çağdaş Avropada etnoslar və mədəniyyətlər arasında hökm sürən passiv və aktiv münaqişələrin qaynağı onunla bağlıdır ki, hər hansı etnik qrup, xalq və millət özündə çoxlu sayda təkrarolunmaz mədəni dəyərləri ifadə edir və bu dəyərlərin necə olmasından asılı olmayaraq, onlarla fəxr edir. Bu cür dəyərlərə hər hansı neqativ münasibət isə artıq münaqişənin başlanğıcı deməkdir. Hər hansı fərdi, bu cür dəyərlər sistemindən təbii, və yaxud süni yollarla ayırmaq və başqa, hətta olduqca yüksək dəyərlər sisteminə qatmağın özü belə, konflikt məzmun daşıyan aktdır.

Hal-hazırda Qərb təfəkkür tərzində belə bir ideya hökm sürür ki, multikulturalizm etnoslar arasında qarşıdurmanın aradan qaldırılmasına xidmət edən yeni siyasət olsa da, o, əsla bütün sosial problemlərdən azad olmaq, bütün "ictimai xəstəlikləri" sağaltmaq üçün bir panaseya (yunan mifologiyasında tibb tanrısı Eskulapın (Asklepiy) qızı ilahə Panakeyanın adından götürülmüşdür. Yunan əsatirinə görə bütün dərdlərin universal dərmanı), yaxud möcüzəli bir eliksir (ərəb. *al-iksir,* yun. *xerion* - fəlsəfə daşı, orqanizmin fiziki deqradasiyasının qarşısını alan, yaxud onu həmişə gənc saxlayan həb, dərman) deyil. Multikulturalizm etnik münaqişələrin qarşısının alınmasında effektli vasitə kimi təqdim olunsa da, cəmiyyətin

birliyi üçün müəyyən potensial təhlükə, titul xalqın nüfuzunun və onun cəmiyyətdə aparıcı rolunun zəifləməsi kimi böhranlı şərait yarada bilər: 1) cəmiyyətin etnik cəhətdən çoxlu sayda fraqmentlərə parçalanmasına səbəb ola bilər; 2) dövlətyaradan bir qüvvə kimi titul xalqın mövqelərini zəiflədə bilər; 3) sistemli şəkildə təbii assimilyasiya prosesinin qarşısını ala bilər. Bununla bağlı multikulturalizm siyasəti milli müxtəlifliklərə mütləq və özəl xarakter verməklə onların sürətlə xüsusiləşməsi prosesini dəstəkləyir. Bu isə mədəni müxtəlifliklərin inteqrasiyasına deyil, ifrat differensiasiyasına xidmət edir. Differensiasiya isə özündə potensial bir münaqişə kodu daşıyır: “Biz ayrıyıq, biz xüsusiyik və təkrarolunmazıq” kimi ayrı-seçkilik düsturu yaradır.

Bu gün Avropada belə bir fikir də hökm sürür ki, Qərb və islam mədəniyyətlərinin birgə və yanaşı mövcud olması qeyri-mümkündür. Niderland siyasətçisi, 1998-ci ildən Niderland parlamentinin deputatı, islama qarşı çox kəskin çıxışları ilə məşhurlaşmış Hert Vilders (1963) “Multikulturalizmin iflası və islamın hücumunun qarşısını hansı yolla almalı” adlı məqaləsində islamı təhlükəli ideologiya elan edir və iddia edir ki, “o, Qərbin ənənəvi həyat tərzinə uyğun deyil” [31]. Avropa siyasətçisinin sırf avantürist çıxışları və etikadan əsla xəbəri olmaması onunla ifadə olunur ki, o, islamın peyğəmbəri haqqında küfr sözlər deməklə 1,8 milyard insanın dini-mənəvi hisslərini təhqir edir. Belə qəti və hətta son dərəcə ədəbsiz və küfr fikirlərin sivil bir ölkədə, fövqəladə nüfuz sahibi olan bir insanın dilindən eşidilməsi təəccüb, təəssüf və eyni zamanda nifrət və hiddət doğurur. Kütləvi şüurda isə dərhal qisasçılıq hissi yaradır. Vilders kimi populistlər islamı Avropa cəmiyyətinə bilərəkdən təhrif olunmuş şəkildə təqdim edərək, onsuz da münaqişəli cəmiyyətdə ciddi qarşıdurmalar yaradırlar. Onların bu canfəşanlığı, millətə və dövlətə məhəbbətdən qaynaqlanmır. Məqsəd, siyasi gündəmə gəlmək və çox vacib dividendlər əldə etmək idi. Onun haqqında olan qısa məlumat, bu intolerant şəxsin portretini yaratmağa imkan verir: libertarian, yəni anarxist, zəiflərin yalançı təəssübkeşi, aqnostik - yəni heç bir inancı olmayan allahsız və tanrıtanımaz. Belə portretə əxlaq və mənəviyyat elementləri yaddır. Məhz belə şəxslər və onları dəstəkləyən radikal qüvvələr islamı terrorun təcəssümü kimi təqdim edirlər. Bunun məntiqi nəticəsi kimi, müasir dövrdə Fransada, İsveçrədə, Belçikada və Avropanın digər ölkələrində islamiyyətin dini abidələrinə, geyim ənənələrinə və müsəlmanın davranış qaydalarına ifrat dözümsüzlük nümayiş etdirilir.

Tarixə nəzər salsaq görərik ki, belə tip antitolerantlıq praktikası

ayrı-ayrı vaxtlarda Avropada digər dinlərin mənsublarına münasibətdə də tətbiq olunmuşdur. Məsələn, spesifik dini əqidə, etika sahibləri olan yəhudilərə qarşı. Onlar tarixdə dəfələrlə və kütləvi şəkildə Avropadan qovulmuşlar (XV əsrdə yəhudilərin İspaniyadan qovulması, II Dünya müharibəsi ərəfəsində, həmçinin müharibə dövründə milyonlarla dinc yəhudinin xüsusi qəddarlıqla qətlə yetirilməsi və s.).

Orta əsrlərdə İspaniyada başlanmış Rekonkista (isp. və portuq. *Rekonquista* - hərfi mənası - azad etmək: xristianlar tərəfindən Pireney yarımadasının mavrlardan (ərəblər və bərbərlər) azad edilməsi) Qərbin dini müxtəlifliyə qarşı dözümsüzlüyünün ən parlaq nümunəsidir [32]. 718-ci ildə Kovadonq (Asturiya) döyüşü ilə başlanmış və 1492-ci ildə II Ferdinand Araqonlu (1479-1516) və I İzabella Kastiliyalı (1474-1504) tərəfindən Mavritaniya hökmdarlarının Pireney yarımadasından tamam qovulmasından sonra başa çatmışdı. Məlum olduğu kimi, ərəb passionarlığının (isp. *Passionario* - alovlu, ehtiraslı - burada etnosun həddindən artıq fəaliyyət qabiliyyətliliyi) intibahı dövründə islam dini bütün Cənubi Avropada çox geniş yayılmışdı. Xüsusilə də İspaniyanın cənubunda mövcud olan Kordova əmirliyinin ciddi təsiri altında əhali arasında islam dini sürətlə yayılırdı. Lakin xristian ideyalarının təsiri altında yüksələn və digər dinlərə dözümsüzlük kimi nümayiş etdirilən Rekonkista nəticəsində müsəlmanlarla yanaşı Avropadan yəhudilərin də sıxışdırılmasına başlandı, 1492-ci ilə qədər ərəblərin İspaniyadakı hakimiyyətinə son qoyuldu. 1619-cu ilə qədər isə ərəblər və yəhudilər İspaniyadan qovuldular. Burada güclü katolik dövləti yaradıldı. Təkcə XVI əsr ərzində ölkədən qovulan və öldürülən müsəlmanların sayı üç milyonu keçmişdi. Bu dövrdə xristianların həyata keçirdiyi tədbirlərin əsas istiqamətlərindən biri müsəlman mədəniyyətinin nümunələri olan tikililərin və arxitektura abidələrinin, ya rekonstruksiya edilməsi, ya da dağıdılması idi. Bu minvalla isə ölkədə yüzlərlə məscid, mədrəsə, kitabxana yandırılmış, yaxud dağıdılmışdı. Ən acınacaqlı hal da o idi ki, İspaniyadan müsəlmanlarla birlikdə qovulmuş yəhudiləri heç bir Avropa ölkəsi qəbul etməmişdi. Onlar Osmanlı imperiyasına pənah gətirmiş və unikal "osmanlı" multikultural ideologiyasının simasında himayədarlıq əldə etmişdilər. Beləliklə, tarixi hadisələr göstərir ki, Qərbin dini dözümlülüyü və multimədəni prinsipləri, başqasına öz dini dəyərlərini təkidlə sırımaq üzərində qurulub. İmmiqrant-dövlətlər kimi xarakterizə olunan Avropa dövlətləri isə spesifik din və mədəniyyət mənsubları olan miqrantları Qərb cəmiyyətində yalnız assimilyasiya etmək istəyirlər. Lakin hal-hazırda mövcud olan əsl reallıq belədir ki,

müasir Avropa dövlətlərinin hamısı immiqrant ölkələr sayılır. Başqa sözlə desək, bu gün bu ölkələrdə yaşayan əhalinin ən azı 10%-i başqa ölkələrdən köçüb gələnlərdir.

Bu gün Avropada baş verən bütün etnik-siyasi proseslərlə əlaqədar Köhnə Dünyada sağ yönümlü radikal təşkilatların, partiyaların (məsələn, Niderland Azadlıq Partiyası, Fransa Milli Cəbhəsi və başqala.) yaranması prosesi gedir. Onların hamısı müasir dünyada olduqca populyar olan və "müxtəlifliklərin vəhdəti" tezisi ilə xarakterizə olunan multikulturalizm siyasətinə etiraz edirlər. Gənclər arasında nasional-sosializm (faşizm) və rasizm meylləri durmadan artır. Bu isə ən yaxın gələcəkdə etnik-milli və dini zəminlərdə münaqişələrin qaçılmaz olacağından xəbər verir. 2010-2011-ci illərdə tanınmış Avropa liderlərinin multikulturalizm siyasətini ən sərt şəkildə tənqid etmələri Qərb cəmiyyətində mövcud olan potensial intolerantlığı, ksenofobiyanı və əsl şovinist ünsürləri dərhal üzə çıxartdı. Avropanın 1 nömrəli nüfuz sahiblərinin bu cür çıxışları isə "uzun müddət şüşədə bağlı qalmış cinin azadlığa buraxılmasına" və yaxud "Pandoranın sandığının açılmasına" bənzəyirdi.

2014-cü ildə Fransız həftəlik satirik jurnalı "Şarli Ebdonun" (fran. *Charlie Hebdo*) küfr karikaturaları dünya ictimaiyyətini ayağa qaldırdı. 7 yanvar 2015-ci il tarixində İŞİD-in (İD) rəhbəri Əbu Bəkr əl-Bağdadinin (Əbu Dua -1971) karikaturasından bir neçə gün sonra isə redaksiyanın ofisinə hücum nəticəsində "Şarli Ebdo" jurnalının 10 jurnalisti, həmçinin 2 polis qətlə yetirildi [33]. Ekstremal vəziyyətlə əlaqədar iş o yerə çatdı ki, Avropanın mərkəzində Şərq xalqlarının, əsasən də müsəlmanların dini hisslərini təhqir edən çıxışlar, tədbirlər və aksiyalar başlandı. 2011-ci ilin 22 iyulunda isə daha iyrənc zorakılıq aktı baş verdi. 32 yaşlı Norveç əsilli Anders Berinq Breyviq Osloda və Norveçə məxsus olan Uteya adasında, əsasən Şərq xalqlarının nümayəndələri olan 77 nəfəri qətlə yetirdi və 151 nəfəri yaraladı [34]. Məhkəmədə verdiyi ifadəsində Breyviq qeyd edirdi: "Cinayəti törətdiyim silahı (*Karabin Ruger Mini* - 14)" alarkən, yazdığım ərizədə maral ovuna çıxacağımı qeyd etmişdim, amma həqiqəti yazmaq istərdim - mədəni marksistləri və multikulturalist satqınları edam etmək". Daha bir ifadə: "Mən Norveç müqavimət hərəkatını təmsil edirəm. 10 ildən sonra Osloda etnik norveçlilər azlıqda qalacaqlar. Biz buna əlimizi sallayaraq baxa bilmərik." Daha bir ifadə: "Mən Norveç məhkəmələrini tanımıram. Onlar hakimiyyətlərini məhz muktikulturalizmi dəstəkləyən partiyalardan almışlar." Artıq zindanda olarkən o, atasına yazdığı məktub da bildirirdi ki, onunla o halda ünsiyyət qurar ki, özünü faşist elan etsin.

Göründüyü kimi, müasir multikultural və demokratik Avropada

sivilizasiyaların növbəti toqquşması ilə əlaqədar kifayət qədər təzadlı və ciddi polemika doğuran situasiya yaranmışdır. Bir tərəfdən vahid Avropa cəmiyyəti öz tolerant imicini qoruyub saxlamağa çalışır, digər tərəfdən Şərqdən, xüsusilə də İslam dünyasından gələn əxlaqi-mənəvi dəyərlərin "arzu olunmayan nəticələr" verəcəyindən ehtiyat edir.

### *İstinadlar*

*1. League of Nations Ends, Gives Way to New U.N., Syracuse Herald-American, 20 April 1946, p. 12*

*2. Sədi Şirazi. Gülüstan. farscadan tərcümə edənlər. Məmmədağa Soltan (şerlər), Rəhim Sultanov, İsmayıl Şəms (nəsr), Şamil Cəmşid, Mikayıl Abdullayev. Bakı, 2004. S. 40*

*3. Бородько Максим В. ЮНЕСКО: история создания и современная структура. Педагогика. - Москва, 2000. - № 2. - 81-89*

*4. Пономарев М.В. История стран Европы и Америки в новейшее время. Пономарев М.В. Москва, 2010. С. 310*

*5. Rayburn A. Naming Canada: Stories about Canadian Place names. - Toronto: University of Toronto Press, 2001. - P. 13-17*

*6. Morton Dosmond. A Short History of Canada. - 6th. - Toronto: McClelland & Stewart, 2001. - p. 9-19*

*7. Терборн Г. Мультикультуральные общества. Москва, 2001. - с. 61*

*8. Головкина О.В. Канадский мультикультурализм как главная основа национальной идентичности Канады. Вес. Волгоградского государственного университета, Волгоград, 2004., с. 44*

*9. Куроятник Александр И. Мультикультурализм: Идеолгия и политика социальной стабильности полиэтнических обществ. 2000. с. 56*

*10. Australia Day in guesti (26 January, 2008) p. 2*

*11. Атлас мира: Максимально подробная информация. Руководители проекта: А.Н. Бушнев, А.П. Притворов. - Москва: АСТ, 2017. - С. 92. - 96 с.*

*12. Davison, Hirst and Macintyre, pp. 442-443*

*13. Атлас мира: Максимально подробная информация. Руководители проекта: А.Н. Бушнев, А.П. Притворов. Москва: АСТ, 2017. С. 8. 96 с.*

*14. Henrik Berggren, Underbara dagar framför oss. En biyografi över Olof Palme, Stockholm: Norstedts, 2010; p. 659*

*15. Атлас мира: Максимально подробная информация. Руководители проекта: А.Н. Бушнев, А.П. Притворов. Москва: АСТ, 2017. - С. 78. - 96 с.*

*16. Buell, Lawrence. The Unkillable Dream of the Great American Novel: Moby-Dick as Test Case" - American Literary History 20. - С. 132–155*

*17. Атлас мира: Максимально подробная информация. Руководители проекта: А. Н. Бушнев, А. П. Притворов. - Москва: АСТ, 2017. - С. 20*

*18. Mueller Kurt (1969) "The Swiss Banking Secret: From Legal View". The International and Comparative Law Quarterly 18 (2): 361-362*

*19. Syed A. R. Multiculturalism. A Project of Global Peace Trust. Lahore,*

*2006. P. 9*

*20. Liah Grenfeld. The Spirit of Capitalism. Nationalism and Economic Growth. - Harvard University Press, 2001. P. 34*

*21. Атлас мира: Максимально подробная информация. Руководители проекта: А.Н.Бушнев, А.П.Притворов. - Москва: АСТ, 2017. - с. 10. - 96 с.*

*22. Coleman, David; Compton, Paul; Salt, John (2002) Demographic characteristics of the immigrant population.Council of Europe. P. 505*

*23. Кильюнен К. Государства и флаги. Символы.Энциклопедия.-Москва: РОССПЕН, 2008. - с. 106*

*24. Gordon, Milton M. Daedalus Yetman, ed. «Assimilation in America: Theory and Reality». Journal of the American Academy of Arts and Sciences. Boston, Mass. 90 (2): p.245-258*

*25. Westad Odd Arne. Reviewing the Cold War: approaches, interpretations, and theory. - Taylor & Francis, 2000. - p. 232*

*26. Goggin, G. Newell. Disability in Australia: Exposing a Social Apartheid : Goggin, G. Newell, C. - UNSW Pressruen, 2005. - P. 18-20*

*27. Южно-Африканская Республика: научно-популярный справочник. Москва: Издательская фирма «Восточная литература» РАН, 1994. С. 60*

*28. Дагбаева С.Б. Этническая социализация молодого поколения в изменяющемся мире. Гуманитарный вектор. М:, 2012. № 1 (29). С. 240-246*

*29. Шультс Э.Э. Технология бунта: «цветные революции» и «арабская весна». Национальные интересы: приоритеты и безопасность. - Москва, 2014. - № 19.- с. 52*

*30. Der Spiegel Alexander Neubacher: Der Weichen-Stelle. Nr39, 2007, pp. 74-76*

*31. Белов Е., Шкуренко О. 10 ссор неверных с исламом. Огонек.-Москва, 2010. - № 19. - с. 25*

*32. Лопатин В.В., Нечаева И.В., Чельцова Л.К. Реконкиста. Москва, Эксмо, 2009. - с. 370. - 512 с.*

*33. Зеленин Д. СМИ:«Исламское государство» взяло ответственность за нападение на Charlie Hebdo. ТАСС (10 января 2015)*

*34. Norway massacre Breivik planned to kill politiclans (18 November 2011)*

# X FƏSİL. ŞƏRQ MULTİKULTURALİZMİ: FƏRQLİ MODELLƏR, NÖVLƏR VƏ SİYASƏTLƏR



## 10.1. Şərq multikulturalizmi tarixindən (ing. *From the history of Eastern multiculturalism*)



Şərq tarixən etnosların fövqəladə rəngarəng spektrdə təmsil olunduğu məkanlardan biridir. Burada davamlı olaraq dövlətlərin, mədəniyyətlərin və sivilizasiyaların təşəkkülü, qovuşması, etnosların, sistemlərin mübarizəsi və miqrasiyası prosesi baş vermiş və bu möhtəşəm hadisə Qədim və Orta əsrlər Şərq tarixinin əsas məzmununu təşkil etmişdir. Şərq etnik-mədəni və hərbi-siyasi faktoru Misirin, Babilin, Çinin, Hindistanın, Yaponiyanın, Qədim Türk xaqanlıqlarının, Ərəb xilafətinin, Osmanlı, Səfəvi, Böyük Moqollar kimi imperiyaların simasında ümumdünya tarixini möhtəşəm sivilizasiylarla zənginləşdirmiş, dünyaya Zərdüştün, İbrahimin, Musanın, İsanın, Məhəmmədin (salavatullah) simasında müqəddəs peyğəmbərlər, Budda, Konfusi, İbn Sina, Nizami, Füzuli, Sədi, Firdovsi, Tusi, Nəsimi kimi çox möhtəşəm dühalar, Babək Xürrəmi, Çingiz xan, Əmir Teymur, Mehmet Fateh, Cahangir, Şah İsmayıl, Süleyman Qanuni kimi qüdrətli sərkərdələr, Vedlər, Tövrat, Avesta, İncil, Quran kimi müqəddəs kitablar bəxş etmişdir.

Şərq sivilizasiyası antropoloji obrazların möcüzəli çeşidlərlə təmsil olunduğu bir məkan kimi, özündə eləcə də çeşidli mədəniyyətləri, dini ideyaları, əqidələri, məzhəb və məsləkləri də ifadə etmiş və bu gün də edir. Burada bütün irqlər və onların törəmə çeşidləri bir-birinə qovuşmuş, müxtəlif dinlərin və mədəniyyətlərin sintezindən spesifik, dünyanın digər məkanlarında analoqu olmayan mədəni obrazlar və nümunələr təşəkkül tapmışdır. Bununla əlaqədar Şərqin fövqəladə etnik-mədəni müxtəlifliyi bu məkanda yaşayan bütün insanlardan daha çox dözümlülük, tolerantlıq,

həmçinin elmi-texniki, intellektual-mədəni, sosial-siyasi resursların daha mütəşəkkil üsullarla səfərbər edilməsini tələb edirdi və bu tendensiya bu gün də davam edir.

Dünyanın digər bölgə və regionlarında olduğu kimi, Şərqdə də Qədim və Orta əsrlər tarixinin etnik-siyasi və sosial-təşkilati xarakterini cəmiyyətin "köklü sülalələr", "imtiyazlı superetnoslar" tərəfindən nüfuz və hərbi-siyasi güc amili ilə idarə olunması təşkil edir. Onların yaratdığı təşkilatlar etnik və dini müxtəlifliklərin birliyindən yaranmış sosiumun davamlı inkişafını təmin etmək üçün güc üsuluna alternativ olan liberal metodlardan, sülhyaradan, barışığa çağıran üsullardan istifadə etməyə daha çox üstünlük verirdilər. Artıq o dövrdə mütərəqqi düşünən insanlar dərk edirdilər ki, müharibə və münaqişə əsl siyasi məqsədə çatmaq üçün yeganə vasitə və davamlı dəyişən dünyanın əbədi məzmunu ola bilməz. Odur ki, müxtəlifliklərin vəhdətini təmin etmək üçün hər bir elementar subyekti tam qane edə biləcək böyük, mükəmməl və uzun müddət üçün nəzərdə tutulmuş ideyaya ehtiyac və tələbat duyulurdu. Çünki məhz belə ideya müxtəlifliklərin fərdi psixoloji xarakterindən doğan gizli və aşkar qiyamı cilovlamağa qadir idi.

Pozitiv elmin kifayət qədər inkişaf etmədiyi Qədim və Orta əsrlər Şərqində bütün etnik müxtəlifliklərin birliyini təmin edən əsas ideya dini ideologiya olmuşdur. Lakin həm politeizm, həm də monoteizm kimi dini ideologiyaların tərənnüm etdikləri vəhdaniyyət doktrinası gec-tez fərqli baxışların, improvizasiyaların və interpretasiyaların təsiri altında fərqli, antaqonist və barışmaz cərəyanlara, təriqətlərə, bidətlərə ayrılaraq, etnik-siyasi birliklərin sürətlə parçalanmasına və separatizm kimi üzdəniraq bir fenomenin siyasi tarixin üzvi elementinə çevrilməsinə səbəb olurdu.

Beləliklə, ayrı-seçkilik siyasəti əsl vəhdətin fundamental əsaslarını sarsıdan "sosial cəza" qismində təzahür edir və "münaqişəli cəmiyyət" modelini formalaşdırırdı. Bununla bağlı Şərq tarixinin hansı əyyamına nəzər salsaq, orada multikultural vəhdəti təmin etməyə istiqamətlənmiş tənzimləyici tədbirlərin müxtəlif cür nümunələrini görə bilərik. Məsələn, zərdüştlük ideyası və onu ifadə edən vərdişlər, adət-ənənələr, inanclar uzun tarixi bir dövr ərzində etnik müxtəliflikləri bir yerə yığan inteqrativ fenomen olmuşdur.Təəssüf ki, müəyyən tarixi dönəmlərdə inteqrativ təsir mexanizmlərini itirmiş tənzimləyici ideyaların korrektə olunması və yeni ideyalarla tamamlanması tələb olunurdu. Bu baxımdan III əsrdə Sasani imperiyasında Manihəyya kimi tanınan mütəfəkkir tərəfindən yaradılmış və zərdüştlüyün bir modifikasiyası qismində qiymətləndirilən maniçiliyi qeyd etmək olar. Lakin sözügedən dövrdə mövcud olan ən əsas etik-dini

ideologiyaların - zərdüştlüyün, xristianlığın, hinduzmin, buddizmin və daosizmin fundamental ideyalarının əsl sintezindən yaradılmış maniçilik müxtəlifliklərin barışığını və vəhdətini təmin etmək kimi əsas məqsədinə çata bilmədi. Barışıq aktı kimi nəzərdə tutulmuş yeni təlim qısa müddət ərzində bütün dini təlimlər tərəfindən küfr və bidətçilik aktı kimi qəbul olundu. Yalnız daosçuluq və buddizm onun bəzi elementlərini əxz etdi [1].

Eramızın I əsrindən başlayaraq, Şərq xalqlarının ruhani və mədəni həyatına nüfuz edən xristianlıq da inteqrativ ideya qismində uğur qazana bilmədi. Çünki qədim ideyalardan tam bəhrələnmiş mədəni müxtəliflik təfəkkürlərdə elə dərin bir kök salmışdı ki, sarsılmaz ənənəyə çevrilmiş ideoloji stereotiplər hər hansı yeniliyə israrla müqavimət göstərirdi.

VII əsrdə Yaxın Şərqdə ərəb tayfalarının dini-ruhani və hərbi-siyasi birliyini təmin edən islam, qısa müddət ərzində Şərq dünyasının digər məkanlarına da nüfuz etməyə başladı. İslamiyyət qədim Şərqin nüfuzlu ideyası kimi özünü təsdiq etsə də, mütərəqqi dəyərlərə əsaslanan vahid islam cəmiyyəti yaratmaq mümkün olmadı. Çünki “etnos” məfkurəsi “dini” məfkurəni tam üstələdi. Qısa müddət ərzində isə təriqət və məslək əlamətlərinə görə çoxlu sayda etnik-siyasi subyektlərə parçalanan islam dünyası yeni daxili ziddiyyətlərin, məhəlli müharibələrin əsirinə çevrildi. Qeyd etmək lazımdır ki, belə tendensiya ümumi cizgilərdə bu gün də davam etməkdədir.

İdeoloji münasibətlər sisteminə əsaslanan tarixi təcrübədən məlum olur ki, multimədəni inteqrativ siyasətin həyata keçirilməsi zamanı din, əqidə, dünyagörüşü, mentalitet və etnik özəllik kimi bütün incə faktorlar nəzərə alınmalıdır. Şərqdə isə bu siyasət xüsusi yanaşma tələb edir. Necə deyərlər, “Şərq incə məsələdir!”.

Yaxın Şərqin azık-monqollar tərəfindən istila olunduğu XIII əsrdə, qılınc gücünə özünə yollar açmış monqol etnosu anladı ki, islamiyyətin simasında yerli inteqrativ bir ideologiyanı israrla qəbul etməmək, qısa müddət ərzində etnosun iflası deməkdir. Çünki mütərəqqi ideologiyadan məhrum olmuş cahil və batil monqolu, onun nə iti, sərt kəsən qılıncı, nə müdhiş zorakılığı və brutallığı, nə də şamanizmdən bəhrələnən cadusu xilas edə bilməzdi. Bu həqiqətin məntiqi nəticəsi isə 1295-ci ildə Şərq dünyasının ən görkəmli şəxsiyyətlərindən biri olan və İslam tarixində “hicri altıncı əsr müsəlman islahatçısı” kimi tanınmış Qazan Mahmud xanın (1295-1304) bütpərəst monqolları haqq yoluna çıxarması oldu [2]. Əslində, 16 iyun 1295-ci il tarixində Lərcan adlanan qalada (Reylə Amul arasında Elburs dağlarında yerləşirdi) bağlanmış əhd və 1295-ci ilin 3

noyabrında Qarabağda toplanmış qurultayda islamın rəsmi dövlət dini elan edilməsi, köçəri monqollarla yerli müsəlmanları birləşdirən barışıq aktı idi [3].

Səfəvi imperiyası dövründə şiəlik, ismaillilik, musəvilik kimi dini-siyasi ideyalar dövrün bütün türk tayfalarını vahid bir məkanda toplamış, mənəvi-ruhani cəhətdən silahlandırmış və onların etnik özəlliklərini arxa plana çəkmiş məfkurə idi. “Qızılbaş” anlayışı isə bütün etnik və subetnik səfəviləri bir xətt üzrə birləşdirən dini xarakterli kommunikativ simvola çevrilmişdi. Səfəvi dövlətinin tədricən dağılması da məhz bu məfkurənin zəifləməsi ilə bağlı olmuşdu.

Moqol imperatoru Böyük Əkbərin (1556-1605) “Dini ilahi” (1581) və Osmanlı sultanı I Əbdülməcidin (1839-1861) “Tənzimat” (1839) kimi doktrinaları, eləcə də buna oxşar digər tədbirlər də, Şərq dünyasında əsl klassik multikulturalizmin və müxtəlifliklərin vəhdətinin təzahürü kimi qiymətləndirilirdi.

XX əsrdə Şərq dünyasında baş verən yeni proseslər, xalqların milli oyanışı, onların azadlıq və istiqlal mücadiləsi siyasi səhnəyə çoxlu sayda suveren etnik-siyasi qurumlar çıxartdı. Yeni dövrün xarakterinə uyğun olaraq, bu qurumların əksəriyyəti siyasi millətlər qismində formalaşan təşkilatlar idi. Məhz bu səbəbdən onların davamlı birliyini təmin etmək üçün siyasi ideologiyaya ehtiyac var idi. Belə bir şəraitdə müxtəlifliklərin vəhdətini “siyasi millət doktrinası” mövqeyindən tam reallaşdırmaq üçün multikulturalizmin praktikada tətbiqi zərurəti gündəmə gəldi. Beləliklə, Malayziyadan başlamış Livanadək etnik-siyasi birliklərin çoxu liberal demokratiyaya istiqamətlənmiş mədəni siyasət yolu tutdular.

## 10.2. Multikulturalizmin Malayziya modeli (ing. *The Malaysian model of multiculturalism*)



Müsəlmanların mütləq çoxluq təşkil etdiyi ölkələrdən biri kimi Malayziyada həyata keçirilən multimədəni siyasətə rəğmən yüksək təşəkküllü etnik birliyin əldə edilməsinə, demokratik dəyərlərə əsaslanan hüquqi dövlətin, ümumbəşəri etnik-mədəni prinsipləri tərənnüm edən vətəndaş cəmiyyətinin qurulmasına nail olunmuşdur. Ölkədə ümumdaxili məhsulun illik həcmi 315 milyard ABŞ dolları təşkil edir ki, bu da dünyanın ən çox inkişaf etmiş ölkələri içərisində 30-cu yer deməkdir.

Adambaşına düşən illik milli gəlir isə 28 min ABŞ dolları təşkil edir.

Müasir Malayziya (mala.*Malaysiya*) Cənub-Şərqi Asiya regionunda yerləşir. Ərazisi 329 758 $km^2$, əhalisi 32 milyon nəfərdir. Paytaxtı Kuala-Lumpur (malay dilindən tərcümədə "çirkli mənsəb" deməkdir) şəhəridir. Cənubi Çin dənizi ölkəni iki əsas hissəyə ayırır: Qərbi Malayziya, yaxud Malayya (Malakka yarımadasının cənub hissəsini və ona yaxın adaları əhatə edir, Tailand, Sinqapur və İndoneziya ilə həmsərhəddir) və Şərqi Malayziya (adətən Sabah və Saravak adlanır, Kalimantan adasının şimal hissəsini, həmçinin yaxınlıqda yerləşən bəzi adaları əhatə edir. Bruney və İndoneziya ilə həmsərhəddir). Sanskritdən tərcümədə "melayu" sözünün mənası "dağlıq ölkə" deməkdir [4].

Ölkə 1957-ci ildə "Malay Federasiyası" adı altında suverenitet əldə etmiş, 1963-cü ildən etibarən federasiyaya Sinqapurun (Sinqapur 1965-ci ildə Malayziya ittifaqından ayrılaraq müstəqil dövlət olmuşdur), Şimali Borneonun və Saravakın qoşulmasından sonra "Malayziya" adlanmağa başlamışdır. Beləliklə, yeni dövlətin adına "zi" hissəsinin əlavə edilməsi ona üç yeni ştatın qoşulması ilə əlaqədardır. Qeyd etmək lazımdır ki, "Malayziya" adı əvvəl bütün Malay arxipelağına münasibətdə işlədilirdi.

Malayziya seçkilərə əsaslanan federativ dövlət və konstitusiyalı monarxiyadır. 13 ştatdan və 3 federal ərazidən ibarətdir. Bu fakt özü artıq dövlətin demokratik məzmunundan və plüralist, multimədəni prinsiplərə əsaslanmasından xəbər verir. Ştatlardan doqquzu monarxiyadır. Onlardan yeddisi isə sultanlıqdır. Nehri-Sembilan ştatının hökmdarı ənənəvi olaraq "malayya" titulu (*Yang Dipertuan Besar*) daşıyır. Perlis ştatının başçısı isə "raca" adlanır. Hər ştatın hökmdarı, eyni zamanda onun nəzarəti altında olan ərazidə yaşayan əhalinin ruhani rəhbəridir. Hər beş ildən bir doqquz ştatın rəhbərləri öz aralarından ölkənin Ali rəhbəri (kral) və onun müavinini (vitse-kral) seçirlər. Onların əsas vəzifəsi ölkə qanunlarını, konstitusiyaya edilən yeni əlavə və dəyişiklikləri təsdiqləmək və ölkəni beynəlxalq arenada təmsil etməkdən ibarətdir. Dövlətin idarə olunmasını isə parlament və baş nazirin rəhbərliyi altında nazirlər kabineti həyata keçirir. Dövlət quruculuğunda və idarəçilik sistemində mövcud olan əsas prinsiplər ölkənin siyasi, iqtisadi və mədəni həyatında bütün subyektlərin bərabər iştirakını nəzərdə tutur [5].

Multikulturalizm Malayziyanın siyasi, iqtisadi və mədəni həyatında son dərəcə vacib rol oynayır. Malayziyada din azadlığı elan olunmuşdur və o, ölkə konstitusiyasında təsbit olunmuş qanunlarla qorunur. Demək olar ki,dünyanın bütün məşhur dini təlimləri (yəhudilik,xristianlıq, islam, hinduizm, buddizm) ölkədə təmsil olunur. Malayziya əhalisinin 62%-ni

islam dininin mənsubları təşkil edir. Bununla əlaqədar islam qanunları ölkədə müstəsna nüfuza malikdir. Ölkə əhalisinin 19,8%-ni buddizm, 9,2%-ni xristian (xristianlar ölkədə həm katoliklər, həm də protestantlar - əllincilər, anqlikanlar, metodistlər, baptistlər və adventistlər qismində təmsil olunurlar), 6,3%-ni hinduizm, 1,3%-ni konfusiançılıq, daosizm və digər çin dinlərinin mənsubları təşkil edir. Qeyd etmək lazımdır ki, bütün etnik malayyalılar müsəlmandırlar [6].



Malayziya cəmiyyəti fövqəladə etnik müxtəlifliyi ilə seçilir. "Oranq əsli" (malay. "*yerli insanlar*" - üç əsas qrupa bölünürlər: semanqlar, senoylar, protomalaylar. Üç qrupun tərkibinə isə daha 18 subetnik qrup daxildir) adlanan etnos Malayziyanın aborigenləri hesab olunur və onlar ölkə əhalisinin 11,8%-ni təşkil edir. Malayziya əhalisinin 63%-i "avstroneziya xalqlarından" ibarətdir. Bu böyük siyahıya əsasən tyamlar, indoneziyalılar, tayvanlılar, filippinlilər, malaylar, malaqasilər (Madaqaskar), polineziyalılar, mikroneziyalılar və melaneziyalılar daxildir. Onlara isə Malayziyada "bumiputra" (sanskrit. *bhumi* - torpaq, *putra* - övlad - "torpağın övladları") deyilir.

Malayziyada say etibarı ilə ikinci ən böyük etnik qrup çinlilərdir. Çinlilər ölkə əhalisinin 23%-ni təşkil edirlər. Çinli malayziyalılar, əsasən paytaxt Kuala-Lumpurda, Penanq ştatında və İnox şəhərində yaşayırlar.

Ölkədə daha bir çoxsaylı etnos hindlilərdir. Onlar ölkə əhalisinin ümumi sayının 9,1%-ni təşkil edirlər. Hindlilərin böyük bir hissəsi tamil (Cənubi Hindistan) mənşəlidir [7].

Malayziyada malay dili dövlətin rəsmi dili elan olunsa da, XX əsrin 60-cı illərinə qədər ingilis dili, faktiki olaraq administrasiya dili idi. Bu gün ingilis dili ölkədə ikinci rəsmi dil kimi vacib rola malikdir. Hətta Malayziyada ingilis dilinin malay, tamil, çin dilləri ilə sintezi nəticəsində "manqliş" adlanan yeni kreol (isp. *criollo* - yaratmaq, böyütmək, tərbiyə etmək) dili yaranmışdır.

Malayziya dövlətinin "Birlik gücdür" kimi ("*Bersekutu Bertambah Mutu*") səslənən devizi ölkədə mövcud etnik, dini, mədəni müxtəlifliyin vəhdətini ifadə edən mütərəqqi çağırışdır. Məhz bu çağırışın praktikada təzahürü Malayziyanı dinamik şəkildə inkişaf edən nümunəvi bir dövlətə çevirmişdir. Multikulturalizm Malayziya cəmiyyəti üçün əvəzolunmaz dəyər, alternativi olmayan optimal tənzimləmə sistemidir. Multimədəni dəyərlərin vəhdəti, qarşılıqlı şəkildə bir-birilərini zənginləşdirməsi kimi

mütərəqqi tarixi akt isə bu gün Malayziya cəmiyyətinin əsl həyat tərzinə çevrilmişdir. Məhz bu səbəbdən Malayziyaya gələn hər kəsi, ilk növbədə ölkə əhalisinin bağqa insanlara açıq olması, asan mədəni ünsiyyət qura bilməsi, qayğıkeş və tolerant olması valeh edir.

## 10.3. Multikulturalizmin İndoneziya modeli (ing. *The Indonesian model of multiculturalism*)



Yüksək təşəkküllü multimmədəni münasibətlər sisteminin mövcud olduğu cəmiyyətlərdən biri də İndoneziyadır (yun.*"indus"* - hind və *"nesos"* - ada sözlərindən əmələ gəlmişdir, yəni *"Ada Hindistan"*). Bu gün "İndoneziya" kimi səslənən toponim, ilk dəfə XIX əsrin 50-ci illərində Britaniyalı etnoqraf Ceyms Riçardson Loqan (ing. *James Richardson Logan* - 1819-1869) tərəfindən müasir elmi dövriyyəyə daxil edilmişdir. İndoneziya da Malayziya kimi Cənub-Şərqi Asiya regionunda yerləşir. Ərazisi 1 919 440 km$^2$, əhalisi 262 milyon nəfərdir. Regionun ən böyük dövlətlərindən biridir. Əhalisinin sayına görə o, dünyada 4-cü yeri (Çin, Hindistan və ABŞ-dan sonra), ərazisinə görə isə 14-cü yeri tutur. Ölkə paytaxtı Cakarta şəhəridir. Prezident idarəçiliyinə əsaslanan unitar dövlət kimi 34 inzibati əraziyə (32 əyalət və 2 xüsusi dairə) bölünür. İndoneziya əsasən Malay arxipelaqında və Yeni Qvineya adasının qərb hissəsində yerləşir. Dünyanın ən böyük ada-dövlətlərindən biridir [8].

İndoneziya fövqəladə etnik-mədəni, dini-konfessional müxtəlifliyi ilə seçilən bir dövlətdir. Lakin əhalinin mütləq çoxluğunu islam dininin mənsubları təşkil etdiyi üçün, İndoneziya ən çox müsəlman əhalisi olan ölkə kimi də tanınmışdır. İndoneziya, iqtisadiyyatı dinamik inkişaf edən aqrar-sənaye ölkəsidir. Ümumdaxili məhsulun tam həcmi 3 trilyon ABŞ dolları, adambaşına düşən illik gəlir isə 11 min ABŞ dolları təşkil edir. Ölkənin pul vahidi İndoneziya rupisidir. İndoneziya 17 avqust 1945-ci il tarixindən müstəqil dövlətdir.

Qeyd etmək lazımdır ki, İndoneziyanın təşəbbüsü və rəhbərliyi altında 8 avqust 1967-ci il tarixində ölkələrarası regional siyasi, iqtisadi və sıx mədəni əlaqələri nəzərdə tutan Cənub-Şərqi Asiya dövlətlərinin Assosiasiyası (ing. *Association of SouthEast Asian Nations - ASEAN*) yaradılmışdır. Assosiasiyanın tərkibinə 10 dövlət (Bruney, Vyetnam, İndoneziya, Kamboca, Laos, Malayziya, Myanma, Sinqapur, Tailand,

Filippin) daxildir [9].

İndoneziyanın ilk prezidenti Sukarnonun dövründə (1945-1967) ölkədə daim artan millətçilik tendensiyası hökm sürürdü. Hətta iş o yerə çatmışdı ki, İndoneziya BMT-yə üzvlüyündən çıxarılmışdı. 1968-1998-ci illərdə Hacı Məhəmməd Suxartonun hakimiyyəti dövründə isə vəziyyət kardinal şəkildə dəyişsə də, ölkə etnik-milli, dini-konfessional və sosial-iqtisadi zəmində çoxlu sayda ağır problemlərlə üzləşmişdi. Sözügedən dövrdə ölkənin yeni, "Pança Sila" (beş prinsip) adlanan "ədalət və rifah cəmiyyəti" ideyası qəbul olunmuş, multimədəni dəyərlərin qorunmasına istiqamətlənmiş kurs elan edilmişdi.

"Pança Sila" modeli özündə aşağıdakı əsas prinsipləri ifadə edirdi: 1. Vahid tanrıya inam. 2. Ədalətli və sivil humanizm. 3. Ölkənin birliyi. 4. Şüurlu siyasətlə təmin olunan demokratiya. 5. Bütün İndoneziya xalqı üçün sosial ədalətin təmin olunması.

1999-cu il tarixdə İndoneziyanın prezidenti seçilmiş Əbdürrəhman Vahidin dövründə (1999-2004) bir sıra sosial-iqtisadi problemləri həll etmək mümkün olsa da, ölkədə etnik zəmində münasibətlər və cari siyasi vəziyyət gərgin olaraq qalırdı. 2004-cü ildə ölkə tarixində ilk dəfə olaraq keçirilən birbaşa prezident seçkilərində isə səs çoxluğu ilə Demokratik partiyanın lideri Susilo Bambanq Yudoyona (2004-2014) hakimiyyətə gəldi. Onun prezidentliyi dövründə isə çoxlu sayda etnik-konfessional xarakterli problemləri həll etmək mümkün oldu. 2005-ci ilin avqustunda Avropa İttifaqının birbaşa vasitəçiliyi ilə ölkədə ən təhlükəli separatizm ocaqlarından biri olan "Azad Açex hərəkatı" (*Gerakan Aceh Merdeka* - İndoneziyanın Sumatra adasının şimal hissəsində Açex əyalətində 1976-2005-ci illərdə separatizm hərəkatı) ilə sülh müqaviləsi imzalandı.

2014-cü il tarixində keçirilən son prezident seçkilərində hal-hazırda İndoneziyada hakimiyyətdə olan Coko Vidodo (prezident - Demokrat partiyası) və Məhəmməd Yusif Kalla (vitse-prezident - Qolkar partiyası) tandemi hakimiyyətə gəldi.

İndoneziya rəhbərliyinin, İndoneziya cəmiyyətinin qarşısında duran ən vacib tarixi vəzifə ölkədə multikulturalizm siyasətini praktiki üsullarla həyata keçirmək, etnoslararası, dinlərarası mövcud qarşıdurmaları dialoq və qarşılıqlı anlaşma yolu ilə həll etmək, son vaxtlarda ölkədə aktivləşən terrorizm və ekstremizm meyllərinin qarşısını almaq, iqtisadi tərəqqiyə nail olmaq, "Vahid İndoneziya" məfkurəsi altında bütün etnosların, dini konfessiyaların və mədəni müxtəlifliklərin mütləq üzvi birliyini təmin etməkdən ibarətdir.

Qeyd etmək lazımdır ki, İndoneziyada 300-ə yaxın müxtəlif xalq və

etnik qrup yaşayır. Onların böyük bir hissəsi isə avstroneziya xalqları qrupuna daxildir. Ən çoxsaylı xalqlar sırasına yavanlar (43%), sundanlar (17%), madurlar (5%), minankabaular (3%) və buqislər (2,5%) daxildir. Ölkənin Şərq rayonlarında, xüsusilə də Yeni Qvineyada Melaneziya qrupuna daxil olan digər xalqlar (onların böyük bir hissəsi papuaslardır) yaşayır [10].

İndoneziyanın yerli sakinləri olmayan xalqlarından biri çinlilərdir. Onlar, faktiki olaraq ölkənin bütün məlum regionlarında, xüsusilə də iri şəhərlərdə yaşayırlar. Ümumi sayları 7 milyon nəfərdir. Ölkənin müxtəlif regionlarında, əsas etibarı ilə iri şəhərlərdə, həmçinin Hindistan, ərəb və Avropa əsilli indoneziyalıların icmaları da mövcuddur. Bununla əlaqədar ölkədə ərəb, hind və müxtəlif cür Avropa dillərindən istifadə olunsa da, rəsmi dövlət dili məhz İndoneziya dilidir (*Bahasa Indonesia*). Bu dilin statusu birbaşa konstitusiya və mövcud qanunvericilik tərəfindən təsdiq olunmuşdur. İndoneziya əlifbası latın qrafikasına əsaslanır. Qeyd etmək lazımdır ki, İndoneziya çoxmillətli ölkə olduğu kimi, həm də çoxdilli ölkədir. 2009-cu ilə aid rəsmi statistikaya görə İndoneziyada 719 canlı dildən istifadə olunur [11].

İndoneziya sivil, dünyəvi dövlətdir. Lakin dini etiqad azadlığının qorunması ölkə konstitusiyasında təsbit olunmuşdur. 1965-ci ildə qəbul edilmiş qanunvericilik aktlarına görə, ölkədə etiqad obyekti olan əsas dinlərə və dini konfessiyalara (islam, hinduizm, buddizm, katolisizm, protestantlıq, konfusiançılıq) xüsusi status verilmiş və onların dövlət tərəfindən dəstəklənməsi, eləcə müdafiə olunması nəzərdə tutulmuşdur. İndoneziya qanunvericiliyi, həmçinin dövlətin siyasi və əxlaqi-mədəni dəyərlərinə zidd olmayan bütün digər dini inancların, əqidə və məsləklərin mövcud olmasını da nəzərdə tutur.



Ölkənin ümumi əhalisinin 88%-i müsəlman dininə (İslam ideologiyası İndoneziyada XIII-XVI əsrlərdə yayılmışdır) etiqad edir. Demək olar ki, bütün İndoneziya müsəlmanları sünnilərdir. Əsasən Yava adasında yaşayan şiə müsəlmanların ümumi sayı isə cəmi 1 milyon nəfərdir. İndoneziyada şiə icmaları sünni müsəlmanlarla çiyin-çiyinə, əsl sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və tam qarşılıqlı yardım şəraitində yaşayırlar.

Ölkədə həyata keçirilən multikulturalizm siyasətinin real ifadəsi

kimi, 2011-ci ildə islam dininin iki cərəyanı arasında qarşılıqlı anlaşmanı möhkəmləndirmək, məzhəblər arasındakı dialoqu rəsmiləşdirmək naminə İndoneziya hökumətinin dəstəyi və təşkilatçılığı ilə Cakartada "Sünni-Şiə İlahiyyat Şurası" yaradılmışdır.

XXI əsrin əvvəllərinə aid rəsmi elmi-statistik məlumatlara görə, indoneziyalıların 8,7%-i xristianlıq dininə etiqad edirlər. Onların 5,7%-i protestantlar, 3%-i isə katoliklərdir. Məşhur ABŞ dinşünası Con Qordon Meltona (ing. *John Gordon Melton* - 1942) məxsus "Dünya dinlərinin ensiklopediyasında" İndoneziyanın əhalisinin 12,1%-nin xristian olması göstərilir (ən iri konfessiyalar - əllincilər - 9,45 milyon, reformatorlar - 6,8 milyon, katoliklər - 6,65 milyon, lüteran-protestantlar - 5,8 milyon) [12].

Ölkə əhalisinin 2%-ni hinduistlər təşkil edir. Onların böyük hissəsi Bali adasında yaşayır. Hinduizmin bali variantına (əsasən Şiva kultuna üstünlük verirlər) etiqad edirlər. 2% əhali (6 milyon nəfər) buddistlərdən və konfusiançılardan ibarətdir. Bu konfessiyaları, bir qayda olaraq, etnik çinlilər təmsil edirlər.

Kalimantan, Yeni Qvineya, Sualvesi adalarında, həmçinin Molukka arxipelaqında müasir sivilizasiyaların çox az toxunduğu yerli etnoslar yaşayır ki, onlar animizmə (lat. *animus* - ruh, yəni ruhların fövqəltəbii qüvvəsinə inam) və azıklığın müxtəlif formalarına etiqad edirlər.

Beləliklə, İndoneziyanın ümumi cizgilərdə təsviri qarşımızda etnik, milli, mədəni və dini müxtəlifliklərin fövqəladə şəkildə təzahür etdiyi mürəkkəb, təzadlarla və problemlərlə dolu mənzərə yaradır. Nəzərə alsaq ki, belə bir ciddi və mürəkkəb situasiya, əhalisinin sayına görə dünyanın dördüncü dövləti kimi tanınan bir məkanla bağlıdır, o zaman burada təmsil olunan xalqların, etnik qrupların, dini konfessiyaların birliyinin, ümumilikdə isə ölkənin təhlükəsiz gələcəyinin təmin olunmasının necə bir çətin vəzifə olması haqda həqiqət ortaya çıxır. Belə bir mürəkkəb və məsuliyyətli tarixi şəraitdə əsl sağlam düşüncənin təntənəsinə fövqəladə ehtiyac var. Bu ehtiyacın ödənilməsi mexanizmlərini isə İndoneziya xalqı və hökuməti yüksək təşəkküllü multikulturalizm ideyalarının İndoneziya polietnik və polikonfessional cəmiyyətinə ən yüksək təşəkküllü üsullarla tətbiqində görür.

## 10.4. Multikulturalizmin Hindistan modeli (ing. *Indian model of multiculturalism*)



Etnik-siyasi, əxlaqi-mədəni və dini-konfessional münasibətlərin multimədəni müstəvidə tənzimlənməsi siyasətini həyata keçirən dövlətlərdən biri də Hindistandır. Qədim tarixi olan bu ölkə Cənubi Asiyada, İndostan yarımadasında yerləşir. Hindistan (Hindistan konstitusiyası ölkənin "Bharat" kimi daha bir adını da təsdiq edir), yaxud Hindistan Respublikası (ing. *Republic of India*) 15 Avqust 1947-ci il tarixində yaradılmışdır. Ərazisi 2 287 263 km$^2$, əhalisi isə 1 329 558 000 nəfərdir. Əhalisinin sayına görə bütün dünyada Çindən sonra ikinci yeri tutur. Ərazi baxımdan dünyanın yeddinci böyük dövlətidir. Paytaxtı **Nyu-Dehli** şəhəridir. İngilis və hindi dilləri rəsmi dövlət dilləridir [13]. Hindistan fövqəladə polilinqvist ölkə, dünyəvi federativ dövlətdir, parlament respublikasıdır. İnzibati cəhətdən 29 ştata və 7 müttəfiq əraziyə bölünür. Belə faktın özü artıq sözügedən bu məkanda son dərəcə mürəkkəb etnik-siyasi və linqvistik-mədəni münasibətlərin mövcud olması faktından xəbər verir. Hindistanın iqtisadi cəhətdən dinamik şəkildə inkişaf edən dövlət, "Nüvə klubu" və BMT, G-20 və Ümumdünya Ticarət Təşkilatı, Cənubi Asiya Regional Əməkdaşlıq Assosiasiyası, Millətlər Birliyi, eləcə BRİKS (ing. *Brazil, India, China, South Africa*) və Şanxay Əməkdaşlığı Təşkilatı kimi mötəbər beynəlxalq və regional təşkilatların üzvü olmasına, potensial fövqəldövlət kimi özünü təsdiq etməsinə baxmayaraq, ölkə əhalisinin böyük hissəsi yoxsulluq şəraitində yaşayır. Bu isə ölkədə multimədəni siyasətin həyata keçirilməsində, bütün etnoslar və mədəniyyətlər arasında mütləq razılığın əldə olunmasında ciddi problemlər yaradır.



Hindistan subkontinenti ən qədim sivilizasiyaların vətənidir. Qədim dünya tarixində xalqların ən böyük miqrasiyalarından biri (hind-arilər) məhz Hindistandan başlamışdır. Bu məkan, həmçinin caynizm, buddizm, hinduizm, sihhizm kimi dünya dinlərinin təşəkkül tapdığı yerdir. Erkən orta əsrlər tarixində Hindistan subkontinentinə, həmçinin xristianlıq və islam dinləri də nüfuz etməyə başlamışdır. Hindistanın Böyük Moqollar

İmperiyasının (1526-1858) nəzarəti altında olduğu bir dövrdə etnik-dini münasibətlər sistemində islam dininin rolu fövqəladə şəkildə artmışdı. Məhz o dövrlərdən etibarən, sözügedən məkanda hindus və müsəlman dinlərinn mənsubları arasında davamlı və dinamik şəkildə cərəyan edən gərginlik, mütəmadi olaraq silahlı qarşıdurmalar şəklində təzahür edən konfrontasiya ilə müşayiət olunurdu. Belə xroniki gərginliyin məntiqi nəticəsi isə 1947-ci ildə müstəqil Hindistan Respublikasının yaranması ilə subkontinentin şimal-qərb və şimal-şərq hissəsində, əsasən müsəlman əhalinin kompakt yaşadığı ərazilərdə Qərbi Pakistan (ind. Pakistan İslam Respublikası) və Şərqi Pakistan (ind. Banqladeş) kimi iki yeni müsəlman dövlətinin yaradılması oldu. Hələ 1915-ci ildə Hindistanda başlanmış milli-azadlıq hərəkatına, bəşər tarixinin ən fenomenal şəxsiyyətlərindən biri olan **Mohandas Karamçand Qandi** (**Mahatma Qandi** -1869-1948) rəhbərlik etməyə başladı. Onun rəhbərliyi altında isə Hindistan xalqları




1947-ci ildə istiqlaliyyətlərini qazandılar. Qandi "güc tətbiq etmədən kütləvi xalq hərəkatı" - "*satyaqraha*" (sanskrit. həqiqət mövqeyində durmaq) fəlsəfəsi vasitəsi ilə tam suverenlik əldə etmək ideyasını təbliğ edir, bütün xalqları, millətləri, etnosları, mədəniyyətləri, dinləri birliyə, dialoqa və qarşılıqlı anlaşmaya çağırırdı. Etnik və dini müxtəlifliyin sülh və əmin-amanlıq şəraitində mövcudluğunun yeganə yolunun yüksək təşəkküllü tolerant şəxsiyyətin və cəmiyyətin formalaşdırılmasında görürdü. Məhz belə mütərəqqi dəyərlərin daşıyıcısı olduğuna görə, xalq öz milli liderini "Mahatma" (sanskrit. "Böyük qəlb") adlandırmışdı [14].

Mədəni, linqvistik və genetik müxtəlifliklər baxımından Hindistan subkontinenti Afrika kontinentindən sonra ikinci yeri tutur. Hindistandan kənarda, xüsusən də ABŞ-da, B.Britaniyada, Avstraliyada, Almaniyada, Yaponiyada, Kanadada və dünyanın digər ölkələrində ümumi sayları 38 milyon nəfər olan hind icmaları mövcuddur.

Çağdaş dünyada mövcud olan mürəkkəb polietnik məkanlardan biri kimi müasir Hindistan subkontinentində hinduizm, islam, isavilik, sihhizm, buddizm, caynizm, animizm və başqa dinlərin mənsubları məskunlaşmışlar. Ölkə əhalisinin 1 milyard nəfərə yaxın mütləq çoxluğu (80,5%) hinduizm dininə sitayiş edir. İslam dininə etiqad edənlər ölkə əhalisinin cəmi 13,4%-ni, xristianlar 2,3%-ni, sihhilər 1,9%-ni, buddistlər 0,8%-ni, caynistlər isə 0,4%-ni təşkil edir. Hindistanda, eləcə də iudaizm, zoroastrizm və bəhaizm kimi dini təlimlərin mənsubları yaşayırlar. Ölkə

əhalisinin 8,1%-ni təşkil edən aborigenlər isə animizm kimi ibtidai dini inancın daşıyıcılarıdır [15].

Hindistan hind-ari dil qrupunun vətənidir. Burada yaşayan əhalinin 74%-i bu dil qrupunun müxtəlif dialektlərində danışır. Ölkə əhalisinin 24%-i isə dravid dili ailəsinə mənsub olan ləhcələrdə danışan etnosların mənsublarıdır. Hindistan xalqlarının danışdığı digər dillər isə avstroasiya və tibet-birma linqvistik ailələrinə aiddir. Hindistan hökumətinin rəsmi dili olan "hindi" ölkədə ən geniş yayılmış dil hesab olunur və müəyyən mənada "linqva franka" (universal ünsiyyət vasitəsi) rolunu oynayır [16]. Biznes sahəsində, idarəçilikdə və təhsil sistemində geniş istifadə edilən ikinci dil ingilis dilidir. İngilis dili ölkədə "köməkçi rəsmi dil" statusuna malikdir. Hindistan konstitusiyası ölkədə 22 rəsmi dilin olmasını təsbit edir. Bu dillərdə ölkə əhalisinin böyük bir hissəsi danışır. Sözügedən dillər 1652 dialektlə təmsil olunur [17].

Hindistanda hinduslar və müsəlmanlar arasındakı qarşıdurma bu gün də cəmiyyətin ən ağrılı problemi olaraq qalır. Ölkədə iki böyük dünya dinlərinin mənsubları arasında optimal birgəyaşayış üsullarının axtarışı, yüksək təşəkküllü, optimal inteqrativ bir məfkurəyə əsaslanan tənzimləmə sisteminin tam bərqərar edilməsi Hindistan dövlətinin və cəmiyyətinin ən vacib tarixi vəzifəsi hesab olunur.

1950-ci ilin 26 yanvarında Müstəqil Hindistan Konstitusiyasında multikulturalizmin dövlət siyasəti olması təsbit edilmişdir. Məhz bu siyasətlə bağlı, hinduizm və islam tamamilə fərqli ideologiyalar kimi, əsrlər ərzində konfrontasiya şəraitində mövcud olsalar da, Hindistan subkontinentində bu konfessiyalar arasında qarşılıqlı anlaşma, hörmət və tolerantlıq münasibətləri qurmaq istiqmətində ən yüksək təşəkküllü perspektivlər görünməkdədir.

Dünyanın say və etnik müxtəliflik baxımından çox böyük və çox mürəkkəb sosiumlarından biri olan Hindistanda problemlər bu gün də mövcuddur və bu təbii haldır. Çünki Hindistan adlanan geniş məkanda etnoslar və konfessiyalar arasında qarşıdurma yaratmaqda çox maraqlı olan çeşidli sayda nüfuzlu daxili və xarici qüvvələr mövcuddur.

Hindistan subkontinentinin Britaniyadan siyasi müstəqillik əldə etməsindən dərhal sonra, bu ərazidə iki müstəqil dövlətin - Pakistanın (14 avqust 1947) və Hindistan ittifaqının (15 avqust 1947) yaranması, faktiki olaraq tarixi Hindistanın bölünməsi (ing. *Partition of India*) kimi təzahür edən neqativ bir hadisə idi və o, təbii olaraq irimiqyaslı faciəli hadisələrə gətirib çıxartdı. Rəsmi hesablamalara görə həmin hadisələr 1 milyon insanın tələfatına səbəb olmuşdu. Əhalinin kütləvi

miqrasiyası baş vermiş (18 milyon, bəzi məlumatlara görə 25 milyon), onlardan dörd milyonunu növbəti siyahıyaalmada tapmaq mümkün olmamışdı [18]. Bütün bu dinamik hadisələr, onları yaşamış etnosların xatirəsində və tarixi yaddaşında öz əksini tapmış və zaman-zaman neqativ stereotiplər və önmühakimələr kimi cəmiyyətin münaqişəli məzmununa çevrilmişdir.

Hindistanın tarixi bölünməsi-“3 iyun Planı”, yaxud “Mauntbetten Planı” (Hindistanın vitse-kralı Luis Mauntbettenin (1900-1979) adı ilə bağlıdır) adlanan bir layihə əsasında həyata keçirilmişdi. İki dövlət arasında sərhəd “Redklif xətti” (B.Britaniyalı hüquqşünas Siril Con Redklifin (1899-1977) adı ilə bağlıdır) üzrə aparılmışdı. Pakistan bir-biri ilə əlaqələri olmayan iki ərazi - Qərbi Pakistan və Şərqi Pakistan (1971-ci ildən Banqladeş) kimi təşkil olunmuşdu. Pakistan əhalisinin böyük hissəsini müsəlmanlar, Hindistan əhalisinin böyük hissəsini isə hinduslar təşkil edirdi.

18 iyul 1947-ci il tarixində Britaniya parlamenti “Hindistanın müstəqilliyi haqqında Akt” qəbul etdikdən dərhal sonra, Pakistan və Hindistan BMT-yə tamhüquqlu üzv oldular (Hindistan 1945-ci ildən “Britaniya Hindistanı” adı altında artıq BMT-yə qəbul olunmuşdu). O dövrdən etibarən Hindistanla Pakistan arasında dörd dəfə irimiqyaslı hərbi qarşıdurma baş vermiş və hər dəfə də (1947, 1965, 1971, 1999) hind ordusu qalib gəlmişdi [19].

Pakistanla Hindistan arasında münaqişənin kəskinləşməsi, dərhal Hindistan daxilində etnik-dini zəmində qarşıdurma formasında özünü büruzə verirdi və elə bu gün də verir. Beləliklə, Hindistanın çoxəsrlik mədəni dəyərləri hindus və müsəlman dini ideyalarına söykənsə də, cəmiyyətdə daim konfessiyalar arasında potensial təhlükə var və onun irimiqyaslı qarşıdurmaya çevrilməsi hər an mümkündür.

Mulltikulturalizm XX əsrin 50-ci illərindən Hind cəmiyyətinin əsas prinsipi olsa da, onun təbliği və həyata keçirilməsi kifayət qədər effektli nəticələr verməmişdir. Əgər bir cəmiyyətdə müsəlmanın ət yeməsinə görə vegetarian hinduslar tərəfindən məhkəməsiz (linçetmə) və misli görünməmiş qəddar üsullarla qətlə yetirilməsi baş verirsə (30 sentyabr 2015-ci il tarixində Nyu-Dehli yaxınlığında Dadri şəhərində, Uttar-Pradeş ştatı ərazisində baş vermiş hadisə) və bu hadisəyə hindus əqidəli indiki baş nazir Narendra Damodardes Modi (2014-cü ildən Hindistanın Baş naziri) kifayət qədər ciddi reaksiya vermirsə, Assam (şimal-şərqi Hindistan) ştatında Bodo separatistləri hindus adivasiləri və müsəlmanları kütləvi şəkildə qətlə yetirirsə, Assamda, Naqalenddə,

Cammu və Kəşmirdə, Pencabda, Telinqanada və Tripurda separatizm hərəkatı baş alıb gedirsə, ölkədə hakim partiya olan Hindistan Xalq Partiyası hinduizm millətçiliyinin rəmzi qismində qiymətləndirilirsə, deməli heç də hər şey qaydasında deyil. Onu da qeyd etmək lazımdır ki, 2014-cü ilə qədər Hindistanın idarə olunmasını Hindistan Milli Konqresi Partiyası həyata keçirmişdir. 2014-cü ildən etibarən isə ölkə idarəçiliyini Narendra Modinin rəhbərliyi altında Hindistan Xalq Pariyası ("Bharatiya Canata Parti") həyata keçirir [20].

Mürəkkəb polietnik məkan kimi Hindistanda qarşıdurma təkcə etnik müxtəlifliklər və dini konfessiyalar arasında getmir, həm də eyni dinin mənsubları olan hinduistlər arasında da baş verir. Deməli ayrı-seçkilikdə və separatizmdə din mütləq faktor deyil və digər gizli və aşkar subyektiv səbəblər də mövcuddur.

Etnik-dini zəmində davamlı olaraq cərəyan edən bu münaqişələrə baxmayaraq, Hindistan bütün müstəqillik tarixi boyu həyata keçirdiyi liberal demokratiya siyasətinə rəğmən "dünyəvi dövlət" statusunu, sözün əsl mənasında qoruyub saxlaya bilmişdir. Qeyd etmək lazımdır ki, belə bir vacib tarixi vəzifənin reallaşdırılması işində 1885-ci ildə yaradılmış Hindistan Milli Konqresi Partiyası və onun rəhbəri, 1947-1964-cü illərdə




Hindistanın ilk baş naziri olmuş **Cəvahirləl (Pandit) Nehrunun** (1889-1964) müstəsna xidmətləri vardır. Məhz Nehrunun rəhbərliyi altında 1950-ci ildə qəbul olunmuş Müstəqil Hindistan Konstitusiyası Hindistanı sivil, demokratik dövlət elan etmiş, etnik və dini əlamətlərə görə şəxsiyyətin diskriminasiyasını və kasta sistemini ləğv etmişdi. Onun həyata keçirdiyi daxili siyasətin əsas məzmununu bütün etnik-milli, dini-mədəni müxtəlifliklərin birliyinə nail olmaq kimi ideya təşkil edirdi [21]. Cəvahirləl Nehrunun mütərəqqi siyasətini növbəti mərhələlərdə onun qızı, 1966-1977 və 1980-1984-cü illərdə Hindistanın baş naziri olmuş İndira Qandi (1917-1984) davam etdirdi. Fəqət, heç sonu görünməyən, davamlı olaraq təfəkkürlərə hakim kəsilən etnik-dini ekstremizm və radikalizm xalqları qatı düşmənçilik çuxuruna sürükləyərək, millətin ən məşhur və görkəmli şəxsiyyətlərini qatı millətçiliyin qurbanlarına (30 yanvar 1948-ci il tarixində Hindistan milli-azadlıq hərəkatının rəhbəri Mahatma Qandinin hindus millətçilər (Nathuram Qodze) tərəfindən qətlə yetirilməsi, 1984-cü il oktyabr ayının 31-də İndira Qandinin sihhi dininin mənsubları (Beant Sinqh və Satvant

Sinqh) olan şəxsi cangüdənləri tərəfindən qətlə yetirilməsi, 1984-1989-cu illərdə Hindistanın baş naziri olmuş Raciv Qandinin 21 may 1991-ci il tarixində Çennayda (keçmiş Madras) Tamil İlam separatçıları tərəfindən qətlə yetirilməsi) çevirirdi.

Hindistan cəmiyyətinin multimədəni birliyinin təmin olunmasında mütərəqqi siyasət həyata keçirən dövlət xadimlərindən və siyasətçilərdən sonra, elm, mədəniyyət, incəsənət adamlarının, şair və yazıçıların müstəsna rolu vardır. Müasir dövrdə bu cür çox çətin və şərəfli vəzifəni hind kino sənayesi - **Bollivud** (Mərkəzi Mumbayda yerləşən hindi dilli







kinematoqrafiya), Kollivud (Mərkəzi Çennayda yerləşən tamil dilli kinematoqrafiya), Tollivud (Mərkəzi Heydərabadda yerləşən teluqu dilli kinematoqrafiya) kimi mədəniyyət mərkəzləri həyata keçirir. Etnoslar arasıdakı münasibətlərdə mövcud olan ciddi problemləri kinematoqrafın dili ilə cəmiyyətə çatdırmış ilk hind rejissoru Yaş Çopra (1932-2012) olmuşdur. Çopra 1959-cu ildə lentə aldığı **"Toz içində çiçək"** filmində hindus-müsəlman barışmazlığının hind cəmiyyətində necə dərin fəsadlar törətməsini, şəxsiyyətlərarası çağdaş münasibətlərin köhnə stereotiplərin əsirinə çevrilməsini açıb göstərmişdi.

Rejissorun 2004-cü ildə çəkdiyi **"Vir və Zara"** filmi də hindus-




müsəlman münasibətlərinin hansı bir ən qaranlıq dalana dirəndiyini, 45 il keçsə belə, bu məsələlərin əvvəlki kimi də aktual olduğunu nümayiş etdirirdi.1980-ci ildə rejissor Sancay Kxanın (1941) lentə aldığı **"Abdulla"** adlı filmdə




də etnik-dini münasibətlər məsələsinə toxunulur və guşənşin müsəlman Abdullanın simasında bütün insanlar sülhə, tolerantlığa, humanizmə və mərhəmətə çağırılırdı. Müasir dövrdə isə Bollivud, Kollivud və Tollivud ulduzlarının filmlərdə ən mütərəqqi rolları ifa etmələri, eyni zamanda həyatda ən yüksək ekstratolerantlıq nümayiş etdirmələri, qarışıq nikahlar qurmaları, bütün dinlərə, mədəniyyətlərə və məsləklərə yüksək ehtiramla

yanaşmaları polietnik, polilinqvist, çoxkonfessiyalı Hind cəmiyyəti üçün əsl tolerantlıq nümunəsi, zəruri multikultural vəhdətə çağırış modeli kimi təzahür edir.

## 10.5. Multikulturalizmin Türkiyə modeli (ing. *Turkish model of multiculturalism*)



Etnik-mədəni münasibətlərin liberalizmə, plüralizmə və yüksək təşəkküllü multikultural harmoniyaya əsaslanan sistem çərçivəsində formalaşdırılmasının daimi qayğısına qalan dövlətlərdən biri də Türkiyədir. Qeyd etmək lazımdır ki, postmodern Türkiyə cəmiyyətinin münaqişəli xarakteri ona Osmanlı imperiyası dönəmindən miras qalmış və vaxtilə etnik-siyasi münasibətlər sistemində buraxılmış ciddi səhvlərlə və boşluqlarla bağlıdır. Türkiyə Respublikası (türkcə - *Türkiye Cumhuriyeti*) Cənub-Qərbi Asiyada (tarixi Kiçik Asiya yarımad-da -Anadolu) və Cənub-Şərqi Avropada (Şərqi Frakiya -Rumeli) yerləşir. Ərazisi 783 562 km$^2$ (ərazisinin 97%-i Asiyaya, 3%-i Avropaya aiddir), əhalisi 79,4 milyon nəfərdir (əhalisinin 80%-i Asiyada, 20%-i isə Avropada yaşayır). Ölkənin paytaxtı **Ankara** şəhəri, rəsmi dövlət dili isə türk dilidir. Türkiyə Cümhuriyyəti 1923-cü il oktyabrın 29-da Osmanlı İmperiyasının bölüşdürülməsi nəticəsində yaranmışdır [22].

Faktiki olaraq Türkiyə Osmanlı imperiyasının (1299-1922) xələfi hesab olunur. Osmanlı imperiyasından əvvəl bu ərazilərdə Ellinizm, Roma və Bizans mədəniyyətləri mövcud olmuş və regionda bu gün də müstəsna əhəmiyyət kəsb edən mədəni irs qoyub getmişlər. Onların türk sivilizasiyası tərəfindən əxz edilməsindən və müsəlman mədəniyyəti, türkçülük ənənələri ilə sintezindən Yaxın və Orta Şərqdə spesifik türk superetnosu yaranmışdır [23]. Bir neçə əsr ərzində bu fövqəladə etnik faktor regionda yaşayan bütün xalqları, etnik və konfessional birlikləri öz siyasi orbitinə cəlb etmiş və qüdrətli Ottoman (Osman) İmperiyasının yaradılmasına nail olmuşdu.



Müasir Türkiyə Respublikası dinamik şəkildə inkişaf edən sənaye ölkəsidir. Adambaşına düşən ümumdaxili məhsulun illik həcmi 19 610 min ABŞ dolları təşkil edir.

Ölkə əhalisinin əsas hissəsi etnik türklərdən ibarətdir. Qeyd etmək lazımdır ki, Osmanlı imperiyası dönəmində müasir "türk" və "Türkiyə" anlayışlarını "osmanlı" anlayışı əvəz edirdi. İmperiyada təmsil olunan bütün xalqları və etnik qrupları da, məhz "osmanlı məfkurəsi", "osmanlı təbəəsi" kimi məfhumlar birləşdirirdi.

Laisizmin (lat. *laicus* - sivil, dünyəvi) rəsmi dövlət siyasəti olduğu müasir Türkiyə Respublikasında, ölkə ərazisində yaşayan bütün etnik və dini müxtəlifliklərə münasibətdə liberal mədəni siyasət həyata keçirilir. Belə mütərəqqi siyasətin təntənəsi isə müasir türk dövlətinin yaradıcısı **Qazi Mustafa Kamal Atatürkün** (1881-1938) adı ilə bağlıdır.



Bu gün unikal məkan kimi məşhur olan Türkiyə ərazisində dövlətyaradan titul xalq kimi türklərdən başqa, çoxlu sayda xalqların və dini konfessiyaların nümayəndələri yaşayırlar. Türklərdən sonra ölkədə təmsil olunan ən çoxsaylı xalq kürdlərdir. Türkiyənin əhalisinin 18,7%-ni (20 milyon) təşkil edən kürdlər, ölkənin demək olar ki, bütün əyalətlərində təmsil olunurlar. Lakin kompakt şəkildə kürdlər Türkiyə Respublikasının şərq və cənub-şərq vilayətlərində - Bingöldə, Bitlisdə, Vanda, Maraşda, Malatyada, Muşda, Şirnakda, Tuncelidə, Hakkaridə, Elyazıqda, Diyarbəkirdə, Şanlıurfada və s. məskunlaşmışlar.

Bundan başqa Türkiyə ərazisində kompakt, yaxud qarışıq şəkildə assiriyalılar, yezidi kürdlər, zazalar (mədəni cəhətdən kürdlərə yaxın olan irandilli xalq), krım tatarları, türk abxazları, ubıxlar (mədəni cəhətdən abxazlara və abazinlərə yaxın xalq), azərbaycanlılar, ələvilər, afrotürklər (türkləşmiş qaradərili afrikalılar), yunanlar, ermənilər, ərəblər, bolqarlar, boşalar (etnik qaraçılar), qacallar (subetnik türklər), müsəlman-yunanlar, qazaxlar, karaimlər (yəhudilər), qarapapaqlar (azərbaycanlılar), qırğızlar, klarclar (gürcülər), Kürdüstan yəhudiləri, lazlar (gürcülər), levantinlər (latınlar), ləzgilər, almanlar, osetinlər, pomaklar (slavyandilli etnik-dini qrup), pontiyalılar (yunanlar), rutullar (Dağıstan xalqı), ruslar, özbəklər, qaraçılar, çeçenlər, lurlar, şavşilər (gürcülərin subetnik qrupu), yuryuklar (köçəri türklər) yaşayırlar [24].

Türkiyədə çox zəngin etnik-mədəni və dini-konfessional mənzərəyə özünəməxsus rəng qatan etnoslardan biri azərbaycanlılardır. Türkiyədə daimi yaşayan azərbaycanlıların ümumi sayı 1 milyon nəfərə yaxındır. Onlardan 300 min nəfəri Azərbaycan Respublikasının vətəndaşlarıdır. Dini etiqad baxımından onların böyük bir hissəsi şiə-müsəlmanlardır. Az

saylı sünni-müsəlmanlara da rast gəlmək olur. Şərqi Anadoluda kompakt şəkildə yaşayan bütün azərbaycanlıları “əcəm”, yaxud “tat” adlandırırlar. Onların əsas hissəsi İqdır və Qars şəhərlərində yaşayırlar. Qarsın sünni əhalisi azərbaycanlılara “şiələr” deyirlər. Burada azərbaycanlılar, əsasən “Yeniməhəllə” və “İstasyon” kimi tanınan rayonlarda məskunlaşmışlar. Sözügedən rayonlarda müxtəlif adlar altında böyük və tanınmış nəsillər mövcuddur (məsələn, Mollamusalılar, Qulubəylilər və s.) [25]. Qars və Arpaçay bölgələrində onlarla azərbaycanlı kəndləri yerləşir.

Qeyd etmək lazımdır ki, XX əsrin 20-ci illərinin lap əvvəllərindən Qarsda, Səlimdə, Arpaçayda və Sarıqamışda azərbaycanlı subetnik qrup olan və qarapapaqlar kimi tanınan tərəkəmələr yaşayır. Əsas etibarı ilə köçəri maldarlar olan tərəkəmələr Türkiyədən başqa Azərbaycanda və Dağıstanda da yaşayırlar [26].

Türkiyədə dini etiqadla bağlı azadlıq ölkə konstitusiyasında təsbit olunmuş ən sivil qanunlarla qorunur. Ölkə əhalisinin böyük bir hissəsi müsəlmanlardır. İslama sitayiş edən etnoslar sırasına türklərdən başqa kürdlər, ərəblər, qazaxlar, ləzgilər, rutullar, tatarlar, özbəklər, çeçenlər, yuryuklar və s. daxildir. Onların içərisində, əsasən sünni-hənəfilər (Əbu Hənifənin (699-767) adı ilə bağlıdır), məturidi (müqəddəs kəlamın sünni məktəblərindən biri, bilavasitə Əbu Mənsur əl-Məturidinin (870-944) adı ilə bağlıdır) tərəfdarları mütləq çoxluq təşkil edir. Eyni zamanda ölkədə nəqşbəndi (sufi qardaşlığı - Məhəmməd Nəqşbəndinin (1318-1389) adı ilə bağlıdır) və məvləvi (ritual rəqslərlə meditasiya edən sufi təriqəti) təriqətlərinin mənsubları da yaşayır. Kürdlərin arasında sünniliyin şafii (Məhəmməd ibn İdris əş-Şafiinin (767-820) adı ilə bağlıdır) məzhəbinin mənsubları da var.

Türkiyə Respublikasında çox yüksək təşəkküllü tolerant mühitin olmasını, multimədəni vəhdətin təbii və üzvi elementlərə əsaslanmasını, nəhayət etnik-siyasi və dini-konfessional münasibətlərin sivil qaydalar və rəsmi qanunlar əsasında tənzimlənməsini aşağıdakı rəqəmlər sübut edir: rəsmi qeydiyyatdan keçmiş müxtəlif xristian cərəyanlarını və təriqətlərini təmsil edən 321 icma, İstanbul, Adana, Ankara, İzmir, Çanakqala, Bursa, Qırxlareli kimi müxtəlif şəhərlərdə 39 yəhudi sinaqoqu, Konstantinopol Patriarxatlığının tam nəzarəti altında olan 90 ibadət evi (onlardan 75-i İstanbulda, 8-i Göyçəadada, 6-sı Hatay ilində, 1-i isə Bozcada yerləşir), 55 erməni-qriqorian icması (onlardan 45-i İstanbulda, 7-si Hatayda, 1-i Mardində, 1-i Diyarbəkirdə, 1-i isə Kayseridə yerləşir), cəmi 60 assiriya-nestorian, pravoslav-bolqar, erməni-katolik, eləcə də 52 adda protestant icmaları. Nəhayət, ölkənin şərqində sinkretik dini təlimlərin daşıyıcıları

olan yezit məskənləri. Beləliklə, etnik-siyasi, eləcə də dini-konfessional münasibətlərin ümumi cizgilərdə təhlili belə bir nəticəyə gəlməyə imkan verir ki, bu gün Türkiyə cəmiyyətində laisizmin fundamental prinsipləri dövlət siyasəti səviyyəsində tam qorunur. Ölkədə mövcud olan fövqəladə etnik-mədəni müxtəliflikləri nəzərə alsaq, Türkiyə dövlətinin etibarlı və təhlükəsiz etnik-mədəni birlik formalaşdırmaq istiqamətində əldə etdiyi nailiyyətləri, dünyada mövcud olan çoxlu sayda polietnik məkanlar üçün nümunə hesab etmək olar.

## 10.6. Multikulturalizmin İsrail modeli (ing. *Israel model of multiculturalism*)



Etnik-dini və mədəni müxtəlifliyin rəngarəng spektrdə təmsil olunduğu məkanlardan biri də, tarixdə "Kənan" adlanan ərazidir. Yaxın Şərqdə şərti olaraq "Münbit aypara" (ing. *Fertile Crescent*) adı ilə tanınmış bir coğrafi məkanın qərb hissəsini təşkil edən Kənanda bu gün Suriya, Livan, **İsrail,** Fələstin və İordaniya kimi dövlətlər yerləşir. Tövratda və İncildə Kənan "Müqəddəs torpaq", "Tanrıdan vəd almış torpaq" kimi xarakterizə olunur [27]. Sözügedən unikal məkan isə bütün tarix boyu sivilizasiyaların və mədəniyyətlərin toqquşduğu yer, peyğəmbərlər yurdu kimi tanınmışdır. Dünyanın üç əsas monoteist dinlərindən ikisi - iudaizm və xristianlıq öz mənbəyini buradan götürür. Burada dünyanın dörd min illik tarixi olan Müqəddəs Yərusəlim, yaxud Əl-Qüds şəhəri yerləşir. Məhz bu şəhərdə dünyanın üç əsas monoteist dininin - iudaizmin, xristianlığın və islamın qədim müqəddəs obyektləri - Süleyman məbədinin sağ qalmış divarı, İsa Məsihin Tabutu (lat. *Sanctum Sepulchrum*), yaxud Kuvukliya adlanan qədim xristian məbədi, Əl-Əqsa məscidi (ərəb.*Əl-Məscid əl-Əqsa*), Qaya Kümbəzi məscidi (ərəb.*Məscid Kübbət əs-Səhra*), eləcə də Ömər məscidi yerləşir. Sözügedən ərazidə təmsil olunan dövlətlərdən biri də İsraildir. Kənanın digər dövlətləri kimi İsrailin də qədim və zəngin tarixi vardır. 14 may 1948-ci il tarixində yaradılmış müasir İsrail dövlətinin 22 072 km$^2$ ərazisi və 8 680 000 nəfər əhalisi vardır.Yəhudilər tərəfindən paytaxt Yərusəlim şəhəri tanınsa da, ölkənin iqtisadi və mədəni mərkəzi, faktiki olaraq indiki **Tel-Əviv-Yaffa** şəhəri hesab olunur. 13 dekabr 1949-cu il tarixində İsrail parlamentinin (Knesset) Yərusəlimi İsrailin paytaxtı elan

etməsinə və 1967-ci ildən etibarən şəhərə tam şəkildə nəzarət etməsinə baxmayaraq, bu fakt beynəlxalq təşkilatların böyük bir hissəsi tərəfindən bu gün də tanınmamışdır [28].

6 dekabr 2017-ci il tarixində ABŞ prezidenti Donald Tramp (2017-ci il yanvar ayının 20-i tarixdən ABŞ prezidentidir) tərəfindən Yərusəlimin İsrailin paytaxtı kimi tanınması, ABŞ səfirliyinin Tel-Əviv-Yaffadan buraya köçürülməsi qərarı və bununla bağlı digər bəyanatlar, nəinki Yərusəlimdə, Fələstində və İsraildə, həmçinin bütün dünyada siyasi, etnik-konfessional və dini-mədəni münasibətləri yenidən gərginləşdirmişdir.



İsrail unitar quruluşlu dövlətdir və parlament tipli respublikadır. Dinamik şəkildə inkişaf edən bir sənaye ölkəsidir. Ümumdaxili məhsulun ümumi həcmi 300 milyard ABŞ dolları təşkil edir. Adambaşına düşən milli gəlirin həcmi isə 36 min ABŞ dollarıdır. Pul vahidi şekeldir (3,8 şekel - 1 ABŞ dolları).

İsrail yəhudi dövləti kimi yaradılsa da, demokratik və çoxmillətli dövlət kimi özündə çoxlu sayda etnik və dini müxtəliflikləri təmsil edir. Onların sırasına ərəb-müsəlmanlar, ərəb-xristianlar, druzlar, bədəvilər, samirəlilər, çərkəzlər və başq. daxildirlər. Ölkə əhalisinin əsas hissəsini yəhudilər (75,4%) və ərəblər (20,6%) təşkil edir. Əhalinin qalan 4%-i isə digər xalqların və etnosların mənsublarından ibarətdir.

Kənanın əsrlərlə davam edən əsas problemi yəhudilərlə fələstinlilər arasında etnik-dini zəmində cərəyan edən qarşıdurmadır. Bu qarşıdurmada əsas "nifaq alması" isə Yərusəlimdir. Bu münaqişə Yəhudi çarı Davidin (e.ə. 1005-965) Fələstin döyüşçüsü Qoliafı (ərəb. *Calut*) qətlə yetirməsi ilə başlanmış və əsrlərin yaddaşından keçərək bu gün də davam edir. 1948-ci ildə İsrail dövlətinin yaradılması ilə bu konfrontasiya daha da kəskin xarakter almış və S.Ərəbistanının Misirin, Livanın, İordaniyanın, Suriyanın, eləcə digər ərəb dövlətlərinin simasında öz orbitinə çoxsaylı yeni aktorlar cəlb etmişdi. Odur ki, İsrail dövlətinin qarşısında duran ən vacib tarixi vəzifə, ölkənin suverenliyini təmin etmək şərti ilə, Fələstinlə və bütün ərəb dünyası ilə barışıq əldə etmək və multimədəni prinsiplərə əsaslanan həmrəy cəmiyyət qurmaq



idi. 1967-ci ildə baş vermiş “Altı günlük müharibə” (5-10 iyun), 1972-ci ildə (26 avqust - 10 sentyabr) Münhendə keçirilən XX Yay Olimpiya oyunları zamanı “Qara sentyabr” kimi tanınan Fələstin terror təşkilatı tərəfindən İsrail futbol komandasının qətlə yetirilməsi, 1973-cü ilin 5-25 oktyabrnda baş vermiş və tarixə “Qiyamət günü müharibəsi” kimi daxil olmuş ərəb-israil qarşıdurması bir daha sübut etdi ki, regionda davamlı sülhə və əmin-amanlığa nail olmaq üçün yeganə yol dialoq və razılıq yoludur.

1977-ci ilin 19 noyabr tarixində Misirin prezidenti Ənvər Sədatın (1970-1981)Yərusəlimə tarixi səfəri, münasibətlərin yaxşılaşdırılmasında ilk addım oldu. 30 il ərzində İsrailə qarşı ərəb müqavimətinə rəhbərlik etmiş Misirin dövlət başçısının bu addımı İsrailin ərəb dövləti tərəfindən tanınması demək idi [29].

Bu gün İsrail regionda etnik və dini müxtəliflik faktorunu, xüsusən də cari fələstin-israil münasibətlərini nəzərə alaraq, ən yüksək təşəkküllü balanslaşdırılmış siyasət həyata keçirməyə çalışır. Müasir İsrail etnik-dini və mədəni müxtəlifliyin vəhdət təşkil etdiyi spesifik məkan kimi qiymətləndirilir. Ölkədə “İsrail vətəndaşı” adı daşıyan əhalinin 75,4%-i yəhiudaizm dininə, 16,9%-i islam dininə, 2,1%-i xristian dininə, 1,7%-i druzilik dininə, 3,9%-i isə digər dini təlimlərə sitayiş edir. İsraildə, eləcə də buddist, hinduist və digər dini qruplar və icmalar mövcuddur.

İsraildə bütün xristian əhali əsas etibarı ilə katoliklər, pravoslavlar, protestantlar (məsihəçi yəhudilər), əllincilər və baptistlər qismində təmsil olunurlar. İsrailin Hayfa şəhərində, həmçinin Bəhailiyin Ümumdünya Mərkəzi yerləşir. Bəhailiyin banisi Hüseyn Əli ən-Nurinin (Bəhaulla – 1817-1892) qəbri də İsrailin Akko şəhərindədir. Qeyd etmək lazımdır ki, bəhailik ciddi monoteizmi və transendent tanrı ideyasını tərənnüm etsə də, islamiyyətdə bidət kimi qiymətləndirilir [30].

Bu gün “İsrail” adlanan etnik-siyasi qüdrət faktoru xalqları, dinləri və əqidələri vahid bir məkanda, bütün özəllikləri ilə birlikdə təmsil edən fenomendir. O, dinamik şəkildə təzahür edən iqtisadi tərəqqi və yüksək təşəkküllü sivil, demokratik münasibətlər sistemi sayəsində ictimaiyyətin diqqətini insan kapitalının inkişaf etdirilməsinə yönəltmişdir. Əsl sağlam düşüncəyə əsaslanan və tam təhlükəsiz gələcəyə hesablanmış etnik-dini siyasət isə artıq öz müsbət bəhrəsini verməkdədir.

1993-cü ildə Fələstinin Milli Administrasiyasının yaradılması və ərəblərin İordan çayının qərb sahilinə və Qəzza sektoruna nəzarət etməyə başlaması, 1994-cü ildə isə İsrail-İordan sülh müqaviləsinin bağlanması, Fələstin Azadlıq Təşkilatının İsraili tanıması və digər tədbirlər ölkədə

gərginliyi xeyli azaltmışdır.

Knessetdə yəhudilərlə yanaşı druz və bədəvi deputatlar, həmçinin ərəb partiyaları və deputatları da təmsil olunurlar. İsrail dünyada ən çox mühacir qəbul edən dövlətlərdən biri sayılır. 2011-ci ilə aid son statistik məlumatlarda deyilir ki, İsrailin əhalisinin 27,3%-i (1,6 milyon nəfər) ölkədən kənarda doğulmuş və buraya əsasən repatriant qismində gəlmiş insanlardır, onlardan 691,8 min nəfəri Asiya ölkələrindən köçüb gəlmiş şəxslərdir. Onların içərisində isə etnik yəhudilər və etnik ərəblər çoxluq təşkil edir.

İsrail dövlətinin ən əsas qanunlarının (İsrail dövlətinin xüsusi qəbul edilmiş bir konstitusiyası yoxdur) aparıcı motivlərini dinindən, dilindən, irqindən və etnik mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların siyasi hüquqlarının və azadlıqlarının qorunması təşkil edir. Bu siyasəti İsrail hökuməti özünün ən ali məqsədi hesab edir və onun uğurla həyata keçirilməsi üçün, bütün sivil və mütərəqqi metodlardan istifadə edir.

## 10.7. Multikulturalizmin Livan modeli (ing. *Lebanese model of multiculturalism*)



Yaxın Şərqdə etnik-dini və milli-mədəni müxtəlifliklərin vahid və dönməz məfkurə ətrafında birləşdiyi məkanlardan biri də Livandır. Ön Asiyanın qərbində, Aralıq dənizinin şərq sahillərində yerləşən Livan Respublikası (ərəb. *əl-Cumhurriyyə əl-Lubnaniyə*) uzaq 1943-cü il 22 noyabr tarixində təşkil edilmişdir. Parlament tipli respublikadır. Sivil dövlətdir. Ərazisi 10 452 km$^2$, əhalisi 6 milyon nəfərdir. Paytaxtı Beyrut şəhəridir. Ümumdaxili məhsulun həcmi 63 milyard ABŞ dolları, adambaşına düşən milli gəlirin həcmi isə 16 000 ABŞ dolları təşkil edir. Pul vahidi Livan funtudur [31]. Livan ərəb dünyasında dini müxtəlifliklərin geniş spektrdə təmsil olunduğu bir ölkədir. Bununla əlaqədar ölkədə multikulturalizmin spesifik modeli olan konfessional demokratiya təşəkkül tapmışdır. Bu siyasətə görə, dövlət hakimiyyətinin təşkili işi cəmiyyətin dini icmalara bölünməsinə uyğun olaraq həyata keçirilir.

II Dünya müharibəsindən sonra, 30 il müddətində Livanda dinamik sosial-iqtisadi inkişaf baş vermiş və ölkə müasir ərəb dünyasının bank və maliyyə mərkəzinə çevrilmişdi. Sözügedən dövrlərdə Livanda xristian əhalinin çoxluq təşkil etməsi ilə əlaqədar ölkəni "Yaxın Şərq İsveçrəsi"

adlandırırdılar (bu epitet müəyyən mənada hələ də qüvvədədir).

Livanın siyasi quruluşunu təyin edən qanunlara görə, dövlət başçısı (prezident) məhz xristian-maronit, hökumətin başçısı (baş nazir) sünni-müsəlman, parlamentin rəhbəri isə şiə-müsəlman olmalıdır. Keçən XX əsrin 50-ci illərinin əvvəllərində sözügedən vəzifələri icra edən prezident Kamil Şamun (1952-1958) və baş nazir Rəşid Karame bir-birinə əks olan xarici siyasət həyata keçirdiklərinə görə, ölkədə həm siyasi, həm də dini-konfessional gərginlik başlanmış və 1958-ci ildə vətəndaş müharibəsi ilə nəticələnmişdi [32].

Ölkədə yaranmış vəziyyətlə əlaqədar 1958-ci il iyul ayının 14-də prezident Şamun BMT-yə və ABŞ prezidenti Duayt Eyzenhaurə (1953-1961) yardım məqsədi ilə müraciət etmişdi. “Eyzenhauer doktrinasına” (ing. *Eisenhower Doctrine* -05 yanvar 1957-ci il tarixində, o dövrdə ABŞ prezidenti Duayt Eyzenhauerin ABŞ Konqresinə müraciəti. Bu doktrina dünyanın hər hansı bir ölkəsində kommunizm təhlükəsi yarandığı halda, ABŞ-ın vəziyyətə müdaxilə hüququnun olmasını nəzərdə tuturdu) uyğun olaraq, 1958-ci il iyulun 15-də ABŞ hərbi hissələri Livana daxil olmuşdu (“Mavi yarasa” əməliyyatı) [33]. Nəticədə isə prezident kürsüsü liberal yönümlü xristian-maronit Fuad Şehabın (1958-1964) əlində cəmləşmişdi. Müsəlman Rəşid Karame (1955-1987-ci illərdə 8 dəfə Livan hökumətinə rəhbərlik etmişdi) isə baş nazir vəzifəsini tutmuşdu. Bu minvalla böhran aradan qaldırılmışdı.

Çox təəssüf ki, XX əsrin 70-ci illərinin əvvəllərində ölkədə yenidən gərginlik yarandı və bu İordaniyadan qovulmuş fələstinlilərin Livanda məskunlaşmaları və silahlı dəstələr yaratmaları ilə bağı idi [34]. 1975-1989-cu illərdə davam edən və xristian-maronitləri, şiə-müsəlmanları və sünni müsəlmanları üz-üzə qoyan vətəndaş müharibəsi 22 oktyabr 1989-cu il tarixdə Səudiyyə Ərəbistanının Taif şəhərində bağlanmış müqavilə ilə başa çatdı. 15 il davam edən vətəndaş müharibəsi Milli barışıq aktı ilə nəticələndi.

Livan Respublikası multikulturalizmin spesifik təzahürlərindən biri olan konfessional demokratiyanın bərqərar olduğu sivil dövlətdir. Ölkədə müxtəlif dini konfessiyaları təmsil edən icmalar mövcuddur və onların içərisində ən çoxsaylıları sünni, şiə və maronit icmalarıdır. Ümumiyyətlə, Livan Konstitusiyası ölkənin siyasi və iqtisadi-mədəni həyatında aktiv rol oynayan 18 dini icmanı rəsmi olaraq tanıyır: şiələr, sünnilər, ələvilər, ismaillilər, druzlar, erməni-qriqorianlar, erməni-katoliklər, Şərq Assuriya kilsəsi, Xaldey katolik kilsəsi, Koptlar (etnik-dini qrup, əsas etibarı ilə pravoslav xristianlardır), xristian-yevangelistlər (incilçilər, baptistlər və

yeddinci günün adventistləri), yunan katoliklər, pravoslavlar, maronitlər, Roma-katolik kilsəsi, Suriya-katolik kilsəsi, Suriya-pravoslav kilsəsi və yəhudaistlər.

Bu gün Suriyada və İraqda baş verən hərbi əməliyyatlarla əlaqədar Livanda iki milyona yaxın qaçqın və məcburi köçkün məskunlaşmışdır. Bundan əlavə ölkə ərazisində Hindistandan, Pakistandan, Banqladeşdən, Filippindən, Efiopiyadan və digər ölkələrdən gələn minlərlə işçi çalışır.

Müasir multikultural Livan cəmiyyətində əldə edilmiş konsensusa (lat. *consensus* - razılıq, yekdillik, yəni qərarların qəbul edilməsi zamanı münaqişələrin həll edilməsi üsulu) görə müsəlmanlar ölkə əhalisinin mütləq çoxluğunu təşkil edir. Ən böyük müsəlman icması şiə icması hesab olunur. Şiə müsəlmanlar isə ölkə əhalisinin 40%-ni təşkil edir. Lakin şiə icmasının ölkənin idarə olunmasında rolu sünni müsəlmanlara və xristian-maronitlərə nisbətən qat-qat aşağıdır. Qəbul olunmuş ənənələrə görə isə ölkə parlamentinin sədri şiə müsəlmanlar arasından seçilir.



Sayca Livanın əhalisinin ikinci böyük hissəsini sünni müsəlmanlar təşkil edir. Sünnilərin sayları isə ölkə əhalisinin ümumi sayının 21%-nə bərabərdir. Lakin onlar ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatında şiə müsəlmanlara nisbətən daha həlledici rol oynayırlar. Ölkədə hökm sürən ənənəyə görə, Livan Respublikasının Baş naziri vəzifəsini məhz sünni müsəlmanların nümayəndəsi tutur. Druzlar azlıq təşkil etsələr də, onların təmsil etdiyi icma ölkə siyasətinə ciddi şəkildə təsir göstərən dini icmalardan biri qismində tanınır. Livan Respublikasında konfessional demokratiyanın bərqərar edilməsində druz icmasının da həlledici rolu vardır. Bununla belə, ölkənin əsl multikultural və sivil-mədəni strukturu Livanı Ərəb dünyasında islam dininin hakim dini ideologiya olmadığı yeganə dövlətə çevirmişdir.

Bu gün bütün ərəb ölkələri içərisində ən çoxsaylı xristian icmasının yaşadığı ölkə Livandır. Lakin islam dini kimi, xristianlıq da ölkədə çoxlu sayda müxtəlif konfessiyalarla təmsil olunmuşdur. Onlardan ən böyüyü xristian-maronitlərdir (maronitlər Bizans imperiyası dövründə ortodoksal xristianlıqdan ayrılmış və Roma katolik (Qərb) kilsəsini dəstəkləyən dini konfessiyadır, IV-V əsrlərdə yaşamış guşənşin Müqəddəs Maronun adı ilə bağlıdır). Livanın tarixində, Livan Respublikasının təşəkkülündə və formalaşmasında maronitlərin müstəsna rolu vardır. Maronitlərin Qərb

ölkələri ilə sıx əlaqələri Livanda laisizmin və vesternizasiyanın bərqərar olmasında həlledici rol oynamışdır. Ölkədə mövcud olan konfessional demokratiyanın bərqərar edilməsində maronitlərin təşkilati və inteqrativ rolu danılmazdır. Dünyanın siyasi tarixində unikal fenomen kimi təzahür edən konfessional idarəçilik sistemi, ilkin olaraq Livanda maronitlərlə druzlar arasında birgəyaşayış münasibətləri və qarşıdurması nəticəsində meydana gəlmişdir. Məhz elə konfessional demokratiyanın prinsiplərinə uyğun olaraq, müstəqil Livan tarixində dövlət başçısı vəzifəsini maronit icmasının nümayəndəsi tutur. Müasir, sivil Livan Respublikası dinamik şəkildə inkişaf edən əsl demokratik dövlətdir. O, həm ərəb dünyası, həm Qərb dövlətləri, həm də dünya siyasətində söz sahibi olan Rusiya, Çin, Hindistan, İran və s. kimi dövlətlərlə sıx münasibətdə balanslaşdırılmış xarici siyasət həyata keçirir. Livan cəmiyyəti, onun siyasi elitası və dini icmaların rəhbərləri ölkədə yaradılmış əsl konfessional demokratiya və multikultural sosium ənənələrinə sadiqdir. Məhz bu cür siyasətə rəğmən Livan, fövqəladə münaqişəli bir məkan olan Yaxın Şərqdə sülh, razılıq, dialoq, qarşılıqlı anlaşma və yüksək təşəkküllü mədəni siyasət həyata keçirən dövlət statusu qazanmışdır.

### 10.8. Şərq multikulturalizminin müasir vəziyyəti: problemlər və perspektivlər (ing. *The current state of Eastern multiculturalism: problems and perspectives*)




Bu gün Şərq dünyası özünün ən çətin günlərini yaşayır. Əsrlər əvvəl etnosların təhtəlşüurunda özünə yer tapmış “saatlı bomba” işə düşmüşdür. Başdan-başa tanrı əhdlərinə sədaqət rəmzlərini - yəhudaizmi, xristianlığı, islamı, buddizmi, hinduzmi, daosizmi, konfusiançılığı tərənnüm edən insanlar bəşəri və səmavi dəyərlərdən əsl barışıq aktı kimi istifadə etmək əvəzinə, onları eqoizm, intolerantlıq və ayrı-seçkilik koduna çevirmişlər. Mütərəqqi əqidələrin hamı tərəfindən tanındığı və təqdir edildiyi Böyük Şərqdə, nədənsə etnik-siyasi və dini-konfessional tənzimləmə mexanizmləri kifayət qədər effektli işləmirlər. Birliyə və həmrəyliyə aparan yollar isə ifrat barışmazlıq kompleksindən hörülmüş divarla bağlıdır.

İntolerantlığın Şərq təfəkküründə “doğma-özgə” düsturu yaratması, eyni yurdun vətəndaşlarını, etnosları, dinləri, əqidə və məzhəbləri üz-üzə

qoymuşdur. XX əsrdə milli dövlətlər kimi təşəkkül tapmış və çox qədim tarixi olan Liviya, Suriya, Tunis, İraq, Yəmən, Əfqanıstan və digər Şərq ölkələrində etnik-dini zəmində baş verən silahlı qarşıdurma milli fəlakət səviyyəsinə çatmışdır. İnsanlar kütləvi şəkildə öz ata-baba yurdlarını tərk edərək, naməlumsuzluğa üz tuturlar. Çiçəklənən yurdları xarabazarlığa çevirmiş müharibənin sonu isə görünmür. Bəs nə üçün tarix boyu müdrik insanların yaşadığı, əxlaqi-mənəvi dəyərlərin bir nümunə kimi tanındığı Qoca Şərqdə mütləq razılığa gəlmək və konsensusa əsaslanan ümumi rifah cəmiyyəti yaratmaq belə çətindir? Bu çoxlu sayda subyektiv və obyektiv faktorlarla bağlıdır. Xüsusilə də Şərq adamının təfəkküründə və tarixi yaddaşında çox dərin kök salmış "populist təəssübkeşliklə" ifadə olunan və dini cəhalətdən bəhrələnən neqativ stereotip öz sözünü deyir. "Sosial-mədəni höcətliyə" çevrilmiş bu əqidə Şərq adamını "qardaşına və rəhbərlərinə silah çevirmək" kimi müdhiş bir əmələ sürükləyir."İlk qan axıdılır, məzhəblər və məsləklər itir, eyni yurdun insanları bir anda bir-birilərinin qatı düşmənlərinə çevrilirlər".

Şərq dünyası Yer kürəsində olan təbii sərvətlərin fövqəladə şəkildə konsentrasiya olunduğu məkandır. Planetin əhalisinin böyük bir hissəsi də, məhz elə Şərqdə yaşayır. Buna baxmayaraq, elmi-texniki dühanın mənbəyi Qərb hesab olunur. Əsas insan kapitalının həcmi baxımından da Şərqin göstəriciləri Qərbə nisbətən kifayət qədər aşağıdır. Belə şəraitdə dünyanın bütün təbii sərvətlərinə nəzarət etməyi və onlara sahib olmağı özünün strateji doktrinasına çevirmiş nüfuzlu transmilli korporasiyalar və onlara daim himayədarlıq edən "boz kardinallar" Şərqlə bağlı əsas taktiki məqsədlərinə çatmaq üçün etnik-milli və dini-konfesional konfrontasiya kartından bacarıqla istifadə edirlər. Danılmaz faktdır ki, təbii sərvətlərə, əsas strateji məhsullara, insanların təfəkkürünə, onların dünyagörüşünə nəzarət edən güc faktoru dünyanın ağası olacaqdır. Beləliklə, planetin bu günü və gələcəyi haqqında qlobal strateji planı olan fövqəlgüc, cari və perspektiv proqramlarını reallaşdırmaq üçün, davamlı olaraq sınaqdan çıxarılmış ssenaridən istifadə etməkdə israrlıdır. Bu isə çox sadə düstura əsaslanır: konkret məkanda mövcud olan sosial-iqtisadi, ictimai-siyasi boşluqlardan, davamlı münaqişələrdən, separatizm meyllərindən və dini dözümsüzlükdən istifadə edərək yeni münaqişə yaratmaq, ona dinamik şəkildə alovlanan "ekşen" (ing. *action* - çox yüksək templərlə baş verən hərəkət) qatmaq, dialoqa, kompromisə aparan yolları birdəfəlik qapamaq məqsədilə radikal fərdləri silahlandırmaq və növbəti mərhələlərdə "siz bizsiz bacarmazsınız" deyərək, guya üzdəniraq "qanun-qayda yaratmaq məqsədi ilə" hərbi müdaxiləni reallaşdırmaq, nəhayət "cek pota" (ing.

*jackpot* - ən böyük uduş) sahib olmaq. Bir məqamı qeyd etmək lazımdır ki, bu gün çox ciddi etnik-konfessional müxtəliflikləri ilə tanınmış Şərq ölkələrindən, xüsusilə də müsəlmanların çoxluq təşkil etdikləri patriarxal cəmiyyətlərdən heç biri, baş verəcək münaqişədən sığortalanmamışdır. Çünki Şərq dünyasını təmsil edən cəmiyyətlərdə çoxlu sayda real, yaxud potensial etnik-dini münaqişələr, bu münaqişələrdə hər an "canla başla" iştirak etməyə hazır olan ekstremist ruhlu insanlar var. Münaqişə, xaos, özbaşınalıq, zorakılıq və intolerantlıq onların cahil ruhunu bütöv şəkildə ifadə edir. Onlar məqsədlərinə yalnız münaqişə yolu ilə, defisit resursları, başqalarının əmlakını yağmalamaqla çatmağı arzulayırlar. Münaqişəli cəmiyyət onların fəaliyyəti üçün ideal mühit, zorakılıqla ifadə olunan hərbi-siyasi hüdudsuzluq isə həyat tərzidir. Onlar qanunçuluğa, sabitliyə, barışığa qəti nifrət edirlər. Çünki belə dəyərlərin təntənəsi onların sonu deməkdir. Beləki, onlar tanrı nemətini əldə etməyin yalnız zorakı yolunu bilirlər və başqa hər hansı fiziki, mədəni, yaxud idraki qabiliyyətləri belə yoxdur. Məsələnin gedişi isə qlobal siyasətin maraqlarının bu və ya digər məkanda hansı tərzdə toqquşmasından asılıdır. Beləliklə, təbii sərvətlərin konsentrasiya olunduğu məkanlarda daim "özgəyə" qarşı savaş açmağa hazır olan, kompromisin, barışığın və güzəştin nə olduğunu bilməyən, "kromanyon səviyyəsində" düşünən başıpozuq radikal, öz davranışı və əməlləri ilə, özü də heç bilmədən onun yurdunu, tanrıdan bu yurda bəxş olunmuş sərvətləri ələ keçirmək üçün var qüvvəsi ilə çalışan bir "iblisə" xidmət edir. O, çoxdan cələyə düşüb, həqiqəti dərk edib (əgər sağ qalsa) peşman olanda isə onun yağmalanmış yurdu artıq ayaqlar altında olacaq, sərvətinin üstündə isə "boz kardinalların" bayraqları dalğalanacaq. Bu acı taleyi yaşamamaq üçün fərdin analitik təfəkkürünü, tənqidi və skeptik düşünmək qabiliyyətini inkişaf etdirən, neqativ stereotiplərdən qoruyan, ümumbəşəri dəyərlərlə zənginləşdirən nəzəri və praktiki mexanizmlərin tətbiq edilməsi son dərəcə vacibdir. Bu baxımdan ən effektli mexanizm maarifçilik yolu ilə cahillik kodunu məhv etmək, mütərəqqi dəyərlərdən bəhrələnməmiş təfəkkürün hipotetik keçmişlə yanlış əlaqəsində pozitiv düzəlişlər etməkdir. Bu minvalla müasir qlobal cəmiyyətin tələblərinə cavab verən, dünyəvi biliklərdən bəhrələnmiş insanın formalaşdırılması başlıca şərt olaraq qalır. Yalnız belə insan tipi dünyanın pozitiv təsvirini yaratmağa, cəhalətə, ekstremizmə, intolerantlığa, radikalizmə qəti "yox" deməyə qadirdir.

Bu gün yüksək təşəkküllü konsensusa və multikultural razılığın bərqərar edilməsinə nail olunmuş bir çox Şərq ölkələrində (Livan, İsrail, Azərbaycan, İndoneziya, Malayziya, Çin, Filippin və s.) demokratik və

plüralist düşünən yeni şəxsiyyət mütləq sülhə, təhlükəsizliyə və əmin-amanlığa aparan mütərəqqi tarixi bir vəzifəni yerinə yetirir. Ali dəyərlərə əsaslanan ümumi rifah cəmiyyəti qurur. Bu isə bütün Şərq üçün nümunə olmalıdır. Bununla bağlı müasir Şərq sivilizasiyasının ən son məqsədi sülhün, barışığın, tolerantlığın və etnik-siyasi konsensusun sərhədlərini maksimum genişləndirmək, Qoca Şərqə layiq yeni münasibətlər sistemi qurmaqdır. O zaman tanrının və təbiətin Şərq insanına bəxş etdiyi nemət və bərəkət ona əsl səmərə gətirəcək, gələcək nəsillər sələflərinin qurduğu cəmiyyətlə fəxr edəcəklər.

### *İstinadlar*


*1. Смагина Е.Б. Манихейство.-Москва, Восточная литература,1998. С.32-44.- 519 с.*

*2. Рашидаддин Фазлуллах. Сборник летописей. Т. 3. Москва,1946.С. 163*

*3. Абу Бакр Аль-Кутби аль-Ахари. Тарихи Шейх Увейс. (Пер. М.Д. Кязимова и В.З. Пириева ) Баку, Элм. 1994. С. 97*

*4. Govind Chandra Pande. India's Interaction with SouthEast Asia: History of Science, Philosophy and Culture in Indian Civilization, Vol. 1, Part 3. - Munshiram Manoharlal, 2005. - P. 266*

*5. Атлас мира: Максимально подробная информация. Руководители проекта: А.Н.Бушнев, А.П.Притворов.- Москва: АСТ, 2017., с. 58., 96 с.*

*6. Погадаев В.А. (2014) Университет Малайя - главная кузница кадров Малайзии: Тихоокеанское обозрение 2012-2013. Москва, Центр изучения современных проблем Юго-Восточной Азии и АТР, Институт стран Азии и Африки МГУ им. М.В. Ломоносова, с. 319-327*

*7. West Barbara. Encyclopedia of the Peoples of Asia and Oceania, Volume 1. - New York: Facts on File inc., 2009.- P. 486*

*8. Индонезия. Большая советская энциклопедия. Москва, 1972.- Т. 10.- С. 539-556*

*9. АСЕАН в системе международных политических отношений.- Москва, 1993.- С. 85-93*

*10. Taylor (2003), pages 5-7, Dawson B. The Traditional Architecture of Indonesia.- London: Thames and Hudson Ltd, 1994.- P. 7*

*11. Witton Patrick. Indonesia. - Melbourne: Lonely Planet, 2003. - PP. 139, 181, 251, 435*

*12. Allan Anderson, Edmond Tang. Asian and Pentecostal: The Charismatic Face of Christianity in Asia. - OCMS, 2005.- С. 307-312. - 596 с.*

*13. Атлас мира: Максимально подробная информация. Руководители проекта: А.Н. Бушнев, А.П. Притворов.- Москва: АСТ, 2017. - С. 50. - 96 с.*

*14. Dennis Dalton (2012) Mahatma Gandhi: Nonviolent Power in Action. Columbia University Press. pp.30-32*

*15. Яковлев А.Ю. Этнический терроризм манипурских племен в Индии.*

*Культура. Духовность. Общество.- 2014. № 11. - С. 84-85*

*16. Groombridge, B. (ed). 1993. The 1994 IUCN Red List of Threatened Animals IUCN, Gland, Switzerland and Cambridge, UK. pp.286*

*17. Matthew K.M. Manorama Yearbook 2003. Malayala Manorama, 2006. - P. 524*

*18. Talbot, Lan Singh, Gurharpal (2009), The Partition of India, Cambridge University Press, p. 2*

*19. Яковлев А.Ю. Террор и антитеррор: монография. Москва, 2012. - С. 143-156*

*20. Gittin J. Bharatiya Janata Party. India Today: An Encyclopedia of Life in the Republic. Eds. Arnold P. Kaminsky , Roger D. Long. ABC-CLIO, 2011. Vol. 1.- 87-89.- 864 p.*

*21. Zachariah, Bencamin. Nehru. Routledge: 2004. c. 17-19*

*22. Атлас мира: Максимально подробная информация. Руководители проекта: А.Н. Бушнев, А.П. Притворов.- Москва: АСТ, 2017. - С. 46.- 96 с.*

*23. Shaw S.J., Shaw E. K. History of the Ottoman Empire and Modern Turkey. - Cambridge University Press, 1977. - Vol. 2. Reform, Revolution, and Republic: The Rise of Modern Turkey 1808-1975.- P. 239-241. - 548 p.*

*24. Горшков В.Н. Турция. Новейшая история стран Азии и Африки, XX век: Учебник для студентов высших учебных заведений: В 3 ч. Часть 3: 1945-2001. Под ред. А.М. Родригеса. Москва: Гуманитарный издательский центр Владос, 2003. - С. 4-14. - 320 с.*

*25. Dr. Ahmet B. Ercilasun. Kars ili ağızları. - 29. - Ankara: Gazi Univesiteti, 1983. - c. 46-49 (Kars azerileri). - 386 s.*

*26. Dr. Ahmet B. Ercilasun. Kars ili ağızları. - 29. - Ankara: Gazi Univesiteti, 1983. - с. 41 ("Kars terekemeleri - Qarapapaqlar"). - 386 s.*

*27. Lewis Bayles Paton Canannite Influence on the Religion of Israel. The american Journal of Theology, Vol. 18, No. 2 (apr. 1914), p. 205-224*

*28. Anthony Gorman, Andrew Newman. Encyclopedia of The Peoples of Africa and the Middle East. Под ред. Jamie Stokes - Facts On File, 2009. - p. 325*

*29. Bregman, Ahron (2002), a History of Israel, Palgrave Macmillan pp. 171-174*

*30. Boyle Kevin. Freedom of Religion and belief: A World Report. Routledge,1997. - p. 29*

*31. Атлас мира: Максимально подробная информация. Руководители проекта: А.Н. Бушнев, А.П. Притворов.- Москва: АСТ, 2017. - С. 46. - 96 с.*

*32. Gerges, Fawaz A. The Lebanese Crisis of 1958: The Risks of Inflated Self-Importance. Beirut Review. - 1993.- P. 83-113*

*33. Schulimson, Jack. Marines in Lebanon 1958. - Historical Branch, G-3 Division, Headquarters, U.S. Marine Corps, Washington, Department of the Navy, United States Marine Corps, 1966. - 38 p.*

*34. Andrew Valls. Ethics in international affairs: theories and cases. Rowman and Littlefield, 2000., p. 101-102*

# XI FƏSİL. AZƏRBAYCANIN İCTİMAİ-FƏLSƏFİ VƏ ƏDƏBİ-BƏDİİ İRSİNDƏ TOLERANT VƏ MULTİKULTURAL ƏNƏNƏLƏR

## 11.1. Odun inteqrativ təbiəti və qədim Azərbaycanda klassik multikulturalizm (ing. *The integrative nature of fire and classical multiculturalism in ancient Azerbaijan*)



İnsanları birləşdirən ilkin inteqrativ məfkurənin alov olması danılmaz tarixi faktdır. Məhz o, təbiətin sərt qanunları qarşısında kimsəsiz və köməksiz qalmış insanları isti bir ocağın başına topladı və onlara sağ qalmaq üçün güc və sarsılmaz ümidlər verdi. Bundan sonra artıq insan özündə fövqəladə qüdrət hiss etdi, çünki onun "od" (alov) adlı möhtəşəm silahı vardı. Beləliklə, od ilk inteqrativ fenomen olmaqla yanaşı, həm də ixlas baxımından taleyin insana bəxş etdiyi ən güclü arqument kimi özünü təsdiq etdi. Elmi anlamda od görünən diapazonda şüalanma və istilik enerjisinin ayrılması ilə müşayiət olunan intensiv fiziki prosesdir. Lakin o, elementar fiziki hadisə və insanı müdafiə edən yüksək enerjili element olmaqla yanaşı şüurda və təhtəlşüurda mistik, sakral və hətta dağıdıcı qüvvə kimi kök salmış stereotiplərlə də assosiasiya olunur.

İnsanın təşəkkülündə və formalaşmasında ilk üç faktordan birinci ikisi şüur və əməkdirsə, üçüncüsü oddur. Üç substansiyanın vəhdətindən isə, sözün əsl mənasında insan - qadir insan, özünü müdafiə edə bilən insan, qalib insan, nəhayət yaradıcı insan formalaşmışdır. Qeyd etmək lazımdır ki, məhz odun, alovun sehrli, birləşdirici gücünə rəğmən ibtidai cəmiyyətin ilk modeli - ulu icma meydana gəlmişdi. Bununla da od insan yurdunun təşəkkülündə əsas mərkəzi element kimi özünü təsdiq etmişdi. Təsadüfi deyildir ki, bütün tarix boyu od və ocaq yurdun, evin və vətənin sinonimi kimi qəbul olunmuşdur. Bütün dini-fəlsəfi konsepsiyalarda od ən müxtəlif mahiyyətlərdə təzahür etmişdir. Yunan fəlsəfəsində dünyanın

əsasını təşkil edən dörd ünsürdən biri oddur (digər üçü su, hava, torpaq). Bir sıra təlimlərdə od hətta kvintessensiya (lat. *quinta essentia* - beşinci element, bütün kainat, dünya ruhu, ən qüdrətli yaradıcı qüvvə) anlamına gəlir [1].

Xristianlıqda od, bir qayda olaraq, cəhənnəmlə və şər qüvvələrlə assosiasiya olunur. Təsadüfi deyildir ki, orta əsrlər ərzində katolik kilsəsi bidətçiləri məhz elə tonqallarda yandırmaqla "onları birbaşa cəhənnəmə göndərirdi". Lakin sözügedən təlimdə "mübarək od" (Pasxa bayramından bir gün əvvəl, şənbə günü Kuvukliyadan məşəlin çıxarılması) kultu da mövcuddur.

Qədim yunan mifologiyasında ilkin odun insanlara bəxş edilməsi **Prometey** adlı qəhrəmanın şücaəti ilə bağlıdır. Bu cəsur addım tanrıların qəzəbinə səbəb olmuşdu və ona cavab olaraq Yunan panteonunun Ali tanrısı Zevs öz qızı Pandoranın simasında ilk qadını yaratmış və üzdəniraq "hədiyyə sandıqca" (Pandoranın sandığı) ilə insanlar arasına göndərmişdi. Pandora isə sandığı açan kimi onun içindən bütün bədbəxtliklər yer üzərinə yayılmışdı. Sandığın lap dibində isə sonsuz ümidlər qalmışdı. "Olimpin ağası" tərəfindən bu aktın həyata keçirilməsində əsas məqsəd, davamlı problemlərin köməyi ilə insanların birliyinin və həmrəyliyinin qarşısında sədd çəkmək idi. Odun inteqrativ gücündən hali olan qəddar "Olimp tanrıları", onun sayəsində insanların əldə edəcəkləri sarsılmaz birlikdən ehtiyat edirdilər.




Qədim yunan mütəfəkkirlərindən Heraklitin (e.ə 544-483) fəlsəfi konsepsiyasına görə, hər şeyin ilkin əsasını od təşkil edir. Bütün varlıq oddan yaranmış və zaman gəldikcə oda qayıdacaqdır. Lakin Heraklitin tərənnüm etdiyi od, ümumi yanğın kimi təsəvvür olunan dağıdıcı və məhvedici alov, yanğın deyildi. O, qanunauyğun və məntiqi şəkildə dünya yaradan şüurlu substansiya kimi qəbul olunurdu və əksliklərin tam razılığını və barışığını təmin edən, materiyanı heçlikdən varlığa qaytaran fenomen kimi təsdiq edilirdi. İnsan ruhu isə Heraklitə görə, ilahi odun aktiv bir zərrəsidir [2].



Od təsadüfi rəmz deyil. Onunla insan həyatının və fəaliyyətinin bütün aspektləri bağlıdır. Odun və onunla bağlı enerjinin yoxluğu həyatın tamamilə tənəzzülə uğraması deməkdir. Qədim Yunanıstanda **Olimpiya oyunlarından** əvvəl Olimp dağında günəş şüalarından alınan enerji ilə məşəl yandırılır və o, müqəddəs hesab olunurdu. Məşəlin yandırılması təbii olaraq müharibələrin, münaqişələrin, davaların başa çatması, sülhün və dostluğun, barışığın, əmin-amanlığın, birliyin və həmrəyliyin bərqərar edilməsi anlamına gəlirdi. Bu qədim ənənə isə 1928-ci ildə Amsterdamda keçirilən IX Yay Olimpiya oyunlarında bərpa olunmuşdur.

Od bir çox mədəniyyətlərdə əsas mistik simvol kimi qəbul olunur. Məsələn, xristian-pravoslav ənənəsinə görə, Konstantinopolun osmanlılar tərəfindən fəth edilməsindən cəmi bir neçə gün əvvəl, Müqəddəs Sofiya Məbədinin (indiki Aya Sofya Məscidi) yuxarı pəncərələrindən güclü alov çıxaraq göy qübbəsinə yüksəlmişdi. Xristian ilahiyyatçılarının təfsirinə görə, bu bir tarixin başa çatması və yeni bir tarixin başlanması anlamına gəlirdi. Buna aid daha bir nümunə isə islam ideologiyasında Məhəmməd peyğəmbərin (salavatullah) mövludu gününün Zərdüşt alovunun söndüyü gün kimi qəbul olunması ilə bağlıdır.

Məlum olduğu kimi, Qurani-Kərim şüurun üç mahiyyətini təsdiq edir: 1. Nurdan yaradılmış mələklər. 2. Torpaqdan yaradılmış insanlar. 3. Oddan yaradılmış İblis və cinlər. Quranda İblisin və şər qüvvələrin oddan yaradılması ideyası islamın atəşpərəstlərə qarşı xüsusilə barışmaz olması üçün güclü antimotiv yaratmışdı. Bir qayda olaraq, islamda od neqativ fenomen kimi qiymətləndirilirdi və infernal (lat. *infernalis* - cəhənnəm) məkanla, şeytan əməli ilə assosiasiya olunurdu. Bu təlimdə odun pozitiv mənası isə yalnız zikrlə (zikr edənlər "daxili gözləri ilə" yeddi rəngli odu görməli və sonda tanrının işığını sezməlidirlər) bağlı idi. Beləliklə, bəzi ənənələrdə od neqativ obrazlarda, digərlərində isə pozitiv mahiyyətlərdə tərənnüm olunur. Bununla bağlı onun funksiyaları müxtəlif və təzadlıdır. O, həm predmetlərə forma verir və onları dağıdır, cisimləri birləşdirir və parçalayır, həyat yaradır və onu məhv edir. Od həm müqəddəslik, həm də günah, həm qurbangahın sakral elementi, həm də küfrü məhv etmək üçün cəza tonqalı (odlarla sınağa çəkmək), həm əbədiyyət, həm də qiyamət rəmzi, eləcə də digər keyfiyyətlərdə insan mədəniyyətinin əsas elementi qismində təzahür edir. Beləliklə, od, atəş bəzi insanları cəzb edir, onlarda ruhani duyğular yaradır, digər insanlara isə yalnız fiziki hadisə təəssüratı bağışlayır və özündə heç bir sakral məna ifadə etmir.

Qədim İranda və Azərbaycanda döyüşə gedən hər ordunun önündə müqəddəs ocaqdan yandırılmış məşəl aparılırdı. Məhz o məşəl minlərlə

insanı qələbəyə aparan sakral bir rəmz idi. Sasani imperiyası dövründə hökmdarlar taxta çıxmazdan əvvəl, paytaxt Ktesifondan piyada yol qət edərək, Azərbaycanın Qazaka (ind. *Təxti-Süleyman*) şəhərində yerləşən Azərgüşnasp (Adur-Quşnasp) adlanan məşhur atəşpərəst məbədinə gəlir və burada ibadət edirdilər [3].

Bu gün Azərbaycan bütün dünyada yeganə ölkədir ki, adında "od" anlayışı ifadə olunur ("azər" sözünün hərfi mənası "od" deməkdir). Digər xalqların milli rəmzləri totem (hindu-alqonkin. *ototem* – onun nəsli) təsəvvürlərlə (şir, qartal, əjdaha, ayı, şahin və s.) bağlı olduğu halda, **Azərbaycanın milli rəmzi oddur.** Bütün tarix boyu odu sakral bir substansiya kimi tərənnüm etmiş yeganə xalq da məhz elə Azərbaycan xalqıdır. Oda sədaqət və hətta səcdə onun həyat tərzində, əsas adət-ənənələrində və dünyagörüşündə öz əksini tapır. Bununla bağlı olaraq, əsrlər ərzində Azərbaycan millətinin sıx birliyini təmin edən sakral "Odlar yurdu" məfkurəsi azərbaycançılıq ideyasının fundamental nəzəri əsaslarını təşkil edir. Minilliklər ərzində formalaşmış bu mütərəqqi məfkurə müasir Azərbaycan millətinin milli xarakterinə, temperamentinə və onun ruhani məzmununa çevrilmişdir. Monoteist dini dəyərləri tərənnüm edən Azərbaycan xalqı, oda belə üzvi bağlılığı ilə onu mütləq şəkildə təzahür edən pozitiv bir substansiyaya çevirmişdir. Odla ibrani həqiqətlərin vəhdətindən hələ qədimdə və orta əsrlər Azərbaycan cəmiyyətində, bəşər tarixində analoqu olmayan klassik multikulturalizm təşəkkül tapmışdı. Atəşpərəstlikdən gələn vəhdaniyyət ruhu Novruz və Mehrivan (xeyirxahlıq və razılıq, sədaqət, dostluq və məhəbbət tanrısı olan Mitranın şərəfinə hər il oktyabrın 2-də qeyd olunan bayram) kimi bayramların inteqrativ gücü, sülhyaradan aurası ilə minilliklər ərzində xalqları və millətləri özünün əsl kosmopolit orbitinə cəlb etmişdir [4].





Ərəblər Azərbaycana gələrkən, bu məmləkətdə başdan-başa odlara və atəşə sitayiş edən igid insanlarla qarşılaşdılar. Məhz elə bu səbəbdən də onlar bu diyarı "odlar yurdu", "atəşpərəstlərin vətəni", "Azərbaycan" adlandırdılar. Ərəblərin bu məkanda islamiyyəti çox çətinliklə yaymalarının səbəbi də, məhz yerli əhalinin atəşpərəstlik

ruhuna fövqəladə bağlılığı, sədaqəti ilə əlaqədar idi. “Qılınc müsəlmanı” anlayışı da azərbaycanlıların atəşpərəstlik məfkurəsi ətrafında sarsılmaz birliyinin yalnız qılıncla məhv edilməsinin mümkün olması ilə bağlı yaranmışdı. Bununla belə, müasir azərbaycanlı ibrani ideyanın daşıyıcısı olsa da, o, daim qəlbində, ruhunda, davranışında, vərdişlərində və adət-ənənələrində minilliklərdən gələn odsevərlik məfkurəsini də tərənnüm edir.

2015-ci il iyun ayının 12-dən 28-dək Azərbaycan Respublikasının Bakı və Mingəçevir şəhərlərində keçirilən I Avropa İdman Oyunlarının açılış məşəlinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən məhz Suraxanıda yerləşən Atəşgahda əbədi alovdan yandırılması, Azərbaycan xalqının tarixi yaddaşında, adət və ənənələrində, həmçinin çağdaş dünyagörüşündə odun necə vacib önəm kəsb etdiyini bir daha sübuta yetirdi. Prezidentin başladığı bu estafet “Odlar yurdu” məfkurəsinin yeni intibahı, bu məfkurə ətrafında bütün azərbaycanlıların sıx birliyinə çağırış idi.




Azərbaycan cəmiyyətində klassik multikulturalizmin belə çoxəsrlik tarixi olmasını sənədlərdə təsdiq olunmuş faktlar, ictimai-fəlsəfi ideyalar və ədəbi-bədii irs dönə-dönə sübut edir. Azərbaycan xalqının, həmçinin Yaxın və Orta Şərq xalqlarının dünyagörüşünün, yunan fəlsəfəsinin və xristianlıq ideyalarının formalaşmasında həlledici rol oynamış zərdüştlük təlimindəki tolerantlıq, multimədəni motivlər xüsusi əhəmiyyət kəsb edir. Zərdüştlükdə insanın öz əsas məqsədlərinə çatması üçün 3 mənəvi-əxlaqi prinsip təklif olunur: xeyirxah fikir, xeyirxah söz, xeyirxah əməl (zəndi. *Humat, Hukst, Huvarst*). “Vispa Humata” adlanan bu müqəddəs dua belə bir çağırış elan edir:“Bütün xeyirxah fikirlər, xeyirxah sözlər və xeyirxah əməllər bilikdən keçir və yaxşı varlığı yaradır, onun əksi isə rəzalətə, səfilliyə, münaqişəyə və müharibəyə aparan yoldur”.

Zərdüştlüyə görə, əsl xoşbəxt insan o insandır ki, onun sayəsində başqaları da xoşbəxt olur. O, insanın dözümlü və mərhəmətli olmasını, filantropiyanı (yun. *filos* - sevmək, *antropos* - insan - insansevərlik) və altruizmi (lat. *alter* - başqası, başqaları - başqasının rifaha çatması üçün göstərilən təmənnasız qayğı) ən ali dəyərlər hesab edir. Zərdüşt təliminə görə, həqiqətə və xoşbəxtliyə can atan əsl insan aşağıdakı xüsusiyyətlərə malik olmalıdır:

1. Həyatı sevmək və ondan əsl zövq almaq. 2. Keyfiyyətli nəsillər

yetişdirmək, onlara xeyirxah ənənələri ötürmək. 3. Bütün canlılara sevgi və mərhəmət göstərmək. 4. Aktiv həyat tərzi sürmək və iradəli olmaq, yaradıcılığa istiqamətlənmiş böyük güc və enerji toplamaq. 5. Biliklərə yiyələnməyə daim can atmaq. 6. Fanatizmə qarşı mübarizə aparmaq. 7. Ətrafında xeyirxah aləm və müsbət aura yaratmaq, parçalamağa deyil, birləşdirməyə can atmaq. 8. Qorxuya, xüsusilə də ölüm qorxusuna qalib gəlmək (əgər ölümdən qorxursansa, sağ ikən hər gün öləcəksən), qəzəbə (qəzəblənmisənsə, demək səni artıq şüurun idarə etmir), nifrətə (nifrət edirsənsə, demək artıq sən məğlub olmusan) və laqeydliyə (laqeydsənsə, demək artıq potensial bir cinayətkarsan, yaxud dolayı yollarla haqsızlığa şərait yaradırsan) yox demək.

Beləliklə, Qədim Azərbaycanda oda səcdənin əsrarəngiz gücündən bəhrələnmiş klassik multikulturalizm ondan sonrakı tarixi dönəmlərdə xristianlığın və islamın simasında ən yeni ideologiyalarla zənginləşərək, Azərbaycan ideyasının bərqərar olması üçün münbit şərait yaratdı.

## 11.2. Erkən orta əsrlər Azərbaycan ictimai-fəlsəfi fikrinin multimədəni mahiyyəti (ing. *Multicultural essence of Azerbaijan sosio-philosophical thought in the Early Middle Ages*)



Eramızın əvvəllərində özünün zəfər yürüşünə başlayan isavilik məfkurəsi zərdüşt arealına daxil olmuş məkanlarda və o cümlədən Azərbaycanda ciddi nüfuz qazana bilmədi. Bu fakt isə, ilk növbədə xristianlığın sözügedən ərazilərə qılıncla deyil, apostol moizələri ilə gəlməsinin nəticəsi idi. Digər tərəfdən yeni, naməlum məfkurəyə qarşı artıq minillik tarixi olan zərdüştlük və atəşpərəstlik ideyası dururdu. Həm də bu ideya Parfiya və Sasani imperiyaları kimi möhtəşəm hərbi-siyasi faktorun rəsmi ideoloji məzmunu idi və onlar tərəfindən etibarlı şəkildə qorunurdu. İslamiyyətin zərdüştlük arealına, o cümlədən Azərbaycana nüfuz etdiyi zaman isə bu qədim ideologiya xilafət qılıncının və inqilabi hərəkatın dağıdıcı gücü sayəsində bu müdafiədən artıq məhrum olmuşdu. Lakin zərdüştlük və atəşpərəstlik ideyalarını Sasani məfkurəsi ilə sintez etmiş yeni imperiya idealı özünü doğrultmurdu. Bu imperiyada təmsil olunan bütün etnik-mədəni və dini-konfessional müxtəliflikləri, əslində başqa ideya - ictimai (əmlak) bərabərlik və sosial ədalət ideyası daha çox

cəlb edirdi. Məhz belə bir mürəkkəb tarixi şəraitdə geniş xalq kütlələrinin maraq və istəklərini ifadə edən yeni inteqrativ ideya - məzdəkilik ideyası meydana gəldi. İsavilik, maniçilik, zərdüştlük və Bundos təlimlərindən bəhrələnmiş məzdəkilik ideyası ümumbəşəri tarixi prosesin əsası kimi işıqla qaranlıq, xeyirlə şər, nizamla xaos arasında mübarizəni elan edir və iddia edirdi ki, bu mübarizə gec-tez işığın, xeyrin və nizamın qələbəsi ilə başa çatacaq və o, bütün ekzistensial müxtəliflikləri ədalət ideyası altında birləşdirəcəkdir. Məzdəkilik din deyildi, fövqəladə inteqrativ gücə malik olan sosial bir ideya idi. O, ictimai və əmlak bərabərsizliyini, feodalların özbaşınalığını, hökmdarların ədalətsizliyini və məmurların həyasızlığını "sosial şər" elan edir və ona qarşı güc tətbiq etməyin tanrı əhdi olmasını iddia edirdi. Təsadüfi deyildir ki, məhz bu məfkurə Orta əsrlər tarixində, ilk dəfə olaraq (Məzdəkilər hərəkatı - 481-529) İranda və Azərbaycanda minlərlə azad insanı (kəndliləri, sənətkarları, şəhər yoxsullarını) vahid cəbhədə birləşdirdi və ictimai münasibətlər tarixinə yeni məzmun qatdı [5]. Məzdəkilik ideyasının inteqrativ gücü o qədər cəlbedici idi ki, hətta imperiyanın 1 №-li şəxsi, şahənşah I Qubad (488-531) və onun böyük oğlu Kavus belə, sözügedən ideyanın apologetlərinə və himayədarlarına çevrilmiş, bununla da hərəkatın rəhbəri Məzdək Bəmdadoğlu ilə səmimi münasibətlər və güclü siyasi ittifaq yaratmış, imperiyanı parçalayan və özbaşınalıq edən feodallara qarşı çıxmışdılar. Hətta hökmdar Məzdəkə şəxsi ideyalarını tam reallaşdırmaq üçün dövlət aparatında yüksək rütbə (imperatorun məşvərət şurasının sədri) vermiş, hərəkatın ən nüfuzlu və qabiliyyətli nümayəndələri isə idarəçilik sistemində ən həlledici vəzifələr tutmuşdular. Məzdəkilik məfkurəsi irtica nəticəsində süquta uğrasa da, onun əks-sədası və ideoloji mexanizmləri bütün orta əsrlər tarixi boyu özünü daim büruzə vermiş və bütün sosial xarakterli hərəkatların ideoloji prinsiplərində öz parlaq əksini tapmışdı.

İslam ideyalarının Azərbaycan cəmiyyətinə nüfuz etməsi, müəyyən səbəblərdən ciddi müqavimətə rast gəlsə də, yeni təlim özünün səmavi gücünə, əsl tolerantlıq prinsiplərinə, xüsusilə də sosial yardım ideyasına rəğmən, qısa müddət ərzində minlərlə insanı öz arealına cəlb etdi. Lakin yeni ideologiyanın sürətlə yayılmasına və yüksək təşəkküllü inteqrativ və kosmopolit ideologiya kimi özünü təsdiq etməsinə baxmayaraq, bütün erkən orta əsrlər dövründə tarixi yaddaşlarda dərin kök salmış əvvəlki dini-mədəni və ictimai-siyasi prinsiplər çox israrlı şəkildə özünü büruzə verməkdə davam edirdi. Bunun parlaq nümunəsi kimi isə bəşəriyyətin inqilab tarixində yeni səhifələr açmış və xilafətin hərbi-siyasi əsaslarını sarsıtmış xürrəmilər hərəkatını qeyd etmək lazımdır. İlk növbədə belə bir

incə məqama aydınlıq gətirmək vacibdir ki, 65 il davam etmiş xürrəmilər hərəkatı islamiyyətə qarşı yönəlmiş silahlı müqavimət deyildi. O, sosial inqilab, Bağdad xəlifələrinin simasında istibdada, zülmə və zorakılığa qarşı bir ümumxalq üsyanı idi. Xürrəmilər hərəkatının əsas rəhbərləri olan Məzyər əl-Kəbirin, Cavidan ibn Səhlin, Əbu Musanın və Həsən ibn Abdullahın (Babək) müsəlman olmaları və müsəlman adları daşımaları tarixi bir faktdır. Ərəb tarixçiləri Xilafət tarixində ən qüdrətli üsyanın rəhbərlərini, xüsusilə də Babəki tamailə gözdən salmaq, onu azadlıqsevər təfəkkürlərdən silmək üçün hər cür qarayaxmalardan istifadə edirdilər. Xilafət ideoloqlarının "qara piyarında" (ing. *public relations* - qısaca *PR* ifadəsindən yaranmışdır və hərfi mənası "ictimaiyyətlə əlaqə" deməkdir) Babək kafir adlandırılır, onun adına islami dəyərlərə zidd olan davranış və əməllər yazılırdı. Əslində isə əsas məsələ tamamilə fərqli idi. Belə ki, xürrəmilik (fars. *Hürrəmdin,* ərəb. *Hurrimyah*) əsla kafirlik deyildi. O, özündə zərdüştlüyün, maniçiliyin, xristianlığın, islamın, animizmin (lat. *anima, animus* - qəlb, ruh - xürrəmilər əsasən ulu babaları hesab etdikləri Şirvinin ruhuna da sitayiş edirdilər) və dünyəviliyin (ərəb. "*xürrəm*" sözü dünyəvi, sivil, yaxud azad mənalarını verir) fundamental elementlərini birləşdirən maniçilik və məzdəkilik ruhunda sinkretik dini-siyasi təlim və ən yüksək təşəkküllü inteqrativ sosial məfkurə idi. Beləliklə, xürrəmilik özündə fövqəladə dini-mədəni, ideoloji multikulturallığı tam ifadə edirdi. Beləki, xürrəmilik ideyaları öz ətrafında həm xristian albanların, həm bizanslıların, həm də ərəb-müsəlmanların və atəşpərəst-iranlıların ümumi istək və arzularını qovuşdururdu. Bütün bu müxtəliflikləri birləşdirən vahid bir məfkurə isə dilindən, dinindən, etnik və irqi mənsubiyyətindən asılı olmayaraq, bütün insanların əsl sosial ədalətə və ictimai bərabərliyə çağırışı kimi təzahür edirdi. Təsadüfi deyildir ki, xürrəmilərin sıralarında minlərlə ortodoksal müsəlman xilafət istibdadına qarşı mübarizə aparırdı. Ərəb tarixçilərinin, xüsusilə də məşhur Nizam əl-Mülkün (1018-1092) xürrəmilər hərəkatının, guya islam dininin gələcəyi üçün ən ciddi təhlükə olmasını şişirtməsi də real faktlara əsaslanmır. Xürrəmilərin xilafətə qarşı mübarizə apardıqları məkan Azərbaycanın tarixi sərhədlərindən kənara çıxmamışdır. Bu baxımdan xürrəmilər yalnız təcavüzə qarşı mübarizə aparan azadlıq ordusu kimi qiymətləndirilməlidir.

Özündə dini və dünyəvi dəyərlərin sintezindən yaranmış unikal kompleksi tərənnüm edən mütərəqqi xürrəmilik məfkurəsini "orta əsrlər demokratiyası", "klassik multikulturalizmin daha mütəşəkkil nümunəsi kimi" xarakterizə etmək olar. Bu gün dünyada real mövcud olan və multikulturalizmi dövlət siyasəti kimi qəbul etmiş nümunəvi demokratik

dövlətlərin mədəni plüralizm prinsipi, xürrəmilərin "bütün ekzistensial dəyərlərin qayğısına qalan dünyəvi cəmiyyət" ideyasına uyğun gəlir.

Erkən orta əsrlər Azərbaycan ictimai-fəlsəfi və dini-mədəni fikrini aydın şəkildə tərənnüm edən mənbələrdən biri də "Kitabi Dədə Qorqud" dastanıdır. Özündə tarixi cizgiləri əks etdirən bu əsər islamiyyəti qəbul etmiş türklərin (türkimanlar) sosial-iqtisadi, dini-mədəni həyat tərzindən, dünyagörüşündən, adət-ənənələrindən, məişətindən, milli xarakterindən, mentalitetindən, eləcə də azadlıq mübarizəsindən bəhs edən qəhrəmanlıq eposudur. Dastanda ibrani dəyərlərlə tam bəhrələnmiş orta əsr insanının (oğuz türkünün) dünyagörüşü, onun xarakteri və temperamenti, siyasi baxışları və ictimai mühitə münasibəti dinamik hadisələrin fonunda dərin təhlil olunur. Dastanın motivlərindən biri türk-müsəlman kosmopolitizmi və multikulturalizmi ilə bağlıdır. Bu baxımdan isə əsər özündə türklərin islamiyyəti qəbul etdikləri ilk dövrlərdən tutmuş, XV-XVI əsrlərə qədər uzun bir tarixi dövrün ruhunu və mədəni-psixoloji yükünü daşıyır [6]. Məhz bu səbəbdən "Müdrik Qoca və onun ölməz qəhrəmanları" (Dədə Qorqud, Manas, Alpamış) kimi müdriklik və qəhrəmanlıq motivlərinə bütün türk-müsəlman dünyasında daim rast gəlinir [7]. Sözügedən epik nümunələrdə əsrarəngiz möcüzələr və xariqələr yaradan məğlubedilməz qəhrəmanlar və onların müdrik məsləhətçiləri inteqrativ məfkurə, siyasi-mədəni nüfuz obyekti kimi qiymətləndirilir. Onlar əqlləri və gücləri ilə vətəni müdafiə etməklə yanaşı, cəmiyyətdə sülh, əmin-amanlıq, ədalət atmosferi yaradır, bütün türk soylarını və onların təbəəliyində olan etnik-konfessional azlıqları vahid ailədə birləşdirmək üçün cəmiyyətdə razılıq, dialoq, qarşılıqlı anlaşma və qarşılıqlı yardım prinsipləri aşılayırdılar. Müqəddəs qoca Dədə Qorqud isə bütün oğuz ellərinin patriarxı qismində mübahisəli məsələləri həll edir, hökmdarlara isə öz hakimiyyətlərini icra edərkən ədalətli olmağı tövsiyə edirdi. Hər kəsə əməlinə və davranışına görə ad qoyur və bu səbəbdən onun müsbət aurası və sarsılmaz nüfuzu bütün soyların və nəsillərin istiqamətləndiyi tənzimləyici məfkurə kimi təzahür edirdi.

Dədə Qorqudun unikal tənzimləyici faktor kimi fəaliyyəti, heç də həmişə müsbət nəticələr vermirdi. İntolerantlığın, barışmazlığın, qibtə və paxıllığın daşıyıcıları olan insanlar hər vəchlə, özündə çoxlu sayda etnik-mədəni və dini-konfessional müxtəliflikləri təmsil edən türk-müsəlman birliyini dağıtmaq üçün dəridən-qabıqdan çıxırdılar. Belə barışmazlığın nəticəsi kimi isə Alp Aruzla Qazan xanın münasibətləri Dədə-Qorqud dastanında oğuz türklərinin tarixi faciəsi kimi qiymətləndirilir. Təsadüfi deyildir ki, Qazan xan Alp Aruzla döyüş ərəfəsində yaranmış situasiyanı

qardaş qırğını, milli fəlakət, hətta "Qiyamət günü" kimi qiymətləndirirdi.

Türk soyları arasında, onların birliyinin dağılması ilə nəticələnən gizli düşmənçilik Bayandur xanın ayırı-seçkilik (izolyasiya tədbirləri) siyasətinin (övladı olmayan Alp Aruzun qara çadıra göndərilməsi aktı) məntiqi nəticəsi idi. Cəmiyyətdə hər hansı əlamətlərinə görə insanların ayrı-seçkiliyə məruz qalmalarının hansı neqativ nəticələr verməsinə dair minlərlə belə nümunə vardır.

IX əsrdə xilafətin dağılması ilə Azərbaycanda etnik-siyasi birliyi təmin etmək üçün yeni inteqrativ ideyaya ehtiyac yarandı. Müsəlman, xristian, türk, fars, ərəb, Qafqaz, sünni, şiə faktorlarının təmsil olunduğu məkanda belə bir ali ideya "Vahid Azərbaycan", "Böyük Azərbaycan", "Multimədəni Azərbaycan" ola bilərdi. Bu tarixi vəzifəni isə son dərəcə mürəkkəb bir tarixi şəraitdə türk-saci etnik-siyasi faktoru reallaşdırmağa başladı və tarixdə ilk dəfə olaraq "Azərbaycan" adlanan məmləkəti vahid dövlətdə (Sacilər dövləti - 889-941) birləşdirdi. Bu estafeti isə növbəti mərhələdə türk-Salari sülaləsi (941-981) də davam etdirdi. Lakin İran tarixçiləri bu etnik-siyasi prosesi "İran intermezosu" (lat. *intermedius* - aralıq, ortada yerləşən) adlandırırlar və çox iddia edirlər ki, guya xilafətin tənəzzülündən sonra Azərbaycanda və İranda yaranmış bütün müstəqil feodal dövlətlər Sasani imperiyasının süqutu (651) ilə başa çatmış İran dövlətçiliyinin etnik-siyasi dirçəliş aktıdır və yeni bir dövlətçiliyə keçid (aralıq) xarakteri daşıyır [8]. Lakin bütün tarixi faktlar (sülalələrin türk mənşəli, hökmdarların türk əsilli, ərazinin isə tarixi Azərbaycan olması, insanların Azərbaycan türkcəsində danışması və s.) bu tarixi hadisələrin türk kosmopolitizminin (türk etnik-siyasi amilinin Yeniseydən Aralıq dənizinə qədər olduqca böyük bir ərazidə təmsil olunması) nəticəsi və Azərbaycan feodal millətinin təşəkkülü aktı olmasını sübut edir.

Azərbaycanı vahid dövlətdə birləşdirmiş və türk-müsəlman, türk-



İran, türk-Qafqaz sinkretik birliyini yaratmış istiqlalın növbəti ünvanı **"Azərbaycan - Atabəy məfkurəsi"** oldu. Ali azərbaycançılıq ideyasının təşəkkülündə və formalaşmasında Atabəylər istiqlaliyyətinin müstəsna rolu vardır. Atabəylər istiqlaliyyəti ilk dəfə olaraq, "Azərbaycan" etnik amilini siyasi müstəviyə çıxartdı və ona davamlı siyasi status, həmçinin əsl tarixi legitimlik verdi, onun daimi paytaxtını, hərbi-siyasi və etnik-mədəni doktrinasını, rəsmi sərhədlərini müəyyən etdi. Monqol ekspansiyası nəticəsində süquta uğrasa da, məhz

"Atabəy məfkurəsinin" yaratdığı etnik-siyasi birlik ənənəsi Azərbaycan tarixində dəfələrlə təkrar olunmuş və "Səfəvi kosmopolitizmi" dövründə 3,5 milyon $km^2$-dən artıq ərazini əhatə etmişdi. Bu isə türk-müsəlman kosmopolitizminin və multikulturalizminin yeni inkişaf fazasına keçmsi kimi dəyərləndirilməlidir.

## 11.3. İslam mədəniyyəti, islam həmrəyliyi və Azərbaycan (ing. *Islamic culture, islamic solidarity and Azerbaijan*)



İslam qanunları toplusu olan şəriətə əsasən islam ideologiyasının təməl prinsiplərində, artıq yüksək təşəkküllü birliyin və həmrəyliyin çox çeşidli əlamətləri ifadə olunur. Çünki islam dini təlimi VII əsrdə pərakəndəlik və cahillik həyat tərzi keçirən dağınıq ərəb qəbilələrinin etnik-siyasi cəhətdən birləşdirilməsi istiqamətində ideoloji zərurət kimi meydana gəlmişdi. Ortodoksal islam tanrı kəlamlarının məcmusundan ibarət olan sosial-iqtisadi, mənəvi, əxlaqi və siyasi dəyərlər sistemidir. O, bütün tarixi dövrlərin ən möhtəşəm və unikal hadisəsi kimi barbarlıqdan sivilizasiyaya keçidi təsdiq etdi və nəticədə ərəb sivilizasiyası dünyanın etnik-mədəni, ictimai-siyasi və əxlaqi-mənəvi qaydalarına tarixdə misli görünməmiş mütərəqqi yeniliklər gətirdi. Qısa müddət ərzində qərbdə Pireney yarımadasından tutmuş, şərqdə isə Hindistan sərhədlərinə qədər böyük bir ərazidə ərəb-müsəlman mədəniyyəti bərqərar oldu. Bu gün isə müsəlman arealının sərhədləri Şərqdə İndoneziyaya və Malayziyayadək, qərbdə isə Mərakeşə və Mavritaniyaya qədər uzanır.

Ərəb sivilizasiyası dünya mədəniyyətinə, islam arealına daxil olan xalqlara, o cümlədən Azərbaycan xalqına nə verdi? İlk növbədə heç vaxt, heç bir sivilizasiyada olmayan, məsciddən keçərək "Allah böyükdür" (*Allahü-əkbər*) kəlməsi ilə göylərə yüksələn həqiqi həmrəylik, müsəlman kosmopolitizmi. Məscid əl-Həramın simasında mömin müsəlmanın heç vaxt, ən çətin tarixi şəraitdə və psixoloji halətdə belə üz döndərmədiyi vahid qibləgah və inanc. Bütün islam əhli üçün vacib olan tohid, yaxud monoteizm. Allahın tək, lakin tanrı həqiqətlərinə aparan yolların müxtəlif olmasını təsdiq edən ali idraki qabiliyyət. 622-ci ildən başlayan, ciddi astronomik prinsiplərə əsaslanan Hicri-Qəməri və Hicri-Şəms təqvimi, müsəlman erası. Bu gün də qloballaşmanın gücü çatmadığı müsəlman

əxlaqı. Bütün genetik qorxulara, həmçinin ölüm qorxusuna qalib gəlmək üçün sarsılmaz iradə və potensial ruhani güc. Dünyanı dərk etməkdə ən effektli vasitə olan islam fəlsəfəsi. Axirət doktrinası qismində əbədiyyətə inam. Bu gün də dünyanın sosial-iqtisadi sistemləri üçün nümunə olan maliyyə-iqtisadi və ideal vergi sistemi münasibətləri. Sosial ədaləti təmin edən, təbii sərvətlərin və Allahın nemətlərinin insanlar arasında bərabər bölüşdürülməsini, ailə-nikah münasibətlərinin yüksək təşəkküllü əxlaqi normalar əsasında tənzimlənməsini nəzərdə tutan ciddi qanunlar toplusu, qüdrətli imperiyalar və demokratik tipli dövlətlər qismində təzahür edən dövlətçilik ənənələri və çoxlu sayda ümumbəşəri dəyərlər. Əsasında əsl səmavi həqiqətə sarsılmaz məhəbbət dayanan islam həmrəyliyinin gücü ondan ibarətdir ki, bu gün dünya əhalisinin 1,8 milyarddan artıq hissəsini təşkil edən insanları bir həqiqət - müsəlman qardaşlığı birləşdirir.

Əslində təkcə müsəlmanları deyil, dinindən, dilindən, irqindən və etnik mənsubiyyətindən asılı olmayaraq, bütün insanları əsl sülhə, əmin-amanlığa, qarşılıqlı yardıma və bəşəri həmrəyliyə çağıran Qurani-Kərim təkcə əxlaqi-mənəvi dəyərlərin məcmusu deyil. O, bütün tarixi dövrlərdə aktual olan, fövqəladə şəkildə ali prinsiplərə əsaslanan konstitusiyadır. Onun əsl həmrəylik yaradan inteqrativ gücü də, elə bununla izah olunur. Quran başdan-başa fundamental tolerantlığa əsaslanan bəşəri dəyərlərdən ibarətdir. O, baxışlarının çeşidli müxtəlifliyindən asılı olmayaraq, bütün müsəlmanları həmrəyliyə, müsəlman hökmdarlarını isə bu həmrəyliyin təminatçısı olmağa çağırır.

İslam ideologiyası mütləq şəkildə islami həmrəyliyə nail olmaq kimi bəşəri bir vəzifənin yerinə yetirilməsində bütün təsadüflərdən, xırda hisslərdən azad olmuş, mütərəqqi düşünən kamil insanı, ibadəti, təlimi və zəkası harmoniya təşkil edən, əxlaqi-mədəni dəyərlərin daşıyıcısı olan mükəmməl şəxsiyyəti ön plana çəkir. Quran iddia edir ki, yalnız kamil insan kamil insanla həmrəy ola və tanrı məqamına yüksələ bilər. Kamil insan dünya sirlərinə tam sahib olandan sonra, onu öz xeyirinə və bütün bəşəriyyətə xidmət etmək üçün dəyişməyə qadir olacaq. Yalnız kainatın sirlərini öyrənməyə can atan, fanatizmdən tamamilə uzaq olan, mütləq şəkildə pozitiv düşünən insan sülh yaratmaq, mərhəmətli olmaq, digər fərdlərin varlığına əsl hörmət və ehtiramla yanaşmaq kimi ümumbəşəri ideyaları tərənnüm edə bilər. Məhz dünyanın sirlərini açmağa can atan insan ruhu ən ali və mükəmməl potensiyadır. Belə bir potensiya tanrının yaratdıqlarına ən yüksək hörmət, məhəbbət və dözümlülüklə yanaşmağa, ətrafında həmrəylik mühiti yaratmağa qadirdirr. Təəssüf ki, əsrlər ərzində mütərəqqi islam ideologiyasından öz şəxsi məqsədləri üçün istifadə edən

qüvvələr İslam dünyasına zəhərli təfriqə toxumları səpərək, islam əhlini bir-birilərinə qırdırmışlar.

Hələ xilafət dövründə formalaşmış islam ideologiyasının klassik sosial-siyasi nəzəriyyəsi dinlə dövlətin mütləq birliyinə və həmrəyliyinə hesablanmış prinsiplər toplusudur. İslamın sosial doktrinası başdan-başa bərabər siyasi, iqtisadi və hüquqi imkanları ifadə edən eqalitarizmlə (fran. *egalitarisme* - bərabərlik), həmrəyliklə, ictimai fəallıqla və bədənə cismani əzablar verməyin əleyhinə olan antiasketizmlə müəyyən olunur. İslam əməyi və onun nəticəsi kimi rifahı tərənnüm edir, nikahsızlıqla və rahibliklə ifadə olunan "selibatı" (lat. *coelibatus* - nikahsızlıq) inkar edir. İslam ilahiyyatçıları israrla iddia edirlər ki, qədər və alın yazısı ilə paralel olaraq, insan cəmiyyətdə, allahınköməkliyi ilə, bütün mövcud şəraiti öz xeyirinə, ictimaiyyətin xeyrinə dəyişmək üçün bütün ruhani, intellektual və fiziki qüvvələrini sərf etməlidir. Yalnız insanların potensial imkanları xaricində olan məfhumlar qədər və alın yazısı kimi qiymətləndirilə bilər.

Qeyd etmək lazımdır ki, klassik islam əyyamında təşəkkül tapmış və mütərəqqi dəyərlərə əsaslanan siyasi ideal adi teokratiya deyildi. O, dövrün tələblərinə uyğun "icraçı teokratiya", "mühafizəçi teokratiya", hətta "dünyəvi", yaxud "sivil teokratiya" qismində təzahür edirdi. Müasir islam dünyasının çox tanınmış islahatçıları iddia edirlər ki, islamda siyasi hakimiyyət yalnız dünyəvi tipli prinsiplərə əsaslanmalıdır. Beləki, həm ortodoksal, həm də müasir islam, ümumiyyətlə ruhani hakimiyyəti qəbul etmir. Ciddi şəkildə teokratik ideyalar isə yalnız dini fundamentalizmlə, radikalizmlə, eləcə də ekstremizmlə ifadə olunan müxalif yönümlü dini hərəkatlara və təşkilatlara məxsusdur. Belə tip meyllər çağdaş müsəlman icmasında və müasir islam arealına daxil olan dövlətlərdə əsl qarışıqlıq, qeyri-sabitlik, müxtəlif xarakterli və miqyaslı münaqişələrin yaranmasına aparan yoldur.

VIII əsrdə məşhur Əməvi xəlifəsi Ömər ibn Əbdül-Əziz (717-720) bizanslılara əsir düşmüş ərəb əsgərinin azad edilməsi tələbi ilə Bizans imperatoru III Lev İsavra (717-741) göndərdiyi məktubunda yazırdı: "Bu məktubu oxuyan kimi, əsiri azad elə. Əks halda, and olsun Allaha, sizin üstünüzə elə bir ordu göndərəcəyəm ki, onun bir ucu mənim sarayımın kandarında - Dəməşqdə, o biri ucu isə sənin iqamətgahının kandarında - Konstantinopolda olacaq". Bizans imperatoru bu məktubu oxuyan kimi, dərhal əsiri azad edir. Bu, əslində, təkcə şanlı islam ordusunun çoxsaylı olmasından deyil, islam ruhunun təbii gücündən və islam həmrəyliyinin qüdrətindən xəbər verirdi. Xəlifə yaxşı başa düşürdü ki, onun arxasında sədaqətli ordu və həmrəy cəmiyyət durur. Məhz bu qüdrət, əsrlər ərzində

Qərbin ekspansiya siyasətinin qarşısında ən sanballı ideoloji və hərbi-siyasi faktor kimi islamı qorudu və bu günlərə gətirib çıxartdı. 1096-cı ildə başlanmış və 1270-ci ilə qədər davam etmiş xristian sivilizasiyasının Xaç yürüşlərinə ən layiqli cavab vermiş Səlahəddin Əyyubi (1137-1193) kimi islam tarixinin qəhrəmanlarını da, bu gündən sabaha aparan məhz o həmrəylik, təbəələrin sədaqəti və Allahın bəxş etdiyi müqəddəs əmanəti qorumaq hissi idi.

Əsrlər əvvəl də olduğu kimi Qərbin ekspansiya siyasəti bu gün də davam edir. Dünya ağalığına can atan yeni avropasentrist siyasi qüvvələr tarixi fürsətdən istifadə edərək 1187-ci ildə səlibçilərin Qüdsün divarları yanındakı məğlubiyyətinin əvəzini Səlahəddinin nəsillərindən, 1453-cü ildə fəth edilmiş Konstantinopolun qisasını isə II Mehmetin nəsillərindən almaq istəyirlər. Bu yolda, əlbəttə ki, qlobal siyasətin bütün mövcud və gizli üsullarından istifadə edirlər. Müsəlman cəmiyyəti isə belə bir tarixi şəraitdə özünün çox gərgin, çətin dövrünü yaşayır. Qlobal siyasətin İslam aləmində ən süni üsullarla yaratdığı qarşıdurmalar, bir tərəfdən tanrının müsəlman xalqlarına bəxş etdiyi sərvətlərə sahib olmaq, digər tərəfdən bütün dünyada sürətlə yayılmaqda olan islam ideologiyasının nüfuzunu sarsıtmaq, Qərbdə islamofobiya yaradan islam həmrəyliyinin əsaslarını sındırmaq məqsədi güdür.

XX əsrin 80-ci illərinin sonları, 90-cı illərinin əvvəllərində Sovet ittifaqının dağılmasına nail olmuş Qərb siyasəti SSRİ maraqlarına daxil olan müsəlman ölkələrində də üzdəniraq inqilablar törətməyə başladı. Hafiz Əsədin (1971-2000), Əbdül Səddam Hüseynin (1979-2003), Hüsnü Mübarəkin (1981-2011), Müammar əl-Qəddafinin (1979-2011) və digər müsəlman hökmdarlarının simasında, Qərb Qazi Səlahəddin Əyyubinin durmadan artan gücünü görürdü. Odur ki, müasir müsəlman dünyasının uğurlarına son qoymaq, onun sərvətlərinə isə sahib olmaq üçün, Qərb siyasəti əsl dağıdıcı fəaliyyətə başladı. İlk zərbənin Səddam Hüseynin simasında İraqa endirilməsi qərara alındı. Müsəlman hökmdarını dünya ictimaiyyətinin gözündən salmaq üçün, ilk növbədə ona diktator, kütləvi qırğın silahları istehsal etmək istəyən terrorçu, şiələri və kürdləri kütləvi şəkildə qətlə yetirmiş tiran, “Yezid” epitetləri verildi. Səddam Hüseynin Səlahəddin Əyyubinin vətəni olan Tiqritdən olması da xüsusi əhəmiyyət kəsb edirdi. 30 dekabr 2006-cı il tarixində Səddam Hüseyni edam etmək üçün elan edilmiş 10 ittihamdan yalnız biri, ona qarşı sui-qəsdlər təşkil etmiş 148 şiənin öldürülməsi seçilmişdi və bu heç də təsadüfi deyildi. Bu addımı atmaqla Qərb siyasəti öz qlobal məqsədlərinə nail olmaq, bütün Orta Şərqdə məzhəblərarası münaqişəni yenidən alovlandırmaq, “Qərbin

sözünü deməyən bidətçiləri" isə bu alovda yandırmaq istəyirdi və o, öz üzdəniraq məqsədlərinə çatdı. Qərbin "uzaqgörən dağıdıcı siyasətinə" aldanan çğdaş müsəlman əhli isə Məhəmməd peyğəmbərin (salavatullah) "həmrəyliyə çağırışını unutdu". Öz hökmdarlarını dəstəkləmədi, onlara silah çevirdi və bununla da özünü çoxəsrlik rəzalətə və səfalətə məhkum etdi. 10-15 il bundan əvvəl minimum əmək haqqının 1000 ABŞ dolları olduğu İraqda, Suriyada, Liviyada bu gün yaşamaq üçün elementar şərait yoxdur. İnsanlar, kütləvi şəkildə yurdlarını tərk edərək, harasa naməlum istiqamətlərə üz tuturlar. Ölkələri xaraba qoymuş müharibənin sonu isə görünmür.

Qeyd etmək lazımdır ki, Qərb siyasətinin müsəlman dünyası, islam ideologiyası, xüsusən də islam həmrəyliyi haqqında daha müdhiş planları var: hər vəchlə islam dövlətlərinin inteqrasiyasına maneə olmaq, islam sivilizasiyasını orta əsrlərin inkişaf həddinə qədər çökdürmək və onu özünün "sözəbaxan vassallına", ucuz xammal bazasına, "banan diyarına" çevirmək. O, bu istiqamətdə potensial məqsədlərinə çatmaq üçün bütün vasitələrdən istifadə etməkdə israrlıdır. Belə bir həlledici tarixi şəraitdə islam dövlətlərinin, onların rəhbərlərinin və islam millətlərinin qarşısında duran ən ümdə vəzifə isə qərb siyasətinə qarşı təkzib edilməsi mümkün olmayan siyasi, iqtisadi və əxlaqi-mədəni arqumentlər qoymaq, bütün mövcud imkanlardan maksimal şəkildə istifadə etməklə, müqəddəs islam ideyalarının qüdrətini nümayiş etdirməkdən ibarətdir.

Əgər bu gün regional və qlobal miqyaslarda islam həmrəyliyinin bərqərar edilməsi müzakirə obyektidirsə, demək bu sahədə kifayət qədər ciddi problemlər mövcuddur. Bəs ən yüksək təşəkküllü pozitiv nəticələrə nail olmaq üçün nə etmək lazımdır? Bu sahədə ən məqbul sayılan metod islam ideologiyasını, islam tarixini sülhyaradan, düşündürən, birliyə və həmrəyliyə çağıran təfsir, yaxud interpretasiya metodudur.

Məsələ burasındadır ki, islam təlimində xristianlıqda olduğu kimi ciddi ehkamçılıq ənənəsi yoxdur və dini təlimin əsas müddəaları Quranda və hədislərdə öz əksini tapıb. Odur ki, dinin ayrı-ayrı prinsiplərinin təfsiri zamanı çox yanlış ideyaların meydana gəlməsi, düşüncələrdə şübhələr və çaşqınlıq yaratması qaçılmazdır. Elə buna görə də, mütləq pozitiv nəticə düzgün təfsirdən asılıdır. Bu gün islamiyyətdə qadağalar və dini-mənəvi davranışa çağırış yalnız tanrı xofunu, axirəti, cəhənnəm əzablarını islam əhlinə dönə-dönə xatırlatmaqla, cənnəti qazanmağın, ruhu xilas etməyin vacibliyini təşviq və təbliğ etməklə təzahür edir. Bu isə postindustrial cəmiyyətdə yaşayan, pozitiv elmə inanan, nağıl və mifləri ciddi qəbul etməyən, dövrün ən yeni, aparıcı texnologiyalarından bəhrələnən "müasir

homo sapiensi" qane etmir. Ən vacib hesab olunan tövbə və etiraf kimi fərdi institutlar isə işləmir.

Çağdaş Şərq-müsəlman icmasında mütləq həmrəyliyi, əsl qarşılıqlı anlaşmanı və birliyi təmin etməyə qadir olan, mənəvi ideal, yaxud etik nümunə kimi qəbul edilən müqəddəslər, zahidlər, yaxud əsl əməli-saleh dünyəvi nüfuz sahibləri demək olar ki, yoxdur. Çünki qloballaşmanın diktəsi altında inkişaf edən postindustrial cəmiyyət özünün sosial-iqtisadi və əxlaqi-mədəni problemləri ilə insanları maddiyatın tam əsiri edib və bununla da cəmiyyətdə total günahkarlıq kompleksi bərqərar olub. Belə bir şəraitdə isə ruhani qanunlar öz təsir qüvvəsini itirib və cəmiyyətdə yalnız gücə əsaslanan qanunçuluq bərqərar olub. Müasir dövrdə dini və məzhəblərarası zəmində münaqişələr, tarixdə misli görünməmiş təhlükəli vəziyyət alıb. Bu, o deməkdir ki, dini və əxlaqi-mənəvi qadağalar, bütün tarix boyu arzu olunan "dini barış konsepsiyası" kifayət qədər effektli şəkildə işləmir və ənənəvi təfsir düşüncələrdə arzu olunan əsl pozitiv mənzərə yaratmır. Təfsir, ilk növbədə barışıq aktı kimi təqdim olunmalı, yüksək etikaya əsaslanan dialoq qurulmalı, prozelitizmə (yun. *prozelitos - döndərmək* - başqalarına öz dini dünyagörüşünü, dini ideyalarını fərqli üsullarla sırımaq və bu istiqamətdə fəaliyyət) yol verilməməlidir. İslam həmrəyliyinin sarsılmasına səbəb olan hadisələr, icmaların məqsədyönlü hərəkəti kimi deyil, ayrı-ayrı fərdlərin şəxsi və siyasi ambisiyalarının, qeyri-məhdud hakimiyyətlərinin nəticəsi olaraq qiymətləndirilməlidir. Diletantlar təfsir prosesindən tam uzaqlaşdırılmalı, dini təbliğata səriştəsi olmayan insanların nüfuz etməsinə bütün vasitələrlə yol verilməməlidir.

Sünnənin və imamətin bir vahid mənbədən, bir genetik durumdan - Məhəmməd peyğəmbərdən (salavatullah) bəhrələndiyini tam təsdiq edən faktlar ortaya qoyulmalı, məzhəblər arasında, o qədər də ciddi fərqlərin olmaması sübuta yetirilməli, islamiyyətin fundamental prinsiplərinə xələl gətirməyən hər cərəyan və istiqamət dini plüralizm, tanrı həqiqətlərinə aparan çeşidli yollar kimi təsdiq edilməlidir. Dini tolerantlığın ən aktiv mexanizmləri işə salınmalı, həmrəylik düşünülmüş siyasətə əsaslanan insanlıq aktı, filantropiya ilə alicənablığın sintezi kimi qəbul olunmalı, təhlükəsiz gələcəyə hesablanmış olduqca mütərəqqi fəaliyyət növü kimi tanınmalıdır. İslamın təşəkkülündə Həzrət Əlinin müstəsna rolu bütün islam əhli tərəfindən qəbul edilərək qiymətləndirilməli, onun əzabkeş əshabələrinin peyğəmbərin yeganə qan qohumları olması unudulmamalı və bu tarixi faktlara əsla siyasi don geyindirilməməlidir. Psixoloji affekt halının ən mürtəce forması olan və intolerantlıqda təhlükəli məqam kimi təzahür edən dini fanatizmə və ekstremizmə müharibə elan edilməlidir.

Çünki şərin ən radikal təcəssümü kimi onun mövcud olmaq haqqı əsla yoxdur. Belə ki, o, bir ideya, həm də adətən yanlış ideya naminə bütün digər ekzistensial dəyərləri, onların səmavi və bəşəri hüquqlarını inkar edir.

Dinlərin və etnosların tarixini realist mövqedən, pozitiv faktlara əsaslanaraq öyrənməklə, kompromis strategiyalardan istifadə etməklə, əsrlərlə davam edən dinlərarası və məzhəblərarası düşmənçiliyi aradan tam qaldırmaq olar. Bu gün dini antaqonizmin davamlı şəkildə cərəyan etməsini din mənsublarının müvafiq tarixi kifayət qədər bilməməsi, hadisələri siyasiləşdirməsi və məhz belə səbəblər ucbatından "cahil icmanın" fanatizmə yuvarlanması ilə izah etmək olar.

Çağdaş İslam dünyasında islam həmrəyliyi dini, mədəni və siyasi aspektlərdə ifadə olunduğu kimi, həm də iqtisadi aspektdə təzahür edir. İslamda cəmiyyətin iqtisadi sisteminə, maliyyə-iqtisadi münasibətlərə, insanların rifah halının daim yaxşılaşdırılmasına, sərvətlərdən ədalətli, məqsədyönlü, qənaətlə istifadə edilməsinə, məsrəflərə yol verilməməsinə böyük diqqət ayrılır. İslam sivilizasiyası dünya mədəniyyətinə yüksək təşəkküllü əxlaqi-mədəni dəyərlər bəxş etməklə yanaşı, əvvəllər heç bir sivilizasiyada müşahidə olunmayan təsərrüfat-iqtisadi, pul-kredit, torpaq mülkiyyəti və vergi sistemi münasibətləri də gətirdi. Müqəddəs kitabın müddəalarından irəli gələn qanunlar toplusu ilə bəhrələnmiş yeni iqtisadi siyasət, ilk növbədə, ciddi əxlaqi-mənəvi qadağalara əsaslanan iqtisadi münasibətləri tərənnüm edirdi. Vergi sistemində əsl iqtisadi məntiq əsas faktor kimi qəbul olunur, vergilərin həcmi, təyinatı, toplanması qaydaları və xarakteri dəqiqliklə müəyyənləşdirilirdi. Torpaq mülkiyyətinin sosial-iqtisadi və ictimai-siyasi prinsipləri dəqiq təyin edilirdi. Asan gəlir əldə etmək məqsədi ilə kredit verilməsi, sələmçilik, yüksək faizlər və dəbbələr tətbiq edilməsi islam sivilizasiyasının iqtisadi münasibətlər sistemi üçün yad elementlər idi və qanunla qadağan olunurdu.

Əldə olunan sərvətlərin və tezavrasiya (yun. *thesauros* - sərvət) məqsədi ilə mənimsənilən gəlirlərin halal olması üçün zəkat vergisinin verilməsi yeni ictimai-iqtisadi münasibətlər sistemində olduqca vacib bir məqam idi. Zəkat, əslində islamiyyətin beş vacib dayağından biri kimi, cəmiyyətdə ümumi ədalət prinsiplərini tam təsdiq etməyə və qorumağa istiqamətlənmiş çox vacib sosial-iqtisadi institut qismində təzahür edirdi. Ümumiyyətlə, halallıq islam iqtisadi sisteminin təməl daşını təşkil edir. Kövsər qida məhsullarından tutmuş, kövsər bank faizlərinə qədər sirayət edən halallıq islam icmasının tarixən inkişaf edən atributudur. Məhz bu təmələ daimi sədaqət, bu gün çoxlu sayda islam dövlətlərini yer üzərində

ümumi rifah cəmiyyətinə, əsl **"industrial cənnətə"** çevirib.

Beləliklə, İslam dünyasında mütləq həmrəyliyə çağırış təkcə dini ideologiya vasitəsi ilə deyil, həm də iqtisadi mexanizmlərlə, beynəlxalq təşkilatların əsl inteqrativ gücü ilə həyata keçirilir. Bu gün 7,5 milyardlıq dünya əhalisinin düz 25% hissəsini, yaxud 1 milyard 800 milyon nəfərini müsəlmanlar təşkil edir. Lakin 100 trilyon ABŞ dolları həcmində sərvətə əsaslanan dünya iqtisadiyyatının yalnız 8,5%-i İslam dünyasının payına düşür. Bununla belə, bütün dünyada neft ehtiyatlarının 60%-i, təbii qaz ehtiyatlarının 62%-i islam ölkələrinə məxsusdur. Lakin islam ölkələrində iqtisadi inteqrasiyanın yüksək templəri bu gün də arzu olunan səviyyədə deyil. Dünyada yalnız 1,5% elmi kəşflər islam ölkələrinin payına düşür. Bütün dünya üzrə Nobel mükafatçılarının cəmi 2-3% islam dövlətlərinin mənsublarıdır. Məhz bu səbəbdən çox zəngin maddi, intellektual və təbii ehtiyatlara malik olan islam ölkələrinin iqtisadi və elmi-texniki sferalarda inteqrasiyası zamanın tələbi kimi ortaya çıxır. Qeyd etmək lazımdır ki, islam dövlətlərinin iqtisadi, mədəni və elmi-texniki sferalarda inteqrasiya prosesi sürətli templərlə II Dünya müharibəsindən sonra başlamış və çox yüksək beynəlxalq-təşkilati nəticələr əldə olunmuşdur. Bu baxımdan da İslam dünyasının birliyinə və həmrəyliyinə xidmət edən ən möhtəşəm hadisələrdən biri 1969-cu ilin sentyabr ayının 25-də Mərakeşin paytaxtı Rabat şəhərində müsəlman ölkələrinin dövlət başçılarının iştirakı ilə keçirilən beynəlxalq konfransda yekdilliklə yaradılmış **"İslam Əməkdaşlığı Təşkilatı"**dır (ing. *Organization of Islamic Cooperation* - OIC). 2011-ci ilin 28 iyun tarixdə Qazaxıstanın mərkəzi Astanada keçirilən 38-ci sessiyasına qədər "İslam Konfransı Təşkilatı" (OIK) adlanan bu qurum sosial-iqtisadi və siyasi sferalarda islam həmrəyliyinin təmin edilməsi, müstəmləkəçilik və rasizmə qarşı mübarizə, Fələstinin azadlığına dəstək və digər məqsədlər üçün yaradılmışdı. İlk mərhələdə qurumun tərkibinə Asiyanı və Afrikanı təmsil edən 25 dövlət daxil idi. Bu gün isə dünyada ən böyük beynəlxalq müsəlman təşkilatı kimi tanınan "İslam Əməkdaşlığı Təşkilatı" özündə 1,8 milyard əhalisi olan 57 müsəlman dövlətini birləşdirir. Təşkilatın cari və perspektiv məqsədləri sırasına müsəlman dövlətlərinin sıx birliyinin və həmrəyliyinin tam təmin edilməsi, beynəlxalq arenalarda birgə iştirak, təşkilatda təmsil olunan bütün dövlətlərin aktiv, sabit və davamlı iqtisadi inkişafını təmin etmək kimi məsələlər daxildir. 2008-ci ilin mart ayında Seneqalın paytaxtı Dakar şəhərində keçirilən növbəti zirvə toplantısında

təşkilatın yeni nizamnaməsi qəbul olunmuşdur.

İslam ölkələrinin sosial-iqtisadi birliyinin və həmrəyliyinin təmin olunmasında çox möhtəşəm daha bir hadisə **"İslam İnkişaf Bankı"**nın yaradılmasıdır. Beynəlxalq Maliyyə Təşkilatı kimi "İslam İnkişaf Bankı" (ing. *Islamic Development Bank - IsDB*) 18 dekabr 1973-cü il tarixində "İslam Konfransı Təşkilatına" daxil olan ölkələrin maliyyə nazirlərinin I konfransında yaradılmışdır. Bankın Mərkəzi ofisi Səudiyyə Ərəbistanının Ciddə şəhərində yerləşir. 1975-ci ilin 20 sentyabr tarixindən fəaliyyət göstərir. Bank kapitalı isə "İslam Konfransı Təşkilatını" təsis edən dövlətlərin ödədikləri fərqli üzvlük haqlarının hesabına formalaşdırılır. Bank BMT-də bir müşahidəçi statusunu təmsil edir (ing. *United Nations General Assembly observer*). İslam İnkişaf Bankının ən ali məqsədi "İslam əməkdaşlığı təşkilatına" daxil olan bütün ölkələrdə iqtisadi və sosial inkişafın təmin olunmasına istiqamətlənmiş layihələrin maliyyələşdirilməsi yolu ilə sosial-iqtisadi və elmi-texniki tərəqqiyə nail olmaqdan ibarətdir. Bank öz fəaliyyətini şəriət qanunlarına və əsas kövsər prinsiplərinə əsaslanaraq həyata keçirir. Hal-hazırda 57 üzvü olan İslam İnkişaf Bankının şəxsi kapitalı 15 milyard islam dinarı təşkil edir.

XX əsrin aparıcı motivləri sırasında Şərq xalqlarının milli oyanışı və dövlətçilik ənənələrinin bərpası kimi məsələlər xüsusi yer tutur. Qeyd etmək lazımdır ki, XX əsrin əvvəllərində dövlətçilik və siyasi müstəqillik baxımından islam dünyasını iki feodal-patriarxal, yarımasılı dövlət - İran və Osmanlı imperiyası təmsil edirdi. I Dünya müharibəsi (1914-1918) nəticəsində əsrlərin sərt sınaqlarından çıxmış, Orta əsrlərin və Yeni dövr tarixinin hərəkətverici qüvvələri olan imperiyalar dağıldı. Müstəmləkə altındakı xalqların milli-azadlıq mücadiləsi başlandı. İslam dünyasında milli-azadlıq hərəkatının ilk qaranquşu isə Şərqdə və müsəlman aləmində ilk demokratik dövlət qismində təşəkkül tapmış Azərbaycan Demokratik Respublikası oldu. Daha sonra İslam dünyasında xalqların istiqlal paradı başlandı və yeni siyasi səhnəyə Əfqanıstan İslam Respublikasının (19.08. 1919), Misir Respublikasının (28.02.1922), Türkiyə Respublikasının (29 oktyabr 1923), Səudiyyə Ərəbistanın (23.09.1932), İraq Respublikasının (03.10.1932), İndoneziyanın (17.08.1945), Qər. Pakistanın (14.08.1947), Liviyanın (24.12.1951), Mərakeş Krallığının (02.03.1956), Malayziya Krallığının (31.08.1957), Küveyt Əmirliyinin (19.06.1961), Əlcəzair Respublikasının (05.07.1962), Bəhreyn Krallığının (14.08.1971), Qətər

Əmirliyinin (03.09.1971), Birləşmiş Ərəb Əmirliklərinin (02.12.1971), 1991-ci ildə isə Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Tacikistan kimi Mərkəzi Asiya respublikalarının simasında tam müstəqil müsəlman dövlətləri çıxdı. Bu gün isə İslam dünyası 57 müstəqil dövlətlə təmsil olunur.

Müasir İslam dünyasının sosial-iqtisadi və əxlaqi-mədəni resursları tükənməzdir. İslam ideologiyasında yüksək rifaha, mükəmməl ictimai-iqtisadi münasibətlərə, sosial ədalətə, sərvətlərin bərabər bölüşdürülməsi prinsiplərinə əsaslanan yeni dövlət və cəmiyyət modeli tərənnüm olunur. Qeyd etmək lazımdır ki, bu gün İslam dünyasında çoxlu sayda dövlətlər, müəyyən mənada ideal dövlət prinsiplərinə cavab verir. Yüksək rifaha nail olmuş müsəlman dövlətləri xalqın davamlı sosial-iqtisadi inkişafını təmin etmək üçün çox yüksək təşəkküllü insan kapitalının yaradılmasını təxirəsalınmaz tarixi vəzifə kimi qəbul edirlər və uzaq perspektiv üçün nəzərdə tutulmuş bu bəşəri layihənin dərhal reallaşdırılması işində bütün mövcud imkanlardan və resurslardan istifadə edirlər.

Postindustrial cəmiyyətdə yeni müsəlman dövlətinin sosial-iqtisadi modeli ən mühüm məsələ kimi ortaya çıxır. Burada başlıca mübahisəli məqam isə elmi-texniki inqilabla, patriarxal dəyərləri müdafiə edən şəriət arasında baş verən toqquşma ilə bağlıdır. Qeyd etmək lazımdır ki, islam doktrinası elmin və texnikanın inkişaf etdirilməsini cəmiyyətin davamlı tərəqqisi üçün başlıca şərt hesab edir. İslam fundamentalizminin və dini radikalizmin kök saldığı cəmiyyətlərdə isə tərəqqinin qarşısına metodiki şəkildə sədlər çəkilir, elmi-texniki inqilabın nailiyyətlərindən isə kütləvi şəkildə istifadə olunmasına qadağalar qoyulur.

Hələ orta əsrlərdə elmi biliklərin mənimsənilməsinə yüksək önəm verən İslam dünyası əsl elmi-texniki tərəqqiyə nail olmaq üçün bütün mövcud vasitələrdən istifadə edirdi. Avropa universitetlərindən əvvəl dünyəvi elmləri öyrənən ilk böyük universitetlər məhz İslam aləmində - Bağdadda “Müdriklik evi” (“Darül-hikmət”) qismində təşkil olunmuşdu. Avropadan əvvəl antik elmi məhz müsəlman sivilizasiyası dirçəltməyə nail olmuşdu. Yer kürəsinin kürəşəkilli quruluşunu, onun en və uzunluq parametrlərini kəşf edən ilk alimlər də məhz müsəlman mütəfəkkirləri olmuşlar. Bu gün bütün dünyada geniş istifadə olunan rəqəmlər, onluq sisteminin yaradılması müsəlman riyazi təfəkkürünün məhsuludur. Ömər Xəyyam (1048-1131) məşhur Rene Dekartdan (1596-1650) 500 il əvvəl üç naməluma əsaslanan bərabərliyi həll etmiş və yeni analitik həndəsənin əsasını qoymuşdu. Üçbucağın həllini isə Kopernikdən əvvəl müsəlman alimi Əbdül Vəfa tapmışdı. Lakin təəssüf ki, son orta əsrlər ərzində İslam

dünyasında elmi-texniki inkişaf tənəzzülə uğramış, mövhumat müsəlman cəmiyyətinin deqradasiyasına səbəb olmuşdu.

XIX əsrin ortalarından etibarən isə İslam dünyasında “müsəlman reformasiyası” adlanan dövr başlandı. Müstəqil müsəlman dövlətlərinin yaradılması ilə İslam dünyasında “Üçüncü yol” adlanan müxtəlif sosial-iqtisadi, mədəni-siyasi konsepsiyalar, xüsusilə də “islam dövləti”, “islam iqtisadiyyatı”, “islam sosializmi” və “islam həmrəyliyi” konsepsiyaları yarandı. Onlar ayrıca götürülmüş islam ölkələrinin yerli xüsusiyyətlərini ciddi şəkildə nəzərə almaqla, sosial-iqtisadi və siyasi cəhətdən klassik islam doktrinasının modernləşdirilməsini nəzərdə tuturdular.

XX əsrin 50-70-ci illərində islam aləmində, aktiv şəkildə “islam sosializmi” konsepsiyasının hazırlanmasına başlanıldı. O, müxtəlif sosial yönümlü siyasi hərəkatların komponenti kimi ifadə olunur və ənənəvi islam postulatları ilə Qərbin demokratik prinsiplərinin sintezini nəzərdə tuturdu. Liberal modernizm bu hərəkatların vacib xassəsi idi. O, islam cəmiyyətinin müxtəlif sferalarında arxaik elementlərdən, həddindən artıq məhdudiyyətlərdən və radikal qadağalardan azad olmağa çağırış kimi təzahür edirdi. Bütün bunlar isə, eyni zamanda, islam dünyasının müasir industrial və informasiya cəmiyyətinin yaradılmasına çox geniş qapılar açması kimi qiymətləndirilirdi. İslamdakı modernizmin tərəfdarları iddia edirdilər ki, müsəlman ölkələrində yeni, postindustrial sosial iqtisadi və ictimai-siyasi münasibətlər sisteminin qurulması, ən yüksək elmi-texniki nailiyyətlərin əldə olunması Allahın qüdrətinin yeni ifadəsidir və Qurani-Kərimin əsl həqiqət kitabı olmasını təsdiq edir. Qeyd etmək lazımdır ki, “Oxumaq, oxumaq, yenə də oxumaq”, “Oxumaq işıqdır, oxumamaq isə qaranlıq” və “Güc elmdədir” kimi kəlamların əsl mənbəyi məhz Qurani-Kərimin zəngin xəzinəsidir. Quranda, həmçinin deyilir ki, “yeni elm əldə etmək üçün dilənçilik etmək belə, ən böyük xeyir əməl sayılır”. İslamda modernizm və “islam sosializmi” kimi yeni konsepsiyalar, eyni zamanda, tərəqqinin düşmənləri olan islam fundamentalizmi, dini radikalizm və ekstremizm kimi insanlığa zidd dəyərlərə qarşı yönəlmişdir.

Quranın çox məşhur 17-ci “Səmaya yüksəliş”, 54-cü “Ay”, 91-ci “Günəş”, 53-cü “Ulduzlar” və digər məlum surələri müasir müsəlman ilahiyyatçıları tərəfindən Allahın yeri və göyü insanlar üçün yaratması və müsəlmanların kosmosun mənimsənilməsində aktiv iştirakının vacibliyi kimi təfsir olunur. Bununla əlaqədar “elm” və “tərəqqi” kimi anlayışlar Qurani-Kərimdə açar sözlər qismində mühüm əhəmiyyət kəsb edir. Bu anlayışlar təkcə Allahın sirlərinin dərk edilməsini, Quran hikmətlərinin mənimsənilməsini ifadə etmir, həm də insan üçün praktiki həyatda lazım

olan biliklərin, bacarıq və vərdişlərin, əsl elmi-texniki nailiyyətlərin əldə edilməsini tərənnüm edir.

Müsəlman dünyasında yüksək texniki təhsilli mütəxəssislərdən, təbiət elmləri, tibb, fəlsəfə sahəsində çalışan alimlərdən islami dəyərlərin müdafiə olunması və müasir industrial cəmiyyətdə İslam dəyərlərinin nüfuzunun daha da artırılması üçün istifadə edilir. Beləliklə, elmi-texniki inqilabın fədakar əsgərləri olan elm fədailəri islamın adına, nüfuzuna və qüdrətinə dini ideologiyaya xurafat səviyyəsində sitayiş edən mömindən daha çox xeyir gətirirlər.

İslam aləmində elmi-texniki tərəqqiyə və postindustrial cəmiyyətin qurulmasına münasibətdə əsasən 2 tip konsepsiya mövcuddur: 1. Elmi-texniki tərəqqinin müsəlman cəmiyyətində bərqərar olmasına pessimist yanaşma ilə əlaqədar elmi-texniki tərəqqinin bir şər və dünyanın sonuna aparan əlamət qismində qəbul edilməsi. 2. Texnofobiyanın əksinə olaraq, elmi-texniki tərəqqinin bəşəriyyətin yeganə inkişaf yolu kimi tanınması.

Baxmayaraq ki, müsəlman ölkələri digər inkişaf edən ölkələr kimi elmi-texniki nailiyyətlərin istehlakçısı rolu oynayırlar, bununla belə elmi-texniki tərəqqi müsəlmanların ictimai şüuruna, məişətinə, elm və texnika sahəsində fəaliyyətinə fövqəladə təsir göstərir. Bunun çox parlaq nəticəsi olaraq, məşhur Pakista fiziki və Nobel mükafatı laureatı, Nəzəri fizika Beynəlxalq İnstitutunun direktoru Məhəmməd Abdus Salamın (1926-1996) sözlərini bir də xatırlatmaq  yerinə düşər. O, qeyd edirdi ki, “məhz Quranda yazılmış çağırışlara, məsləhətlərə rəğmən, israrla böyük elmin arxasınca getmiş və belə yüksək nəticələrə nail olmuşdu”.

Müasir müsəlman ilahiyyatçıları hesab edirlər ki, islam ideologiyası müsəlman mədəniyyətinin ənənəvi dəyərləri ilə müasir pozitiv elmin, mədəniyyətin və texniki tərəqqinin nailiyyətlərini üzvi şəkildə sintez edərək, mükəmməl bir cəmiyyət modeli yaratmağa qadirdir. Belə bir üzvi sintezin nümunəsi kimi çox yüksək sosial-iqtisadi və elmi-mədəni tərəqqi yollarına çıxmış Birləşmiş Ərəb Əmirliklərini, Qətəri, Küveyti, Bəhreyni, Səudiyyə Ərəbistanını, İordaniyanı, İndoneziyanı, Malayziyanı və digər müsəlman dövlətlərini misal göstərmək olar. Bu ölkələrdə ənənəvi islam dəyərlərinin mühafizə edilməsi ilə innovasiya-kommunikasiya texnologiyalarına əsaslanan iqtisadiyyat, çox güclü bilik fondu, yüksək ÜDM, ən yüksək təşəkküllü innovasiya xidmət sahələrinin



yaradılmasına və bu sahələrdə çalışan bütün işçilərin yüksək rifahına nail olunmuş, postindustrial cəmiyyətin spesifik forması yaradılmışdır. Bu gün BƏƏ, Malayziya, Qətər, Bəhreyn, Küveyt və digər belə müsəlman dövlətlərində postindustrial cəmiyyətin, elmi-texniki tərəqqinin və islam əxlaqının sintezindən əsl Edem, Paradiz, başqa sözlə **yer üzərində əsl cənnət** bərqərar olmuşdur. Lakin islam sivilizasiyasının qarşısında hələ çoxlu sayda ən çətin və möhtəşəm vəzifələr durur: mütləq şəkildə islam həmrəyliyinin bərqərar edilməsinə nail olmaq və çox yüksək təşəkküllü ümumi rifah dövlətləri yaratmaqla, **"yer üzərində cənnətin sərhədlərini daha da genişləndirmək".**

Tarixən qitələrin və sivilizasiyaların kəsişdiyi qədim Azərbaycan torpağında müxtəlif din və mədəniyyət mənsubları daimi sülh, razılıq və əsl həmrəylik şəraitində yaşamışlar. Təbii, bu ənənə yüksək təşəkküllü templərlə bu gün də davam edir. Zəngin tolerantlıq və multimədəni ənənələrə malik Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi altında sivilizasiyalararası dialoqa, islamdaxili və konfessiyalararası həmrəyliyə öz möhtəşəm töhfələrini verir.



2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili"elan olunmasını xalqımız böyük ruh yüksəkliyi ilə qarşıladı, öz tarixi-mədəni və əxlaqi-mənəvi ənənələrinə üzvi bağlılığını, bu ənənələrə əsl sədaqətini dünya ictimaiyyəti qarşısında bir daha uğurla nümayiş etdirdi. Bununla əlaqədar ölkəmizdə və xaricdə çoxlu sayda tədbirlərin keçirilməsi bütün dünyanın, Azərbaycanda mövcud olan multimədəni modelə və onun özəlliklərinə böyük diqqət və marağını artırdı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 yanvar 2017-ci il tarixində imzaladığı Fərmanla yeni, 2017-ci ili "İslam həmrəyliyi ili" elan etməsi də, əslində elə "2016-cı il - Multikulturalizm ilinin" məntiqi davamı idi. Qeyd etmək lazımdır ki, bu gün Azərbaycanın İslam həmrəyliyinin mərkəzi seçilməsi təsadüfi hadisə deyil. Belə ki, tarixən mədəni plüralizmin mərkəzi olan Azərbaycanda dinlər, konfessiyalar və etnik-mədəni müxtəlifliklər arasında dini-ideoloji zəmində hər hansı münaqişə baş verməmişdir. Malayziyadan Mərakeşə qədər İslam dünyasını təmsil edən bütün digər məkanlarda bu və ya digər miqyaslı və xarakterli məzhəblərarası və konfessiyalararası münaqişələr baş vermişdir və bu gün də baş verir. Azərbaycan isə bu baxımdan istisna təşkil edir və müsəlman aləmində əsl sülh və həmrəylik adası - əl-Cəzirə,

təsamül, yaxud kollektiv dini məsuliyyət nümunəsi kimi tanınır. Bu gün Azərbaycanda çox ciddi ideoloji və əxlaqi-mənəvi fərqləri olan xristian, yəhudi və müsəlman konfessiyalarının əsl sülh şəraitində yaşaması dini-siyasi faktdır. Eyni zamanda ölkəmizin müsəlman əhalisinin müxtəlif cərəyan və məzhəb sahibləri olmalarına baxmayaraq, onların arasında mütləq barışıq və həmrəylik mövcuddur. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın müsəlman əhalisinin 60%-ni (digər məlumatlara görə isə 85%-ni) şiə-cəfəri cərəyanının isnaaşirət, yaxud mehdilik istiqamətinin, 40%-ni (digər mənbələrə görə 15%-ni) isə sünni cərəyanının hənəfi və şafii məzhəblərinin mənsubları təşkil edir.

Bu gün islam həmrəyliyi adı altında təkcə islam mənsubları olan əhalinin ideoloji, etnik-mədəni, sosial-iqtisadi və dini-siyasi inteqrasiyası başa düşülməməlidir. İslam həmrəyliyi adı altında, eyni zamanda islam ideologiyası ilə digər dinlər arasında razılıq və harmoniyanın bərqərar edilməsi nəzərdə tutulmalıdır. Lakin bunun üçün hələ çox iş görmək, real addımlar atmaq vacibdir. İslam ideologiyasına sədaqət rəmzi kimi bizim tərənnüm etdiyimiz həmrəylik isə qlobal xarakter kəsb etməlidir. Çünki islamın tolerant prinsipləri dinindən, dilindən və etnik mənsubiyyətindən asılı olmayaraq, bütün Adəm övladlarını əbədi sülhə, barışığa, birliyə və həmrəyliyə çağıran fəlsəfi konsepsiya, biz isə səmavi mənşədən olan bu fəlsəfənin daşıyıcılarıyıq. Sözügedən bu fəlsəfə bəşəriyyətin birliyinə və həmrəyliyinə, həmçinin potensial münaqişələrin aradan qaldırılmasına hesablanmışdır.

İslam həmrəyliyi əsla hər hansı hipotetik, yaxud real düşmənə qarşı müsəlmanların birgə cəbhə yaratmaq məqsədini güdmür. Bütün ideoloji sərhədlərin aradan götürülməsini və mütləq barışıq yaradılmasını nəzərdə tutur. Bu əhdin konstitusional əsaslarını isə "yurdda sülh, cahanda sülh" konsepsiyası təşkil edir. Bu gün islam ideologiyası ibrani dinlərdən ən gənci olsa da, ümumbəşəri həmrəyliyi bərqərar etmək kimi vəzifəni öz üzərinə götürüb və bütün dinləri ümumi dialoqa çağırır. Beləliklə, islam həmrəyliyi kainat miqyaslı birliyə çağırış və real təhlükəsizlik nümunəsi kimi təzahür edir.

Məlumdur ki, islam ölkələri fövqəladə şəkildə çox böyük coğrafi ərazidə təmsil olunub. İslam arealının belə geniş sərhədləri diqqətəlayiq hal olsa da, islam ölkələrinin bir-birilərindən uzaq məsafədə yerləşməsi müsəlman xalqlarının, müəyyən mənada bir-birilərindən iraq düşməsinə səbəb olmuşdur. Bu isə islam ölkələri arasında sosial-iqtisadi və dini-mədəni əlaqələrin yaradılmasında ciddi maneə kimi ortaya çıxır. Buna görə də Azərbaycan dövlətinin öz üzərinə götürdüyü bütün dünyada

islam həmrəyliyinin bərqərar edilməsi kimi möhtəşəm tarixi vəzifənin ən vacib motivlərini, sözün əsl mənasında uzaq ölkələri belə, yaxın etmək, islam xalqları arasındakı bütün maneələri aradan qaldırmaq təşkil edir.

Azərbaycanda tolerant dini-mədəni mühitin bərqərar edilməsində və ölkəmizin islam həmrəyliyinin əsl etalonu kimi tanınmasında Heydər Əliyev Fondunun, Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, Prezident aparatı yanında millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri xidmətinin (2017-ci ildən xüsusi şöbə), Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, həmçinin Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin müstəsna xidmətləri vardır. Bu sahədə çox möhtəşəm tarixi məsuliyyət məhz Qafqaz Müsəlmanları Ruhani İdarəsinin üzərinə düşür. Qafqaz Müsəlmanlarının Ruhani İdarəsi 1944-cü ilin aprel ayının 14-də "Zaqafqaziya Müsəlmanlarının Ruhani İdarəsi" qismində yaradılmışdır. 1992-ci ildən isə "Qafqaz Müsəlmanları Ruhani İdarəsi" adlanır. Mərkəzi Bakıda yerləşən həmin təşkilat Azərbaycanda, Gürcüstanda, Dağıstanda, Kabardin-Balkariyada, Naxçiyndə, Gialgiayçedə (İnquşetiya), Karaçay-Çerkesiyada, Osetiyada yaşayan müsəlmanların dini-mədəni birliyinin və həmrəyliyinin təmin olunmasında böyük xidmətlər göstərir. Bu idarənin həmrəyliyi və tolerantlığı ifadə etməsinin ən vacib əlamətləri qurumun nizamnaməsində əksini tapmış müddəalarda ifadə olunmuşdur. Məsələn, nizamnamədə qeyd olunur ki, qurumun rəhbəri şiə dini cərəyanını, onun müavini isə sünni cərəyanını təmsil edən ruhani olmalıdır. Dünyada bu cür yüksək təşəkküllü tolerant prinsiplərə əsaslanan ikinci bir dini qurum mövcud deyil.

İslam həmrəyliyinin bərqərar olmasında Azərbaycanın möhtəşəm yaradıcı rolu göz qabağındadır. Son illərdə dövlət səviyyəsində həyata keçirilən tədbirlər ölkəmizi İslam Əməkdaşlığı Təşkilatının, Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə İslam Təşkilatı - ISESCO-nun üzvü kimi islam dövlətləri birliyində ən aktiv mədəni subyektə çevirmişdir. Bu gün Azərbaycan Respublikası islam birliyinin təmin olunması istiqamətində üzərinə götürdüyü vacib tarixi vəzifələri sistematik şəkildə və metodiki ardıcıllıqla yerinə yetirir. Qarşıda isə regional və qlobal miqyasda idman-sağlamlıq, iqtisadi, siyasi, elmi və ictimai-mədəni xarakterli tədbirlər və onlardan irəli gələn vəzifələr durur.

Azərbaycan Respublikası 1991-ci il tarixdə siyasi müstəqillik əldə etdikdən sonra, müsəlman dövləti olaraq onun tarixində yeni bir dövr başlandı. Bu dövrün başlıca motivlərini isə iqtisadi cəhətdən yeni bazar prinsiplərinə əsaslanan münasibətlər sisteminin yaradılması, ölkəmizin Avropa iqtisadi-siyasi strukturlarına inteqrasiyası və 70 il total qadağa

altında olan islami mənəvi dəyərlərin, islam mədəniyyətinin yeni intibahı məsələləri təşkil edirdi.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında 1993-cü ildən davamlı şəkildə həyata keçirilən iqtisadi-siyasi və dini-mədəni tədbirlər qısa müddət ərzində Azərbaycanı həm Qərb aləmində, həm də Şərqdə fövqəladə nüfuz və söz sahibinə çevirdi. 1994-cü ildə Heydər Əliyevin Səudiyyə Ərəbistanına rəsmi səfəri çərçivəsində Məkkədə və Mədinədə müqəddəs dini məkanları ziyarət etməsi, kiçik həcc, yaxud ümrə həyata keçirməsi XX əsrdə İslam dünyasında ən möhtəşəm hadisə idi. Ateizmi dövlət səviyyəsində ideoloji siyasət elan etmiş bir dövlətin ən görkəmli rəhbərinin Məkkəyə üz tutması müsəlman aləminin çox möhtəşəm tarixi qələbəsi, islam həmrəyliyinin sərhədlərinin daha da genişlənməsi kimi qiymətləndirilirdi.

Müsəlman dövləti kimi Qərbin iqtisadi-siyasi strukturlarında uğurla təmsil olunan və çox aktiv şəkildə islam ölkələrinin inteqrasiya prosesinə qoşulan Azərbaycan bu gün yüksək səviyyədə balanslaşdırılmış siyasət yürüdür və bununla da möhtəşəm bir tarixi tapşırığı reallaşdırır. Müəllifi Ümummilli lider Heydər Əliyev olan belə unikal münasibətlər sistemi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən daha da təkmilləşdirilərək, bu gün Azərbaycan xalqının rifahına, islam ölkələrinin birliyinə və həmrəyliyinə, nəhayət dünyada sülhün və əmin-amanlığın bərqərar olmasına xidmət edir.

İslam həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində Prezident İlham Əliyevin irimiqyaslı tədbirlər planının reallaşdırılmasında dövlətin və xalqın bütün intellektual, iqtisadi-mədəni, elmi-nəzəri və elmi-praktiki potensialının səfərbər edilməsi son dərəcə diqqətəlayiq bir haldır. İlham Əliyevin üç dəfə Həcc ziyarətində olması, Kişik Həcc həyata keçirməsi, Səudiyyə Ərəbistanı, Ərəb-müsəlman dünyasını təmsil edən dövlətlərlə sıx iqtisadi-mədəni əlaqələrin yaradılmasına güclü təkan verməsi bütün müsəlman xalqlarını və dövlət başçılarını birliyə və həmrəyliyə çağıran nümunəvi fəaliyyət kimi təzahür edir və bütün islam dünyası tərəfindən alqışlanır.

İlham Əliyevin 10 yanvar 2017-ci il tarixində 492 saylı Fərmanla 2017-ci ili məhz "İslam həmrəyliyi ili" elan etməsi Azərbaycan xalqının qarşısında böyük tarixi vəzifələr qoydu. Prezidentin bu siyasi çağırışının məntiqi davamı kimi 2017-ci il mart ayının 15-də Bakı şəhərində Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, eləcə də Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin, Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin birgə təşkil etdiyi "İslam

həmrəyliyi zamanın çağırışıdır" mövzusunda yeni beynəlxalq konfransın keçirilməsi oldu. Konfransda Azərbaycanın müsəlman renessansında, islam sivilizasiyasının davamlı inkişafında oynadığı müstəsna rolu xüsusi vurğulanmış, islam ideologiyasının elan etdiyi sülh, birlik, ədalət, əxlaqi dəyərlər haqqında mütərəqqi ideyaların həm müsəlman, həm də qeyri-müsəlman icmalarında çox vacib dəyərləri göstərilmişdir. Ümumbəşəri dəyərlərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycanın ənənəvi bir məkan statusunu daşıması konfransın diqqət mərkəzində olmuşdur. 2017-ci ilin 12 aprelində isə adı çəkilən qurumların birgə təşkilatçılığı ilə "İslam həmrəyliyi: dini və mədəni müxtəlifliyin harmoniyası" adlı daha bir beynəlxalq konfrans baş tutmuşdur. Hər iki konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul olunmuş və ölkə başçısının misli görünməmiş, əsl sülhyaradan, inteqrativ fəaliyyəti yüksək qiymətləndirilmişdir.

İslam dəyərlərinin ümumbəşəri amil kimi sülhyaradan təbliğatının nəticəsi olaraq, Luvr Muzeyində İslam Mədəniyyəti Departamentinin açılması, tarixdə ilk olaraq Vatikanda Azərbaycanın simasında müsəlman ölkəsinin təntənəli sərgisinin təşkil edilməsi, 2009-cu ildə Bakının İslam Mədəniyyətinin Mərkəzi seçilməsi, 2011-ci ildən isə Bakıda Beynəlxalq Humanitar Forumların keçirilməsi, multikulturalizmin əsl dövlət siyasəti kimi təsdiq edilməsi, May 2012-ci il tarixində Avropa musiqi müsabiqəsi "Avroviziya"-nın, 2015-ci il tarixində isə ilk Avropa İdman Oyunlarının Azərbaycanda baş tutması Prezident İlham Əliyevin uzaqgörən daxili və xarici siyasətinin möhtəşəm nəticəsidir. Bütün bu tədbirlər Azərbaycan dövlətinə sosial-iqtisadi və siyasi dividendlər gətirməklə yanaşı, ölkəmizi beynəlxalq aləmdə nüfuz sahibinə çevirib, İlham Əliyevin adı isə çağdaş dünyanın ən məşhur və istedadlı dövlət başçıları, harizmalı və fenomenal şəxsiyyətləri sırasında çəkilir.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin İslam həmrəyliyinin tam şəkildə bərqərar edilməsi və yüksək zəmanətlə möhkəmləndirilməsi istiqamətində atdığı daha bir möhtəşəm addım, 12-22 may 2017-ci il tarixində Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarının təşkilidir.

Qeyd etmək lazımdır ki, İslam Həmrəyliyi Oyunları Beynəlxalq idman tədbiri kimi 2005-ci ildən etibarən keçirilir və bu tədbirdə İslam Əməkdaşlığı Təşkilatına daxil olan ölkələrin idmançıları iştirak edirlər. 2009-cu ildə İranda keçirilməsi nəzərdə tutulmuş II İslam Həmrəyliyi Oyunları İranla Ərəb dövlətləri arasında İran körfəzinin Fars, yaxud Ərəb körfəzi adlanması ilə əlaqədar mübahisə ucbatından baş tutmamışdır. Bu

İslam aləmində potensial mübahisələrin və münaqişələrin olmasından xəbər verir. III İslam Həmrəyliyi Oyunları 2013-cü ilin sentyabr ayında bütün dünyanın ən böyük müsəlman dövləti kimi tanınan İndoneziyanın Pekanbaru şəhərində keçirilmişdir.

IV İslam Həmrəyliyi Oyunlarının məhzAzərbaycanın paytaxtı Bakı şəhərində keçirilməsi qərarı isə 2013-cü il iyul ayının 24-də Səudiyyə Ərəbistanının Ciddə şəhərində İslam Həmrəyliyi İdman Federasiyasının VIII hesabat-seçki Baş Assambleyasında qəbul olunmuşdur. IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat komitəsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 sentyabr 2015-ci il tarixli Fərmanı ilə yaradılmışdır. Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsinin İcraiyyə komitəsinin sədri, UNESCO-nun və ISESCO-nun Xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikasının I vitse-prezidenti Mehriban Əliyeva İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin rəhbəri təyin edilmişdir.

IV İslam Həmrəyliyi Oyunlarına aparan şanlı yol 5 aprel 2017-ci il tarixində "Su səyahəti" ilə başlanmış və 37 gündən sonra, may ayının 12-də tədbirin açılış günü Bakıda başa çatmışdır. Azərbaycan xalçaçılığının spesifik elementləri, Qobustanın qayaüstü təsvirləri IV İslam Həmrəyliyi Oyunlarının loqotipi, gözəllik və zəriflik, azadlıq və özünə inam rəmzləri olan Qarabağ atları "İncə" və "Cəsur" isə oyunların rəmzləri (talisman) qəbul edilmişdir.

Beləliklə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan xalqının milli, dini və tarixi irsinə böyük diqqəti və qayğısı sayəsində ölkəmiz mədəniyyətlərarası və humanitar dialoqun bərqərar olduğu yüksək təşəkküllü mədəni məkana çevrilmişdir. Məhz möhtərəm prezidentimiz İlham Əliyevin möhtəşəm fəaliyyətinə rəğmən Azərbaycan müsəlman dünyasında dünyəvi dövlətin unikal modeli kimi özünü təsdiq etmişdir. Bu modelin əsaslarını azərbaycançılıq, milli birlik prinsipləri, dövlətin dindən ayrı olması və müasirlik, həmçinin dini dəyərlərə, ruhani birliyə və islam həmrəyliyinə bağlılıq təşkil edir. Məhz bu dünyəvi və dini-ruhani dəyərlərin sintezindən yaranmış model, özündə elmlə dinin birliyini, islam maarifinin, milli mədəniyyətin intibahını və tərəqqisini ifadə edir.

## 11.4. Azərbaycan milli xarakterinin formalaşmasında multikulturalizm ideyalarının rolu və əhəmiyyəti. Multikulturalizm ədəbi-bədii mənbələrin dili ilə (ing. *Role and importance of multiculturalism ideas in the shaping of the Azerbaijani national character. Multiculturalism in the language of literary and artistic sources*)




Azərbaycan milli xarakterinin formalaşmasında iştirak edən çoxlu sayda ən vacib təbii-coğrafi, etnik-siyasi, sosial-mədəni, dini-mənəvi, ictimai-iqtisadi, ruhani və əxlaqi tip faktorlar içərisində əsl multimədəni dəyərlərin, həmçinin sırf tolerantlıq motivlərinin xüsusi yeri və rolu vardır. Sözügedən ümumbəşəri ideyalar Şanlı Azərbaycan tarixinin bütün dövrlərində təzahür edən ictimai-fəlsəfi dünyagörüşündə, yeni dini baxışlarda, bədii əsərlərdə, dramaturgiyada, kinematoqrafiyada və təhsil sistemində öz əksini tapmışdır. Məhz bu səbəbdən əsrlərin olduqca çətin və sərt sınaqlarından keçib gəlmiş müasir Azərbaycan millətinin ən xarakterik cizgilərini tolerantlıq, humanizm, qonaqpərvərlik, mərhəmət, yardım etmək arzusu, sədaqət, vəfadarlıq və s. kimi ümumbəşəri ruhani dəyərlər təşkil edir. Hətta müasir Azərbaycan etnosunun bu xüsusiyyətləri, bəzən onun düşmənə kifayət qədər nifrət etməsinə belə mane olur.

Erkən orta əsrlər Azərbaycan fəlsəfi məktəbinin banisi Əbülhəsən Bəhmənyar (993-1066) ”Ət-Təhsil” (”İdrak”) adlı əsərində peripatetizmi (yun. *peripateo* - gəzişmək, dövrə vurmaq - Aristotel məktəbi və onun davamçıları belə adlanırdılar) və çox yüksək təşəkküllü tolerantlığı ifadə edən sufiliyi təbliğ edirdi. Belə yüksək təşəkküllü tolerant motivlər “İşıq fəlsəfəsinin” banisi, çox görkəmli Azərbaycan filosofu Yəhya ibn Həbəş Şihabəddin Sührəverdinin (1155-1191) ”Kitabi Hikmət əl-Əşraq” (Nur fəlsəfəsi) əsərində də dominant motivlər kimi təzahür edirdi. İşraqizmə görə, bütün mövcudat Mütləq İşraqdan yaranmışdır və hər bir şüurlu subyekt bu işığın bir zərrəsini özündə daşıyır. Bütün fərdi işıqlar mütləq işığa can atmalı, bu yolda bir-birilərinə işıq saçmalı və qarşılıqlı şəkildə bir-birilərini nurlandırmalıdırlar. Beləliklə, işraqizm nəzəriyyəsi bütün bəşəriyyətin Mütləq Nura can atması kimi bir ideyanı ön plana çəkirdi. İşraqizmin multimədəni mahiyyəti onun əsas müddəalarında, sufiliyin, zərdüştlüyün və yunan fəlsəfəsinin (xüsusilə aristotelizmin) ən mütərəqqi

elementlərinin əks olunmasında özünü təsdiq edirdi [9].

Əsrlər boyu Orta və Yaxın Şərqdə mənəviyyat və əxlaq qaynağı hesab olunan "Əxlaqi-Nasiri" (1235) kitabında çox görkəmli Azərbaycan filosofu Xacə Məhəmməd Nəsirəddin Tusinin (1201-1274) insan, ailə, cəmiyyət, əxlaq, din, ictimai münasibətlər barədə dolğun təsəvvürləri, etik-fəlsəfi fikirləri yer alıb. "Əxlaqi-Nasiri" əsərinin əsas motivlərini "praktiki müdriklik" təşkil edir. Əsərin beşinci bölməsində, bütövlükdə insan arzularının və istəklərinin müsbət və mənfi tərəfləri təhlil olunur və hər fərdin özəl, yalnız ona məxsus olan bəzi xüsusiyyətlərə malik olması göstərilir. Bu xüsusiyyətlər, bir qayda olaraq, insanın nitqində üzə çıxır. Məhz mükəmməl, səlis nitqin vasitəsi ilə insan yaxşını pisdən, gözəlliyi eybəcərlikdən ayırır, sülh yaradır, zəruri dialoq qurur, barışıq aktının təməllərini qoyur, mövcud münaqişələri yatırır, başqalarını humanizmə, mərhəmətə və xeyirxah əmələ çağırır. İradənin gücü ilə isə (subyektiv volyuntarizm) özü bu həqiqətə can atır. N.Tusi "Əxlaqi-Nasiri" əsərində ədalətdən yaranan rifahın 12 müxtəlif formasını göstərirdi: 1) sədaqətli olmaq; 2) günah etməmək; 3) vəfadar olmaq; 4) mərhəmət göstərmək; 5) doğmalarla və yaxınlarla əsl səmimi münasibətlər qurmaq; 6) insanları mükafatlandırmaq (heç olmasa bir xoş kəlmə ilə); 7) bərabərliyi təmin etmək; 8) başqalarının hüquqlarını pozmamaq; 9) dostluq münasibətləri yaratmaq; 10) əməli saleh olmaq; 11) ruhdan düşməmək və həmişə ümid etmək; 12) həqiqətə və ədalətə inanmaq (inanc və iman) [10].

Azərbaycan ictimai-fəlsəfi fikrinin görkəmli nümayəndələrindən biri olan məşhur Mahmud Şəbustərinin (1287-1320) 1317-ci ildə yazdığı "Gülşəni-raz" (Sirlər gülşəni) əsərində tolerantlığın parlaq ifadəsi olan sufiliyin prinsipial ruhani əsasları öz əksini tapmışdır. Əsərin əsas ideyası sufilik (ərəb. *təsəvvüf*) fəlsəfəsində ezoterik (yun. *ezoterikos* - daxili - mistik təlimlərdə sirr kimi saxlanılan bilik, məlumat) təlim olan "vəhdəti-vücud" ideyası təşkil edirdi. Bu ideya tanrı tərəfindən yaradılmış bütün varlıqların mütləq vəhdətini elan edir, təbii və ilahi birliyə çağırış kimi təzahür edirdi [11]. Filosofun "Həqiqətlər xəzinəsi" ("Kənzül-Hənaik"), "Xoşbəxtlik kitabı" ("Səadətnamə") və s. kimi əsərlərində də bu motivlər ifadə olunmuşdur.

Tolerantlıq və multikultural dəyərlər daha dərin bir məzmunla dahi Azərbaycan şairi Nizami Gəncəvinin (1141-1209) möhtəşəm əsərlərində ("Xəmsə") öz parlaq əksini tapmışdı. Şairin dünyagörüşündə həm Qədim yunan fəlsəfəsinin, həm də Şərq ictimai-fəlsəfi ideyalarının ən möhtəşəm nümunələri "təmiz lirika" üslubunda tərənnüm olunurdu. 1173-1176-cı illərdə yazılmış və Ərsincan hakimi Fəxrəddin Bəhram şaha (1155-1218)

həsr edilmiş məşhur “Sirlər xəzinəsi” (fars.*Məhsən əl-Əsrar*) poemasında Nizami homiletika (yun. *homiletikos* - ağıllı söhbət etmək sənəti), yaxud nəsihət üslubunda insanları ədalətə, təmizliyə, birliyə və ilahi məhəbbətə çağırır, tolerant sufiliyin əsas prinsiplərindən biri olan mükəmməl nitqin vacib xarakteri ön plana çəkilirdi [12].

1176-1191-ci illərdə yazılmış və Səlcuq sultanı II Toğrula (1131-1135), Cahan Pəhləvana (1175-1186) və Qızıl Arslana (1186-1191) həsr olunmuş “Xosrov və Şirin” poeması, ilk baxışdan bir məhəbbət üçbucağı təsiri bağışlasa da, süjet və məzmun baxımından əsər ümumi cizgilərdə tolerantlığın və multimədəni dəyərlərin tərənnüm olunması kimi özünü təsdiq edir. İnsan məhəbbətinin bütün dini, əxlaqi, sosial, etnik-mədəni özəllikləri və məhdudiyyətləri aşaraq, ən təmiz insani münasibətlərdə təzahür etməsi isə poemanın aparıcı motivlərindən biri kimi ortaya çıxır. Poemada əsas personajların Sasani hökmdarı-atəşpərəst Xosrov Pərviz (591-628), Bizans şəhzadəsi-xristian Məryəm, Alban-xristian şəhzadəsi Şirin və azərbaycanlı-türk Fərhad olması Nizaminin əsl multimədəni və tolerant dünyagörüşünü təcəssüm etdirən çox parlaq sübutdur. Nizaminin məhz bu multimədəni və qlobal düşüncə tərzi, əsərlərində öz dövrünün bütün mədəni dəyərlərini tərənnüm etməsi, onu bəşər tarixinin ən məşhur şəxsiyyətlərindən birinə çevirmişdir. Nizami Azərbaycan xalqının oğlu olsa da, bütün dünya xalqları onu, təbii olaraq, doğma hesab edir. Çünki Nizami dühasının ən ali ifadəsi olan “təmiz lirika” hər bir xalqın, hər bir mədəniyyətin ruhunu özündə tərənnüm edir [13]. 1188-ci ildə yazılmış və Şirvanşah I Axsitana (1160-1197) həsr olunmuş “Leyli və Məcnun” poemasında Nizami Gəncəvi Vilyam Şekspirdən (1564-1616) dörd əsr əvvəl əsl tolerantlığın və digər sosial-mədəni tipli dəyərlərin israrla qəbul edilməməsinin hansı faciəli nəticələr verməsini iki ərəb ailəsi arasında olan münasibətlərdə və onların övladlarının (Leylinin və Qeys ibn əl-Müləvvahın) faciəli məhəbbətində çox yüksək təşəkküllü poetik üslubda təqdim etmişdir [14].

1197-ci ildə yazılmış və Marağa hakimi Əlaəddin Körpə Arslana həsr olunmuş “Yeddi gözəl” (fars. “*Həftə peykər”*) poemasında Nizami müxtəlif xalqları (hind, çin, türk (xarəzm), slavyan, məqrib, bizans, iran) təmsil edən şəhzadələrin obrazlarında, əslində, dünya mədəniyyətlərinin müxtəlifliyini və onların hər birinin özünəməxsusluğunu tərif edir. Gənc Bəhram Gurun ərəb hökmdarı Nomanın Karnak adlanan sarayında yeddi şahzadənin portretini görərək onlara vurulması, əslində, onların təmsil etdikləri mədəniyyətlərə vurğunluğunun ifadəsidir. Bununla da Nizami bütün dünya mədəniyyətlərinin əsrarəngizliyini, onların bəşər tarixi və

mədəniyyəti üçün zəruri olmasını açıb göstərirdi. Bəhram Gurun (Sasani padişahı V Bəhram Gur -420-439) hökmdar olandan sonra yeddi şahzadə ilə evlənməsi, onların hər birinə möhtəşəm saraylar inşa etdirməsi, bütün şahzadələrin müdrik hekayələrini dinləməsi, bütün mədəniyyətlərin hər birinin yüksək ilahi dəyər kəsb etməsini sübut edir və onların hər birinin öyrənilməsinə çağırış kimi təzahür edir [15].

Nizami Gəncəvinin 1194-1202-ci illərdə yazdığı və Əhər hakimi Nüsrəddin Biskin Məhəmmədə (1135-1231) həsr etdiyi sonuncu poeması "İsgəndərnamə" əsl multimədəni ideyaları Qədim dünyanın ən istedadlı sərkərdələrindən biri - məşhur Makedoniyalı İsgəndərin (e.ə.356-323) və onun "opponentlərinin" dili ilə ifadə edir. Poemada Sokratın, Platonun, Aristotelin dahi fəlsəfi ideyaları və hind müdriklərinin dərsləri, həmçinin çeşidli məzmunda novellalar tərənnüm olunur. İsgəndərin şimal səyahəti çərçivəsində Nizami Gəncəvi ifrat yoxsulluğun, istismarın, yalanın və münaqişələrin olmadığı, insanların arasında yüksək humanist və tolerant münasibətlərin mövcud olduğu ümumi rifah cəmiyyətini (utopiya) təsvir edir. İsgəndərnamənin birinci hissəsi "Şərəfnamədə" qəddar döyüşçü, məğlubedilməz sərkərdə, şöhrət və sərvət dalınca qaçan "supereqo" olan İsgəndər, poemanın ikinci hissəsi olan "İqbalnamədə" müharibələrin və münaqişələrin mənasız, şöhrətin və sərvətin keçici, həyatın mənasının sülhdə, əmin-amanlıqda, dialoqda, qarşılıqlı anlaşmada olması qənaətinə gəlmiş müdrik kimi tərənnüm olunur [16]. Qeyd etmək lazımdır ki, hər kəlməsində əzəli və əbədi dəyərləri tərənnüm edən Nizami dühası, səkkiz əsrdən artıq bir dövr ərzində insan zəkasının nümunəsi kimi özünü təsdiq etmişdir. Nə qədər ki, dünya ümumbəşəri dəyərlərin qüdrəti sayəsində mövcuddur, o qədər də Nizami ideyaları, Nizami ruhu və Nizami dühası yaşayacaq.

Azərbaycan xalqının tolerant-mədəni xarakterinin formalaşmasında çox müstəsna rol oynamış ruhani dəyərlərdən biri də hürufilik ideyasıdır. Əsası Fəzlullah Nəimi (1340-1402) tərəfindən qoyulmuş,"Cavidannamə" əsərində dərin təfsil olunmuş, Seyid Əli İmadəddin Nəsimi (1369-1417) tərəfindən daha da inkişaf etdirilmiş özəl hürufilik ideyaları, bütövlükdə maarifçiliyə, mərhəmətə, kamilliyə, insansevərliyə və mədəni plüralizmə həsr olunmuşdur. Orta əsr intolerant və zorakı monqol genotipinin Yaxın Şərqdə yaratdığı istibdada qarşı reaksiya kimi meydana gəlmiş hürufilik cəhalətə yox deməyə və qılıncın gücünə deyil, əqlin qüdrəti ilə mütərəqqi dəyərlər üzərində yeni tolerant və demokratik cəmiyyət qurmağa hazır və qadir olan yeni insanın tərbiyə olunmasını əsas vəzifə elan edirdi [17].

Qeyd etmək lazımdır ki, hürufilik ideyalarının meydana gəlməsi Orta əsrlər tarixinin ən möhtəşəm hadisələrindən biri sayılırdı. Nəiminin (1401) və Nəsiminin (1417) həqiqət naminə eşafotlara çıxmalarını isə Sokratın, İsa peyğəmbərin, xristian apostollarının, Kərbəla şəhidlərinin böyük faciələri ilə müqayisə etmək olar. Bu gün Nəsiminin Suriyanın Hələb şəhərində yerləşən məzarı (məzarın Hələbdə olması Azərbaycan ictimaiyyətinə 1968-ci ildə Azərbaycanın Xalq şairi Rəsul Rzanın (1910-1981) Hələb şəhərində olmasından və şəxsən Nəsiminin məzarını ziyarət etməsindən sonra məlum olmuşdu) milyonlarla insanın ziyarət etdikləri məkandır. Əgər XV əsrin əvvəllərində Seyid Nəsiminin tərənnüm etdiyi tolerantlıq, maarifçilik, həqiqət axtarışı ideyalarını, islamın elmi təfsirini müsəlman dünyası qəbul edərək, siyasi ideologiyaya çevirsəydi, bu gün nə Suriyada, nə İraqda, nə də başqa bir mədəni məkanda nahaq qanlar axıdılmazdı və dünyanın böyük bir hissəsində əsl qardaşlıq çarlığı və "cənnətməkan" olardı. Nəsimi "Məndə sığar iki cahan, mən bu cahana sığmazam, Gövhəri laməkan mənəm, kövnü məkana sığmazam", yaxud "Həqq mənəm, həqq məndədir" deyəndə, Qurani-Kərimdə yazılan 17-ci "Səmaya yüksəliş", 54-cü "Ay", 91-ci "Günəş", 53-cü "Ulduzlar" kimi surələrdən ruhlanaraq, Rəbbin necə bir sərhədi olmayan sonsuz məkanın hökmdarı olmasını dərk etmişdi. Məhz buna görə də, qatı cəhalətin hökm sürdüyü lokal bir məkana sığmırdı və daim sonsuz kəhkəşana, sevimli Allahına qovuşmağa can atırdı. Müasir münaqişəli dünyada isə Nəsimi irsinin, onun səmadan bəhrələnmiş ideyalarının öyrənilməsi və təbliği xüsusi aktuallıq kəsb edir.

Tolerantlığın və multikultural dəyərlərin tərənnüm olunması böyük Azərbaycan şairi və filosofu Məhəmməd Füzulinin (1498-1556) ədəbi-bədii yaradıcılığının qızıl xəttini təşkil edir. Füzuli ideyalarında başqa insanlara, özgə dəyərlərə əsl məhəbbət problemləri ön plandadır. Füzuli məhəbbəti ilahi məhəbbət olub, insanın əsl fiziki və mənəvi gözəlliyini təsdiq edir. Bu məhəbbət, həmçinin platonik, ideal məhəbbətdir. Şair onu təzadların inkarı kimi ifadə edir. Füzuli insan əxlaqının, onun davranış və əməllərinin allahın iradəsindən tam asılı olması məsələsində daha da irəli gedərək, əslində, iqbal və idbarın, xoşbəxtliyin və bədbəxtliyin büsbütün Allahdan, ilahi iradədən asılılığını qəbul edir və onların izahında fatalist mövqe tuturdu. Füzuli yaradıcılığının və onun həyatsevər ideyalarının məzmununu, insanın yer üzərində xoşbəxt olması hüququnun müdafiəsi təşkil edirdi. Şair alleqoriya (yun. *alegoria - məcazi*) üslubunda yazılmış əsərlərində müxtəlifliklərin həqiqi vəhdətinin son dərəcə vacib olmasını ("Meyvələrin söhbəti" - fars. "*Söhbətül-əsmar*"), insanın pisliklərə qarşı

mətin və qorxmaz mövqe tutmasını, dərdlərini unutmaq üçün həşişə və şəraba qurşanmasının yolverilməzliyini ("Həşiş və şərab", fars. "*Bengü-badə*"), cahilliyin bir cəmiyyət üçün hansı təhlükəli fəsadları törətməsini ("*Saqinamə*"), dini mövhumatın insan zəkasında çaşqınlığa, fanatizmə səbəb olmasını ("Əyyaş və Zahid", fars. "*Rindu-Zahid*"), ruhla bədənin vəhdətinin, bədən üzvlərindən hər birinin öz spesifik vəzifələrini yerinə yetirməklə, digər üzvlərlə vacib əlaqə qurmaları nəticəsində mütəşəkkil harmoniya (sağlamlıq, səhhət) yaratmasını, bu orqanların arasında olan əksliklər səbəbindən bütün orqanizmin pis xəstəliklərə düçar olmasını ("Sağlamlıq və xəstəlik", fars. "*Səhhət və mərəz*") tərənnüm edirdi [18].

Azərbaycanda yeni ictimai-fəlsəfi və ədəbi-bədii fikrin inkişafında tolerantlıq motivləri növbəti əsrlərdə daha da inkişaf etmiş və XIX-XX əsrlərdə möhtəşəm yaradıcılıq nümunələrində öz əksini tapmışdı. Onların içərisində isə "Əsli və Kərəm" dastanını, Hüseyn Cavidin "Şeyx Sənan" pyesini, Nəriman Nərimanovun "Bahadır və Sona", Elçin Əfəndiyevin "Mahmud və Məryəm", Y.V. Çəmənzəminlinin "Əli və Nino" romanını və digər ölməz əsərləri xüsusi qeyd etmək olar.

Əsli və Kərəm dastanında Gəncə hökmdarı Ziyad xanın oğlu aşıq Kərəmin xristian (Bizans) keşişinin qızı olan Əsliyə bəslədiyi əsrarəngiz məhəbbətindən bəhs olunur. Xristian dini icmasının fanatizmi və türk-müsəlman etnik-siyasi amilini qəbul etməməsi dastanın ideoloji xəttini təşkil edir. Faciə ilə nəticələnən dastanın əsas pafosu məhəbbətin dini önmühakimələrdən daha üstün olmasından, dini mövhumatın insanlar arasında, onların birliyi qarşısında hansı ciddi maneələr törətməsindən ibarətdir [19].

Yüksək təşəkküllü tolerantlığı və multimədni dəyərləri tərənnüm edən bədii əsərlərdən biri də Elçin Əfəndiyevə (1943) məxsus "Mahmud və Məryəm" əsəridir. Əsərdə Gəncə xanının oğlu Mahmudun xristian qızı Məryəmə olan təmiz məhəbbətindən bəhs olunur. Əsərin əvvəlində 16 yaşlı qayğısız, ərköyün xan oğlu Mahmud, sonda humanizm və insan taleyi ilə bağlı əbədi problemlər haqqında düşünən qayğıkeş şəxsiyyətə çevrilir və bu ruhani təkamül əsərin leytmotivi kimi təzahür edir [20].

Dahi Azərbaycan mütəfəkkiri Hüseyn Cavidin (1882-1941) 1912-1914-cü illərdə yazdığı "Şeyx Sənan" pyesində müsəlman Şeyx Sənanın və gürcü-xristian qızı (digər variantlarda isə yunan şəhzadəsi) Xumarın faciəli məhəbbətindən bəhs olunur. Şeyx Sənan dövrün stereotiplərinə qarşı çıxaraq, dini mövhumata müharibə elan edir, məhəbbəti, dostluğu və insansevərliyi ilahi kürsüyə qaldırır. Bütün səmavi dinlərin yüksək təşəkküllü humanist bir məzmuna malik olmasına baxmayaraq, onların

hakimiyyət mənsublarının əlində əsas ideoloji silaha çevrilməsini, insan birliklərini parçalamasını, səmimi münasibətlərin və inteqrativ ünsiyyətin qarşısında sədd çəkmələrini tənqid edir [21].

Azərbaycanın görkəmli alim və mütəfəkkiri N.Nərimanov (1870-1925) tərəfindən 1896-cı il tarixində qələmə alınmış "Bahadır və Sona" romanında isə müsəlman Bahadırla xristian Sonanın saf məhəbbətləri uğrunda dövrün neqativ stereotiplərinə qarşı mübarizə aparmalarından, qatı millətçiliyin qurbanları olmalarından bəhs olunur [22].

Müəllifinin dəqiq təyin olunmadığı "Əli və Nino" romanında da söhbət Şirvanşahlar nəslindən olan Əli Bəy Şirvanşirlə gürcü qızı Nino Kipiani arasında böyük, lakin faciə ilə sona çatan məhəbbətdən gedir. Hadisələrin əsas hissəsi Bakıda baş verir. Roman ilk dəfə 1937-ci ildə Vyanada çap olunmuş, daha sonra dünyanın 33 dilinə tərcümə edilmişdir. Əsərin leytmotivini müxtəlif dinlər, əqidələr və məsləklər, Şərqlə Qərb, xristianlıqla islam arasında dialoqa, mütləq barışığa, qarşılıqlı anlaşmaya, birgəyaşayış idealına aparan yolların axtarışı təşkil edir. Müsəlman Əli bəylə xristian Nino arasındakı məhəbbət, sədaqət və qarşılıqlı kompromis bu yolların tapılmasının tarixi zərurət olmasını tam təsdiq edir. Müxtəlif dinlərin və mədəniyyətlərin mənsubları kimi Əli ilə Nino arasında bəzən təzadlar, anlaşılmazlıqlar olsa da, hər dəfə sağlam fikir və əsl məhəbbətin qüdrəti bütün stereotiplərə və önmühakimələrə qalib gəlir [23].

XX əsrin 2-ci yarısından etibarən tolerantlıq və multikulturalizm motivləri Azərbaycan kinematoqrafiyasının predmetinə çevrilir. 1955-ci ildə Azərbaycan Respublikasının Xalq artisti, çox istedadlı rejissor Tofiq Tağızadənin (1919-1998) lentə aldığı "Görüş" adlı filmində azərbaycanlı gənc Kamilin (Arif Mirzəquliyev - 1931-1990) - Azərbaycan aktyoru, milliyyətcə ləzgi) və özbək qızı Lalanın (Nelli Ataullayeva - 1931-1974) - Özbəkistan aktrisası - milliyyətcə özbək) məhəbbəti tərənnüm olunur. Bu film Sovet nomenklaturasının diqtəsi ilə sosializm, yaxud proletar beynəlmiləlçiliyinin təbliğatı kimi təzahür etsə də, sətiraltı, Azərbaycana üzvi şəkildə xas olan multikulturallığı və tolerantlığı tərənnüm edirdi. 1963-cü ildə Şamil Mahmudbəyovun (1924-1997) lentə aldığı "Romeo mənim qonşumdur" adlanan filmində isə azərbaycanlı gənc Ariflə (İrakli Xizanişvili - Gürcüstan aktyoru, milliyyətcə gürcü), gürcü qızı Nonanın (Ariadna Şprink-Şengelaya - 1937, Gürcüstanın və RF-in Xalq artisti, milliyyətcə belçikalı) məhəbbəti və bu məhəbbətin əsl barışıq aktı kimi təzahürü əsas motiv kimi çıxış edir. Filmdə Vilyam Şekspirin "Romeo və Cülyetta" əsəri ilə müvafiq tarixi paralellər aparmaqla, rejissor müasir "Montekkiləri" və "Kapulettiləri" orta əsrlərin səhvini təkrar etməməyə

çağırır. 2013-cü il tarixində Azərbaycan və Türkiyə kinematoqraflarının



müştərək olaraq istehsal etdikləri “Mahmud və Məryəm” kinofilmi ərsəyə gəlmişdir. Gənc rejissor Mehmet Ada Öztəkinin çəkdiyi filmdə əsas rolları türk aktyoru Aras Bulut İynəmli (1990) və rus mənşəli Türkiyə aktrisası Yeva (Yevlaliya) Dedova (1992) ifa etmişlər. 18 noyabr 2016-cı il tarixində Bakıda Qurban Səidin (Yusif V.Çəmənzəminli) məşhur “Əli və Nino” romanı əsasında, ingilis yazıçısı Kristofer Hemptonun (1946) yazdığı yeni ssenari üzrə, Heydər Əliyev Fondunun vitse-prezidenti, Mədəniyyətlərarası dialoq üzrə İslam Əməkdaşlığı Təşkilatı Gənclər Forumunun rəhbəri və Baş koordinatoru **Leyla Əliyeva**nın və Kris Tikyenin (İngiltərə) prodüserliyi ilə, hind əsilli



rejissor **Asif Kapadia**nın (B.Britaniya) müştərək yaratdıqları və əsas rollarda İspaniya əsilli aktrisa **Mariya Valverde Rodriges**in (1987) və ərəb-İsrail əsilli məşhur aktyor **Adəm Bəkri**nin (1989) birgə oynadıqları eyniadlı **“Əli və Nino”** filminin təntənəli nümayişi **2016-cı il - “Multikulturalizm ilinə”** verilmiş çox dəyərli töhfə olmuşdur.

Yüksək multimədəni və tolerant




dəyərlərin bütün əvvəlki dövrlərdə olmuş ifadəsi, çağdaş Azərbaycanda da mövcud mədəni mühitin fundamental və olduqca davamlı prinsiplərini təsdiq edir. Müasir Azərbaycan Respublikası təhsil sisteminin əsas müddəaları qismində təsdiq olunmuş həmin ali prinsiplər, mövcud postindustrial cəmiyyətin əsl yaradıcısı və mütləq hakimi olan, çox mütərəqqi düşünən, postmüasir dünyanın bütün tələblərinə cavab verən, azərbaycançılıq məfkurəsini, multimədəni dəyərləri tərənnüm edən ən yeni insanın, yüksək təşəkküllü sivil, demokratik və tolerant cəmiyyəti təmsil edən Azərbaycan millətinin formalaşmasına xidmət edir.

## 11.5. Maarifçilik ideyaları və Azərbaycanda tolerant etnik-siyasi mühitin formalaşması (ing. *Ideas of enlightenment and the formation of tolerant ethno-political environment in Azerbaijan*)



Yüksək ilahi və ümumbəşəri dəyərləri tərənnüm edən xristianlığın və islamın simasında ibrani ideologiya orta əsrlərdə cəmiyyətin əzəli və əbədi problemlərini həll etmək kimi möhtəşəm bir vəzifəni öz üzərinə götürsə də, gözlənilən nəticələri əldə etmək əsla mümkün olmadı. Bu, ilk növbədə sözügedən dəyərlərin mütərəqqi mahiyyətinin çağdaş təfəkkürə adekvat şəkildə çatdırılmaması, müqəddəs kitablarda yazılmış möhtəşəm həqiqətlərin düzgün şəkildə şərh edilməməsi ilə bağlı idi. Bu baxımdan maarifçilikdən məhrum cahil sosiumu itaətdə saxlamaq, onun tərəqqisi qarşısında sədd çəkmək üçün tanrı məhəbbətinə deyil, teofobiyaya (yun. *theos* - tanrı, *phobos* - qorxu - tanrı xofu) əsaslanan kortəbii ibadət ön plana çəkilmiş, təlim və dini maarifçilik cahiliyyət divarları arxasında gizlədilmişdi. Əvvəlcə Avropada, daha sonra isə Şərqdə təşəkkül tapmış və ziya axtarışı qismində təzahür etmiş maarifçilik isə bu divarda işığa, tərəqqiyə və kamala aparan qapılar açdı. Qeyd etmək lazımdır ki, Qədim dünyada və Orta əsrlərdə dini müharibə partiyasının ideoloji doktrinası kütlələri itaətdə saxlamaq üçün effektli vasitə rolunu oynayırdı. Bununla əlaqədar dini həqiqətləri dərindən bilmək, müqəddəs kitablarda yazılmış müddəalardan, səmavi və bəşəri ədalətdən tam agah olmaq, nurlanmaq əsla tövsiyə olunmurdu. "İstismarçı kod" yaxşı başa düşürdü ki, sirli və müəmmalı olan həmişə xof, qorxu, mütilik, dəhşət, heyrət, eyni zamanda heyranlıq yaradır. Qorxan və sadəlövh insanı isə idarə etmək işi olduqca asandır. Lakin Yeni dövrün insanları dinin, xüsusilə də dünya dinlərinin məzmunu ilə tanış olandan sonra, orada çox böyük həqiqətlərin olduğunu anladı və dini doktrinanı elmin qapılarını açmaq üçün əsl təkan nöqtəsi seçdi, onu elmi həqiqətin tezisləri kimi qəbul etdi. Qeyd etmək lazımdır ki, maarifçiliyin təşəkkülü kimi yeni qlobal bəşəri bir akt, əslində dini ideologiyanın inkar edilməsi deyildi, onun daşıdığı sakral həqiqətlərin rasional üsullarla açılması idi.

Maarifçilik Azərbaycana XIX əsrin əvvəllərində, yəni Avropada "maarifçilik" adlanan möhtəşəm bir mədəni hərəkatın, ümumi cizgilərdə başa çatmasından sonra gəldi. Bu Azərbaycanda, bütövlükdə isə Cənubi Qafqazda olduqca mürəkkəb, təlatümlərlə dolu bir dövrə təsadüf edirdi.

Uzun müddət İranla Rusiya imperiyası arasında davam edən müharibələr başa çatmış və yeni, Türkmənçay müqaviləsinə (10 (22) fevral 1828-ci il) görə Azərbaycan iki dövlət arasında bölüşdürülmüşdü. Bu dövr, həm də Cənubi Qafqazda XVIII əsrin ortalarından bəri mövcud olan bütün feodal qurumlarının (xanlıq) tarixinin başa çatması və regionun tamamilə yeni inzibati-idarəçilik qismində Rusiya imperiyasının tərkibinə daxil olması demək idi. Regionda feodal pərakəndəliyi dövrünün tam başa çatması və onun Rusiya təbəəliyinə keçməsi, həm də mövcud feodal ictimai-iqtisadi münasibətlərinin sonu və yeni, kapitalist ictimai-iqtisadi münasibətlərinin başlanğıcı kimi təzahür edirdi. Belə yeni ictimai-iqtisadi münasibətlər isə mütərəqqi dünyagörüşünü mənimsəmiş maarifçi insanların təşəkkülünü tələb edirdi.Yuxarıda bəhs olunan yeni hadisələr Cənubi Qafqazda etnik-siyasi mənzərəni radikal şəkildə dəyişdirdi, etnik-mədəni münasibətlər sisteminə yeni aktorlar və mədəni dəyərlər gətirdi. Bu, həm də regionun etnik-siyasi mənzərəsinin çox ciddi şəkildə dəyişməsi demək idi. Rusiya hökumətinin C.Qafqazda həyata keçirdiyi etnik və köçürmə siyasəti isə əzəldən də polietnik məkan kimi tanınan bu qədim torpaqda yeni milli-mədəni kimliklərin meydana gəlməsi ilə nəticələndi. Bu isə sözügedən ərazilərdə xristian etnik amilinin kəmiyyət göstəricilərinin süni şəkildə artırılması ilə bağlı idi. Bu minvalla XIX əsr ərzində dünyanın müxtəlif yerlərindən Cənubi Qafqaza, xüsusilə də Azərbaycana xeyli yeni etnoslar gətirildi: 1817-1818-ci illərdə Avropadan kiçik alman koloniyaları, 1828-1848-ci illərdə İrandan və Osmanlı imperiyasından ermənilər, XIX əsrin 30-cu, 40-cı illərində Volqaboyundan slavyan bidətçilər (molokanlar, anabaptistlər, subbotniklər və digər protestant təriqətçilər). Bu proses XX əsrin əvvəllərində də davam etdirildi, lakin bu dövrdə Cənubi Qafqaza gətirilən xristian əhali, əsasən ruslardan ibarət idi. Beləliklə, regionda yeni etnosların məskunlaşması yerli əhalidən, əsas etibarı ilə müsəlman-azərbaycanlılardan fövqəladə ruhani, psixoloji, intellektual və mədəni keyfiyyətlərin formalaşdırılmasını, tolerantlıq və multimədəni dəyərlərin mənimsənilməsini tələb edirdi. Dini maarifçiliyin kifayət qədər effektli təsir mexanizmlərinin olmadığı bir dövrdə bu vacib vəzifənin öhdəsindən yalnız sivil maarifçilik ideyalarının bərqərar edilməsi gələ bilərdi.

Azərbaycan məkanına Avropa maarifçiliyinin nüfuz etməsi, Çar hökumətinin Cənubi Qafqazda yerli müsəlman əhalinin "ən sədaqətli nümayəndələrinə" pozitiv-dünyəvi təhsilin verilməsi ilə, onları Rusiya hakimiyyətini yerlərdə təmsil edən savadlı kadrlar kimi yetişdirmək və bununla da regionda sosial istinadgahı təmin etmək məqsədi güdürdü. Lakin bu proses, təbii olaraq kifayət qədər ciddi pozitiv nəticələr verdi və

qısa müddət ərzində Cənubi Qafqaz xalqlarının içərisindən müasir elmin və mədəniyyətin çox görkəmli korifeylərini yetişdirdi. Sözügedən dövrdə A.Bakıxanovun (1794-1847), H.B.Zərdabinin (1837-1907), M.Ş.Vazehin (1792-1852), M.F.Axundovun (1812-1878), İ.Qutqaşınlının (1801-1861) və b. simasında maarifçilyin ilk fədakar əsgərləri yetişdi. Onlar cahiliyyət divarına ilk balta çalan və xalqın işıqlı gələcəyini elmdə, nurda və ziyada görən elm fədailəri idilər. A. Bakıxanov "Əxlaqın islahı" və "Gülistani-İrəm" əsərlərində islami dəyərləri sırf dünyəvi prinsiplərlə sintez edərək, ən yüksək təşəkküllü əxlaqi qaydaları tərənnüm edirdi. Mütəfəkkir əsl müsəlman ziyalısını saf islam əxlaqının və dünyəvi təhsilin sintezindən yaranmış, rasional düşünən, humanist, tolerant və intellektual şəxsiyyət hesab edirdi. Onun fikrincə, məhz bu yeni etalon müsəlman cəmiyyətini cəhalətin və mövhumatın caynağından qopararaq, tərəqqiyə və parlaq gələcəyə aparmağa qadir olacaq. Bu ideyalar maarifçiliyi ilahi kürsüyə qaldırmış və onu əsl sitayiş obyektinə çevirmiş bütün mütəfəkkirlərin, o cümlədən, S.Ə. Şirvaninin (1835-1888), H.B. Zərdabinin (1837-1907), M.M. Nəvvabın (1833-1918), M.C. Məmmədquluzadənin (1866-1932), H. Cavidin (1884-1944), A. Səhhətin (1874-1918), M. Hadinin (1880-1920), M.Ə. Sabirin (1862-1911), N. Nərimanovun (1870-1925), Ə.B. Topçubaşovun (1862-1934), Ə.B. Hüseynzadənin (1864-1940), Ə.B. Ağaoğlunun (1868-1939), M.Ə. Rəsulzadənin (1884-1955), Ə. Cavadın (1892-1937), Ü.B Hacıbəyovun (1885-1948) və b. dünyagörüşündə və maarifçilik uğrunda mübarizələrində öz əksini tapmışdı. Bu tərəqqinin məntiqi nəticəsi isə XX əsrin əvvəllərində müsəlman xalqlarının milli oyanışı və yeni istiqlal mücadiləsi oldu. Şərqdə ilk demokratik respublika kimi təşəkkül tapmış ADR (1918-1920), bu baxımdan həmin dövrün ən mütərəqqi multimədəni və tolerant dəyərlərini israrla tərənnüm edirdi. Bu dəyərlər altı maddədən ibarət olan "İstiqlal Bəyannaməsinin" (28 may 1918-ci il) dördüncü və beşinci maddələrində rəsmi şəkildə təsbit olunmuşdu: *4) Azərbaycan Xalq Cümhuriyyəti öz sərhədləri daxilində milliyyətindən, dini əqidəsindən, sosial mənsubiyyətindən və cinsindən asılı olmayaraq, bütün vətəndaşların siyasi və vətəndaş hüquqlarına tam təminat verir. 5) Azərbaycan Xalq Cümhuriyyəti onun bütün ərazisində məskunlaşmış bütün xalqlara sərbəst mədəni inkişaf üçün geniş imkanlar verəcək.* Bu prinsiplər siyasi plüralizmin və yüksək təşəkküllü mədəni siyasətin rəsmi sənədlərdə öz əksini tapmış parlaq ifadəsi idi. O, müasir multimədəni siyasətin fundamental prinsiplərini tərənnüm edir, etnik-mədəni və etnik-dini müxtəliflikləri assimilyasiya etmədən inteqrasiyaya cəlb etməyi günün tələbi elan edirdi.

Tarixən ən fenomenal şəxsiyyətlər yetişdirmiş Azərbaycan mədəni məkanı, bu dəfə sivil maarifçilik ideyalarından bəhrələnmiş intellektual, dini, elmi-mədəni və əxlaqi-mənəvi dəyərləri özündə daşıyan fenomenal dühalar və onların simasında unikal insan kapitalı formalaşdırdı. Dünyəvi mədəniyyətin və demokratik siyasətin avanqardları olan bu insanlar, öz adlarını XXəsrin şanlı tarixinə qızıl hərflərlə yazdırdılar. Cəhalətin, şərin, mövhumatın əsiri olan, elmə, işığa, maarifə, kamala israrla "yox" deyən milyonlarla insan isə tarixdə heç bir ad və iz qoymadan illərin və əsrlərin ağuşunda həmişəlik əriyib yox oldular...

ADR-in süqut etməsi yalnız Azərbaycan istiqlalının dirçəlişinə son qoymadı, həmçinin ideal maarifçilik və demokratizm prinsipləri üzərində formalaşan çağdaş tolerant cəmiyyətin və rasional düşünən yeni insanın təşəkkülü prosesini dayandırdı. Ölkəmizin Sovet ittifaqı məkanına daxil olmasından (1922) sonra Sovet hakimiyyətinin həyata keçirdiyi sosial-iqtisadi və ictimai-mədəni tədbirlər sistemi isə "mədəni inqilab" kimi xarakterizə olunurdu. Mədəni inqilabın ilk vəzifəsi, ölkədə savadsızlığın ləğv edilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər planının reallaşdırılmasını nəzərdə tuturdu. Qeyd etmək lazımdır ki, XX əsrin 20-ci illərinin əvvəllərində Azərbaycan əhalisinin 90%-i tam savadsız idi. Kəndlərdə bu göstərici 97%, qadınların arasında isə 99% təşkil edirdi. Sovet hakimiyyəti də çar hökuməti kimi ittifaqa daxil olan məkanlarda, o cümlədən Azərbaycanda "sədaqətli kadrların" yetişdirilməsi və ölkənin təbii sərvətlərindən rasional şəkildə istifadə olunması məqsədi ilə, savadlı mütəxəssislərin hazırlanmasını ən təxirəsalınmaz bir vəzifə hesab edirdi. Azərbaycanda Sovet hakimiyyətinin ilk günlərindən "savadsızlığın ləğv edilməsi üzrə kurslar" fəaliyyət göstərməyə başlamışdı. XX əsrin 20-ci illərinin ortalarından etibarən isə bu kurslar öz fəaliyyətini ixtisaslaşmış məktəblər kimi davam etdirdilər. 1922-ci il tarixdə ərəb əlifbasından latın qrafikalı əlifbaya keçilməsi, ölkədə savadsızlığın ləğv edilməsi prosesinə güclü təkan verdi. 1925-ci ildən yeni əlifba təhsil müəssisələrində tətbiq olundu. 1928-ci ildən isə latın qrafikalı əlifbanın bütün müəssisələrdə və təşkilatlarda tətbiq edilməsinə başlandı. Artıq 1932-ci ildə Azərbaycanda savadlı əhalinin ümumi sayı 82,8% təşkil edirdi. Ölkədə həyata keçirilən maarifçilik tədbirləri özündə "orta əsrlərin mövhumat kodunu" daşıyan əhalinin sosialist beynəlmiləlçiliyi, proletar və kommunist mədəniyyəti ruhunda tərbiyə edilməsini, sivil maarifçiliyin və dünyəvi təhsilin əsas mədəni nümunə kimi qəbul edilməsini nəzərdə tuturdu.

Azərbaycan xalqı 1991-ci ildə istiqlaliyyət qazandıqdan və dövlət müstəqilliyini əldə etdikdən dərhal sonra, ölkədə tarixi ənənələrin bərpası

və əsl demokratizm prinsiplərinə əsaslanan yeni dövlət quruculuğunun həyata keçirilməsi kontekstində ciddi multimədəni prinsiplərə söykənən adekvat etnik-siyasi mühitin və yüksək təşəkküllü tolerant münasibətlər sisteminin yaradılması dövlətin və cəmiyyətin tarixi vəzifəsinə çevrildi. Müstəqil Azərbaycan dövlətinin əsl quruculları, onun davamlı inkişafının təminatçıları kimi yeni, mütərəqqi tərzdə düşünən gənc nəslin, dövrün müasir tələblərinə tam uyğun şəkildə təlim-tərbiyəsi işini Azərbaycan Respublikasının Təhsil Sistemi öz üzərinə götürdü və bu şərəfli vəzifəni beynəlxalq standartlara uyğun şəkildə həyata keçirməyə başladı.

19 may 2005-ci il tarixində Bergen (Norveç) şəhərində keçirilən Beynəlxalq Konfransda Azərbaycan Respublikasının Təhsil Naziri ölkə təhsilinin Boloniya Təhsil Prosesinə qoşulması haqqında sənəd imzaladı. Bu sənədə əsasən ölkənin bütün ali təhsil müəssisələrində tədrisin kredit sisteminə əsaslanan  təşkili haqqında nümunəvi reqlament təsdiq olundu. Bu reqlament təhsilin humanistləşdirilməsini, təlimin tolerant pedaqoji münasibətlər prinsipi əsasında həyata keçirilməsini, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə edilməsini, gənc nəslin dünyagörüşünün daim genişləndirilməsini nəzərdə tuturdu.

Heydər Əliyev dühasının əsl şah əsərlərindən olan multikulturalizm ideyalarının gənc nəslin ideoloji konstruksiyasının formalaşdırılmasında daha effektli vasitə qismində tətbiq olunması məqsədi ilə, 2014-cü ilin sentyabrından ölkəmizin ali təhsil müəssisələrinin bakalavriat pilləsində “Multikulturalizmə giriş”, onların magistrat pilləsində isə “Azərbaycan multikulturalizmi” fənlərinin geniş tədrisinə başlanmışdır. Bütün ölkədə mədəni siyasət qismində təzahür edən kompleks tədbirlər sistemi, qısa müddət ərzində gənc nəsillərin ən yüksək tolerantlıq və mədəni plüralizm ruhunda tərbiyə olunmasında çox effektli pedaqoji layihə olaraq özünü tam təsdiq etmişdir.

## 11.6. Multikulturalizm siyasəti və azərbaycançılıq ideyası (ing. *Multiculturalism policy and azerbaijanism idea*)



Ontoloji baxımdan insan varlığının nəzəri əsasını “ideya” və onun yüksək təşəkküllü və sistemləşdirilmiş forması olan “ideologiya” təşkil edir. İdeya hər bir fərdin, şəxsiyyətin və bəşəriyyətin mövcudluğuna əsl mütərəqqi məzmun verən, onu bu gündən sabaha aparan,

insan həyatına dəqiq və cilalanmış stimul gətirən məfhum kimi təzahür edir. Geniş mənada ideya hər hansı hərəkətin, predmetin və hadisənin düşünülmüş praobrazıdır. Qədim yunan filosoflarından bəri müasir dövrə qədər bütün mütəfəkkirlər ideya haqqında qiymətli fikirlər söyləmişlər. Onların tərənnüm etdiyi baxışlar vahid və dəyişməz bir etalonun ifadəsi idi: "İdeya - reallığın və həqiqətin əbədi praobrazıdır". Klassik alman fəlsəfəsinin şah əsərlərini yazmış Vilhelm Hegel (1770-1831) ideyaya son dərəcə orijinal tərif vermişdi: "İdeya bütün inkişaf prosesinin tacı olan obyektiv bir həqiqətdir, subyektlə obyektin, düşüncə ilə reallığın uyğunlaşmasıdır" [24].

İdeya keyfiyyət cəhətdən ideologiyaya transformasiya olunaraq, sistemli və nizamlı baxışlar kimi müxtəlif sosial qrupların, təşkilatların, etnosun və siyasi sistemin maraqlarını ifadə etmək vəzifəsini öz üzərinə götürür. "İdeologiya" kimi anlayış XVIII əsrdə fransız filosofu Antuan Destyut de Trasi (1754-1836) tərəfindən müasir elmi dövriyyəyə daxil edilmişdir [25].

Marksizm fəlsəfəsində ideologiya neqativ dəyərlər sistemi, yanlış şüur forması və təhrif olunmuş bir dünyagörüşü kimi qiymətləndirilirdi. Görkəmli sovet və rus filosofu Teodor Oyzermanın (1914-2017) fikrincə "marksizm fəlsəfəsinin "ideologiya" anlayışına belə mənfi münasibəti, marksizmin, əzəli olaraq fəhlə sinfinə tamamilə zidd olan bütün əvvəlki ideologiyaları neqativ cizgilərdə qəbul etməsi ilə bağlıdır" [26].

XX əsrin ən böyük dühalarından biri olan Karl Popper (1902-1994) iddia edirdi ki, "cəmiyyət çoxlu sayda nəzər nöqtələri və mədəniyyətlər üçün açıq olmalı, yəni plüralizm və multikulturalizm əlamətlərinə malik olmalıdır" [27].

Belə məlum olur ki, "ideya" və "ideologiya" anlayışları ilə bağlı ən mühüm məsələlər, min illər əvvəl olduğu kimi, bu gün də lokal və qlobal miqyasda mübahisə obyekti olaraq qalır. Məzmun cəhətdən ideologiyalar sosial-siyasi, etnik-milli və sinfi mahiyyət kəsb edir. Xarakter cəhətdən isə onları mütərəqqi və mürtəce kimi iki fərqli kateqoriyaya ayırmaq olar. Ümumbəşəri dəyərləri ifadə edən ideologiyalar (plüralizm, liberalizm, humanizm, multikulturalizm) mütərəqqi, ümumbəşəri prinsiplərə zidd olan ideologiyalar (nasionalizm, rasizm, faşizm, anarxizm) isə mürtəce ideologiyalar hesab olunur.

Müasir dövlətlərin idarəçilik prinsipləri, bir qayda olaraq, sivil və yaxud dini ideyalara əsaslanır. Hər iki halda isə onlar mövcud etnosun siyasi hakimiyyətinin davamlı və uzunömürlü olmasına, həmçinin titul millətin dövlət yaratmaq və onu qorumaq istiqamətində birləşdirici və

tənzimləyici funksiyalarını uğurla həyata keçirməsinə, real və potensial separatizm təhlükəsini tam minimuma endirməsinə xidmət edir. Bununla bağlı olaraq, ideyaların sistemləşdirilmiş və nizamlanmış məcmusu siyasi ideologiya kimi təzahür edir. Qədim yunan mütəfəkkirləri Platonun (e.ə. 427-347) və Aristotelin (e.ə.384-322) xarakterizə etdikləri kimi "siyasət dövləti idarə etmək sənətidir, ideya və ideologiya isə bu sənətin nəzəri əsaslarıdır".

Orta əsr etnik-siyasi sistemlərinin ənənəvi formalarının monarxiya xarakterli olması, mövcud ideologiyaların kütlənin maraqlarına kifayət qədər cavab verməməsi, o dövrün mütəfəkkirlərinin siyasi hakimiyyətə neqativ münasibətlərinin formalaşmasına səbəb olmuşdu. Məşhur İtaliya filosofu Nikkolo Makiavelli (1469-1527) "Hökmdar" əsərində belə bir fikir irəli sürmüşdü ki, "hökmdarın öz hakimiyyətini qoruyub saxlaması, onun ədalətdən və xeyirxahlıqdan israrla üz döndərməsi kimi bacarığı ilə əlaqədardır" [28]. Mütəfəkkirin bu sözləri orta əsr tarixinin mütləqiyyət ruhuna qarşı əsl qiyamı ifadə edirdi. Sonsuz təlatümlər, böhranlar, qlobal problemlər əsri olan XX əsrdə qeyri-sabitliyə, anarxiyaya, ekstremizmə yol açan ən mürtəce ideologiyalara cavab olaraq, etnik birliklərin, siyasi qurumların, bütövlükdə isə bütün bəşəriyyətin davamlı mövcudluğunu və inkişafını tam təmin etməyə hesablanmış plüralizm, liberalizm, pasifizm, kosmopolitizm və multikulturalizm kimi mütərəqqi ideyalar da inkişaf etməyə başladı.

XX əsrdə təşəkkül tapmış etnik-siyasi birliklər, qloballaşan milli-siyasi və ictimai-mədəni münasibətlər sistemində öz varlıqlarını qoruyub saxlamaq üçün, əsrlərin sınağından çıxmış ideologiyaları özlərinə bayraq seçdilər. XX əsrdə yaranmış belə unikal etnik-siyasi birliklərdən biri də Azərbaycandır. Azərbaycan, Azərbaycan tarixi, Azərbaycan milləti kimi məfhumlar müasir dünyanın etnik-mədəni və geosiyasi nəzəriyyəsində ən geniş müzakirə obyekti olan məsələlərdən biridir. Onlarla bağlı həm ölkə daxilində, həm də ölkənin hüdudlarından kənarda çoxlu sayda ciddi və ölkədə etnik-siyasi tarazlığı pozmağa çalışan qüvvələr mövcuddur. Belə bir şəraitdə isə Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi altında daxili siyasi opponentlərin, eləcə də Azərbaycana tarixən və üzvi şəkildə xas olan etnik-siyasi birliyə qibtə, paxıllıq və hətta düşmənçilik münasibəti ifadə edən xarici qüvvələrin qarşısında ali "azərbaycançılıq" məfkurəsinə əsaslanan multimədəni siyasət amilinin real və alternativi olmayan nümunəsini nümayiş etdirir.

Bəs azərbaycançılıq və multimədəni birlik ideyalarının sarsılmaz gücü nədədir? İlk növbədə o, Azərbaycan siyasi millətinin ümumi əxlaqi,

mədəni, etnik-siyasi doktrinasıdır. O, tolerantlığa, dialoqa, kompromisə, qarşılıqlı yardıma, vətənpərvərliyə, mərhəmətə, birgəyaşayış qaydalarına əsaslanan mənəvi dəyərlər sistemidir. Bu sistem eyni zamanda ictimai inkişafın ənənəvilik və fasiləsizlik prinsiplərini, təbii-hüquqi dəyərlərin toxunulmazlığını dəstəkləyir və cəmiyyətin normal inkişafı üçün zəruri şərait yaradan, insanın bütün fəaliyyət sferalarında mütləq suverenliyini əsas şərt hesab edən liberallığı və davamlı islahatlar yolu ilə cəmiyyətin sosial-iqtisadi və ictimai-mədəni strukturunun dəyişdirilməsini təsdiq edən reformizmi və modernizmi reallaşdırır. Bir sözlə, azərbaycançılıq fenomeni mədəni plüralizmin və vəhdətin spesifik sintezindən yaranmış mütərəqqi ideya olaraq, təbii yaşamaq hüququ olan bütün ideyalara və müxtəlifliklərə hörmət və himayədarlıq ruhunu tərənnüm edən müqəddəs bir məcmuə kimi təzahür edir.

Əvvəlki tarixi dönəmlərdə olduğu kimi, müasir dövrümüzdə də dini ideologiyanın siyasətə aktiv şəkildə nüfuz etməsi və bununla bağlı "etnik renessansın" etnik-milli zəmində çıxışlarla və hərəkatlarla "partlaması" baş verir [29]. Belə bir şəraitdə isə azərbaycançılıq ideyasının, ölkədə yaşayan bütün xalqların mütləq birliyini təmin etməyə qadir olan ideya kimi təntənəsi göz qabağındadır.

Ümummilli lider Heydər Əliyevin hələ XX yüzillyin 70-ci illərində əsasını qoyduğu azərbaycançılıq ideyası bu gün hamımızı birləşdirən ən müqəddəs dəyərdir. Bu dəyər ulu öndərin Azərbaycana ikinci rəhbərliyi dövründə daha real məzmun kəsb etməyə başladı və multimədəniyyət məfkurəsi ilə sinkretik vəhdət təşkil edərək, sosial praktikada millətə və cəmiyyətə yüksək dividendlər gətirdi. Müasir etnik-siyasi münasibətlər sistemində ümumi rifah konsepsiyası ilə əlaqəli tənzimlənən birgəyaşayış qaydalarının stimulu kimi təzahür etdi.

Azərbaycançılıq ideologiyasında "vahid polietnik millət" anlayışı xüsusi əhəmiyyət kəsb edir. Bu ideya Azərbaycanda yaşayan titul xalqın və milli azlıqların birgə dövlət yaratmaq, onu qorumaq, inkişaf etdirmək və gələcək nəsillərə ötürmək kimi ümumi məsuliyyətini və maraqlarını əks etdirir. Bu məsuliyyətin və maraqların praktikada ifadəsi isə XX əsrdə etnik-siyasi səhnəyə "Azərbaycan milləti" kimi əxlaqi-mədəni bir məfhum çıxarmışdır.

Azərbaycançılıq müasir anlamda etnik-siyasi və sosial birliyin ali formasıdır. O, insanları, ilk növbədə, vahid milli əlamətə görə birləşdirir. Ümumi iqtisadi həyat, ümumi dil, ümumi ərazi, xalqın mədəniyyətinin spesifik cizgilərində təzahür edən psixoloji keyfiyyətlər bu ideyanın əsas əlamətləridir. Ümumi tarixi yaddaş və milli özünü dərketmənin yüksək

inkişaf həddi isə sözügedən ideyanı formalaşdıran həlledici amillərdir. Azərbaycançılıq kontekstində "tarixi yaddaş" müstəsna əhəmiyyət kəsb edir. Belə bir kontekstdə isə tarixi yaddaş - Azərbaycanın keçmişi, milli mədəniyyətin yüksək nailiyyətləri, elm, siyasət, incəsənət kimi sahələrdə millətin ən dəyərli nümayəndələri barədə bilgilər, həmçinin milli tarixin ən mükəmməl nümunələrinə uyğun yaşamaq və fəaliyyət göstərmək kimi cəhdlər və çalışmalardır [30].

Azərbaycançılıq postindustiral cəmiyyətdə sosial-iqtisadi, mədəni-siyasi və əxlaqi-mənəvi birlik kimi təzahür edən fenomendir. O, tarixin və taleyin qovuşdurduğu çoxlu sayda etnosların bazasında yaranmışdır. Bu birlikdə "milli kimlik" məsələsi ən ciddi məqam kimi ortaya çıxır. Milli kimlik, insanın konkret etnosa, millətə mənsubluq hissi ilə bağlı olan fenomendir. İnsanın milli kimliyi anadangəlmə əlamət deyil. O, fərdin müəyyən insan qrupları ilə dil, din, tarix, mədəniyyət baxımından bağlılığının dərk olunması ilə formalaşır. Bu prosesdə, həmçinin fərdin konkret dövlətə mənsubiyyət hissi, onun dövlət kimliyi, milli ideyaya və dövlət rəmzlərinə bağlılığı iştirak edir.

Milli kimlik çox mürəkkəb fenomendir. O, müxtəlif hədlərdə və rəngarəng tərkiblərdə təzahür edir. Azərbaycan Respublikasında təmsil olunan bütün azsaylı xalqların, etnik qrupların, həmçinin dövlətyaradan millətin lokal milli kimliyi, onların "Azərbaycançılıq" məfkurəsi ilə sıx bağlılığı Cənubi Qafqazda "Azərbaycan" adlanan etnik-siyasi məkanın bütövlüyü və davamlı inkişafı üçün başlıca şərt hesab olunur.

Hər hansı etnik birliyin hansı tarixlə və mədəniyyətlə assosiasiya olunmasının, bilavasitə Şərqə və ya Qərbə, dünyəviliyə və ya dindarlığa, Avropaya, yaxud Asiyaya mənsubiyyətinin dəqiqliklə təyin edilməsi son dərəcə vacibdir. Lakin dünyada elə etnik-milli kimliklər var ki, tarixən sivilizasiyaların qovşağında yerləşməsi ilə əlaqədar onlara qoşa, hətta daha artıq mahiyyətlər xasdır. "Azərbaycan kimliyinin" gücü və qüdrəti məhz onun müxtəlif cəhətli olmasındadır.

Bu gün Azərbaycan kimliyi öz gücünü şanlı tarixlə ruhani əlaqədən alır. Bu əlaqə daha düşünülmüş və məqsədyönlü olduqca, şüurlarımızda hökm sürən xaos tam aradan qalxır, mütərəqqi ideoloji konstruksiyanın formalaşdırılması daha xoşbəxt gələcəyə can atan mədəni kimlik, etnik müxtəliflik üzərində sarsılmaz bir vəhdət yaradır. Bu "azərbaycançılıq" ideyasında ali ruhani vəziyyətdir və o, "Azərbaycan" adı ətrafında bütün etnik-milli kimlikləri müqəddəs bir bayraq altında birləşdirir.

## İstinadlar

1. Фасмер М. Очаг. Этимологический словарь русского языка. Москва: Прогресс, 1987. Т. III.- С. 177

2. Гераклит. Фрагменты самых ранних греческих философов. Ч. 1. Пер. А.В. Лебедева. Москва: Наука, 1989. № 22. - С. 176-257

3. Şərəfraz Ə., Kayeni M. Təxti-Süleyman. Təbriz, 1968. S. 19

4. Бойс М. «Зороастрийцы. Верования и обычаи». Москва, «Наука», 1987, с. 45

5. История стран зарубежной Азии в средние века. М:., 1970, с.116-117

6. Michael E. Meeker. The Dede Korkut Ethic (англ.). International Journal of Middle East Studies.-1992. - August (vol. 24, no. 3).- P. 395-417

7. Meletinsky E.M Oguz epos "Kitabi Dedem Korkut" Dünya Edebiyatı. Tarih: 8 ciltlik Bilimler. SSCB Akademisi ise; Dünya Edebiyatı Enstitüsü. onlar, A. M. Gorky. M:, Science, 1985 - III . - S. 588-590

8. Босворт К.Э. "The New Islamic Dynasties: A Chronological and Genealogical Manual", Колумбийский университет, 1996. С. 148

9. Смирнов А.В. Светоносный мир: логико-смысловой анализ оснаваний философии ас-Сухраварди. Ишрак: Ежегодник исламской философии. М:, 2011. № 2., с. 14-27

10. Гасанова Х.Э. Этические взгляды Насираддина Туси. Вопросы гуманитарных. Баку, 2009. - № 2., с. 94-97

11. Кныш А.Д. Вахдат аль-вуджуд. Ислам: энциклопедический словарь. отв. Ред. С.М. Прозоров. Москва, Наука, ГРВЛ 1991, с. 48-49

12. Hüseynov X. Nizaminin "Sirlər xəzinəsi". Bakı, 1983. S. 171

13. Paola Orsati. Kosrow o Sirin. Encyclopaedia Iranica. 2006.- Vol. XI.- P. 522-524

14. Низами Гянджеви. Хамса. Лейли и Меджнун. К 840-летию Низами Гянджеви. Перевод с фарси, предисловие и комментарии Рустама Алиева. Редактор А.В. Старостин. - Баку, Элм, 1981., с. 8.- 388 с.

15. François de Blois. Haft Peykar. Encyclopaedia Iranica. 2002. Vol. XI. - P.522-524

16. Крымский А.Е. Низами. Энциклопедический словарь Брокгауза и Ефрона: в 86т. - СПб. 1897. Т. XXI., с. 58

17. Yalçın Abdullayev."Hürufilik təlimi və onun mahiyyəti","Dövlət və Din" İctimai fikir toplusu (№ 5(13)), Azərbaycan Respublikası Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi, Bakı, 2009, s. 239-245

18. Закуев А.К. Философские воззрения Физули. Труды института истории и философии АН Азербайджанской ССР. Баку, 1955. Т. VIII. с. 49-85

19. Дадашзаде А. Азербайджанская литература. История Всемирной литературы в девяти томах. - Москва, Наука, 1987. - Т. IV. С. 418

20. Арзуманов В. Великолепное служение литератур. Литературный Азербайджан. - Баку, 1988. - с. 105

21. Мамед Ариф. История Азербайджанской литературы. Баку, Элм,

*1971. - с. 138. - 216 с.*

*22. Мамед Ариф. Избранное в двух томах. - Баку, Азербайджанское государственное издательство, 1972.-Т. 1.- с. 285*

*23. Ehrenfels E. “Ali & Nino” Copyright. Azerbaijan international journal. -2004. Pp. 10, 12, 14-15*

*24. Гегель Г.В.Ф. Сочинения. Т. 6. - Москва, 1939.- С. 214*

*25. Иванова А.С. Начала «идеологии»: Антуан Дестют де Траси и его наука об идеях. Вопросы философии. 192 с. - Москва, 2013, № 8. С.146-149*

*26. Ойзерман Т.И. Марксизм и утопизм. Прогресс-Традиция, Москва, 2003. С. 35-36.-568 с.*

*27. Овчинников Н.Ф. Карл Поппер -наш современник, философ XX века. Вопросы философии. - 1992.- № 8.- С. 40-48*

*28. Макиавелли Н. Избранные произведения. Москва, 1982, с. 344-345*

*29. Санджиев Н.Д. Этнический ренессанс: все причины и следствия. Элиста, 2009. С. 448-450*

*30. Репина Лорина П. Культурная память и проблемы историописания (историографические заметки). Москва, 2003. С. 11*

# XII FƏSİL. MULTİKULTURALİZM AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT SİYASƏTİ KİMİ



## 12.1. Tolerantlıq ənənələrindən multikulturalizm siyasətinə doğru (ing. *From the traditions of tolerance to the politics of multiculturalism*)



Tolerantlıq ruhu "Azərbaycan" adlı bədəndə mükəmməl tarazlıq və harmoniya halında minilliklərdir ki, yaşayır və inkişaf edir. Azərbaycanı öyrənən alimlər isə orta statistik azərbaycanlının milli xarakterini və mentalitetini tədqiq edərkən, aşağıdakı əlamətləri xüsusilə vurğulayırlar: vətənə, torpağa fövqəladə məhəbbət, rasional dini inanc, qadına yüksək hörmət, ailəyə, nəsilə, yurda, ənənələrə "fanatik bağlılıq", özgə mədəni dəyərlərə tolerant münasibət, yurdsuzlara öz yurdunda sığınacaq vermək, nəhayət, "həddini aşan mərhəmət, şəfqət, rəhmli və incə qəlb". Məhz bu əlamətlər son bir neçə əsr ərzində Cənubi Qafqazda unikal bir etnik-mədəni vahid - "azərbaycanlı" fenomeni formalaşdırmışdır.

Dünyanın bütün xalqları kimi Azərbaycan xalqı da bu günə tarixin çətin və çox rəhimsiz sınaqlarından keçərək, milyonlarla qurbanlar və məhrumiyyətlər hesabına gəlib çatmışdır. Burada şanlı qələbələr də olub, məğlubiyyətlər də, tərəqqi də olub, tənəzzül də, təntənə də olub, hüzn də. Lakin "azərbaycanlı" adlanan etnik-mədəni fenomen heç vaxt başqasının yurduna, elinə, malına, qismətinə göz dikməyib, qonşuya xor baxmayıb, özgənin haqqına qəsd etməyib.

Azərbaycanlı qadın öz övladını (oğlunu) tərbiyə edərkən, ona ilk növbədə sülhsevər, sülhyaradan olmağı, münaqişələrdən uzaq durmağı, ədalət, mərhəmət və xeyirxahlıq yolunu seçməyi israrla tövsiyyə edir. Onun qulağına rəqibinin, düşməninin adını, yaxud millətini pıçıldamır. Ona mərhəmətlə dolu laylalar və nəğmələr oxuyur. Bununla da onu şər və bəd əməllərdən hifz edir. Azərbaycanlı kişi isə əksər hallarda övladını

(oğlunu) fiziki cəhətdən çox güclü, cəsur, ağıllı və soyuqqanlı görməyi arzulayır. Lakin bu keyfiyyətlərin təcavüz və məhv etmək üçün deyil, harmoniya, gözəllik və sağlamlıq üçün gərəkli olduğunu məsləhət görür. Tarixən özündə “xeyirxahlıq və rəhm kodu” daşıyan azərbaycanlı kişinin “mərhəmətli igid” obrazı belə formalaşır. Məhz mərhəmət və rəhm kodu Babək, Koroğlu, Yusif, Nəsimi, Səttarxan kimi qəhrəmanların adlarını tarixə qızıl hərflərlə yazmışdır.

Bəzz qalasının ərəblərin ordusu tərəfindən tutulmasından əvvəl (26 avqust 737-ci il) Heydər ibn Kavus Həsən ibn Abdullahla (Babək) gizli görüşü zamanı ona qələbə çalmaq üçün mütləq “həm ilan, həm də aslan olmağı” və “rəhm” sözünü unutmağı tövsiyyə edir. Lakin Babək üçün kişilik və mərdlik etalonu tamamilə başqa ideyalardan toxunmuşdu [1]. Məhz bu səbəbdən o, sona qədər “özü kimi olmağı və öz adıyla ölməyi üstün tutur”. Bununla bağlı Azərbaycanşünaslar iddia edirlər ki, son iki əsr ərzində Azərbaycan etnosunun bütün qonşu etnoslarla mücadiləsində məğlubiyyətinin və çox böyük ərazi itkilərinin başlıca səbəbləri, məhz azərbaycanlının döyüş ruhunda həddindən artıq şəst, mərhəmət və rəhm yükünün olmasıdır. Bu nəcib xarakterin qarşısında duran yağı düşmən isə öldürməkdən fiziki və ruhani zövq alan genetik müharibə maşınıdır. O, mərhəmətin, insana hörmətin nə olduğunu bilmir. Onu hərəkətə gətirən faşizm həddinə yüksəlmiş intolerantlıq və xəstə təxəyyülün ifadəsi olan şeytani nifrətdir. O, qadına, uşağa, qocaya, yaralıya əsla rəhm etməyən, barbarlıq üslubunda insanlara işgəncə verməkdən belə həzz alan vəhşi bir fenomendir. O, yurdsuzdur, köçəridir. Onda qonşuluq dəyərlərinə hörmət hissi, yurda, elə bağlılıq prinsipləri yoxdur. İntriqa, oğurluq, etnik və dini dözümsüzlük, paranoya səviyyəsində təzahür edən qatı millətçilik onun həyat tərzidir. Ona Qafqazlı kimliyi yaddır. Çünki Qafqazlının ləyaqət kodeksində müharibə zamanı qadınlara, uşaqlara və qocalara toxunmaq kimi bir qanun yoxdur. O, burada tamamilə yad, özgə etnik elementdir. O, riyakardır, tarixi oğrudur. O, güclülərin qulu, zəiflərin isə qənimidir. Qafqazın bətnində qara ləkə olan belə bir simasız etnik ünsürə qarşı isə yüksək təşəkküllü ruhani keyfiyyətlərin və sağlam əqidənin daşıyıcısı olan tolerant və mərhəmətli “Azərbaycan milli xarakteri” durur.

2016-cı il aprel döyüşləri zamanı panik şəkildə dərin qorxu keçirən Xankəndi əhalisindən müsahibə götürən rus jurnalisti erməni qızlarından soruşur: “Azərbaycan ordusunun Xankəndinə girəcəyi sizi qorxutmur?”. Qızlar isə cavab verirlər ki, “yox, çünki Azərbaycan əsgərləri qadınlara, uşaqlara və qocalara toxunmurlar”.

Azərbaycan ərazisində dünyanın bütün dini əqidələrinə sitayiş edən

insanlar yaşayır. Lakin tarix boyu bu məmləkətdə bir dəfə də olsun dini zəmində müharibə və münaqişə olmamışdır. Etnik müxtəliflik zəminində bir dənə də olsun ayrı-seçkilik (izolyasiya) aktı baş verməmişdir. Erməni separatizmi Azərbaycan xalqının tarixində etnik-dini zəmində baş vermiş yeganə silahlı münaqişədir. Bu münaqişədə isə Azərbaycan etnik-milli amilinin heç bir günahı yoxdur. Erməni separatizmi, erməni intolerantlığı Azərbaycana və Azərbaycan xalqına nə qədər bədbəxtliklər və fəlakətlər gətirsə də, Azərbaycan dövləti ermənilərin silahı yerə qoyaraq, könüllü şəkildə Azərbaycan təbəəliyini (vətəndaşlığını) qəbul edəcəkləri halda, onları asikar və yolundan azdırılaraq cinayətə sürüklənmiş vətəndaşları kimi əfv etməyi vəd edir. Bu isə bağışlamağı bacaran Azərbaycan milli xarakterinin qüdrətinin, həmçinin müasir Azərbaycan siyasi iqtidarının böyüklüyünün, reallaşdırdığı mütərəqqi siyasətə sədaqətinin ifadəsidir.

Azərbaycan milli xarakteri müxtəlif etnik-dini, linqvistik, əxlaqi-mənəvi dəyərlərin, mifoloji və dünyəvi-sivil dünyagörüşlərinin, Şərqlə Qərbin, Avropa ilə Asiyanın zəngin ruhani, elmi-texniki nailiyyətlərinin sintezindən yaranmış fenomendir. Ən vacib məqam isə onunla bağlıdır ki, Azərbaycan etnik amili üzvi şəkildə neqativ ünsürləri heç vaxt əxz etmir. Çünki bu xarakterdə tarixən antineqativ mexanizm formalaşmışdır və o, yalnız müsbət, mütərəqqi dəyərləri mənimsəyir.

Azərbaycan mentaliteti, Azərbaycan milli xarakteri həmişə Şərqlə Qərbin arasında unikal humanitar-siyasi körpü rolu oynamışdır. Müasir Azərbaycan dövləti və milləti isə sözügedən sivilizasiyalar arasında real və effektli fəaliyyət göstərən bu kommunikativ imici tam təsdiq etmişdir. Beləliklə, Qərb və Şərq sivilizasiyalarının sintezindən yaranmış unikal enerji azərbaycanlının qanında və ruhunda tarixən qərar tutmuşdur.

Azərbaycan milli xarakterində olan daha bir spesifik məqam islam ideologiyası ilə bağlıdır. Bütün orta əsrlər və yeni tarix boyu Azərbaycan xalqı yüksək islami dəyərləri qəlbində, ruhunda, davranışında, əxlaqında və mənəviyyatında davamlı şəkildə daşıyan bir sosiumdur. Bu dəyərlərə xalqımız bu gün də sadiqdir. Lakin Azərbaycan İslam dünyasında yeganə ölkədir ki, müsəlman əxlaqı, islam ideyaları sırf yerli cizglər və əlamətlər qazanaraq, yüksək sivil və dünyəvi inkişafa xidmət edir. Azərbaycanda formalaşmış islamın müasirliyə açıq olması və başqa ruhani dəyərlərə tolerant münasibəti kimi əsas vacib prinsip özünü çoxdan təsdiq etmişdir.

XIX əsrdə Azərbaycan maarifçiləri Şərq tarixində ilk dəfə olaraq islam ideologiyasının Avropa praktikliyi, elm və texnologiya ilə birgə mövcudluğunun və harmoniyasının mümkün olmasını və vacibliyini elan etmişdilər. Onlar islamda ən mübahisəli məqamlardan biri olan “cihad”

fenomenini özünəməxsus şəkildə dərindən təfsir edərək, onu “insanın şəxsi cahilliyinə qarşı müharibə elan etməsi” kimi qiymətləndirmişdilər. Azərbaycan maarifçiləri israrla iddia edirdilər ki, təhsil, savad və ziya əsl müsəlmanın vacib atributlarıdır.

Məlumdur ki, Azərbaycan milli mentalitetinin ən spesifik dəyərləri, intellektual elita tərəfindən əsl sosial-mədəni ənənələrin innovasiyalarla sintez edilməsinin nəticəsi olaraq ortaya çıxmışdır. XX əsrin əvvəllərində Azərbaycan intellektual elitasının görkəmli nümayəndələrindən biri olan Əhməd bəy Ağayev (Əhməd Ağaoğlu -1868-1939) sözügedən prinsiplərə əsaslanaraq, Azərbaycan cəmiyyətinin siyasi strategiyasının konturlarını müəyyən etmişdi [2]. O, hesab edirdi ki, Şərqdə və İslam dünyasında müasir etnik birliyin formaaşdırılması və davamlı inkişafı üçün, ümmə ideyasından millət ideyasına keçid əsas şərt olmalıdır.

Ölkəmizdə dövlət səviyyəeində daim qorunan multikultural mühit Azərbaycan milli xarakterini bütöv şəkildə ifadə edən mədəni prinsiplər sistemidir. O, tolerantlıq və mədəni plüralizm kimi ən parlaq rənglərdən təsvir olunmuş çox möhtəşəm bir yaradıcılıq əsərini siyasi və beynəlxalq müstəvilərə çıxarmışdır. Multikulturalizm siyasəti Azərbaycan xalqına üzvi şəkildə məxsus olan yüksək təşəkküllü tolerantlıq ənənələrini və bu ənənələrdən yaranmış milli xarakteri bütün dünyaya nümayiş etdirməklə, əsl insanlıq nümunəsinin inteqrativ və tənzimləyici gücünü itirmədiyini sübut edir.

Beləliklə, XX əsrin 90-cı illərində Azərbaycan milli xarakterinin ən mütərəqqi elementi olan tolerantlıq, multikulturalizm siyasəti səviyyəsinə yüksəlir. Bu gün Azərbaycan tolerantlıq və multikulturalizm sferalarında əldə etdiyi zəngin tarixi təcrübəni təbliğ etmək və yaymaq məqsədi ilə beynəlxalq arenada BMT, İƏT, ATƏT, UNESCO, ISESCO, AŞ və digər təşkilatlarla əməkdaşlıq edir. 2010-cu il aprelin 26-27-də Azərbaycanda baş tutmuş “Dini liderlərin Bakı Sammiti” Azərbaycanın dini sferasında həyata keçirilən dövlət siyasətinin təbliğatı üçün möhtəşəm imkan idi. Bu tədbirdə dünyanın bütün dini mərkəzlərinin - Rus Pravoslav Kilsəsinin, Gürcü Pravoslav Kilsəsinin, Erməni Qriqorian Kilsəsinin, həmçinin Vatikanın, Konstantinopol Patriarxatlığının və İslam dünyasının dini qurumlarının nümayəndələri iştirak edirdilər.

2015-ci ilin 8 oktyabrında “Azərbaycan Parisin ürəyində” layihəsi çərçivəsində Heydər Əliyev Fondunun tam dəstəyi ilə “Dini tolerantlıq: Azərbaycanda birgəyaşayış mədəniyyəti” adlı bir konfrans keçirilmişdi. Azərbaycanda həyata keçirilən multikulturalizm siyasətinin beynəlxalq arenada tərənnüm olunmasında isə Bakıda keçirilən “Mədəniyyətlərarası

dialoq üzrə Beynəlxalq Forumların" özəl çəkisi və əhəmiyyəti vardır. Bu forumlardan birincisi 7-9 aprel 2011-ci il tarixində nüfuzlu beynəlxalq təşkilatların (UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının "Şimal-Cənub" Mərkəzi və ISESCO) əməkdaşlığı və iştirakı ilə keçirilmişdir. Bu forumda 102 dünya ölkəsindən nümayəndə heyəti, 10 beynəlxalq təşkilatın rəhbər şəxsləri və 20 ölkənin Mədəniyyət Nazirləri də iştirak edirdilər. Forumda Azərbaycan hökuməti tərəfindən "Mədəniyyətlərarası əməkdaşlıq platforması - 5 A" (5 A qitələrin baş hərflərini ifadə edir) yaradılması təşəbbüsü irəli sürülmüşdü.

2015-ci ilin may ayının 29-dan iyun ayının 1-dək Bakı şəhərində II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşkil olundu. Forum "Multimədəni dünyada sülh şəraitində birgə yaşamaq" devizi altında keçirilirdi. Forumda çox nüfuzlu beynəlxalq təşkilatlarla (UNESCO, AŞ, BMT-nin nəznində olan Sivilizasiyaların Alyansı, AŞ-ın "Şimal-Cənub" Alyansı, həmçinin ISESCO və BMT-nin Ümumdünya Turizm təşklatı) yanaşı dünyanın 115 ölkəsindən olan nümayəndə heyəti iştirak edirdi. 18-19 may 2015-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bilavasitə rəhbərliyi altında keçirilən III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu isə "Ümümi təhlükəsizlik naminə mədəniyyətlərimizlə bölüşək" devizi altında reallaşdırıldı.

2014-cü ilin 26 sentyabr tarixində BMT Baş Assambleyasının 69-cu sessiyasının gedişində Sivilizasiyalar Alyansı VII Qlobal Forumunun 2016-cı ildə məhz Bakıda keçirilməsi qərara alındı və bu qərarın icrası ilə əlaqədar, 2016-cı ilin 25-27 aprel tarixlərində BMT-nin Sivilizasiyaların Alyansı VII Qlobal Forumu Bakıda baş tudu. Bu Forumda dünyanın 140 ölkəsindən, beynəlxalq təşkilatlardan, dini konfessiyalardan və qeyri-hökumət təşkilatlarından nümayəndə heyətləri iştirak edirdi.

Sonuncu belə Forum isə 4-6-may 2017-ci il tarixində "Beynəlxalq dialoqun inkişafı: insanın, dünyanın təhlükəsizliyi və davamlı inkişafı üçün yeni imkanlar" devizi altında baş tutdu.

Yuxarıda bəhs olunan beynəlxalq tədbirlərin məhz Azərbaycanda həyata keçirilməsi ölkəmizdə yüksək təşəkküllü tolerant və multikultural mühitin mövcud olmasının, Azərbaycan xalqının mütərəqqi dəyərlərin daşıyıcısı kimi özünü təsdiq etməsinin, Azərbaycan dövlətinin və şəxsən Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan hökumətinin mükəmməl mədəni siyasət həyata keçirməsinin parlaq göstəricisidir.

## 12.2. Multikulturalizmin Azərbaycan modelinin əsas xüsusiyyətləri (ing. *Main characteristics of the model of Azerbaijan multiculturalism*)



Məlumdur ki, multikultural dəyərlər, tolerant siyasi-mədəni, etnik-dini mühit Azərbaycanda həmişə mövcud olmuşdur. Şərq ilə Qərbin kəsişdiyi bir məkanda qərar tutmuş yeni Azərbaycan, tarix boyu müxtəlif mədəniyyətlərin qovuşduğu özəl bir diyar kimi tanınmışdır. Burada üzvi şəkildə təzahür edən tolerantlıq, mədəni müxtəliflik, mədəniyyətlərarası təbii birlik və qarşılıqlı anlaşma kimi ənənələr bu gün də "Azərbaycan" adlanan sosiumun məzmununu təşkil edir. Tarixən formalaşmış bu dəyərləri, təlatümlərlə dolu olan XX əsrdə davamlı şəkildə qorumaq, inkişaf etdirmək və siyasi müstəviyə çıxarmaq tarixi zərurətə və günün tələbinə çevrildi. Belə bir vacib tarixi vəzifəni isə öz üzərinə Azərbaycanın ümummilli lideri Heydər Əliyev götürdü. Uzaqgörən siyasətçi, təkrarolunmaz düha sahibi və dahi şəxsiyyət kimi Heydər Əliyev tarix boyu polietnik məkan olan Azərbaycanın təhlükəsiz gələcəyini multikultural dəyərlərə əsaslanan vahid Azərbaycan ailəsinin yaradılmasında görürdü. O, dünya liderlərindən əvvəl multikulturalizmin alternativi olmayan siyasət olmasını hələ XX əsrin 60-cı illərində dərk etmiş və Azərbaycana I rəhbərliyi dövründə (1969-1982) ölkədə yaşayan bütün xalqlara ən yüksək səviyyələrdə qayğı göstərmiş, onların mədəni dəyərlərinin inkişafı üçün əlverişli şərait yaratmışdı. Ümummilli lider Heydər Əliyevə məxsus bu sözlər, onun Azərbaycanda yaşayan bütün xalqlara ən səmimi atalıq qayğısının ifadəsidir: **"Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq".**

Azərbaycan multikulturalizmi dünyada analoqu olmayan mədəni fenomendir. O, özündə tolerantlığın ən düşünülmüş formasını ifadə edir. Heç vaxt, nə aşkar, nə də gizli şəkildə Azərbaycan adlanan məkanda təmsil olunan digər xalqların, etnik qrupların və dini konfessiyaların assimilyasiyasını nəzərdə tutan tədbirlər həyata keçirilməmişdir. Əksinə, onların ləyaqətli varlığı və inkişafı üçün ən yüksək təşəkküllü real şərait yaradılmışdır. Əsl qarşılıqlı etibar və inam prinsipləri əsasında qurulan Azərbaycan multikulturalizmi, eyni zamanda ölkə ərazisində yaşayan bütün xalqların və etnik azlıqların "Vahid Azərbaycan" məfkurəsi altında əbədi və sarsılmaz birliyini nəzərdə tutur. Ölkəmizin iqtisadi, siyasi və

mədəni həyatında, “Vahid Azərbaycan millətini” təşkil edən bütün fərqli etnoslara bərabər imkanlar, hüquqlar və azadlıqlar verilir. Azərbaycan multikulturalizmi Fransada, Rusiyada, Almaniyada və digər ölkələrdə mövcud olan və bir xalqın digər xalqlar üzərində etnik-siyasi qüdrətinə, onun titullaşmasına əsaslanan prinsipləri rəhbər tutmur. “Azərbaycan” adı hər hansı bir etnosun adından götürülməmişdir (məsələn, Fransada, Almaniyada, İngiltərədə, İspaniyada, Türkiyədə olduğu kimi). Buna görə də, bu məkanda yaşayan hər hansı bir etnik-mədəni özəllik ilk növbədə azərbaycanlıdır, daha sonra etnik fərddir. Bununla belə, Azərbaycanda yaşayan əhalinin böyük bir hissəsini Azərbaycan türkləri təşkil etdiyi üçün, nəzəri cəhətdən titul xalq əlamətini də məhz o daşıyır. Azərbaycan dövlətinin siyasi quruluşunu təşkil etmək, onun müstəqilliyini və müdafiə qüdrətini tam təmin etmək, digər etnosları vahid Azərbaycan ailəsində birləşdirərək xoşbəxt gələcəyə aparmaq vəzifəsi də onun üzərinə düşür.

Bəs Azərbaycanda mövcud olan multikultral məkanın, bu məkanda bərqərar olmuş modelin özəlliyi nədədir? Bu məkanda çoxlu sayda etnik və dini müxtəlifliyi mükəmməl şəkildə birləşdirən sehrli qüvvə nədir? Bu məkan özünün əsl inteqrativ gücünü haradan alır? Nə üçün çoxlu sayda cəmiyyətlərin şübhə ilə yanaşdığı “multikultural təhlükəsizlik” fenomeni, dinindən, dilindən, etnik mənsubiyyətindən və mədəni dünyagörüşündən asılı olmayaraq, Azərbaycan vətəndaşının arzu və istəklərini, məslək və amallarını, ümidlərini və həyat kredosunu əks etdirir? Bu suallara cavab vermək üçün, isə “azərbaycanlı” kimliyini daşıyan hər bir etnik-mədəni özəlliyin “Azərbaycan” fenomeninə münasibətini, bu yurda, bu millətə bağlılıq xarakterini təyin etmək lazımdır. Bununla əlaqədar ölkədə təmsil olunan Azərbaycan türklərinin, etnik talışların, ləzgilərin, velikorosların, ukraynalıların, belarusların, bidətçi rusların, avarların, kürdlərin, tatların, yəhudilərin, gürcülərin, udinlərin, xınalıqların, ingiloyların və saxurların “Azərbaycan” adlanan tarixi məkana bağlılığını təyin etmək tələb olunur. Azərbaycanda yaşayan və burada çoxəsrlik tarixi olan etnik azlıqların demək olar ki, heç birinin başqa xalqlarla mütləq əlaqəsi yoxdur. Onlar Azərbaycan ailəsinə təbii şəkildə, azərbaycanlı olaraq bağlıdırlar. Onların ən yüksək əxlaqi, mənəvi və mədəni dəyərləri Azərbaycan məfkurəsini parlaq şəkildə əks etdirir.

Azərbaycan türkləri ən qədim dövrlərdən böyük bir ərazidə təmsil olunan türk kosmopolitizminin qərb qolunun Qafqaz etnik faktoru ilə tarixi sintezinin nəticəsidir. Talışlar irandilli xalq kimi minilliklər ərzində məhz Böyük Azərbaycan ailəsində təmsil olunurlar və Ümumazərbaycan mədəni nümunəsinin ən başlıca prinsiplərini, təbii olaraq əxz etmişlər.

Ləzgilər, avarlar, saxurlar və Azərbaycan ailəsinə daxil olan bütün başqa Qafqaz etnosları da qədim Qafqaz xalqları kimi əsrlər ərzində Şimali Qafqaz linqvistik və etnik-mədəni arealından daha çox Ümumazərbaycan arealına qovuşmuşlar və onları digər çeşidli Cənubi Qafqaz, türk və İran etnosları ilə ümumi tarixi yaddaş və eyni tale birləşdirir. Velikoroslar, ukraynalılar və beloruslar Azərbaycan etnik-mədəni arealına son bir neçə əsr ərzində nüfuz etsələr də, onları Azərbaycan ideyası ilə çoxlu sayda pozitiv və müqəddəs məqamlar birləşdirir. Bidətçi rusların (molokan, subbotnik, anabaptist və s.) XIX əsrdə Rusiyanın mərkəzi rayonlarından C. Qafqaza köçürülməsi tarixinə nəzər yetirdikdə, Rusiya imperiyasının simasında çar mütləqiyyət rejiminin antitolerantlıq siyasətinin ifadəsini və son nəticəsini görürük. Çar hökuməti bidətçi rusları Volqaboyundan, Krımdan, Ukraynadan Azərbaycana köçürməklə bir tərəfdən imperiyanın mərkəzi rayonlarını bidətçilərdən, faktiki olaraq potensial üsyançılardan təmizləmək, digər tərəfdən isə Cənubi Qafqazda xristian əhalinin sayını süni şəkildə artırmaq kimi məqsəd güdürdü [3]. Qeyd etmək lazımdır ki, velikoroslar bidətçi rusları həmişə ümumi ənənələrə tabe olmayan "özgə etnik ünsür" kimi qiymətləndirmişlər. Azərbaycan etnik-siyasi birliyinin simasında isə bidətçi ruslar əsl doğma mühit qazanmışlar. Bununla belə, öz dini əqidələrini tam qoruyub saxlamış, azərbaycançılıq məfkurəsinin simasında vahid və etibarlı bir müdafiə əldə etmişlər.

Tatlara, yəhudilərə, xınalıqlara, udinlərə, ingiloylara gəldikdə, onlar iki min il ərzində Azərbaycan etnik-mədəni məkanında öz etnik ənənələri ilə Qafqaz və Azərbaycan mədəni və linqvistik özəlliklərini sintez etmiş və unikal etnik-mədəni nümunə yaratmış fenomenlərdir.

Azərbaycan ailəsində əsas etnik-mədəni elementlər kimi kürd və gürcü etnosları tarixi proses nəticəsində Qafqaz-türk etnik təbəqəsində özünəməxsus yer tutmuşlar. Gürcülərin Azərbaycan ailəsində etnik-milli vahid kimi təmsil olunması qonşuluq və ümumi tarixi ərazi amilinin, kürdlərin iştirakı isə ən qədim dövrlərdən başlayaraq, İran və Azərbaycan hökmdarlarının müxtəlif məqsədlərə xidmət edən köçürmə siyasətinin nəticəsidir.

Azərbaycanda yaşayan xalqlar dörd dil ailəsinə (hind-avropa, altay, kartvel, naxs-dağıstan) mənsub olan dillərdə (azərbaycan, ləzgi, talış, avar, gürcü, saxur, kürd, cuhuri (dağ yəhudilərinin dili), xınalıq, tat, udin, ahvah, buduq, krız, rutul və s.) danışırlar. Azərbaycan Respublikasının Konstitusiyasında Azərbaycan dilinin rəsmi dövlət dili elan olunmasına baxmayaraq, ölkə əhalisinin danışdığı digər dillərdən də azad şəkildə istifadə olunması və onların inkişaf etdirilməsi üçün şəraitin yaradılması

təsbit olunmuşdur [4]. Azərbaycanda rus dilinin xüsusi mövqeyi vardır. Ölkə əhalisinin 150-200 min nəfəri rus dilini öz doğma dili hesab edir. Buraya əsas etibarı ilə etnik ruslar, ruslaşmış azərbaycanlılar - ləzgilər, avarlar, ukraynalılar, yəhudilər və s. aiddir.

Hər hansı multikulturalizm modeli konkret cəmiyyətin dəyərləri, ideyaları və ideallarının fundamentləri üzərində qurulur. Buna görə də multikultural praktika bütün ölkələrdə fərqlidir. Multikulturalizm siyasəti ilk növbədə diskriminasiyaya, əsarətə qarşı qoyulur, hamıya məxsus olan fərdi ləyaqəti və onun qorunmasını ifadə edir. Bu konsepsiya etibarlılıq və qarşılıqlı inam mühiti yaratmaq kimi funksiya yerinə yetirir. Məhz bu vəzifə müasir dünyanın inkişafında, müxtəlif xalqların, mədəniyyətlərin birgə mövcudluğu üçün əsas prioritet şərtdir. Multikulturalizmin əsas məzmunu millətlər və mədəniyyətlər arasında dialoqdan ibarətdir.

Multikulturalizmin müəyyən bir dövrdə tarixi epizod kimi ortaya çıxması və tədricən öz təsir mexanizmlərini itirməsi haqqında iddiaları qismən Avropa multikulturalizminə aid etmək olar. Azərbaycanda həyata keçirilən, düşünülmüş, uzaqgörən tədbirlərə əsaslanan multikulturalizm isə bütün neqativ ünsürlərdən tamamilə azaddır. Çünki Azərbaycanda tamamilə başqa, etnik, milli, mədəni, siyasi və tarixi ənənələrə əsaslanan multikulturalizm modeli qurulur. Daha doğrusu, minilliklər ərzində təbii şəkildə mövcud olan multikultural, tolerant atmosferə yeni siyasi nizam qatılır. Multikulturalizm Azərbaycan xalqının tarixi ruhunda, genotipində qərar tutmuş mütləq mütərəqqi dəyərdir. Azərbaycanda həyata keçirilən multikulturalizm siyasəti hansısa bir mücərrəd təhlükəsizlik sisteminin yaradılmasına yönəlməmişdir. O, Azərbaycan cəmiyyətinə üzvi şəkildə xas olan ümumbəşəri dəyərlərin - dostluğun, humanizmin, mərhəmətin, qarşılıqlı yardımın və anlaşmanın, böyüklərin kiçiklərə mərhəmətinin, kiçiklərin böyüklərə hörmətinin, xalqa, dövlətə, millətə sədaqətin və s. qorunmasına və gələcək nəsillərə ötürülməsinə xidmət edir.

Multikulturalizm tək müxtəlif etnik azlıqların, dini konfessiyaların, mədəniyyətlərin ləyaqətli mövcudluğu, inkişafı üçün şəraitin yaradılması deyil. O, həmçinin çoxlu sayda müxtəlifliklərin vahid və sarsılmaz bir ailədə birliyini və vəhdətini nəzərdə tutur. Bu vəzifəni bütün dəyərlərdən üstə duran milli ideya, onunla bağlı olan strateji doktrina həyata keçirir. Azərbaycanda mütləq birləşdirici, inteqrativ ideya kimi azərbaycançılıq məfkurəsi çıxış edir. Dünyada elə dövlətlər, ölkələr var ki, onlar millətin və ya xalqın adını daşıyır. Məsələn, Fransa, İngiltərə, Rusiya, Gürcüstan, Ermənistan, Türkiyə, Qazaxıstan, Almaniya, İtaliya, Monqolustan və s. Belə ölkələr üçün milli tərkibin "mono" tipi xarakterikdir. Yəni ölkə

əhalisinin mütləq bir hissəsini eyni adlı millət təşkil edir. Digər ölkələrin adları isə onlara təbii və coğrafi şəraitinə, dini ənənələrinə və s. görə verilmişdir. Məsələn, İran, İraq, Suriya, Ukrayna, Hindistan, Əfqanıstan, Belçika, Çin, İsveçrə və əlbəttə ki, Azərbaycan. Belə ölkələr üçün isə polietnik tərkib xarakterikdir. Tarixən belə ölkələrdə təbii və üzvi şəkildə formalaşmış məfkurə bütün müxtəliflikləri vahid ideya altında birləşdirən yenilməz ideologiyadır. O, milli doktrina kimi heç bir rəsmi sənəddə öz əksini tapmamışdır. Lakin sözügedən məkanda yaşayan hər bir fərd üçün ən müqəddəs anlam və məna daşıyır. Azərbaycanda bu müqəddəs anlam azərbaycançılıqdır.

Müasir dövrdə mədəni siyasət sferasında ən yeni, daha mütərəqqi strategiyaların axtarışı davam edir. Bu sahədə böyük perspektivlər vəd edən əsas istiqamətlərdən biri "fərdi azadlıq və mədəni seçim" modelidir (Amartiya Sen - 1933 - hind iqtisadçısı, 1998-ci ildə iqtisadiyyat üzrə Nobel mükafatı laureatı). Burada əsas ideya etnik-mədəni kimliyin qrup formasının tədricən zəiflədilməsindən ibarətdir. Bununla əlaqədar A.Sen yazırdı: "Mədəni azadlıq - fərdlərə öz seçimlərinə uyğun olmaq və başqa mədəni variantları da qiymətləndirmək üçün ən real imkanlarla yaşamaq, layiqli şəkildə mövcud olmaq, inkişaf etmək hüququ verməlidir" (Fərdi multikulturalizm) [5].

Multikultural siyasət o zaman çox yüksək səviyyədə effekt verir ki, dövlətlə azlıqların icmaları arasında birbaşa əlaqə və özünəməxsus körpü yaradılır. Bu zaman konkret icmanın seçilmiş təşkilatı və onun liderləri zəruri vasitəçilik missiyasını yerinə yetirməlidir. Azərbaycanda dövlət səviyyəsində məhz belə münasibətlər sistemi qurulmuşdur.

Şübhəsiz, heç bir fərqli siyasət mütləq şəkildə qüsursuz ola bilməz. Multikulturalizm bütün ictimai xəstəliklərdən universal müalicə vasitəsi olmasa da, müasir dövrdə sosial və etnik-mədəni münasibətlər sahəsində mövcud etnoslararası və mədəniyyətlərarası münaqişələri tənzimləməkdə əlverişli vasitə, alternativi olmayan optimal siyasət kimi özünü doğruldur və təsdiq edir. Multikulturalizm panaseya deyil, düşünülmüş və dünyanın tam təhlükəsiz gələcəyinin təmin olunmasına hesablanmış "özünəməxsus bir profilaktikadır". Azərbaycan multikulturalizmi modeli, məhz hansısa real, yaxud potensial separatizm təhlükəsini aradan qaldırmaq məqsədi güdmür. O, keçən əsrlər ərzində formalaşmış Azərbaycan milli birliyinin davamlı inkişafı üçün profilaktika tədbirləri qismində təzahür edir.

Multikulturalizm siyasi praqmatizmin parlaq təcəssümüdür. Onu, hətta "yeni mədəni inqilab" kimi də qiymətləndirmək olar. Yalnız o, qloballaşan dünyada ənənəvi ksenofobiyanı (yun. *ksenos* - özgə, fobos -

qorxu, yəni özgəni təhlükəli və düşmən kimi qəbul edən dünyagörüşü) "ksenofiliyaya" (yun. *fileos* - sevmək deməkdir) çevirməyə qadirdir.

Azərbaycanda reallaşdırılan multikulturalizm modeli, tarixən Qərb və Şərq mədəni dəyərlərinin özünəməxsus sintez təşkil etdiyi bir diyarda tolerant bir məkanın ali etalonunun formalaşdırılmasını və orijinal siyasi birliyinin təşkilini nəzərdə tutur. Beləliklə, Azərbaycanda reallaşdırılan yeni mədəni siyasət etnik birliklərin müxtəlifliyinə əsaslanır. Cəmiyyətin multikultural dəyərlərə əsaslanan modelinin yaradılması təşəbbüsünü və onunla bağlı olan ən yüksək vəzifəni isə öz üzərinə, tarixən Azərbaycan adlanan bir məkanda titul millət kimi formalaşmış Azərbaycan türkləri götürür.

Ümumi cizgilərdə multikulturalizm ən plüralist mədəni dəyərləri və onların real hüquqi bir akt olmasını tanıyır və müdafiə edir. Bu, belə bir danılmaz həqiqəti bir daha təsdiq edir ki, bütün müasir dövlətlər özlərinin etnik, mədəni və dini qruplarına bərabər sosial status verməlidir.

Bütövlükdə, multikulturalizm bir özəl həyati məkanda çoxlu sayda müxtəlif tipli mədəni qrupların münaqişəsiz mövcudluğunun təminatına yönəlmiş nəzəriyyə, praktika və ya siyasətdir. O, müxtəlifliklərə hörməti təbliğ, təşviq, təsdiq edir, lakin eyni zamanda universallığın axtarışından da imtina etmir. Universallıq isə mədəniyyətlərin əsl qarşılıqlı əlaqəsinin subordinasiya (lat. *subordinatio* - tabe etdirmək, münasibətlər sistemində individuumun vəziyyəti) əsasında deyil, koordinasiya (lat. *koordinatio* - qarşılıqlı şəkildə qaydaya salmaq) əsasında baş verdiyini nəzərdə tutur. Multikulturalizmin Azərbaycan modeli bu prinsiplərə tam şəkildə cavab verir.

Hər regionun, həmçinin ayrıca götürülmüş ölkənin özünəməxsus multikultural dəyərləri mövcuddur. Minilliklər ərzində isə birgəyaşayış mühitində tam sərbəst və qarşılıqlı təsir hesabına zəngin mədəni mühitin formalaşması, bəşəriyyətin inkişafının ən təbii yolu kimi təzahür edir. Bu baxımdan multikulturalizm Azərbaycanda əsl həmişəyaşarlığını bir daha nümayiş etdirir. Multikulturalizmin uğurunun əsas şərtləri ümümbəşəri və milli ideyaların bir yerdə mövcud olmasından, həmçinin multikultural dəyərlər sisteminin təsir sferasında yerləşən xalqların milli kimliyinin qorunmasından ibarətdir. Başqa mədəniyyətlərə, dinlərə və tarixə hörmət isə şəxsi dəyərlərə hörmətdən başlayır.

Beləliklə, qarşımızda olduqca maraqlı mənzərə yaranır. Dünyanın ən inkişaf etmiş regionu olan Avropada multikulturalizm böhran dövrü keçirir, digər regionlarda, o cümlədən də Azərbaycanda o, inkişafın əsas prinsipləri kimi qəbul olunur. Belə məlum olur ki, ən uğurlu nəticələr, bu

fenomenə bir ideologiya mövqeyindən, yaxud həyat tərzi mövqeyindən yanaşmaqdan asılıdır.

Azərbaycanda multikulturalizm modelinin ən ali prinsipi mədəni plüralizmin etibarlı mühafizəsi və inkişaf etdirilməsidir. Ümummilli lider Heydər Əliyevin sözləri ifadə etsək, **"onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir"** və etnik birliyin tam qorunması, onun davamlı inkişafı üçün son dərəcə vacib amil kimi təzahür edir. Mədəni plüralizm dedikdə, əsas söhbət muxtar kimliklərin paralel mövcudluğundan deyil, onların əsl qarşılıqlı əlaqələrindən gedir. Burada isə ən əsas şərt - qarşılıqlı şəkildə mədəniyyətlərə nüfuz etmək və qarşlıqlı transformasiya olunmaqdır. Beləliklə, demokratik cəmiyyətlərdə mədəni plüralizm etnolinqvistik və etno-konfessional qrupların arasında "dialoqun" genişləndirilməsi deyil, təbii olaraq etnos fenomenindən daha yüksəkdə duran ümumi kommunikativ, vahid məkanın formalaşdırılması deməkdir. Multikulturalizm siyasətinin çox yüksək nəticələr əldə etməsi üçün, onun rəsmən siyasi-mədəni bir strategiya kimi qəbul edilməsi və strateji proqram kimi düşünülmüş və ardıcıl şəkildə həyata keçirilməsi vacibdir. Mütləq uğur və əsl nailiyyət əldə etmək üçün isə bu və ya digər etnosun nümayəndələrinin hər hansı xalqa və millətə, etnik, yaxud sosial qrupa məxsus olan şüurlu, emosional və mədəni xüsusiyyətlərinin, dəyər təyinatlarının tam müəyyən edilməsidir. Ruhun və əqlin məcmusu kimi təzahür edən mentalitetin (lat. *mentis* - qəlb, ruh və *al* - sifət şəkilçisi) dərindən öyrənilməsi, xalqlara məxsus etnostereotiplərin (yun. *stereos* - həcmli, *tupos* - iz - başqa etnosların davranışları və mentaliteti haqqında tarixən formalaşmış təsəvvürlər), dünyagörüşü səviyyəsinə qaldırılmış, nəyəsə, yaxud kiməsə qarşı yönəlmiş qorxu, yaxud nifrət, özgə və yad olanın çox təhlükəli, zərərli kimi qəbul edilməsi prosesndə ifadə olunan ksenofobiyanın (yun. *ksenos* - özgə, *fobos* - qorxu) aradan qaldırılması son dərəcə vacibdir. Multikulturalizm prinsiplərini rəhbər tutan dövlət kimi Azərbaycan qlobal cəmiyyətdə ən ciddi demokratik nailiyyətlər əldə etmiş və bununla bağlı müxtəlif mədəni üslubların birgə mövcudluğu faktı yeni ictimai mühitin pozitiv tərzdə və davamlı dəyişilməsinə səbəb olmuşdur. Ölkədə "başqalarına münasibətdə əsl dözümlülük ruhu" tam təsdiq olunmuş, müxtəlif cür həyat tərzlərinin eyni hüquqi və ontoloji mənalar kəsb etməsi dərk edilmişdir. Beləliklə, etnik-milli müxtəliflik zəminində ifadə olunan hər hansı potensial münaqişənin qarşısı vaxtında, son dərəcə optimal və müdrik üsullarla alınmışdır ki, bu da "tolerantlıq" və "sağlam düşüncə" adlanan ən ali fenomenlərin sayəsində mümkün olmuşdur.

## 12.3. Azərbaycanda multikulturalizmin təbliğatı ilə məşğul olan strukturlar (ing. *Structures engaged in propaganda of multiculturalism in Azerbaijan*)



Polietnik birliklərin mövcudluğunun multikultural forması çoxdan Azərbaycanda əsl obyektiv həqiqətə çevrilmişdir. Qeyd olunduğu kimi, bu cür mövcudluq forması ölkəmizdə uzun əsrlərin ərzində formalaşmışdır. Məmləkətimizdə tarixən müxtəlif etnik və konfessional qrupların nümayəndələri məskunlaşmışlar. Müasir müstəqil Azərbaycan Respublikasında onların hər biri eyni cür səviyyədə vətəndaş hüquqlarına və azadlıqlarına malikdirlər. Bütün bu mütərəqqi dəyərlər öz parlaq əksini Azərbaycan Respublikasının Konstitusiyasında tapmışdır. Konstitusiyada Azərbaycanın dünyəvi dövlət olması və burada yanaşı yaşayan bütün xalqların və etnik azlıqların vahid hüquqi məkan hüdudlarında ləyaqətli həyatının təminatı təsbit olunmuşdur.

Bu dəyərlərin mühafizə olunması və daha da inkişaf etdirilməsi ilə məşğul olan müvafiq dövlət institutları yaradılmışdır ki, onlar da xüsusi olaraq etnoslararası və konfessiyalararası münasibətləri daha da yeni və yüksək səviyyəyə qaldırmaq kimi vacib tarixi vəzifəni həyata keçirirlər. Bu məqsədlə 2014-2015-ci tədris ilindən Azərbaycan Respublikasının iyirmidən artıq ali təhsil müəssisələrində “Multikulturalizmə giriş” və “Azərbaycan multikulturalizmi” fənləri tədris olunur.

“Multikulturalizmə giriş” və “Azərbaycan multikulturalizmi” kimi yeni fənlərin ali təhsil müəssisələrində davamlı tədris olunmasının əsas məqsədləri gənc nəsli multikulturalizm ideyaları ilə tanış etmək, onlarda əsl humanist və tolerant keyfiyyətlər aşılamaq, dövlətimizin və şəxsən Respublika Prezidenti İlham Əliyevin uğurla həyata keçirdiyi mütərəqqi siyasətin daha effektli şəkildə reallaşdırılmasında onların iştirakını təmin etməkdən ibarətdir.

Bu gün on doqquz xarici dövlətin əsas ali təhsil müəssisələrində və Azərbaycanın Respublikasının bütün ali təhsil ocaqlarında “Azərbaycam multikulturalizmi” və “Multikulturalizmə giriş” fənləri tədris olunur. “Azərbaycan multikulturalizmi” fənninin daim tədris olunduğu dövlətlər sırasına isə İtaliya (Sapienz Universiteti - Roma), Portuqaliya (Lusafon Universiteti), İsveçrə (Fribur Universiteti - UniFr), Türkiyə (Sakarya Universiteti, Ercines Universiteti -Sakarya), Rusiya (B.Yeltsin adına Ural

Federal Universiteti), Gürcüstan (İ.Cavahaşvili adına Tbilisi Dövlət Universiteti), Çexiya (Praqa Karlov Universiteti), Bolqarıstan (Müqəddəs Kliment Oxridski ad. Sofiya Dövlət Universiteti), Litva (Litva Pedaqoji Universiteti), Almaniya (Auqusburq Universiteti), Ukrayna (PİTU Poltava İqtisadiyyat və Ticarət Universiteti), Polşa (Varşava Kral Universiteti), İndoneziya (Qaca Mada Universiteti - Cokyakarta) və digər ölkələr daxildir. Burada əsas məqsəd isə multikulturalizmin əsl mahiyyətini və əhəmiyyətini, meydana gəlməsi səbəblərini və tarixi şərtlərini açıqlamaq, ictimai-fəlsəfi fikir tarixində tolerantlıq və multikulturalizm ideyaları ilə tanış olmaq, cəmiyyətdə mövcud olan dini və etnik-milli müxtəlifliyin tənzimlənməsində multikulturalizm siyasətinin əsl rolunu təyin etmək, multikulturalizmlə ölkənin xarici siyasəti, sosial-iqtisadi inkişafı arasında qarşılıqlı əlaqə və münasibətləri tam müəyyən etmək, multikulturalizmin tarixi və ən müxtəlif modelləri barədə çox zəngin məlumatlar əldə etmək, ümummilli lider Heydər Əliyevin Azərbaycan multikulturalizmini siyasi müstəviyə çıxarması haqqında biliklərə yiyələnmək, multikulturalizmin Azərbaycan modelinin mahiyyətini, xüsusiyyətlərini və ölkəmizdə həyata keçirilən multikulturalizm siyasətinin əsas prinsiplərini və istiqamətlərini dərindən mənimsəmək və müasir dövrdə suveren Azərbaycan dövlətinin multikulturalizm kimi mədəni bir siyasəti uğurla həyata keçirməsi ilə əlaqədar əldə olunmuş nailiyyətləri təbliğ etməkdən ibarətdir.




Azərbaycanda və dünyada Azərbaycan multikulturalizmi siyasətinin təbliği və həyata keçirilməsi ilə, həm xüsusi yaradılmış təşkilatlar, həm də Azərbaycan Respublikasının Ali Təhsil Sistemi məşğul olur. 28 fevral 2014-cü il tarixli prezident fərmanına əsasən Prezident Aparatı yanında millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri xidməti (ing. *The state adviser on intercultural, multiculturalism and religious affairs at the Presidential Administration*) təşkil olunmuşdur. Sözügedən təşkilatın tam rəhbərliyi altında multikulturalizm ideyaları ölkəmizdə və onun sərhədlərindən kənarda uğurla təbliğ olunmuşdur 2017-ci ilin 1 iyun tarixindən bəri Azərbaycan Respublikasının Prezident

Administrasiyasında baş vermiş dəyişikliklərlə əlaqədar, “Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri xidmətinin” əsas bazasında Prezidentin millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər üzrə köməkçisi-şöbə müdiri vəzifəsi yaradılmışdır). 2014-cü il may ayının 7-də Bilik Fondu (ing. *Knowledge Foundation*) və may ayının 15-i tarixdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (ing. *Baku İnternational Center of Multiculturalism-BİCM*) təsis olunub. Bu gün bu təşkilatlar ölkəmizdə həyata keçirilən Multikulturalizm siyasətinin uğurlu şəkildə reallaşdırılmasında müstəsna xidmətlər göstərirlər. Bakı BMM-nin rəhbərliyi altında hər il təşkil olunan yay və qış məktəblərində xarici ölkə universitetlərindən gələn tələbələr və müəllimlər Azərbaycan reallıqlarını öz gözləri ilə görür və ölkəmizdə mövcud olan multikultural və tolerant mühitin xalqımızın əsl həyat tərzi olması faktına valeh olurlar.

Azərbaycanda multikultural dəyərlərin təbliğatı, qorunması və inkişafı sahəsində ölkənin birinci xanımı, **Azərbaycan Respublikasının I vitse-prezidenti Mehriban Əliyeva**nın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da böyük xidmətləri vardır. **Heydər Əliyev Fondu 2004-cü ildə ümummilli lider Heydər Əliyev**in **xatirəsi münasibəti və onun zəngin əxlaqi-mənəvi irsinin öyrənilməsi məqsədi ilə yaradılmışdır.** Fondun genişmiqyaslı məqsədləri sırasına isə Azərbaycanda və xarici ölkələrdə mədəni, elmi və humanitar xarakterli layihələrin, o cümlədən **“Tolerantlıq ünvanı - Azərbaycan”** kimi çox möhtəşəm bir layihənin reallaşdırılması daxildir [6].

Multikulturalizm ideyalarının aktiv təbliği, tərənnüm edilməsi və



yayılması istiqamətində ayrı-ayrı qurumların fəaliyyətini də qeyd etmək vacibdir və bu baxımdan 2015-ci ilin 25 fevral tarixində Bakı Slavyan Universitetində (BSU) təşkil olunmuş və 2015-ci ilin 7 mart tarixindən tam aktiv fəaliyyətə başlamış ”Azərbaycan multikulturalizmi kafedrasının” xidmətlərini də özəl olaraq vurğulamaq lazımdır. Bu gün Azərbaycanda

fəaliyyət göstərən bir sıra digər universitetlərdə də (Azərbaycan Dövlət Aqrar Universiteti, Bakı Mühəndislik Universiteti və s.) "Azərbaycan multikulturalizmi" kafedraları fəaliyyət göstərir.

Multikulturalizm ideyalarının təbliğatını daha da effektli metodlarla reallaşdırmaq işində, yuxarıda adları çəkilən təşkilatların 2016-2017-ci illərdə müştərək hazırladıqları elmi ədəbiyyatların, yaxud digər köməkçi vəsaitlərin - "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları", "Azərbaycan multikulturalizminin elmi-fəlsəfi və publisistik qaynaqları", "Azərbaycan multikulturalizminin siyasi və hüquqi qaynaqları", nəhayət "Azərbaycan multikulturalizmi" kitablarının müstəsna əhəmiyyəti vardır.

Dövlət səviyyəsində aktiv tərzdə həyata keçirilən multikulturalizm siyasətinin təbliği, Azərbaycanı dünya miqyasında multimədəni dəyərləri çox yüksək təşəkküllü vasitələrlə qoruyan və inkişaf etdirən tolerantlıq nümunəsi, Azərbaycan xalqını isə bu mədəni siyasəti əsl həyat tərzinə çevirmiş unikal etnos, ekstratolerant fenomen kimi tanıtmışdır.

## 12.4. Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir (ing. *Multiculturalism as a life style of the Azerbaijani people*)



Latın dilində **"modus vivendi"** kimi tələfüz olunan **"həyat tərzi"** anlayışı ən konkret tarixi və sosial-iqtisadi münasibətlərin sistemində insanların fərdi və kollektiv həyat fəaliyyətlərinin üsul və formalarını ifadə edən fenomendir [7]. Özünün çox spesifik əlamətləri ilə o,insanın dünyagörüşünü, davranışını, ünsiyyətini və düşüncə tərzlərini təyin edir. Həyat tərzi insan varlığının həyatda möhkəm köklər salmış və gündəlik davranışlarda, maraqlarda, məslək və əqidələrdə ifadə olunan formasıdır.

İnsanların ictimai-siyasi və mədəni fəaliyyəti, vərdişlər, ənənələr, həmçinin gənc nəsillərin tərbiyəsi həyat tərzinin əsas parametrləri hesab olunur. Qeyd etmək lazımdır ki, həyat tərzi ayrıca götürülmüş insanın və konkret cəmiyyətin ruhani və fiziki sağlamlığını tam ifadə edən ən vacib amildir. Hər hansı həyat tərzi, bir qayda olaraq, dörd kateqoriya üzərində qurulur:

1. Həyat səviyyəsi (iqtisadi göstərici - insanların maddi və mənəvi tələbatlarının ödənilməsi həddini ifadə edir).

2. Həyat keyfiyyəti (sosial göstərici - maddi təminatdan daha

geniş mahiyyət kəsb edir və özündə əql, sağlamlıq, uzunömürlülük, ətraf mühit, qida, məişət rahatlığı, sosial əhatə, mədəni və ruhani tələbatların ödənilməsi, psixoloji komfort və s. kimi obyektiv və subyektiv faktorları birləşdirir).

3. Həyat üslubu (sosial-psixoloji göstərici - insanın konkret həyat dövrü üçün aktual olan müəyyən davranış modeli kimi təzahür edir).

4. Həyat nizamı, yaxud həyat ukladı (sosial-iqtisadi göstərici - insanların müəyyən ənənə və vərdişlərlə təyin olunan özəllikləri kimi ortaya çıxır).

Bu gün məhz multikulturalizm Azərbaycan xalqının həyat tərzinə çevrilmişdir. Ölkəmizdə, dünyada analoqu olmayan ən yüksək təşəkküllü tolerant mühit formalaşmışdır. Vahid Azərbaycan ailəsində ən müxtəlif milliyyətlərin mənsubları olan Azərbaycan vətəndaşları qarşılıqlı hörmət, mərhəmət və təbii yardım şəratində çox mehriban yaşayırlar. Azərbaycan dünyanın humanitar kataklizmlərin baş vermədiyi nadir ölkələrindəndir. Ölkədə humanitar məsələ isə özündə mədəniyyətlərin, sivilizasiyaların, konfessiyaların qarşılıqlı münasibətlərini və onlarla bağlı əsas vəzifə və perspektivləri əks etdirən aspektləri əhatə edir. Azərbaycanda tarixən bu sahəyə çox böyük diqqətin ayrılmasının məntiqi nəticəsi olaraq, bu gün ölkəmiz dünyanın humanitar əməkdaşlıq mərkəzinə çevrilmişdir.

Hələ qədim yunan tarixçilərindən başlayaraq Albaniyanı öyrənən alimlər və mütəxəssislər burada 26 müxtəlif dillərdə danışan və yüksək təşəkküllü sülh və əmin-amanlıq şəraitində yaşayan tayfalar haqqında geniş məlumat verirlər. Yunan tarixçisi və coğrafiyaşünası Strabon (yun. *Strabonis* - b.e.ə. 64 - b.e. 24) şəxsi müşahidələrinə əsaslanaraq, müxtəlif dillərdə danışan, müxtəlif etik-mədəni dəyərləri tərənnüm edən tayfa və xalqların "Alban məfkurəsi" ətrafında sıx birləşməsini vurğulayır [8]. Bu tarixi fakt Azərbaycanda bütün millətlərin və dinlərin nümayəndələrinin ən qədim dövrlərdən sülh, əminamanlıq, qardaşlıq şəraitində yaşamasını sübut edir.

Müxtəlif tarixi dönəmlərdə ölkəmizdə mövcud olan ictimai-siyasi münasibətlər sistemindən və siyasi hakimiyyətlərin xarakterindən asılı olmayaraq, Azərbaycan daim tolerantlıq məmləkəti olmuşdur. Bu gün müstəqil Azərbaycan öz siyasətini bu təməl üzərində qurur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin II Bakı Beynəlxalq Humanitar Forumunda (4-5 oktyabr 2012-ci il) qeyd etdiyi kimi, "Multikulturalizm - bizim həyat tərzimisdir. Baxmayaraq ki, bu müasir bir anlayışdır, lakin multikultural dəyərlər bizim xalqımıza həmişə məxsus olmuşdur. Əsrlər ərzində müxtəlif dinlərin və millətlərin nümayəndələri Azərbaycanda bir

ailə kimi, yüksək bəşəri prinsiplərə əsaslanaraq yaşamışlar".

Multikulturalizmin "Azərbaycan modeli" çox yüksək tolerantlıq nümayiş etdirərək, sübut edir ki, müxtəlif millətlərin, etnik azlıqların və dini konfessiyaların nümayəndələri öz kimliklərini qoruyub saxlamaqla, bir-birilərinə əsl ehtiramla yanaşmaqla, davamlı şəkildə inkişaf etməyə qadirdirlər. Bununla əlaqədar Azərbaycan multikulturalizmi artıq özünü müxtəliflikləri assimilyasiya etməyə yönəlmiş bir ideologiya kimi deyil, əsrlər ərzində formalaşmış gündəlik həyat tərzi kimi təsdiq etmişdir.

Bu gün dünya ictimaiyyəti bir həqiqəti mütləq şəkildə dərk edib: "bəşəriyyətin ən təhlükəsiz və davamlı inkişafının təmin olunmasında, tolerant mühitin bərqərar edilməsindən və multimədəni dəyərlərin qlobal siyasətin dönməz prinsipləri kimi tam təsdiq edilməsindən başqa bir yolu yoxdur". Bəşəriyyət nə qədər mövcud olacaqsa, multimədəni dəyərlər və prinsiplər də öz gücünü və təsir mexanizmlərini itirməyəcəkdir. Çünki müxtəliflik dünyaya, onun canlı və cansız aləminə əzəli və əbədi xas olan elementdir.

Təsadüfi deyildir ki, alimlər müasir dünyamızda baş verən və süni üsullarla gücləndirilən qlobal sosial-iqtisadi, ictimai-mədəni və əxlaqi-mənəvi prosesləri, kainatı eyni rəngli, birmənalı və təkxarakterli şəklə salacaq neqativ fenomen kimi qiymətləndirir və bundan ehtiyat edərək iddia edirlər ki, məhz bu tendensiya bəşər tarixinin sonunun başlanğıcı olacaqdır. Odur ki, mütərəqqi düşünən bəşəriyyət öz seçimini etmişdir: "Dünyada təsadüfi heç kim və heç nə yoxdur, bütün varlıqlar, dəyərlər və saysız-hesabsız müxtəliflikler vahid bir sistemin vacib elementləri, həyat zəncirinin birləşdirici həlqələridir. Onlardan biri olmayanda, bu zəncir qırılır və sistem iflasa uğrayır".

Müasir Azərbaycanda multikulturalizm ideyalarının və tolerantlığın əsl həyat tərzi kimi təzahür etməsi faktı öz əksini, ilk növbədə, ictimai münasibətlərdə tapır. "Çağdaş azərbaycanlı" etnik fenomeni hər hansı özgə bir nitqi təbii şəkildə qəbul edir və üzvi şəkildə öz tolerantlığının süzgəcindən keçirərək dəyərləndirir. Azərbaycan xalqına tarixən xas olan qonaqpərvərlik, genetik şəkildə gənc nəslin xarakterində və davranışında təzahür edir. Gənc azərbaycanlıya şovinizm, ksenofobiya, intolerantlıq kimi radikal önmühakimələr tamamilə yaddır. O, hər insana, ilk növbədə, insan olduğuna görə dəyər verən normativ şəxsiyyətdir və başqalarına etnik, dini və sosial əlamətlərinə görə, özgə kimi, ayrı-seçkilik prinsipləri mövqeyindən baxmır. Onun səhih şüuru və təhtəlşüuru millətçilik, etnik eqoizm ünsürlərindən tamamilə azaddır. Azərbaycanın bugünki rifahı, onun bütövlüyü və xoşbəxt gələcəyi qayğıkeş azərbaycanlı genotipini

düşündürən ən başlıca məsələdir. Pozitiv dünyagörüşünü tərənnüm edən postmodern şəxsiyyət kimi, o, öz uğurlu taleyini və xoşbəxt gələcəyini vahid, yenilməz və multimədəni Azərbaycanda görür. Bu ideya naminə bütün qüvvələrini səfərbər etməyə, keçən əsrlərin müqəddəs irsi olan multimədəni, tolerant dəyərləri möhkəm qorumağa hazırdır. Bu əqidə isə multikultural və tolerant dəyərlərin, daim və davamlı olaraq Azərbaycan cəmiyyətində həyat tərzi olacağından xəbər verir.

## 12.5. Multikulturalizm və gələcək. Multikulturalizmin Azərbaycan modeli gələcəyə hesablanmış təhlükəsizlik sistemidir (ing. *Multiculturalism and the future. Azerbaijani model of multiculturalism, a security system designed for the future*)




Varlığında mərhəmət xeyir və humanizm kimi yük daşıyan, gələcək həyatın, nəsillərin qayğısına qalmağı müqəddəs vəzifə hesab edən hər bir şəxsi, bötövlükdə isə mütərəqqi və analitik düşünən bəşəriyyəti daim gələcəyin tarixinin necə olacağı kimi əbədi və möhtəşəm sual narahat edir. Qeyd etmək lazımdır ki, "gələcək" fenomeninin əsl elmi tərifinin yaradılması ilə əlaqədar idraki müstəviyə çoxlu sayda müxtəlif ideyalar çıxa bilər. Lakin bir həqiqət danılmazdır - məzmunundan və xarakterindən əsla asılı olmyaraq, gələcək labüddür və bugünki bəşəriyyət, yaxud onun növbəti təkrar istehsalının məhsulları bu gələcəyi mütləq yaşayacaqlar. Odur ki, "gələcək faktoru" insanın fərdi taleyi, həmçinin sosiumun taleyi ilə bağlı ən vacib məfhum kimi təzahür edir. Gələcək - zaman xəttinin (birölçülü zaman) hipotetik hissəsidir, hələ baş verməmiş, lakin baş verəcəyi mütləq olan çoxlu sayda hadisələrin ehtimal edilən bütöv kompleksidir. O, məkan-zaman kontinuumunda (lat. *kontinuum* - davamlı, və ya bütöv) mərkəzi yer tutur. Fəlsəfədə davamlı polemika obyekti olan məsələlərdən biri də, həmişə "gələcək" anlayışı ilə bağlı olmuş və bu məsələ heç bir vaxt öz daimi aktuallığını itirməmişdir. İndeterminizm (lat. *in* - inkar bildirən sözönü, *terminare* - təyin etmək - hadisələr arasında səbəb əlaqələrinin obyektiv olmasını inkar edən fəlsəfi baxış) nəzəriyyəsinə görə, gələcəyi əvvəlcədən təyin etmək əsla mümkün deyil və insanlar onu özləri yaratmağa qadirdirlər [9]. Determinizm (lat. *determinare* - məhdudlaşdırmaq, sərhədlərini təyin etmək - bütün hadisə və proseslərin ciddi qarşılıqlı əlaqəsi və qarşılıqlı təyinatı haqqında təlim

və ümumi səbəblilik haqqında doktrina) adlanan digər nəzəriyyəyə görə, gələcəyin əsl ssenarisi əvvəlcədən yazılmışdır və onu insan fəaliyyətinin gücü sayəsində dəyişmək heç cür mümkün deyil [10]. Zamanın “dövri modelinə” görə isə keçmişdə baş verən bütün hadisələrin kompleksi yeni obrazlarla daim təkrar olunur (tarixin təkrar təzahürü). Dini təlimlərdə də gələcəyin əvvəlcədən tanrı tərəfindən dəqiq təyin olunması kimi “qədər doktrinası” üstünlük təşkil edir. Bununla belə, insanlar üçün gələcəyin tarixi o qədər vacib əlamətdir ki, onlar öz fərdi gələcəyi və ümumbəşəri gələcək haqqında proqnozlar əldə etməyə davamlı ehtiyac duyurlar. Bu proqnozlar isə, əsas etibarı ilə iki müxtəlif xarakterdə olur: 1. Davamlı tərəqqi vəd edən proqnozlar (pozitiv ssenari, yaxud xöşbəxt gələcək). 2. Tənəzzül və iflas vəd edən proqnozlar (neqativ ssenari, yaxud qiyamət xarakterli gələcək) [11].

Qlobalizasiya şəraitində ən müxtəlif etnik-milli mədəniyyətlərin və birliklərin taleyinin necə olacağı sualına multikulturalizm ətraflı cavablar verir. Bu baxımdan isə o, polietnik dövlətlərin hüdudlarında etnoslararası münasibətlərə yüksək səviyyədə liberal məzmun qatmağı nəzərdə tutur. Bu cür tip çoxmədəniyyətli ideya həm ölkədaxili münasibətlərdə, həm də xarici siyasət sistemində bir xalqa, bir dövlətə misli görünməmiş səmərə gətirməyə və millətin təhlükəsiz gələcəyini təmin etməyə hesablanmışdır. Belə yeni, düşünülmüş siyasət ictimai-siyasi, etnik-mədəni münasibətlər sistemində münaqişə potensialının sıfıra endirilməsi deməkdir.

Gələcəyi öyrənən alimlər müasir dövrün sosial-iqtisadi, ictimai-mədəni, etnik-siyasi əlamətlərinə, onların inkişaf templərinə əsaslanaraq, bəşəriyyətin gələcək tarixinin çeşidli proqnozlarını işləyib hazırlayırlar. Lakin bu proqnozlar hər zaman gələcəyi pozitiv konturlarda ifadə etmir. Beləki, bəşəriyyətin inkişafının sırf təbii-zəruri tarixi ssenarisindən başqa sivilizasiyaların taleyini müəyyən edən bəzi süni faktorlar da mövcuddur. Onlar tarixi prosesi qlobal siyasətin maraqlarına tabe etdirir, xalqları və millətləri alternativ ssenari üzrə yaşamağa məcbur edirlər. Bu ssenariyə görə, ümumdünya tarixinin yaxın və uzaq perspektivlərində etnosların yeri və rolu, onların tərtib etdiyi layihə üzrə deyil, qlobal siyasətin taktiki və strateji planlarına uyğun olaraq müəyyən edilir. Belə məlum olur ki, Yer kürəsində yaşayan heç bir xalq, millət və etnik qrup qlobal siyasətin dağıdıcı təsirindən sığortalanmamışdır.

Müasir dünyamızda fövqəladə hərbi-siyasi güc və qüdrət faktorları kimi superetnoslar və onların siyasi liderləri özlərinin həyati əhəmiyyət kəsb edən maraqlarını reallaşdırmaq üçün bütün mövcud iqtisadi, siyasi və hərbi üsullardan və vasitələrdən istifadə edirlər. Qlobal siyasətin əsrlər

ərzində "uğurla sınaqdan çıxardığı" əsas taktiki və strateji vasitələrdən ən effektli olanı isə mövcud separatizm ocaqlarını üzdəniraq "azadlıq və demokrtaiyaya dəstək" şüarı altında "alovlandırmaq", hərbi, geosiyasi və iqtisadi maraqların əsas obyekti olan bir regionda, yaxud ölkədə "narazı ünsürlərin üzdəniraq qiyam və üsyanlarını təşkil etmək", "finalda ədalət və sülhyaradan hakim kimi, necə deyərlər, əsas hadisə yerinə gəlmək və öz iradəsini tam bərqərar etməkdən" ibarətdir. Qlobal siyasət sözügedən ssenarini zəngin təbii sərvətlərin və çoxlu sayda etnik müxtəlifliklərin konsentrasiya olunduğu polietnik məkanlarda daha uğurla həyata keçirir. Belə "asikar məkanlarda qlobal siyasətin sözünə baxmayan subyektləri zərərsizləşdirmək üçün", dini heysiyyatı, eləcə də etnik və milli qüruru tapdalanmış qiyamçı subyektlər "himayə altına alınır" və onların hiddət şəklində təzahür edən xüsusi canfəşanlığı sayəsində "dünya ssenarisində improvizasiya və korreksiya etməyə cəhd edən aktorlar sıradan çıxarılır". "Müsbət qəhrəmanlar üçün heç vaxt "*happy ending*"lə bitməyən qlobal ssenaridə "günahsız qurbanlar" personajı olmamaq üçün effektli vasitə - yüksək səviyyədə balanslaşdırılmış siyasət həyata keçirmək və sosiumda etnik, dini, milli və sosial zəmində narazı subyektlərin sayını minimuma endirməkdir. Bu siyasətin uğurlu təşkili və reallaşdırılması isə alternativi olmayan təhlükəsizlik sistemi kimi özünü təsdiq etmiş multikulturalizm strategiyası sayəsində mümkündür. Bu strategiya müasir qlobal siyasətin qovğalarından tam şəkildə qurtuluş aktı olmasa da, vətəndaş müharibəsi təhlükəsini tamamilə aradan qaldıra bilir. "Beşinci kolon" (ispan. *quinta columna* - daxili rəqib, düşmən, milli maraqları şəxsi və siyasi maraqlara qurban verən qrup, xəyanət yolu seçmiş gizli siyasi və hərbi güc) adlanan üzdəniraq dağıdıcı siyasi faktoru tam zərərsizləşdirir, dinindən, dilindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün ölkə vətəndaşlarını vahid məfkurə ətrafında birləşdirir, onların bütün real və potensial imkanlarını düşmənə qarşı səfərbər edir.

Müasir dövrdə bəşəriyyətin məhz multikulturalizm kimi mütərəqqi bir ideyaya müraciət etməsini, son dövrlərdə qlobal miqyasda baş verən sosial-iqtisadi, ictimai-mədəni, əxlaqi-mənəvi xarakterə malik proseslərə ictimai elmlərin çox ciddi reaksiyası və cəmiyyətdə mövcud olan ideoloji vakuumun aradan qaldırılması zərurəti kimi izah etmək olar. Bununla əlaqədar multikulturalizmi postmodern kontekstdə çox yüksək təşəkküllü diskret (lat. *discretus* - arası kəsilən - davamlılığa əks olan, dəyişən halət) cəmiyyətin yenidən təşkili strategiyası kimi qiymətləndirmək lazımdır.

Multikulturalizm müasir Avropada dalana dirənmiş strategiya kimi qiymətləndirilir. Azərbaycan multikulturalizmi isə real sosial-mədəni və

etnik-konfessional məkanda postmodern dəyərlər sisteminin eksplikasiya (lat.*explicatio* -izah etmə və ya genişləndirmə - bu və ya digər predmetin, hadisənin, yaxud prosesin mahiyyətinin aşkara çıxarılmasından ibarət olan tədqiqat mərhələsi) olunması kimi təzahür edən fenomendir. Bu zaman onun dərin tarixi-fəlsəfi əsaslara və qədim mədəni geneologiyaya malik olması məlum olur.

Azərbaycan multikulturalizminin və onunla bağlı həyata keçirilən dövlət siyasətinin mahiyyəti və tənzimləyici gücü ondan ibarətdir ki, o, hansısa süni tədbirlərə əsaslanmır və bütün fəaliyyətini Azərbaycana üzvi şəkildə xas olan əsl tolerant və multimədəni təbiət üzərində qurur. Məhz Azərbaycan multikulturalizminin bu xarakteri ona çoxəsirlik tarixi olan multimədəni məkanda təhlükəsiz və tam zəmanət altına alınmış gələcək qurmağa real imkan verir. Beləliklə, Azərbaycan multikulturalizmi kimi təhlükəsiz gələcəyə hesablanmış mədəni siyasətdən Azərbaycanı təmsil edən müasir və tolerant cəmiyyətin ruhani strukturunu dəyişdirmək deyil, onun intellektual səviyyəsini daha da inkişaf etdirmək tələb olunur.

### *İstinadlar*


1. *Всемирная история, т. 3. Москва, 1957. с. 138-139*
2. *Swietoshowski Tadeush, Brian C. Collins. Historical dictionary of Azerbaijan. USA: Scarecrow Press, 1999. p. 12.*
3. *Дингельштедт Н. Заквказские сектанты. Первые прыгуны в Закавказье. Спб. 1885. С. 1-45*
4. *Azərbaycan Respublikasının Konstitusiyası. 21 maddə. Bənd I- II. S. 6-7*
5. *Сен А.К. Развитие как свобода. Москва, Новое издательство, 2004, с. 432*
6. *Heydər Əliyev Fondunun rəsmi səhifəsi (azərbaycan, ingilis və rus dillərində.). heydar-aliyev-foundation.org*
7. *Angus Stevenson (19 avqust 210) Oxford Dictionary of English. OUP Oxford. Pp. 1139*
8. *Страбон. География. Книга XI . 4, 1*
9. *Лебедев С.А., Кудрявцев И.К. Детерминизм и индетерминизм в развитии естествознания. Вестник Московского университета. Серия 7. Философия. 2005. № 6. С. 3-20*
10. *Орланов Г.Б. Идея детерминизма: новые исторические тендеции развития. Детерминизм и современная наука. Воронеж,1987.С. 9-23*
11. *Царегородцев И.А. Проблема предсказания и изменения будущего. XIII Всероссийская конф. студентов, аспирантов и молодых ученых (20-24 апреля 2009 г.). Т. 5. Философия. Социальные науки. Культурология. Томск, 2009. С. 130-132*

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


*1. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (15 may 2014-cü il)*

*2. I Bakı Beynəlxalq Humanitar Forumun rəsmi açılış mərasimində İlham Əliyevin çıxışı*

*3. Cəfərov N. Azərbaycanşünaslığın əsasları. Bakı: Pedaqogika, 2005*

*4. Heydər Əliyev. "Müstəqillik yolu". Seçilmiş fikirlər. Bakı, 1997*

*5. Али-заде А.А. Тасаввуф: Исламский энциклопедический словарь.- Москва, Ансар, 2007*

*6. Алаев Л.Б. Средневековая Индия. Алетейя 2003. («Востоковедение: учебные пособия и материалы»)*

*7. Веджвуд С.В. Тридцатилетняя война. Москва: АСТ, 2013*

*8. Еремеев Д.Е., Мейер М.С. История Турции в средние века: Уч. пособие. Москва, Изд-во МГУ, 1992*

*9. Куропятник А.И. Мультикультурализм. Проаблемы социальной стабильности полиэтничных обществ. СПб., Москва, 2000*

*10. Рикуперати Джузеппе. Человек Просвещения. Мир Просвещения. Исторический словарь. Москва, 2003*

*11. Azərbaycan multikulturalizmi. Ali məktəblər üçün dərslik. Bakı, BBMM, 2017.*

*12. Суфизм. Смирнов А.В. Новая философская энциклопедия : в 4 т. пред.науч.-ред. Совета В.С. Стёпин. 2-е изд., испр. доп. Москва, Мысль, 2010*

*13. Хоркхаймер М., Адорно Т. В. Понятие просвещения. Хоркхаймер М., Адорно Т. В. Диалектика просвещения. Философские фрагменты. М:, СПб., 1997*

*14. Эдикт Нантский.Энциклопедический словарь Брокгауза и Ефрона : в 86 т.(82 т. и 4 доп.). СПб., см 1890-1907*

*15. Tusi Xacə Nəsirəddin. Əxlaqi-Nasiri. Bakı, "Lider nəşriyyat", 2005*

*16. Асли и Керем. Большая советская энциклопедия: [в 30 т.] гл. ред. А.М. Прохоров. 3-е изд. Москва, Советская энциклопедия, 1969-1978*

*17. Дадашзаде А. Азербайджанская литература. История всемирной литературы в девяти томах. Москва, Наука, 1987. Т. IV*

*18. Джафаров Джафар. Азербайджанский театр. Под редакцией А. Анастасьева. История советского драматического театра: Баку, Наука, 1966. Т. 2*

*19. Джавид Гусейн. Драматические произведения. Составитель Туран Джавид (азерб.) русск.,под ред. проф. Музаффар Шукюр (азерб.) русск. Баку: Азербайджанское государственное издательство, 1975. (азерб.)*

*20. Джавид Г. Произведения. Составитель Туран Джавид, под ред. проф. Акрама Джафара. Баку: Язычы, 1982. Т. 2. 394 с. (азерб.)*

*21. Мамед Ариф. История Азербайджанской литературы. Баку: Элм, 1971*

*22. Тахмасиб М. Проблема народности азербайджанских дастанов и*

*современное состояние их исследования. Под ред. И.С. Брагинского. Вопросы изучения эпоса народов СССР: Москва, Издательство Академии наук СССР, 1958. Т. 1*

23. *Эльчин. Время и слово. Литературный Азербайджан. Баку,2003.*
24. *Эльчин. Махмуд и Мариам. Баку, Гянджлик, 1985*
25. *Бенхабиб С. Притязания культуры. Равенство и разнообразие в глобальную эру. Москва, Логос, 2003*
26. *Головкина О.В. Канадский мультикультурализм как главная основа национальной идентичности Канады. Волгаград, 2004*
27. *Зазнаев О.И. Канадская национальная идентичность: Проблемы формирования. Казань: Ученые записки Казанского университета, 2012*
28. *Некрасов С.И., Некрасова Н.А., Платошина В.В. Американский мультикультурализм. Издательство: Академия Естествознания. М:, 2011*
29. *Старовойтов Д.А. Канадский мультикультурализм. Главный опыт социализации индонезийских иммигрантов. Москва, 2014*
30. *Терборн Г. Мультикультурные общества. Москва, 2001*
31. *Чандран Кукатас. «Теоретические основы мультикультурализма». Москва, 2007*
32. *Abbasbəyli A. Nəcəfov E. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Bakı, 2005*
33. *Həsənov Əli. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005*
34. *Mehdiyev Ramiz Ənvər o. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı, 2008*
35. *Mehdiyev R.Ə. Azərbaycan: Qloballaşma dövrünün tələbləri, Bakı, 2012*
36. *Гринин Л.Е. Глобализация и национальный суверенитет. История и современность. Москва, 2005*
37. *Келле В.Ж. Процессы глобализации и динамика культуры // Знание. Понимание. Умение. Москва, 2005*
38. *Колин К.К. Неоглобализм и новая культура: новые угрозы для национальной безопасности (окончание). Знание. Понимание. Умение. М:, 2005*
39. *Кузовков Ю.В. Глобализация и спираль истории. Москва, 2010*
40. *Луков Валентин А. Воспитание как ответ на вызовы глобализации (начало). Знание. Понимание. Умение. М:, 2006*
41. *Тишков В.А. Политика мультикультурализма: Теория и практика, Москва, 2002*
42. *Тлостанова М.В. Судьба университета в эпоху глобализации. Знание. Понимание. Умение. Москва, 2005*
43. *Низамова Лилия Равильевна. Российские и западные трактовки мультикультурализма. Казань, 2009*
44. *Кирабаев Н.С. Культурная идентичность, культурный плюрализм и глобализация в современном философском дискурсе. Культурная идентичность и глобализация. Доклады и выступления. 5-й Международный*

*симпозиум «Диалог цивилизаций: Восток -Запад», 27-28 апреля, 4-5 мая 2001 г. Под ред. Н.С. Кирабаева, А.В. Семушкина, Ю.М. Почты, С.А. Нижникова. М:, 2002*

*45. Делез Ж., Гваттари Ф. Ризома. Философия эпохи постмодерна: Сб. переводов и рефератов. Минск.: Красико-принт, 1996*

*46. Ницше Ф. Собрание сочинений в 2-х томах. Москва,Мысль. 1997*

*47. Макнилл Уильям. В погоне за мощью.Технология, вооруженная сила и общество в XI-XX веках =The Pursuit of Power: Technology, Armed Force and Society since AD 1000 (Chicago, 1982). Москва, Территория будущего, 2008*

*48. Култыгин В.П. Современные зарубежные социологические концепции: Учебник. Под ред. Т.Н. Юдиной. М:, Изд-во МГСУ «Союз». 2000*

*49. Ильин И.П. Постмодернизм от истоков до конца столетия: эволюция научного мифа. М:, Интрада, 1998*

*50. Habibul Haque Khondker, "Glocalization as Globalization: Evolution of a Sociological Concept," Bangladesh e-Journal of Sociology. Vol. 1. No.2.July, 2004*

*51. Mike Featherstone, Scott Lash, Roland Robertson. Global Modernities. SAGE, 1995-01-01. 306 с.*

*52. Бек Ульрих. Что такое глобализация? М:, Прогресс-Традиция,2001*

*53. Травина Е.М. Этнокультурные и конфессиональные конфликты в современном мире. СПб.: Изд-во С.-Петерб.ун-та, 2007*

*54. Jeffrey S. Brooks, Anthony H. Normore Educational Leadership and Globalization: Literacy for a Glocal Perspective (англ.). Educational Policy. 2010-01-01. Vol. 24, iss. 1*

*55. George Ritzer, Zeynep Atalay. Readings in Globalization: Key Concepts and Major Debates. John Wiley & Sons, 2010-03-01. 489 с.*

*56. Azərbaycan tarixi yeddi cilddə. İkinci cild (III-XIII ə. birinci rübü). Bakı, Elm, 1999*

*57. Əsgər Əhməd. XII-XV əsrlərdə Azərbaycanın mənəvi mədəniyyəti. Bakı, 2012*

*58. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, "Şərq-Qərb", 2007*

*59. Алексеев В.П., Першиц А.И. История первобытного общества: Учеб. для вузов по спец. «История». Москва: Высшая школа, 1990. 52 с.*

*60. Андерсон Б., Бауэр О., Хрох М. и др. Нации и национализм. Москва, Праксис, 2002*

*61. Балибар Э., Валлерстайн И. Раса, нация, класс. Двусмысленные идентичности. Москва, Логос-Альтера, Ecce Homo, 2003*

*62. Бромлей Ю.В. Очерки теории этноса. 3-е изд., испр. Москва, Книжный дом "Либроком", 2009*

*63. Гавров С.Н. Национальная культура и модернизация общества. М:, МГУКИ, 2003*

*64. Геллнер Э. Нации и национализм. Москва, Прогресс, 1991*

*65. Орлов А.С., Георгиева Н.Г., Георгиев В.А. Исторический словарь. 2-е изд. Москва, 2012*

*66. Национальность. Российская социологическая энциклопедия под общей редакцией академика РАН Г.В. Осипова, 1998*

*67. Философский энциклопедический словарь. Под общ. редакцией А.Б. Васильева. 2-е изд. Москва, Инфра-М, 2011. 576 с.*

*68. Buswell,Robert E. (2004), Encyclopedia of Buddhism, MacMillan Reference Books*

*69. Basham, Arthur L. The Origins and Development of Classical Hinduism. Edited and annotated by Kenneth G. Zysk. Oxford: Oxford University Press, 1989. xix, 159 p.*

*70. Flood, Gavin D. An Introduction to Hinduism. New York, NY: Cambridge University Press, 1996. xviii, 341 p.*

*71. Elman, Benjamin A. A Cultural History of Civil Examinations in Late Imperial China, 2000:10*

*72. Бойс Мэри. Зороастрийцы. Верования и обычаи (пер. с англ. яз.), 4 изд-е, испр. и доп. СПб. Москва, Азбука-классика, 2003.−352 с.*

*73. Marazban J. Giara: Global Directory of Zoroastrian Fire Temples, 2. Auflage, 2002, 240 p.*

*74. Gerardo Eastburn (2015-02-20). The Esoteric Codex: Zoroastrianism. Books.google.com. p. 1. Retrieved 2017-06-14*

*75. Burkitt, F. C. The Religion of the Manichees: Donnellan Lectures for 1924. Cambridge: Cambridge University Press, 1925. 146 p.*

*76. Lieu S.N.C. Manichaeism in Mesopotamia & the Roman East. Leiden, Boston: Brill, 1999. 325 p.*

*77. Иордан М.В., Кузеев Р.Г., Червонная С.М. Ислам в Евразии: Современные этические и эстетические концепции суннитского ислама, их трансформация в массовом сознании и современное выражение в искусстве мусульманских народов России. Москва, Прогресс-Традиция, 2001. 515 с.*

*78. Роль алевитов в социально-политической жизни Турции в XX в.: диссертация кандидата исторических наук: 07.00.03. Жигульская Дарья Владимировна; [Место защиты: Ин-т востоковедения РАН]. Москва, 2014.*

*79. Muhammed Seyfeddin Ibn Zulfikari Derviş Ali; Bektaşi İkrar Ayini, Kalan Publ. перев.: Mahir Ünsal Eriş, Анкара, 2007 (на турецком языке)*

*80. Uluçay M. Çağatay. Padişahların kadınları ve kızları. Türk Tarih Kurumu, 1985. 220 p.*

*81. Yermolenko, Galina I. Roxolana in European Literature, History and Cultur. Ashgate Publishing Ltd, 2013. 334 p.*

*82. Hurūfī; Fazlallah, Naimi.в кн.: Enzyklopaedie des Islam, Bd 2, Leiden-Lpz., 1927; Ritter H., Die Anfänge der Hurūfīsekte, "Orients", 1954*

*83. Couprie D.L. Heaven and Earth in Ancient Greek Cosmology: From Thales to Heraclides Ponticus. Oxford University Press, 2011*

*84. Лебедев А.В. Милетская философская школа. Новая философская энциклопедия :в 4т. пред. науч.-ред. совета В.С. Стёпин. 2-е изд., испр. и доп. Москва, Мысль, 2010*

*85. Гераклит. Фрагменты из жизни ранних греческих философов. Ч. 1.*

*Пер. А.В. Лебедева. Москва, Наука, 1989. № 22*

86. *Ахутин А.В. Античные начала философии. СПб.: Москва, Наука, 2010*

87. *Жмудь Л.Я. Пифагор и ранние пифагорейцы. Москва, 2012.*

88. *Леонтьев А.В. К вопросу об образе Пифагора в античной традиции VI-V веков до н. э. Мнемон.Исследования и публикации по истории античного мира. Под редакцией профессора Э. Д. Фролова. Выпуск 3. Санкт-Петербург, 2004*

89. *Лосев А.Ф. Жизненный и творческий путь Платона. Платон. Собрание сочинений. В 4 т. Т.1. Общ. ред. А.Ф. Лосева и др. Москва, Мысль, 1994*

90. *Лебедев А.В. «Аристотель». Новая философская энциклопедия: в 4 т. Ин-т философии РАН; Нац. обществ. - науч. фонд; Предс. научно-ред.совета В.С. Стёпин. - 2-е изд., испр. и допол. Москва, Мысль, 2010*

91. *Hans von Arnim (Hrsg.): "Stoicorum Veterum Fragmenta. 4 Bde. Teubner, Leipzig 1903-1905. Nachdruck Saur, Mьnchen 2004*

92. *Столяров А.А. Стоя и стоицизм. Москва, 1995. - 445 с.*

93. *Карташёв А.В. Вселенские соборы. Москва: «Эксмо», 2006. 672 с.*

94. *Status of Global Mission, 2013, in the Context of AD 1800–2025 (англ.). Gordon-Conwell Theological Seminary (2013)*

95. *Свенцицкая И.С. Раннее христианство:страницы истории. Москва, Политиздат, Москва, 1989*

96. *Свенцицкая И.С. Первые христиане и Римская империя. Москва, 2003*

97. *Свенцицкая И.С. Судьбы апостолов: мифы и реальность. Москва, Вече, 2006*

98. *Педагогика: педагогические теории, системы, технологии. С.А. Смирнов [и др.]; [под ред. С.А. Смирнова]. 4-е изд., испр. Москв, Academia, 2003. – 508 с.*

99. *Introducing Nicholas of Cusa, A Guide to a Renaissance Man. Edited by Christopher M. Bellitto, Thomas M. Izbicki, Gerald Christianson. Paulist Press, 2004. 480 с.*

100. *Verbum XIII. Принцип «совпадения противоположностей» в истории европейской мысли. Под. ред. О.Э. Душина, М.В. Семиколенных. СПб.: Нестор-История, 2011. 550 с.*

101. *История культуры стран Западной Европы в Эпоху Возрождения Под. ред. Л.М. Брагиной. Москва, Высшая школа, 2001*

102. *Тажуризина З.А. Философия Николая Кузанского. Под ред. В.В. Соколова. Изд. 2-е, стереотипное. Москва, Книжный дом «ЛИБРОКОМ», 2010. 152 с.*

103. *Malcolm Moore «Dante's infernal crimes forgiven», Daily Telegraph, June 17, 2008. Retrieved on June 18, 2008*

104. *Чекалов К.А. Монтень Мишель де. Большая Российская Энциклопедия. Том 21. Москва, 2013*

*105. Огурцов А.П. Философия науки в эпоху Просвещения. Москва,, 1993. 213 с.*

*106. Погребысский И.Б. Готфрид Лейбниц. Изд.2-е, перераб. доп. М:, Наука, 2004. 270 с.*

*107. Кант И. Критика практического разума. Перев. с нем. СПб. Москва, Наука, 1995. 528 с.*

*108. Нарский И.С. Иммануил Кант. (На обложке: Кант). Москва, Мысль, 1976. 208 с.*

*109. Ойзерман Т.И. Людвиг Фейербах о религии и путях челововеческой эмансипации. Москва, 1990. № 3*

*110. Стивен Фредерик Старр. Утраченное Просвещение: золотой век Центральной Азии от арабского завоевания до времен Тамерлана = S. Frederick Starr: "Lost Enlightenment: Central Asia's Golden Age from the Arab Conquest to Tamerlane". Альпина Паблишер, 2016. 574 р.*

*111. Гулыга А.В. Немецкая классическая философия. 2-е изд., испр. и доп. Москва, Рольф, 2001. 416 с.*

*112. Windscheid B. Zur Lehre des Code Napoleon von der Ungьltigkeit der Rechtsgeschдfte. Dьsseldorf, 1847. S. V*

*113. Аннерс Э. История европейского права. Пер. со швед.; Отв. ред. В.Н. Шенаев. Москва, 1994. 397 с.*

*114. Арисов Н.Н. Французский гражданский кодекс 1804 года (Кодекс Наполеона и его основные институты). Москва, 1972*

*115. Əliyev E. Azərbaycanda Zərdüştilik. Bakı, Çaşıoğlu, 2002*

*116. İmanov H., Əhədov A. Orta əsr islam şərqində fəlsəfi fikir. Bakı, 1998*

*117. Xəlilov S. Şərq və Qərb. Ümumbəşəri ideala doğru. Bakı, 2004*

*118. Бек Ульрих. Космополитическое мировоззрение. Москва, Центр исследований постиндустриального общества, 2008*

*119. Брамбо Роберт. Философы древнейшей Греции. Пер. с англ. Л.А. Игоревского. Москва, 2002*

*120. Брок П. «Отношение к ненасилию в пацифистских сектах в средние века и раннее новое время». «Ненасилие как мировоззрение и образ жизни», Москва, ИВИ РАН, 2000*

*121. Гусева Н.Р. Джайнизм. Москва, 1968*

*122. Индуизм. Джайнизм. Сикхизм. Под редакц. М.Ф Альбедиль и А.М. Дубянского. Москва, 1996*

*123. Поснов М.Э. История христианской церкви (до разделения Церквей -1054 г.)*

*124. Осипов А.И. Путь разума в поисках истины. Москва, Издание Сретенского монастыря, 2002*

*125. McClellan. Science and Technology in World History:An Introduction. Baltimore, Maryland: JHU Press, 2006*

*126. Зубов А.Б. История религии. Книга первая. Москва, МГИМО-Университет, 2006. 436 с.*

*127. Зубов А.Б. Лекции по истории религии. Москва, Альпина Нон-*

*фикшн, 2016. 202 p.*

*128. Armstrong K. A. History of God: The 4,000-Year Quest of Judaism, Christianity and Islam (1994)*

*129. Народы мира. Историко-этнографический справочник. М:, 1988*

*130. Энгельс Ф. Роль насилия в истории. К. Маркс и Ф. Энгельс. Соч. Изд. 2-е. Т. 21*

*131. Ленин В.И. О праве наций на самоопределение. Полн. собр. соч. Т. 25, Москва, Издательство Политической литературы, 1969*

*132. Хрисанфова Е.Н., Перевозчиков И.В. Антропология. Москва, 1999*

*133. Лебон Г. Психология народов и масс. СПб., Москва, 1995*

*134. Бердяев Н.А. Философия свободного духа. Москва, 1994*

*135. Бердяев Н.А. Философия неравенства: Письма к недругам по социальной философии. Русское зарубежье. Ленинград, 1990*

*136. Тишков В.А. Этничность. Новая философская энциклопедия. Ин-т философии РАН; Нац.обществ.-науч. фонд; Предс. научно-ред. совета В.С. Стёпин, заместители предс.: А.А. Гусейнов, Г.Ю. Семигин, секр. А.П. Огурцов.- 2-е изд., испр. и допол. Москва, Мысль, 2010*

*137. Барбашин М.Ю. Институты и этногенез: институциональное воспроизводство этнической идентичности в локальных сообществах. 2-е изд., расшир. и доп. Ростов-на-Дону: ИПО ПИ ЮФУ, 2013, 356 с.*

*138. Гумилёв Л.Н. Этнос как явление (Доклад на заседании Отделения этнографии 19 мая 1966 г.). Доклады Географического общества СССР, 1967. Вып. 3*

*139. Философский энциклопедический словарь. Под реда. А.Б. Васильева. 2-е изд. Москва, Инфра-Москва, 2011. 576 с.*

*140. Marazban J. Giara: Global Directory of Zoroastrian Fire Temples, 2. Auflage, 2002, 240 p.*

*141. John Day. Yahweh and the Gods and Goddesses of Canaan, Sheffield Academic Press, 2000. 282 с.*

*142. Шиффман Лоуренс. От текста к традиции: История иудаизма в эпоху Второго Храма и период Мишны и Талмуда. Пер. с англ. А.М. Сиверцева. Москва, Иерусалим: Мосты культуры: Гешарим, 2000. 276 с.*

*143. J. David Bleich. Divine Unity in Maimonides, the Tosafists and Me'iri (in Neoplatonism and Jewish Thought, ed. by L. Goodman, State University of New York Press, 1992)*

*144. Общечеловеческие ценности. Новейший философский словарь. Сост. А.А. Грицанов, В.М. Скакун. Минск, 1999. 896 с.*

*145. Фукуяма Ф. Наше постчеловеческое будущее. Последствия биотехнологической революции - Our Posthuman Future: Consequences of the Biotechnology Revolution /переводчик М.Б.Левин. М:: АСТ, Люкс, 2004. 352 с.*

*146. Алексеев И.Л., Коротаев А.В. Ислам. Религия. Религиоведение. Энциклопедический словарь. Под общей редакцией. А.П. Забияко, А.Н. Красникова. Москва, Академический проект, 2006. 1256 с.*

*147. Ализаде А.А. Исламский энциклопедический словарь Москва,*

*Ансар, 2007*

*148. Ислам.Абдусамедов А.И., Балтанов Р.Г., Ацамба Ф.М., Кириллина С.А. Ислам. Основы религиоведения. Под редакцией. И.Н. Яблокова. 4-е изд., перераб. и доп. Москва, Высшая школа, 2005. 508 с.*

*149. Heydər Əliyev. Dilimiz xalqımızın milli-mənəvi sərvətidir. Bakı, 1999*

*150. Quluzadə M. Azərbaycanda dövlət-din münasibətləri. Bakı, 2002*

*151. Qurbanov Ə. Beynəlxalq münasibətlərdə din amili, Bakı, 2000*

*152. Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər. Bakı, 2007*

*153. Hüseynov S. Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik, Bakı, 2012*

*154. Аллес Г. Религия. The Encyclopedia of Religion. Macmillan Reference, 2005*

*155. Васильев Л.С. История религий Востока.Москва, 2012*

*156. Иудаизм от А до Я. Сост. Н.Б. Антонов. Москва, АСТ: Восток-Запад, 2007*

*157. Лебедев А.П. История разделения церквей в IX, X и XI веках. СПб. Москва, 1999*

*158. Мананников И. «Политеизм», Католическая энциклопедия. Том 3, Москва, 2007*

*159. Мень Александр. В. История религии: В поисках Пути, Истины и Жизни. (в 7 томах). Москва, 1991-1992*

*160. Стыкалин Александр С. Центральная Европа в новое и новейшее время. Институт славяноведения РАН, 1998. 231 с.*

*161. Гавров С.Н. Национальная культура и дальнейшая модернизация общества. Москва, МГУКИ, 2003. 86 с.*

*162. Smith A.D. (англ.русск.) National identity (Ethnonationalism in Comparative Perspective). University of Nevada Press (англ.) русск., 1993*

*163. Huntington S.P. Who Are We: The Challenges to America's National Identity. Simon & Schuster, 2004*

*164. Драгунов Г.П. Швейцария: история и современность. М:, 1978*

*165. Кружков В., Марков О. 200 лет без войн. Швейцарский нейтралитет в новом веке. «Международная жизнь», № 8, Москва, 2002*

*166. Швейцер В.Я., Степанов А.И. Парадоксальная Швейцария. Государства Альпийского региона и страны Бенилюкс в меняющемся мире. Ред. Швейцер В.Я. Москва, Весь Мир, 2009*

*167. Цыганков П.А. Глава II. Международные отношения как особый род общественных отношений. Понятие и критерии международных отношений. Политическая социология международных отношений. Москва, Радикс, 1994*

*168. Цыганков П.А. Глава Пятая. Закономерности международных отношений. Содержание закономерностей международных отношений. Политическая социология международных отношений. Москва, Радикс, 1994*

*169. Куинси Райт. Некоторые размышления о войне и мире. Теория Международных отношений: Хрестоматия. Сост. П.А. Цыганков. Москва, Гардарики, 2003.- 400 с.*

*170. Тузовский И.Д. Светлое завтра? Антиутопия футурологии и футурология антиутопий. И.Д. Тузовский; Челяб. гос. акад. культуры и искусств. Челябинск, 2009. 312 с.*

*171. Бестужев-Лада И.В. Альтернативная цивилизация. М:, ВЛАДОС, 1998. 352 с.*

*172. Турчин А.В., Батин М.А. «Футурология: XXI век. Бессмертие или глобальная катастрофа?», Москва, Бином, 2013. 263 с.*

*173. Саади Ширази. Гюлистан. Перевод Алиева Р.М. М:, Восточная литература, 1959*

*174. Петровский А.В. Быть личностью. А.В.Петровский. Москва, Педагогика, 1990*

*175. Эриксон Э. Идентичность: юность и кризис: пер. с англ. Э. Эриксон. Москва, Флинта: МПСИ: Прогресс., 2006*

*176. Щедрина О.В. Возможности использования основных принципов мультикультурализма в практике поддержания необходимого правопорядка в полиэтнических городах: Автореф. дис. канд. социол. наук. Москва, 2005*

*177. Community cohesion: A report of the independent review team chaired by Ted Cantle. L., 2001.- 80 p.*

*178. Малахов В. Культурный плюрализм versus мультикультурализм. Малахов В. Скромное обаяние расизма и другие статьи. Москва, Дом интеллектуальной книги, 2001*

*179. Мультикультурализм и трансформация постсоветских обществ. Под редакцией В.С. Малахова и В.А. Тишкова. Москва, 2002*

*180. Abdullayev K.M. Ulu Öndər Azərbaycan multikulturalizminin siyasi banisi kimi. Azərbaycan qəzeti, 23.07.2014*

*181. Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (7 may 2014-cü il)*

*182. Birinci Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimində İlham Əliyevin çıxışı*

*183. Нарочницкая Екатерина А. Этнонациональные конфликты и их разрешение: политические теории и опыт Запада. Москва, 2000*

*184. Погорельская С.В. Германия и мультикультурализм. Актуал. пробл. Европы. ИНИОН РАН. Москва, 2009., № 4: Европа: кризис мультикультурализма? Погорельская С.В. Турецкая община в ФРГ: между интеграцией и исламом. Актуал. пробл. Европы. ИНИОН РАН. – Москва, 2009. № 4: Диаспоры в Европе: новая роль в обществе*

*185. Возьмитель А.А Образ жизни : Концепция, сущность, динамика : Автореф. дис. доктора социол. наук: 22.00.04. Ин-т социологии Рос. акад. наук. Москва, 2000*

*186. Azərbaycanın demoqrafik göstəriciləri. Bakı, 2014*

*187. Ağasıyev İ. Qafqazın alman koloniyaları. "Bakı Biznes Universiteti". Bakı, 2012*

*188. Azərbaycanın türkçülük və azərbaycançılıq problemləri. Bakı: Ay-ulduz, 1998, 378 s.*

*189. Baykara H. Azərbaycanın istiqlal mübarizəsi tarixi. Bakı, 1992*

*190. Cavadov Q., Hüseynov R. Udilər. Bakı, 1999*

*191. Süleymanlı M. Əhməd Ağaoğlunun "İslama görə və islamiyyətdə qadın" əsərinə elmi-tənqidi yanaşmalar. Bakı, 2008, 148 s.*

*192. Mövsümova L. Azərbaycan qadını uzaq keçmişdən indiyədək. Bakı, 2003, 374 s.*

*193. Zeynalova T.M. Azərbaycanda milli dövlət quruculuğu tarixindən (1920-30-cu illər), Bakı, 2004*

*194. Беккер М. Евреи Азербайджана: история и современность. Баку, Озан, 2000*

*195. Горские евреи. История, этнография, культура. Составление В.Дымшиса. Йерусалим. Москва. ДААТ. «Знание», 1999*

*196. Тойнби А.Д. Цивилизация перед судом истории: Сборник. Пер. с англ. Москва, Ройф. 2002*

*197. Ağaoğlu Əhməd. Seçilmiş əsərləri. Tərtib edənlər: V. Quliyev, Ə. Mirəhmədov. Bakı: Şərq-Qərb, 2007*

*198. Axundzadə M.F. Seçilmiş əsərləri. Üç cilddə. III cild. Tərtib edəni: N.Məmmədzadə. Bakı: Şərq-Qərb, 2005*

*199. Axundzadə Əbuturab. İslamın təfriqəsi səbəbləri. Bakı, Azərnəşr, 1993. Transliterasiya:N.Göyüşov, M.Babaşov, 103 s.*

*200. Əhədov A. Azərbaycanda din və dini təsisatlar. Bakı: Azərnəşr, 1991,*

*201. Hacıbəyov Ü. Seçilmiş əsərləri. İki cilddə. II cild. Tərtib edəni: A.Abbasov. Bakı: Şərq-Qərb, 2005, 456 s.*

*202. Hadi M. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005,464 s.*

*203. Cavid H. Əsərləri. Beş cilddə. V cild. Tərtib edəni: T.Cavid. Bakı: Lider, 2005, 288 s.*

*204. Hüseynov H. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir tarixindən. Bakı: Şərq-Qərb, 2007*

*205. Məhəmməd Füzuli. Mətlə-ül etiqad. Əsərləri. Beşinci cild. Bakı, Elm nəşriyyatı, 1985*

*206. Köçərli Firiddun. Azərbaycan ədəbiyyatı. İki cilddə. II cild. Bakı: "Avrasiya press", 2005. 464 s.*

*207. Məmmədli H. Qafqazda islam və şeyxülislamlar. Bakı: "MBM", 2005. 179 s.*

*208. Mxitar Qoş. Alban salnaməsi. Tərcümə və şərhlər. Z.M. Bünyadov, Bakı: "Avrasiya press", 2006*

*209. Nəsirəddin Tyci."Əxlaqi Nasiri". Tərcümə: Rəhim Sultanov, Bakı, Elm, 1889*

*210. Nizami Gəncəvi. "Xosrov və Şirin". Tərcümə: R.Rza, Bakı,"Yazıçı", 1983*

*211. Nizami Gəncəvi. Xəmsə.“Sirlər xəzinəsi”.Tərcümə: Xəlil Yusifli. Bakı, “Adiloğlu”, 2011*

*212. Страбон. География в 17 книгах. Перевод, статьи и комментарии Г.А. Стратановского. Ленинград: Наука, 1964*

*213. Трувер К.В. Очерки по истории и культуре Кавказкой Албании IV в. до н.э. VII в. н.э. Москва-Ленинград: Издательство АН СССР, 1959*

*214. Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyası. I cild. Baş red. Y. Mahmudov, Bakı, Şərq-Qərb, 2004*

*215. Quluzadə M. Azərbaycanda dövlət din münasibətləri (İslam dininin timsalında 1920-2000-ci illər). Bakı, Açıq dünya, 2002*

*216. “Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları”. Bakı, “Mütərcim”, 2016. 287 s.*

*217. Курбан Саид. Али и Нино. Издательство: Ад Маргинем, Москва, 2011. 336 с.*

*218. Федотова В.Г. Меняющийся мир и глобализация (окончание). Знание. Понимание. Умение. Москва, 2005*

*219. Гогиберидзе Г.М. Исламский толковый словарь. Ростов на-Дону: Феникс, 2009. 266 с.*

*220. Грималь П. Луций Анней Сенека, или Совесть империи. Пер. с фр. (ЖЗЛ). Москва, Молодая гвардия, 2003*

**AKİF  NOVRUZ  OĞLU HACIYEV**
**ESMİRA HİLAL QIZI CƏFƏROVA**
**İLHAM MABUD OĞLU MƏMMƏDOV**

# MULTİKULTURALİZMƏ  GİRİŞ

**(Dərs vəsaiti)**

*Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində*
*çap olunmuşdur*

Çapa imzalanıb: 02.02.2018.
Format 70x100 1/16. Qarnitur: Times.
Həcmi: 23,25 ç.v. Tiraj: 200. Sifariş № 02

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
AZ 1014, Bakı, Rəsul Rza, 125

Tel/Faks: 596 21 44
e-mail: mutarjim@mail